HÜSEYN QARAXAN OĞLU MƏMMƏDOV

ARİF İSLAM OĞLU TAĞIYEV

# ANTROPOLOGİYA

(DƏRSLİK)

BAKI 2014

**ELMİ REDAKTOR:**
Fəlsəfə elmləri doktoru, professor **Əziz Məmmədov**

**RƏYÇİLƏR:**
Fəlsəfə elmləri doktoru, professor **Fərman İsmayılov**
Fəlsəfə elmləri üzrə fəlsəfə doktoru, dosent **Nərgiz Məcidova**

**Hüseyn Məmmədov**
**Arif Tağıyev**
**"Antropologiya" (dərslik)**

Dərslikdə çağdaş elmin mühüm və müxtəlif istiqamətlərini özündə birləşdirən bir sahənin – antropologiyanın ən aktual məsələləri izah edilir,həmçinin bu elmin tarixi, predmeti və metodoloji məsələləri, müzakirəsi indi də davam edən antropososiogenez, yaxud insanın biososial təkamülü, cəmiyyətin sosial və siyasi inkişafının ilkin mərhələləri, eləcə də cəmiyyət tarixinin dövrləşdirilməsinin prinsip və meyarları və s. problemlər öz şərhini tapır.

Oxucu bu dərslikdə antropoloji tədqiqatın çox müxtəlif – sosiomədəni antropologiya, psixoloji antropologiya, vizual, kibernetik antropologiya və başqa sahələri ilə tanış olacaq.

Azərbaycan cəmiyyətinə və təhsil sisteminə yenicə ayaq açmış antropologiya üzrə bu ilk sanballı dərsliyin ali məktəb tələbələri, magistrlar, insan və özünüdərk problemi ilə maraqlanan hər kəs üçün faydalı olacağına inanırıq.

*© Hüseyn Məmmədov, 2014*
*© Arif Tağıyev, 2014*

## ÖN SÖZ

Antropologiya insanların sosial və bioloji özəlliklərini, tarixi zaman çərçivəsində onların dəyişilməsini öyrənən elmdir. Başqa sözlə, antropologiya bəşəriyyətin və bəşər mədəniyyətinin tarixini tədqiq edir. Antropologiyanı insan irqlərinin mədəni müxtəlifliyi, yalnız zamanca deyil, məkanca da maraqlandırır. Bu maraq antropologiyanı etnoqrafiyaya yaxınlaşdırır. Ancaq heç bir elm antropologiya qədər bizi keçmişimizin ən sirli, dərk edilməmiş və ən qədim qatına – bioloji və sosiomədəninin, təbiətin verdiyi ilə insanların yaratdığının vəhdətinə yaxınlaşdırmır.

Antropologiya XX əsrin başlanğıcında yaranıb və öz yaranışına görə sosiologiyaya borcludur. Belə ki, sosiologiya həmin dövrdə bütün dünya alimlərini və hökumətlərini narahat etmiş və etməkdə davam edən cinayətkarlığın artması, ailə və kəbin təsisatının böhranı, münaqişələrin səviyyəsi və s. məsələlərlə məşğul olurdu. Amma miqyası geniş olan bütün bu məsələlərin həllinə sosiologiyanın nə vaxtı, nə də imkanı çatmırdı. Bu şəraitdə antropologiya müstəqil bilik sahəsi kimi ayrılmış, planetin müxtəlif guşələrində aborigenlərlə iş apararaq özünün həm akademik varlığını təsdiq etmiş, həm də dünya ictimaiyyətinin diqqətini yerli xalqların (aborigenlərin) taleyinə cəlb edərək onların siyasi reytinqini və əhəmiyyətini yüksəltmiş, beləliklə də özündə nəzəri və praktiki istiqamətləri birləşdirmişdir.

Antropologiyanın mühüm və geniş tədqiqat sahəsinə malik olan bir istiqaməti də sosial antropologiya adlanır. Bu elmin tədqiqat istiqamətinə aşağıdakı mühüm mövzular və anlayışlar daxil edilir: sosial antropologiyanın obyekti və predmeti; humanitar biliklər, insan və mədəniyyət haqqında elmlər sistemində sosiomədəni antropologiyanın yeri; insan dünyası; gündəlik həyat, təsərrüfat quruluşu, şəxslərarası mühit, adi şüur, mentalitet; insan davranışının mədəni müstəvisi; sosiomədəni adaptasiyanın sahələri və faktorları; ənənəvi cəmiyyətlərin mədəniyyəti əzəli tədqiqat predmeti kimi; mədəniyyət hadisələrinin şərhi prinsipləri; mədəniyyət və sosial struktur; qohumluq təsisatı; bioloji və sosialın qarşılıqlı əlaqəsi; mədəniyyət və siyasət; siyasi antropologiya əlavə fənn kimi; mədəniyyət və şəxsiyyət; psixoloji antropologiyanın əsas cərəyanları; iqtisadi antropologiya əlavə fənn kimi; mədəniyyət və təbii mühit;

mədəniyyətlərin qarşılıqlı təsiri; sosial antropologiyanın metodları; antropologizm və dünyagörüşü; müasir antropologiyanın praktiki tətbiqi.

Dövlət təhsil standartlarına daxil edilmiş bu məsələlər oxucuya təqdim edilən bu dərslikdə lazımi və mümkün olduğu dərəcədə öz şərhini tapır.

Kursun özülündə iki başlıca mövzu – qədim zamanlardan başlayaraq insanın və cəmiyyətin mənşəyi ilə bağlı antropososiogenez və qəbilə-tayfa quruluşunu, başçılığı, ovçular və yığıcılar cəmiyyətini, həmçinin əkinçiliyin və erkən dövlətlərin yaranması ilə nəticələnən neolit inqilabını özündə birləşdirən ənənəvi cəmiyyət mövzuları – durur.

Müasir insanın, qlobal cəmiyyətin və texnogen katastrofların yaranmasına gətirib çıxarmış antropososiogenez, adından da göründüyü kimi, iki özündə prosesi antropogenezi və sosiogenezi birləşdirir. Antropogenez insanın fiziki (bioloji) tipinin tarixi təkamüldə formalaşması, onun əmək fəaliyyətinin, nitqinin, həmçinin cəmiyyətin erkən inkişafı prosesidir.

Uzun sürən tarixi antropogenez prosesini izah edərkən biz onun qədər mürəkkəb və ziddiyyətli proses olan sosiogenezə də nəzər salırıq. Tarixi zaman şkalasında bir qədər az yer tutan sosiogenezə aşağıdakı proseslər və fazalar daxildir: sosial heyvanlar, insanaqədərki *şüurun* formalaşması, ailənin, qəbilənin, ibtidai icmanın və başçılığın formalaşması. Mütəxəssislər bu fikirdədirlər ki, tarixdə bəşər cəmiyyətinin təkamülü üçün sərf olunan zamanın çox hissəsi təsvir edilməmişdir, çünki bəşəriyyətin təkamülü üçün sərf olunan vaxt bəşəriyyətin tarixəqədərki dövrünə aiddir. Tarix müxtəlif hadisələr haqqında yazılı təhlillərin toplusudur. Lakin ictimai formaların kökü sosial heyvanlar aləmindədir.

Bizə oxşar çox uzaq primatların kiçik qrupları Yer kürəsində qida əldə etmək üçün dolaşırdılar. Özlərindən güclü yırtıcılardan qorunmaq üçün onlarla ölüm-qalım mübarizəsinə girir, saysız-hesabsız travma və xəstəliklər üzündən gənc yaşlarında ölür, ibtidai sığınacaqlar quraraq sərt iqlimdən qorunur, od əldə edərək onu qoruyub saxlayır, ovladıqları heyvan dəriləri ilə bədənlərini örtərək çoxalıb artır, dil vasitəsilə ünsiyyətdə olub icmalarda birləşirdilər. Bir sözlə, planetin o zamankı məskunlarının yuxusuna belə girməyən



işlər görmüş, təbiətə qarşı durmuş, üzərlərində görünməmiş eksperiment aparmışlar. Bu eksperimentlər bəşəriyyətin planet üçün də təhlükəsiz olmayan zəfəri ilə bitmişdir.

Bütün bunlar antropologiyanın predmeti və bizim diqqət mərkəzimizdə olmalıdır. Heç olmasa ona görə ki, bu sirli ikiayaqlı varlığın manera və adətlərini dərindən öyrənib onu özünün planetin ekoloji katastrof həddinə çatmış ambisiyasından xilas etmək mümkün olsun.

Antropologiyanın qollarından biri olan fiziki (bioloji) antropologiya arxeoloji tapıntılar üzrə insan skeletinin təkamülünü və insan beyninin dəyişilməsini təhlil edir. Başqa bir qolu bizim nitqimizin linqvistik keçmişini izləyir, üçüncüsü psixikamızın təkamülünü, dördüncü qolu sosial təşkili, beşinci qolu adətlərin, mərasimlərin və mədəni normaların yaranmasını öyrənir. Müasir antropologiyanın tədqiqat istiqamətləri bunlarla bitmir.

Antropoloqlar birinci növbədə kütləvi məhsullar istehsalı texnologiyalarının olmadığı, insanın öz ruzusunu ən ibtidai əmək alətləri ilə əldə etdiyi, ilk sosial münasibətlər və qohumluq əlaqələrinin formalaşdırdığı uzaq keçmişdəki həyatın sosial strategiyasını öyrənir. Yüz min, on min illər öncə Homo cinsinin tarixi yenicə başlayırdı və bu tarixin ilk səhifələrini yazmaq lazım gəlirdi. O zaman hələ yazı, şəhərlər və sosial siniflər yox idi, ancaq insanlar öz varlıqlarının sosial əsaslarını – lokal qruplar (antropoloqlar bu qrupları ovçular və yığıcılar birliyi adlandırırlar), mobil həyat tərzi, mədəniyyətin rüşeymlərini yarada və əmək alətləri hazırlamaq bacarığı əldə edə bilmişdilər.

Lokal qruplar, onların cəmiyyətləri əsasən özünəməxsus tipi və mədəni əlaqələri olan qapalı sistemlər idi. Antropoloqlar yalnız belə təcrid olunmuş sosial törəmələrin özgürlüyünü deyil, həm də onlar üçün ümumi olan, siyasi quruluşlarında, iqtisadi fəaliyyətlərində və təsərrüfat həyatlarında təkrarlanan cəhətləri öyrənirlər. İbtidai cəmiyyətlərin müxtəlif tiplərinə məxsus olan obyektiv qanunauyğunluqların aşkar edilməsinə yönəlmiş müqayisəli yaxud kross-mədəni tədqiqatlar antropoloqların silahlandığı metodologiyanın alfa və omeqasıdır (başlanğıcı və sonudur). Antropologiya sosiologiyanın metodoloji bazasından və nəzəri anlayışlarından çox faydalanmışdır. Sosiologiya və antropologiya uzun müddət əl-ələ çalışmış, onların

yaradıcılıq birliyi antropolo-giyada sosial antropoloji istiqamətin yaranması ilə nəticələnmişdir. Bu dərslikdə ona geniş yer ayrılmışdır.

Antropologiya özünün elmi maraq çevrəsini daim genişləndirir və klassik antropologiya üçün qapalı qalmış sahələrə, məsələn, çağdaş industrial və postindustrial cəmiyyətə nüfuz edir. Bu antropoloqlara ibtidai cəmiyyətləri müqayisə etmək üçün başlanğıc koordinat sistemi, yaxud bir etalon kimi lazımdır. Bunun sayəsində antropoloqlar yeni nəticələr əldə edirlər: bizim ulu əcdadlarımızın həyat fəaliyyətində yeni-yeni əlamətlər üzə çıxarırlar; industrial cəmiyyətin özünü tam və dərindən təsvir edirlər; bəşəriyyətin sonrakı inkişafının tam və yetərincə dəqiq proqnozunu hazırlayırlar.

İndi antropologiyanın mövzusu dar çərçivədə qalmayıb xüsusi fəlsəfəyə, dünyagörüşünə çevrilmişdir: həm keçmişə baxır, həm də indini görür, bunun əsasında gələcəyi proqnozlaşdırır. Odur ki, oxucu bu dərslikdə zorakılığın antropologiyası, vizual antropologiya, kiberantropologiya məsələləri ilə də tanış ola biləcək.

**Müəlliflər**



# I BÖLMƏ
# ANTROPOLOGİYA ELMİNİN TARİXİ VƏ PREDMETİ

## I Fəsil
## Antropologiya insan haqqında elmdir

### 1.1. Antropoloji düşüncənin tarixinə səyahət

Tarixi prosesin subyekti, maddi və mənəvi mədəniyyətin yaradıcısı olan insan min illər boyu elmi idrakın və şüurun obyekti olmuş və olmaqdadır. Çağdaş dönəmdə insan probleminə maraq daha da artmışdır. Fiziologiya, genetika, kosmologiya, paleontologiya və b. təbiət elmləri, arxeologiya, psixologiya, sosiologiya və digər humanitar elmlər, həmçinin texniki elmlər (kibernetika, bionika və b.) insan problemini müxtəlif aspektlərdən öyrənirlər. İnsanı öyrənən elmlər arasında antropologiya özünəməxsus yer tutur.

İnsan bioloji, psixoloji, sosial və kosmoloji parametrləri özündə birləşdirən ən mürəkkəb fenomen kimi antropologiya elminin obyektidir. Yığcam desək, antropologiya insan haqqında elmdir. İmmanuil Kant antropoloji biliyin məzmunu və mahiyyəti haqqında yazır: "İnsan üçün məktəb olan mədəniyyətdəki bütün uğurların məqsədi əldə olunmuş bilik və bacarıqların həyata keçirilməsidir. Amma dünyada bu biliklərin tətbiq edilə biləcəyi ən başlıca predmet- insandır, çünki o özü üçün son məqsəddir. Deməli, düşünmək qabiliyyəti olan varlıqlar kimi insanların cinsi əlamətləri haqqında bilik dünyagörüşü adına xüsusilə layiqdir..." (80, 351). Amma insan nə qədər öyrənilsə də yenə fəlsəfə, təbiətşünaslıq, texniki, sosial və humanitar elmlər üçün problem olaraq qalır. Alman filosofu M.Haydegger yazır: "Heç bir epoxa insanın nə olduğu haqqında indiki epoxa kimi az bilməmişdir. Amma heç bir epoxada insan bizim epoxamızda olduğu qədər problem olmamışdır" (136, 24).

Hazırda antropologiya üzrə dünyanın ABŞ, Almaniya, İngiltərə, İtaliya kimi inkişaf etmiş ölkələrində elmi müəssisələr, assosiasiyalar, minlərlə tədris kursları, çoxsaylı ədəbiyyat, tədris proqramları, monoqrafiyalar, elmi toplular mövcuddur və onların sayı durmadan artmaqdadır. Bütün bunlar deməyə əsas verir ki, artıq bu elmin zamanı gəlmiş yaxud bəşəriyyət özünün dünyada ən sirli varlıq olduğunu dərk etmişdir. Antropologiya bu sirli varlığın,

insanın, bəşəriyyətin özünüdərkinin ən aktual, çoxistiqamətli və olduqca maraqlı sahəsidir. Hər şeydən öncə bu elmin tarixinə səyahət edib onun yaranması və inkişafını öyrənmək vacibdir.

"Antropologiya" sözünü ilk dəfə antik dövrün böyük mütəfəkkiri Aristotel işlətmişdir. O özünün "Nikomax etikası" əsərində yalnız bir dəfə "antropoloqios" sözünü işlətmişdir ki, bu da "insan haqqında danışan" elm anlamını daşıyır.

Göründüyü kimi, insan problemi hələ qədim yunan fəlsəfəsində irəli sürülmüşdü, bu da insan və təbiətin, kosmosun qarşılıqlı əlaqəsinin dini-mifoloji təsəvvür üçün gizli qalan sirrini açmaq ehtiyacından doğurdu. Andre Bonnar "Yunan sivilizasiyası" əsərində (1958) yazırdı: "Bütün yunan sivilizasiyasının (insanın özünün özünə münasibətinin – T.A.) çıxış nöqtəsi və obyekti insandır... Yunan sivilizasiyası təsəvvüründə insan və dünya biri digərinin əksidir" (bax: 161, 7). Bu baxış Falesin, Empedoklun, Demokritin, Sofistlərin, Sokratın, Platonun, Aristotelin, Epikurun və digər filosofların baxışlarında aydın nəzərə çarpır. Məsələn, Falesin naturfəlsəfəsi Hippokratın ilk tibbi-elmi "humoralizm" konsepsiyasının yaranmasına həlledici təsir göstərmişdir. Bu konsepsiyaya görə, insanın fiziki sağlamlığı və xəstəliyi, onun temperamentinin tipi insan orqanizminin əsas şirələrinin yaxud mayelərinin müəyyən nisbətindən asılıdır, bu da öz sırasında iqlimdən və xalqın həyat şəraitinin digər amillərindən asılıdır.

Demokritin, Epikurun və Lukretsi Karın atomist təlimi Asklepiadın "həmrəylik" konsepsiyasının əsas məzmununu təşkil edir. Bu konsepsiyaya görə, insan orqanizminin durumu onun bədən toxumalarının möhkəmliyindən və yumşaqlığından asılı olmaqla yanaşı, təbiətlə və insanın həyat tərzi ilə şərtlənir.

Bu konsepsiyalar dəyişilməz halda XIX əsrin ortalarına qədər saxlanmış və yalnız tibdə deyil, həm də ümumi biologiyada, insanın normal fiziologiyası və anatomiyasında funksional və *strukturmorfoloji* (anatomik) tədqiqatlara başlanğıc vermişdir.

Aristotelin insan "ictimai (siyasi) heyvandır" tərifindən aydın olur ki, artıq antik fəlsəfədə antroposentrizm formalaşmağa başlamışdı. Antroposentrizm (yunan sözü – antropos-insan və lat. sentr – mərkəz) insanı dünyanın mərkəzi, onun ilahi mahiyyətli olduğunu, Yeri isə Kainatın mərkəzi sayır. Bu təlim fəlsəfənin və



elmin sonrakı inkişaf mərhələlərində natu-ralizm (mexanisizm, biologizm və s.), antropomorfizm (insana aid özəlliklərin təbiətə aid edilməsi), ifrat subyektivizm (məsələn, solipsizm və aqnostisizm) formalarında çıxış etmişdir.

İnsanın ikili təbiətli – ruh və bədəndən ibarət olması təsəvvürü antik təfəkkürdə yaranmış, hətta onların qarşılıqlı münasibətinin izahına girişilmişdi. Ruha ilahi olan, bədənə maddi olan yaxud materiya kimi baxılırdı. Aristotel özünün "Ruh haqqında" əsərində canlı orqanizmlərdə, o cümlədən insanda ruh və bədənin münasibəti məsələsini şərh edərək ruhu canlı bədənin səbəbi və başlanğıcı kimi müəyyən edir: "Ruhun mahiyyət anlamında səbəb olması aydındır, belə ki, mahiyyət bütün şeylərin varlığının səbəbidir, canlılarda isə varlıq həyat deməkdir, bunun (həyatın – müəl.) səbəbi və başlanğıcı isə ruhdur..." (38, 402).

Xristianlıqda insanın dualist təbiətli olması problemi insanda səmavi (ruhi, müqəddəs) olanla kürəsəl (cismani, günahlı heyvani) olan arasında əbədi və barışmaz ziddiyyətlərin münaqişəsi kimi açıqlanır. Kilsə xadimləri insanda bu iki substansiyanın birləşməsini insan nəslinin əzəldən günahlı olmasına görə Allah cəzası kimi yozurlar. İnsanı bu cəzadan yalnız ölüm , həyatın doğurduğu üzüntülər, insanda cismani olanın aşağılanması və sıxışdırılması, ruhunun bədəndən azad olması xilas edə bilər. Məsələn, Foma Akvinskiy insana heyvanlar aləmilə mələklər aləmi arasında yerləşən varlıq kimi baxırdı. İnsana belə baxış İslam dinində də özünəməxsus formada irəli sürülür. İslamda dörd əsas axımdan biri olan sufilikdə deyilir ki, insan hər cür məhrumiyyətlərə dözərək gerçək dünya günahlarından azad olmaqla Allaha yaxınlaşa bilər.

Oyanış (Renesans) epoxası Avropa təfəkküründə insanın cismani-mənəvi bütövlük olması, təbiət və Kainatla vəhdətdə olması haqqında antik dövrə məxsus ideya dirçəldilir, insanın ruhunun və bədəninin *hərtərəfli* inkişaf etdirilməsi və təkmilləşdirilməsinin zəruriliyinə dair təlim yaradılır. Bu ideyanı analitik və mexanisizm mövqeyindən inkişaf etdirərək XVII-XVIII əsrlərin empirizmə əsaslanan naturfəlsəfəsinin təsiri altında Harvey qan dövranı haqqında mexaniki nəzəriyyə yaratmış və qan dövranını insanın həyat fəaliyyətinin əsası kimi təsdiq etmişdir. Hobbs yaşamaq uğrunda zooloji mübarizəyə insanın təbii halı kimi baxır və düşünürdü ki,

insan özünün təbii hüquqlarının bir hissəsini dövlətə həvalə etməyə və bununla da özündə təbii, bioloji olanı onun üstündə ucalan və özünə tabe edən süni-sosial olanla birləşdirməyə məcburdur.

Rene Dekart (1596-1650) ruh və bədənin dualizmindən çıxış edib onların qalxanvari vəzidə birləşdiyini təsdiq edirdi. O, insan haqqında baxışını "maşın" haqqında təsəvvürlə uzlaşdırırdı. Bu ideyanı sonradan fransız filosofu Lametri (1709-1751) özünün "İnsan və maşın" əsərində inkişaf etdirmişdir.

Fransız materialistlərinin çoxu insana yalnız zahirən təbii və sosial mühitlə bağlı olan canlı heyvan kimi baxırdılar. Onlar cəmiyyətə insan üçün özünəməxsus, ancaq xarici mühit kimi baxmışlar.

O dövrün nəzəri və praktiki elmi şüurunda belə fikir oturuşmuşdu ki, guya hər hansı bir mürəkkəb hadisənin, eləcə də insan orqanizminin mahiyyətini yalnız mürəkkəb obyekti hissələrə ayırmaq və onların hər birini ayrılıqda təhlil etməklə öyrənmək olar. İnsan anatomiyasında, fiziologiyasında və təbabətində dar analitik yanaşmanın genişlənməsi bu elmlərdə lokallaşdırma prinsipinin yaranması ilə nəticələndi. Bu prinsip insan orqanizminin bütövlüyünün dərkini onun hissələrinin dərki səviyyəsinə endirməyi, yəni insan orqanizminin dərki onun orqanlarının, orqanlarının dərki isə daha kiçik elementlərin – hüceyrələrin, hüceyrənin dərkinin onun molekullarının dərkindən ibarət olduğunu nəzərdə tutur. Beləliklə, insanın mürəkkəb biopsixososial bütövlüyünün öyrənilməsində analitik yanaşma anatomiya, fiziologiya və s. elmlərdə yalnız sadə və xüsusi abstraksiyaların yaranmasına səbəb olurdu. Amma elmin o zamankı səviyyəsi baxımından analitik yanaşmaya haqq qazandırmaq olar. Onu da qeyd edək ki, artıq klassik alman filosofları (Fixte, Kant, Şellinq və Hegel) insanın öyrənilməsində analitik yanaşmanın məhdud və səmərəsiz olduğu üçün sintez metoduna, sistem yanaşmaya keçilməsinin zəruriliyini anlayırdılar. Kant yazırdı ki, "insan nədir" problemi antinomikdir və onu xalis zəka çərçivəsində həll etmək olmaz. Fixte, Şellinq və özəlliklə Hegel ən ümuminin, ideal tarixinin təkcəyə, cəmiyyətin fərdə münasibətdə üstünlüyü prinsipini irəli sürürdülər. Fixte özünün "Alimin təyinatı haqqında" əsərində yazır ki, bəşər cinsinin təkmilləşməsi cəmiyyətin sayəsində baş verir. Hegel özünün "Hüquq fəlsəfəsi"ndə dövləti və cəmiyyəti hər bir



insan fərdinin substansional başlanğıcı adlandırır. Klassik alman fəlsəfəsinin nümayəndəsi L.Feyerbax öz həmkarlarının ümumi və təkcənin, sosial və təbiinin dialektikasına dair ideyasını rədd edərək insanın mahiyyətini onun bioloji təbiəti ilə eyniləşdirirdi, cəmiyyətə isə ayrı-ayrı insanların abstrakt, bioloji bağlılığı kimi baxırdı. Teologiyanı tənqid etmək məqsədilə bioloji antropologiyanı inkişaf etdirən L.Feyerbaxla eyni vaxtda S.Kyerkeqor "insan mövcudluğunu" fəlsəfi baxımdan əsaslandırmaq üçün özünün "dini antropologiyasını" yaratmışdır. Bu da müasir ekzistensializmin və Qərb fəlsəfi antropologiyasının qaynağı olmuşdur. Materialist fəlsəfədə antropoloji prinsipi XIX əsrdə N.Q.Çernışevski və N.A.Dobrolyubov təbiətşünaslığa və bəzi humanitar elmlərə istinad edərək inkişaf etdirmişlər.

Feyerbaxın antropologiyası (onun iradəsindən asılı olmayaraq), bir tərəfdən alman fəlsəfəsi, antropologiyası və təbabətində vulqar materializmin dərinləşməsinə; digər tərəfdən isə insan fiziologiyası elminə təsir etmişdir. Onun təsiri ilə İ.M.Seçenov, S.P.Botkin və İ.P.Pavlov insan fiziologiyasına dair reflektor nəzəriyyəsini yaratdılar. Amma bu nəzəriyyə insan həyatında bioloji amilin roluna üstünlük verməklə yanaşı insan şüurunu onun həyat fəaliyyətinin öyrənilməsində tək metodologiya kimi (yalnış olaraq) qələmə verirdi. Bu bir tərəfdən insan probleminin, onun mahiyyətinin mürəkkəbliyi ilə, digər tərəfdən insan haqqında elmlərdə hələ dialektik düşüncə tərzinin oturuşmaması ilə izah edilir.

K.Marks və F.Engels Feyerbax fəlsəfəsinin antropoloji prinsipini və onunla bağlı olan alman vulqar materializmini əsaslı təhlil etməklə insan haqqında elmin biologiyalaşdırılması meylini ardıcıl tənqid etmişlər. İnsana ümumbioloji baxışın sürətli inkişafının sosial, təbii elmi, metodoloji və idraki səbəblərini aydınlaşdırmışlar. Dialektik materializm fəlsəfəsinin baniləri insanı yalnız bioloji varlıq kimi anlamağın, insan davranışının guya heyvani instinktlərlə – zorakılıq, uyğunlaşma, ətrafdakılarla mübarizədə güclülərin yaşaması və təbii seçmə ilə motivləşdiyi təsəvvürünün yayılması və dərinləşməsinin başlıca sosial səbəbini xüsusi mülkiyyətdə, kapitalist rəqabətində, kapitalizm şəraitində fərdiyyətçilik şüurunun insanların davranışlarına güclü təsir etməsində görürdülər. Amma nəzərə alaq ki, insan problemi yalnız fəlsəfi təfəkkürün predmeti deyildir. İnsan

konkret elmi tədqiqatların da obyektidir. İnsanın konkret elmi tədqiqinin də tarixi vardır və antropologiyanın insan haqqında konkret elm kimi yaranıb formalaşması prosesini aydın anlamaq üçün insanın konkret elmi istiqamətdə öyrənilməsi tarixini izləmək zəruridir.

"Antropologiya" terminini Aristoteldən sonra eramızın XVI yüzilinin başlanğıcında alman anatomu M.Xandt özünün "Antropologiya insan ləyaqəti, təbiəti və xassələri haqqında, insan bədəninin elementləri, hissələri və üzvləri haqqında" adlı əsərində vermişdir (41, 26). Bu əsərdə insan bədəninin fiziki quruluşundan danışılır. 1594-cü ildə O.Kasman "Antropoloji psixologiya, yaxud insan ruhu haqqında təlim" kitabını nəşr etdirmişdir. İnsan anato-miyasından yox, psixologiyasından söz açır. Bununla da antropoloji araşdırmalar, yaxud insan haqqında elm anatomiya müstəvisindən ruh müstəvisinə keçirilmiş oldu. Bu faktdan çıxış edib belə nəticə çıxarmaq olar: bir halda ki, oyanma, dirçəliş dövründə antropoloji təlimin banisi sayılan O.Kasman antropologiyanı insan psixologiyası yaxud ruhu haqqında təlim kimi formulə etmişdir, onda Kasmanı ruh haqqında təlimin banisi saymaq doğru olmaz. Belə ki, hələ antik yunan filosofları insan psixologiyasına dair sistemli tədqiqatlar aparmış və günümüzdə də öz elmi-nəzəri və praktiki dəyərini saxlamış samballı əsərlər yazmışlar. Odur ki, antik yunan filosofla-rını, xüsusilə "Ruh haqqında", "Nikomax etikası", "Böyük etika" əsərlərinin müəllifi olan Aristoteli insan psixikası haqqında təlimin ilk müəllifi saymaq, fikrimizcə, daha doğru olardı.

Lakin Renesans dövrü (XV-XVI əsrlər) Avropa təfəkkürünün antropologiya sahəsində əldə etdiyi uğurlardan danışarkən insan haqqında təlimin tarixini daha aydın anlamaq baxımından önəmli olan bir məqama da diqqət yetirmək vacibdir. Renesans dövründə "antropologiya" sözü ikili anlamda, yəni insan bədəni haqqında elm kimi və insan ruhu haqqında təlim kimi təsdiq edilirdi. Bu da fransız ensiklopedistlərinə (Didro, Dalamber, Volter, Russo və b.) maarifçilik epoxasında antropologiyanın anlamını və əhəmiyyətini genişləndirməyə və onu insan haqqında bütün biliklərin toplamı kimi qəbul etməyə imkan verdi. İ.Kant özünün "Antropologiya"sında başlıca olaraq psixoloji məsələləri önə çəkmişdi. Rusiyada antropologiya haqqında ilk əsəri XVIII əsrin sonunda Pankratyevski İvan Mixaylov yazmışdır.



XVIII yüzildə müstəmləkəçiliyin genişlənməsi, əhali artımına və irqi proseslərə marağın artması antropologiyanın inkişafına güclü təsir göstərmişdir. XIX əsrdə inkişaf etmiş Avropa ölkələrində çoxsaylı insan qalıqlarının öyrənilməsi məqsədilə antropoloji cəmiyyətlər yaradılmışdı. XIX əsrin əvvəllərindən bu günədək Amerika, İngiltərə və Fransada antropologiya sözü iki anlamda işlədilir: insanın fiziki quruluşu haqqında təlim və indiki müxtəlif qəbilələrin, xalqların mədəniyyəti və məişəti haqqında təlim.

"Antropologiya" elmi anlayış kimi, XIX əsrin sonlarında elmə daxil edilmişdir. Almaniyada onu etnoqrafiya, Fransada etnologiya əvəz edir. ABŞ-da antropologiya, həmçinin mədəni antropologiya və Avropada etnologiya eyni anlam daşıyır. Lakin "fiziki antropologiya" termini ABŞ-da və Avropada olduğu kimi işlədilir.

"Antropologiya" dar və geniş anlamlarda şərh edilir. O, dar anlamda yalnız insan, beyin və bədənin, anatomiya və fiziologiyanın qarşılıqlı bağlılığı haqqında təlim kimi işlədilir. Keçmiş Sovet məkanında alimlər "antropologiya" dedikdə fiziki antropologiya başa düşürdülər. Tanınmış antropoloq E.A.Orlova yazır ki, antropologiya elmi tədqiqat sahəsi kimi XIX yüzilin sonuncu rübündə qəti şəkildə formalaşmış və insanın bütünlükdə dərk edilməsi vəzifəsi ilə bağlı olmuşdur. Burada antropologiya yaxud insanın təbii tarixi, onun embriologiyası, biologiyası, anatomiyası, psixofiziologiyası; paleoetnologiya yaxud insanın yaranışı və ibtidai durumu; etnologiya – insanın yerdə yayılması, onun davranış və adətlərinin öyrənilməsi; sosiologiya – insanların bir-birinə münasibəti; linqvistika – dillərin və folklorların yaranması; mifologiya – dinlərin yaranması, tarixi və qarşılıqlı əlaqələri; sosial coğrafiya – iqlimin və təbii relyefin insana təsiri; demoqrafiya – insan populyasiyalarının tərkibi və populyasiyalarda fərdlərin sayı haqqında statistik məlumatlar birləşmişdir.

Geniş anlamda antropologiya Qərbdə bəşəri həyatın mədəni və sosial aspektlərinin vəhdəti haqqında elm kimi şərh edilir. Bu aspektdə antropologiya əmək alətlərini, texnikanı və texnologiyanı, adət və ənənələri, inanc və dəyərləri, sosial təsisatları, ailə, kəbin və qohumluq bağlarını, iqtisadi gedişatı, incəsənətin tərəqqisini, nüfuz uğrunda mübarizə və s. məsələləri öyrənir. Belə geniş şərhdə antropologiya həm humanitar (tarix, hüquq və s.), həm də sosial

elmləri (sosiologiya, iqtisadi nəzəriyyə, politologiya və b.) əhatə edir.

İnsanın və cəmiyyətin genezisi və tarixinin öyrənilməsi gedişi XIX əsrin ortalarında antropologiyanın müstəqil elm kimi formalaşması ilə nəticələndi. Çağdaş dövrdə dünya antropoloq və etnoqraflarının davamlı olaraq keçirdikləri beynəlxalq elmi toplantılar və antropoloji problemlərin müzakirəsi bu elmin inkişafına önəmli təsir göstərir. Məsələn, Rusiyada 1995-ci ildə keçirilmiş antropoloji elmi forumun nəticələri bu elmin inkişafına özünün müsbət təsirini göstərmişdir. 2001-ci ildə Rusiyada etnoqrafların və antropoloqların IV, 2003-cü ildə isə V konqresi keçirilmişdir. Konqresdə Rusiya alimlərindən başqa ABŞ, İngiltərə, Almaniya, Fransa və digər ölkələrin alimləri də iştirak etmişlər. Bu forumda xalqların və mənəviyyatların formalaşması və inkişafı; etnosiyasi vəziyyət və onun analizinə metodoloji yanaşmalar; represiyaya tuş olmuş xalqların hüquqlarının bərpası; rus əhalisinin Şimali Qafqazdan köçməsi və bu bölgədə əhalinin etnik tərkibinin dəyişilməsi, məişət və dövlət millətçiliyi, dil siyasəti, kiçik etnik qrupların polietnik cəmiyyətdə inteqrasiyası və konqresin məqsədinə uyğun digər məsələlər müzakirə edilmişdir. Bu konqresdə fiziki antropologiya, etnotarixi, etnohüquqi, etnoarxeoloji, etnoekoloji, etnocoğrafi, etnodemoqrafik və digər istiqamətlərdə tədqiqatların ən yeni nəticələri dinlənilmişdir.

Beləliklə, insan və cəmiyyət probleminin fəlsəfi və konkret elmi tədqiqi tarixində antropologiyanın predmeti formalaşmış, onun tədqiqat sahələri və metodoloji əsası müəyyənləşmişdir.

### 1.2. Antropologiya elminin predmeti

Ötən son onilliklərdə insan problemi, özəlliklə onun həyatı, fəaliyyətinin bioloji, sosial aspektlərinin qarşılıqlı bağlılığı və təsiri dünyagörüşü və elmi idrak baxımından daha ciddi və aktual olmuş, zəmanəmizin ən mühüm praktiki probleminə çevrilmişdir. Cəmiyyətin sosial-siyasi və elmi-texniki inkişafının sürətlənməsi insan orqanizminə və bütövlükdə biosferə təsirini gücləndirmiş, genişləndirmiş və bu gerçək proses elmi tədqiqatın və ideoloji mübarizənin mərkəz obyektinə, həm də iqtisadi və texniki tərəqqinin istiqamətinə təsirinin mühüm vasitəsinə çevrilmişdir.

Elmi tədqiqatın obyekti anlayışı varlığı şüurumuzdan asılı olmayan gerçək aləmin müəyyən kəsimini bildirir. Elmi tədqiqatın



predmeti isə obyektin məntiqi təsvirindən ibarət olub, onu təsvir edən anlayışların, kateqoriyaların, nəzəriyyə və prinsiplərin sistemini ifadə edir.

Eyni bir obyekti müxtəlif elmlər öyrənə bilər. İnsan, onun keçmişi, indisi və gələcəyi müxtəlif elmlərin – fəlsəfənin, təbiətşünaslığın, sosial və humanitar elmlərin ümumi obyektidir. Amma ortaq obyektdə hər bir elm özünün tədqiq sahəsini, obyektin daxili və xarici əlaqələrinin konkret sahəsini ayırmaqla özünün predmetini müəyyənləşdirə bilər.

Biz də obyekt və predmet haqqında bu fəlsəfi-idraki qaydadan istifadə edib antropologiya elminin obyektini və predmetini müəyyələşdirə bilərik.

Antropologiya, sözün hərfi anlamında insan haqqında elm sayılır. Doğrudan da, antropologiya insanın sosial və bioloji özəlliklərini və tarixin gedişində onların uğradığı dəyişiklikləri öyrənən bir elmdir. Antropologiyanı insan irqlərinin yalnız zamanca deyil, həm də məkanca mədəni müxtəlifliyi maraqlandırır. Xalqların sosiomədəni müxtəlifliyinə maraq antropologiyanı etnoqrafiyaya yaxınlaşdırır. Heç bir başqa elm antropologiya qədər varlığımızın keçmiş, sirli, dərk olunmamış və ən qədim qatı olan bioloji və sosialın, təbiətin yaratdığı ilə insanın yaratdığının vəhdətinə yaxınlaşa bilmir. İnsanda sosial və biolojinin vəhdəti problemi insanı, onun təbiətə və cəmiyyətə münasibətini öyrənən müxtəlif elmlərin (sosiologiya, etnoqrafiya, etnologiyanın və s.) fəlsəfi ümumiləşdi-rilməsi nəzəri və praktiki əhəmiyyət daşıyır. Bioloji və sosialın vəhdəti problemi elə bir problemdir ki, bir çox əsas elmi, ideoloji və sosial-praktiki məsələlərin düzgün istiqamətdə müəyyənləşdirilməsi və onların həllinin metodoloji məsələlərinin dəqiqləşdirilməsi onun düzgün anlaşılmasından asılıdır. Bioloji və sosialın vəhdəti problemi çərçivəsində həll edilməli məsələlər sırasına insanın mənşəyi və mahiyyəti, onun həyatının mənası və məqsədi, orqanizminin morfoloji quruluşu və funksiyaları, psixikasının və davranışının strukturu, xəstəlikləri, onların yaranması və yayılması mexanizmləri və onlara qarşı mübarizə vasitələri, insanın fiziki inkişafı və uzunömürlüyü və d. məsələlər aid edilir. Bunlardan başqa, insan cəmiyyətinin mahiyyəti, yaranma səbəbləri, onun tarixi və çağdaş durumu, cəmiyyətin dəyişilməsi imkanları, bu dəyişilmələrin yolları və vasitələri, insan və

müasir texnoloji vasitələrin qarşılıqlı bağlılığı, onun insan və cəmiyyət üçün nəticələri, insanın təbiətə, cəmiyyətə və elmə münasibəti və digər məsələlər də sosial və biolojinin vəhdəti problemi çərçivəsində həll edilməli olan daha geniş məsələlər hesab edilir.

Bütün bu problemlər müasir cəmiyyətin, elmin, texnikanın, rabitə vasitələrinin insan orqanizminə və onun psixikasına təsirinin güclənməsilə, həmçinin ayrı-ayrı şəxslərin və onların fəaliyyətinin çağdaş cəmiyyətdə rolunun artması ilə bağlıdır. Adı çəkilən problemlər həm də sosial və bioloji elmlərin sürətli inkişafı ilə bağlı olaraq önə çıxır, sosial və bioloji biliklərin inteqrasiyasını zəruri problemə çevirir. Bu elmlərin qarşılıqlı əlaqələrinin öyrənilməsində isə metafizik düşüncəli bir çox alimlər ya insanda bioloji olanı sosialla, ya da sosial olanı bioloji olanla eyniləşdirməkdən irəli gedə bilmirlər. Birinci halda antropologiya sosial elmlər sırasına, ikinci halda isə bioloji elmlərə daxil edilmiş olur. Antropologiya sırf sosial elm kimi götürüldükdə insanın və cəmiyyətin fəaliyyətinin bioloji və ya təbii-elmi tərəfi antropologiyanın predmeti çərçivəsindən kənarda qalır. Antropologiyaya sırf bioloji elm kimi baxdıqda isə insan varlığının sosial aspekti onun predmetinə daxil edilmiş olmur. Amma az öncə qeyd etdiyimiz kimi, antropologiya insan haqqında elmdir. Deməli, insan varlığının həm bioloji, həm sosioloji, həm də psixoloji və kosmik aspektləri antropologiya elminin predmetinə daxildir. Odur ki, bu elm insan haqqında təbii-elmi və sosial-humanitar bilikləri özündə sintez edir və özünü ümumi fənn kimi təsdiq edir.

Antropologiya etnoqrafiya, etnologiya, özəlliklə də sosiologiya ilə o qədər yaxındır ki, onların sərhədlərinin müəyyənləşdirilməsi getdikcə çətinləşir. Belə ki, dünyanın bir çox tanınmış alimlərinin elmi yaradıcılığında, məsələn, antropoloji və sosioloji problemlərin öyrənilməsi elə qaynayıb qarışıb ki, onların antropoloq yaxud sosioloq olduğunu ayırd etmək belə mümkün olmur. Fransız alimi E. Dürkheym həm antropologiyanın, həm də sosiologiyanın banisi sayılır, yaxud sosioloqların son nəslinin görkəmli nümayəndəsi sayılan P.Burde özünün elmi fəaliyyətinə antropoloq kimi başlamışdır. Alman filosofu və sosioloqu M.Şeler (1874-1928) sosiologiyada antropoloji istiqaməti inkişaf etdirmişdir. Fransız psixoloqu K.Levi-Stross antropologiyanın və sosiologiyanın predmetlərini psixi fəaliyyətin səviyyələrinə uyğun müəyyənləşdirməyi təklif



edirdi. Onun fikrincə, sosiologiya insanların şüurlu fəaliyyətini, antropologiya isə qeyri-şüuri fəaliyyətini öyrənir. O, insanın qeyri-şüuri fəaliyyətinə adət və ənənələri aid edirdi.

Antropologiya sosiologiyadan onun öyrənə bilmədiyi problemləri mənimsəməklə XX yüzilin başlanğıcında yarandı. Odur ki, mütəxəssislər antropologiyanı və sosiologiyanı əkiz qardaş sayırlar. Antropologiyada iki mövzu – antropogenez və sosiogenez başlıca və ana xətt sayılır. Antropososiogenezin antropoloji araşdırmaları insanın və cəmiyyətin yaranmasının ən qədim dövrünün – özündə qəbilə-tayfa quruluşunu birləşdirən ənənəvi cəmiyyətin, ovçuluq və yığıcılığın, əkinçiliyin, başçılığın və ilk dövlətlərin yaranmasına gətirib çıxaran neolit inqilabının öyrənilməsini nəzərdə tutur. Antropososiogenez prosesi epoxalardan, əsrlərdən keçərək postindustrial cəmiyyətdə də özünü göstərir və aktuallığını itirmir. Ancaq postindustrial cəmiyyətdə antropoloji tədqiqatın tətbiqi istiqamətləri daha aktual sayılır (71, 17).

Yuxarıda qeyd etdik ki, antropososiogenez özündə iki prosesi birləşdirir: antropogenez və sosiogenez. Antropogenez insanın fiziki tipinin təbii-tarixi təkamülü, onun əmək fəaliyyətinin erkən formalarının yaranması və inkişafı, nitqin və ibtidai cəmiyyətin yaranması prosesidir. Antropogenezə nisbətən kiçik zaman intervalında baş vermiş sosiogenez heyvanların insandan əvvəlki sürü həyat formasının, insan şüurunun, ailənin, qəbilənin, tayfanın, ibtidai icmanın və başçılığın yaranması mərhələləri və prosesləridir. İnsan cəmiyyətinin keçdiyi bu təkamül yolunun böyük kəsiminin öyrənilməsi tarix elmi üçün mümkünsüzdür, çünki insanın və cəmiyyətin təbii təkamülünün bu böyük zaman kəsiyi tarixəqədərki dövrə aiddir, tarix isə müxtəlif hadisə və proseslər haqqında yazılı məlumatlar toplusudur. Amma ictimai formaların kökü sosial heyvanlar aləmindədir.

Müasir elmə görə, bəşər övladının, yaxud insan cinsinin kökləri 6-14 mln. il öncəyə gedib çıxır. Ancaq nədən və necəsə 40 min il öncə insan cinsinin bioloji təkamülü dayanmış, gözlənilməz sıçrayış baş vermiş insan abstrakt təfəkkür əldə etmiş, nitq qabiliyyətinə malik olmuş, oxumağı və yazmağı öyrənmiş, on minlərlə şəhərlər qurmuş, milyon kilometrlərlə yollar salmış, çağdaş texnika və texnologiyalar və onların əsasında bugünkü rabitə kanalları yaratmış, bir çox qorxulu xəstəliklərin müalicəsi üsullarının axtarışında böyük uğurlar əldə

etmiş və i.a., nəticədə özünü Planetin ağası elan etmişdir.

Təbiətin və tarixin acı və ağır sınaqlarından keçib müasir zəngin mədəniyyətlər və sivilizasiyalar yaratmış insan gerçəkdən ən böyük diqqətə layiqdir. Onun hərtərəfli öyrənilməsi ən azı ona görə zəruridir ki, onun özünün texnogen fəaliyyəti sayəsində yaranmış indiki qlobal katastrofik durumda, biosferin məhv olması təhlükəsinin reallaşdığı bir şəraitdə onu xilas etmək mümkün olsun. Primatların bizə oxşayan uzaq keçmiş kiçik qrupları qida əldə etmək üçün Yer kürəsinin hər yerini dolaşaraq; özlərindən qat-qat güclü vəhşi heyvanlarla mübarizə apararaq, onların iti dişlərindən özlərini qoruyaraq; saysız zədələnmə və xəstəliklər üzündən həyatlarını gənc yaşlarından itirə-itirə, sərt iqlimdən qorunmaq məqsədilə primitiv sığınacaqlar quraraq; odu ram edərək, ov üçün vasitələr icad edib ovladıqları heyvanların dərisindən "geyimlər" hazırlamaqla, uşaqlar törədib saylarını artırmaqla, sözlər vasitəsilə ünsiyyət yaradıb icmalarda birləşib ilk dövlət qurub onu təkmilləşdirə-təkmilləşdirə bu günə gəlib çıxmışlar. Bir sözlə, onlar planetin o çağında mövcud olmuş canlı varlıqların heç yuxusuna belə girməyən əməllər etmiş, təbiətlə çəkişərək öz üzərlərində görünməmiş eksperiment aparmışlar. Bu çox uzun, ağır və üzücü proses bəşəriyyətin tam qələbəsi ilə bitmişdir. Amma bu qələbə Planetin özü üçün heç də təhlükəsiz deyil. Bütün bunlar antropologiyanın predmetinə daxildir. Onun ümumi yaxud fiziki antropologiya adlanan bir qolu arxeoloqların aşkar etdiyi qalıqlara əsasən insan skeletinin təkamülü və beyninin dəyişilməsini təhlil edir. Başqa bir qolu nitqimizin linqvistik keçmişini, bir qolu psixikanın, bir qolu sosial təşkilin yaranmasını, bir qolu ənənələrin, mərasimlərin və mədəni normaların yaranmasını öyrənir. Bunlar müasir antropologiyada yaranmış tədqiqat istiqamətlərinin az bir hissəsidir.

Antropoloqlar ilk növbədə müasir istehsal vasitələrinin, texnologiya olmadığı, zəruri qidaları ən bəsit əmək alətləri ilə əldə etdikləri, ilk sosial münasibətlər və qohumluq bağlarını formalaşdırdığı uzaq keçmiş epoxalarda ibtidai cəmiyyətlərin və qəbilələrin sosial həyat strategiyasını öyrənirlər. Yüz min, hətta on min illər öncəki zamanda insan cinsinin tarixi yenicə başlamışdı və onun ilk səhifələrini yazmaq lazım gəlirdi. O zaman hələ yazı, şəhərlər və sosial siniflər yox idi, bununla belə, insanlar öz varlığının sosial təməllərini (antropoloqların ovçular və yığıcılar birliyi adlandırdıqları sosial qruplar, qrup həyat tərzi, mədəniyyət cücərtiləri və əmək alətləri hazırlamaq üsulları) yarada bilmişdilər.

Yer kürəsinin bir-birinə bitişik coğrafi kəsimlərində bir-biri ilə heç bir bağlantısı olmayan ibtidai cəmiyyətlər yaranmışdı. Belə cəmiyyətlər və birliklər sırf özünəməxsus təsərrüfat tipi, ənənələri olan qapalı mədəniyyətlərdən ibarət idi. Antropoloqları yalnız belə qapalı sosial qurumların özünəməxsusluğu deyil, həm də onlara məxsus olan və onların siyasi quruluşlarında, iqtisadi fəaliyyətlərində və sosial tərzlərində təkrarlanan ümumi cəhətlər maraqlandırır. İbtidai cəmiyyətlərin müxtəlif tiplərinə məxsus obyektiv qanunauyğunluqları aşkar etməyə yönəldilmiş müqayisəli (kross-mədəni) tədqiqatlar antropologiyanın metodoloji təməli sayılır. Müasir industrial və postindustrial cəmiyyətləri öyrənmək antropoloqlar üçün başlanğıc koordinat sistemi yaxud etalon kimi vacibdir. Belə ki, bu üsulla antropoloqlar müasir cəmiyyətləri ibtidai cəmiyyət tiplərilə müqayisə edirlər və nəticədə: a) bizim uzaq əcdadlarımızın həyat fəaliyyətində yeni əlamətlər aşkar edirlər; b) industrial cəmiyyətin özünü daha tam və dərin təsvir edirlər; c) bəşəriyyətin sonrakı inkişafını yetərincə dəqiq proqnozlaşdırırlar.

Tanınmış müasir amerika antropoloqu K.Kottak antropologiyanın predmetini şərh edərək bu elmin qeyri-adi imkanlara malik olduğunu yazır. Antropologiya insan cinsinin mövcud olmuş, indi mövcud olan və gələcəkdə də mövcud olacaq bütün şəraitləri haqqında elmdir. O biologiyanı, mədəniyyəti, cəmiyyəti və dili əhatə edir, keçmişə və gələcəyə nəzər salır, həm də indinin sirlərini açır.

Bu elmin tarixi, predmeti və metodları barəsində oxucuda aydın təsəvvür yarada bilən, başlıca nümayəndələri və elmi uğurları ilə tanış olmağa imkan verən mötəbər empirik və nəzəri materialların seçilməsi zəruridir. Daha başlıcası isə seçilən materialların insanın və cəmiyyətin təkamülünü, onun əsas mərhələləri və dönüş nöqtələrini məntiqi ardıcıllıqla təsəvvür etməyə, Yer kürəsi xalqlarının mədəni müxtəlifliyini və onların ümumi cəhətlərini, sosial təşkili formalarını görməyə imkan verməsidir.

Antropologiyanın insanların fərdi və ya qrup halında davranışını öyrənməsi, başqa sözlə, fəlsəfə, sosiologiya, politologiya, psixologiya və iqtisad elmləri ilə ortaq predmetə malik olması və ortaq metodlardan (anketləşdirmə, müsahibə, müşahidə, sənədlərin

təhlili və eksperiment) istifadə etməsi onu humanitar, yaxud davranış haqqında elmlərə daxil etməyə əsas verir. Digər tərəfdən antropologiyanın, xüsusilə onun mədəni antropologiya adlanan qolunun humanitar bilik sahələri və fəlsəfə ilə bir çox ümumi cəhətləri var. Odur ki, antropologiyanı fəlsəfənin bir bölümü və ya ayrıca predmeti olan bir elm saymaq olar.

Antropologiya bəşəriyyətin keçmişini öyrənən elm olmaqla yanaşı insan təbiətinin bütün rəngarəngliyini, həyatın mənası, insanın təyinatı, onun bioloji təkamülü, imkanları, həssaslığı, ölüm və ölməzliyə münasibəti haqqında məsələləri də araşdırmağı nəzərdə tutur. Bu yöndən antropologiya fəlsəfəyə yaxınlaşır.

Antropoloji anlamda "insan təbiəti" anlayışı, qeyd etdiyimiz kimi, insanın özünün yaratdığı keçmiş, müasir və gələcək mədəniyyətlərə uyğunlaşma strategiyasını bildirir. İnsan hətta başqa planetlərin şəraitinə uyğunlaşarkən özünün nitq qabiliyyətindən, təfəkküründən, şüurundan, hisslərindən, anatomiyasından və fiziologiyasından istifadə edir. Bütün bunlar bu və ya digər dərəcədə antropologiyanın predmetinə daxildir. Antropologiyanın predmetinin son dərəcə geniş olması bu elmin daxilində çoxsaylı tədqiqat istiqamətlərinin yaranmasına səbəb olmuşdur.

### 1.3. Antropologiyanın tədqiqat sahələri

Antropologiya elminin inkişafı tarixində yaranıb formalaşmış tədqiqat sahələri o qədər çoxalmışdır ki, onları sistemləşdirmək və qruplaşdırmaq belə çətinləşmişdir. Antropoloji tədqiqatın əsas sahələrinə aşağıdakılar aid edilir: fəlsəfi antropologiya, psixoloji antropologiya, fiziki və linqvistik antropologiya, hüquqi və sosial antropologiya, doğuluş və qohumluq antropologiyası, uşaqlıq antropologiyası, yaş antropologiyası, gender və struktur antropologiya, zorakılıq antropologiyası, idman və musiqi antropologiyası, idarəetmə antropologiyası, hakimiyyət antropologiyası, aksioloji antroplogiya, naturfəlsəfi antropologiya, irrasionalist antropologiya, transendental antropologiya, konstitusional və təkamül antropologiyası, populyasiya və etnik antropologiya, tibbi antropologiya, ekoloji antropologiya və pedaqoji antropologiya, neotomist antropologiya, vizual antropologiya, peşə və bilik antropologiyası, fəlsəfi-sosioloji antropologiya, təşkilat antropologiyası, sosial siyasət antropologiyası, dini



antropologiya, tətbiqi antropologiya, tarixi antropologiya, biznes – antropologiya, antropozoologiya, iqtisadi antropologiya və i.a.

Antropologiya əvvəlcə insanın və müxtəlif irqlərin yaranması və fiziki quruluşunun təkamülü haqqında elm kimi başa düşülürdü, insanın sosial və mədəni müəyyənliyi nəzərə alınmırdı. Hazırda isə antropoloqlar qədim və müasir cəmiyyətlərin ən müxtəlif tiplərinin sosial həyat formalarının, mədəni ənənələrinin, dini inanclarının və iqtisadi sistemlərinin fərqini və oxşarlığını müəyyən etməyə çalışırlar.

Antropologiyanın tədqiqat mövzusu genişləndikdən sonra onun ənənəvi mövzusu – insan irqlərinin yaranması, bu irqlərin tərkibində və onları əhatə edən xarici mühitin özəllikləri ilə bağlı olaraq insanın fiziki quruluşunun normal variantları məsələlərini indi yalnız ümumi yaxud bioloji, fiziki antropologiyaya aid edirlər.

Antropoloji tədqiqat sahəsinə daxil edilən və əvvəldə sadalanan istiqamətlər iki böyük qola: *fiziki antropologiya və mədəni antropologiyaya* ayrılır. Fiziki antropologiya təbiət elmlərinə, mədəni antropologiya isə sosial elmlərə aid edilir. Antropologiyanın bu iki qolunun məqsəd və vəzifələri, metodları fərqlidir. Məsələn, arxeoloji tapıntıların xronoloji təyinində radio-karbon metodu mədəni antropologiyada deyil, fiziki antropologiyada istifadə edilir.

Fiziki antropoloji tədqiqatın mərkəzində insan cinsinin bioloji təkamülü problemi durur. Fiziki antropologiya insan irqlərinin yaranmasını, onların təkamülünün özəlliklərini, genetik tərkibini və irqi fərqlərini öyrənir; düşünən insanın (homo sapiens) təbii-tarixi yaranışının dərin köklərini çağdaş elmin imkanları səviyyəsində aydınlaşdırmağa çalışır. Alimlər aydınlaşdırmışlar ki, insan irqlərinin uzaq əcdadları Yer kürəsinin müxtəlif bölgələrində yaşamış ali primatlar olmuşlar. XX yüzilin 70-ci illərində Qərbdə fiziki (bioloji) və sosial (mədəni) antropologiyaların kəsişdiyi nöqtədə tibbi antropologiya yaranıb. Bu yeni sahə keçmiş və indiki cəmiyyətlərdə mövcud olmuş tibb sistemləri, həkimlik formaları və ənənələri, xəstələrə yardım üsulları, tibbi biliklərin hasil edilməsinin sosio-mədəni aspektləri və i.a. haqqında biliklər toplusundan ibarətdir.

Fiziki antropoloji araşdırmalarda müxtəlif metodlardan istifadə edilir. Bunlara antroposkopiya (təsviri metodika), antropometriya (ölçmə metodikası), kraniologiya (kəllə qutusunun öyrənilməsi),

osteologiya (skeletin öyrənilməsi), odontologiya (dişlər sisteminin öyrənilməsi), dermatoqlifika (dərinin öyrənilməsi), plastik rekonstruksiya (kəllə qutusuna görə üzün bərpası), mikroanatomiya, antropoloji fotoqrafiya, rentgenoloji metodlar, kəllə qutusu üzrə insanın fiziki qiyafəsinin bərpası üsulları, irqi əlamətlərin kartoqrafiyası, aborigen mədəniyyətlərin müşahidəsi və s. daxildir.

Mədəni antropologiya, yalnız insan cəmiyyətlərinin mədəni fərqlərini və inkişafını öyrənir. Bu istiqamətdə qrup davranışı, dinin kökləri və yaranışı, sosial norma və adətlər, ailə və qohumluğun strukturu, ibtidai cəmiyyətdə idarəetmə sistemi, texnologiyanın ilkin cücərtiləri kimi məsələlər araşdırılır.

Antropologiyanın fiziki və mədəni qolları arxeologiya və tətbiqi antropologiya ilə sıx bağlıdır. Arxeoloqlar qədim yaşayış məskənləri, yer altında qalmış qalıqları, əmək alətlərini, qida qalıqlarını aşkar edərək bəşəriyyətin keçmişinin, o cümlədən qida rasionunun, təsərrüfatçılığın təkamülünün, sosial-iqtisadi təsərrüfat formalarının bir-birini əvəzləməsinin fikirdə bərpasına çalışırlar. Tətbiqi antropologiya isə əksinə, müasir cəmiyyətlərin müalicəsi funksiyasını yerinə yetirir. Yəni milli azlıqların, yerli xalqların, aborigen cəmiyyətlərin insanlarını çağdaş sənayeyə, informasiya texnologiyalarına, istehlakçı cəmiyyətin qanunlarına uyğunlaşdırmağa yardım edir. Bir texniki epoxadan digərinə keçid yəni ibtidai cəmiyyətlərin postindustrial zamanın tələblərinə uyğunlaşması gedişində yaranan problemlərin və xəstəliklərin, o cümlədən mədəni sarsıntıların aradan qaldırılmasında tətbiqi antropoloji müalicə ən səmərəli üsul sayılır.

Antropologiya digər sosial elmlərdən onunla fərqlənir ki, bu elm insan cinsinin bir neçə milyon illər davam etmiş yaranışını və təkamülünü öyrənir. Antropologiya bəşər cəmiyyətinin ən qədim zamanlardan başlayan iqtisadi, sosial, siyasi və mənəvi təkamülünü araşdırır. Bu elmin mövzu əhatəsi çox genişdir: o həm Amazonka sahillərində yaşayan qəbilələrin dillərini, subtropik zonanın yağışlı meşələrində yaşayan meymunların sosial həyatını, həm də ibtidai insan məskənlərində qalmış heyvan qalıqlarını öyrənir. Bütün bunlar bir suala cavab vermək üçündür: biz kimik, keçmişimiz necə olub, nə üçün bizdə sosialın təşkilinin müəyyən formaları, mədəni təcrübə, mənəvi rəmzlər (simvollar), əmək alətləri yaranıb.



Antropoloji tədqiqatın bütün istiqamətlərində əldə edilən materiallar bu köklü sualın düzgün cavablandırılmasında bu və ya digər baxımdan əhəmiyyətlidir.

***Sosial və mədəni antropologiya.*** Antropologiyaya aid bir sıra məsələlərdə olduğu kimi antropologiyanın predmetinə baxışlarda da fikir ayrılığı aydın gözə çarpır. Məsələn, rus alimi F.İ.Minyuşev insanın digər insanlarla birlikdə baş verən həyat fəaliyyətini sosial antropologiyanın obyekti sayır. O bu elmin predmetinə insanın mədəni cəhəti ilə yanaşı təbii, sosial və süni mühitini də daxil edir və buna uyğun olaraq, müəllif sosial antropologiyanın predmetini müəyyənləşdirir. Onun fikrincə, konkret mədəni sistem şəraitində insanın öz sosial və təbii mühiti ilə qarşılıqlı təsirinin qanunauyğunluqları və mexanizmləri sosial antropologiyanın predmetini təşkil edir. Y.M.Reznik və E.S.Fyodorov isə sosiomədəni prosesi yəni mədəniyyətin transformasiyası prosesini sosial antropologiyanın obyekti, bu prosesin tabe olduğu qanunları isə onun predmeti kimi müəyyən edirlər. Sosial antropologiyanın obyektinə və predmetinə baxışların müxtəlifliyi bu tədqiqat istiqamətinə verilən adların və müəyyənliklərin də müxtəlifliyinə səbəb olmuşdur. Məsələn, bir baxışda sosial antropologiya insanın və bəşəriyyətin sosial və mədəni inkişafının ümumi qanunlarını öyrənməyə can atan ümumiləşdirici və müqayisəli elm kimi; başqa bir yanaşmada mədəniyyətin müxtəlif tiplərinin və mədəni informasiyanın nəsildən-nəslə qeyri-bioloji yaxud sosial vasitə və üsullarla ötürülməsində onların dəyişilməsini müqayisəli planda araşdıran elm kimi; üçüncü bir yanaşmada müxtəlif mədəniyyətlərin müqayisəli təhlili yolu ilə cəmiyyətin və insanın təkamülünü öyrənən ənənəvi elm kimi; dördüncü bir yanaşmada ibtidai, ənənəvi və müasir cəmiyyətləri öyrənən elm kimi; beşinci bir tərəfdə insanın inkişafının sosial fazasını onun ümumi kosmodinamik mövcudluğu kontekstində öyrənən elm kimi müəyyənləşdirilir.

Antropologiyaya verilən bu adların müxtəlifliyində onun fəlsəfənin, mədəni antropologiyanın, sosiologiyanın, psixologiyanın və digər elmlərin anlayışlarına əsaslandığı görünür. Qərb alimləri sosial və mədəni antropologiyanın bir fənn olduğunu ya da antropologiyanın ayrılmaz iki istiqaməti olduğunu qəbul edirlər və

necə adlandırılmasından asılı olmayaraq antropoloji tədqiqat sahələri arasında bu fənnin önəmli yer tutduğunu bildirirlər.

*Mədəni antropologiya* adından da göründüyü kimi, insan və mədəniyyət arasındakı bağlılığı, mədəniyyətin quruluşunu yəni mədəni təsisatları, adətləri, ənənələri, məişəti, dilləri, insanın müxtəlif mədəniyyətlərdə sosiallaşmasının özəlliklərini və s. problemləri öyrənir. Sosial antropologiya sosial strukturları və bu strukturlarda insanların qarşılıqlı təsirini araşdırır. "Sosial antropologiya" anlayışını elmə C.Freyzer daxil etmişdir, ancaq M.V.Kryukov yazır ki, o antropoloji tədqiqatın bir istiqaməti kimi XIX yüzilin sonunda formalaşmışdır. Uzun illər "ibtidai" cəmiyyətlər onun tədqiqat obyekti sayılmış, mədəniyyətə isə ictimai həyatın bir ünsürü kimi baxılmışdır. ABŞ-da yaranmış mədəni antropologiyadan fərqli olaraq İngiltərədə geniş yayılmış sosial antropologiya ənənəvi olaraq özünün tədqiqat sahəsinə linqvistikanı və arxeologiyanı daxil etmir. Mədəni antropologiya elmi ixtisas və tədris fənni kimi, ancaq "sosial antropologiya" adı altında 1993-cü ildə qeydə alınmışdır.

Ənənəvi və ya yazıyaqədərki cəmiyyətlər mədəni antropologiyanın obyekti, qohumluq bağları, dil və mədəniyyətin qarşılıqlı əlaqəsi, qidanın, sığınacağın, kəbin və ailənin, iqtisadi sistemin özəllikləri, sosial stratifikasiya, ibtidai inanclar – din və incəsənət isə onun predmeti sayılır. Ümumiyyətlə, Avropada sosial antropologiyanı mədəni antropoloji bilik sahəsi sayırlar. Onun baxış dairəsinə ilk sırada sosial struktur və stratifikasiya, yazıyaqədərki cəmiyyətdə siyasi təşkil, idarəetmə və struktur-funksional metodun tətbiqi problemləri daxil edilir.

Ənənəvi mədəniyyətlər haqqında C.Merdok özünün "Etnoqrafik atlas"ında (1967) çox müxtəlif məlumatlar verir. Hazırda 600 ənənəvi mədəniyyətin kompüter bankı yaradılmışdır. Bu qaynaqlarda deyilir ki, mədəni stereotiplərin, norma və ənənələrin dəyişilməzliyi yaxud uzun zaman davam etməsi ənənəvi cəmiyyətlər üçün səciyyəvi haldır, onlarda yaşlıların keçmişi uşaqların gələcəyi olur. Belə cəmiyyətlərin sosial təşkili kiçik qrupların və tanış insanların hesabına formalaşır. Yazıyaqədərki mədəniyyət rituallar, mərasimlər, ənənələr, şifahi hekayətlərə, sərbəst yaradıcılığa, təbiətlə üzvi vəhdətə əsaslanır; əsas bilik və bacarıq örnəyi olan yaşlıların nüfuzu əcdadlara sitayiş mərasimlərində möhkəmlənir; yaşayış vasitələri ov



etmək, bitki yığmaq, bostançılıq, çobançılıq və əkinçilik yolu ilə əldə edilir.

Sosial və antropoloqların mədəniyyətə baxışları da fərqlənir. "Mədəniyyət" sözünü qədim romalılar torpağı becərmə anlamında işlədirmişlər. XVIII yüzildə avropalılar mədəniyyət sözünə mənəvi yaxud aristokratik çalar daxil etdilər, mədəniyyət anlayışına insani keyfiyyətlərin təkmilləşdirilməsi anlamını verirdilər; ölçülüb-biçilmiş davranış qaydalarına malik olan insanı mədəni adlandırmağa başladılar. Avropada indiyə qədər "mədəniyyət" sözü bədii ədəbiyyatla, rəsm qalereyası, opera teatrı və yaxşı tərbiyə ilə əlaqələndirilir.

Ancaq XX əsrdə antropoloqlar "mədəniyyət" sözünə başqa anlam verdilər. Onlar deyirlər ki, ibtidai qanunlarla yaşayan Avstraliya aborigenlərində və ya Afrika buşmenlərində nə opera teatrı nə də rəsm qalereyası olmayıb. Ancaq onlarda onları dünyanın ən sivil xalqları ilə birləşdirən müvafiq dildə, mahnı və rəqslərdə, adət-ənənələrdə ifadə olunan *normalar və dəyərlər sistemi* vardır ki, bunun vasitəsilə həyat təcrübəsi nizamlanır, insanlar arasında qarşılıqlı təsirlər tənzimlənir.

Kulturologiya və mədəni antropologiya arasında da predmet bölgüsü var: kulturoloqlar şaman rəqslərindən, mifologiyasından və ibtidai mərasimlərindən başlamış postindustrial cəmiyyətə məxsus elitar və kütləvi mədəniyyətədək bəşər mədəniyyətinin bütün təzahürlərini öyrənir, mədəni antropologiya isə çağdaş cəmiyyətə toxunmur, yalnız ibtidai, qəbilə-tayfa mədəniyyətini öyrənir. Amerika alimi, "kulturologiya" sözünü elmə daxil edən Lesfi Uayt kulturologiyanı, hətta mədəni antropologiyanın bir qolu adlandırır və mədəniyyəti hadisələrin öz prinsiplərilə təşkil olunan və inkişaf edən özünəməxsus nizamı kimi şərh edir. Amma mədəni antropoloqlar özlərinin tədqiqat obyektini bu cür daraltmağın məqsədəuyğun olmadığını görüb sosial antropologiyanın obyekt sahəsinə əl uzatdılar. Çünki buşmenlər, hindular və Avstraliya aborigenləri kimi sadə cəmiyyətlərdə, mütəxəssislərin müəyyənləşdirdiyi kimi sosial struktur ənənələrlə, ailə klanları adətlərlə, yaş stratifikasiyası müəyyən qaydalarla sıx bağlıdır. Odur ki, ibtidai qəbilənin tədqiqində sosial və mədəni antropoloqlar sıx əməkdaşlıq edir, birgə araşdırmalar aparır və yazılar nəşr etdirirlər. Bu səbəbdən də Avropa

alimləri sosial antropologiyanı mədəni antropoloji bilik sahəsi adlandırırlar. Sosial münasibətlər sadə cəmiyyətə yuxarıdan aşağı gəlir. Buna oxşar olaraq mədəni münasibətlər primitiv, sadə cəmiyyəti bütünlüklə özünə hopdurur. Amma müasir cəmiyyətdə kimin nə ilə məşğul olduğunu ayırd etmək çətin deyil. Belə ki, mütəxəssislər müasir cəmiyyətin sosial, iqtisadi, siyasi və mədəni sferalarını ayırır və tədqiq edirlər.

Mədəni antropologiyanın başlıca problemi insanın mədəni fenomen kimi yaranmasıdır. Bu problemə insanın sosiomədəni münasibətlərə daxil olması ilə bağlı davranışı, normaların, yasaqların və tabunun (haramın) müəyyənləşdirilməsi, mədəniyyətin ailə və kəbinə təsiri, mədəni fenomen kimi sevgi, insanın dünyaduyumu və dünyagörüşünün yaranması, mədəni hadisə kimi mifologiyanın kökləri və s. məsələlər aid edilir. Mədəni antropologiya çöl işləri aparıldıqdan sonra toplanmış, təsnifləşdirilib şərh edilmiş empirik məlumatlara əsaslanır. Bu tədqiqat istiqaməti dünyaya müqayisəli (kross-mədəni) araşdırmalara, başqa sözlə, yalnız müxtəlif tarixi dövrlərə aid mədəniyyətlərin müqayisəsinə əsaslanan geniş humanist baxışı nəzərdə tutur.

Amerika tədqiqatçıları mədəni antropologiyada iki qol ayırırlar. Onlardan biri, çöl tədqiqatlarına əsaslanan etnoqrafiyadır; ikinci isə kross-mədəni müqayisəyə əsaslanan etnologiyadır.

Rusiya tədqiqatçısı S.V.Lurye mədəni antropologiyanın etnoqrafiyanın və etnologiyanın münasibətlərini təhlil edərək yazır ki, Sovet İttifaqında etnoqrafiya adlanan sahə Qərbdə mədəni antropologiya adlanırdı. Əslində "etnoqrafiya" Qərbdə də mövcuddur və orada da Rusiyada da eyni anlamı bildirir. Mədəni antropologiya isə yarandığı ilk gündən daha geniş fənn kimi çıxış edərək ilk sırada xalq mədəniyyətinin quruluşunu və varlığını izah edərkən konsepsiyalarla maraqlanmış, təsviri, "çöl" materialları isə onun üçün ya onları yoxlamaq, ya da sübut vasitəsi olmuşdur.

Sosial antropologiyanın sosiologiyaya münasibətinə də toxunmaq yerinə düşür. Sosial antropoloqlar öz obyekti olan qəbiləni öyrənərkən sosiologiyanın bütün anlayışlarından istifadə edirlər. Buraya sosiologiyanın antropoloq R.Linton tərəfindən ayrılıb şərh edilən "status" və "rol" anlayışları, həmçinin stratifikasiya, hakimiyyət, sosial struktur, sosial təsisatlar və digər anlayışlar daxildir.



Belə çıxır ki, sosial antropoloqlar sosiologiyanın meydanında çalışırlar. Ancaq dünya tarixinin 99%-nin bəşəriyyətin uşaqlıq çağı olduğunu nəzərə alsaq, bu çağı sosiologiyanın müşahidə, müsahibə və sorğu metodları ilə öyrənməyin qeyri-mümkün olduğunu asanlıqla görə bilərik. Belə ki, rəyi soruşulacaq insanlar artıq min illərdir torpaq altındadır. Hazırda yaşayan ovçular yığıcılar qəbilələrini sosioloji metodların köməyi ilə tədqiq etmək mümkün olsa da uzaq keçmiş haqqında məlumat əldə etmək üçün arxeoloji materiallardan istifadə etmək lazım gəlir. Bunsuz tarixi inkişafın bütün pillələrini və mərhələlərini bir bütöv halında əhatə etmək, elmi mənzərəsini yaratmaq olmaz. Göründüyü kimi, sosial antropologiya həm "ölmüş" ibtidai sosiallığı, həm də "diri" ibtidai sosiallığı öyrənməlidir. Ancaq məsələn, tarixçilər və arxeoloqlar buna etiraz edib deyirlər ki, sosiologiyadan az fərqlənən sosial antropologiyanın lazımi idrak vasitələri olmadığından o indi mövcud olmayan, ölüb getmiş ibtidai qəbilələri öyrənə bilməz. Onlar sosial antropoloqlara deyirlər ki, siz məsələn, həm sadə, həm mürəkkəb cəmiyyətlərə xas olan universal əlamətləri araşdırırsınız, bu isə o deməkdir ki, siz yalnız tarix meylli əsl sosioloqlar kimi hərəkət edirsiniz. Sosioloqlar da antropoloqları özlərinin tədqiqat sahəsindən uzaqlaşdıraraq deyirlər ki, insanlığın keçmişinə nəzər salmaq üçün tarixi sosiologiya adlanan fənn vardır və sizə ehtiyac yoxdur. Amma sosioloqlar nəzərə almırlar ki, tarixi sosiologiya qədim Şərq imperiyalarından başlamış sonrakı feodal Avropası da daxil dövləti olmuş cəmiyyətlərin keçmişini öyrənir, dövlətəqədərki cəmiyyət tipləri isə tarixi sosiologiyanın obyektinə daxil olmur. Bu isə sosial antropoloqların ixtiyarında qalır. Dövlətəqədərki cəmiyyət tipləri, yəni qəbilə-tayfa formalarını saxlamış kiçik cəmiyyətlər uzaq keçmişdə, 35-40 min il öncə mövcud olub və indi də mövcuddur. Sosial antropoloqlar bildirirlər ki, insan həyatının dövlətəqədərki bütün aspektlərini öyrənmək onların səlahiyyətinə aiddir. Onu da əlavə edək ki, dövlət halında təşkil olunmaq kimi bənzərsiz, başqa canlı varlıqların heç birinə nəsib olmayan keyfiyyət ibtidai kiçik cəmiyyətlərə xas olmuşdur. Bu keyfiyyət əsasında onlar öz aralarında münasibətlərin tənzimlənməsinin hüquqi normalarını müəyyənləşdirə bilmişlər.

***Hüquqi antropologiya.*** İnsan övladı özünüdərkin bəlli bir

pilləsinə çatdıqda taleyüklü məsələləri həll etmək zərurətilə qarşılaşmışdır: insanlar nə üçün toplum halında yaşayırlar; toplumda qayda-qanun nədən yaranmış və necə olmalıdır; dövlət adlanan siyasi-hüquqi qurum nə zaman və necə yaranmışdır; insan hüquqları, azadlığı və bərabərliyi nəyə əsaslanır; xalq və iqtidar münasibətləri, hökm etmək səlahiyyəti və itaət etmək tələbi hansı zərurətdən doğmuşdur?

Filosof və sosioloqların, hüquqşünas və tarixçilərin hər zaman diqqət mərkəzində duran bu məsələlər yenə də aktual olaraq qalır. Ən qədim (arxaik), ənənəvi və müasir cəmiyyətlərin hüquq sistemlərinin empirik və nəzəri tədqiqinin mühüm bir istiqaməti də *hüquqi antropologiyadır*. Fikrimizcə, hüquqi münasibətlərin antropoloji tədqiqində nəzərə alınmalıdır ki, əxlaq qanunu üzrə yaşamaq və dövlət qurmaq yalnız insana xas olan qabiliyyətdir. Amma ibtidai insanda bu qabiliyyət haradandır? Bu suala cavab olaraq Aristotel yazır: "Bütün insanlara təbiət dövlət ünsiyyətinə meyl vermişdir və bu ünsiyyəti ilk olaraq yaradan insanlığa böyük xidmət etmişdir" (6, 5). Aristotelin fikrincə, "hər bir dövlət özünəməxsus ünsiyyət olduğundan hər bir ünsiyyət isə müəyyən bir rifah naminə təşkil edildiyindən (hər bir fəaliyyət tələb olunan rifaha yönəlir), aydındır ki, bütün ünsiyyətlər bu və ya digər rifaha can atır, lakin başqalarından daha çox və bütün rifahlardan, xeyirlərdən daha yüksəyinə o ünsiyyət can atır ki, o daha önəmlidir və bütün başqa ünsiyyətləri əhatə edir. Bu ünsiyyət dövlət yaxud siyasi ünsiyyət adlanır. (6, 32)

Qərb alimləri hüququn antropoloji tədqiqində iki istiqamət müəyyənləşdirmişlər: onlardan biri *hüquqi etnologiya*, digəri *hüquqi antropologiya* adlanır. Hüquqi etnologiya planetimizin bir çox bölgələrinin müxtəlif ibtidai hüquqi mədəniyyətlərini öyrənir. J.Karbonenin "homo juridicus" adlandırdığı hüquqi antropologiya isə insanın başqa canlılara nəsib olmayan "dövlət ünsiyyətinə təbii meyilliliyi" haqqında Aristotelin müddəasından çıxış edir. Alimlər hüququn sosiologiyasının öyrənilməsində, o cümlədən hüququn ibtidai yaxud ilkin formalarının mənşəyi məsələsinin daha əsaslı həllində bu istiqamətlərin roluna üstünlük verirlər.

Rus alimlərindən Z.P.Sokolova, N.İ.Novikova, A.İ.Kovler hüquqi antropologiyanı insanların sosial həyatının hüquqi formalarını öyrənən elm sayırlar. Onların fikrincə, hüquqi antropologiya



ibtidai dövrdən başlamış çağdaş dövr də daxil olmaqla inkişafının bütün tarixi mərhələlərində insanı hüquqi təzahürləri baxımından tədqiq edən elmdir. Bu tədqiqat sahəsinə ibtidai insan qrupları, xalq və millət kimi sosial birliklərin gerçək tarixi varlıqlarında mövcud olmuş hüquq formaları daxildir.

Hüquqi antropologiya XIX əsrin 60-cı illərində Avropada ümumdünya hüquq tarixinin tərkib hissəsi kimi yaranmış, XX əsrin 20-ci illərində müstəqil fənn statusu almışdır. Onun inkişafında fransız antropoloqu E.Dürkheymin müxtəlif xalqlarda hüquqi münasibətlərin tarixinə dair materillara əsaslanan "İctimai əmək bölgüsü haqqında" əsərinin rolu xüsusi qeyd edilir. Almaniyada isə hüququn sosial mövqedən şərhinə hüquq təhsilli Maks Veber böyük diqqət vermişdir. Qərbdə bu problemlə B.Molinovskiy, R.Brandt, P.Qalliver, A.Redkliff-Braun və b. məşğul olmuşlar. Rusiyada alimlər bu ölkənin müxtəlif köklü xalqlarının hüquq normalarını sistemli halda qeyd etməyə 1870-ci ildən başlamışlar və topladıqları empirik materialları tarixi planda şərh etmişlər. Hüquq normalarını İ.M.Kulişer, A.Q.Smirnova, kənd icmalarının öyrənilməsilə A.Y.Efimenko, M.M.Kovalevskiy və b. alimlər məşğul olmuşlar. Nəticədə hüquqi antropologiya ümumhüquq tarixindən ayrılmışdır.

Mütəxəssislər ibtidai cəmiyyətdə davranış qaydalarının yarandığını və onların mürəkkəb xarakter daşıdığını müəyyənləşdiriblər. Bu qaydalar "mononormalar" adlandırılır. Onların mürəkkəbliyi bundadır ki, onlar dini, əxlaqi, adi hüquq normaları kimi fərqləndirilə bilməz. Onlar yalnız məqsədəuyğun və sabit adətləri bildirirlər. Qəbilə və ya tayfa üçün nəyin xeyirli və nəyin ziyanlı olması haqqında təsəvvürlərin kortəbii və ictimai əməyin təşəkkülündə yarandığı bildirilir. Tədqiqatçıların fikrincə, yaxşılıq və yamanlıq, xeyir və şər haqqında təsəvvürlər "qəbilə" normalarında rüşeym halında saxlanılırdı, çünki bu normalar qəbilə üzvləri arasında qarşılıqlı yardım, qarşılıqlı müdafiə, endoqamiya qaydalarını nəzərdə tuturdu. Amma bütün bunlar ibtidai şüurlu və ağır şəraitdə yaşayan insanın qarşısında qoyulmuş çox sərt tələblər idi. Odur ki, ibtidai insanın sinkret düşüncəsində ibtidai-icma qaydaları əxlaqi, dini və hüquqi əlamətlər, məzmun daşımayan mononormalar idi və fərdlərin icmanın, qəbilənin bütövlüyünü qorumaq kimi həyat təyinatlarını ifadə edirdi.

Mononormalar qəbilə daxilində üzvlərin birinin başqası üzərində üstünlüyünə yol verilmədiyini nəzərdə tuturdu, bu da qəbilə birliyi üçün səciyyəvi olan "ibtidai bərabərliyi" möhkəmləndirirdi. Amma filosoflar belə bərabərliyi azadlığın yoxluğundan, insanın cəmiyyət tərəfindən idarə olunmasından, fərdi fəaliyyətin sərt nizamlanmasından, qəbilə yaxud tayfa üzvlərinin əlaqə və münasibətlərini möhkəmləndirən normaların yaratdığı durğunluqdan ibarət hal sayırlar(141, 197).

Bununla belə, mononormaların yaranması sürü halında yaşayan varlıqların sosiallaşma yönündə möhtəşəm təkamülünü təsdiq edən faktdır. Normaların varlığı, təzahürü yazlnız insan sosiallığının əlamətidir. Mononormalardan irəli gəlmiş ibtidai əxlaq, adət-ənənə və mərasimlərdə insan sosiallaşırdı. İnsan empirik təcrübədə qayda, yasaq, göstəricilərin yaxud mononormaların faydalı və məqsədəuyğun olduğunu qavrayırdılar.

Hüququn antropoloji tədqiqi baxımından maraqlı olan bir məsələyə: "hüquq normaları" və anlayışlarının münasibətinə də nəzər salmaq məqsədəuyğundur. Əvvəla, hüquq normaları və insan hüquqları müxtəlif zaman və məkanlı sosial hadisələrdir. Filosoflar hüquq normalarının ibtidai cəmiyyətin dağılmasının son mərhələsində, sinifli cəmiyyətə keçid mərhələsində yarandığını yazırlar. İctimai əmək bölgüsünün dərinləşməsi ilə bağlı olan məhsul bolluğunun yaranması, qəbilə üzvlərinin tələbatının ödənilməsindən artıq qalan məhsulun qəbilədə, ibtidai icma daxilində hökm etmək səlahiyyəti əldə etmiş təbəqənin əlində toplanması hüquq normaları-nın yarandığı dövrün başlıca özəlliyi kimi dəyərləndirilir. F.Engels o dövrün başlıca özəlliklərini qədim yunan qəbilə quruluşunun timsalında şərh edərək yazır: "Biz burada, əmlaka uşaqların vərəsə olduqları ata hüququnun olduğunu görürük, bu da sərvətin ailədə toplanmasına səbəb olurdu və qəbilənin əksinə olaraq ailəni gücləndirirdi; ilk irsi əyanlar və çar hakimiyyəti rüşeymlərinin əmələ gəlməsi vasitəsilə əmlak sahibliyi fərqləri ictimai quruluşa əks təsir göstərirdi; ... bir sözlə, sərvət ən yüksək bir nemət kimi təriflənir və əvəzlənirdi, sərvətin zorakılıqla talan edilməsinə haqq qazandırmaq üçün qədim qəbilə təsisatından sui-istifadə edilirdi. Yalnız elə bir orqan çatışmırdı ki, ... əvvəllər az qiymətləndirilən xüsusi mülkiyyəti nəinki müqəddəs bir şeyə çevirsin və bu müqəddəsliyi hər hansı bir insan cəmiyyətinin ən yüksək məqsədi elan etsin, həmçinin mülkiyyət əldə etməyin dalbadal inkişaf edən yeni formalarını, deməli, sərvətin arası kəsilmədən sürətlənən yığımını da bütün cəmiyyətin qəbul edəcəyi şəklə salsın..." (22, 262). Buradan göründüyü kimi, insan hüquqları ibtidai dövrlərdə yarana bilərdi.



Hüquqi antropologiya azsaylı aborigenlərin, hazırda qəbilə halında yaşayan xalqların hüquqi varlığını, adi hüquq qanunlarının nəzəri araşdırılmasını və onların praktiki tətbiqini özündə birləşdirir. Filosoflar bioresursların aborigenlər tərəfindən idarə olunması, köklü azsaylı xalqlara münasibətdə Ümumdünya Bankının yeni siyasəti, bu prosesdə dövlət nümayəndələrinin, neft kompaniyalarının və ictimaiyyətin iştirakı, yerin neft və qaz ehtiyatlarının mənimsənildiyi şəraitdə yerli etnosların yaşaması yolları, onların arasında münasibətlərin təkmilləşməsi və s. problemləri araşdırırlar.

Hüququn antropoloji tədqiqi sahəsinə cinayətkarlığın biososial xarakterli olması da daxil edilə bilər. Hətta Qərbdə insanın bioloji xassələrinin hüquq pozuntularına, yaxud ictimai faydalı davranışa səbəb olduğuna əsaslanan mövqe formalaşmışdır. A.M.Yakovlev Qərb biokriminoloji nəzəriyyələrinə münasibət bildirərək yazır: "Amerika kriminoloqu F.Tannenbaum biokrimonoloji nəzəriyyələrin inadcıllığının səbəblərini aramağa çalışaraq, əsaslı olaraq təsdiq etdi ki, cinayətkarlığın şəxsiyyətin "fiziki əlamətləri", əqli gerilik, emosional qeyri-sabitlik, pis irsiyyət, daxili sekresiya vəzilərinin quruluşu və s. əlamətlərinə görə izahı ideoloji çalar daşıyır; bu əlverişlidir, çünki "bizim həm nəzəri, həm praktiki xarakterli müəyyənləşmiş kanonlarımıza toxunmur"" (188, 26).

Biokriminoloji nəzəriyyələr indi başlıca olaraq genetika elminə əsaslanırlar. Onlar genetikanın insanın cinsi hüceyrələrinin xromosomlarında adi haldan müxtəlif kənarlaşmalara çıxılmasının mümkünlüyü faktına əsaslanaraq insanın cinayətkar davranışını genetik pozğunluqlarla bağlayırlar.

Cinayətkarlığın biokriminoloji izahına tam əks olan baxış da vardır. Bu baxışa görə, cinayətkar davranışların əsasında cəmiyyətin sosial tələbatları durur və onun insan biologiyası ilə heç bir bağlılığı yoxdur. Əsas məsələ isə insan davranış və fəaliyyətinin bütün təzahürlərində həm tarixi, həm də fərdi planda bioloji sosial amillərin qarşılıqlı təsiri və vəhdətini araşdırmaqdır. Bu istiqamətdə dünya

alimləri müəyyən elmi uğurlar əldə etsələr də problem hələ özünün nəzəri həllini tapmamışdır.

*Tarixi antropologiya.* Tarixi antropologiyanın mahiyyəti ayrı-ayrı ölkələrin tarixinin öyrənilməsinə antropoloji yanaşmanın tətbiq edilməsindən, həmçinin müqayisəli tədqiqatın həyata keçirilməsindən ibarətdir. Rus tədqiqatçısı M.Krom tarixi antropologiyanın müstəqil metodoloji istiqamət kimi XX əsrin 60-70-ci illərində təsdiqləndiyini yazır (95). Tarixi antropologiyanın yaranmasını Fransa alimləri L.Fevr, M.Blok, Y.Lefevr, F.Brodel və b. fəaliyyətləri ilə bağlayırlar. "Krallar – möcüzə yaradanlar" əsərinin müəllifi M.Blok tarixi antropologiyanın banisi sayılır. Tarixi antropologiyanın predmetinin tarixi sosiologiyanın predmetindən fərqi ondadır ki, tarixi sosiologiya başlıca diqqəti Avropa cəmiyyətində sosial təsisatların, özəlliklə ailənin, dövlətin, xüsusi hüququn, kilsə və ordunun tarixinə yönəldir, tarixi antropologiya üçün gündəlik yaxud məişət tarixi: orta əsrlər Fransasındakı həyat tərzi, dünya mənzərəsi, adətlər, vərdişlər və şüur stereotipləri, adi insanların davranışları, həmçinin keçmişdə yaşamış insanların həyata və ölümə, xəstəliklərə, yaş dövrlərinə (uşaqlıq, gənclik və qocalıq) münasibəti; xalqın dindarlığı, müxtəlif səviyyəli mədəniyyətlərin qarşılıqlı təsiri; bayramlar, mərasimlər və s. məsələlər əsas predmet sayılır. Filosoflar ailənin, evdarlığın və qohumluq əlaqələrinin tarixinin öyrənilməsini tarixi antropologiyanın inkişafının mühüm istiqamətlərindən biri sayırlar. Ailə qruplarının ölçüsü və tərkibi, onların zamanca dəyişilməsi, qohumluq sistemi və varəsəlik təcrübəsi, həmçinin qadın və kişi, nəsillər arasındakı münasibətlər bu sahənin əsas mövzuları sayılır. Amma bütün bu münasibətlərin yaranması və təkamülü tarixinin nəzəri-elmi modelinin yaradılması son dərəcə mürəkkəb prosesdir. Belə ki, Yer kürəsində son 35-40 min il yaşayan bütün insanlar eyni bir bioloji növə (Homo sapiens) aid olsalar da müxtəlif cəmiyyətlərə, mədəniyyətlərə mənsub olan insanların davranışları önəmli dərəcədə fərqlənir. Həm də bu fərqlər yalnız müxtəlif cəmiyyətlərə aid fərdlərin və ya qrupların davranışlarındakı fərqlərdən ibarət deyildir. Müxtəlif cəmiyyətlərə mənsub insanlarda tamamilə fərqli tələbatlar, maraq və motivlər ola bilər. Odur ki, tarixi antropologiyanın predmetinə daxil olan məsələlərin və sosial təsisatların öyrənilməsində tələbatlar, maraq və motivləri arasındakı



fərqlər nəzərə alınmalıdır.

Doğrudur, tarixi antropoloji tədqiqatın əsas metodu yəni ayrıca bir kəndin, təsərrüfat sahəsinin, yaxud epoxanın öyrənilməsi onların haqqında bitkin məlumat əldə etməyə imkan verir. Amma belə məlumatın digər konkret hallara aid edilə bilməməsi onun qüsuru, məhdudluğu sayılır. Həm də tarixi antropologiyanın empirik qaynaqları məhduddur. Müəyyən bir tarixi dövr, ölkə, şəhər, kənd haqqında yazılı qaynaqlar, məsələn, yazışmalar, gündəliklər lazımınca saxlanmayıbsa, o zaman tarixi-antropoloji tədqiqat aparılması qeyri-mümkün sayılır.

Mədəni areallarn zamanca və məkanca müqayisəsi tarixi antropoloqlara mədəni, sosial təsisatların yaranması və təkamülünün çox mühüm qanunauyğunluqlarını aşkar etməyə imkan verir.

*Antropoloji linqvistika.* Antropoloji linqvistika yazısı olmayan ənənəvi mədəniyyətlərə aid olan məlumatlara əsaslanır. Antropoloji linqvistika Amerika hindularının mədəniyyətlərinin və dillərinin öyrənilməsi çərçivəsində yaranmışdır. Hazırda ABŞ-ın ali tədris ocaqlarında antropoloji linqvistika ilə yanaşı "Etnolinqvistika və çöl tədqiqatları", dil tarixi, tarixi sosiolinqvistika, mədəniyyət və dil, paleolinqvistika, "Şifahi ənənə və folklor", linqvoarxeologiya və b. ixtisas kursları da öyrədilir.

Çox vaxt "etnolinqvistika" termini yerinə yaxud onunla yanaşı "antropoloji linqvistika" və "linqvistik antropologiya" anlayışları işlədilir. "Antropoloji linqvistika" adı altında, əsasən şüur (koqnitiv) problemi, "linqvistik antropologiya" adı altında isə rabitə yaxud ünsiyyət (kommunikasiya) məsələləri öyrənilir.

Etnolinqvistika dili mədəniyyətlə qarşılıqlı əlaqədə öyrənən bir sahədir. Bu sahə xalqın mədəniyyətini onun dili vasitəsilə öyrənir. Onun predmeti sosiolinqvistikanın, psixolinqvistikanın, etnologiyanın, ünsiyyətin etnoqrafiyasının, folklorşünaslığın, mifologiyanın və poetikanın predmet sahələri ilə kəsişir. Xalqın öz dili ilə bağlı olması ideyası ilk dəfə elmi nəzəriyyə kimi alman alimi V.Humboldt (1767-1835) tərəfindən irəli sürülmüşdür. XIX əsrin ikinci yarısında müxtəlif ölkələrdə etnoqrafiyada folklor, qohumluq bağları, dil ailələrinin daşıyıcılarının qədim etnik tarixi və digər məsələlər haqqında məlumat əldə etmək məqsədilə linqvistik materialları araşdıran yeni sahə – etnolinqvistika inkişaf etməyə başladı. Bu sahənin

inkişafına XX əsrin başlanğıcında fransız alimi F.De Sössürün (1857-1913) yaratdığı dilçiliyin quruluş nəzəriyyəsi güclü təkan verdi. Onun nəzəriyyəsinin əsas prinsipi belə səslənir: "Millətin ənənələri onun dilində əks olunur, digər tərəfdən isə dil önəmli dərəcədə milləti formalaşdırır" (186).

Mədəni antropologiya çərçivəsində yaranan etnolinqvistikanı yerli dillər, ləhcələr, kiçik kəndlər maraqlandırır, o bu kiçik yaşayış məskənlərində insanların nə haqda və necə danışdıqlarını, nəyi necə adlandırdıqlarını öyrənməyə çalışır. Bəllidir ki, insan öz xalqının dilini öyrənərkən həm də onun mədəniyyətini mənimsəyir, xalqın mədəniyyəti isə onun atalar sözlərində, hekayətlərində, xalq mahnılarında, nağıllarında, bayatılarında, laylalarında və s. təzahür edir. Bütün bunlarla yanaşı etnolinqvistika həm də xalq sənətləri, mərasimləri, inancları da özünün tədqiqat sahəsinə daxil edir.

Antropoloji linqvistika insan nitqinin tarixi təkamülünə maraq göstərir. Bu zaman insan nitqi insana daha yaxın olan primatların ünsiyyət sistemilə müqayisədə başlıca yer tutur. Belə müqayisəli təhlil onların hər birinin necə inkişaf etdiyini müəyyən etməyə və onların yaranışına işıq salmağa ümid verir. Müxtəlif dillərin qohumluq dərəcəsini müəyyən etmək üçün qlotoxronoloji metoddan istifadə edilir. Alimlər müəyyən etmişlər ki, min il öncə bir-birindən ayrılmış iki xalqın dillərində onların əcdadının dilindəki sözlərin 86% saxlanır. İnsan populyasiyalarının təkamül istiqamətlərini onların linqvistik məlumatları və dil ailələrinin təsnifatı ilə müqayisə edərək mütəxəssislər müəyyənləşdirmişlər ki, genetik qohumluğu olan populyasiyaların dilləri eyni linqvistik (dil) qrupa məxsusdur. Əcdadından daha öncə ayrılıb müstəqil təkamül edən iki populyasiyanın DNT və dilində daha çox dəyişiklik yaranır. Amma buradan dilin genlərdən asılı olduğu nəticəsi çıxmır. Populyasiyaların genetik və dil qohumluğu yalnız tarixi şəraitlə müəyyən edilir (48).

Predmeti antropoloji linqvistikadan fərqlənən linqvistik antropologiya üzrə mütəxəssisləri daha çox sözün deyilişinin bu və ya digər variantına hansı sosial və etnik qrupun uyğun gəldiyi maraqlandırır. ABŞ-da mədəni antropologiya çərçivəsində əvvəllər F.Boas, E.Sepir, B.Uorf və digər tanınmış mütəxəssislər yazı ənənəsi olmayan hinduların dillərinin səs quruluşunu öyrənmiş, sözlüklər tərtib etmiş, onların qrammatikasını hazırlamış, mətnləri şərh etmiş.



məişət və folklor ənənələrini öyrənmiş və bütün bunlar antropoloji linqvistikanın obyektinə daxil edilmişdir.

E.Sepir sosial qrupun mədəniyyəti və dilinin əlaqəsini belə şərh edir: mədəniyyət insanın gündəlik həyatının məzmununu determinasiya (təyin) edən təcrübə və inancların toplusudur; bunlar nəsilləri bir-birinə bağlayan sosial irsiyyətdir; mədəniyyət cəmiyyətin nə etdiyindən və nə haqda düşündüyündən ibarətdir; dil isə düşüncə, təfəkkür qabiliyyəti kimi cəmiyyətin "necə" düşündüyü haqqında məlumatlar qaynağıdır; bizi əhatə edən gerçəklik bu və ya digər sosial qrupun vərdiş etdiyi dil əsasında qeyri-şüuri olaraq yaradılır (gerçəkliyin dil modeli yaranır – müəl.).

Sepirin davamçısı B.Uorf daha irəli gedərək insanın dünyanın dərkinin bütünlüklə sosial qrupun dili ilə müəyyən olunduğunu deyir. Onun fikrincə, yalnız dil sistemləri oxşar yaxud uyğun olan xalqlar oxşar fiziki hadisələrdən kainatın oxşar fikri mənzərəsini yarada bilərlər; qrammatik quruluşu fərqli dillərdə danışan insanlar dünyanı tamamilə fərqli görürlər. Bu baxışı davam etdirərək, Amerika alimləri X.Xoycer, K.Klokxon və b. qətiyyətlə bildirirlər: antropoloji baxımdan Yerdə dillərin sayı nə qədərdirsə o qədər də dünyalar mövcuddur (82).

E.B.Yrısona görə, antropoloji linqvistikanın təməl prinsiplərindən biri budur ki, müəyyən bir dildə danışan insanın ətraf aləmi qavraması onun müşahidə etdiyi reallıqdan daha çox konkret qrammatikası və deyilişi (leksikası) olan dildən asılıdır (168, 3-21).

Orta Avropa standartına uyğun dillərdə say müşahidə edilən obyektlərə və zaman kəsiklərini yaxud dövri hadisələri bildirən abstrakt anlayışlara, hopi hindularının dilində isə say yalnız danışanın eyni vaxtda müşahidə etdiyi fiziki obyektlərə uyğundur. B.Uorfa görə, bu o deməkdir ki, avropalının dünya mənzərəsində ayrı-ayrı zaman kəsikləri ədədi nüsxələrdən ibarətdir, hopi hindularında dünya mənzərəsi başqa cürdür, yəni onların dünya mənzərəsində zaman kəsikləri yaxud təkrarlanan hadisələr eyni bir mahiyyətin təkrar təcəssümü kimi anlaşılır. Məsələn, on gün on dəfə təkrarlanan eyni bir gündür. B.Uorf nəticəyə gəlir ki, müxtəlif mədəniyyətlərə məxsus insanların dünya mənzərələrinin müxtəlifliyi insanı əhatə edən aləmin necə qurulmasından deyil, danışanın öz dilinin diktə etdiyi qaydalardan irəli gəlir (62). Bütövlükdə bəşəriyyətin dillərinin və

düşüncəsinin, şüurunun bioloji və psixoloji əsasları eyni olsa da yerin coğrafi məkanı dünyanın ən müxtəlif mədəniyyətlərinin, ənənələrinin və dillərinin saysız-hesabsız yığınından ibarətdir. *Linqvistik və mədəni nisbilik prinsipinə* görə, insan, özəlliklə də etnos ekologiyaya, coğrafiyaya, siyasi rejimə yaxud təsərrüfat sisteminə deyil, öz dilinə bağlıdır.

Amma söz bu və ya digər etnosun dilindən getdikdə, mədəni nisbilik prinsipinin müddəalarını heç də bütün antropoloqlar qəbul etmirlər. Məsələn, Amerika linqvoantropoloqu Q.Xoyerə görə, ovçuluq və yığıcılıqla məşğul olan xalqlar, o cümlədən Cənub-qərbi Amerika apaçilərinin dilində bitki və heyvan, ətraf mühit hadisələri haqqında çoxlu sayda adlar var. Başlıca olaraq balıq ovu ilə məşğul olan xalqlar, xüsusilə Sakit okeanın şimal sahillərində yaşayan hinduların sözlüyündə isə balıqların, eləcə də balıq ovu alətləri və fəndlərinin dəqiq adları toplanmışdır (177, 284-290).

Amerika hindularının dillərinin və mədəniyyətlərinin tədqiqində nitqə etnoqrafik yanaşma üstün yer tutur. Fransız etnolinqvistikası isə Afrika koloniyalarının etnoloji tədqiqi gedişində formalaşmışdır. Bu sahədə E.Bonvinin, Y.Tomun, S.Bayuşenin, M.P.Ferrinin və digər alimlərin işlərinə xüsusi önəm verilir.

Hazırda etnolinqvistika daxilində *linqvokulturologiya* adlanan yeni bir tədqiqat istiqaməti yaranmışdır. Linqvokulturolo-giya XX yüzilin 90-cı illərində müstəqil linqvistik sahə kimi formalaşmışdır. Onun predmetinə dilin və mədəniyyətin, dil və etnosun, dilin, milli mentalitetin qarşılıqlı əlaqəsinin qanuna-uyğunluqları daxil edilir. İnformasiya və onun insan təfəkküründə işlənməsi, biliyin strukturu, onun insan şüurunda və dil formasında təmsil olunması koqnitiv linqvistikanın əsas anlayışları sayılır. Koqnitiv linqvistika koqnitiv psixologiya və koqnitiv sosiologiya ilə birlikdə koqnitologiyanı təşkil edir və insan şüurunun necə təşkil olunduğunu, insanın dünyanı necə dərk etdiyini, dünya haqqında hansı məlumatların biliyə çevrildiyini, mental məkanın necə yarandığını öyrənir. Koqnitologiyadan fərqli olaraq linqvokulturo-logiya insanın mədəniyyətinə və dilinə diqqət yetirir. Linqvokulturo-logiyada "dil şəxsiyyəti" anlayışı işlədilir, başqa sözlə, insana dilin daşıyıcısı kimi baxılır. Linqvokulturologiya antropoloji linqvistikanın ilkin müddəasından – dilin antroposentrik olmasına əsaslanır.



*Psixoloji antropologiya.* İnsana antropoloji, sosioloji və psixoloji yanaşmaların nisbəti məsələsində tədqiqatçılar arasında fikir ayrılığı vardır. Bir çox alimlər, məsələn, L.Uayt sosiologiya və antropologiyanın fərqlənmədiyini iddia edir. O öz mövqeyini belə əsaslandırır ki, maddi mədəniyyət insanların davranışlarını o dərəcədə müəyyən edir ki, insanlar arasındakı fərdi fərqlər arxa plana keçir. Belə yanaşmada antropologiyanın elmi statusu inkar edilmiş olur.

Psixoloji antropologiyanın nümayəndələri başqa cür düşünürlər. F. Bokk antropologiyanı insan davranışını öyrənən elmlər sırasına aid edir və insanın daxili aləminin öyrənilməsində onun öz yerinin olduğuna əsaslanaraq antropologiyanı psixoloji tədqiqatın bir sahəsi adlandırır. Psixoloji antropologiyanı hər iki predmeti birləşdirən körpü sayır.

İnsanların psixikasının etnik özəlliklərini, milli özünüdərkin formalaşmasının, funksiyasının gerçəkləşməsinin qanuna-uyğunluqlarını və digər bu səpkili məsələləri öyrənməklə psixoloji antropologiya fənlərarası bilik sahəsi kimi çıxış edir. Bu bilik sahəsi ilk mərhələsində (XX əsrin 20-30-cu illərində ABŞ-da) "mədəniyyət və şəxsiyyət" adlandırılırdı. Başqa bir baxışa görə, bu bilik sahəsinin təməli "xalqların psixologiyası" adı altında 1860-cı ildə M.Latsarus və X.Şteyntal tərəfindən irəli sürülmüş "xalqların psixologiyası" adlı yeni fənnin yaradılması ilə qoyulmuşdur. Bu yeni fənn psixoloji antropologiyanın ilkin mərhələsi sayılır. "Xalqların psixologiyası"nın tərəfdarları xalqların dillərini, mifologiyasını, əxlaqını və mədəniyyətini müqayisəli şəkildə öyrənməklə müəyyən bir millətə mənsub olan fərdlərin psixi oxşarlığını və mənlik şüurunu ifadə edən "xalq ruhunu" aşkar etməyə çalışmışlar. Bu yöndə toplanmış empirik və nəzəri məlumatları XX əsrin başlanğıcında V.Vundt özünün 10 cildlik "Xalqların psixologiyası" əsərində ümumiləşdirmişdir. Sonralar bu istiqamətdə yeni uğurlar M.Midin, R.Benediktin, C.Dollardın və b. tədqiqatları sayəsində əldə edilmiş və nəhayət XX əsrin 70-ci illərində bu yeni istiqamətə "psixoloji antropologiya" adı verilmişdir. F.Bokkun təsnifatına görə, psixoloji antropologiya çərçivəsində "psixoanalitik antropologiya" (Freyd, Roxeym, Flyuqel, From, Erikson və b.), "mədəniyyət və şəxsiyyət" (Benedikt, Sepir, M.Mid və b.), "sosial struktur və şəxsiyyət" (Marks, Engels, Buxarin,

Veber, Merton və b.), "koqnitiv antropologiya" (Teylor, Levi-Bryül, Boas, Levi-Stros), "davranış antropologiyası" (Erkman, Vilson, Baraş və b.) kimi məktəblər fəaliyyətdədir.

Psixoloji antropologiya predmetinə görə ümumi və sosial antropologiya fənlərindən fərqlənsə də tədqiqat metodlarına görə fərqlənmir. Ümumi psixologiyada irsi xassələrlə şərtlənən psixi proseslərin qanunauyğunluğu başlıca yer tutur. Antropologiyada konkret mədəniyyətlə şərtlənən şəxsi əlamətlərin öyrənilməsi üstün yer tutur. Psixoloji antropoloqların əksəriyyəti bu fikirdədir ki, müxtəlif mədəniyyətlərə məxsus olan insanların psixikası da fərqlidir. Psixoloji antropoloqlar insan qavrayışı, idrakı, yaddaşı kimi psixi proseslərdə mədəniyyətin rolunu aydınlaşdırmağa çalışırlar.

Fransız psixoloqu K.Levi-Stros psixoloji antropologiyanın predmetinə yalnız insanın qeyri-şüuri davranışını daxil edirdi. Amma psixoloji antropologiya K.Levi-Strosun göstərdiyi yolla hərəkət etməklə XX əsrin 70-ci illərində ciddi metodoloji çətinliklə üzləşdi: məlum oldu ki, mədəni və psixoloji prosesləri vəhdətdə öyrənmək olmaz. S.V.Lurye yaranmış durumu dəyərləndirərək yazır ki, əgər elmdən uzaq, ancaq publisistik xarakterli postmodernist tənqidi qəbul etsək, onda antropologiya iki hissəyə – simvolik və koqnitiv antropologiyaya ayrılar (106). Deməli, psixoanaliz tərəfində olanlar antropologiyanı affektlər, irrasional yaxud uşaqlıq çağının qeyri-şüuri təcrübəsi sahəsinə yönəldir. T.Şvartsın sözlərilə desək, psixoanaliz antropologiyanı aqressiv təzahürləri, həzz və iztirabları, intihara meyilliliyi öyrənməyə təhrik edir; o mədəniyyəti insanın qoruyucu psixoloji mexanizmlərin fəaliyyətini mədəniyyətin səbəbi və nəticəsi kimi şərh edən mədəniyyət nəzəriyyəsi təklif edir; ancaq mədəniyyət, eləcə də cəmiyyət qeyri-şüuri hərəkətlərdən ibarət deyildir.

Bununla yanaşı, psixoloji antropologiyanın inkişafında Z.Freyd, A.Kardiner, E.Erikson, E.From və b. psixiatr və psixoanalitiklərin rolu da xüsusi qeyd edilir. Həm də psixoloji antropologiyanın klinik elm olmadığı, çoxsaylı normal, müəyyən xəstəliklərdən əzab çəkməyən insanları öyrəndiyi də vurğulanır. Müxtəlif cəmiyyətləri və mədəniyyətləri öyrənərkən müqayisəli analiz metodundan istifadə etməsi psixoloji antropologiyanı psixologiyanın çərçivəsindən kənara çıxarır, odur ki, mədəniyyətin şərhində



psixoloji antropologiya psixoanalizə müraciət etməməlidir.

Hazırda, psixoloji antropologiya çərçivəsində emosiyaların antropologiyası, şəxsiyyətin antropologiyası, psixoanalitik antropologiya, psixiatrik antropologiya, simvolik antropologiya, koqnitiv antropologiya və i.a. kimi istiqamətlər mövcuddur. Mədəniyyətin və təfəkkürün münasibəti, qeyri-şüuri davranış formaları, şüur halının dəyişilməsi, mədəniyyətdə anormallıq, milli xarakter, uşaqlıq mədəni fenomendir kimi problemlər psixoantropologiyanın əsas problemləri sayılır.

*İqtisadi antropologiya.* Bu tədqiqat sahəsi XX yüzildə fəlsəfənin, sosiologiyanın, iqtisadiyyatın və antropologiyanın qovşağında yaranıb, əmtəə mübadiləsi və xidmət sahəsində insanların qarşılıqlı təsirlərini öyrənir. X.Şrader klassik iqtisadi antropologiyanı kataklizməqədərki iqtisadiyyatı yaxud kəndli cəmiyyətlərini öyrənən elm sayır. İlkin təsərrüfat formalarının və iqtisadi münasibətlərin öyrənilməsinin önəmli olduğunu amerikan antropoloqları B.Malinovskiy və M.Moss da qeyd edirdilər (onlar iqtisadi münasibətləri istehsal münasibətləri kimi deyil, daha çox dəyərlərin bölgüsü və mübadiləsi kimi anlayırdılar).

XX əsrin ikinci yarısında iqtisadi antropologiya sürətlə inkişaf etməyə başlamışdır. Bunun səbəbini mütəxəssislər müstəmləkə sisteminin dağılması ilə Asiyada, Afrikada, Latın Amerikasında müstəqil gənc dövlətlərin yaranması ilə bağlı olaraq "ibtidai" və "qəbilə" quruluşunun iqtisadiyyatına marağın artmasında görürdülər. Üçüncü dünya ölkələri sayılan bu cəmiyyətlərin iqtisadiyyatlarının kapitalist inkişaf yoluna yönəldilməsi onların iqtisadi quruluşlarının, istehsal və əmək ənənələrinin ətraflı öyrənilməsini zəruri edirdi. Amma üçüncü dünya ölkələrinin iqtisadiyyatlarının hansı yöndə inkişaf etməsi ilə bağlı baxışlar haçalanır. Problemə formal sayılan baxışın tərəfdarları (məsələn, D.Qudfellou, R.Fers və b.) sübut etməyə çalışırdılar ki, Qərbi Avropa iqtisad elminin kateqoriyaları (məsələn, kapital, gəlir, renta, əmək haqqı) universaldır və hər bir cəmiyyətə tətbiq etmək olar. İqtisadi antropologiyanın tanınmış nümayəndəsi D.Dalton və b. formalist baxışı qəbul etmir və öz mövqelərini belə əsaslandırırdılar ki, üçüncü dünya ölkələrinin əhalisinin böyük əksəriyyəti (80%) kiçik qəbilə və kəndli icmaları halında yaşayırlar. Odur ki, yeni cəmiyyətlər, millətlər güclərini iq-

tisadi inkişafa və mədəniyyətin transformasiyasına yönəltdikdə iqtisadi antropologiyaya maraq artdı, müstəmləkəçilikdən öncəki, müstəmləkə və müstəmləkəçilikdən sonrakı dövrlərdəki qəbilə və kəndli iqtisadiyyatlarının öyrənilməsi geniş vüsət aldı.

Keçmiş SSRİ ərazisinə daxil edilmiş millətlərin sənaye istehsalı üsulunu mənimsəməsi ilə bağlı problemləri araşdıran sovet sosioloq və iqtisadçıları (Q.A.Prudenskiy, N.N.Nekrasov və b.) 1960-70-ci illərdə yazırdılar ki, Orta Asiyada, Cənubi Qafqazda və Moldaviyada tikilən iri və mürəkkəb istehsal müəssisələri yerli kadrlarla təmin edilməmişdi, çünki bu bölgələrin insanlarında sənaye istehsalına uyğun vərdiş yetərli deyildi, əhali kiçik ərazilər daxilində hərəkət edirdi, bu bölgələrin yerli əhalisi rus dilini zəif bilirdi və kadr hazırlığı az inkişaf etmişdi (125).

Yeri gəlmişkən qeyd edək ki, həmin dövrlərdə adı çəkilən bölgələrin yerli əhalisinə rus dilinin mənimsədilməsinin sürətləndirilməsinə dair Kremlin siyasəti həm də sosioloq və iqtisadçıların elmi araşdırmalarından qidalanır, ruslaşdırma siyasəti elmi əsaslar üzərində köklənirdi. O zaman əmək ehtiyatlarının təkrar yaradılması baxımından təklif edilirdi ki, milli respublikaları əmək ehtiyatlarına görə qruplaşdırmaq lazımdır. Bu kriteriya və gəlirlərin bölgüsünə görə SSRİ-nin tərkibində olan respublikaları donor və resipient qruplara ayırırdılar. Donor respublikalar ittifaq büdcəsinə vergi verənlər, resipientlər isə vergi verməyənlər idi; birincilər özlərini təmin edənlər, ikincilər ittifaq dövlətindən aldığı yardım ilə yaşayanlar idi. Azərbaycan Respublikası birincilər sırasında idi. Mütəxəssislər bu gün də RFR-də çoxsaylı böhran halında olan bölgələrin olduğunu yazır və milli xüsusiyyətləri nəzərə almaqla regionların bərabərləşdirilməsi siyasətindən danışırlar. Amma təkcə RFR-də deyil, Qərbi Avropa dövlətlərində də regional siyasət yeridilir. Orada regional siyasət nisbətən geri qalmış, sosial və iqtisadi göstəriciləri aşağı olan bölgələri orta göstəriciləri olan bölgələr səviyyəsinə qaldırmağa yönəldilmişdir. Bu məqsədlə çox vaxt müəyyən qrumlarla (struktur fondları və s.) yaşayış vasitələri nisbətən varlı ölkələrdən nisbətən yoxsul ölkələrə yönəldilir. Hazırda iqtisadi antropologiya akademik və tətbiqi baxımından olduqca önəmli sahə sayılır.

İqtisadi antropologiya ənənəvi məhsulların istehsalı, mübadiləsi və bölgüsü ilə bağlı məsələləri öyrənir. Ardıcıl gerçəkləşdirilən kross-mədəni tədqiqatlarda sənaye, ənənəvi və sənayeyəqədərki cəmiyyətlərdə istehsalın təşkili və əmək bölgüsü müqayisə edilir. Aydınlaşdırılmışdır ki, sənayeyəqədərki cəmiyyətdə əl işlərinin çoxu yaşa və cinsə görə əmək bölgüsü ilə bağlıdır. Məsələn, kişilər saxsı əşyalar hazırlayır, qadınlar səbət, çələng toxuya bilirlər. Ənənəvi cəmiyyətdə texniki təcrübə insanların yaşına və cinsinə görə bölünür. Əgər ərli arvad səbət toxuyursa, deməli, bu cəmiyyətdə ərli qadınların çoxu bu sənəti bilirlər.

Antropoloq K.Polaninin XX əsrin 50-ci illərində təklif etdiyi mübadilənin komporativ tədqiqi metdologiyasına görə müxtəlif tiplərə məxsus cəmiyyətlərdə mübadilənin üç əsas tipi vardır: *bazar mübadiləsi; yenidən bölgü; qarşılqlı mübadilə.* Bunların üçü də müxtəlif sazişləri xarakterizə edərək eyni bir cəmiyyətdə ola bilər. Amma hər bir cəmiyyətdə bu üç mübadilə tipindən yaxud metodoloji prinsipdən yalnız biri üstün ola bilər. Üstün yaxud dominant prinsip üzrə istehsal vasitələrinin bölgüsü gerçəkləşdirilir. Bazar bölgü prinsipi sənaye cəmiyyətində (o cümlədən Azərbaycanda) üstündür, yenidən bölgü prinsipi icma mübadiləsi vasitəsidir, qarşılıqlı mübadilə isə qəbilə prinsipidir.

Sənaye cəmiyyətlərində, eləcə də bütün kapitalist iqtisadiyyatında bazar münasibətləri prinsipi üstündür. Məsələn, ABŞ-da istehsal vasitələrinin (torpağın, əməyin, təbii ehtiyatların, texnologiyanın, kapitalın) bölgüsü üstündür. Bazar mübadiləsi gəlirin artırılması məqsədilə məhsulların pulla alınıb-satılmasına əsaslanır, odur ki, belə mübadilə tipini alqı-satqı mübadilə tipi də adlandırmaq olar.

İcmalarda, sənayeyəqədərki cəmiyyətlərin bəzilərində və nadir hallarda bazar iqtisadiyyatı ölkələrində yenidən (təkrar) bölgü əsas mübadilə prinsipi sayılır. Yenidən bölgü məhsulların ölkənin əyalətlərindən mərkəzə axını zamanı baş verir (keçmiş SSRİ-də bu prinsip üstün idi. İstehsal olunan kənd təsərrüfatı məhsullarının ən keyfiyyətlisi respublikalardan Moskvaya, Leninqrada (Sankt-Peterburqa) və digər iri şəhərlərə daşınırdı). İcmalarda icma başçısının yaşadığı yerə yaxın ticarət tükanı paytaxt sayılır. Paytaxta çatana qədər məhsul bir neçə yoxlamadan keçir. Paytaxtdan məhsullar sonradan mərkəzləşmiş qaydada və bazar qaydaları nəzərə

alınmadan yenidən bölünə bilər. Məhsullar hakimiyyət dairələrinin və onların yaxınlarının ehtiyacı üçün istifadə edilə bilər və bu yenidən bölgü prinsipinə əsaslanır. Sonda məhsullar yenidən mərkəzdən əyalətlərə axmağa başlayır. Beləliklə, təkrar bölgü prinsipi gerçəkləşir.

Qarşılıqlı mübadiləni iqtisadi antropoloqlar qohumluq, kəbin və ya yaxın dostluq münasibətində olan sosial cəhətdən bərabər partnyorlar arasında mübadilə növlərindən biri sayırlar. Belə mübadilə, qəbilə daxilində məsələn, bağçılar, bostançılar arasında olur.

Bərabər qarşılıqlı mübadilə partnyorların nisbi sosial qeyri-bərabər-liyini xarakterizə edir. Belə mübadilədə tərəflər verdiklərinin əvəzinə nə isə almağı gözləyirlər. Neqativ qarşılıqlı mübadilədə sosial qeyri-bərabərlik daha qabarıq təzahür edir. Belə mübadiləyə Şimali Amerikada valideynlərin uşaqlarına hədiyyələrini misal göstərmək olar. Bu mübadilə valideynlərin isti münasibətlərinin ifadəsi olub cəmiyyətin əxlaqi-mənəvi dayaqlarına yeni nəsildə sayğı aşılamaq məqsədi güdür. İcma mübadiləni tənzimləməyə meyillidir. İcma daxilində hər kəs başqaları ilə daim nəyisə paylaşırlar. Mütəxəssislər Kunq San icmalarının yaşayış tərzini öyrənərək göstərirlər ki, əhalinin 40%-ə ərzaq yardımı göstərilir, uşaqlar, yeniyetmələr və yaşlı üzvlər qəbilənin yardımçı üzvlərindən asılıdırlar. Belə icmalarda himayədə olanların sayı işçilərin sayından çox olmasına baxmayaraq burada işçilər müasir amerikalılarla müqayisədə iki dəfə az – həftədə 12-19 saat işləyirlər. İş vaxtı az olsa da icmanın bütün üzvləri daim ərzaqla təmin olunurlar. Çünki burada qarşılıqlı yardım çox inkişaf etmişdir. Yardıma görə təşəkkür nəzakətsizlik sayılır. Belə ki, yardıma görə minnətdarlıq belə cəmiyyətin əsas mövcudluq prinsipinə həqarət sayılır.

Bərabərhüquqlu mübadilə icma daxilində bir üzvün başqa bir üzvə verdiyi hədiyyənin əvəzini almağı nəzərdə tutur. Əvəz ödənilmədikdə icma üzvləri arasında münasibətlər gərginləşir. İcma üzvləri də müxtəlif sosial statuslu insanlar arasında mübadilə növü sayılan neqativ qarşılıqlı mübadilədə iştirak edə bilərlər. Daim yaxın insanlar əhatəsində yaşayan insan üçün kənar şəxslərlə mübadilə şübhəli və etibarsız hesab edilir. Bu halda o şəxslərlə mübadilə dostluq münasibəti yaratmaq yollarından biri sayılır. Belə mübadilə



qohumlar arasında qəbul olunmayan xalis iqtisadi bağlantı hesab edilir. Mübadilədə iştirak edən tərəflər arasında sosial yaxınlığın artmasından asılı olaraq onların arasında qarşılıqlı mübadilə ya bərabər hüquqlu ya da neqativ ola bilər.

Belə iqtisadi strategiya kapitalist həyatına tamam əks olan yaşam strategiyasıdır. Kapitalizmdə insanlar öz sərvətlərini həvəslə istehsalın inkişafına yatırırlar, əlavə qazanc əldə etməklə kapitallarını artırırlar, amma bunu ehtiyacı olanlara sərf etmirlər. Nəticədə sənaye cəmiyyətində təbəqələşmə artır, sənayeyəqədərki cəmiyyətdə isə azalır. Primitiv icmalarda toplanmış artıq məhsulu sərvət artırmaqdan daha çox sərf etmək ənənəsi güclüdür. Beləliklə, icmalar arasında əməkdaşlıq (eyni bir bölgə daxilində) qarşılıqlı uyğunlaşmaya xidmət edir və adaptiv dəyər önəmi daşıyır. Antropoloqlar qazanc əldə etmək deyil, nüfuz, etibar qazanmaq ardınca qaçmağı ənənəvi cəmiyyətlərin mühüm əlaməti sayırlar. Nüfuz qazanmaq uğrunda icmalar arasında, hətta rəqabət də müşahidə edilir. Antropoloqlar onu da aydınlaşdırmışlar ki, qədim qəbilələr və icmalar öz ehtiyatlarının önəmli hissəsini sosial ehtiyaclara və mərasimlərin keçirilməsinə xərcləyirlər. Hər bir icmada əmək hüququ qohumluq münasibətinə görə əldə edilir.

*Tətbiqi antropologiya.* Tətbiqi antropologiya müxtəlif mədəniyyətlərin öyrənilməsində əldə edilmiş bilikdən ibarət olub, müasir cəmiyyətdə yaranan praktiki məsələlərin həllinə yönəlir. Antropologiyanın fundamental istiqamətlərindən fərqli olaraq tətbiqi antropologiya keçmişi deyil, çağdaş problemləri öyrəndiyinə görə elmi bilik sistemində özəl yer tutur. Tətbiqi antropologiyada fiziki antropologiyanın məlumatlarından istifadə edilərək, məsələn, insan üçün münasib sayılan təyyarələrin kabinələrini, fəhlə dəzgahlarını quraşdırırlar. Amerikalılar ordu quruculuğunda və kəşfiyyatda antropoloji biliklərdən geniş istifadə edirlər. Onlar yerli qəbilələrin təcrübəsindən cəngəllikdə, səhrada Afrikada hərəkət etmək üçün istifadə edirlər. Amerika etnoqrafları, hətta iyli balığı təzə balıqdan necə fərqləndirmək haqqında təlimat hazırlayıblar. Hərbçilər isə onu dərhal məxfiləşdirdilər.

ABŞ Tətbiqi Antropologiya Cəmiyyətinin müəyyənləşdirdiyinə görə tətbiqi antropologiya müşahidə, etnoqrafik müsahibə metodlarından, nəzəriyyələrdən müştərilərə kömək məqsədilə prak-

tiki layihələrin hazırlanmasından ibarətdir. Bu sahənin mütəxəssisləri müəllimlərlə, bank məsləhətçilərilə, marketinqlərlə, reklamçılarla, səhiyyə işçilərilə, miqrasiya xidməti əməkdaşları və s. işləyirlər. Tətbiqi antropologiya sayəsində sənaye dövlətlərinin hökumətləri inkişaf etməkdə olan (üçüncü dünya) ölkələrinin mədəni özəlliklərinə diqqətlə yanaşmağı və mədəniyyətlərin qarşılaşmasında yarana bilən neqativ nəticələri proqnozlaşdırmağı öyrənmişlər. Ötən əsrin 60-70-ci illərində mütəxəssislər beynəlxalq layihə hazırladılar. Antropoloji məlumatlara əsaslanmayan bu layihə üzrə sənaye ölkələri Afrikanın öz ənənələrilə yaşayan, çalışan cəmiyyətlərinə yardım etməyə başladılar. Yardım bu cəmiyyətlərin kənd təsərrüfatını mexanikləşdirmək yolu ilə məhsul istehasılını artırmağa və fermer təsərrüfatına keçirilməsinə; kənd təsərrüfatı məhsullarının beynəlxalq bazara eksport edilməsi əsasında onların pul kütləsini artırmağa; işçi qüvvəsinin kənddən şəhərə gəlməsinə şərait yaratmaqla şəhərdə ucuz işçi qüvvəsi hesabına iri sənayeni inkişaf etdirməyə yönəldilmişdi. Bu yolla sənaye dövlətlərinin hakimiyyətləri, iri biznes çevrələri ibtidai icma quruluşu qaydaları ilə yaşayan ənənəvi cəmiyyətin insanlarını yeni sosial həyata başlamağa, fermer iqtisadiyyatını və texnikanı öyrənməyə məcbur edirdilər. Amma gözlənilən nəticə alınmadı: şəkərin və qəhvənin artıq miqdarda xarici bazara çıxarılması xammalın qiymətinin aşağı düşməsinə səbəb oldu və insanların maddi rifahı yüksəlmədi; mexanikləşdirmə kiçik fermerləri iflasa uğratdı, çünki iqtisadi yöndən, yalnız iri təsərrüfatlar gəlirli idi; kənddən şəhərə işsizlər kütləsi axırdı və şəhərlərdə işsizlər ordusu yaranırdı; Amerika nümunəsi əsasında yaradılan demokratik təsisatlar aborigen mədəniyyətlərdə kök ata bilmədi; iqtisadi sabitsizlik və sosial qütbləşmə gücləndi; vətəndaş müharibələrinin və siyasi çevrilişlərin sayı artdı. Bu nəticələr, hazırda Qərb ölkələrini aborigen mədəniyyətlərə diqqətlə yanaşmağa məcbur etdi, antropoloqların yardımına ehtiyac artdı.

Antropologiyanın tətbiqi və fundamental istiqamətləri bir-birini tamamlayaraq, vəhdətdə inkişaf edirlər. Bu sahələr arasında daim yeni təcrübi, empirik məlumatların və nəzəri uğurların mübadiləsi baş verir. Məsələn, öncə ümumi antropologiyada yaranmış "ilkin qrupp" anlayışı, sonradan sənaye antropologiyasına keçirilmiş və orada "qeyri-formal qrup" anlayışı kimi formalaşmışdır.



Tətbiqi antropologiya çərçivəsində iki müstəqil istiqamət ayrılmışdır. Biri mədəni ekologiya, digəri paleoekologiya adlanır. Onların hər ikisi insanların istehsal fəaliyyətinin ətraf mühitə təsirini öyrənir. Fərq ondadır ki, ekoantropologiya çağdaş dövrü, paleoantropologiya isə qədim dövrü öyrənir.

*Ekoloji antropologiya*. Adından göründüyü kimi, bu yöndə tədqiqatın süni və təbii mühitlərin yaxud "ikinci" və "birinci" təbiətin vəhdətini aydınlaşdırmaqdır. Bu məqsədlə "ekosistem" anlayışı tədqiqata giriş kimi götürülür. Tədqiqatçıları ilk öncə bütövlükdə planetimizin yaxud onun ayrı-ayrı coğrafi bölgələrinin məhsuldarlığına görə insanların məskunlaşması, nəqliyyatın və rabitə vasitələrinin inkişafı, kəşfiyyatın konkret texnologiyası və faydalı qazıntılar aparılmasının əlaqələndirilməsi, insanın təbiətlə maksimum harmoniyada olduğu kənddən bu harmoniyanı münaqişəyə çevirən şəhərə axınının insan mədəniyyətinə təsiri maraqlandırır. Alimlər əzəldən məskunlaşan əhalinin sıxlığına görə onların şəhər yaxud əyalətə məxsus olduğunu müəyyənləşdirirlər.

Hazırda yabanı bitkilərdən müalicə vasitəsi kimi istifadə edən ənənəvi təbabətin təkamülü problemi, ekoloji antropologiyanın əsas mövzularından biri sayılır. Alimləri ibtidai qəbilələrin və mədəniyyətlərin müalicəvi otları necə seçdiyi, təsnifləşdirdiyi və xassələrini necə müəyyənləşdirdiyi maraqlandırır. Onlar tibet təbabətilə keltlərin ənənəvi təbabətini, bitkilərin növləri ilə dini ayinlərin əlaqəsini müqayisə edərək cəmiyyətin sosiomədəni inkişafına dair dəyərli məlumatlar əldə edirlər. Alimlər aborigenlərdən ənənəvi təbabətə dair məlumat əldə etmək üçün onların yaşadığı ən ucqar dağ kəndlərinə gedirlər. Son illər savadlı avropalılar və amerikalılar arasında ekoloji və arxeoloji turizm ənənəvi hal almışdır. Buna XX əsrin əvvəllərində ermənilərin Azərbaycanın Quba rayonunda azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğını əyani təsdiq edən məkana qərbli turistlərin axı-nını misal göstərmək olar. Ekoloji antropoloqları, həmçinin Amazon sahillərində və Yeni Zellandiyada məskunlaşmış aborigenlərin varlığı, texniki tərəqqinin bitki və heyvanlar aləminə təsiri – antropogen yükü, Yerin atmosferi, su mənbələri və onların qorunub saxlanması ilə bağlı məsələlər düşündürür.

Ekoloji antropologiyaya daha yaxın bir sahə *invayromental*

*antropologiyadır* (ingilis sözü environment – ətraf mühit). Tətbiqi antropologiyanın nisbətən gənc sahəsi sayılan invayromental antropologiyanın başlıca məqsədi təbiətin qorunmasına yönəlmiş siyasətin formalaşmasında hökumətə və özəl kompaniyalara praktiki yardım etməkdir.

Antropologiyanın başqa bir sahəsi də *biznes-antropolo-giyadır.*

*Biznes antropologiya.* Bu sahə üzrə ixtisaslaşmış univer-sitetlər və sosioloji laboratoriyalar üç istiqamətdə iş aparır: marketinq və istehlakçıların davranışı; təşkilati nəzəriyyə və mədəniyyət; beynəlxalq biznes. Artıq ötən əsrin 30-cu illərindən ABŞ-da aparılan tədqiqatların başlıca məqsədi antropologiyanın nəzəriyyə və metodlarının praktiki tətbiqi vasitəsilə kommersiya sektoru və sənaye müəssisələrinin rəhbərlərinin qarşılaşdığı konkret problemlərin həllinə nail olmaqdır.

Hazırda bu sahənin mütəxəssisləri əməyin məhsuldarlığını əngəlləyən yaxud onu sürətləndirən mədəni dəyişiklikləri öyrənirlər. Onlara ehtiyac ildən-ilə artır. Belə ki, 20 il ərzində özəl sektorda çalışan antropoloqların sayı 2%-dən 15%-ə qalxmışdır. Ekspertlərin rəyinə görə, onlar bilavasitə müşahidə yolu ilə menecerləri yeni məlumatlarla təmin edirlər.

Hazırda dünya miqyasında millətlərarası münasibətlər sahəsində antropoloqlara daha çox ehtiyac olduğu bildirilir. Çünki indi transmilli korporasiyalar və multimilli kompaniyalar, yalnız antropoloji hazırlığı olan mütəxəssislərin həll edə biləcəyi problemlərlə qarşılaşırlar. Belə iri beynəlxalq miqyaslı təsisatlarda müxtəlif millətlərin nümayəndələri çalışırlar, onların arasında isə dil və mədəni ayrılıqlar birgə fəaliyyət üçün əngəl olur. Antropoloqlar müəyyənləşdirmişlər ki, cəmiyyətlər arasında mədəni fərqlər ədədi silsilə ilə artırsa, müxtəlif mədəniyyətlərə məxsus insanlar arasında mədəni əlaqələrin çətinləşməsi həndəsi silsilə ilə artır. Çox vaxt bu səbəbdən sənaye müəssisələrinin işində durğunluq yaranır, qəzalar baş verir. Eyni iqtisadi məsələnin həlli ilə məşğul olan müxtəlif mədəniyyətlərə məxsus işçilərin bir-birini anlaya bilməməsi, yaxud tam anlamaması üzündən maliyyə məsrəfi çoxalır. Hətta iqtisadi ziyan işçilərin peşə səriştəsizliyindən daha çox onların mədəni müxtəlifliyindən və bir-birini anlamamasından irəli gəlir. Bu hal istehsalçılar və istehlakçılar arasında da yaranır. Məsələn, Pepsi cola



kompaniyası Malayziyaya öz məhsullarını yaşıl bankalarda göndərmişdir. Malayziyalılar bundan çox təsirlənmişlər, çünki onlarda yaşıl rəng xəstəlik və ölüm rəmzi kimi qəbul edilir.

Planetdə sürətlə davam edən qloballaşma və müxtəlif sosial-siyasi, iqtisadi və mədəni sistemlərin bir-birinə nüfuz etməsi dənizlərin, okeanların və siyasi quruluşların ayırdığı ölkələrin mədəni inteqrasiyasını olduqca mühüm məsələ kimi gündəmə çəkir. Onun həllində beynəlxalq bizneslə antropoloqların fikir və iş birliyinin yaranması çox məhsuldar sayılır. Odur ki, gənc və istedadlı antropoloji kadrlara zəruri tələbat getdikcə daha çox hiss edilir. Antropoloq – məsləhətçilərə tələbatın artması həm də onunla bağlıdır ki, bir çox biznesmenlər Asiya, Latın Amerikası və Şərqi Avropa ölkələrində bazar uğrunda rəqabət aparırlar. Daha çox və tez nüfuz qazanmaqda antropoloji məlumatdan istifadə edilməsi onlara önəmli uğur qazandırır. Dünyanın yüksək texnologiya sahəsində çalışan Apple, Motorola, İntel və digər aparıcı kompaniyaları lazımi qədər antropoloq və etnoqraf ştatları müəyyənləşdirirlər. Bu yerləri tutan antropoloqlar mədəni azlıqların yaşadığı, gerçək, təbii mühitdə dərin müsahibə, müşahidə və videoyazı metodları vasitələri ilə insanların mədəni davranışlarını aydınlaşdırırlar. Vərdiş etdikləri şəraitdə insanların davranışlarının müşahidəsindən əldə edilən nəticələrə görə, kommersiya firmaları üçün hazırlanan hesabatda göstərilir ki, dizayn və idari qərarların qəbul edilməsi bu nəticələrə əsaslanır.

Hazırkı qloballaşma iri kompaniyalar arasında iri bazarlar uğrunda rəqabəti daha da kəskinləşdirir. Yaponiyanın nəhəng avtomobil şirkətlərini qabaqlamağa çalışaraq Amerika şirkəti Chrysler Çin bazarlarına girir, bu ölkənin ən ucqar kəndlərinə özünün ən yeni kənd təsərrüfatı maşınlarını çıxarır. Motorola İnc. kompaniyası bazar uğrunda rəqabəti hiss edən kimi Çin bazarlarını tutmaq üçün yeni maşınlara Çin kəndlilərinin tələbatını öyrənmək üçün etnoqraflardan ibarət bir qrup göndərmişdir. Avtomobil istehsalı ilə məşğul olan nəhəng Ford, Motor Co Ford Focus modelini bazara çıxaranda antropoloqlardan ibarət komanda yaratmışdı. Ona ömrünün yarısını Yeni Qvineya qəbilələrini öyrənməyə həsr etmiş və indi dünyanın bir çox ölkələrində mədəni ekspert kimi tanınan T.Maşio başçılıq etmişdir.

Antropoloji təhsil insanda mədəniyyətə bütöv bir sistem kimi

yanaşma aşılamaqla yanaşı, müxtəlif mədəniyyətlərdə özünəməxsus universal əlamətləri və qanunları fərqləndirmək üçün müqayisəli baxış formalaşdırır. Bununla da insanların mədəniyyətlərə münasibətdə davranışlarını idarə edir.

*Antropozoologiya.* Bəşəriyyətin sosiomədəni inkişaf tarixi bütün zamanlarda heyvanların həyatı ilə qırılmaz bağlı olmuşdur. Hər bir sivilizasiya heyvanlardan müxtəlif məqsədlər üçün istifadə etmişdir. Onlar insanların özlərinin və əmlaklarının qoruyucusu, qoşqu və nəqliyyat, itən əşyalarını axtaran vasitələr kimi istifadə edilmişlər; heyvanların dərilərindən geyimlər hazırlanmış, ətlərindən qidalanmışlar; heyvanlardan elmi eksperimentlər üçün laboratoriya materialı kimi istifadə etmişlər. Heyvanlar xalq nağıllarında xilaskar kimi təsvir edilmişlər, heykəltəraşlıq təsvirlərinin obyekti olmuşlar və i.a.

Antropologiyanın bir sahəsi kimi antropozoologiya yaxud etnozoologiya müxtəlif epoxalarda və mədəniyyətlərdə insanlar və heyvanlar arasında qarşılıqlı münasibəti öyrənir. İnsanlar on min il öncə heyvanları əhliləşdirməyə (domestikasiya) başlamışlar. Onlardan iki istiqamətdə: təsərrüfat (ovçuluq, heyvandarlıq, əkinçilik və s.) və mədəniyyət (bədii ədəbiyyat, mərasimlər və s.) sahələrində istifadə etmişlər. Bunlar antropozoologiyanın predmet sahəsini təşkil edir. Antropozoologiya (etnozoologiya) tədqiqat sahəsi kimi zoologiya və etnoqrafiyanın qovşağında yaranmışdır. Antropozoologiya və etnobotanika bunlardan nisbətən geniş fənn sayılan etnik ekologiyanın bölümləri sayılır. Onları bəzən "etnozoobotanika" adı altında birləşdirirlər.

Antropozoologiya üzrə ilk tədqiqatlar XX yüzilin 80-ci illərində həyata keçirilmiş, 1991-ci ildə isə Beynəlxalq antropozooloji cəmiyyət yaradılıb. Onun yaradıcıları əmindirlər ki, XXI yüzildə insan və təbiət münasibətlərində yaranmış münaqişə və katastrofik durumun aradan qaldırılması başlıca problem olacaq və antropozooloji məsələlər daha da aktual olacaq. Bu beynəlxalq cəmiyyətin rəsmi orqanı "Antropozoologiya" adlanır və ABŞ-da nəşr olunur. İngiltərədə isə Antropozoologiya İnstitutu təsis edilmişdir.

*Vizual antropologiya.* Antropoloji tədqiqatın bu istiqaməti elmi-idraki və sənədli kinematoqrafiyanın tarixi ilə daim sıx bağlı olmuşdur. Hələ XIX əsrin sonlarında Amerika antropoloqu A.Xeddon



Torres körfəzinə ekspedisiyaya yollanarkən özü ilə Lümer fotokamerası götürmüşdü və o zamandan kinoaparat, sonralar isə videokamera antropoloji tədqiqatlar vasitəsinə çevrilmişdir. Tədqiqatçılar bu vasitələrdən istifadə edərək ilk sırada az bəlli olan, öyrənilməmiş məskənlərdə ekzotik mədəniyyətlər üzrə çəkilişlər aparmışlar. Texnogen sivilizasiyanın bu mədəniyyətlərin varlığı üçün yaratdığı təhlükədən ehtiyat edərək antropoloqlar bu mədəniyyətlərə xas olan xüsusiyyətləri, adət və vərdişləri, başqa sözlə, onlar üçün müqəddəs olan nə varsa hamısını çox tezliklə videokameralara həkk etdirməyi qərarlaşdırmışlar. Bu məqsədlə Qərbdə XX əsrin başlanğıcında iri audiovizual məlumat fondu yaradılmışdı ki, bu fond viziual antropologiyanın müstəqil tədqiqat sahəsinə çevrilməsində önəmli rol oynamışdır. XX əsrin sonuncu rübündə (1984-cü ildə) isə ABŞ-da Vizual Antropoloji Cəmiyyət təsis edilmişdir. Bu cəmiyyət antropoloqların qarşısında fotoşəkillər çəkmək və kinofilmlər yaratmaqla yanaşı, həm də dünyanın müxtəlif xalqlarına aid mədəni jestlərə, rəqslərə, toy-düyün və hüzr mərasimlərinə, bədii simvollara həsr edilmiş kamerasız sənədli qaynaqlar əldə etmək vəzifəsini irəli sürmüşdür.

Hazırda vizual antropologiya nadir və qeyri-adi mədəniyyətlərə ənənəvi marağını saxlamaqla yanaşı sosial, bədii, pedaqoji, dini və dində antropoloji olayları da təsvir etməyə çalışır. Müəlliflər mədəniyyətin videomonitorinqini əvəzsiz vasitələrdən biri sayırlar. Monitorinqi keçirilən mədəniyyətin tarixi gedişinin açılmasında bu üsulun imkanlarına yüksək dəyər verirlər.

Mütəxəssislər yazırlar ki, indi vizual antropologiya yalnız çəkilişlər və filmlər yaratmaqla, fotoqrafiya və səslərin yazılması ilə kifayətlənmir. Onun predmet sahəsinə ekranlaşdırılmış materialların toplanması, qorunması və yayılması ilə yanaşı nəzəri və empirik tədqiqat işləri, vizual antropologiyanın ideya və materiallarının təhsil və mədəniyyət sahəsində təlimi, təbliği və tətbiqi məsələləri də daxildir. Audiovizual antropologiyanın inkişafında çağdaş elektron texnikası vasitələrinin rolu xüsusi qeyd edilir. Çağdaş informasiya texnologiyasının əhəmiyyəti ondadır ki, müasir kompüterlər, videokameralar, sinxron yazılar, multimedia sistemləri və s. dərhal kadrların surətini çıxarmağa, filmləri montajlaşdırmağa, virtual sənədləri böyük həcmdə işə daxil etməyə, arxivləşdirməyə və onun

əsasında audivizual məlumat bankı yaratmağa və beynəlxalq məlumat mübadiləsini gerçəkləşdirməyə imkan verir.

*Pedaqoji antropologiya.* Antropoloji tədqiqatın bu sahəsi təhsil fəlsəfəsi və nəzəri pedaqogikada bir istiqamət olub XX yüzilin 60-70-ci illərində yaranmışdır. MDB ölkələri arasında yalnız RFR-də pedaqoji antropologiya müstəqil nəzəri və tətbiqi fənn kimi inkişaf etdirilir.

"Pedaqoji antropologiya" terminini fəlsəfə elminə ilk olaraq İ.Kant gətirmiş, ona dair "Pedaqogika haqqında", "Filantropiyaya aid iki məqalə" adlı əsərlər yazmış və bu əsərlərdə özünün pedaqoji ideyalarını şərh etmiş, təlim, tərbiyə və təhsil vasitəsilə insanların formalaşmasında və kamilləşməsində pedaqoji antropologiyanın əhəmiyyəti və lazımlılığını əsaslandırmışdır. Bu işləri sayəsində Kant pedaqoji antropologiyaya həyat vermişdir. Odur ki, tədqiqatçılar haqlı olaraq, Kantı pedaqoji antropologiyanın banisi sayırlar. Bu fənnin yaranması insan təbiətinin qüsurlu olması haqqında təsəvvürlərlə sıx bağlı olmuşdur. Mütəfəkkirlər düşünmüşlər ki, insan təbiətən qüsurludursa, mənəvi təsir etməklə onu dəyişdirmək olmazmı? Cəmiyyətdə insan təbiətini təkmilləşdirmək vasitələri vardırmı? Bu suallara cavablar axtarışının gedişində pedaqoji antropologiya formalaşmışdır. Onun təyinatı və hədəfi təlim-tərbiyə vasitəsilə insanı pak, nəcib və mükəmməl etməkdir. Bu vəzifələrin yerinə yetirilməsinə pedaqoji antropologiya insan təbiətinin tənqidindən başlayır, amma qarşıya başqa bir sual da çıxır: insan təbiətini necə mükəmməlləşdirmək olar?

Pedaqoji antropologiyanın predmetinin formalaşmasının və metodlarının müəyyənləşməsinin öz tarixi vardır. XX yüzilin 60-70-ci illərində Qərbi Avropa alimləri pedaqoji antropologiyaya fəlsəfi antropologiyanın təhsil prosesinə tətbiqi kimi baxırdılar. XX əsrin 60-90-cı illərində bu fənn Almaniyada fəal inkişaf etdirilmiş və beş yanaşma irəli sürülmüşdür: Q.Rot və A.Flitner onu *inteqrativ-elmi*, O.Bolnov və V.Lox *fəlsəfi-antropoloji*, M.Lanqeveld *fenomenoloji*, V.Klavki *dialektik-refleksiv* (təhsilə fərdin özünüreallaşdırması kimi baxan fənn), dialoji fənn kimi müəyyənləşdirdilər. Bu yanaşmalarda təhsilin subyekti olmasını insanın mahiyyəti kimi müəyyənləşdirmişlər.

Rusiyada XX əsrin 30-cu illərinə qədər pedaqoji antropologiya



"pedalogiya" adı altında inkişaf etdirilmişdir. Tanınmış pedaqoq-alim K.D.Uşinskiy təhsilə antropoloji yanaşma ideyasını inkişaf etdirmiş və antropologiya fakültəsinin təsis edilməsini təklif etmişdi. Amma Rusiyada pedaqoji antropologiya xüsusi elmi-pedaqoji tədqiqat istiqaməti kimi yalnız 80-ci illərin ikinci yarısında dirçəldilmiş (B.M.Bim-Bal, B.V.Emelyanov və b.) və RFR təhsil sisteminə yalnız 90-cı illərdə müstəqil fənn kimi daxil edilmişdir.

Rusiya antropoloqu A.P.Oqursov pedaqoji antropologiyanı bütövlükdə təhsilin antropoloji əsaslandırılması adlandırır. O yazır ki, pedaqoji antropologiya insanın təlim və tərbiyəsinə qulluq edən insanşünaslıq elmidir. Bu elm bioloji varlıq kimi insanın necə insanilə̧şməsini və müxtəlif yaşlı insanların bir-birinə necə təsir etdiyini öyrənməyə can atır. Uşağın müxtəlif yaş dövrlərinə uyğun tərbiyəsi, insanın şəxsiyyətləşməsinin səbəbləri və gedişi, müxtəlif sosial qrupların xarakteri və şəxsiyyətin onlarla qarşılıqlı təsiri məsələləri pedaqoji antropologiyanın predmetinə daxil edilir (46). Antropoloji yanaşma təhsil proseslərinə dair biliklərin insan təbiəti haqqında biliklərlə əlaqələndirilməsini nəzərdə tutur, pedaqoji biliyin alınmasını insanın pedaqogikaya inteqrasiyasını təmin edən metodla bağlayır, şəxsiyyətləşmənin inkişafı problemlərinin nəzəriyyəsi və metodologiyasının yaradılmasının əsasında duran antropoloji aksiomatika dayanır.

Mütəxəssislər pedaqoji antropologiyanın predmetinə, həmçinin pedaqoji "xəstəliklər", onların əlamətləri, daxili və xarici səbəbləri və inkişafı, onların terapeyası və profilaktikası haqqında təlimin işlənib hazırlanmasını da daxil edirlər. Pedaqoji xəstəliklər arasında könlün və ruhun antropofobisi (bəd ruhi hal, törəmə), ekzistensial boşluq, hakimiyyət düşkünlüyü xüsusi təhlükəli sayılır. Bu pedaqoji patalogiyaların təsvirinin və ondan irəli gələn nəticələrin nə dərəcədə zəruri olduğunu anlamaq isə çətin deyil.

*Dini antropologiya.* Antropoloji araşdırmanın bu istiqamətinə dair məsələlər rus filosofu N.A.Berdyayevin "Yaradıcılığın mənası", "İnsan problemi" və digər əsərlərində müzakirə olunur (43; 44). O yazır ki, dini antropologiyanın köklərini F.Dostoyevskinin yaradıcılığında da axtarmaq lazımdır. Belə ki, onun bütün yaradıcılığı antropoloji təcrübələrdən və eksperimentlərdən ibarətdir. Dostoyevskiy yazıçı-realist deyildir, eksperimentçidir, insan təbiətinin təcrübi

metafizikasının yaradıcısıdır... O, bədii-qnostik antropologiyanın bənzərsiz tipini yaratmışdır. Berdyayev insan təbiətinin və insan ruhunun daha çox Rusiyada araşdırılmasını vacib sayırdı. O, rus təbiətindəki dönüklüyün, sərsəriliyin və qəribəliyin digər sosiomədəni fenomenlərlə yanaşı dini antropologiyanın predmeti olacağını düşünürdü. Hələ XX yüzilin başlanğıcında Berdyayev yazırdı ki, xristianlığın dünyaya, mədəniyyətə, cəmiyyətə, çağdaşlığa münasibəti rus xristian fikrini hər zaman narahat etmiş dini antropoloji problemdir. Pravoslav antropologiyasının fəlsəfi təliminin birinci müəllifi rus filosof və ilahiyyatçısı V.İ.Nesmelov sayılır.

Elmi və ilahiyyət fənni sayılan dini antropologiya mədəniyyətdəki hazırki durumun izahında həlledici amil sayılır. M.Şeler, A.Qellen, Q.Plesner və b. Qərb tədqiqatçıları Allah və insan dialoqunun gedişində insanın və insanlığın var olması probleminin həllini dini antropologiyanın əsas məsələsi sayırlar. Onların fikrincə, bu antropoloji tədqiqat istiqamətini, özəlliklə insanın yaranışı və inkişafı, ölüm qarşısında mövcudluğun mənalandırılması, günah, bağışlanma teoloji tanatologiya, dinin antropoloji köklərinin axtarışı, Allahın varlığının antropoloji sübutu; teologiya və antropologiya insanın yaşayış mühiti və sivilizasiyanın gələcəyi; noosfera və antroposfera və digər məsələlər xüsusilə maraqlandırır. A.Toynbiyə görə, mədəniyyətin özünəməxsusluğu dinlə müəyyən olunur. V.Solovyova və N.Moiseyevə görə isə əksinə, mədəniyyət özünə uyğun dini seçir. Bu məsələlər dini antropologiya çərçivəsində araşdırılır. Bu fənnin daxilində bütpərəstlik, islam, semit, xristian, pravoslav, katolik, protestant kimi antropoloji qollar fəaliyyət göstərir.

*Kəndşünaslıq.* Bu tədqiqat istiqaməti etnoqrafiyanın, sosiologiyanın, tarixin, iqtisadiyyatın və antropologiyanın qovşağında XX əsrdə yaranmışdır. Onun predmeti kəndli cəmiyyətləridir. Öz predmetinin öyrənilməsi gedişində kəndşünas alimlər dünyanın müxtəlif bölgələrində yaşayan bütün kəndlilər üçün ümumi əlamətləri aşkar etmişlər. Bunlar ailə təsərrüfatından, əkinçilikdən, ənənəvi kənd mədəniyyətindən, sosial iyerarxiya sistemində aşağı pillədə dayanmaqdan ibarətdir (66). Kəndlinin antropoloji yöndən səciyyələndirilməsi üçün onda təbii, təsərrüfatçılıq və sosial özəlliklərin birləşdiyini yəni təsərrüfat fəaliyyətinin təbiətin ritminə



tabe etdirilməsini, bu fəaliyyətin ailədaxili və qonşular arasında münasibətlərlə bağlı olduğunu, fərdiliyin qabarıq olmadığını, fərdlər arasında sosial bağların üstün olduğunu qeyd etmək lazımdır. Kəndşünaslıq baxışı üçün əkinçilik sadəcə məşğuliyyət yaxud qazanc əldə etmək üsulu yox, həyat tərzidir. Bu əlamət kəndlini özünəməxsus insan tipi kimi kəndşünaslıqda izah etməyə əsas verir. Başqa sözlə, torpağa kəndli münasibəti, həyat tərzi sayılır. Əzəldən özündə mənəvi və maddini, insan dünyası ilə təbiəti birləşdirən əkinçiliyi, tədqiqatçılar mərasimlərdə tərənnüm edilən sakral (dini mahiyyətli) akt, hərəkət, müqəddəs iş sayırlar. Kəndli üçün dünyanın mifoloji qavranması səciyyəvidir.

Kəndşünaslıq üzrə tədqiqatlarda kəmiyyət metoduna deyil, keyfiyyət metoduna, kəndli həyat tərzi haqqında məlumatların statistik qeydiyyatına deyil, olayların mənasının şərhinə üstünlük verilir. Tədqiqatçının öyrənilən qrup ilə dialoqu, çoxölçülü şərhlər axtarışı kəmiyyət metoduna, başqa sözlə, reallığın dərki eyni bir hadisəyə müxtəlif baxışlara və ayrı-ayrı maraqların təsvir edilməsinə əsaslanır. Belə yanaşma çağdaş kəndlişünaslığın statistik tədqiqatdan sosial antropologiyaya doğru ciddi bir addım atdığını təsdiq edir. Burada tədqiqat obyekti kənd evi, kəndli birliyi və rayon sayılır. Sosial antropologiyada olduğu kimi burada da tədqiqat ayrıca fərddən, onun ailəsindən, qohumlarından, qonşuluq və dostluq birliyindən, fermadan, kənd icmasından başlanır. Kəndlişünaslıqla antropologiyanı müqayisə edərək nəticəyə gəlinir ki, onlar eyni obyektə oxşar metodlar yəni kiçik insan qruplarına keyfiyyət üsulu tətbiq edirlər. Onun sayəsində kəndli birliyi xüsusi mədəni təcrübələrin, davranış modellərinin toplamı, fərdi və ailə səviyyələrinin strategiyası və mikrostrategiyası, sosial qarşılıqlı yardım və asılılıq silsiləsi kimi aşkar edilir.

Yeni nəzəri-metodoloji istiqamət sayılan kəndlişünaslığın nümayəndələri elmi konsepsiyanın yaradılmasında və empirik metodların tətbiqində iki tip qaynaqlara (tarixi arxivlərə və dərin müsahibələrə, həmçinin sosioloji məlumatlara) müraciət edirlər.

A.V.Qordon kəndlişünaslıq tədqiqatlarında dörd istiqamət ayırır: 1) "təsərrüfatdan"; 2) "icmadan" (kənd mikrokosmunun sosial təşkilindən); 3) "mədəniyyətdən" (kiçik ənənədən); 4) "əhatədən" (kəndlilərin makrososiumda vəziyyətdən çıxış edən istiqamətlər).

A.V.Qordona görə, tədqiqat predmeti kimi kəndli feodal formasiyası tarixində, kənd təsərrüfatı iqtisadiyyatının təhlilində, dövlətin aqrar siyasətinin şərhində və ya xalq ənənələrinin təsnifatında diqqətdən kənarda qalmışdır. Hətta Qərbin və Şərqin kənd əhalisinin tarixini təsvir edən çoxcildli əsərlərdə müəlliflərin çoxunda kəndlini təsvir edən xüsusi nəzəriyyə yaxud fənnə ehtiyac yarandığı gözə dəymir. Bununla belə, bir çox müəlliflər kənd-li təsərrüfatının özünəməxsusluğunu, sosial quruluşunu, siyasi davranı-şını, kollektiv şüurunu izah edən nəzəriyyənin formalaşdırılmasının zəruri olduğunu duyurdular. Bu zəruri ehtiyac Qərbdə bir sıra nəzəriyyələrin yaranmasına təkan verdi. Kəndlini xüsusi mədəni və sosial-iqtisadi fenomen kimi izah edən maraqlı elmi nəzəriyyələrə "Kəndlinin əxlaqi iqtisadiyyatı" (C.Skott), "Rifahın məhdudluğu" (C.Foster), "Paylaşılan yoxsulluq" (K.Hers) və b. nəzəriyyələri nümunə göstərmək olar. Bu sıraya V.V.Krılovun 1960-1970-ci illərdə formalaşdırdığı "Təbii məhsuldar qüvvələr" və digər konsepsiyaları da əlavə etmək gərəkdir. A.V.Qordon Marksın "ünsiyyət" və "cəmiyyət" kateqoriyalarına uyğun olan "Təbii sosiallıq" konsep-siyasını da kəndlişünaslıq baxımından əhəmiyyətli sayır.

## 1.4. Antropologiyanın sosiologiya, etnologiya və etnoqrafiya ilə qarşılıqlı əlaqəsi

*Antropologiya və sosiologiya.* İnsanı və cəmiyyəti öyrənən bu iki fənni, tədqiqatçılar onların öyrəndiyi cəmiyyətin tipinə görə fərqləndirirlər. Amerika antropoloqu K.Kottak yazır ki, sosioloqlar əvvəldən Qərb sənaye cəmiyyətini, antropoloqlar isə sənayeyə qədərki cəmiyyəti tədqiq etmişlər. Başqa sözlə, sosiologiya kütləvi cəmiyyəti, antropologiya isə ekzotik cəmiyyəti öyrənir.

Amma indi sosiologiya antropologiyanın predmet sahəsinə – üçüncü dünya ölkələrinə də əl uzadır. Antropoloqlar isə yalnız ənənəvi cəmiyyətləri deyil, öz inkişafında geri qalmış ölkələrdə baş verən sənayeləşmə və urbanizasiya proseslərini də araşdırırlar. Bununla da hazırda antropologiya və sosiologiya həm metodları, həm də tədqiqat obyektləri üzrə yaxınlaşırlar.

Antropologiya və sosiologiyanın ümumi cəhətləri çoxdur. Antropologiyanı hətta qədim cəmiyyətlərin sosiologiyası da adlandırırlar. İnsanın yaranışını, onun təbii-tarixi təkamülünü



(antropogenezi), onun kəllə qutusunu, skletini, əllərin funksiyasının dəyişilməsini, təfəkkürünün formalaşmasını, həmçinin kiçik insan qrupunun-qəbilənin tarixi təkamülünü, adət və ənənələrini, davranış normalarını, həyat tərzini, təsərrüfat həyatını, hakimiyyət tiplərini, qohumluq və ailə formalarını öyrənən antropologiya *fiziki antropologiya* adlanır. Antropologiyanı bəşəriyyətin tarixi keçmişi, sosiologiyanı isə onun indiki halı maraqlandırır.

Bəzən eyni bir tədqiqatçının işlərində antropoloji və sosioloji istiqamətlər çarpazlaşır. Məsələn, tanınmış fransız sosioloqu E.Dürkheym həm də antropologiyanın banisi sayılır. Müasir dövrün ən böyük fransız sosioloqu P.Burde (1930-2002) özünün "Əlcəzairin sosiologiyası" (1961) və "Əlcəzairdə əmək və əməkçilər" adlı əsərlərində Əlcəzair aborigenlərinin (berberlərin) kəbin bağlantılarını, adət-ənənələrini, mədəni təcrübəsini şərh etmişdir. Burdenin mədəniyyətin sosiologiyasına dair tədqiqatları tədricən antropoloji istiqamət almışdır. Amma o bu fənlərin fərqləndirilməsini uydurma adlandırmışdır.

Burdenin baxışlarına güclü təsir etmiş fransız psixoloqu K.Levi-Stros isə sosiologiya və antropologiyanın predmetlərini psixi fəaliyyətin səviyyələri üzrə fərqləndirməyi təklif etmişdir. Onun fikrincə, sosiologiya şüurlu fəaliyyəti, antropologiya isə qeyri-çüuri fəaliyyəti (adət və ənənələri) öyrənməlidir. M.Veber də K.Levi-Strosun təklif etdiyi meyara uyğun fikir söyləmişdir: məqsədli rasional hərəkətləri sosiologiya öyrənməli, affektiv və ənənəvi hərəkətləri isə antropologiya tədqiq etməlidir. Amma bəllidir ki, affektiv hərəkətləri (*hissi yaşantılar – qəzəb, həyəcan* və s.) psixologiya elmi öyrənir, ənənəvi hərəkətlər isə tamamilə antropologiyanın predmetinə aiddir.

Çikaqo Universitetində yaradılan dünya üzrə ilk sosiologiya fakültəsində sosiologiya və antropologiya birləşdirilmişdi (1892-ci ildə). Yalnız 1965-ci ildə antropologiya müstəqil elm statusu almışdır. İngiltərə klassik antropoloqu A.Radklif-Braun "sosial antropologiya" sözünün "sosiologiya" sözü ilə əvəz edilməsini daha münasib sayır. O yazır ki, sosial antropologiya dairəsinə daxil olan bütün kəşfləri və onların əldə edilməsi metodlarını tamamilə sosiogiyaya aid etmək olardı.

İngiltərədə mədəniyyətlərin öyrənilməsi Spenserdən başlaya-

raq kross-mədəni və müqayisəli təhlil metoduna əsaslanmışdır. Antropologiya üçün isə ənənəvi idrak üsulu *çöl tədqiqatı* sayılır. Bu idrak metodu aborigenlərin məskunlaşdığı coğrafi məkanda uzun tarixi zamanda yaşamasını nəzərdə tutur.

Antropologiya və sosiologiyanın qarşılıqlı əlaqə və təsirinə dair gətirilən və şərh edilən materialları ümumiləşdirib belə nəticəyə gəlmək olar ki, bəşər mədəniyyətinin bütöv nəzəri mənzərəsi, yalnız elmlərin qarşılıqlı təsiri əsasında yaradıla bilər.

Antropologiya və sosiologiyanın qovşağında müstəqil bir sahə – *mədəniyyətin sosiologiyası* yaranmışdır. Bu sahə ictimai rəyin öyrənilməsinə əsaslanaraq bütün mədəniyyət hadisələrini mədəniyyətin inkişaf qanunauyğunluqlarını və onların təzahür formalarını öyrənir. Burada insana tədqiqatın həm subyekti, həm də obyekti kimi baxılır. Mədəniyyətin sosiologiyası mədəniyyəti cəmiyyətin sosial münasibətləri və sosial strukturu müstəvisində araşdırılır. Belə araşdırma antropoloji çərçivədə də həyata keçirilir.

Çağdaş Amerika antropoloqu K.Qirç özünü M.Veberin anlam sosiologiyasının tərəfdarı sayır. O, mədəniyyət ideyasını insanların həyat tərzi və davranışı ideyası ilə bağlamış, sosial hərəkəti onun subyektinə xas olan keyfiyyət kimi şərh etmiş və bu hərəkətin sosial nəzəriyyəçi tərəfindən (kənardan) öyrənilməli olduğu nəticəsinə gəlmişdir. O aydınlaşdırmışdır ki, mədəniyyət dilə məxsus olan simvollar toru olub cəmiyyətin sosial təməlini təsvir və izah edir.

Antropologiya və sosiologiyanın qovşağında həmçinin sosial antropologiya yaranmışdır. Antropoloji tədqiqatın bu sahəsi sosial elmlər sırasına daxildir. Sosial elmlər daha çox tədqiqat obyektinin kəmiyyət göstəricilərindən humanitar elmlər isə keyfiyyət göstəricilərindən çıxış edirlər. Amma sosial elmlər, o cümlədən sosial antropologiya həm də tədqiqatın keyfiyyət metodlarından istifadə edir. Səbəb budur ki, sosiologiya, mədəniyyətin sosiologiyası və antropologiya (özəlliklə mədəni antropologiya) mədəniyyəti və onun tərkib hissələrini öyrənirlər. Bu elmlər inteqral elmlər statusuna iddialıdır, yəni onlar həm kəmiyyət (statistik), həm də keyfiyyət (dəyərlilik) tədqiqat metodlarından istifadə edirlər, bu zaman cəmiyyətin ayrı-ayrı sahələrini deyil, onu bütövlükdə öyrənməyə çalışaraq başqa elmlərin məlumatlarından istifadə edirlər.

XX yüzilin başlanğıcında P.Sarokin yazırdı ki, sosiologiya



cəmiyyətin müəyyən bir sahəsini – iqtisadiyyatını, siyasətini öyrənən xüsusi elm olmayıb cəmiyyəti bütövlükdə əhatə edir. Antropoloqlar da öz fənnini inteqrativ adlandırırlar. K.Kottaq yazır ki, heç bir sosial elm cəmiyyətin bir tipi çərçivəsindən kənara çıxa bilmir. Yalnız antropologiya insana eyni zamanda bütün cəmiyyətlərdə olmaq, onların antropoloji mənzərəsi ilə tanış olmaq, müxtəlif ölkələrin adət və ənənələrini müqayisə etməyə imkan verir.

Antropoloqlar davamlı olaraq ibtidai qəbilələrdə "sosial təsisatlar", "hakimiyyət iyerarxiyaları" və digər bənzərsiz hadisələr aşkar edirlər. Amma bütün bu strukturlar industrial və postindustrial cəmiyyətlərin tərkibində də var. Amma primitiv cəmiyyətlərə məxsus və postindustrial cəmiyyətlərdə də aşkar edilən strukturlardan çıxış edib mürəkkəb cəmiyyəti anlamaq mümkünsüz sayılır. Bunun əksinə olaraq təfəkkürün mürəkkəbdən sadəyə hərəkəti elmi idrakda magistral yol hesab edilir.

*Antropologiya və etnologiya.* "Etnologiya" sözünü elmə ilk dəfə XVIII əsrin sonlarında A.Şavan gətirib, amma fransız alimi J.Amper 1830-cu ildə antropoloji elmləri təsnifləşdirmiş və etnologiyanı xalqlar və mədəniyyətlər haqqında yeni elm adlandırmağı təklif etmişdir. O, bu yeni elmi iki bölümə – "elementar etnologiya" və "müqayisəli etnologiya" – ayırmışdı. XIX əsrin birinci yarısında Fransada və Amerikada etnoloji cəmiyyətlər yaradılmışdı. O dövrdə Qərbi Avropanın inkişaf etmiş və aparıcı dövlətləri planet miqyasında yayılmağa başlamışdılar. Yayıldıqları ərazilərdə öz mədəniyyətlərinə oxşamayan mədəniyyətlərlə qarşılaşırdılar. Avropalıların müstəmləkəçilik siyasəti fəth edilmiş xalqlar haqqında hərtərəfli biliyə malik olmağı tələb edirdi. Etnologiya elmi bu biliklərə ehtiyacı daha çox ödədiyi üçün siyasi hakimiyyətlərin dayağından bəhrələnirdi.

İlk vaxtlar etnologiya öz dövlətlərini qura bilməyən xalqları öyrənirdi. XX əsrin əvvəllərində etnologiya fiziki (ümumi yaxud bioloji) antropologiyanı da öz sferasına daxil etmişdi. Paris Etnologiya Cəmiyyətinin Nizamnaməsində insan irqlərinin özəlliklərinin, onların fiziki quruluşlarının, əqli qabiliyyətlərinin və əxlaqlarının özünəməxsus cəhətlərinin, həmçinin dil və tarixi ənənələrinin öyrənilməsi etnologiyanın predmetinə daxil edilmişdi. XIX yüzilin ortalarında xalqlar haqqında elm kimi etnologiyanı

antropologiyadan ayırırb onlara bir-birilə qohum olan ayrı-ayrı elmlər kimi baxmağa başladılar. 1934-cü ildən başlayaraq fəaliyyət göstərən beynəlxalq konqress antropoloji və etnoloji konqres adlandırılmışdı. Zaman keçdikcə etnologiyanın predmetinə baxışlar dəyişilmiş və etnologiyaya daha çox nəzəri məsələlərlə məşğul olan elm kimi baxılmağa başlanmışdır.

Mütəxəssislər bu fikirdədilər ki, etnologiya bir sıra elmlərin, özəlliklə də sosial və mədəni antropologiyanın, folklorşünaslığın, sosiolinqvistikanın və dilçiliyin kəsişdiyi sahədədir. Qərb alimləri etnologiyaya başlıca olaraq ibtidai xalqlar haqqında elm, etnoqrafiyaya isə bu xalqlar haqqında empirik məlumatlar toplusu kimi baxırlar.

S.V.Luryenin fikrincə, "Çağdaş etnologiya etnoqrafiyaya konseptual aparat verir. Etnoqrafiya isə daha çox təsviri elmdir. Etnologiya onun nəzəriyyəsidir". Etnologiya etnoqrafların əldə etdiyi müxtəlif xalqlar haqqında empirik məlumatları öyrənir və müqayisə edir. Antropologiya və etnologiya oxşar olsalar da müxtəlif elmlərdir. Antropoloji tədqiqatın hədəfi ayrıca insan (antropos), etnologiyanın hədəfi isə xalqlardır (etnos).

*Antropologiya və etnoqrafiya.* Etnoqrafik nəzəri bilik E.Teylorun, L.Q.Morqanın, E.Dürkheymin, L.Levi-Bryülün və digər mütəxəssislərin nəzəriyyələri ilə bağlıdır. Bir sıra tədqiqatçılar (L.Frobenius, F.Qrebner, F.Boas və b.) köhnə təkamülçü yanaşmadan imtina edib bildirirlər ki, tədqiqat obyekti xalqlar yox, mədəniyyətlər olmalıdır. Onlar "etnoqrafiya" məfhumundan imtina edərək yeni elmi mədəni antropologiya adlandırdılar. Etnoqrafların digər nümayəndələri (B.K.Malinovskiy, A.R.Radklif-Braun, L.E.Uayt və b.) isə İngiltərə və ABŞ-da bildirdilər ki, tədqiqatın başlıca predmeti cəmiyyətdir. Amma onlar da "etnoqrafiya" sözündən imtina edərək onu "sosial antropologiya" adlandırdılar və ibtidai cəmiyyəti isə onun predmeti kimi müəyyən etdilər.

Tədqiqat obyektinə fərqli yanaşmaların nəticəsi olaraq XX yüzilin ortalarında üç elm formalaşdırıldı: birinci – müxtəlif xalqların adət və ənənələri, onların coğrafiyası haqqında empirik məlumatlar toplayan etnologiya; ikinci – indi mövcud olan ibtidai qəbilələrin mədəniyyətlərinin tədqiqini ön plana çəkən mədəni antropologiya, üçüncü – həmin qəbilələrin sosial stratifikasiyası, ailə quruluşu,



təsərrüfat formaları ilə maraqlanan sosial antropologiya. Eyni bir obyekti öyrənərkən mədəni antropologiya mədəniyyətin birinciliyindən, sosial antropologiya isə cəmiyyətin sosial strukturunun birinciliyindən çıxış edirdilər. Amma mədəniyyət və sosial struktur vəhdətdə olduğundan tədqiqatçılar çox vaxt sosial və mədəni antropologiyanı bir elm sayırlar. Antropologiyanın bu iki qolunun münasibətində sosial antropologiya liderlik edir və mədəni antropologiyanı bəzən onun tərkib hissəsi adlandırırlar. Hazırda sosial antropologiyanın daxilində də müstəqil qollar – ibtidai qanunları və normaları öyrənən hüquq antropologiyası, qohumluq münasibətlərini və təsisatlarını araşdıran ailə antropologiyası, ibtidai cəmiyyətlərdə müharibə və münaqişələri tədqiq edən savaş antropologiyası və s. ayrılmışdır.

Etnoqrafiyanı öz nəzəriyyəsi və empirik bazası olan müstəqil elm kimi anlayan rus müəlliflərindən fərqli olaraq Amerika tədqiqatçıları üçün etnoqrafiya sosial antropologiyanın empirik əsasıdır və onun nəzəriyyə işləyib hazırlaması vacib deyil. Amerika antropoloqları antropoloji tədqiqatlarında tez-tez etnoqrafiya sözünü işlədirlər. Amma burada fikir dolaşıqlığı yoxdur. Onlar çöl tədqiqatı apararkən və empirik faktlar toplayarkən etnoqraf kimi hərəkət etmiş olurlar. Qalan vaxtlarda isə onlar özlərinin antropoloji problemləri ilə məşğul olurlar. Amerika antropologiyasının avtoriteti sayılan K.Qirç etnoqrafiyanı çöl tədqiqatının empirik təcrübəsi adlandırır.

Hazırda etnoqrafiya azsaylı xalqları, ənənəvi təsərrüfat formalarını saxlamış kənd əhalisini öyrənir. Bu tədqiqatlar Avropada, Cənub-Şərqi Asiyada, Cənubi Amerikada və planetin digər bölgələrində aparılır. Xalqların ənənələrinin, mədəniyyətlərinin, həyat tərzlərinin təsviri toplanmış empirik materialların müqayisəsi üzrə həyata keçirilir.

Etnoqrafik biliklərin sistemləşdirilməsində coğrafi prinsipə üstünlük verilir. Biliklərin sistemləşdirilməsi toplanmış, incələnmiş, təsnifləşdirilmiş və şərh edilmiş empirik məlumatlara əsaslanır. Etnoqrafik tədqiqatın predmetini yerli adət və ənənələr, dil, mərasimlər, iqtisadiyyat və siyasət, sosial təsisatlar və təşkilatlar təşkil edir. Empirik məlumatlar toplamaq məqsədilə etnoqraflar uzun sürə kiçik icmalar arasında olurlar.

Etnoqrafik biliyin daxilində ixtisaslaşma baş verir, yeni istiqa-

mətlər, elmi məktəblər və s. yaranır. Bunlara sakral etnoqrafiya, tarixi etnoqrafiya, etnoqrafik sosiologiya, etnoqrafik linqvistika, sevgi etnoqrafiyası, dağlı xalq etnoqrafiyası, ehtiras etnoqrafiyası aid edilir (53). Antropoloji istiqamətlərdən biri də uşaqlığın etnoqrafiyasıdır.

*Uşaqlığın etnoqrafik tədqiqi.* Uşaqlıq insan həyatının, onun fiziki və ruhi inkişafının öz qanunları və qanunauyğunluqları olan maraqlı çağıdır. Uşaq dünyasının etnoqrafik, antropoloji, sosial psixoloji və digər yönlərdən öyrənilməsi ilk öncə onun sosiallaşması prosesinin düzgün idarə olunması üçün gərəkdir.

İnsan həyatının uşaqlıq dövrü haqqında fərqli baxışlar vardır. Bir baxışa görə, uşaqlıq dövrü postembrional inkişafın 7 ilini, digər baxışa görə, 10 ilini, üçüncü bir baxışa görə, 17 ilini əhatə edir. Ümumiyyətlə yaş dövrlərindən asılı olmayaraq insanın fərdi həyatı biogenetik və sosiogenetik qanunauyğunluqların vəhdətində, qarşılıqlı təsirində gerçəkləşir. Odur ki, uşaq dünyasının öyrənilməsi, uşağın özünə və xarici aləmə (təbiətə, insanlara) münasibətinin inkişaf qanunauyğunluqları etnoqrafiyanın, antropologiyanın, sosial psixologiyanın və b. elmlərin predmetinə daxil olur.

Uşaqlığın etnoqrafik tədqiqi tarixinin XIX əsrdən başlandığı qeyd olunur. Lakin hələ XVIII yüzilin 80-ci illərində alman filosofu Tideman "Uşağın ruhi qabiliyyətinin inkişafı üzərində müşahidə" əsərində uşağın üç yaşa qədərki dövrünü təsvir etmişdir. 1882-ci ildə başqa bir alman filosofu V.Preyer öz zamanında böyük maraq doğurmuş "Uşaq ruhu" adlı kitabını nəşr etdirmişdir. O, bu kitabda öz uşağının doğulduğu gündən beş yaşınaqədərki dövründə ruhi-psixi inkişafı üzərində müşahidələr aparmış və nəticələrini şərh etmişdir. Filosofun məqsədi uşağın ruhi inkişafında irsiyyətin və sosial mühitin rolunu öyrənmək olmuşdur.

Uşaqlığın etnoqrafik tədqiqinə dair ilk işlərdən biri də Rusiya tədqiqatçısı N.N.Mikluxo-Maklayın adı ilə bağlıdır. O, papuaslarda uşaq tərbiyəsinə dair maraqlı məlumatlar toplamışdır. Amerika alimi B.Malinovski və M.Midin Okeaniyada topladıqları materiallar əsasında 1920-ci illərdə klassik işlər yaradılmışdır. XX yüzilin 30-40-cı illərində R.Fers (tikopidə), C.Uaütinq (kvomda), Y.Xoqbin (voqeolarda) sosiallaşdırma sistemlərini ətraflı təsvir etmişlər. Bu yöndə araşdırmalar indi də davam etdirilir. Avstraliya və Okeaniya xalqlarının uşaq dünyasının tədqiqi üzrə etnoqrafik nəşr birincilər



sırasındadır.

Uşaq folklorunun, həyat tərzinin, məişətinin, oyunlarının öyrənilməsi ilə 1920-30-cu illərdə rus tədqiqatçılarından Q, S.Vinoqradov və A.S.Kapitsa məşğul olmuşlar. Həmin illərdə uşaqların qrup halında oyun formalarını, uşaq folklorunu, qrup qarşılıqlı təsirlərini E.A.Arkin, E.A.Pokrovski və b. tədqiq etmişlər. Bu mövzu psixoloqların da diqqətindən kənarda qalmamışdır. A.N.Leonyev uşağın sosiallaşdırılmasının, təlim və tərbiyəsinin onun psixi fəallığından asılı olduğunu nəzərə alaraq bunların uşaq psixikasına təsir üsullarını müəyyənləşdirmişlər. D.B.Elkonin, A.P.Usova və b. uşaq psixikasının formalaşmasında oyunların aparıcı rolunu aydınlaşdırmışlar. Bəlli olmuşdur ki, oyun texnologiyası ictimai münasibətlərin formalarından birinin sosioloji modelidir. Beləliklə, ötən yüzilin 70-80-ci illərində uşaq münasibətlərinin sosiometriyası uşaq psixologiyasının diqqət mərkəzində durmuşdu. Y.L.Kolominski, T.A.Repina və b. yaşıdları arasında uşaqların qarşılıqlı emosional təsirinin üstün rolunu aşkar etmişlər.

Amma o dövrdə həyata keçirilən tədqiqatlar uşaqlar arasında emosional qarşılıqlı təsirin öyrənilməsi tarixində əldə edilmiş biliklərdən bəhrələnmişdir. Hələ Ç.Darvin ayyarımlıq oğlan uşağının emosional hərəkətləri üzərində müşahidələr aparmış və sonrakı araşdırmalar üçün dəyərli nəticələr əldə etmişdir. Alman alimi Vulyam Ştern öz xanımı ilə birlikdə uşaqlar üzərində müşahidələr aparmış və əldə etdikləri nəticələr əsasında 1914-cü ildə "Kiçik uşaqların psixologiyası" adlı əsər nəşr etdirmişlər. Uşağın psixoloji həyatında baş verən dəyişikliklər, onların səbəbləri haqqında biliklər K.D.Uşinskinin, N.M.Şelavanovun (o, 1920-ci ildə təşkil etdiyi klinikada) yetim uşaqlar üzərində apardıqları davamlı müşahidələr və onların davranışı, əqli inkişafının gedişi, həmçinin qarşılıqlı münasibətlərini öyrənmək əsasında inkişaf etdirilirdi. Bu sahədə XX əsrin birinci yarısında İsveçrə alimi J.Piaje və fransız A.Vallonun tədqiqatları sayəsində uşaqların psixi həyatında baş verən proseslər haqqında biliklər xeyli zənginləşmişdir.

Qərbdə yaranmış biheviorizm psixoloji cərəyanının başlıca tədqiqat prinsiplərindən biri də budur: "Davranış təlimin nəticəsidir". Bu prinsipdən çıxış edərək C.Uotson yazır ki, uşağın psixi inkişafı bütünlüklə təlimin necə olmasından, onların davranışının necə

istiqamətləndirilməsindən asılıdır; siz mənə sağlam uşaqlar verin, mən onlardan istənilən sahə üzrə kadrlar (həkim, hüquqşünas, idmançı və s.) yetişdirim. Göründüyü kimi, biheviorizm uşaq dünyasının inkişafında öyrənmə və vərdişi başlıca üsul sayır.

Azərbaycanda uşaqların psixi inkişafını F.İbrahimbəyov, M.Məhərrəmov, Ş.Ağayev və digər tədqiqatçılar araşdırmışlar.

Uşaqların mədəni dəyərləri mənimsəməsində, "uşaq mədəniyyətinin" yaranması və inkişafında uşaq folklorunun roluna mütəxəssislər üstünlük verirlər. M.V.Osorina yazır ki, uşaq submədəniyyəti daha çox sosial-psixoloji tələbatlara uyğun müəyyənləşir. Bu tələbatları isə uşaqlar öz yaşıdları ilə ünsiyyətdə ödəməyə can atırlar. Ünsiyyətdə əldə edilən uğurlar uşağın ənənəsinə çevrilir və uşaq folklorunda onun ifadə forması kimi möhkəmlənir. Tanınmış fin folklorçusu L.Virtanen 1978-ci ildə nəşr etdirdiyi "Uşaq folkloru" kitabında uşaq icmasını (toplumunu) yaşlılara aydın olmayan, öz qanunları ilə yaşayan müstəqil "minimədəniyyət" kimi şərh edir.

Çağdaş uşaq folklorunun tədqiqi ilə bir çox tədqiqatçılar məşğul olurlar. Osorina uşaq submədəniyyətinə məxsus olan fenomenlərin (uşaq folkloru, dəcəlliyi, qorxulu tarix, uşaq magiyası, cəsarətliliyi və s.) özəlliklərini araşdırır. Onun araşdırmalarında məqsəd "uşaq ərazi davranışının fenomenologiyasını", başqa sözlə, uşaqların təbiət mənzərəsinə münasibətinin yaranmasını, getdikləri yerləri və orada nə etdiklərini öyrənməkdir (137). Ötən yüzilin 90-cı illərində rus tədqiqatçısı M.P.Çerednikova elmi ədəbiyyata "çağdaş uşaq mifologiyası" anlayışını daxil etmişdir. Bu anlayış ənənəvi mədəniyyət və yaş psixologiyasına dair faktlara əsaslanır. Müəllif göstərir ki, çağdaş uşaq folklorunun dəhşətli tarix, lovğalıq, oyunlar, sadistlik kimi janrları dünyanın mifoloji mənzərəsinə əsaslanır. Uşaq folklorunun bu janrları XX yüzilin ikinci yarısında formalaşdırıl-mışdır. Onlar uşağın fərdi şüuru ilə həll edilməyən ölüm və insanın ölümündən sonrakı mövcudluğu, o dünya və onunla ünsiyyət üsulları kimi suallara cavabların kollektiv axtarışının nəticəsidir. Uşaq folklorunun uşağın psixi inkişafı və onun sosiallaşması proseslərinin sıx bağlılığı uşaqlarda mifoloji təsəvvürlərin təkamülünü aşkar etməyə imkan verir.

XX əsrin 80-90-cı illərində rus alimləri Avstraliya və Okeaniya xalqlarının təcrübəsindən çıxış edərək uşaq submədəniyyəti və



valideynlik etnoqrafiyasının bir çox məsələlərini araşdırmışlar: N.A.Butinov qəbilə-tayfa quruluşu şəraitində ata və uşaq münasibətlərinin ümumnəzəri problemlərini müzakirə etmiş; A.İ.Azarov keçid yaşlarının xüsusiyyətlərini incələmiş; E.S.Sobolyeva Timor adasında uşaqların və yeniyetmələrin sosiallaşma üsullarının elmi modelini hazırlamışdır. Antropoloqlar və etnoqraflar psixoloqlarla birlikdə müxtəlif mədəniyyətləri, xalqları və insan tiplərini müqayisə edərək uşaqların verbal və qeyri-verbal davranışlarını öyrənir və uşağın ətraf mühitin ayrı-ayrı elementlərinə mimika, gözlərin ifadəsi, təbəssüm, intonasiya, jestlər və sözlərin köməyi ilə münasibətlərini qeyd edirlər. Mütəxəssislər izah edirlər ki, informasiya sistemlərində yayımlanan cinsi pozğunluq və pornoqrafik vasitələrin geniş yayılması, erotik tele- və videofilmlər, kompüter oyunları uşaq şüurunun seksuallaşmasına səbəb olur. Uşağın şüurunda böhranlı olaylar baş verir və bu olaylar merkantilizasiya, vesternizasiya və demonizasiya yönlərində baş verir. Nəticədə müasir uşaq submədəniyyətinin iki ən mühüm ünsürü – ekran məkanı (uşaqların boş vaxtının 40%-nin teleekran yaxud kompüter qarşısında keçir) və uşaq infrastrukturu (uşaq jurnalları, qəzetlər, kitablar, oyunlar, oyuncaqlar, şifahi folklor) insanlaşdırma istiqamətini itirmişdir.

Rusiya tədqiqatçısı V.V.Abramenkova mədəniyyət tarixində və onun hazırki mərhələsində uşaqlıq fenomenini yeni fənlərarası istiqamət-uşaqlığın sosial psixologiyası müstəvisində analiz etmiş və uşaq submədəniyyətinin bənzərsizliyini və onun uşaqda dünyanın mənzərəsinin yaranmasında əhəmiyyətini aşkar çıxarmışdır.

Hazırda uşaq submədəniyyətinin, uşaq folklorunun, mifologiyasının, oyun mədəniyyətinin öyrənilməsi sahəsində çoxlu uğurlar əldə edilmiş və bu sahədə işlər davam etdirilir.

# II Fəsil
# Antropoloji tədqiqatın metodoloji əsasları

## 2.1. Antropologiyada metodologiya problemi

Elmi tədqiqatın bütün sahələrində olduğu kimi antropologiyada da sosial sistemlərin və proseslərin öyrənilməsi tarixində metodoloji xarakterli problemlər yaranmış və bu problemlər ətrafında uzun müddət elmi diskusiyalar, fikir ayrılığı baş vermişdir. Sosioloji

tədqiqatın metodoloji prinsiplərindən geniş istifadə edən antropologiya və özəlliklə sosial antropologiyada da metodologiyaların mübahisəsi indi də davam etməkdədir.

Elmi tədqiqatın metodologiyası ilə bağlı problemlərin yaranması tədqiqatçıların subyektiv istəklərindən asılı olmayıb obyektiv əsasa malikdir.

İnsan davranışını öyrənən hər bir elmdə özünəməxsus elmi ənənələr və empirik təcrübə formalaşmışdır. Bu elmlərdən hər biri sosioloji idrak sahəsinə aid olub ən çox istifadə etdiyi metodun terminləri, anlayışları ilə müəyyən olunur.

Metodlar idrak qaydaları və proseduralardan ibarətdir. Onların köməyilə tədqiqatçı faktları, hipotezləri və nəzəriyyələri bir-birilə bağlayır. Elmi fəndlər (priyomlar) isə metodu tamamlayan praktik əməliyyatlardır. Metodun bu anlamı empirik və nəzəri metodlara eyni dərəcədə aiddir. Elmi metodlar haqqında deyilən bu və digər məsələlər elmin metodologiyasına aid olan məsələlərdir. Elmin predmetinin öyrənilməsində istifadə edilən metodların tətbiq hüdudları və idrak imkanları metodologiya çərçivəsində araşdırılır.

İstər predmet, istərsə də tədqiqat metodları baxımından antropologiyanın ayrıca bir sahəsi olan sosial antropologiyanın yaranması və formalaşmasında sosiologiyanın xüsusi rolu olmuşdur. Deməli, sosiologiyada yaranmış metodoloji diskusiyalar antropoloji tədqiqatların inkişafına öz təsirini göstərmişdir.

Antropologiyanın tarixində iki metodologiyanın – kəmiyyət və keyfiyyət metodologiyalarının mübahisəsi, mübarizəsi daha qabarıq biçimdə baş vermişdir. Kəmiyyət metodologiyası (sosial proseslərə kəmiyyət baxımından yanaşma) rəqəmlərə, hesablamalara və statistikaya əsaslanır. Keyfiyyət metodologiyası insan davranışının subyektiv önəmliliyini öyrənməyə yönəlir. Keyfiyyət yanaşması insan davranışının sosial qarşılıqlı təsirlərin konkret hallarının təhlili əsasında araşdırılmasını nəzərdə tutur. Tədqiqatçı araşdırdığı problemi yetərincə anlamadıqda yaxud dəqiq, formallaşdırılmış araşdırma aparmaq üçün informasiya çatışmadıqda keyfiyyət yanaşmasından istifadə edir. Keyfiyyət metodologiyası formallaşdırılmış metodlardan və statistik təhlildən qaçır, tədqiqatda dərin müsahibələr və tədqiqatçının özünün iştirak etdiyi proseslərdə apardığı müşahidə metodlarına əsaslanır.



Kəmiyyət və keyfiyyət metodologiyaları arasında mübahisələrin hələ də davam etməsi sosiologiyanın tarixinə bu iki metodologiya arasında mübarizə tarixi kimi baxmağa da əsas verir. Belə ki, elmin tarixi inkişafında metodoloji yöndə tədqiqatlar mühüm rol oynayır.

Sosial proseslərin kəmiyyət yoxsa keyfiyyət qanunauyğunluqları üzrə tədqiqi məsələsi ilə bağlı mübahisələrin uzun tarixi var. Hələ 1662-ci ildə ingilis statisti C.Qraund əhali artımı üzrə kəmiyyət dəyişikliklərinə dair fundamental tədqiqatlar aparmış və bu yöndə davamlı nisbətlər aşkar etmişdir. Onun aşkar etdiyi kəmiyyət qanunauyğunluqlarına cinslər üzrə doğum nisbəti, uşaqlar arasında ölüm faizi, şəhər şəraitində ölüm hallarının artması, kənd şəraitində doğumun yüksək olması, müəyyən əhali qrupları üçün müəyyən yaşda ölüm faizi və s. nisbətlər aiddir. Sonrakı dövrlərdə daha çox tanınmış alimlərdən A.Ketle özünün "Sosial fizikanın təcrübəsi" adlı əsərində sosial olaylarda kəmiyyət qanunauyğunluqlarına dair maraqlı faktlar gətirir. Onun bu əsəri sosial hadisələrin qanunauyğunluqlarının müəyyən edilməsi üçün empirik kəmiyyət məlumatlarından istifadə edilməsinin başlanğıcı sayılır (əsər 1835-ci ildə nəşr edilmişdir). Bu yöndə fransız sosioloq və antropoloqu E.Dürkheymin intiharın kəmiyyətcə təhlilinə dair işləri də əhəmiyyətli sayılır. Lakin o da qeyd edilir ki, sosiologiya və antropologiyaya keyfiyyət metodologiyası Edmund Qusserlin fenomenologiyasından və həyat fəlsəfəsindən keçmişdir yaxud bu fəlsəfi təlim çağdaş sosiologiyanın nəzəri özülüdür. Amma indi qəbul edilmişdir ki, keyfiyyət yanaşması, sosioloji tədqiqatda "Dilteyin və Veberin anlam sosiologiyasına, Ç.Kulinin, C.Q.Midin, Q.Blumerin simvolik interaksionizminə, A.Şyutsun fenomenoloji sosiolo-giyasına, E.Qofmanın dramaturji sosiologiyasına, Q.Qarfinkelin etnometodologiyasına əsaslanır". Onların başlıca məqsədi fərdin bənzərsiz həyat təcrübəsi mövqeyindən çıxış edərək iri sosial sistemləri, o cümlədən cəmiyyəti təhlil etmək və anlamaqdan ibarətdir.

Rus alimi V.F.Juravlev keyfiyyət yanaşmasının mahiyyətinə tədqiqatçı ilə tədqiq edilən obyektin qarşılıqlı təsirini müəyyən edən aşağıdakı prinsipləri aid edir:

- *aşkarlıq* – tədqiqatın predmeti haqqında aprior təsəvvürlərə yol verilməməsi;

- *kommunikativlik* – elmi biliyin kommunikasiyanın nəticəsi kimi başa düşülməsi;
- *prosesuallıq* – tədqiqat predmetinin qeyri-sabit, dəyişkən olmasının nəzərə alınması;
- *refleksivlik* – malumatların və mənaların kontekst üzrə şərhi;
- *tədqiqatçının* əldə edəcəyi nəticəyə təsir edə bilən subyektiv biliyinin, gözləntilərinin və təsəvvürlərinin mənalandırılması;
- *mütəhəriklik* – göstərilən prinsiplərin tədqiqat predmetinin özünəməxsusluğunu nəzərə almaqla istifadə edilməsi.

Tədqiqatçılar keyfiyyət metodlarını aşağıdakı əsaslar üzrə təsnifləşdirirlər:

- *tədqiqatın aparılması taktikası* (konkret halın öyrənilməsi, etnoqrafik təsvir, nəzəriyyəyə yüksəlmə, həyatın tarixi, ailənin tarixi, tarixi tədqiqat yaxud şifahi tarix);
- *nəticələrin təqdim edilməsinin formaları* (təsvir etmə, başqa sözlə, əldə edilmiş məlumatların tədqiqatçı tərəfindən heç bir şərhə yol verilmədən təsviri; analitik forma, yəni əldə edilmiş məlumatların redaktə edilməsi və sistemləşdirilmiş formada təqdim edilməsi və bundan sonra məlumatları izah edən nəzəriyyə yaradılmasına girişmək) (117, 5-6).

Kəmiyyət və keyfiyyət metodları müsbət və mənfi anlamda şərh edilir.

*Müsbət anlamda* kəmiyyət metodu ilkin məlumatların toplanması və təhlili və təbiətşünaslıqda yaranmış ciddi elmilik meyarına uyğun gələn metoda deyilir. Bu prinsipə uyğun gəlməyən metodu isə mənfi anlamda keyfiyyət metodu adlandırırlar. Belə metodologiyadan çıxış edən sosiologiya qeyd edilən elmilik prinsipinə cavab verən kəmiyyət metodologiyası barəsində yetərincə məlumatı olmayan jurnalistlərin və sosioloqların apardığı minlərlə tədqiqatları özünə daxil edə bilər. Belə sosiologiya, şübhəsiz keyfiyyət metodologiyasının bütün müsbət, sosioloji tədqiqat üçün yararlı və lazımlı məzmununa kölgə sala bilər.

*Mənfi anlamda* keyfiyyət sosiologiyasını A.Straus və C.Korbin aşağıdakı kimi müəyyənləşdirirlər: "Nəticələri kəmiyyət prosedurlarının köməyilə alınmayan hər bir tədqiqat" mənfi anlamda keyfiyyət metodologiyasına əsaslanan sosiologiyaya aid edilməlidir. Amma fərqli yanaşmalar da vardır. T.Şanin hesab edir ki, kəmiyyət sosiologiyasının əhatə edə bilmədiyi məsələləri keyfiyyət sosiologiyasının ünvanına yazmaq doğru deyil. Çünki belə yanaşma "qalıq prinsipinə" əsaslanır və keyfiyyət sosiologiyasının gerçək məzmununu əks etdirmir.

Kəmiyyət metodlarından prinsipcə fərqlənən keyfiyyət metodları (müsbət anlamda) XX yüzilin sonunda meydana gəlmiş və müstəqil metodoloji sistem kimi formalaşmağa başlamışdır. Mütəxəssislərdən T.Şanin, V.İ.Doblenkov, A.İ.Kravrenko və b. keyfiyyət metodologiyasını davranışın müşahidə edilən formalarının fəaliyyətdə olan subyektin davranış strategiyasına, o cümlədən onun öz davranışlarına verdiyi anlama uyğun gələn tədqiqat tipi adlandırırlar.

Müsbət anlamda keyfiyyət metodlarına, yalnız empirik tədqiqatların kəmiyyət metodologiyasının tələblərinə tam uyğun olaraq aparılan az bir hissəsi aid edilir. Məsələn, jurnalist sorğusu, eləcə də diletant-sosioloqların apardıqları tədqiqatlar müsbət anlamda keyfiyyət metodlarına daxil edilmir.

Mənfi anlamda müəyyənləşdirilən keyfiyyət və kəmiyyət metodları, daha doğrusu, bu metodlara uyğun gələn empirik tədqiqatlar bir-biri ilə kəsişərək aralıq sosioloji tədqiqat sahəsi yaradırlar. Bu tədqiqat sahəsi müsbət anlamda nə kəmiyyət, nə də keyfiyyət metodlarına aid edilmir.

Kəmiyyət və keyfiyyət metodologiyaları mənfi anlamda da müəyyənləşdirilir. İngilis sosioloqu T.Şanin ötən əsrin 80-90-cı illərində apardığı fundamental tədqiqatlarında ənənəvi, yəni kəmiyyət sosiologiyasının idrak imkanlarının məhdudluğuna əmin olmuş, sosial hadisələrə tamamilə yeni yanaşma proqramı irəli sürmüşdür.

T.Şanin onu da bildirir ki, kəmiyyət və keyfiyyət metodlarının bir-birilə əlaqəsi özəlliklə hazırlıqsız antropoloq üçün olduqca mürəkkəbdir. Bu iki metod, eləcə də onların tətbiqi ilə alınan məlumatlar, olduqca müxtəlifdir. Həmçinin sosial gerçəkliyin kəmiyyət və keyfiyyət metodları vasitəsilə təsvir olunan kəsimlər heterogendirlər, yəni müxtəlif cinslidirlər.

T.Şaninin konsepsiyasının əsl anlamı ondan ibarətdir ki, sosioloqun müşahidə etdiyi sosial hərəkəti obyektə (insana), onun hərəkətinə yaxud nitqinə (danışığına) və onlara verilən anlama

bölmək olmaz. Bunlar bölünməz birlikdir və onu yalnız sosial hərəkətin subyekti anlaya bilər. Məsələn, kəndli əldə etdiyi müəyyən məbləğ pulu niyə evin xanımına (həyat yoldaşına) vermədiyini, başqa bir yerdə gizlətdiyini, bu zaman nəyə əsaslandığını, bu pulun onun üçün əhəmiyyətini və s. yalnız bu hərəkətin subyekti yəni kəndlinin özü bilə bilər. Kitablardan götürülmüş müəyyən aprior müddəalardan çıxış etməklə, sosioloq kəndlinin bu hərəkətini şərh etməkdə haqlı deyil. Sosioloq kəndlinin bu hərəkətinin mənasını yalnız onun özündən öyrənə bilər.

Sosial gerçəkliyin dərkində kəmiyyət metodologiyasından istifadə edilməsini P.Sorokin kəskin tənqid etmişdi. O, sosiologiyada təbiətşünaslıqda edildiyi kimi riyazi metodlara və formal quraşdırmalara aludə olmağı "kvantofreniya" adlandırmışdı. Millis, Blox, Suizi eləcə də Q.Rikkert və M.Veber sosial idrakda ənənəvi kəmiyyət metodlarından istifadəni metodoloji baxımdan səmərəsiz saymışlar. Onların ideyalarının təsiri altında T.Şanin ikiqat refleksivlik metodologiyasını işləyib hazırlamışdır. Onun metodologiyasının nüvəsini bir-birilə bağlı olan üç konsepsiya: 1) keyfiyyət metodologiyası; 2) keyfiyyət-kəmiyyət interfeysi (keyfiyyət və kəmiyyət metodlarının əlaqələndirilməsi); 3) ikiqat refleksiya daxildir.

Birinci konsepsiyaya görə, keyfiyyət metodları vasitəsilə aparılan tədqiqatda antropoloq daim çoxölçülü dərin müsahibə, artefaktların (məsələn, kəndlinin məişət əşyalarının) toplanması, danışıqların maqnitofon yazıları ilə əvəzlənməsi üzrə birbaşa müşahidə aparmalıdır. Maqnitofon yazıları danışılanın mənası ilə yanaşı nitqdəki çalarları da anlatmaq imkanına malikdir.

İkinci konsepsiya yalnız keyfiyyət və kəmiyyət metodlarının əlaqələndirilməsini nəzərdə tutur. Bu konsepsiyaya görə, kəmiyyət üzrə aparılan tədqiqat adi anket sorğusu vasitəsilə statistik məlumatların toplanmasına və onların riyazi aparatın köməyi ilə təhlilinə yönəlməlidir. Keyfiyyət metodları isə fəhlənin, müəllimin və digər sahələrin işçilərinin öz hərəkətləri və nitqlərilə ifadə etdikləri mənanı aydınlaşdırmağa xidmət edir. Keyfiyyət metodları insanların anket sorğusu üsulu ilə üzə çıxarıla bilməyən, vərdiş edilmiş elmi anlayışların ifadə edə bilmədiyi, məntiqə sığmayan daxili aləmini qavramağa imkan verir. T.Şanin israr edir ki, antropoloq çoxölçülü və



uzlaşdırılmış təhlilə xüsusi fikir verməlidir. Çünki belə təhlildə sosial hərəkətin kəmiyyət və keyfiyyət özəllikləri, onun haqqında obyektiv və subyektiv məlumatlar birləşir.

T.Şaninin ikiqat refleksivlik konsepsiyası keyfiyyət üzrə tədqiqatın və keyfiyyət-kəmiyyət interveysin nəzəri anlayışlarının çöl tədqiqatının strategiyası ilə əlaqələndirilməsini nəzərdə tutur. Bu zaman tədqiqatçının və tədqiqat obyektinin qarşılıqlı təsiri diqqət mərkəzində durur. Şanin "ikiqat refleksivlik" dedikdə aşağıdakı elementlərin: tədqiqatçının müşahidə etdiyi; tədqiqatçının şərhi, həmçinin öyrənilən obyektə onun hərəkətlərinin təsiri; obyektin subyektivliyi, başqa sözlə, müşahidə obyektinin öz hərəkətlərini və seçimini müəyyənləşdirib izah etməsi arasındakı münasibəti nəzərdə tutur. Bu üç element arasındakı münasibəti Şanın özünün metodologiyasının nüvəsi və çıxış nöqtəsi sayır (bax: 181).

Antropoloq müşahidə obyektini (insanı) interaktiv müşahidədən yaxud onunla dərin müsahibə aparmazdan öncə deyil, sonra şərh etməlidir. Dərin müsahibədən öncə edilən şərh eksperimentin gedişinə təsir edib tədqiqatçını yanlış izə sala bilər. Beləliklə, T.Şanin əsaslandırır ki, onun metodologiyasında irəli sürülən üç element – "müşahidə edilən", "alimin müşahidə obyektini necə şərh etməsi" və "obyektin subyektivliyi" – və onların qarşılıqlı münasibəti çöl tədqiqatının çıxış nöqtəsi, eyni zamanda da ilkin məlumatların nəzəri şərhinin sxemi olmalıdır. Bunlar isə tədqiqatın sonrakı gedişində statistik məlumatlarla tamamlanmalıdır. Öyrənilən sosial reallığın bütöv mənzərəsi yalnız bu yolla alına bilər.

Nəzəri akt üçün səciyyəvi olan budur ki, o müəyyən bir obyektin inikası, başqa sözlə, ontoloji sxemin bir səviyyəsi kimi çıxış etməklə yanaşı həm də refleksiya – obyektin inikası prosesinin dərkidir. Bu anlamda da antropoloji bilik metodoloji norma və prinsipləri öz strukturuna daxil edir. Nəzəri refleksiyanın fərqləndirici özəlliyi onun biomodallığı yəni həm subyektə həm obyektə məxsus olanı eyni zamanda əks etdirmək qabiliyyətidir. Belə ki, sosiologiya elmində idrakın subyektinin (sosioloqun) danışdığı dil və öyrənilən obyektin (respondentin) dili arasında bir məsafə olmalıdır. Yəni müsahibəçi öz rəyini obyektə (müsahibə alınan şəxsə) sırımamalıdır. Onun təklif etdiyi metodologiyanın bu müddəası antropoloji tədqiqatın texnologiyasını təklif etməklə yanaşı nəzəriy-

yənin məntiqi inkişafını da istiqamətləndirir.

Şaninin metodologiyasının şərhindən belə bir mühüm nəticə çıxarılır ki, nə tədqiqatçı, nə də tədqiq olunan obyekt (insan) onların ikisinin arasında olan bağlantının başa düşülməsində bitmiş biliyə malik olduğunu iddia edə bilməz. Bu qəti imperativin mədəni antropologiyadan götürüldüyü düşünülür. Hesab edilir ki, sosial antropoloji tədqiqatın subyekti öz rəyini obyekt haqqında qəti bilik saymamalı və "obyektin subyektivliyini" səbrlə dinləməlidir. Bununla belə, tədqiqat haqqında son hesabatı tədqiqatçı alim yazmalıdır.

Çöl tədqiqatının bu strategiyasının sosial və mədəni antropologiya çərçivəsində yarandığı və əvvəlcə İngiltərədə, ABŞ və Fransada inkişaf etdirildiyi qeyd edilir. K.Qirç bu strategiyanı "dolğun təsvir" adlandırır və bu ad altında təkcə faktların (anket məlumatlarının və digər qeydlərin) deyil, həmçinin niyyətlərin, obyektin söylədiklərindəki məna çalarlarının, onun hərəkətlərinin təsvirini nəzərdə tutur.

Keyfiyyət metodologiyasının tələblərindən biri də budur ki, tədqiqatçı öyrəndiyi obyekt (insan birliyi, icma və s.) haqqında məlumat toplamaq üçün uzun müddət respondetlə, məsələn, icma ilə birgə yaşamalıdır. Bu taktika tədqiqat strategiyasının bir hissəsi və uğurlu tədqiqatın təminatı sayılır.

Qeyd edək ki, keyfiyyət metodologiyasına əsaslanan antropoloq mənəvi kəmiyyət sosiologiyasının anket suallarından kənarda qalan bütün məsələləri öz tədqiqatının strategiyasına daxil edir. Amma bu nə dərəcədə doğrudur? Keyfiyyət metodologiyasından çıxış edən alim obyektin bütün xüsusiyyətlərini üzə çıxarmaq üçün dəfələrlə öz məqsəd və vəzifələrini dəyişdirməyə və hər dəfə obyektin davranışına uyğun köklənməyə hazırdır. Antropoloqun belə dolayı üsuldan istifadə etməsini "yumşaq metod" adlandırır və onun başlıca üstünlüyü sayırlar. Bu metodun üstün tərəfləri ilə birlikdə yetərsizliyi də qeyd edilir.

## 2.2. Antropologiyada metodoloji plüralizm

Antropoloji tədqiqatın tarixində bir müddət kəmiyyət və keyfiyyət metodologiyalarına bir-birinə əks olan, bir araya sığmayan tədqiqat strategiyaları kimi baxmışlar. Rus alimi O.M.Moslova yazır



ki, hazırda antropoloji tədqiqatın bu iki metodologiyasına biri digərini tamamlayan metodologiyalar kimi baxılır. Amma N.Borun tamamlama prinsipinin fizikadan antropologiyaya ekstrapolyasiya edilməsi ilə antropoloji tədqiqatın kəmiyyət və keyfiyyət strategiyalarının münasibəti tam açılırmı?

V.İ.Dobrenkov və A.İ.Kravçenko bu sualla bağlı yazırlar ki, mütəxəssislərin əksəriyyəti unudur ki, tamamlama prinsipindən qanunauyğun olaraq qeyri-müəyyənlik prinsipi irəli gəlir, "dünyanın bu iki mənzərəsindən yaxud metodologiyasından heç biri öyrənilən reallıq haqqında tam və mütləq həqiqəti verə bilməz. Fizikada Heyzenberqin qeyri-müəyyənlik prinsipi də ölçü zamanı yaranmışdı. O bildirir ki, hətta 40000 dəfə böyüdən ən iri elektron mikroskop vasitəsilə də hissəciyin koordinatını və impulsunu dəqiq ölçmək olmaz – ya birini ya da digərini, ancaq ikisini birlikdə mümkün deyil.

Müəyyənləşdirilmişdir ki, kəmiyyət metodologiyası əlamətlərin statistik bölgüsünün yaxud böyük sosial qrupun dəqiq mənzərəsini verir, ancaq ayrıca fərd haqqında, demək olar ki, heç nə vermir. Keyfiyyət metodologiyası isə əksinə, ayrıca insanın daxili aləmi və davranışının dəqiq təsvirini verə bildiyi halda bütövlükdə sosial qrupun dəqiq mənzərəsini verə bilmir. Gerçəklikdə isə fərd və sosial qrup biri digərində yaxud vəhdətdə mövcud olur.

N.Borun irəli sürdüyü tamlama prinsipi izah edir ki, tədqiqatın iki strategiyasından hər biri varlığın gerçək mənzərəsini az və ya çox dərəcədə təhrif edərək ehtimalı təsvir edir. Tamlama prinsipinə Heyzenberqin qeyri-müəyyənlik prinsipində göstərilən müddəalar arasındakı münasibətin ümumiləşdirilməsi kimi baxılır. Göstərilir ki, fiziki idrakın subyekti elementar hissəciyin ya koordinatını ya da impulsunu ölçə bilər, onların ikisini eyni anda ölçmək isə mümkün deyil. Deməli, fiziki sistemin məzmununu bir nəzəriyyənin dili ilə təsvir etmək olmaz. Sistemə fərqli nəzəri baxışlar bir-birini tamamlamalıdır. Çünki fərqli baxışlar və yanaşmalar eyni bir reallıqla bağlıdırlar. Sistemin məzmununu isə yalnız bir nəzəri sistemlə təsvir etmək olmaz. Eyni bir obyekt haqqında baxışların çoxluğunu aradan qaldırmaq olmaz. İdrak obyektinə yönəldilən müxtəlif ölçü prosedurları, eləcə də onların qeydiyyatının aparıldığı müxtəlif dillər bir-birini tamamlamalıdır. Kvant mexanikasında ikili təbiətə (korpuskulyar və dalğa) malik olan elementar hissəciyi öyrənmək

üçün, fizik iki fərqli metoddan istifadə etməyə məcburdur. Bu metodlardan biri hissəciyi dalğa kimi, digəri isə hissəcik kimi izah edir.

Fizikadakı bu hal antropoloji tədqiqatda formalaşmış kəmiyyət və keyfiyyət yanaşmaları üçün də qəbul ediləndir. Başqa sözlə, bu iki yanaşma biri digərini inkar etmək deyil, bir-birinə tamamlayıcı münasibətdə olmalıdır.

Çağdaş fizikada dünyanın mexaniki determinizm prinsipi əsasında yaradılan mexaniki mənzərəsindən imtina edilib fiziki gerçəkliyin ehtimalı kvant-mexaniki təsvirinə keçildiyi hala uyğun durum çağdaş sosiologiyada da yaranmışdır. Sosial obyektin öyrənilməsində kəmiyyət və keyfiyyət yanaşmaları eyni vaxtda tətbiq edildikdə bir-birini rədd edir. Amma eyni bir sosial obyektə müxtəlif ölçülərdən yəni kəmiyyət və keyfiyyət parametrlərindən yanaşdıqda onlar bir-biri ilə uzlaşırlar.

Tamamlama ideyasını fəlsəfəyə ilk dəfə alman filosofu və sosioloqu M.Veber daxil etmişdir. M.Veber bildirdi ki, insan haqqında elmin gələcəyi üçün bu iki tədqiqat istiqamətinin birləşdirilməsi zəruridir.

Amma sual yaranır: bir tədqiqatçı eyni bir obyekti, bir insanı yaxud cəmiyyəti keyfiyyətcə və kəmiyyətcə öyrənərkən nələri izləməlidir?

Keyfiyyət metodunun köməyi ilə antropoloq, eləcə də sosioloq müəyyən bir halı yaxud bir insanın və ya insan birliyinin həyatında unikal bir hadisəni bütün dərinliyi ilə araşdırır. Məsələn, bioqrafik metod bir insanın həyatında baş vermiş hadisələri onların məzmununu və bənzərsizliyini tarixi ardıcıllıqla öyrənir. Belə hadisələrə öyrənilən insanın sosial mənşəyi (hansı ailədə doğulması), sosiallaşması, ailə ənənələrinin onun tərbiyəsinə təsiri, məktəb həyatı, peşə seçimi və s. misal ola bilər.

Tutaq ki, antropoloq keyfiyyət metodu üzrə araşdırmadan kəmiyyət araşdırmasına keçməyi qərarlaşdırdı. Tədqiqatın bu ikinci mərhələsində o nə etməlidir? O eyni bir nəslə yaxud müxtəlif nəsillərə məxsus olan insanların həyatında iki və ya üç hadisənin nə dərəcədə tipik olduğunu aydınlaşdırmalıdır. Bu anda tədqiqatçını, məsələn seçim etməli olan insanların hamısının məktəbdən keçməli olduğu, onların peşə seçiminin necə baş verdiyi və s. maraqlandırmalıdır.



Kəmiyyət metodunun tədbiqində məqsəd mümkün qədər az sualla mümkün qədər çox insanlardan sorğu alınmasından ibarətdir. Keyfiyyət metodunun tədbiqində isə məqsəd, əksinə çox sualla az insanlara müraciət edilməsindən ibarətdir. Kəmiyyət metodunun tədbiqində sadə və standart suallardan istifadə olunur. Keyfiyyət metodunun tətbiqində isə əksinə, mütəkkəb və qeyri-standart suallar hazırlanır. Kəmiyyət metodologiyasında tədqiqat proqramında nəzərdə tutulmamış strateji dəyişiklik etmək, respondentə (kəmiyyət metodunun, statistik sorğunun tətbiq olunduğu obyektə) əlavə suallar vermək olmaz. Keyfiyyət metodologiyasının tətbiqi isə müsahibənin gedişində strategiya və taktikanın daim dəyişilməsini, yeni suallarla müsahibə götürülən (keyfiyyət metodunun tətbiq olunduğu) obyektə müraciət edilməsini nəzərdə tutur. Keyfiyyət metodologiyası üzrə aparılacaq araşdırmanın proqramında, yalnız ümumi cəhətlər qeyd edilir. Bu araşdırmanın uğuru tədqiqatçının şəxsiyyətindən, müsahibə götürdüyü insanların etimadını qazanmasından, onları açıq söhbətə çəkə bilməsindən və i. a. asılıdır.

Kəmiyyət və keyfiyyət metodlarının tətbiqi ilə əldə edilən məlumatların fərqini O.B.Klyuşkina belə izah edir: "Kəmiyyət məlumatlarından keyfiyyət məlumatları onunla fərqlənir ki, sonuncuların məzmununda bu məlumatların daşıyıcısını bilavasitə səciyyələndirən məna var. Kəmiyyət məlumatları isə keyfiyyət məlumatlarında ifadə olunan hadisələrin, xüsusiyyətlərin miqyasını, həcmini, intensivliyini göstərir. Keyfiyyət məlumatları sosial hadisənin mənasını açmağa imkan verdiyi halda, kəmiyyət məlumatları sosial hadisənin təkrarlanmasını yaxud sosial məkanda onun nə dərəcədə intensiv qarşılandığını göstərir. Keyfiyyət məlumatları predmeti bildirir, kəmiyyət materialları isə bu tədqiqat predmetinin obyektdə təzahür gücünü göstərir. Mühakiməni davam etdirib qeyd etmək olar ki, bu məlumatlardan biri daha çox sosial hadisə haqqında mühakimənin yaradılmasına, digəri isə yaranmış mühakimənin qiymətləndirilməsinə yaxud testləşdirilməsinə yönəlir. Məlumatların hər iki tipinin təbiətlərindəki bu fərqlər keyfiyyət tədqiqatlarını (keyfiyyət məlumatları əsasında aparılan tədqiqatları) daha çox nəzəriyyənin yaradılması mərhələsilə, kəmiyyət tədqiqatlarını isə nəzəriyyənin verifikasiyası ilə başlamağa gətirib çıxarmışdır" (bax:71, 154).

Bir-birinə əks olan kəmiyyət və keyfiyyət metodolo-giyalarının qarşılıqlı tamamlama münasibəti təhsildə geniş yayılmış sosial avtobioqrafiya fəndində (priyomunda) daha yaxşı görünür. Belə ki, özünün sosial avtobioqrafiyasını cızmaq istəyən insan birincisi, yalnız özünə aid olan təkrarolunmaz hadisələri (hansı ailədə doğulduğunu, özünün necə sosiallaşdığını, valideynlərinin həyatında baş vermiş hansı hadisələrin tələbənin həyatına təsirini və i.a.) məntiqi ardıcıllıqla təsvir etməyi bacarmalıdır; ikincisi, təsvir olunan hər bir hadisənin "sosial çəkisini", başqa insanların və bütövlükdə cəmiyyətin taleyi ilə üst-üstə düşdüyünü aydınlaşdırmalıdır. Məsələn, əgər tələbənin atası işsiz qalmışdırsa və bu səbəbdən ailəsinin yaşayış səviyyəsi aşağı düşmüşdürsə, daha ucuz mənzil kiralamaq, yaşadığı rayonu və məktəbi tərk etmək zərurəti yaranmışdırsa, onda həyat üçün mühüm olan bu hadisələrdən hər birini sosial statistika süzgəcindən keçirməli və atasının işdən çıxarıldığı ildə ölkəsində nə qədər işsiz olduğunu, işsiz qalmasının struktur dəyişikliyilə yaxud müəssisənin ixtisara düşməsilə bağlı olduğunu və s. müəyyənləşdirməlidir.

Şəxsi uğursuzluğun, bədbəxtliyin ictimai problemlər yönündən yanaşıb təhlil etmək elmi təfəkkürün mütləq atributudur. Ümumiyyətlə, şəxsi və ictimai hadisələri əlaqələndirməyi öyrənmədən öz taleyini insan haqqında elm ilə bağlamaq səmərəsiz bir addım sayılır. Beləliklə, peşəkar antropoloq təfəkkürünün, peşəkar fəaliyyətin xüsusi bir sahəsi olan antropologiyanın əsasında unikal hadisələr və tipik hadisələrin bir-birini tamamlaması prinsipi durur.

Antropologiyada keyfiyyət və kəmiyyət paradiqmalarının ümumi maraq sahəsi ilə yanaşı onların hər birinin fərqli sahələri də vardır. V.V.Semyonova yazır: "Tədqiqatın bu iki tipi elmi kateqoriyaları, konsepsiyaları, hipotezləri, ölçmə prosedurları, məlumatların nəzəri təhlilindən istifadə etməsi baxımından oxşardır. Hər iki strategiya məlumatların təqdimatının elmi ümumiləşdirilmiş formasını nəzərdə tutur. Deməli, keyfiyyət tədqiqatı aparmaq üçün elmi anlayışlar və nəzəriyyələrlə işləməyi bacarmaq, nəzəriyyələrlə tanışlıq lazımdır. Amma biz əmin olduq ki, humanist sosiologiyanın kateqoriyaları pozitivist sosiologiyanın kateqoriyalarından fərqlənir. Deməli, "keyfiyyət" tədqiqatçısı bu ənənə çərçivəsində yaxşı nəzəri



hazırlıqlı olmalıdır". Sözü gedən hər iki metodologiyanın oxşarlığını V.V.Semyonov bunda görür, fərqlərini isə belə izah edir: "Keyfiyyət tədqiqatında əməliyyatların aparılma qaydası çox fərqlidir: hipotezlər "çıxışda" irəli sürülür; nəzəriyyələr, anlayışlar başlanğıc mərhələdə ən ümumi halda formullaşdırılır və yalnız çöl tədqiqatından sonrakı ümumiləşdirmə nəticəsində daha da müəyyənləşir; ölçü alətləri tədqiqatın çöl mərhələsinin yekunu əsasında işlənib hazırlanır. Bu onu göstərir ki, kəmiyyət araşdırmasından fərqli olaraq keyfiyyət üzrə tədqiqat başlanğıc mərhələdə *açıq xarakter* daşıyır və yalnız tədqiqatın son mərhələsində dəqiq konsepsiya yaradılır. Deməli, tədqiqat prosesinin özündə müstəqil analitik işə hazır olmaq lazımdır. Keyfiyyət strategiyasında məlumatların təsəvvür və təqdim edilməsi təsviri xarakter daşıyır, bu isə geniş mətn materialları ilə işləmək bacarığı və hazırlığı tələb edir" (150, 128).

Yuxarıda deyilənlərdən nəticə çıxarmaq lazımdır ki, müasir elm üçün səciyyəvi cəhət metodologiya və empirik elmi tədqiqat metodlarının seçimində plüralizmdir, elmiliyin müxtəlif standartlarının bərabər dəyərə malik olduğunun etiraf edilməsidir. Elmi tədqiqatın vəzifəsi daha çox öyrənilən problemə kompleks yanaşmağı, müxtəlif metod və elmi fəndlərin birləşdirilməsini tələb edir. Başqa yol tədqiqatçını subyektivizmə, birtərəfliliyə sürükləyə bilər ki, bu da ciddi elmi tədqiqat üçün arzuolunmazdır.

Bu bölmədə sözü gedən metodologiyalardan, yaxud keyfiyyət üzrə araşdırmaya dair nəzəriyyələrdən biri qraund nəzəriyyədir.

## 2.3. Keyfiyyət metodologiyasına əsaslanan nəzəri biliyin mahiyyəti və strukturu

Keyfiyyət metodologiyasında nəzəri biliyin əsas daşıyıcısı və təşkilatçısı qraund-nəzəriyyə sayılır. Bu nəzəriyyə formal (məntiq qaydalarına uyğun) hasil edilən sonra da müşahidənin gedişində yoxlanılan nəzəriyyədən fərqli olaraq öz ideyalarını faktlarla bilavasitə dialoq prosesində inkişaf etdirir.

Qraund-nəzəriyyə çöl tədqiqatının gedişində, obyektin özündə yəni insanlarla ünsiyyət yaxud onların davranışlarını müşahidə prosesində yarandığı üçün belə adlandırılmışdır. Rəssam kimi antropoloq da öz əsərini (nəzəriyyəsini) insanların qarşısında, çoxsaylı versiyaları rədd etməklə, onları vəziyyətdən və şəraitdən

asılı olaraq dəqiqləşdirmək və redaktə etməklə yaradır. Bu anlamda keyfiyyət nəzəriyyəsi ayağı torpağa dayanan – "qrounded" nəzəriyyə sayılır.

Qrounded theory məfhumunu ilk dəfə Amerika alimləri B.Qlaser və A.Ştranss 1967-ci ildə nəşr etdirdikləri "Qraund-nəzəriyyənin kəşfi: keyfiyyət tədqiqatının strategiyası" adlı əsərdə işlətmişlər.

Qərb antropoloji ədəbiyyatında bu nəzəriyyə "yaxşı elmin" kanonu sayılır və onun həm keyfiyyət, həm də kəmiyyət tədqiqatlarında uğurla işləyəcəyi mümkün hesab edilir. B.Qlasser qraund-nəzəriyyənin XX yüzilin 60-cı illərində sosial-psixoloji tədqiqatlara və nəzəri ehtikarlığa (abstrakt söz alverinə) qarşı yaradıldığını qeyd edir. Həmin illərdə B.Qlasser və A.Ştraus (yaxud Strauss) Kaliforniya Universitetində çalışırdılar. Burada onlar hospitalların birində ağır xəstələrin öyrənilməsi üzrə tədqiqat layihəsinə rəhbərlik üçün qrant almışdılar. Uzun sürən və çətin bu çöl tədqiqatı (alimin qısa vaxtda mənzildə, ofisdə və s. apardığı sosioloji sorğudan fərqli olaraq) onlara zəngin empirik material toplamağa və bənzərsiz tədqiqat metodikası yaratmağa imkan vermişdir. Onların qazandıqları bu uğur sonradan əsl elmi kəşf, yeni elmi metodologiyanın yaradılması kimi qiymətləndirilmişdir. Onu da qeyd etmək lazımdır ki, B.Qlasserin və A.Ştrausun yaratdıqları metodologiyanın prinsiplərini və əsas cizgilərini onlardan 50 il öncə humanist adlanan sosiologiyanın nümayəndələri sezmişdilər. Amma B.Qlasser və A.Ştrauss onların edə bilmədiklərini etdilər: tədqiqat alətini, onun strukturunu, prinsiplərini hazırladılar, tətbiq sahəsini, üstün və qüsurlu tərəflərini müəyyənləşdirdilər, yeni metodologiyanı kütləviləşdirən dərslik yazdılar; yeni metoda bağlı bir neçə gənc nəsli yetişdirdilər. Anlam sosiologiyasının simvolik interaksionizm və hətta praqmatizm fəlsəfəsilə birlikdə nəzəri kökləri XX əsrin başlanğıcına gedib çıxır. Onun empirik doğuşu isə 60-cı illərdə baş vermiş, XX əsrin sonu və XXI əsrin başlanğıcında çiçəklənib genişlənən keyfiyyət metodologiyası bu gün güclü və nüfuzlu elmi ənənəyə çevrilmişdir.

A.Ştrauss R.Parkın, U.Tomasın, C.Midin və b. alimlərin təsiri altında formalaşmışdır. Onların yüksək mədəniyyətli çöl tədqiqatlarında topladıqları faktları heç bir kitabxanada yaxud iş



otağında əldə etmək mümkün deyil. Yaxşı nəzəriyyə faktlardan irəli gəlməlidir. Keyfiyyət elmi ənənəsi alimin tədqiq etdiyi situasiyanın içində olmalı, onun iştirakçısına çevrilməlidir.

B.Qlasser Ştrausdan fərqli olaraq Kolumbiya Universitetində P.Lazersfeldin təsiri altında hazırlıq keçmişdi. Halbuki, A.Lazersfeld kəmiyyət metodologiyasının banilərindən biri olmuşdur. Bu universitetdə empirik sosioantropoloji araşdırmalar daha çox riyazi metodlara əsaslanır. Belə şəraitdə formalaşmasına baxmayaraq B.Qlasser keyfiyyət analizini yaxşı düşünülmüş, formullaşdırılmış sistemli elmi axtarış strategiyasına çevirdi. Bu elmi axtarış strategiyasında tədqiqatın gedişində yaranan hipotezlərin yoxlanılması, tədqiqat seçiminin əsaslandırılması və bir çox başqa prosedurlar elmilik səviyyəsinə görə keyfiyyət metodologiyasını kəmiyyət metodologiyasına yaxınlaşdırır. Ənənəvi akademik tədqiqatlarda hipotezlərin irəli sürülməsi və yoxlanması, verifikasiya texnologiyası, məlumatların kəmiyyət analizi riyazi statistikanın əsasları sayılır. Mütəxəssislər hesab edirlər ki, belə tədqiqat strategiyası geniş sahədə (məsələn, kolxoz tarlasında yaxud çoxsahəli böyük firmada) tədqiqat aparmaq üçün əlverişli olsa da ayrılıqda yararlı deyil. Burada dərin müsahibə, şifahi tarixçilərin analizi, avtobioqrafik metod, etnoqrafik araşdırma daha münasibdir. B.Qlasser və A.Ştraus bu tələblərə yaxud prinsiplərə uyğun, ancaq ənənəvi akademik tədqiqatlara alternativ olan yeni metodologiya yaratdılar. Yeni metodologiya qraund-nəzəriyyəyə əsaslanır.

Kəmiyyət metodologiyası çərçivəsində yaradılmış formal yaxud abstrakt nəzəriyyələrin əksinə olaraq müəyyən məntiqi qaydalar üzrə deduktiv hasil edilən, təcrübədə yoxlanılan hipotezlərə malik qraund-nəzəriyyə konkret faktların müşahidəsindən, tədqiqatın gedişində yeni ideyalar irəli sürən tədqiqatçı təxəyyülündən irəli gəlir. Alimin yaradıcı təxəyyülü ilə yaradılan anlayışları Qlasser və Ştrauss *senzitiv* yəni hissi, intuitiv anlayışlar, bu anlayışların hasil edildiyi metodu isə analitik induksiya adlandırırlar.

A.Ştrauss və C.Korbin qraund-nəzəriyyənin mahiyyəti və strukturu haqqında öz ideyalarını sistemləşdirməyə çalışmış, bu məqsədlə keyfiyyət tədqiqatında analizin üç səviyyəsini ayırmışlar: 1) məlumatları şərhsiz və ümumiləşdirmədən təqdim etmək, başqa sözlə, öyrənilən obyektlərin öz həyatlarının tarixçəsi haqqında

danışıqları; 2) tədqiqatçının müsahibə götürməsi və şərhi; 3) yüksək səviyyəli abstraksiyadan istifadə etməklə əldə edilmiş empirik məlumatların şərhi əsasında nəzəriyyənin yaradılması.

A.Ştrauss (Strauss) və C.Korbin əsaslandırılmış nəzəriyyə nədir sualı ilə bağlı yazırlar: "Əsaslandırılmış nəzəriyyə – əks etdirdiyi fenomenin öyrənilməsindən induktiv hasil edilən nəzəriyyədir. Yəni belə nəzəriyyə müxtəlif şəraitlərdə öyrənilən fenomenə aid məlumatların sistematik toplanması və təhlili yolu ilə yaradılır. Beləliklə, məlumatların toplanması, təhlili və nəzəriyyə bir-biri ilə qarşılıqlı bağlantıda (əlaqədə) olur. Nəzəriyyədən çıxış edib sonra da onu sübut etmək olmaz. Tədqiqat sahəsindən başlamaq lazımdır, o zaman bu sahəyə aid olan hər şey üzə çıxacaq" (bax: 156, 20-21).

Qraund-nəzəriyyənin müəllifləri və davamçıları onun əhatə dairəsinin çox geniş olduğunu qeyd edirlər. Onun daşıdığı başlıca funksiyalar aşağıdakılardır:

1) müqayisəli analizin ümumi metodudur;

2) induktiv nəzəriyyənin hasil edilməsi üçün keyfiyyət (substantiv) *məlumatların toplanmasını tənzimləyən ümumi* metodologiyadır;

3) şəxsiyyətlərarası qarşılıqlı təsir çərçivəsində baş verən sosial proseslərin analizində istifadə edilən keyfiyyət yanaşmasıdır;

4) fərdi (spesifik) hadisələr haqqında məlumatların toplanması və analizində tətbiq olunan çöl tədqiqat formasıdır;

5) özü-özünü korrektə edən metoddur; nəzəri hipotezlər kompleksidir;

6) ayrı-ayrı hadisələrin çöl tədqiqi materiallarından induktiv hasil *edilən nəzəriyyədir. Belə nəzəriyyə* faktlardan ümumiləşdirmələrə bir başa və dönən hərəkət yolu ilə yaradılır, ancaq öncədən yoxlanılır;

7) anlayış indikatorlarına əsaslanan və empirik indikatorlar toplusunun nəzəri kodlaşdırılmasına imkan verən modeldir;

8) öyrənilən hadisənin statistik deyil, mahiyyət obrazını yaradan keyfiyyət (substantiv) nəzəriyyədir;

9) insan hərəkətlərini bu hərəkətlərdə iştirak edən fərd mövqeyindən anlamağa çalışmaqdır;



10) P.Lazerfeldin *əldə etdiyi məlumatların kəmiyyət analizi* metodikasının təkmilləşdirilmiş variantının tətbiq olunmasıdır;

11) orta dərəcəli kəmiyyət nəzəriyyələrinin təsir dairəsini genişləndirməklə nəzəriyyə, tədqiqat və praktika arasındakı ayrılığı daraldaraq onları yaxşı tamamlayan keyfiyyət (substantiv) nəzəriyyədir.

Metodoloji yönümdən qraund-nəzəriyyə ikili təbiətlidir: müşahidənin məlumatlarından hasil edilən induktiv, empirik təcrübədə yoxlanıla bilən və ümumi prinsiplərə malik olan deduktiv nəzəriyyə (A.Ştrauss, C.Korbin).

B.Qlasser və A.Ştrauss özlərinin yuxarıda adı çəkilən əsərində qraund – nəzəriyyənin əsas struktur komponentlərini (daimi müqayisə, nəzəri seçim, formullaşdırılmış qanunların sistemə salınması və s.) şərh etmişlər. Sonrakı işlərində nəzəriləşdirmənin yeni tipinin şərhini dərinləşdirmiş və genişləndirmişlər. Onlar yeni işlərində daha çox keyfiyyət və kəmiyyət metodologiyalarının nəzəri-metodologiyasına və hətta epistemioloji müqayisəsinə diqqət yetirmişlər.

Onların tərəfdarları isə hər bir tədqiqatdan sonra yalnız tədqiq olunan hala uyğun olan nəzəriyyə yaradırlar. Belə nəzəriyyələr geniş əhatəli və xalis deduktiv yolla alınan qraund-nəzəriyyədən həm də təkrarolunmazlığı ilə fərqlənir.

Qraund-nəzəriyyənin nüvəsinə aşağıdakı tədqiqat əməliyyatları daxil edilir:

*birincisi*, məlumatların toplanması və təhlilinə empirik yanaşma, onu dəfələrlə təkrar etmək. Başqa sözlə, məlumatlar dövri olaraq yığılır, təhlil edilir və yenidən gözdən keçirir. Bu üsulla alim toplanmış informasiyaların keyfiyyətinə nəzarət edir;

*ikincisi*, nəzəriyyənin yaradılmasında müqayisəli metodun daim tətbiqi. Tamamilə müxtəlif hadisələr arasında oxşarlıq axtarılması öyrənilən konkret hadisənin daha aydın işıqlandırılmasına xidmət edir. A.Ştrauss bir gün öz əski həmkarı və "anlam sosiologiyasının" tərəfdarı E.Hyuzla söhbət edərkən onun "Keşiş və fahişənin ümumi cəhəti nədir?" sualına belə cavab verir: "Onların hər ikisi öz işlərini gizlində görürlər, odur ki, kənardan baxanlar üçün onların işi sirli görünür". Belə uzaq sosial hadisələrə məxsus olan ümumi əlaməti görmək keyfiyyət metodunun idraki funksiyasına

aiddir. Müqayisəli təhlil, həmçinin iki oxşar obyekt arasındakı əksliyi aşkar etmək üçün də tətbiq edilə bilər. Məsələn, eyni bir nəslin iki nümayəndəsi eyni sosial vəziyyətdən başlayıb, ancaq müxtəlif yollarla yüksək xidməti status qazana bilər. Müqayisəli analizdə aydın olur ki, bu iki halın şəraiti və nəticəsi oxşar olsa da gedişləri fərqlidir;

*üçüncüsü*, məlumatların seçilib götürülməsinin xüsusi üsulu nəzəri üsul sayılır. Bu üsul dərin və orijinal ümumiləşdirmələr etməyə imkan verən zəngin empirik materialların alınmasını nəzərdə tutur. Bu fikri əməliyyatda yeni hipotezlərin irəli sürülməsi və əvvəlki sosioloji nəzəriyyələrə varislik məsələsi arxa plana atılır;

*dördüncüsü*, keyfiyyət nəzəriyyəsi çoxsaylı yarımmüstəqil nəzəri sahələrə, anlayışlara, mühakimələrə ayrılır ki, bunlardan ayrılıqda (ümumi nəzəriyyəyə müraciət etmədən) yeni empirik faktların və hadisələrin izahında istifadə etmək olar. Məsələn, Qlasser və Ştrauss 60-cı illərdə tibbi xəstəxanada xəstə qocalar üzərində tədqiqat aparmaq üçün "öz statusunu dərk etmək" və "şüur konteksti" anlayışlarını irəli sürmüş, on beş il bu anlayışların köməyilə tədqiqat aparmışlar.

Mütəxəssislər keyfiyyət və kəmiyyət metodologiyalarının bir-birindən ciddi fərqləndiyini də qeyd edirlər. Bu fərqlər tədqiqatın yalnız metodikasında deyil, həm də metodologiyasında özünü göstərir. Onların arasındakı fərqlər dünyanın elmi mənzərəsinin yaradılması sahəsində də müşahidə olunur. Dünyanın elmi mənzərəsinin yaradılması antropoloji bilik silsiləsinin elə səviyyəsidir ki, bu səviyyədə sosiologiya və antropologiya fəlsəfə ilə qovuşur.

Keyfiyyət metodologiyasında tədqiqat kəmiyyət metodologiyası üzrə aparılan tədqiqatdan başqa səmtə yönəlir. Keyfiyyət metodologiyası ilə silahlanan alim öncədən heç nə irəli sürmür və yaratmır. O geridə qalmış kənddə yaxud autsayderlər qrupunda qarşılaşacağı dünya haqqında heç nə bilmir. O, yalnız bilir ki, qarşılaşacağı insan qrupunda və onlara məxsus submədəniyyətdə xüsusi adətlər, ənənələr, dil və özünüifadə təsiri vardır. Belə özünəməxsus sosial şəraitdə alim düşüncəsi induktiv metod üzrə hərəkət edir (bundan fərqli olaraq kəmiyyət metodu üzrə tədqiqat deduktiv metod üzrə aparılır). A.Ştrauss elm adamlarını inandırmağa



çalışır ki, tədqiqatçılar təbii-elmi modelləri, özəlliklə də laboratoriya eksperimentlərini metodoloji etalonlar kimi qəbul edib onlarla məhdudlaşmamalıdırlar. Qraund-nəzəriyyə çərçivəsində öncədən verilmiş (aprior) hipotezlərə alternativlər vardır. Bu nəzəriyyədə hipotetik mühakimələr təcrübədən hasil edilir və deduktiv metoddan fərqli olaraq qraund-nəzəriyyə tədqiqat prosesinə daha zəngin və realist aydınlıq verir. Keyfiyyət metodologiyasının tərəfdarlarının çoxu israr edirlər ki, dünyanın onların təklif etdiyi nəzəri modeli təfəkkürün deduktiv hərəkətilə deyil, induktiv hərkətilə yararadılır. Bu model elmi laboratoriyalardan deyil, həyatın özündən hasil edilir. Əslində belə mühakimələr irəli sürmək üçün onların əlində yetərincə arqumentlər vardır.

# III Fəsil
# Antropoloji tədqiqatın prinsipləri, növləri və təhlil metodları

## 3.1. Antropologiyanın elmi prinsipləri

Elmi idrakın hər hansı bir sahəsində istifadə edilən elmi prinsiplər həmin elm sahəsinin əsas məqsədindən irəli gəlir. Hər bir elmin əsas məqsədi öyrəndiyi obyektin hərəkətinin qanunlarını, əlaqələrinin qanunauyğunluğunu, əlamətini və xassələrini və s. təsvir və izah etməkdir. Bu müddəa eynilə insanı öyrənən elmlərə, o cümlədən antropologiyaya da aiddir. Antropoloji tədqiqatın əsas məqsədi sosial davranışın subyekti olan insanı təbii-tarixi, sosial tarixi, varlığı və inkişafının bu iki aspektinin vəhdəti və qarşılıqlı təsiri planında təsvir və təqdim etməkdən ibarətdir.

Antropologiyanın əsas məsələsi antropososiogenez prosesini bütün aydınlığı ilə izah etməkir. Qeyd etdiyimiz kimi, antropoloji tədqiqat, bir-biri ilə bağlı olan iki problemi-antropogenez və sosiogenez – həll etməyə yönəlmişdir. Antropogenez insanın fiziki tipinin təbii-tarixi formalaşması yaxud tarixi-təkamül prosesi, onun ilk əmək fəaliyyətinin, nitqinin və cəmiyyətin inkişafı prosesidir. Sosiogenez prosesi isə aşağıdakı inkişaf mərhələlərini özündə birləşdirir: sosial heyvanlar, insandan öncəki sürünün formalaşması, insan sürüsünün yaranması, ailənin, qəbilənin, tayfanın, ibtidai icmanın və idarəçiliyin (başçılığın) yaranması.

Antropologiya öz obyektinin öyrənilməsi tarixində özünəməxsus elmi ənənələr və empirik təcrübə əldə etmişdir. Sosioloji və antropoloji tədqiqat tarixində bu elmlərdə bir sıra prinsiplər formalaşmışdır:

• *empirizm prinsipi*. Bu prinsip nəzəri müddəaların empirik metodların tətbiqi ilə əldə olunmuş faktlarla yoxlanılmasını nəzərdə tutur. Antropoloqlar, eləcə də ona yaxın olan etnoqrafiyanın, sosiologiyanın və etnologiyanın nümayəndələri obyektiv və faydalı informasiya əldə etmək üçün ən sadə empirik metodlardan istifadə edirlər. Onlar başqa elmi tədqiqatçıların ağlına gəlməyən qaynaqlardan-maqnitafon lentlərindən, qəzetlərin kəsiklərindən, saralmış məktublardan yaxud gündəliklərdən-məlumatlar əldə edərək qəbilənin tarixi keçmişini, onun səcərəsini bərpa edirlər yaxud şimal xalqlarında tanrılara ənənəvi sitayiş mərasimlərini təsvir edirlər.

Antropoloqlar elmi məqsədlə müxtəlif materiallardan istifadə edirlər. Onlar etnoqrafların tədqiqat və təsvirlərinin nəticələrinə, səyahətçilərin qeydlərinə, bədii və folklor mətnlərinə, şifahi hekayətlərə, etnososioloji və etnopsixoloji tədqiqatlara, publisistik materiallara, rəsmi sənədlərə, tarixi və ictimai-siyasi ədəbiyyata, coğrafi məruzələrə və s. müraciət edirlər.

• *əsaslandırma, yaxud izahetmə prinsipi*. Təbiətşünaslar kimi antropoloqlar da empirik məlumatları toplayaraq onları sistemləşdirir, bir-birindən asılı olmayan çoxsaylı qaynaqlardan istifadə edib cədvəllər tərtib edir, empirik ümumiləşdirmələr edirlər. Onlar topladıqları faktları yaxud empirik məlumatları izah edərkən etnoqrafların ənənəvi məqsədlərini, metodlarını və üslubunu yenidən gözdən keçirməli olurlar. Antropoloqlar düşünürlər ki, klassik etnoqraflar cəmiyyətin tarixinə, siyasətinə və sosial reallığına etinasız qalır, əhəmiyyət vermirlər. Klassik etnoqrafiyaya yenidən nəzər salınması Qərbdə eksperimental antropologiyanın yeni bir antropoloji istiqamət kimi qəbul edilməsi ilə nəticələndi. Onun tərəfdarları Markus və Keşman əsaslandırırlar ki, bir vaxtlar bütün mədəniyyətlər kəşf edilmişdi, indi isə onların yenidən kəşf edilməsinə ehtiyac var. Etnoqraf aborigenlərlə elmi kitabların oxucuları arasında mediator rolunu oynayır. Mediator kimi o, kitabda çoxlu subyektiv şərhlər verir.



Amerika antropoloqu K.Kottaka görə, etnoqraf mediator rolunda bir tərəfdən yerli mədəniyyət kateqoriyalarını Qərb elmi dilinin anlayışlarına çevirir, digər tərəfdən, kitab yaxud hesabat yazarkən elə edir ki, onu gələcək oxucu anlaya bilsin, başqa sözlə, məlumatları bir daha, yenidən şərh edir.

"İtmiş mədəniyyətlərin xilaskarı" adlanan klassik etnoqrafiya dövründə "etnoqrafik indi" anlayışı da yaranmışdı. Bu yerli mədəniyyətin "həqiqi" çiçəkləndiyi dövrü bildirir. Belə yanaşma sayəsində etnoqrafların köhnə klassik işləri vazkeçilməz dəyər əldə edir. "Etnqorafik indi" anlayışı klassik etnoqrafiyaya tarixi keçmiş möhürünü basmağı qadağan edir.

Hazırda antropoloqlar etnoqrafik indi anlayışını bir ideallaşdırma sayırlar. Mədəniyyətlər tarixin bütün dövründə bir-birilə qarşılıqlı bağlılıqda və təsirdə olmuşlar. Aborigen mədəniyyətlərin önəmli hissəsi Qərb sivilizasiyası çevrəsinə cəlb edilmişlər. Çünki onlar Avropa ölkələrinin koloniyaları olmuşlar.

Antropoloqlar tez-tez azsaylı insan topluluqları ilə, nəsli kəsilən etnosla, kiçik qəbilələrlə, bir neçə ağsaqqal kişilərlə və çox qoca qadınlarla qarşılaşmalı olurlar. Bu azsaylı insanlar öz yurdunun folklor irsinin canlı arxivləridirlər. Belə hallarla qarşılaşdıqda, antropoloqlar subyektiv metoda müraciət edirlər. Burada "subyektiv" anlayışının iki məna daşıdığı qeyd edilir: birincisi, alimlər yüzlərlə, minlərlə insandan deyil, bir yaxud bir neçə nəfərdən informasiya alırlar. Belə məlumatların yenidən yoxlanması çox vaxt mümkün olmur, ona görə ki, bənzərsiz mədəniyyətin daşıyıcıları bütün planetdə yalnız beş-altı nəfər ola bilər. Onların danışıqlarını bütün incəlikləri ilə qeyd edib onlara inanmaqdan başqa bir yol qalmır. Bir-birindən asılı olmayan çoxsaylı qaynaqlar üzrə yoxlama isə qeyd edilən subyektiv yanaşmalardan, ehtiraslı mühakimələrdən, addabudda yaddaşdan və şəxsi qüsurlardan azad olmaq üçün antropoloqa imkan verir; *ikincisi*, antropoloq bənzərsiz söhbətin yazısını izah edərkən yaxud video və fotosənədlərə baxarkən gördüklərini və eşitdiklərini özünün nəzəri təsəvvürlərindən, ixtisaslaşmasının səviyyəsindən, aldığı təhsilin özəlliyindən çıxış edib şərh etməkdə azaddır. Odur ki, eyni bir faktın bir-birinə əks şərhlərinə tez-tez rast gəlinir. Bu hallar ondan irəli gəlir ki, şərhçi alim də müəyyən konsepsiyaya əsaslanır, digər tərəfdən də faktlar çox az olur.

• *əldə olunmuş nəticələrin müstəqilliyi, obyektivliyi prinsipi.* Obyektiv metodların özəlliklə də qəbilənin, qrupun, mədəniyyətin təmsilçilərindən sorğulara cavab alınması, yaxud statistik məlumatlar toplamağın üstünlükləri danılmazdır. Amma statistiklər kiçik insan birlikləri və nadir obyektlər üzərində iş aparmırlar. Bundan başqa, onlar sosial obyekti öncədən bir neçə standart göstəricilərə müncər etməklə onu təhrif etmiş olurlar. Antropoloq üçün obyektin bir neçə göstəricinin daşıyıcısı kimi təqdim edilməsinin elmi dəyəri nəzərə alınmaz dərəcədə əhəmiyyətsizdir.

Dünyanın bir çox ölkələrinin telekanallarında "Səyahətçilər klubu" verilişi təsis olunub. Bu verilişdə antropoloji filmlər də nümayiş etdirilir. Bu isə vizual antropologiyanın geniş yayılmasına imkan verir. Vizual antropologiya haqqında rəylər müxtəlifdir. Bir yanaşmaya görə, bu antropoloji elm müxtəlif mədəniyyətlər haqqında elm olub ayrı-ayrı mədəniyyətlər daxilində baş verən hadisələri qərəzsiz qeyd etmək üçün kamera və fotoaparatlarla təchiz olunmuşdur. Başqa bir baxışa görə isə vizual antropologiya yüksək operator sənəti sahəsinə aid olub insan həyatının gözdən yayınan nüanslarını gerçəkləşdirməyə yönəlmişdir.

K.Kottak etnoqrafiya və antropologiyada istifadə olunan metodların aşağıdakı əsas xüsusiyyətlərini göstərir:

* insanların gündəlik davranışlarının onların öz aralarında olmaqla bilavasitə müşahidəsi və məlumatların birinci əldən alınması;

* qəbilənin gündəlik həyatı haqqında daha çox məlumatlı olanlarla könüllü söhbət. Söhbətdə sonradan elmi müsahibə aparmaq üçün onların razılığını almaq məqsədi güdülür;

* tədqiq olunması planlaşdırılan insan birliyinin (məsələn, qəbilənin) sonradan daha dərindən öyrənilməsi üçün lazım olan yararlı məlumatlar alınması üçün proqram hazırlanması;

* geneoloji metod;

* birliyin sosial həyatının bu və ya digər sahələri haqqında yaxşı məlumatı olanlarla ətraflı iş;

* konkret insanların həyat tarixi haqqında sistemli biliyin tərtib olunması ilə bitən dərin müsahibə;

* yerli əhalinin dəyərlər sisteminin öyrənilməsinə yönələn tədqiqat. Belə tədqiqatın məqsədi aborigen əhalinin inanc və baxışlarını anlamaqdan ibarətdir;

* alimin öz dəyərlərinə və vəzifələrinə yönəlmiş (etik) tədqiqat. Bu tədqiqat materialları etnoqrafiya elmini nəzəriyyə və anlayışlarına uyğun şərh etməyə imkan verir;

* bir obyektin və ya hadisənin davamlı öyrənilməsinə yönəlmiş tədqiqat.



K.Kottak antropologiyanın insanı öyrənən başqa elmlərdən fərqini aşağıdakı özəlliklərində görür:

- antropologiya kompartiv (mədəniyyətləri müqayisəli təhlil edən) elmdir;
- antropologiya xolistik (cəmiyyətin yaxud insan həyatının bütün tərəflərini əhatə edən) elmdir;
- antropologiya qlobal (bütün mədəniyyətləri və bütün ölkələri bütün epoxalar üzrə öyrənən) elmdir.

Bu özəlliklərinə görə antropologiya mühüm mənəvi funksiya daşıyır. Antropoloji bilik bizim şüurumuzu etnozentrizmdən, başqa mədəniyyətləri yetərincə dəyərləndirməmək vərdişindən, başqa mədəniyyətləri öz mədəniyyətinin norma və dəyərləri mövqeyindən izah etmək cəhdindən azad edir. Eyni zamanda antropologiyanın istifadə etdiyi geniş müqayisəli – mədəni tədqiqat yolu bizə öz cəmiyyətimizi dərindən anlamağa, ona başqa-yeni gözlə baxmağa imkan verir. Özümüzə, sosial varlığımıza kənardan baxmaq bacarığı dünyanın sosioloji mənzərəsini zənginləşdirir.

XX əsrin 70-ci illərində geniş vüsət almış interpretativ antropologiya öz adını mədəniyyətləri hamıdan öncə aborigenlərin gözü və anlayışına əsaslanaraq təsvir və şərh etməklə qazanmışdır. İnterpretativ antropoloqlar (K.Qirs və b.) yerli mədəniyyətlərə aborigenlərin daim "oxuduğu" Qərb alimlərinin isə mənalarını açdığı mətnlər kimi baxırlar.

### 3.2. Antropoloji təhlil metodları

Bəşəriyyətin tarixi keçmişinin fikri modelinin yaradılması və onun indisini daha yaxşı anlamaq üçün antropologiyada çoxsaylı metodlardan istifadə olunur. Onlara müqayisəli-tarixi metod (krossmədəni tədqiqat), tarixi yaşantılar metodu, struktur-funksional metod, tarixi təkamül, tipoloji və b. metodlar daxil edilir. Bu metodların köməyilə sosial və mədəni hadisələrin ümumi və xüsusi

cəhətləti müəyyənləşdirilir, inkişaf mərhələləri, primitiv cəmiyyətlərin hərəkətlərindəki universal qanunlar və meyllər aşkar edilir.

Amerika hindularının ənənələrini öyrənən J.F.Lafito (XVIII əsr) bu nəticəyə gəlir ki, onların və Avropa xalqlarının ənənələrinin oxşarlığı onların eyni mənşəli olmadığındadır. Müqayisəli-tarixi metod XIX əsr təkamülçülərinin başlıca tədqiqat üsulu olmuşdur. L.Morqan, E.Taylor, C.Freyzerdən yüz il sonra ABŞ-da neotəkamülçülük məktəbinin nümayəndələri də müqayisə metodundan istifadə etmişlər.

*Müqayisəli-tarixi tədqiqatın* məqsədi eyni tarixi zamanda mövcud olmuş ya da bir-birindən sonra yaranmış mədəniyyətlərin oxşar və fərqli cəhətlərini təhlil etməkdir. Təhlil zamanı alim mədəniyyətlərdə olmuş başlıca və təkrarlanan əlamətləri ayırır, ikinci dərəcəli əlamətlərin isə üstündən sükutla keçir.

*Tipoloji metod.* Bu metod sosial-mədəni hadisələrin empirik rəngarəngliyində ümumi və xüsusinin təhlilinə əsaslanır. Burada "tip" anlayışı müəyyən hadisələrin bir sıra mühüm əlamətlərini əks etdirən ideal model kimi başa düşülür. Eyni zamanda bu anlayış ikinci dərəcəli sayılan əlamətlərin nəzərə alınmadığını ifadə edir.

*İdeal tip* anlayışını alman filosofu və sosioloqu M.Veber elmə gətirmişdir. Bu anlayış Veber üçün hadisə yaxud proseslərin kəmiyyət göstəricilərini müəyyən etmək üçün fikri konstruksiya, abstrakt etolondur. Bu anlayış müəyyən sosial hadisənin yaxud hadisələr qrupunun statistikaya müraciət etmədən ümumi obrazını yaratmaq üçün nəzəri təfəkkürün işlətdiyi fənddir. Bir-birindən fərqli çoxsaylı cisimlərin və ya hadisələrin tiplər üzrə qruplaşdırılması onların uzaq və ya yaxın oxşarlığına əsaslanır. Təfəkkürün bu fəndi gündəlik həyatda və elmdə də işlədilə bilər. Təfəkkür bu zaman induktiv metod üzrə hərəkət edir – ayrı-ayrı faktlardan çıxış edib ümumiləşdirilmiş nəticələr-tiplər hasil edir. Təfəkkürün deduktiv hərəkətində isə tamın-hasil edilmiş tipin fikri surətini alırıq. Sonra da ona məxsus bir neçə mühüm əlaməti müəyyən edib onu sosial hadisələrin başqa tiplərindən fərqləndiririk. Humanitar elmlərdə ideal tip deduktiv həm də empirik tədqiqatın başlanmasından öncə yarandığına görə apriori xarakter daşıyır. Bu xarakterinə görə ideal tip tədqiqatda istiqamətverici prinsip kimi rol oynayır, tədqiqatçıya nəyi və harada axtarmağı görməyə imkan verir.



Burada nəzəri təhlil mədəni unifikasiya tələb edir. Bu əməliyyat obyektlər çoxluğunu müəyyən bir vəhdətə müncər etməklə onların müxtəlifliyini aradan qaldırmağa yönəlmiş təfəkkür metodudur. Amma bu metodun düzgün tətbiq edilməməsi xalqın mədəni özünəməxsusluğunun itirilməsi və onun quru sxemə çevrilməsilə nəticələnə bilər.

Sosial obyektlərin tiplər üzrə qruplaşdırılmasının zəruri olduğu onunla əsaslandırılır ki, tədqiqatçı öncə bir neçə kriteri-göstərici müəyyən edir, sonra da bu göstəricilər üzrə onlarla və yüzlərlə cəmiyyətləri, hakimiyyət tiplərini, dəfn və toy mərasimlərini və s. müqayisə edir.

ABŞ antropoloqları F.Klakxon və F.Strodtbek müxtəlif mədəniyyətlərə məxsus dəyərlərin tədqiqi üçün müqayisənin beş əsasını ayırırlar:

1. *İnsanın təbiətə münasibəti necədir?*

Təbiətə tabeliyi; təbiətlə harmoniyası; təbiəti özünə tabe etdirməsi.

2. *İnsan həyatının zaman fokusu necədir?*

Keçmişi-indisi-gələcəyi.

3. *İnsan fəallığının modallığı necədir?*

Mövcudluq-təşəkkül-yaradıcılıq.

4. *İnsanın insana münasibətinin modallığı necədir?*

Tabe olma-əməkdaşlıq-muxtariyyət.

5. *İnsanın gerçək təbiətinə xas olan xarakter necədir?*

Bədxahlıq-neytrallıq-xeyir və şərin qarışığı-xeyirxahlıq.

F.Klakxon və Strodtbek müxtəlif mədəniyyətlərin nümayəndələrində dəyərlərin müqayisəsi metodikasını işləyib hazırlamışlar (bax: 71, 176).

Antropoloji tədqiqatda müqayisəli-tarixi metodun müxtəlif formaları göstərilir:

- *müqayisə-tutuşdurma metodu* (müxtəlif obyektlərin təbiətini aşkar edir);
- *tarixi-tipoloji müqayisə metodu* (genezisi və inkişaf şəraiti eyni olan, amma mənşəcə müxtəlif olan hadisələrin oxşarlığını izah edir);
- *tarixi-genetik müqayisə metodu* (hadisələrin oxşarlığını onların genetik qohumluğuna görə müəyyənləşdirir) və s.

Müqayisəli-tarixi metodu antropologiyadan başqa tarix, dilçilik, mədəniyyətşünaslıq, etnoqrafiya, sosiologiya, ədəbiyyatşünaslıq elmlərində də geniş yayılmışdır.

Dilçilikdə müqayisə metodu müxtəlif xalqların mədəniyyətlərinin və mədəni əlaqələrinin inkişafını izləməyə imkan verir. Dilçilər qonşu xalq-ların sözlüklərini müqayisə edib onların dinamikasını və əlaqələrini aşkar edirlər. Dilçilərə görə, hər bir mədəniyyətdə "söz" və "əməl" bir-birilə qırılmaz bağlılıqdadır. Mədəniyyətlərin qarşılıqlı əlaqəsində bir dilə məxsus sözlərin itməsi, bu sözlərin məzmunca sinonimləri olan sözlərlə əvəz edilməsi baş verir. Bu prosesdə müsbət məqamları qeyd etməklə yanaşı, bir dilin yaxud mədəniyyətin qarşılıqlı əlaqədə olduğu dili tədricən assimilyasiya, öz içində əritməsi imkanını da nəzərə almaq lazımdır.

Müqayisəli dilçilik (komparativ təhlil) metodunu etnoqraflar ibtidai-icma cəmiyyətini modelləşdirmənin əsas üsullarından biri sayırlar. Onun köməyilə dünya xalqlarının etnogenezi öyrənilir, etnik mədəniyyətlərin və birliklərin mədəniyyətlərinin inkişafındakı ümumilik və özünəməxsusluq müəyyən edilir, etnoqrafik areallarin tarixi mənşəyi və formalaşması, belə arealları yaradan xalqların qarşılıqlı təsiri araşdırılır, onların tipologiyası yaradılır

Müqayisəli-tarixi metodun bir forması kimi götürülən komparativ təhlil metodunu XIX əsrdə M.Veber və P.Sorokin müqayisəli-tipoloji metoda çevirdilər və onu A.Ketle sosial statistika metodu ilə birləşdirdi. Müqayisəli metodun inkişafında C.Freyzerin və E.Teylorun xidməti də qeyd edilir.

Təhlilin obyektindən və genişliyindən asılı olaraq müqayisəli tədqiqat aşağıdakı tiplərə ayrılır:

- ölkələrin müqayisəli təhlili;
- dövlətlərin müqayisəli təhlili;
- mədəniyyətlərin müqayisəsi (kross-mədəni araşdırma);
- makrososial yaxud qlobal müqayisə (çoxsaylı mədəniyyətlər əhatə olunur).

*Qalıqlar metodu.* Bu metodla itmiş hadisələr müasir cəmiyyətdəki qalıqlarına əsasən bərpa edilir. Mədəni qalıqlar nə zamansa mühüm funksiya yerinə yetirmiş, ancaq sonradan öz funksiyasını itirmiş yaxud daha mükəmməl və münasib mədəni hadisələrlə gündəmdən çıxarılmış hadisələrə deyilir. Qalıqlar



metodunu rus alimi K.D.Kavelin və ingilis alimi E.Teylor elmə gətirmişlər. Teylora görə, qalıqlar üç halda ola bilər: dəyişilməmiş qalıqlar; yeni şəraitə uyğunlaşmanın gedişində dəyişilmiş baxışlar və ənənələr; dirçəldilmiş ənənələr və təsəvvürlər. Teylor qalıqlara "keçmişin canlı şahidi və ya abidəsi" kimi baxırdı (bax: 157). Əski zamanlardan günümüzədək saxlanmış "qalıqları" Teylor dəfələrlə öz dövründə Avropa xalqlarının məişətində aşkar etmişdir. Məsələn, asqıraq zamanı "sağlam ol" deyimində o əski zamanlarda insanların beyninə ruh daxil olduğuna yaxud beyindən ruh çıxdığına inandıqlarını müəyyənləşdirmişdi. Daha əski mədəniyyətlərin müasir izlərinə əsasən alimlər o mədəniyyətlərin fikri bərpasına nail olurlar. XIX əsrdə C.Maklennan bu metoddan istifadə edərək gəlini qaçırmaq kimi mədəni praktikanın qalığına əsasən ibtidai cəmiyyətdə kəbin və ailə təsisatını bərpa etmişdir. L.Morqan kəbin formasını bərpa edərkən nəticəyə gəlmişdir ki, qohumluq terminləri, bir qayda olaraq, sosial gerçəklikdən tarixi inkişafın bir pilləsi qədər geri qalır, nəticədə o hadisələrin daha erkən tarixi durumunu əks etdirir.

Alman etnoqrafı Q.Şurts hesab edir ki, dövlət və iqtisadiyyatın təşkilinin ilk addımları kişilər arasındakı dostluqdan başlanmışdır. O, bu araşdırmada bir qanunauyğunluq aşkar etmişdir: bu və ya başqa bir xalqın qalıqlarının çox olması o xalqlarda elm və texnikanın, mədəni tərəqqi səviyyəsinin aşağı olduğunu təsdiq edir və o ölkələrin yaxud xalqların təhsili və maarifi geri qalmış ölkələr sayılmalıdır. Məsələn, XIV-XVI əsrlərdə xristianlığın yaranmasından min beş yüz il ötdüyünə baxmayaraq Avropa kəndlisi əcdadlarının ruhundakı bütpərəstlik inancını, cadugərliyi və s. qoruyub saxlamışdı. Başqa cür desək, sosial qrupun savad səviyyəsi aşağı olduqca onun qalıqları da çox olur. Qalıqların elmi dəyəri ondadır ki, onlara əsaslanaraq alim xalqın mədəni keçmişini, onun uzaq tarixi keçmişinə aid olan və indi itmiş durumunu bərpa edir.

Arxeoloji-etnoqrafik analogiyalar metodu ibtidai cəmiyyətin bəzi cəhətlərini, xüsusilə də onun maddi mədəniyyətini bərpa etməyə imkan verir. Bu zaman tədqiqatçı arxeoloji tapıntılardan, onların etnoqrafik analoqlarla müqayisəsinin şərhindən alınan nəticələrə görə istifadə edir. Öyrənilən qaynaqlara etnik mədəniyyətin gerçək mövcud olmuş obyektləri, eləcə də o mədəniyyətin yaşlı nəslinin nümayəndələrinin xatirələri əsasında bərpa edilən əlamətlər, yazılı

qaynaqlar, həmçinin arxeoloji materiallar daxildir.

Beləliklə, müqayisə – kross-mədəni və tipoloji metodlardan istifadə edilməsi sosiomədəni antropoloqlara böyüklüyündən və kiçikliyindən, həmçinin hansı tarixi zamanda mövcud olmasından asılı olmayaraq bütün cəmiyyətlərə xas olan əlamətləri və ya qanunauyğunluqları (mədəni universaliləri) aşkar etməyə imkan verir.

*Mədəni universalilər metodu.* Tanınmış Amerika antropoloqu C.Merdok (1897-1985) öz həmkarları ilə birlikdə müxtəlif mədəniyyətlərə aid çoxsaylı məlumatları təsnifləşdirərək dünya antropologiyasında yeni istiqamətin əsasını qoydu. O, mədəniyyətin aşkar edilmiş bütün elementlərini formallaşdırılmış yazıların köməyilə qeydə almış və bunları insan münasibətlərinin areal kartotekasının (İMAK) əsasına yerləşdirmişdir. İMAK ilk dəfə 600 mədəniyyəti əks etdirən Etnoqrafik atlas adı ilə nəşr edilmişdir. C.Merdok EA adı altında kross-mədəni nümunələr üzrə tədqiqatı yaxud komparativ statistik təhlili nəzərdə tutmuşdur. Belə tədqiqat üçün "qəbilə", "cəmiyyət" və "mədəniyyət" komparativ təhlilin vahidləri kimi götürülmüşdür, bu nümunələr isə dünyada mövcud olan sosial sistemlərin bütün tiplərini əks etdirir.

C.Merdok özünün "Sosial struktur" (2003-cü ildə rus dilində nəşr edilib) adlı əsərində "Universal mədəni modellər və qohumluq sistemlərinin təkamülü" konsepsiyasını şərh etmişdir. O göstərir ki, qohumluğun bütün formaları ekoloji şəraitlə determinə olunmuşdur. Ekoloji determinantlar isə ilk sırada təsərrüfat tipi və cinsi əmək bölgüsü ilə müəyyən olunur. Qohumluğun müxtəlif tipləri ətraf mühitin dəyişilməsindən asılı olaraq müxtəlif istiqamətlərdə təkamül edir. C.Merdok Afrikada çöl tədqiqatı aparmış və Afrika etnoqrafiyasının inkişafında önəmli rol oynamışdır. Merdok öz tədqiqatlarında 70-dən çox mədəni universalilər ayırmışdır. Bütün mədəniyyətlər üçün ümumi olan universalilərə yaş qradasiyası, əmək kooperasiyası, dəfn mərasimi, oyunlar, əmək bölgüsü, etika, yuxuyozma, hədiyyə vermək ənənəsi, salamlaşma, qonaqsevərlik, varislik hüququ, dil, hüquq, kəbin və bir çox başqa elementlər daxil edilir (119).

K.Uisler isə mədəni universalilərin daha qısa siyahısını hazırlamışdır. Buraya nitq, incəsənət, mifologiya, elmi bilik, dini təcrübə, ailə, sosial sistem, mülkiyyət, hakimiyyət, müharibə və b. daxil edilir. Mədəni universalilər ona görə yaranır ki, yer üzünün harasında yaşamalarından asılı olmayaraq bütün insanlar fizioloji yöndən eynidir-onların hamısının eyni bioloji tələbatları var, ümumi problemlərlə qarşılaşırlar və bu problemləri onların qarşısına ətraf mühit qoyur.



### 3.3. Antropoloji tədqiqatın empirik proqramı və növləri

*Empirik tədqiqatın proqramı.* Antropologiyanın obyektinə nəzəri yanaşmalar və təhlil metodları empirik tədqiqatın proqramında öz ifadəsini tapır. Empirik tədqiqatın məqsədi antropoloqların və ya sosioloqların irəli sürdüyü nəzəri müddəaları yoxlamaqdır. Empirik tədqiqatın proqramı əsasında elmdə tədqiqat təşkil edilir və həyata keçirilir.

Empirik tədqiqat proqramı ilk məlumatların toplanmasından və əldə olunan məlumatlardan elmi nəticə çıxarmaq qaydalarından istifadə olunmasını nəzərdə tutur. Məlumatların toplanması texnologiyası yaxud metodikası və metodları məlumatların necə və hansı yolla alındığını göstərir, alınmış məlumatlar isə elmi axtarışın nəticəsi olub nəyin əldə olunduğunu bildirir. Empirik tədqiqatın proqramında tədqiqatın strategiyası müəyyənləşdirilir. Bura tədqiqatın predmetinin nəzəri modeli, tədqiqat obyektinin empirik sxemi, məlumatların alınmasının metodları və metodikası, onların təhlili və şərhi daxil edilir.

Tədqiqat proqramında tədqiqatın metodologiyasının və metodikasının mükəmməl şərhi öz əksini tapır. Proqramın metodoloji hissəsinin şərhinə problemin formula edilməsi və əsaslandırılması, məqsədin izahı, tədqiqatın obyekti və predmetinin müəyyən edilməsi əsas anlayışların məntiqi təhlili, istifadə ediləcək hipotezlərin və tədqiqatın həll etməli olduğu məsələlərin birmənalı müəyyənləşdirilməsi daxil edilir. Proqramın metodiki hissəsinə isə araşdırılacaq ümumi əlamətlərin müəyyənləşdirilməsi ilkin antropoloji məlumatların toplanması metodlarının təsviri, bu məlumatların toplanması vasitələrinin məntiqi strukturu, məlumatların EHM-də işlənməsinin məntiqi sxemi daxil edilir.

Tədqiqatın proqramı aşağıdakı ardıcıllıq üzrə tərtib edilir:

1. Problemin formula edilməsi.

2. Tədqiqatın məqsədinin həll ediləcək məsələlərin, obyektinin və predmetinin müəyyənləşdirilməsi.
3. Əsas anlayışların məntiqi analizi.
4. Hipotezlərin irəli sürülməsi.
5. Təkcələrə məxsus ümumi əlamətlərin müəyyən edilməsi.
6. Tədqiqat vasitələrinin tərtib edilməsi.
7. Çöl müayinəsi.
8. Alınmış məlumatların işlənməsi və şərhi.
9. Elmi hesabatın hazırlanması.

*Problemin formula edilməsi.* Proqramın tərtibinin bu giriş mərhələsində problemli məqamlar və onları müəyyən edən gerçək ziddiyyətlər ifadə olunur (bu zaman həddindən çox geniş və abstrakt təriflərə yol verilməməsi şərtilə). Bir tədqiqat çərçivəsində bir neçə problemin həllinə cəhd etmək məqsədəuyğun sayılmır. Çünki bu, tədqiqatı ağırlaşdırır, toplanacaq məlumatların keyfiyyətini aşağı salır və tədqiqatın tempini azaldır. Nəticədə toplanmış məlumatlar köhnəlir.

*Tədqiqatın məqsədinin, obyektinin və predmetinin müəyyənləşdirilməsi.* Tədqiqatın obyekti geniş və dar anlamlar daşıyır. Bu və ya digər sosiomədəni problemin daşıyıcısı geniş anlamda tədqiqatın obyekti sayılır. Antropoloqa lazımi informasiyanı verə bilən insanlar dar anlamda tədqiqat obyektidir. Tələbə qrupları, fəhlələr, oxucular, tamaşaçılar və s. də tədqiqat obyekti kimi çıxış edirlər. Məsələn, əgər ali məktəbdə tələbələrin dərsi mənimsəyə bilməməsinin səbəbi öyrənilirsə, bu zaman tələbələr və müəllimlər tədqiqatın obyekti sayılır.

Tədqiqatın predmetinə obyektə aid ziddiyyəti tam ifadə edən öyrənilməli xassələr və tərəflər daxildir. Məsələn, tələbələrin mənimsəməməsinin səbəbi tədiqatın predmetini təşkil edir. Tədqiqatın predmeti sosial problem və tədqiqatın obyektinin bir-birilə bağlılığını yığcam ifadə edir.

Əsas *anlayışların məntiqi təhlili.* Bu təfəkkür əməliyyatı vahid tədqiqat konsepsiyasını yaratmağa, onun məqsədini reallaşdırmağa və irəli sürülmüş hipotezlərin düzgünlüyünü yoxlamağa imkan verən metodoloji prosedurların gözdən keçirilməsini nəzərdə tutur. Metodoloji prosedurlar tədqiqatın predmetini müəyyən edən əsas anlayışların məntiqi strukturunun müəyyən edilməsindən ibarətdir.



Məntiqi təhlil ilkin yaxud başlanğıc olaraq götürülən anlayışların məzmunu və quruluşunun dəqiq izah edilməsini, bu əsasda öyrənilən hadisənin xassələrinin nisbətinin aydınlaşdırılmasını nəzərdə tutur. Bu əməliyyatın sonucu alınmış nəticələrin düzgün izahından ibarətdir.

*Hipotezlərin qurulması.* Öyrənilən hadisə və proseslərin izahı üçün irəli sürülən elmi mülahizə hipotez adlanır. Hipotezlər tədqiqatın gedişində təsdiq ya da təkzib oluna bilərlər. Onların çoxluğu elmi konsepsiyanı zənginləşdirir və imkanlı edir. Hipotezlər dəqiq, konkret, aydın olmalı və yalnız tədqiqat predmetinə aid olmalıdırlar. Hipotezlərin necə formula edilməsindən asılı olaraq tədqiqatın metodları müəyyənləşir. Məsələn, tədrisin aşağı keyfiyyəti hipotezi ekspert sorğusu, tələbələrin mənimsəmədəki geriliyi hipotezi isə adi sorğu tələb edir.

Tədqiqatın vəzifələrini şərti olaraq əsas və əlavə bölmələrə ayırırlar. Əsas bölmədə öyrənilən problemin həllinin yolları və vasitələri axtarılır, əlavə bölməsində isə öyrənilən (başlıca) problemin həllinin şəraiti, amilləri və səbəbləri aydınlaşdırılır.

*Sorğu obyekti (informasiya qaynağı) kimi seçilənlərin sayının müəyyən edilməsi.* Bu, tədqiqat obyekti ilə müəyyənləşir. Ayırma (seçmə) obyekti tələbələr, təqaüdçülər, müəssisənin fəhlələri ola bilər. Tədqiqatın obyekti və seçilmişlərin fərqi ondadır ki, burada ikinci birincinin kiçildilmiş surəti kimi başa düşülə bilər, yəni rəyi soruşulan min nəfərdən 50-100 nəfər ayrılır. Elmdə bu əməliyyat "ayırma" adlanır. Tədqiqat proqramında ayırma layihəsi sonra dəqiqləşdirilə bilər.

Proqramın bu mərhələsində çoxsaylı insanlar arasından rəyi soruşulacaq insanların seçilməsi prinsipləri də müəyyənləşdirilir, sorğunun aparılması texnikası əsaslandırılır; alınmış informasiyaların doğruluğunun yoxlanması yolları göstərilir.

Tədqiqat proqramının metodik hissəsinə ilkin informasiyaların toplanmasının metod və fəndlərini, eləcə də toplanmış informasiyaların işlənməsinin məntiqi sxemlərini də daxil edirlər. Məntiqi sxemlər informasiyaların genişliyini və dərinliyini göstərir.

*Empirik tədqiqat və onun növləri.* Öyrənilən obyekt (hadisə yaxud proses) haqqında doğru-düzgün məlumat almaq və alınmış məlumatdan təcrübədə istifadə edilməsi məqsədilə istifadə edilən bir-

birilə bağlı metodoloji, metodik və təşkilati-texniki prosedurların ardıcıl məntiqi sistemi empirik tədqiqat adlanır. Mütəxəssislər bütün hallar üçün vahid empirik tədqiqat sxeminin olmadığını və tədqiqat növünün seçilməsinin qarşıya qoyulan məqsəd və vəzifələrdən asılı olduğunu bildirirlər.

Təsnifatın əsasında hansı ölçünün götürülməsindən asılı olaraq mütəxəssislər empirik tədqiqatın bir neçə növünü ayırırlar.

1. Sosial problemin təhlilinin dərinliyinə və genişliyinə görə *nümunəvi, təsviri və təhlili* tədqiqatlar.

2. Məlumatların toplanmasında istifadə edilən metoda görə *sorğu, müşahidə, sənədlərin təhlili, eksperiment* növləri.

3. Tədqiqatın məqsədinə (hadisələrin dinamikasına) görə *dəqiqləşdirici və təkrar* tədqiqatlar.

4. Antropologiyada eləcə də sosiologiya və psixologiyada tədqiqatın həyata keçirildiyi məkana *görə çöl yaxud təbii və laborator* növləri. Antropoloqlar çöl tədqiqatlarında obyektiv və subyektiv (qiymətləndirmə) metodundan istifadə edirlər.

*Empirik tədqiqatın tipləri.* Empirik tədqiqatı bir neçə tipə ayırırlar: monoqrafik tədqiqat, təkrar tədqiqat, çöl tədqiqatı, hadisələrin təhlili; sosioqrafik tədqiqat, bioqrafik tədqiqat və s.

*Monoqrafik tədqiqat* dar və geniş anlamlarda izah edilir. Dar anlamda monoqrafik tədqiqat yaxşı işlənib hazırlanmış nəzəriyyədən çıxış edərək bir və ya bir neçə obyektin tədqiqini nəzərdə tutur. Belə tədqiqat öyrənilən obyektin (məsələn, müəyyən bir müəssisənin) dəqiq sosial diaqnozunun qoyulmasına, təşkilinin təhlilinə yönəlir. Geniş anlamda isə monoqrafik tədqiqat, qnoseoloji və praktiki məqsədlə bir və ya bir neçə obyektin tədqiqini nəzərdə tutur və istənilən sosial hadisəyə tətbiq oluna bilir. Bir qayda olaraq antropoloq müəyyən bir kəndi tədqiqat obyekti kimi götürür və onu dərindən öyrənir. Belə tədqiqat tipi monoqrafik adlandırılır. Bu tip tədqiqatı Birinci Dünya müharibəsi dönəmində ingilis antropoloqu B.Malinovski Melaneziya adasındakı kiçik yaşayış məskənlərindən birində aparmışdır. O burada hər bir sakinlə söhbət aparmış, əldə etdiyi məlumatları təhlil edib nəticələr çıxarmış və bu nəticələrin adanın digər yaşayış məskənlərinə də aid olduğunu qeyd etmişdir. Amma antropoloqlar ona irad tutaraq bildirmişdilər ki, icmada aparılmış tədqiqatın nəticələrini adanın bütün yerli mədəniyyətinə,



özəlliklə də mürəkkəb quruluşlu cəmiyyətlərə şamil etmək olmaz. Onlar icma qruplarının öyrənilməsini daha düzgün yanaşma sayırdılar.

Monoqrafik tədqiqatda başlıca məqsəd haqqında heç bir məlumat olmayan yeni hadisəni incəlikləri ilə öyrənməkdir. Tədqiqatın bu tipini sosial antropoloqlar ayrı-ayrı kəndlərin "sosial portretini" cızmaq vasitəsi sayırlar. Belə tədqiqat kənd həyatının əsas sahələri – ailə tərkibi, məşğulluğu, gəlir qaynağı və miqdarı, əmək fəaliyyətləri, ünsiyyət ənənələri və i.a. haqqında informasiya toplanmasına yönəlir.

*Təkrar tədqiqatlar.* Belə tədqiqatlar eyni bir proqram üzrə, ancaq müəyyən zaman intervallarında bir neçə dəfə həyata keçirilmiş tədqiqatların nəticələrini müqayisə etməyə imkan verir. Təkrar tədqiqatlar müqayisəli təhlil vasitəsidir. Belə tədqiqatları bir neçə varianta ayırırlar:

1) *lonqitud tədqiqat* – dəqiq müəyyən edilmiş zaman kəsiklərində müəyyən göstəricilərin qeydə alınmasıdır. Məqsəd o göstəricilərin dəyişilməsi və qarşılıqlı təsirinin dinamikasını aydınlaşdırmaqdır. Bu tədqiqat öncə uşaq və yaş psixologiyasında formalaşmışdır. Lonqitud tədqiqatı ilk dəfə Amerika psixoloqu və kliniki Q.A.Lutsi aparmış və onu eyni uşaqların doğuşdan yeniyetməliyə qədərki dövrdə davamlı öyrənilməsi metodu adlandırmışdır. Amerika psixoloqu L.Termen XX əsrin birinci yarısında ilk lonqitud tədqiqat proqramını hazırlayıb həyata keçirənlərdən birincisi olmuşdur. O, tədqiqatı çoxsaylı istedadlı uşaqlar üzərində aparmışdır. Sonralar bu tədqiqat üsulu antropologiyaya və sosiologiyaya daxil edilmişdir.

Antropoloqlar lonqitud tədqiqatı sosial, millətlərarası və digər münasibətlərdə baş verən gerçək meyilləri aşkar etmək vasitəsi sayırlar.

2) *koqoront tədqiqat* – eyni nəslə aid olan şəxslərin uzun zaman sürəsində öyrənilməsidir. Məqsəd eyni nəslə aid olan insanların həyat tərzinin, meyllərinin dəyişilməsini təhlil etməkdir. Bu zaman tədqiqatın obyekti dəyişilir, ancaq tədqiq olunan insanlar dəyişilmir.

3) *panel tədqiqat* – seçilmiş insanlar qrupu üzərində eyni proqram üzrə müəyyən zaman kəsiklərində aparılır. Məqsəd hadisələrin gedişini təhlil etməkdir. Panel – ilk dəfə və 10-15 ildən

sonra rəyi təkrar soruşulanların cəmidir. Panel tədqiqat səbəb-nəticə əlaqələrinin öyrənilməsi üçün zəruri sayılan və ictimai rəyin öyrənilməsi praktikasında təsdiqini tapmış tədqiqat tipidir. Təkrar sorğular arasındakı zaman kəsiyi panel tədqiqat kiçik (bir neçə gündən bir neçə aya qədər) aparılır.

*Çöl tədqiqatı.* Tədqiqatın bu forması humanitar elmlərdə, o cümlədən antropologiyada xüsusi yer tutur. Bu tədqiqat gerçək həyat şəraitində insanların davranışları üzərində bilavasitə müşahidə metodu ilə sosial hadisələrin öyrənilməsindən ibarətdir. Bu tədqiqatın aparıldığı hər bir elmin (antropologiya, sosiologiya, etnoqrafiya və b.) öz ənənəsi, təcrübəsi və çöl tədqiqatına dair anlayışı formalaşdırılmışdır.

Psixologiyada çöl tədqiqatı insan birliyinin normal yaxud təbii şəraitdə öyrənilməsinə yönələn tədqiqat tipi sayılır. Bu tədqiqat ilk öncə məkanda məhdud insan yaxud heyvan birliyini onların gündəlik vərdiş etdikləri şəraitdə öyrənilməsinə yönəldilir. Burada tədqiqatın vəzifəsindən və vasitələrindən asılı olaraq çöl tədqiqatının üç tipini ayırırlar: təsviri xarakterli axtarış; praktiki məsələlərin həllinə yönəldilən-diaqnostik tədqiqat; hipotezlərin yoxlanması ilə bağlı eksperimental tədqiqat.

Antropologiya və etnoqrafiyada çöl tədqiqatı aborigenlərin yaşadığı təbii məkana gedərək onların mədəniyyətlərinin, həyat tərzinin, davranış mərasimlərinin və sosial təcrübəsinin öyrənilməsindən ibarətdir.

Çöl tədqiqatı alimin öyrənilən etnik mühitdə uzun müddət yaşamasını tələb edir, bilavasitə müşahidə metoduna əsaslanır. A.P.Sadoxin özünün "Etnologiya" (2000-ci il) monoqrafiyasında stasionar və ekspedisiya formalarına toxunur və yazır ki, stasionar tədqiqat işinin aparılması üçün bir etnik ildən çox vaxt tələb olunur (bir etnik il təqvim ilindən iki-üç ay artıqdır). İki-üç ay etnoloqun yeni şəraitlə ilk tanışlıq və uyğunlaşması üçün lazımdır. Yalnız bundan sonra etnoloq bütün təqvim ili boyu etnik birliyin yaxud onun bir hissəsinin həyatını bilavasitə müşahidə edir. Etnoloqun öyrəndiyi etnosun arasında olması müddətinin uzunluğundan asılı olaraq çöl tədqiqatının səmərəliliyi artır. Məsələn, tanınmış rus etnoqrafı N.Mikluxo-Maklay bir neçə il Yeni Qvineya papuaslarının arasında yaşamışdır.



Antropologiyada çöl tədqiqatı proqramın işlənib hazırlanmasından, anketlərin və metodik sənədlərin çoxaldılmasından sonrakı əsas tədqiqat mərhələsidir. Antropologiyada "çöl" sözü məcazi məna daşıyır və tədqiqatçılar qrupunun obyektə (bazara, şəhərin küçəsinə, müəyyən bir müəssisəyə və s.) çıxışını bildirir. Kitabxanada və ya kabinetdə aparılan iş çöl tədqiqatına aid edilmir. Çöl tədqiqatı ənənəvi anketləşdirmədən, qeyri-formal müsahibədən ibarətdir. Bu tədqiqat kəmiyyət və keyfiyyət metodologiyaları çərçivəsində aparılır.

Çöl tədqiqatı təbiətşünaslıqda da adi hal sayılır. Biologiya və ekologiya kimi təbii-elmi bilik sahələrində çöl tədqiqatı bioloji və ekoloji obyektlər üzərində bilavasitə müşahidə formasında geniş tətbiq olunur.

Amerika alimi L.Nyuman yazır ki, çöl tədqiqatlarının tarixi XVIII əsrdən başlayır. Bu dövrdə uzaq səyahətlərə çıxanların hesabatları, yad mədəniyyətləri və xalqları təsvir edənlərin işləri çöl tədqiqatları tarixinin başlanğıcı olmuşdur (bax:132). Antropoloqlar XVIII əsrdə aparılmış bu çöl tədqiqatları ilə XIX yüzildə tanış olmuşlar. B.Malinovski uzun müddət aralarında olduğu insan qruplarının həyat tərzinin müşahidəsindən topladığı məlumatlar əsasında onların mədəniyyətlərinə dair hazırladğı hesabatda yeni tədqiqat növü adı altında *mədəniyyət nəzəriyyəsini*, onun prinsiplərini şərh etmişdir. O yazır ki, antropoloqlar yerli əhalinin arasında yaşamalı, onlarla ünsiyyət prosesində ənənələrini, təsəvvürlərini və sosial həyatlarını öyrənməlidir (bax:109). 1949-cu ildə tanınmış antropoloq K.Levi-Stros Pakistanda (bax:100), Amerika sosioloqu və antropoloqu R.Linton ötən yüzilin 20-ci illərində Polineziyada, görkəmli antropoloq M.Mid (1901-1978) Samoada çöl tədqiqatları aparmışlar. M.Mid Samoa məskunlarının mədəniyyətinin timsalında bir sıra xalqlarda yaşlaşma prosesini təsvir etmişdir. O, yalnız uşaq davranışlarına (yuyunmalarına, təmizlik vərdişlərinə və s.) deyil, sosial birliyin yaşlı üzvlərinin uşaqlara münasibətlərindəki qeyri-şüuri yönəlişlərinə, yaşlıların və uşaqların bir-birilə ünsiyyətinə, uşaq oyunlarına, uşaqları idarə etmə üsullarına xüsusi diqqət yetirmişdir.

B.Malinovski çöl tədqiqatının başlıca məqsədini yerli əhalinin baxışlarını tutmaqda, onların dünya anlamını dərk etməkdə görmüş

və antropoloqlara daim bu məqsədi izləməyi tövsiyə etmişdir. A.A.Nikişenkov "İngilis etnoqrafiyasının tarixindən" (1986) əsərində çöl tədqiqatından söz açır və bu məqsədə çatmağın aşağıdakı yollarını göstərir:

1. Tədqiqatçı yerli əhalinin arasında yaşamalı və onlarla hər gün ünsiyyətdə olmalıdır ki, yerli insanlar ona uyğunlaşsınlar. Bu ona görə lazımdır ki, hadisələrin təbii gedişi təhrif olunmasın.

2. Tədqiqatçı yerli əhalinin dilini bilməlidir ki, onların danışıqlarını başa düşsün və tərcüməçi ilə işləyəndə informasiyanın təhrif olunmasına yol verməsin.

3. Tədqiqatçı öz diqqətini mədəniyyətin bütün hadisələrinin qarşılıqlı əlaqələri üzərində cəmləşdirməlidir, çünki gerçəklikdə mədəniyyət hadisələri bir-birilə o qədər bağlıdır ki, onlardan birini digərlərinin dərkindən kənarda anlamaq olmaz.

4. Mədəniyyət hadisələrini öyrənərkən başlıca diqqət gündəlik adi həyata yönəldilməlidir.

5. Mədəniyyətdəki bu və ya başqa hadisənin mənasını anlamaq üçün tədqiqatçı ilk növbədə insanların davranışlarını müşahidə etməlidir, belə ki, mədəniyyət hadisəsinin məna və əhəmiyyətini sual verməklə aydınlaşdırmağa cəhd səmərəsizdir. Çünki insanlar adətən öz mədəniyyətinin hadisələrinin əhəmiyyəti haqqında düşünmürlər, onları olmalı hadisələr kimi qəbul edirlər.

*Hadisənin yaxud konkret halın təhlili.* Antropoloqların və etnoqrafların çöl tədqiqatlarında məlumat qaynaqları olan insanların (informatorların) öz həyatlarında baş verən hadisələr haqqında hekayətlərini qeyd etməsi, həmçinin yerli əhalinin ənənəvi məişət mədəniyyətini təsvir edən bu və ya digər məsələyə dair söhbətlərinin lentə alınması və təhlili metodu xüsusi rol oynayır.

Amma qaynaqların məlumatına görə, bu metodun mahiyyəti haqqında dünya elmində vahid rəy yoxdur. Hadisələrin təhlili (case study) adı altında hansısa obyektdə yaxud hansısa insanlarla bağlı baş vermiş hadisələrin təhlili başa düşülür. Amma bu halda bioqrafik, tarixi, müşahidə və hətta eksperiment metodlarından da istifadə edilir. Odur ki, Qərb alimləri konkret hadisənin təhlilini bir-birindən fərqli anlamda izah edirlər. Məsələn, C. Mitsell onu hadisənin yaxud tədqiqatçı üçün müəyyən nəzəri prinsip ola bilən bir-birilə bağlı hadisələrin ətraflı araşdırılması kimi müəyyən edir, R.Uolker case



study-ni dərin müsahibə yaxud qrup halında müsahibədən, hadisələri onların iştirakçıları ilə birlikdə təsvir etmək metodlarından istifadə etməklə aparılan keyfiyyət tədqiqatları sırasına aid edir, C.Platt onlardan fərqli olaraq case study-ni metoddan çox tədqiqatçı yanaşması kimi qiymətləndirir.

Antropoloqlar empirik tədqiqatın bu metodundan (case study) istifadə edərkən qlobal ümumiləşdirmələrə, səbəb-nəticə qanunauyğunluqlarını açmağa can atmırlar. Onlar, bu zaman bir hadisəni yaxud bir icmanı bütün təfsilatilə öyrənirlər. Belə tədqiqatda bir və ya bir neçə hal-hadisə öyrənilərək cəmiyyətdə baş verən dərin proseslərin məzmunu açılır, öyrənilən hadisə yaxşı başa düşülür və müxtəlif şərhlər irəli sürülür. Bu tədqiqat üsulunun metodoloji əsasını empirik materialın toplanması və təhlilinin keyfiyyət metodları təşkil edir. Lakin "hadisənin təhlili" üzrə tədqiqatda dəqiq kəmiyyət metodlarından az istifadə edilir. Burada statistik kateqoriyalardan istifadə etməkdən daha çox kiçik qruplarla iş aparılır. Bu halda anketləşdirmə öz əhəmiyyətini itirir, tədqiqat sənədlərinin çoxaldılmasına da ehtiyac qalmır. Tədqiqatçı respondentlərlə birbaşa ünsiyyətə girir, onlarla birlikdə müzakirə aparır, onların hərəkətlərini izləyir, hətta bəzi hadisələrin gedişində assistent rolunda çıxış edir. Tədqiqatçının belə davranışı "yaxından müşahidə" də adlandırılır. Bu zaman tədqiqatçı obyektə yüklənir ki, bu da ona fərdin yaxud qrupun davranışının motivini anlamağa, onları öyrənilən problemin müzakirəsinə cəlb etməyə imkan verir. Tədqiqat proqramının çevikliyi, təhlilinin parametrləri, hipotezləri və tədqiqatın vəzifələri üzrə dəyişilmə ehtimalı case study-nin bu özəlliyi ilə izah olunur. "Hadisənin yaxud halın təhlili" empirik tədqiqatının proqramlaşdırılması kütləvi sorğu üzrə tədqiqatın proqramlaşdırılmasına nisbətən məhduddur. Odur ki, "Hadisənin təhlili" üzrə tədqiqat apararkən tədqiqatçı obyektin elementlərindən birinin hər dəyişilməsindən sonra onun bütövlüyünü bərpa edib obyekt üzərində apardığı işin nəzəri əsasının davamlı olduğunu xatırlamalıdır.

Mütəxəssislər belə tədqiqatın iki növünü ayırırlar: "hadisənin təhlili" üzrə işin monoqrafik növü (bu növ tədqiqatın strategiyası, onun predmetinin və obyektinin qarşılıqlı əlaqəsinin açılmasını nəzərdə tutur, hansısa bir prosesin onun baş verdiyi iqtisadi-təşkilati və sosiomədəni mühitinin təkamülündən asılı olaraq inkişafı

araşdırılır); "hadisənin təhlili" üzrə tədqiqatın ikinci növü obyektlərarası tədqiqat adlandırılır (belə tədqiqatda müxtəlif obyektlərin hüdudlarının kəsişdiyi predmet, məsələn, müəssisə-lərarası kadr axını, təşkilatlar arasında yeniləşmə prosesləri və s. müəyyənləşdirilir).

"Hadisənin təhlili" empirik tədqiqat növünün üstünlüyünü antropoloqlar onda görürlər ki, bu növ tədqiqat müxtəlif informasiyalar əldə etməyə imkan verir, onun diaqnostik və innovasiya imkanları tədqiqatçıya eyni zamanda məsləhətçi kimi çıxış etməyə, yəni öyrənilən obyektlə bağlı aşkar edilmiş problemlərin həlli üzrə konkret təlimat tərtib etməyə imkan verir.

*Sosioqrafik tədqiqat.* Empirik tədqiqatın bu tipi antropologiya ilə sosiologiyanın sərhədində yerləşir. Keyfiyyət metodologiyasının prinsiplərinə və fəndlərinə əsaslanır. Odur ki, tədqiqatçılar sosioqrafiya və jurnalist reportajlarının bir çox ümumi əlamətlər daşıdıqlarını qeyd edirlər. Sosioqrafiya etnoqrafiya və sosiologiyanın metodlarını sintezləşdirir.

Bəzi müəlliflərə görə, sosioqrafiyanı Qərb alimləri empirik və təsviri sosial tədqiqatların ifadəsi anlamında işlədirlər. Belə yanaşmada sosioqrafiya 1913-cü ildə R.Şteynmetsin elmə gətirdiyi "sosial coğrafiya" anlayışı ilə eyniləşdirilmiş olur. Sosial coğrafiya abstrakt-nəzəri ümumiləşdirmələrə əks olaraq konkret sosial qrupların və millətlərin bu və ya digər tarixi dövrlərdəki həyatını (ərazilərinin diferensiasiyasını, məkani yayılmalarını, fəaliyyətlərinin ətraf mühitə təsirini və s.) öyrənir.

Sosioqrafiya terminini F.Tennis irəli sürmüş və sırf Macarıstan hadisəsi kimi qiymətləndirmişdir. Ş.Tara görə isə sosioqrafiya Macarıstanda XX əsrin 60-70-ci illərində artıq elmi hadisədən daha çox sosial hətta siyasi hadisəyə çevrilmişdi. Sosioqrafiya cəmiyyətin diqqətindən kənarda qalan siniflərin, qatların (təbəqə), peşə, ərazi, milli qrupların gerçək həyat şəraitinə cəmiyyətin gözünü açdı; o bu cəmiyyətin məlumatlılıq səviyyəsini yüksəltdi, onun özü haqqında biliyini tamamladı. Macar yazıçıları sosioqrafiyanı xüsusi ədəbi janr kimi cəmiyyətə təqdim edirdilər. Onlar sosioqrafiyaya sənədliliklə bədiiliyi sintezləşdirən bir metod kimi baxırdılar. Ədəbiyyata sosial çaların verilməsi onu inandırıcı, obyektiv və aktual edir.

Macar yazıçısı Ş.Tarın ötən əsrin 70-ci illərində nəşr etdirdiyi



"Bizim küçə" adlı sosioqrafik əsərinin baş qəhrəmanları fəhlələr, otuz-qırx il öncə (kollektivləşmə dövründə) torpaqdan, mal-qaradan, başlıcası isə taxılçılıqla qarnı doydurmağın mümkünlüyünə inamdan məhrum olmuş şəhərə, zavodlara, mədənlərə axışmış insanlardır. Onların ardınca gənclər öz həyatlarını insan kimi yaşamaq ümidi ilə kəndi tərk etdilər. Bu insanlardan bir qismi sənət sahibi oldular, amma kəndlə əlaqəni tamamilə qıra bilmədilər. Öz yerlərinə döndülər, burada ailə qurdular şəhər tipli evlər tikdilər. Birdən sosializm quruluşu dağıldı, özəlləşdirmə başladı, sənaye müəssisələri istehsalı azaltdı, işçiləri ixtisar etdi, bunun ilk qurbanları yenə də şəhərə axışmış kəndlilər oldu. Tarın uydurduğu Əyri küçə başdan-başa bu insanlarla dolmuşdur. Tamamlanmamış tikililər, alt-üst olmuş planlar, sınmış həyat, dağılmış ailələr yazıçının əsərində təsvir olunan sosial hadisələrdir. Əyri küçənin sakinləri səhər açılar-açılmaz uğursuz talelərini pivə, şərab qədəhlərində yaşamağa gedirlər.

*Bioqrafik metod.* Bu metodu antropoloqlar və sosioloqlar müsahibə metoduna aid edirlər, bəzən də ona empirik tədqiqatın müstəqil növü kimi baxırlar. Bioqrafik metod sosial-tarixi məlumatların təhlili əsasında ayrı-ayrı nəsillərin həyat yolunun, kollektiv bioqrafiyasının özəlliklərinin təsviri, ayrı-ayrı fərdlərin şəxsi sənədlərinin (yazışmalarının, gündəliklərinin, tərcümeyi-halının, sosial bioqrafiyasının və s.) öyrənilməsi əsasında onların həyat dünyasının fikri modelinin yaradılması üçün istifadə edilir. Antropoloqlar və etnoqraflar bioqrafik metoddan sosioloqlara nisbətən tez-tez istifadə edirlər. Çünki onların məqsəd və vəzifələri fərqlidir: etnoqraflar yerli xalqın həyatının təkrarolunmaz mənzərəsini tərtib etməyə, antropoloqlar isə sənaye cəmiyyəti nümayəndələrinin ümumiləşmiş portretini yaratmağa çalışırlar. Bioqrafiya hər zaman insan həyatının bənzərsiz və təkrar olunmaz təsvirindən ibarətdir. Fərdin bioqrafiyası doğuşunun ilk günündən onun başqaları ilə münasibətlərinin tarixidir.

Tədqiqatçılar bioqrafik tədqiqatı "hadisənin tədqiqi" metoduna qohum sayırlar. Bunun səbəbi odur ki, birincisi, onların hər ikisi konkret insanın bioqrafiyasına sırf fərdi yanaşmanı nəzərdə tutur. Hər bir fərdin təkrarolunmaz bioqrafiyası var, odur ki, bioqrafiya "konkret hal, hadisə" kimi götürülür; ikincisi, bu metodların hər ikisi ilkin məlumatın toplanmasının başqa vasitələri üçün yardımçı

funksiya daşıyır.

Mütəxəssislər bioqrafik metodun yaranmasını Çikaqo məktəbinin fəaliyyəti ilə bağlayırlar. Bu məktəbin liderlərindən biri E.Berces bioqrafik metodu mikroskopla ideal hazırlanmış sənəd adlandırır. Bu elə bir sənəddir ki, onun vasitəsilə əqli proseslərin və sosial münasibətlərin oyununu görmək olar.

Mütəxəssislər bioqrafik metodun üç növünü göstərirlər: *şifahi tarix; həyat tarixi; ailə tarixi.* Həyatın tarixi metodunun üç tipi göstərilir: *tam; tematik; redaktə olunmuş.* Mütəxəssis alimlər öyrənilən şəxsə aid sənədləri (memuarları, qeydləri, gündəlikləri və i.a.) yaxud müsahibə və söhbət materiallarını bioqrafik məlumatların qaynağı sayırlar.

Bioqrafik metod keyfiyyət metodologiyasına aid edilir. Bu metodun çıxış nöqtəsi budur ki, sosial gerçəkliyi yalnız obyektiv faktlar əsasında deyil, həm də insanın özü haqqında tədqiqatçıda hər zaman şübhə doğuran rəyi, onun xatirələri və bioqrafik məlumatları əsasında bərpa etmək olar.

Bioqrafik metod vasitəsilə tədqiqatda informasiya qaynaqlarından biri olan bioqrafik müsahibə tədqiqat üçün əhəmiyyətsiz hadisələr haqqında danışıqlardan ibarət olmayıb alimin daimi nəzarəti altında informasiya toplanmasından ibarətdir. Müsahibə götürməzdən öncə onun məqsədi və vəzifələri respondentə bildirilir. Yönəldici suallar qoyulur, söhbəti həvəsləndirici suallarla davam etdirilir, diqqətini əsas məqamların üzərində cəmləşdirməsi, lazım olanda isə sözü gedən məsələni genişləndirməsi xahiş edilir. Müsahibənin gedişində tədqiqatçı daha çox özünə lazım olan dəqiqləşdirici suallarla respondentə müraciət edir. Müsahibədən alınan və insanı öyrənmək üçün önəmli olan hər fakt bioqrafik materiala daxil edilir.

Alimlərin bioqrafik metod haqqında rəyləri birmənalı deyildir. Onların bəzilərinə görə, insanın özü haqqında söylədiyi bioqrafiyada zərrə qədər həqiqət yoxdur, çünki bu zaman hadisələr uydurula, bər-bəzəkli sözlərlə qeyri-obyektiv qiymətləndirilə bilər. Müsahibə verən insan öz həyatının tarixini hadisələrin ardıcıllığı kimi təqdim edir. Ancaq onu yoxlamaq müm-kün deyil. Onun öz həyatı barəsində doğru yaxud uydurma məlumat verdi-yinin yoxlanması alimin öz duyumuna qalır. Bioqrafiya faktlarının doğrulu-ğunun qonşuların



respondent haqqında verdiyi məlumatlar əsasında yoxlanmasına cəhd də hər zaman uğurlu olmur. Çünki bu üsulda da subyektivlik vardır. Subyektivlik amili hər bir halda (insanın həyat təcrübəsində, davranışında, qiymətləndirici mühakimələrində, dünyagörüşü mövqeyində və s.) olur. Antropoloq bir insanın həyat tarixini cəmiyyətin tarixi ilə tutuşdura bilər. Çünki cəmiyyətin tarixi çoxsaylı nəşrlərdə qeyd olunur. Amma ibtidai qəbiləni öyrənən antropoloqun belə məlumat qaynağı yoxdur. Antropoloq üçün bioqrafik metodun xüsusi önəmi vardır. Belə ki, o yazıyaqədərki cəmiyyətin nümayəndələrilə qarşılaşır. Belə cəmiyyətdə isə qəzet və jurnalın varlığından söz gedə bilməz. Odur ki, antropoloq ya aborigenlərin davranışlarını müşahidə edib öz qeydlərini sistemləşdirə bilər, ya da başqa mədəniyyətin nümayəndələrindən müsahibə götürüb özgə simvolların, abidələrin, mərasimlərin və s. mənasını anlamağa çalışar.

### 3.4. Antropologiyada elmi eksperiment və onun növləri

Təbiətşünaslıqda eksperiment empirik tədqiqat metodu kimi qəbul və istifadə edilir. Amma sosioloji, antropoloji ədəbiyyatda elmi eksperiment həm metod, həm də tədqiqat növü kimi göstərilir.

Eksperiment latın sözü olub nümunə, təcrübə anlamını yaxud empirik tədqiqatın strategiyası anlamını daşıyır. Onun gedişində hadisənin, prosesin bir özəlliyini ardıcıl və nizamla dəyişdirdikdə onun başqa özəlliyinin özünü necə aparması məqsədyönlü müşahidə edilir.

Sosial elmlərdə eksperimentin bir neçə növü göstərilir. Antropologiyada və sosiologiyada eksperimentin aparıldığı şəraitdən asılı olaraq onun iki başlıca (çöl və laborator) formaları ayrılır.

Çöl eksperimenti öyrənilən obyekt üçün təbii olan şəraitdə aparılır. Bu eksperimentin aparılması üçün zəruri dəyişkən özəllikləri olan eksperimental qrupların seçilməsi tələb olunur. Bu zaman qrupun üzvlərinə eksperimentdə iştirak etmələri barədə məlumat verilə də bilər. Bu qərar üzvlərin məlumatlılığının eksperimentin gedişinə təsiri dərəcəsindən asılıdır.

Çöl eksperimental tədqiqatı aparmaq üçün antropoloq ibtidai qəbilənin məskunlaşdığı, milli azlıqların yaşadıqları yerlərə yaxud eksperiment obyekti kimi seçilmiş sosial birliyin iş yerinə gedir. Məsələn, J.Şefild və K.Anderson milli münasibətləri öyrənmək

məqsədilə ABŞ orta məktəbində üç il araşdırma aparmışlar. Birinci ildə onlar məktəbdə tənəffüs zamanı ağ və qara dərili yeniyetmələrin aqressivliyi reaksiyalarının müxtəlif olduğunu aydınlaşdırmışlar. Bəlli olmuşdur ki, ağlar qaralara daha dostcasına münasibətdə olurlar. Bu faktın doğruluğunu yoxlamaq üçün onlar 1987-ci ildə məktəbdə fərq qoymadan 40 ağ və qara dərili oğlan ayırıb hər birinə orta aqressivlik təsvir olunan şəkillər və hekayələr təqdim etdilər ki, onlar cinayətkarlığa qarşı öz rəylərini bildirsinlər. Nəticədə ağlar qaraların davranışlarında daha böyük təhlükə gördüklərini açıqladılar. Alimlər nəticəyə gəldilər ki, ağ dərili yeniyetmələrə zəncilərdən qorxunu məktəbin özü aşılayır.

Çöl eksperimentinə misal olaraq jurnalistlərin sadə sxem üzrə apardığı eksperimenti göstərmək olar. Bu məqsədlə jurnalistlər müəyyən bir sosial qrupun (məsələn, dilənçilərin) cildində küçələrdə, avtobuslarda, metroda insanlardan yardım istəyir, bu yolla insanların dilənçiliyə reaksiyasını aydınlaşdırırlar. Birinci əldən alınmış informasiya gerçək hadisələrin publisist təsviri üçün əvəzolunmaz məlumat qaynağı sayılır.

Mütəxəssislər çöl eksperimentinin *sosiodramaturji, etnometodoloji, sosiotarixi* formalarını da göstərirlər.

XX əsrin 60-cı illərində işlənib hazırlanmış etnometodolo-giya çöl tədqiqatının radikal forması olub fenomenoloji fəlsəfəyə və sosial təşkil paradiqmasına (təfəkkür nümunəsinə) əsaslanır. Fenomenoloji fəlsəfə alimdən daim insanların gündəlik davranışlarını izləməyi və sağlam düşüncəli fikirlərini dinləməyi tələb edir. Bu, alimə tədqiqat obyekti olan insanların davranış və mühakimələrinin arxasındakı gizli mənanı görmək üçün lazımdır. Etnometodoloqlar insanların sağlam düşüncəsini yaxud sosial qarşılıqlı təsirlərini sadəcə tədqiq etmir həm də bu qarşılıqlı təsirləri pozaraq insan davranışlarının məntiqi astar üzünə (tərsinə) çevirib ekperiment altında olandan soruşurlar: sən hələ sağsan.

Alimlər etnometodologiyanı həqiqətən indiyədək görünməmiş bənzərsiz metodologiya sayırlar. Onlar həvəslə gündəlik dili öyrənirlər. Düşünürlər ki, insanlar sosiomədəni qaydaları ifadə etməklə özlərinin açıqfikirliliyini təkmilləşdirirlər, onların sosial qarşılıqlı təsirləri isə sosial gerçəkliyin yaradılması prosesidir. İnsanlar mədəniyyətə dair bilikdən istifadə edərək gündəlik hadisələri



müzakirə edirlər. Etnometodoloqlar adi insanların həyatın mənasını anlamaq (məsələn, birisinin zarafat edib yaxud etmədiyini bilmək) üçün gündəlik həyatda gizli qaydalardan necə istifadə etdiklərini araşdırırlar. Etnometodoloqlar adi sosial qarşılıqlı təsiri ətraflı araşdırırlar, ancaq onların istifadə etdiyi metodu cərrah bıçağı ilə müqayisə etmək olar.

Sosiodramaturji eksperimentin əsasını E.Hoffman qoymuşdur. Onun fikrincə, insanların gündəlik qarşılıqlı təsiri əslində mikrotamaşadan başqa bir şey deyil, etnometodoloqlar bu mikrotamaşanın öyrənilməsi yönündə işlər aparırlar. Məsələn, Q.Qarfingel eksperimentlərinin birində tələbələrdən xahiş etmişdir ki, evdə nahar etdikdən sonra valideynlərinə təşəkkür etməyib yeməyin haqqını pulla ödəsinlər. Bu eksperimentdə alimin məqsədi davranışları formalaşdıran şüur altında gizli qalan motivləri, meylləri, qaydaları qeyri-adi halda üzə çıxmış valideynlərin reaksiyasını öyrənmək olmuşdur.

Öyrənilməli sosial obyekti ekstremal vəziyyətə salmaq yolu ilə onun gizli reaksiyalarını aydınlaşdırmaq sosial gerçəkliyə baxmağın etnometodoloji proseduru sayılır. Qarfingel bu üsuldan istifadə edib başqa bir eksperiment də aparmışdır: o öz üzünü qəflətən danışan adamın burnunun ucuna dayayaraq onun reaksiyasını izləmişdir. Bu səbəbdən bəziləri onu seksual kələkbaz adlandırmış, bəziləri ona psixiatora müraciət etməyi təklif etmişlər. Ancaq o istəyinə nail olmuşdur: ünsiyyətin gedişinin strukturunu pozmuşdu.

Ünsiyyətin vərdiş edilmiş normaları bir millətin mədəni normaları başqa millətin adət-ənənələrinə nüfuz etdikdə də pozulur. Məsələn, almanlarda və hollandlarda kişi və qadın birlikdə restoranda yemək yeyəndən sonra hər kəsin yeməyinin pulunu özünün ödəməsi təbii qəbul olunur. Amma restoranda onları xəbərdar etmədən alman ənənəsinə uyğun davranaraq ingilis qadınına yeməyinin pulunu ödəmək təklif edilərsə, o özünü tam itirmiş hala düşər. Belə hallarda sosial reallığın qavranılması və qiymətləndirilməsinin adət edilmiş normaları pozulur.

Belə eksperimentlərdə etnometodoloq üçün önəmli olan sınaqdan keçirilən insanın həyəcanlanması yox, gözləmədiyi vəziyyətdən necə çıxmasıdır. Bəzən bu halla qarşılaşdıqda insan "dəli olmusan?", "sən şizofreniksən?" kimi ifadələrlə vəziyyətdən

çıxmağa çalışır. Bu halda tədqiqatçı onu maraqlandıran suala – insanlar normal (stereotip) reallığı necə formalaşdırır sualına cavab alır.

Etnometodoloqların çox vaxt istifadə etdikləri belə eksperiment "qayda pozan" eksperiment adlanır. Belə eksperimentdə onların məqsədi adi (gündəlik) ünsiyyətin arxasında gizlənən yazılmamış qaydaları üzə çıxarmaqdır. Çünki bu qaydalar əsasında insanlar gündəlik həyatlarındakı reallığa məna verirlər. Bu nəticədən aşağıdakı fəlsəfi müddəa yaxud aksiom çıxarılır: sosial reallıq və ya ictimai varlıq kortəbii hadisə olmayıb sosialca yaradılan insan layihəsidir.

Hadisələrin təbii gedişinin təhrik etməklə pozulması eksperiment altında olan insanda güclü reaksiya yaradır. Bununla da cəmiyyətdə müəyyən sosiomədəni qaydaların varlığı təsdiqlənir.

Beləliklə, insanlar arasında gündəlik ünsiyyətin vərdiş halını almış normalarının, stereotiplərinin pozulması humanitar elmi idrakın üfüqlərini genişləndirən metod kimi olduqca faydalıdır. Bu metod vərdişə çevrilmiş anket sorğusu çərçivəsindən kənara çıxır. Bəlli olduğu kimi, anket sorğusu yalnız sosiologiyaya deyil, həmçinin antropologiyaya, psixologiyaya, iqtisadiyyata, sosial psixologiyaya xas olan tədqiqat metodu idi.

Mütəxəssislər etnometodoloji eksperimenti keyfiyyət metodologiyasına aid edirlər.

Çöl eksperimentinin başqa bir forması sosiotarixi eksperiment adlanır. *Sosiotarixi eksperiment* tarixi, arxeoloji, etnoloji, antropoloji və digər elmi tədqiqatlarda yenidən bərpa etmək və tarixi eksperiment nəticəsində alınmış məlumatlardan istifadə olunmasını nəzərdə tutur. Yazılı qaynaqlar çatışmadıqda alim uzaq keçmiş epoxa insanının yaşam və yaradıcılıq şəraitini yenidən bərpa etməli olur. Bu məqsədlə alimlər ibtidai insanların yaşadığı şəraitə sanki uyğun gələn süni şərait yaradır, onların yaşayıb yaratdığı şəraiti sanki bərpa edirlər. Bu məqsədlə analogiya və ideallaşdırma metodlarından istifadə edirlər. Amma nəzərə almaq lazımdır ki, bizim uzaq keçmişdə yaşamış əcdadlarımızın əməllərini eksperiment altında olan insan tam dəqiqliyi ilə təkrar edə bilməz yaxud qədim əmək alətlərinin, geyimlərinin surətlərinin köhnə epoxada olmuş prototiplərinə tam uyğun gəldiyini düşünmək olmaz. Bu və digər çətinliklər eksperiment



aparanın işini qəlizləşdirir və təcrübənin nəticələrini şübhə altına alır. Bununla yanaşı, sosiotarixi eksperimentin bir çox mübahisəli məsələlərin həllində çıxış yolu olduğu qeyd edilir.

Humanitar elmlərdə müxtəlif eksperimental metodlardan istifadə edilməsinin tarixi ənənəsi var. Belə ki, tarixi bərpa və eksperiment metodundan ilk dəfə alman alimi A.A.Rode XVIII əsrin əvvəllərində istifadə etmişdir. Sonralar isə bu metoda Leonardo da Vinçi, Qaliley, Kopernik, Bekon və b. müraciət etmişlər. Bu metod XIX əsrin ortalarında arxeologiyada daha geniş yayılmışdı.

Kopenhagendə 1874-cü ildə keçirilmiş arxeoloji konfransda daşdan hazırlanmış alətin köməyilə kəsilmiş tirlərdən tikilən tikilinin maketi nümayiş etdirilmişdi. Həmin dövrdə arxeoloq O.Tişler və həmkarları daş əşyaların ağacdan hazırlanmış burğu vasitəsilə deşməyin mümkün olduğunu sübut etdilər. Sonra avropalılar başqa bir sensasiya etdilər: "Vikinq" adlanan gəmi ilə Atlantik okeanından keçərək eksperimental səyahətə çıxdılar. Gəmi 40 gün ərzində "Vindland" sahillərinə çatdı. Beləliklə, avropalılar XIX yüzilin 80-ci illərində Xristofor Kolumbun səyahətindən çox öncə Amerikanı kəşf etməyin mümkünlüyünü eksperimental olaraq sübut etdilər.

### 3.5. Antropoloji elmi müşahidə və onun özünəməxsusluğu

Tərəddüd etmədən təsdiq etmək olar ki, insanın özünüdərki onun özünü təbiətdən fərqləndirməsi və ayırması ilə başlanmışdır. İnsanın özünü başqa təbii varlıqlardan fərqləndirmək, təbiətdən ayırmaq qabiliyyəti onun təbii-tarixi təkamülündə yaranmış və formalaşmış beyninin abstraktlaşdırma qabiliyyəti ilə bağlıdır. Şüurun abstraktlaşdırıcı fəaliyyətinin əsasında isə ilk sırada müşahidə qabiliyyəti durur. Bu qabiliyyət sayəsində ulu əcdadlarımız quşların uçuşunu, çayların şırıltısını, al-əlvan çiçəkləri, bütövlükdə təbiətin rəngarəngliyini seyr etmişlər. Ətraf aləmin gözəlliklərinin, hadisələrin qəribəliklərinin müşahidəsi insanlara təbiət haqqında zəngin məlumatlar, faktlar əldə etməyə imkan vermişdir.

Elm də müşahidə faktlarına əsaslanır. Ətrafda baş verən hadisələr haqqında faktlardan çıxış etmək məlumatın yaxud biliyin elmiliyinin əsas göstəricisidir. Elm faktları toplayır, müqayisə edir, qruplaşdırır və ümumiləşdirir. Bununla da bizim sorğumuzdan asılı olmayan obyektiv qanunları aşkar edir. Elmi tədqiqat obyektiv

gerçəkliyi əks etdirən faktların əldə edilməsi üsuludur.

İnsan davranışında yeni kəşflərin edilməsi üçün müşahidə metodu daha məhsuldar sayılır. Elmi müşahidənin gedişində alim şahidi olduğu hadisələri bilavasitə qeydə alır. Müşahidə metodundan bütün elmlərdə o cümlədən biologiyada geniş istifadə edilir. Antropologiyada, sosiologiya və psixologiyada müşahidə yalnız alimin özü tərəfindən məlumatların toplanmasının vizual proseduru adlandırılır. Müşahidədən başqa antropologiyada müsahibə və sənədlərin təhlili metodları da çox istifadə olunur.

Müşahidə hadisələrin və onların baş verdiyi şəraitin tədqiqatçı tərəfindən bilavasitə qeyd edilməsi yolu ilə ilkin məlumatların toplanması metodudur. Bu metod müşahidə olunanın tədqiqat predmetinə təsir etmədən göstərdiyi reaksiyanın planlı şəkildə öyrənilməsindən ibarətdir. O ən qədim idrak metodu olub sosiologiyaya yazıyaqədərki mədəniyyətlər və qəbilələr haqqında elm sayılan antropologiyadan keçmişdir. Antropologiya unudulmuş və azsaylı xalqların, qəbilə və icmaların həyat tərzini, sosial münasibətlərini və qarşılıqlı təsirlərini, adət və ənənələrini müşahidə yolu ilə öyrənir. Müşahidənin növlərinin təsnifatı da sosial elmlərə antropologiyadan gətirilmişdir.

Antropologiyada, eləcə də sosiologiyada, psixologiya və iqtisadiyyat elmində, politologiya və kulturologiyada müşahidənin başlıca əlaməti onun obyektivliyidir. Müşahidənin obyektivliyi dedikdə ya təkrar müşahidə, ya da digər tədqiqat metodlarından (məsələn, eksperimentdən) istifadə etmək yolu ilə müşahidə obyektinin davranışına nəzarət imkanı nəzərdə tutulur. Bu metodun köməyi ilə alınmış düzgün nəticələrdən istifadə etməklə faktlar müəyyən edilir, nəzəriyyə qurulur, qanunlar aşkar edilir və proseslərin sonrakı mərhələləri proqnozlaşdırılır. Müşahidə metodundan idrak aləti kimi istifadə edilməsi müşahidənin vəzifələrinin və hipotezlərin, müşahidənin obyektinin və predmetinin müəyyən edilməsini, kateqoriyalarının, şərtlərinin, müşahidə vahidlərinin ayrılmasını, alətlərin (gündəliyi, protokolu, audiovizual qeydiyyatı, texniki vasitələri və s.) hazırlanmasını tələb edir.

Müşahidə metodunun bir özəlliyi də budur ki, tədqiqatçı öz məqsədinə çatana qədər (bu aylar və illər sürə bilər) öyrənilən sosial qrupun mühitində yaşayır. Etnoqrafiyanın bir elm kimi inkişafını da



onun xalqların mədəniyyətləri haqqında ayrı-ayrı məlumatlar toplanmasından oturaq müşahidəyə yəni alimin müşahidə etməyi qərarlaşdığı sosial qrupun içində uzun müddət yaşayaraq həyat tərzini, davranışını, ünsiyyət qaydalarını bilavasitə müşahidə keçirməsilə bağlayırlar.

Müşahidə metodunun təkmilləşdirilməsində Amerika alimlərinin rolu xüsusilə qeyd edilir. XX əsrin 40-cı ilindən 60-cı ilinə qədər Çikaqo məktəbində özəl tədqiqat texnikası vasitəsilə müşahidə metodu işlənib ha-zırlanmışdır. İştirakla müşahidədə tədqiqatçının arasında yetərincə uzun sürə yaşadığı qrupa və əhatəsinə münasibətdə geniş antropoloji model istifadə edilmişdir. Tədqiqatın üç prinsipi – insanları təbii əhatəsində yaxud halında öyrənmək; insanları onlarla birbaşa qarşılıqlı təsirdə öyrənmək; sosial gerçəkliyin başa düşülməsinə nail olmaq və qrup üzvlərinin gələcəyinə dair nəzəri nəticə çıxarmaq – irəli sürülmüşdür (132).

Antropologiyada və digər sosial elmlərdə müşahidə hadisələri görmə, eşitmə üzvləri yaxud xüsusi qeydiyyat cihazlarının köməyilə birbaşa qeydiyyatından ibarətdir. Birbaşa qeydiyyat müşahidəçinin müşahidə obyektinə hər hansı bir təsirinə yol vermir.

Antropologiyada müşahidə metodunun bir özəlliyi də insanın yaxud insan qrupunun yalnız davranışına – hərəkətinə, danışığına – aid olan faktları qeyd etməsindədir. Bizim fikirlərimiz, rəylərimiz və dəyərlərə yönümlülüyümüz gözlə görünməzdir. Odur ki, müşahidənin nəticələrinin düzgünlüyü yalnız davranış faktlarının dəqiq qeyd edilməsindən asılıdır. Müşahidə adətən davranışın hansısa bir tərəfi və onun sosial səbəbləri haqqında ilkin məlumat almaq zəruri olduqda gerçəkləşdirilir. Hipotezləri müşahidə çərçivəsində də irəli sürmək mümkündür, ancaq alimlər onları tədqiqatın başqa növlərinin (məsələn, anketləşdirmənin, eksperimentin və s.) köməyilə yoxlamağa üstünlük verirlər. Bu zaman riyazi statistika metoduna da müraciət edilir. Məsələn, küçədəki dava-dalaşın, evin uçmasının və s. müşahidə edilməsi gündəlik və təsadüfi müşahidə sayılır. Belə müşahidə seçici yaxud məqsədyönlü xarakter daşımır. Çünki belə müşahidənin dəqiq müəyyənləşdirilmiş obyekti və predmeti olmur.

V.A.Yadov elmi müşahidəni adi müşahidədən fərqləndirən aşağıdakı əlamətlərini göstərir: a) elmi müşahidə aydın tədqiqat

məqsədinə və dəqiq müəyyənləşdirilmiş vəzifələrə tabedir; b) öncədən, düşünülmüş prosedur üzrə planlaşdırılır; c) bütün məlumatlar protokolda yaxud gündəlikdə müəyyən sistem üzrə qeyd olunur; d) müşahidə yolu ilə alınmış məlumatın əsaslı və davamlı olmasına nəzarət edilməlidir (187, 122).

### 3.6. Antropoloji müşahidənin növləri

Antropologiyada müşahidə metodunun növləri fərqli meyarlar üzrə aşağıdakı kimi təsnif edilir:

- nəzarət elementlərindən asılı olaraq *nəzarət olunan* və *nəzarət olunmayan* müşahidə;
- müşahidəçinin obyektə nisbətdə durumundan asılı olaraq *iştiraklı* və *iştiraksız müşahidə*;
- müşahidənin formallaşdırılması dərəcəsinə görə strukturlaşdırılmış və struklaşdırılmamış müşahidə;
- sürəkliliyindən asılı olaraq daimi və təsadüfi müşahidə;
- müşahidənin təşkili şəraitinə görə və laborator müşahidə (20, 52-53).

Başqa bir təsnifatda *nəzarət olunan* və *nəzarət olunmayan* müşahidələr müşahidənin təşkili formasına görə ayrılan təsnifat qrupuna daxil edilir. Bu təsnifat qrupu iki müşahidə tipinə ayrılır: onlardan biri *formallaşdırılmış müşahidədir* ki, onu da üç növə (strukturlaşdırılmış, standartlaşdırılmış, nəzarət olunan müşahidələrə) ayırırlar; ikincisi, *formallaşdırılmamış müşahidə* tipidir və buraya *nəzarət olunmayan, sadə* və *struktursuz müşahidə* növləri aid edilir (71, 220).

V.A.Yadov müşahidənin formallaşdırılması dərəcəsinə görə nəzarət olunan və nəzarət olunmayan müşahidələri ayırır. O nəzarət olunan müşahidəyə standartlaşdırılmış və struktur müşahidələri, nəzarət olunmayan müşahidəyə isə standartlaşdırılmamış və struktursuz müşahidə növlərini aid edir. Nəzarət olunan müşahidədə tədqiqatçı hadisələri hərtərəfli işlənib hazırlanmış prosedur üzrə qeyd edir, nəzarət olunmayan müşahidə isə yalnız ümumi plan üzrə hərəkət edir (187, 122).

Nəzarət olunan müşahidənin gedişində daha dəqiq mənzərənin yaradılması, yaxud istifadə olunan hipotezlərin yoxlanması üçün ilkin məlumatın toplanması həyata keçirilir. Nəzarət olunmayan



müşahidə hadisənin sosial şəraitinin ümumi təsvirinin həyata keçirildiyi gerçək situasiyalarda aparılır. Burada müşahidəçinin tədqiqat obyektinə yüksək ehtimallı və tədqiqatın nəticələrini təhrif edə bilən subyektiv münasibəti baş verə bilər.

Nəzarət olunan müşahidə iştiraklı və iştiraksız ola bilər. İştiraklı müşahidə o deməkdir ki, tədqiqatçı öyrənilən sosial prosesdə bu və ya digər dərəcədə iştirak edir, obyektin fəaliyyətinə qoşulur, onunla sıx ünsiyyətdə olur. İştiraksız müşahidədə, adından bəlli olduğu kimi, tədqiqatçı müşahidə edəcəyi qrupun fəaliyyətinə qoşulmur, onu kənardan müşahidə edir. İştiraksız müşahidə çox vaxt monoqrafik tədqiqatın kəşfiyyat mərhələsində, həmçinin eksperimental tədqiqatda tətbiq olunur.

Nəzarət olunan müşahidə metodundan ilk dəfə Amerika psixoloqu R.Beylz qrup fəaliyyətində ardıcıl mərhələləri öyrənmək məqsədi ilə istifadə etmişdir.

İştiraklı müşahidəyə misal kimi V.B.Olşanskinin elmi tədqiqatını göstərmək olar.

*İştiraklılıq dərəcəsinə görə* iştiraksız və iştiraklı müşahidə növləri ayrılır. İştiraksız (sadə) odur ki, tədqiqatçı hadisə haqqında məlumatları hadisənin gedişinə qoşulmadan qeydə alır. İştiraklı müşahidə növünü (bunu "maskada" aparılan müşahidə də adlandırırlar) tədqiqatçı uydurulmuş ad altında aparır, çünki iştiraklı tədqiqatda əhatəsində olduğu insanlar onun kim olduğunu, həqiqi peşəsini və məqsədini bilməməlidirlər. Məsələn, tədqiqatçı üsyançıların, mitinq iştirakçılarının yaxud fəhlə briqadasının davranışını öyrəndikdə onların sırasına qoşulmadan müşahidə aparırsa, belə müşahidə iştiraksız müşahidə sayılır. Tədqiqatçı onların sırasına qoşulub proseslərin iştirakçısı kimi çıxış edirsə, bu iştiraklı müşahidədir.

İştiraksız müşahidəyə başqa bir misal kimi elmi toplantının öyrənilməsini göstərmək olar. Müşahidə zamanı sosioloq özəl kortoteklərin köməyilə çıxışçının davranışını və auditoriyanın reaksiyasını (onların alqışlayıcı reaksiyasını, atmacalarını, suallarını və s.) qeyd edir. Mütəxəssis məlumatları ümumiləşdirərkən davranış reaksiyalarının sayını və gücünü qeyd edir.

İştiraksız müşahidə sosiologiyadan başqa etnoqrafiyada, iqtisadiyyatda, sosial psixologiyada və s. elmlərdə geniş yayılmış

metod və məlumatların alınmasının intensiv üsulu sayılır.

Tədqiqatçı ilə öyrənilən obyektin *qarşılıqlı təsiri formasına görə gizli və açıq* müşahidələr də vardır.

Tədqiq olunan sosial qrupla tədqiq olunduqlarını bilmədən aparılan müşahidə gizli müşahidə adlanır. Belə müşahidədə müşahidəçinin obyektə təsiri minimuma endirilmiş olur. Bu cəhətinə görə gizli müşahidə açıq müşahidədən fərqlənir. Bəzən alimlər onları iştiraklı müşahidənin *iki müxtəlif növü* adlandırırlar.

Gizli iştiraklı müşahidənin bir forması da *stimullaşdırıcı müşahidədir.* Onun gedişində müşahidəçi davranışın insanlar arasında üzə çıxmayan gizli əlamətini aşkar etmək üçün yeni eksperimental şərait yaradır. Tədqiqatçı muzdlu işçilərin sosial özünüdərki səviyyəsini öyrənməklə müəssisə rəhbərini bəzi hallarda avtoritar davranmağa, şəxsi hüquqlu və əmək müqaviləsini pozmağa, vəzifəsindən sui-istifadə etməyə və s. razı sala və bu yolla işçilərin gizli reaksiyasını üzə çıxara və qeyd edə bilər. Odur ki, stimullaşdırıcı müşahidəni alimin fəal sosial mövqeyi kimi qiymətləndirirlər. Bu yolla alim müşahidə obyektini müəyyən hərəkətlərə təhrik edir və onun gizli əlamətlərini öyrənir. Bu məqsədlə müşahidəçi gizli kameradan da istifadə edir. Sosial psixoloqlar stimullaşdırıcı müşahidəni eksperiment yolu ilə yaradılmış hal sayırlar.

Açıq iştiraklı müsahibə metodunun tətbiqinə misal olaraq XIX yüzilin birinci yarısında marksizmin banilərindən olan F.Engelsin ingilis fəhlə sinfinin vəziyyətini öyrənməsini göstərmək olar. O, özünün "İngiltərədə fəhlə sinfinin vəziyyəti" əsərinin "Öz müşahidələrim və etibarlı qaynaqlar üzrə" başlığında ingilis fəhlələrinə müraciətlə yazır: "Fəhlələr! Mən sizin aranızda kifayət qədər yaşadım ki, sizin vəziyyətinizlə tanış olum. Mən sizin vəziyyətinizi çox diqqətlə araşdırdım, müxtəlif rəsmi və qeyri-rəsmi sənədləri öyrəndim... ancaq bunlar məni qane etmədi. Mən predmet haqqında təkcə abstrakt bilikdən daha çox şey axtardım, mən sizi öz evlərinizdə görmək, sizin gündəlik həyatınızı müşahidə etmək, sizinlə vəziyyətiniz, ehtiyaclarınız haqında söhbət etmək, sizin zülmkarların sosial və siyasi hakimiyyətinə qarşı mübarizənizin şahidi olmaq istədim. Mən belə də etdim".

Müşahidənin növlərinin təsnifatında aparılma yerinə görə çöl və laborator müşahidələri ayrılır.



Çöl müşahidəsi təbii şəraitdə, laborator müşahidə isə öncədən yaradılmış yəni süni şəraitdə aparılır. Laborator müşahidə daha çox psixologiyada və sosial psixologiyada tətbiq olunur. Sosiologiya və antropologiyada isə bu üsul az əlverişli sayılır. Belə ki, aborigen qəbiləni hansısa bir laboratoriyaya sığışdırmaq ağlabatmazdır.

Bu növ müşahidələrlə yanaşı aparılmasının davamlılığına görə sistematik və qeyri-sistematik, müddətinə görə uzunmüddətli və qısa müddətli müşahidə növləri də vardır.

*Etnoqrafik və antropoloji tədqiqatlarda müşahidə metodu.* İnsanı və cəmiyyəti (qəbilələri, onların həyat tərzi və davranışını, mədəniyyətinin özünəməxsus əlamətlərini) öyrənən etnoqrafiya və antropologiyada sadə və iştiraklı müşahidə metodundan geniş istifadə edilir. Belə ki, etnoqraf yaxud antropoloq xalqların, qəbilələrin mədəniyyətləri haqqında ayrı-ayrı faktları toplamaq üsulundan onların arasında uzun müddət yaşayaraq, sosiomədəni mühitində fəal iştirak edərək müşahidə aparmaq üsuluna keçməklə öz elmlərinin (antropologiya və etnoqrafiyanın) inkişafında yeni səhifə açmışlar. Müşahidə qrup və ya ayrıca şəxs üzərində aparıla bilər. Məsələn, toy və hüzr mərasimlərinin keçirilməsi zamanı qrup üzərində müşahidə aparıla bilər. Müşahidənin gedişində texniki vasitələrdən (diktofondan, kinokamera və videokameradan və s.) tez-tez istifadə edilir.

Müşahidə zamanı etnoqraf heç vaxt qarşılaşmadığı yaxud elmi ədəbiyyat vasitəsilə tanış olduğu aborigenlərin gündəlik həyatında baş verən saysız xırdalıqlara diqqət yetirməli olur. O yerli xalqın çoxsaylı davranış aktlarını qeyd edir. İlk günlərdə qeydə alınmış davranış aktları antropoloqa qəribə görünür. Sonra antropoloq müşahidə qrupuna uyğunlaşır və baş verənləri ona yad olan sosial varlığın adi həyat norması kimi qəbul edir.

Bir çox müşahidəçi-etnoqraf müşahidədə əldə etdiyi məlumatları öz gündəliyinə qeyd edir. Bu qeydlər sonradan, alimin apardığı tədqiqatın ən önəmli məsələlərinin şərhində istifadə olunur. Alim şəxsi gündəliyində iqlim və havanın dəyişkənliyi, danışıq və ya yemək zamanı yerli xalqın səslərinin yüksəkliyi, həmsöhbətlərinə baxışı, fərqli hallarda emosional reaksiyaları və s. qeyd edir.

Antropoloq üçün şəxsi gündəliyin xüsusi önəm daşıdığını qeyd edərək Amerika antropoloqu B.Malinovski onu "yerli xalqın həyatı

və davranışı haqqında təsadüfi qeydlər" adlandırmışdır. Bu qeydlərin dəyərini onda görürlər ki, müşahidədən alınan ilk təəssüratlar qeyri-şüurda yaranır və rasional idrakda əks olunmur. Bəzən ilk təəssürat elmi hesabatda yaxud monoqrafiyada əksini tapan son nəticələrə uyğun gəlmir. Odur ki, B.Malinovski özünün çöl tədqiqatına dair gündəliklərinin ölümündən sonra nəşr edilməsini vəsiyyət etmişdir (onlar 60-cı illərin sonunda nəşr edilmişdir). Onun nəşr olunmuş gündəliklərində trobrandların mədəniyyəti o qədər fərqli təsvir edilmişdi ki, bu antropoloqları şoka salmışdı. Əlbəttə, bu qeydlər Malinovskinin kitabında yazdıqlarının yalan olduğunu təsdiq etmir, alimin təbii müşahidələrində yaranan streslərini, ovqat pozulmalarını, psixoloji vəziyyətlərdən necə çıxdığını ifadə edir (179).

Mütəxəssislər antropoloji tədqiqatın özünəməxsusluğunu onda görürdülər ki, antropoloq və ya etnoqraf psixoloqdan fərqli olaraq yerli xalqı laboratoriyaya cəlb edib onun üzərində təcrübə apara bilmir. Laboratoriya eksperimenti sənaye cəmiyyəti insanlarının vərdiş etdikləri süni elmi mühitdir. Amma təcrübə altında olan dovşanı eksperimentə dəvət etmirlər, onu zorla cihaza birləşdirib bədəninə cərəyan buraxır, cavab reaksiyasını yaxud davranışını qeyd edirlər. Etnoqraf və antropoloq isə min kilometrlərlə uzaqlara gedərək cəngəlliklərdə və digər təbii şəraitdə yaşayan aborigenlərin mədəniyyətlərini öyrənmək üçün hər gün yerli xalqla birgə yaşayıb onlarla əməkdaşlıq etməli olur. Burada ölçü cihazları yoxdur. Çünki laborator eksperiment antropoloqun əsl məqsədini – yerli xalqın gündəlik həyatını iştiraklı müşahidə etməklə onun mədəniyyətinin fərqləndirici əlamətlərini aşkar etmək strategiyasını – poza bilər.

Amerika antropoloqu K.Kottak bir il (1966-67-ci illər) ərzində Madaqaskar adasının balaca Betsilio kəndində yerli əhalinin həyatını müşahidə edərək özünün şəxsi gündəliyini formalaşdırmışdır. Alim onlarla bir mənzildə yaşayaraq səhər, nahar və şam yeməklərini, uşaqlarının doğulub tərbiyə olunmasını, yemək hazırlanmasını, kişilərin ova çıxmaq üçün hazırlığını və s. müşahidə etmiş, birlikdə məhsul yığmış, ova getmiş, qəbilənin mərasimlərində olmuş, toplanmış məhsulun bazarda satılmasında onlara yardımçı olmuşdur (190). Bütün bunlar mütəxəssislərə Kottakın tədqiqatını təbii-iştiraklı müşahidəyə aid etməyə əsas vermişdir.

Braziliyanın şimal-şərqində çox tanınmış, "Xoşbəxtlik torpağı" adlanan Baiya ştatı yerləşir. Bura cənub yarımkürəsinin ən gözəl məkanı sayılır. Braziliyanın kəşfi və mənimsənilməsi XVI əsrin başlanğıcında Portuqaliya admiralı P.A.Kabralın eskadrosunun bu məkana gəlişilə başlanmışdır. Bu rayonu biosferin ekoloji parkı adlandırırlar və dövlət tərəfindən qorunur. Burada, köhnə Arembepe adlı balıqçı kəndində XX əsrin 60-cı illərində "cənnət" hippi-beynəlxalq kommuna olmuşdur. Orada antropoloq K.Kottak da iştirak etmiş, Braziliya balıqçılarının məişətini öyrənmişdir. Alim burada payız festivalında balıqçılarla birlikdə rəqs etmiş, yerli şərab içmiş (doğum günlərində) və hətta o kənddən olan bir qızın xaç atası olmuşdur. İnsani yardım və iştirak elmi müşahidənin ayrılmaz elementləri olmuş və Kottaka insanları yaxşı öyrənməyə kömək etmişdir.

Antropoloji müşahidənin bir növü də *kvaziantropoloji müşahidə* adlanır. Çöl tədqiqatının bu növünə elmdə məzmunca deyil, metodoloji baxımdan ibtidai qəbiləyə analoq kimi baxılır. Belə ki, kvaziantropoloji müşahidədə antropoloq aborigen qəbilənin arasında olarkən müşahidə etdiyi davranış təzahürlərini-ləhcələri, jestləri, əlaqələri, normaları, dəyərləri, sənətçiliyi – müşahidə edir. Bu davranış təzahürləri də antropoloji ssenariyə tam uyğun olaraq kənar müşahidəçi üçün qaranlıq bir aləmdir. Başqa sözlə, müasir antropoloqun elmi dili də cəngəllikdə yaşayan bir qəbilənin dili qədər çətin anlaşılandır. Amma elmi ictimaiyyətin üzvləri üçün onların gizli dili tam aydındır. Odur ki, onlar tez-tez işarələrdən, əhəmiyyətsiz ifadələrdən, mimik jestlərdən və i.a. istifadə edirlər.

Bəzi alimlər (məsələn, M.Linç, E.Levinqston, Q.Qarfinkel) adi və elmi fəaliyyətlərin fərqini onda görürdülər ki, adi fəaliyyətdən fərqli olaraq elmi fəaliyyəti formal məntiq anlayışları ilə təsvir etmək asandır. Bu ideyanın düzgünlüyünü B.Lotur və həmkarları inkişaf etdirdilər. Onlar iki il ərzində alimlərin real laborator həyatına kvaziantropoloji yanaşma üsulunu tətbiq etdilər: müsahibələr apardılar, arxivləri, məktubları, memorandumları, əmrləri, elmi hesabatları və nəşrləri öyrəndilər. Alimlərin davranışını, elmi mübahisələrdə iştiraklarını hər gün müşahidə edib onların nitqini, jestlərini, səslərinin tonunu və davranışlarının digər təzahürlərini qeydə alırdılar. Bu səpkidə apardıqları fəaliyyəti, onlar *elmin antropologiyası* adlandırırlar. Onlar apardıqları tədqiqatdan belə

nəticə çıxartdılar ki, xalis elmi deduksiya və qərar qəbul edilməsi proseslərinə çoxlu irrasional ünsürlər, subyektiv qiymətləndirmələr, ehtiraslar, spontal psixoloji reaksiyalar nüfuz edir. Bütün bunlar peşəkar elmi fəaliyyətin qeyri-formal standartlarının təzahürləri kimi dəyərləndirilir. Bu ideyanın müəllifləri aydınlaşdırmışlar ki, dərc olunmuş mətn alimin həqiqi mövqeyini və baxışlarını açmaqdan çox onları gizlədir. Səbəbi də müəyyən sosial şərtlərə riayət edilməsinin zəruri olmasıdır. Şərtlər isə bunlardır: opponentlə kəskin polemikaya girməmək; elm xadimləri haqqında saygı ilə danışmaq; elmi etiketin digər elementlərinə riayət etmək; jurnalist və ritorik üslublardan yararlanaraq elmi məqaləni daha cəlbedici etmək (71, 235-236).

### 3.7. Sosioantropoloji sorğu metodu və onun növləri

Məlumatların toplanmasının yaxud bu və ya digər sosial problemi öyrənmək məqsədilə problemin mahiyyətini açan sualların köməyilə respondentlə birbaşa, yaxud dolayı yolla qurulan ünsiyyət sosioantropoloji sorğu adlanır. Sorğu metodundan öyrənilən problemlə bağlı sənədli qaynaqlar çatışmadıqda yaxud mövcud olmadıqda, tədqiqat predmetinin müşahidə üçün əlçatmaz yaxud çətin əldə edilən olduğu, ictimai və fərdi şüurun ayrı-ayrı elementlərinin (insanları tələbatları, maraqları, motivləri, ovqatları, dəyərləri, əqidələri, prioritetlərinin və s.) öyrənilməsi zəruri olan hallarda istifadə edilir. Sorğu metodu öyrənilən hadisə yaxud prosesin təsviri və təhlili imkanlarını genişləndirir (20, 58).

Lakin psixoloqlar əmindirlər ki, insan davranışının müxtəlif yönləri arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən laborator eksperiment sosioantropoloji tədqiqatın bütün imkanlarını tükədir. İqtisadçılar isə düşünürlər ki, yalnız qiymətlərin və əmtəə kütləsinin dəyişilməsinin obyektiv mənzərəsini təsvir etməyə imkan verən *statistik təhlil* iqtisadi davranışın ən etibarlı üsuludur. Psixoloqlardan və iqtisadçılardan fərqli olaraq psixoanalitiklər düşünürlər ki, xəstənin iç dünyasının günahsız yaxud düzgün olduğunu *duymaq* insan davranışının, onun intim tərəfləri və gizli motivlərinin öyrənilməsinin yeganə həqiqi və dərin metodudur. Marketinqlər isə insanın *istehlak davranışının* öyrənilməsini zəruri sayırlar.

Antropoloji təfəkkür yaxud tədqiqat üçün *iştiraksız müşahidə* ən düzgün metod sayılır. Çünki bu metod insanların gündəlik



qarşılıqlı təsirlərini öyrənmək üçün daha səmərəlidir. Antropoloqların ənənəvi idrak metodu aborigenlərin məskənində uzun müddət yaşamağı nəzərdə tutan *çöl tədqiqatıdır.* Bununla yanaşı antropoloqlar *iştiraklı müşahidə* adlanan metoddan da istifadə edirlər. Antropoloqların istifadə etdiyi təsviri metodlar psixofizioloqlara son dərəcə bəsit görünür, halbuki məsələn, sosioantropoloji sorğu iki və daha çox insanlar arasında fikir mübadiləsidir. Sosioloji sorğu metodunun mahiyyətini aydınlaşdırmaq üçün onun başqa növlərindən fərqi göstərilir. Doğrudan da sosioantropoloji sorğu jurnalist, həkim, iqtisadçı və s. sorğu növlərindən fərqlənir. Məsələn, jurnalist aktyorla, siyasətçi ilə və b. sorğu apararkən birinci növbədə sensasiya doğuracaq faktlar almağa çalışır. Ümumiyyətlə, jurnalist sorğusu üçün səciyyəvi olan sorğu zamanı alınacaq informasiyanın yeniliyi, sensasiyalılığı və ya intriqa doğuranlığıdır. Həkim isə xəstə ilə sorğu apararkən xəstəliyin səbəbini öyrənməyə can atır. Xəstəyə düzgün müalicə təyin edilməsi həkimin sorğusuna xəstənin cavablarının dəqiqliyindən asılıdır. Cinayət axtarışı əməkdaşı isə cinayətdə şübhəli bilinən şəxslə yaxud şahidlə sorğu aparmasında məqsəd cinayətin üstünü açmaq üçün zəruri olan məlumatı əldə etməkdir. Belə məlumat doğru və tam olmalıdır.

Sosioantropoloji sorğu tədqiqatçının respondentlə söhbətində gerçəkləşir. Amma burada baş verən sorğunun məqsədi tədqiqatın vəzifələri və proqramı ilə müəyyən edilir. Odur ki, sorğu tədqiqatçılıq ünsiyyəti kimi kənardan motivləşdirilən "saxta ünsiyyət" sayılır. Sorğunun uğuru və alınan informasiyanın keyfiyyəti ünsiyyətin xarakterindən, tərəflər arasında əlaqənin sıxlığından və onların bir-birini başa düşməsindən çox asılıdır.

Sorğunun aparılması özündə üç mərhələni birləşdirir: obyektin yəni rəyi soruşulacaq şəxsin; sorğu aparılacaq yerin və vaxtın müəyyən edilməsi; cavabların yazılması və materialların dəqiq sənədləşdirilməsi.

Bir sıra hallarda, məsələn, tədqiqat predmetinin nəzəri modelinin işlənib hazırlandığı və hipotezlərin irəli sürüldüyü hazırlıq mərhələsində ekspertlər yoxlayıcı sorğu apardıqda, metodik alətlərin keyfiyyətinin yoxlanıldığı sınaq tədqiqatında (buna pilotaj da deyilir) müsahibə metodu əvəzsiz sayılır. Problemin öyrənilməsi zamanı sualların müəyyənləşdirilməsində respondentlər üçün dil, məna və

məntiq baxımından çətinlik törədən terminlərdən istifadə edilməsi tələb olunduqda sorğu metodu əvəzsiz sayılır və sorğu aparan tədqiqatçıya müraciət qaçılmaz olur.

Sorğu metodunun tədqiqat üçün əhəmiyyətilə yanaşı mənfi tərəfləri də vardır.

Mütəxəssislərin rəyincə sorğu metodunun tətbiqi toplanmış materialların etibarlılığını artırır, onların məzmununu dərinləşdirir. Bununla belə, toplanmış informasiya böyük sosial qrupları təmsil etmir. Respondent ona verilən sualın mənasını anlamadığı hallarda sual verən hər zaman ona kömək edir. Suallara cədvəl formasında cavab verilməsi sorğuda anketləşdirmənin olmasından daha münasibdir. Çünki sorğuçu respondentə cədvəlin hər bir sətiri üzrə ayrıca sual verir, özü isə aldığı cavabları qeyd edir. Sorğunun gedişində belə sual cədvəldə göstərildiyi qədər təkrar olunur. Sorğuçu bir sualdan başqa suala keçdikdə sualın əsas istiqamətini dəyişmədən onu başqa cür formula edə bilər.

Sorğu kütləvi yox, qrup və ya fərdi araşdırma metodudur. O anketə əlavə olaraq tətbiq edilir və onun köməyilə alınmış informasiyanın dərinləşdirilməsinə xidmət edir. Sorğu alimi kiçik, ancaq ətraflı informasiya ilə təmin edir.

Sorğu metodunun qüsurlu tərəfinə gəlincə, bu özünü onun az operativ olmasında, çox zaman tələb etməsində, sorğuçuların çoxsaylı olmasının zəruriliyində, qısamüddətli kütləvi sorğulardan istifadənin mümkün olmamasında göstərir. Tədqiqata yeni başlayanlar üçün sorğu metodunun tətbiqi xeyli çətin olur, çünki bunun üçün xüsusi hazırlıq və təlim tələb olunur. Bundan başqa, sorğunun müxtəlif növləri tədqiqatçıdan fərqli bilik və bacarıq tələb edir.

ABŞ-da 1927-1932-ci illər arasında Xotorn adlanan eksperiment aparılmışdı. Tərkibində antropoloqların, psixoloqların və sosioloqların iştirak etdiyi Harvard alimləri E.Meyonun başçılığı altında 20 min respondentlə sorğu aparmışlar. Onların məqsədi fəhlələrin məhsul hasilatını azaltmasına səbəb olan davranışın gizli amillərini aşkar etmək olmuşdur. Alimlərin hasilatın azalmasına səbəb olan maddi amillərin (havalandırmanın, istirahət vaxtının, əmək haqqının) təsirinin müəyyənləşdirilməsinə can atma baş tutmadıqda alimlər dərin sorğu metodundan istifadə etməyə məcbur olmuşdular. Sorğunun köməyilə müəyyən etmişlər ki, hasilatın aşağı düşməsinin



səbəbi kiçik fəhlə qrupunda şəxsiyyətlərarası münasibət-lərin "həssas strukturundadır".

Əgər alimlər formallaşdırılmış suallarla kifayətlənib dərin müsahibə aparmasaydılar fəhlələrin davranışında bir çox gizli məqamları üzə çıxara bilməzdilər. Məsələn, fəhlə evdə mübahisə etmiş, zavoda gəldikdə iş yerinin isti və havasız olduğundan şikayətlənmişdir. Başqa bir işçi isə xanımının müalicəsi üçün pul toplaya bilmədiyi üçün əmək haqqının azlığından narazılığını bildirmişdir.

Alimlər sərbəst sorğu və düşünülmüş metodika sayəsində insanların davranışında bir çox qəribəliklər aşkar etmiş, insanın düşündüyü ilə söylədiyinin uyğun olmadığını üzə çıxardılar. Dolayısı ilə sorğu cavabların aşkar faktlar kimi deyil, insanın obyektiv halının mənzərəsini tədricən açan simptomlar toplamı kimi şərh edilməsindən ibarət olur. Alimlər belə bir qaydaya əsaslanmışlar ki, diqqətini gözə çarpmadan yönəldərək respondentin yalnız özünün nəyi demək istədiyini aşkar etsinlər. Çünki onu marağı olmayan mövzuya bağlamaq mənasızdır. Anketləşdirmədə tədqiqatçı belə də hərəkət edir, yəni o respondentə yox, özünə lazım olan sualları qoyur. Anketləşdirmənin əsas məhdudluğu da bundadır. Elmi tədqiqatın məntiqinə uyğun olaraq sorğu alimin vəziyyət barəsində məlumatı olmadığı anda, tədqiqatın başlanğıcında aparılır. Anket isə, əksinə vəziyyətin ümumi modeli formalaşdırıldıqdan sonra, yəni tədqiqatın son mərhələsində və xırdalıqların aydınlaşdırılmasına tələbat yarandıqda lazım olur. Odur ki, sorğunu axtarış aləti, anketi sübut vasitəsi adlandırırlar.

*Sorğu növlərinin təsnifatı*

Sorğu növlərinin təsnifatı ilə bağlı mübahisəli fikirlər vardır. Bunun səbəbini, mütəxəssislər sorğu metodunun mürəkkəbliyi və onun fəaliyyətin ən müxtəlif sahələrində istifadə olunması ilə bağlayırlar. Sorğunun təsnifatına dair mübahisələrə yer vermədən (kursumuzun həcminə də bu uyğundur) üç başlıca meyar üzrə təsnifatın üzərində dayanırlar. Birinci, şifahi (verbal) dialoqun standartlaşdırılması dərəcəsindən asılı olaraq aparılan təsnifatdır və ona iki növ daxil edilir: *formallaşdırılmış sorğu; formallaşdırılmamış sorğu.*

Formallaşdırılmış sorğu respondentlə hərtərəfli işlənib hazırlanmış sualları və mümkün cavabları özündə birləşdirən ardıcıl

söhbətdən ibarətdir.

Formallaşdırılmamış sorğu minimum standartlaşdırma səviyyəsilə ölçülür. Belə sorğu respondentlə konkret sualları dəqiqləşdirilməmiş və sorğu aparanın davranışının minimum dərəcədə detallaşdırıldığı proqram üzrə uzunmüddətli söhbəti nəzərdə tutur.

İkinci meyar (müzakirə mövzularının sayı) üzrə təsnifata daxildir: *fokuslaşdırılmış, yaxud yönəldilmiş sorğu növü; fokuslaşdırılmamış (yönəldilməmiş)* sorğu növü.

Fokuslaşdırılmış sorğu bir mövzuya yönəldilmiş sorğu sayılır və belə sorğu mövzunun hərtərəfli gözdən keçirilməsinə imkan verir. Sorğunun bu növünü – predmetə yönələn və özü-özünü yönəldən sorğulara – ayırırlar. Bundan başqa, sorğunu insanın emosiyalarına, daxili yaşantılarına, onu əhatə edən mühitə və i. a. yönəltmək olar. Amma mənanın genişləndirilməsi elmin xeyrinə deyil, çünki fokuslama insanın diqqətini bir predmetdən başqasına keçirmək anlamını daşımır. Fizikadan öyrəndiyimiz kimi, fokus bir olmalıdır.

Fokuslaşdırılmış və sərbəst müsahibə adətən ekspert sorğularında istifadə olunur. Çünki ekspert sorğusu yüksək ixtisaslı mütəxəssislərin söylədiklərinin məzmununun tam nəzərə alınmasını tələb edir.

Formallaşdırılmış sorğu fokuslaşdırılmış və fokuslaşdırılmamış ola bilər. Bu parametrlər formallaşdırılmamış sorğuya da aid edilir. Beləliklə, respondentə veriləcək sualların standartlaşdırılması dərəcəsinə görə ayrılmış iki sorğu növü (formallaşdırılmış və formallaşdırılmamış) və müzakirə edilən mövzulara görə ayrılan fokuslaşdırılmış və fokuslaşdırılmamış sorğu növləri bir tamda birləşirlər. Onların belə birləşməsi mümkündür çünki, hər iki meyar bir-birini inkar etmir tamamlayır. Başqa sözlə, formallaşdırılmış, formallaşdırılmamış, fokuslaşdırılmış və fokuslaşdırılmamış sorğu növləri bir-birini tamamlayır.

Üçüncü başlıca meyar üzrə təsnifata daxildir: fərdi və ya şəxsi sorğu növü; qrup sorğu növü. Birinci halda sorğu (söhbət) fərdlə, ikinci halda qrupla aparılır.

Sorğunun keçirilməsi yerinə görə də təsnifat vardır. Bu təsnifatda yaşayış yeri üzrə aparılan sorğu növü *dükanlara gələnlərlə* və *iş yerlərində* aparılan sorğu növlərinə ayrılır (bu bölgü ikinci



dərəcəli sayılır).

Aparılma üslubuna görə *sərt* və *yumşaq* sorğu növləri də vardır. Dördüncü əlavə meyar üzrə təsnifatda diaqnostik sorğu növündən istifadə edilir (belə sorğunu həkim-psixiator insanın davranışının iç motivini, şəxsi keyfiyyətlərini, xəstəliyin simptomlarını və s. dərindən öyrənmək istədikdə həyata keçirir). Əgər həkim xəstəyə məsələn, onun şüuruna hopmuş, amma bilərəkdən, yaxud bilməyərəkdən gizlədilən ideyadan canını qurtarmaq üçün psixoloji yardım etmək məqsədilə terapevtik söhbət metodundan istifadə edirsə, belə söhbət klinik sorğu adlanır. Belə sorğu adətən psixologiyada istifadə olunur. Sosiologiyada və antropologiyada isə nadir hallarda tətbiq edilir.

Praktikada formallaşdırılmış (yönəldilmiş) sorğunun iki növü var: *qapalı suallarla və açıq suallarla sorğular.*

*Qapalı suallarla yönəldilən sorğu* daha çox yayılmış metoddur. Belə sorğuda sorğuçunun və rəyi soruşulanın ünsiyyəti ətraflı işlənib hazırlanmış sorğu vərəqəsi və təlimatın köməyilə ciddi reqlamentləşdirilir. Sorğuçu rəyi soruşulanlara suallar verir, söhbəti qurur və yönəldir, aldığı cavabları təlimata uyğun qeyd edir.

Sualların sayı çox (hətta 20-25) olduqda respondentlər onlara çətinliklə cavab verirlər. Sorğuçu ya işi sürətləndirməli ya da sualların dəqiqli-yini qurban verməlidir. Bundan başqa, respondentlərin tələskənliyi tədqiqatçını öyrənilən problemi dərindən araşdırmağa imkan vermir. İnformasiyaların toplanması gedişində nəzarətdən çıxan yanılmalar yaranır (67, 119-122). Bunu nəzərə alaraq, Qərb alimləri açıq suallarla formallaşdırma sorğusunda hər bir suala alternativ sadə suallar qoyurlar (129). Əgər sorğunun gedişində respondentə aydın olmayan sözü yaxud sualın mənasını izah etməyə tələbat yaranarsa, sorğuçu suala özü bildiyi şərhi verməməlidir, o sualı sadəcə təkrar etməlidir.

Sorğu aparan hər zaman nəzərə almalıdır ki, cavabların məzmununa onun təsiri nəinki əhəmiyyətli ola bilər, həm də nəzarətdən çıxa bilər. Onu da yadda saxlamaq lazımdır ki, bir sorğuda bir neçə sorğuçu iştirak edir, əgər onların hər biri öz fantaziyasına sərbəstlik verərsə, o zaman aldıqları məlumatları bir araya gətirib yekun nəticə çıxarmaq olmaz.

Yönəldilən sorğuda sorğuçunun məlumatların keyfiyyətinə

təsiri minimuma endirilir, alınmış informasiyanın etibarlılığı maksimuma qaldırılır. Respondentlə söhbətə başlanmasını, söhbətin bir yarısından digər yarısına keçilməsini tədqiqatçı işləyib hazırlayır, sorğuçu isə onu dəqiqliklə həyata keçirir.

*Açıq suallarla yönəldilən sorğu* respondentin və sorğuçunun davranışlarının az standartlaşdırılmasını nəzərdə tutur. Bəzən bu sorğu sərbəst sorğu ilə qarışdırılır. Halbuki sərbəst sorğu öncədən planlaşdırılmamış sorğu növüdür. Sualların açıqlığı isə sorğuçunun azad davranması üçün əsas vermir, əksinə, respondentin rəyinə onun təsir riskinin daha da məhdudlaşdırılmasını tələb edir, məsuliyyətini daha da artırır.

Açıq suallarla yönəldilmiş sorğu üçün sorğu planı, sualların ardıcıl olması və onların açıq şəkildə qoyulması vacib sayılır. Sorğuçu tədqiqatçının formula etdiyi sualları heç bir dəyişikliyə yol vermədən respondentlə söhbətdə təkrar etməli, respondent isə o suallara sərbəst halda cavab verməlidir. Lakin sorğuçu aldığı cavabları necə gəldi qeyd etməməli təlimatda göstərilən standart halda qeydə almalıdır. Sorğuçu söhbətə maqnitofonla gəlibsə onda söhbəti olduğu kimi yaza bilər, ancaq rəyi soruşulanın danışıq tərzini saxlamaq şərtilə. Sonradan isə sorğuçu cavabları kodlaşdırır və onlardan yalnız abstrakt simvolları saxlayır. Bəzən cavabların bilavasitə kodlaşdırılması sorğunun gedişində həyata keçirilir. Bu halda hər sualdan sonra cavabların təsnifat sxemi verilir. Təsnifatda sorğuçu lazım olan mövqeləri qeyd edir. Məsələn, "siz hansı qəzetlərə abunə yazılırsınız" sualından sonra sorğuçu sorğu vərəqində tədqiqatçını maraqlandıran qəzetlərin siyahısını göstərir, həmçinin başqa qəzetlərin mövqeyini nəzərdən keçirir.

Respondentlərin söylədikləri əhəmiyyətli dərəcədə bir-birindən həcminə, quruluşuna, tamlığına, məlumatlılıq səviyyəsinə, verilən sualın mahiyyətini əks etdirməsinə görə fərqlənə bilər. Bütün bu xüsusiyyətlər təhlildən keçirilməlidir. Odur ki, sorğunun bu növü müəyyən qədər vaxt və əmək tələb edir, respondent cavabların üzərində çox düşünür, cavabı da çox ləngiyir, sorğuçu isə aldığı cavabların qeydiyyatına çox zaman sərf edir. Cavabların təhlilinə və kodlaşdırılmasına da çox vaxt itirilir (129; 67). Eyni zamanda açıq suallarla yönəldilən sorğu növü respondentə daha çox sərbəstlik, cavabların hazırlanmasında müstəqillik verir, sorğuçudan isə



cavabların tam ətraflı və dəqiq qeyd edilməsini tələb edir. Sorğu əməliyyatının bütün qalan elementləri – söhbətə giriş, sualların ardıcıllığı və onların sözlərlə ifadəsi dəyişilmir.

*Sərbəst sorğu.* Sorğu metodunun bu növü minimum standartlaşdırılması ilə xarakterizə olunur. Belə sorğu öncədən hazırlanmış sorğu vərəqəsi əsasında aparılmır. Yalnız söhbətin mövzusu öncədən müəyyənləşdirilir və müzakirəyə verilir. Söhbətin istiqaməti, məntiqi struktru, sualların ardıcıllığı və ifadəsi sorğu aparanın fərdi özəlliklərindən asılı olur. Sorğunun gedişində alınmış informasiya statistik təhlildən keçirilmir. Belə informasiya bənzərsiz olduğuna görə qiymətli sayılır. Soruşulanların sayı 10-20-dən yuxarı olmur. Cavabların ümumiləşdirilməsi ənənəvi metodla – mətnlərin təhlili yolu ilə həyata keçirilir.

Sərbəst sorğu dedikdə söhbətin əsas istiqamətinin təxmini və öncədən hazırlanması nəzərdə tutulur. Sualların qoyuluşu, eləcə də onların ardıcıllığı sorğunun gedişində respondentin fərdi özəlliklərindən asılı olaraq müəyyənləşdirilir. Belə sorğu bir-birinə tam səmimi olan iki şəxsin arasında gedən məlumat mübadiləsinə bənzəyir. Onlar bir-birindən, yalnız söhbətin məqsədilə fərqlənir. Sərbəst sorğunun məqsədi adi sorğunun məqsədindən elmiliyi ilə fərqlənir.

Radikal mikrososioloqları idrak metodu kimi ənənəvi sərbəst sorğu təmin etmir. Onlar etibarlı informasiya qaynağı kimi audio- və videoyazı texnikasının köməyilə qeydə alınmış təbii danışığa üstünlük verirlər. Müasir texniki cihazlar adi sorğuçunun diqqət yetirmədiyi məqamları belə (respondentin danışığındakı emosional tonu, tempi və ritmi, duruşu və jestləri) qeyd etməyə imkan verir.

Mikrososioloqlar əmindirlər ki, insan davranışında ən doğru informasiya qaynağı spontan hərəkətlərdir. Onlar öyrənilən obyekti "mikrohadisə" adlandırırlar. R.Kollinzə görə, "mikrohadisə" insanların bir anda baş verən real qarşılıqlı təsirlərindən ibarətdir. Marks insanların real qarşılıqlı təsirini onların ictimai varlığı kimi müəyyən edir ki, bizcə, bunu "makrososial hadisə" adlandırmaq olar.

Sərbəst sorğu metodu etnometodologiyada fəal istifadə olunur. Məlum olduğu kimi, etnoqrafiyanın və mədəni antropologiyanın metodları öyrənilən obyektin özünəməxsusluğu (çöl tədqiqatında öyrənilən ibtidai qəbilənin məişəti, həyat tərzi) əsasında

formalaşdırılırdı. Təxminən yüz ildən sonra "Etnometodologiya üzrə tədqiqatlar" (1967) əsərinin müəllifi Q.Qarfingel ibtidai mədəniyyətin öyrənilməsinə antropoloqların tətbiq etdiyi qaydaları müasir sivil cəmiyyətin tədqiqinə ekstrapolyasiya etməyə təşəbbüs göstərdi. Qarfingelin işlərinə qədər – 100 il ərzində – alimlər hesab edirdilər ki, strukturu sosial gerçəklikdə olan və onunla şərtlənən prosesləri öyrənmək lazımdır. Hər bir insanın deyək ki, mühəndisin, iş adamının davranışı, dili, geyim forması, həyat tərzi onun sosial (xüsusilə sinfi) vəziyyətilə yəni sosial varlığı ilə müəyyən edilir.

Sərbəst sorğuya çox oxşayan digər metod isə söhbət adlanır. Söhbət metodunun üstün və qüsurlu tərəfləri vardır. Söhbət metodunun üstünlükləri aşağıdakılardır:

1) bu metod öncədən formullaşdırılmış ssenari olmadan tədiqat aparmağa imkan verir;

2) respondentlə onun vərdiş etdiyi sözlərlə ünsiyyətə yol açır;

3) dərin fərdi informasiya almağa, bir şeyə (hadisəyə, hərəkətə və s.) subyektiv münasibəti üzə çıxarmağa kömək edir;

4) respondentə ekspert olmaq və onunla əməkdaşlıq etmək imkanı verir (ənənəvi sorğu zamanı bu həmişə mümkün olmur);

5) çoxsaylı suallara dair keyfiyyətli informasiya almağa imkan verir.

Sərbəst söhbətin aşağıdakı qüsurları göstərilir:

1) o çox geniş və zəhmət tələb edir;

2) uzun zaman hazırlıq və təlim tələb edir;

3) sayı 200-300 insandan çox olmayan qrupa tədbiq oluna bilir:

4) alınmış məlumatların formallaşdırılması mərhələsinə çox əmək sərf olunması lazım gəlir;

5) müzakirə olunan məsələlər haqqında söhbət aparanın dərin biliyə malik olmasını tələb edir.

Mütəxəssislər tədqiqat obyektinin bənzərsiz olduğu bütün hallarda üstünlüyü araşdırmanın çevik, formallaşdırılmamış üsullarına, o cümlədən söhbət metoduna verirlər.

### 3.8. Sənədlərin antropoloji təhlilinin ümumi müddəaları

Antropologiya yalnız kitablar üzərində deyil, sənədlər memuarlar, gündəliklər və qəzet-jurnallar üzərində təhlil və sintez. ümumiləşdirmə həyata keçirən elmdir. Bu sahənin mütəxəssisləri



böyük həcmdə informasiyalar üzərində işləməyə, elmi ədəbiyyatı, elmi nəşrlərdə gedən məqalələri öyrənməyə məcburdur, çoxsaylı sənədləri doldurmağı bacarmalı və yazmalıdır.

Sənədlər hüquqi gücə malik maddi daşıyıcıda olan informasiyadır. Bu cür maddi obyektdə elmi-tədqiqat və praktiki məqsədlər üçün zəruri olan və müəyyən olunmuş forma və qaydada qeyd olunmuş informasiya olur. Sənədlər kağız, yaxud texniki daşıyıcılar əsasında hazırlana bilər. Respondent tərəfindən doldurulan sorğu anketi sənəd statusu alır. Sənəd latın mənşəli söz olub "dəlil" anlamını daşıyır. Çağdaş elmi dildə sənəd üzərində informasiya yazılmış maddi daşıyıcı deməkdir. İnformasiya yazılı, şifahi və s. formalarda ola bilər. Odur ki, antropoloji sorğu anketini sənəd adlandırmaq olar. Blank üzərindəki rəsmi sənəd sənədin bir növü sayılır. Sosioantropoloji sorğu anketində real fakt qeyd olunur. Fakt konkret bir insanın rəyidir, amma bu rəy insanın nəyə isə hüquqlu olduğunu təsdiq etmir.

Anketdən başqa sənədlərin digər növləri də vardır. Buraya məhkəmə materialları, təkrarolunmaz tərcümeyi-hallar, dini icma materialları daxildir.

XX əsrin əvvəllərində tərcümeyi-halın (avtobioqrafiyanın) informasiya qaynağı kimi rolu yüksək qiymətləndirilmiş və qeyd edilmişdir ki, psixoloqdan, yaxud tarixçidən fərqli olaraq antropoloq insana öz bioqrafiyasını sosial əhatədə yazan şəxs kimi baxır. Odur ki, antropoloq avtobioqrafiyada insanın sözgəlişi, yanlış yazdığını, önə çəkmədiyi və üzərindən sükutla keçdiyini onun şəxsiyyətinin formalaşmasına kimin təsir etdiyini, sosial mənşəyini, o zamankı qüvvələr nisbətinin necə olduğunu, insanların qarşılıqlı münasibətlərinin və davranışlarının necə yarandığını oxuyur.

Antropoloq üçün memuarlar tarixçi və psixoloqlara lazım olduğundan daha gərəklidir. Memuardakı dolaşıq məlumatlar, yalan fikirlər, gizlədilmiş başqa cəhətlər düzgün açılarsa, antropoloq üçün əvəzolunmaz tədqiqat obyekti ola bilər. Memuardakı sətiraltı mənaları oxumağı, müəllifinin gizlətmək istədiklərini görməyi, eyhamlara əsasən müəllifin təmayülünü anlamağı bacarmaq alimdən yüksək peşəkarlıq tələb edir.

*Sənədlərin təhlili* sosiologiyada və antropologiyada tədqiqat metodudur. Belə tədqiqatda protokollarda, məruzələrdə, qərar və qətnamələrdə, qəzet və dərgi yazılarında, məktublarda, bədii

əsərlərdə və s. olan məlumatlar informasiya qaynağı sayılır. Sənədlərin təhlili bilavasitə müşahidə olunması və ya iştirakçılardan soruşulması mümkün olmayan keçmiş hadisələr haqqında məlumat əldə etməyə imkan verir. Eyni bir hadisənin mətnlər üzrə uzunmüddətli öyrənilməsi onun inkişafının istiqamətini və dinamikasını aşkar etməyə imkan verir. Sənədlərin təhlilində informasiyanın düzgün olmaması sənədlərin etibarlılığı problemini yaradır. Bu problem müəyyən tədqiqat üçün sənədlərin seçilməsi və sənədlərin məzmununun görünən və görünməyən tərəflərinin təhlili gedişində həll edilir. Sənədlərin xarici təhlili onların yaranması şəraitinin öyrənilməsidir, daxili təhlili isə sənədin məzmun özəlliyini və tərtib üslubunu aşkara çıxarır. Tədqiqatçı sənədləri təhlil edərkən ilk öncə söhbətin nədən getdiyini ayırd etməlidir, yəni baş vermiş hadisələrin obyektiv və qərəzsiz şərh edildiyini və ya hadisəyə müşahidəçinin qiymət verdiyini fərqləndirməlidir. Belə ki, hadisəyə müşahidəçinin verdiyi qiymətə subyektiv motivlər təsir edə bilər. Sənədin tərtibində tərtibatçının ilkin məlumatları hansı metodun köməyilə aldığını bilmək çox önəmlidir. Sənədlərin təhlili sosioantropoloji tədqiqatda yeganə, başlıca və ya əlavə idrak metodu rolunda çıxış edə bilər. Bu metod sorğu və müşahidə metodu ilə yaxşı, eksperimentlə isə çətin uzlaşır. Antropoloq adətən ekspertlərlə ilkin məsləhətləşmədən (sərbəst sorğu metodundan) başlayır, sonra ədəbiyyatın və müəssisə sənədlərinin təhlilinə keçir, sonda isə işçilərlə sorğu aparır və s. Beləliklə, sənədlərin təhlili qısa vaxtda və çox əmək sərf etmədən müəssisə haqqında faktlara söykənən məlumat almağa imkan verir. Amma belə informasiyanın məhdudluğu da nəzərə alınmalıdır. Bəllidir ki, qeydiyyat və hesabat məlumatları hər vaxt doğru olmur və müşahidə və sorğuda alınan məlumatların köməyi ilə nəzarətə ehtiyac yaranır. Bundan başqa, sənədlərin hazırlanmasında məqsəd sosioloqun öz tədqiqatında həll etmək istədiyi məsələlərlə heç də üst-üstə düşmür. Odur ki, sənədlərdə olan informasiyanı sosioantropoloq yenidən gözdən keçirməli və mənalandırmalıdır. Başqa sözlə, bu informasiyalar antropoloqa hazır cavablar vermədiyindən, yalnız informasiya üçün "xammal" sayılır.

Sənədlərin təhlili metodu keyfiyyət metodologiyasına əsaslanan antropologiyada geniş tətbiq olunur və başqa tədqiqat növləri üçün əlçatmaz, bənzərsiz məlumatlar toplanması üçün



mühüm idrak vasitəsi kimi çıxış edir. Bu idrak vasitəsindən istifadə edərək sosioantropoloqlar (öz zamanında Qarfingel, Şyuts, B.Lotur, 1994-cü ildə P.V.Romanov və b.) bir sıra tədqiqatlar aparmışlar.

Sosiologiyada və antropologiyada sənədlərin təhlilinin iki başlıca növünü fərqləndirirlər: keyfiyyət təhlili (ənənəvi təhlil də adlandırılır); kəmiyyət təhlili (beynəlxalq təsnifatda kontent-təhlil adlanır).

Sənədlərin keyfiyyət təhlili metodu birinci yaranmışdır. Bu metod sənədlərin keyfiyyətinin seçilməsi, qiymətləndirilməsi, onların məzmununun qavranılması və şərhi üçün lazım olan bütün əməliyyatları özünə daxil edir. Bu idrak əməliyyatları sənədlərin məzmununun intuitiv qavrayışına, təhlilinə və ümumiləşdirilməsinə, həmçinin çıxarılan nəticələrin məntiqi əsaslandırılmasına söykənir. Sənədlərin ənənəvi intuitiv təhlilinə misal olaraq öyrənilən problem üzrə elmi ədəbiyyatın oxunmasını və çıxarılan nəticələrin elmi icmal halında şərh edilməsini göstərmək olar. Şəxsi sənədlər tədqiqat üçün zəmin olan tarixi fakt hesab olunur.

Sənədlərin kəmiyyət təhlili metodu (kontent-analiz) bir qədər sonra yaranmışdır. Ədəbiyyatda xatırlanan bu təcrübə ilk dəfə XVIII əsrdə İsveçrədə həyata keçirilmişdir. Burada dövlət senzurasından keçmiş və məşhurlaşmış, ancaq kilsə ehkamlarına uyğun gəlməməkdə təqsirləndirilmiş 90 dini himn kəmiyyət metodu üzrə təhlil edilmişdir. Onların kilsə ehkamlarına uyğun gəlib-gəlməməsini bu himnlərin mətnlərindəki simvolları hesablamaq və başqa dini himnlərlə müqayisə etməklə müəyyənləşdirmişlər.

Kəmiyyət təhlili (*content-analysis*) anlayışını ilk dəfə XIX yüzilin sonu XX əsrin əvvəlində Amerika jurnalistləri (B.Mettyu, A.Tenni və b.) tətbiq etmişlər. Onun metodoloji və metodiki əsaslarını Amerika sosioloqları H.Lassuell və B.Berelson işləyib hazırlamışlar. Bu metodun tətbiqi qaydalarının işlənib hazırlanmasında rus və eston sosioloqları A.N.Alekseyevin, Y.Vooqlaydın, P.Vixalemmin və b. mühüm rolu olmuşdur.

XX əsrin 60-cı illərinin başlanğıcında fransız jurnalisti J.Kayzer kəmiyyət təhlili metodunun bütün epiqrafik və epistolyar (məktub şəklində yazılmış) materialların öyrənilməsinə tətbiqinin nəzəri əsaslarını işləyib hazırladı. O diqqətini materialların təşkilinin xarici formasına (onların yerləşdirilməsinə, başlıqlarına, tərtibat

formasına) yönəltmişdi. Kayzer həm ayrıca qəzet nömrəsinin, həmçinin birtipli dövri nəşrlərin tam formalaşdırılmasını təmin edən metodiki qaydaları işləyib hazırlamışdır.

Kayzerin başladığı işi E.Moren davam etdirərək elmi dövriyyəyə "informasiya vahidi" anlayışını daxil etmişdir. Bu anlayış, məsələn, "nə haqqında danışılır?" sualına cavabın məzmununu daşıyan semantik bloku bildirir. R.B.Manexin yazır ki, alimlərin işləri tədqiqatçılara mətn materialının həm terminoloji, həm ifadə, abzas, məqalə və hətta kitab səviyyəsində quruluşu formalarını öyrənməyə imkan yaratmışdır. E.Moren mətn məkanının uzun illər normativlərin statistik təhlilinin sarsılmaz prinsiplərini dağıtdı. Onun yerini mətn əlaməti üzrə qurulmuş "semantik qrup" metodologiyası tutdu.

Kəmiyyət təhlilində önəmli məqam riyazi-statistik hesablama metodundan istifadə olunmasıdır. Belə ki, kontent-analiz (kəmiyyət təhlili) metodunun əsasını təhlil olunan informasiya massivində qarşılaşan müəyyən komponentlərin sayılması təşkil edir. Sayılma əməliyyatı komponentlərin arasında statistik qarşılıqlı əlaqələrin aşkar edilməsi və onların arasındakı struktur əlaqələrinin təhlili ilə, həmçinin onların bu və ya digər kəmiyyət və keyfiyyət xarakteristikasının müəyyən edilməsilə tamamlanır.

Sosioantropoloji tədqiqatda sənədlərin təhlili metodunun aşağıdakı qüsurları da göstərilir:

1) tədqiqatçı sənədlərdəki informasiyanı təhlil etmədən ilkin sosioloji informasiya kimi istifadə edir; bu zaman informasiyanın həqiqiliyi, etibarlılığı sənədin müəllifi, təyinatı yoxlanmamış olur;

2) sənədlərin təhlili öncədən hazırlanmış plan və proqram üzrə aparılmır;

3) təhlil üçün seçilmiş sənədlər və tədqiqatın mövzusu yalnız adlarına görə oxşar olur, sənədlərdəki informasiya tədqiqatın hipotezlərilə bağlı olmur;

4) təhlilin kateqoriyaları sənədin mətninin məzmunu və dili tutuşdurulmur;

5) kodlaşdırma məlumatların işlənməsi proqramına uyğun gəlmir;

6) təhlil olunacaq sənədlərin siyahısı (kataloqu) olmur və i.a.

Sənədlərin təhlili metodu böyük informasiya massivinin



olmasını, həmçinin onun ucuz başa gəlməsi və texnoloji vasitələrdən istifadə edilməsini tələb etməsi onun tətbiqini mümkün edir. Odur ki, belə təhlilə yüzlər və hətta minlərlə məktəb dərslikləri, özəl söhbətlər, reklamlar, redaksiya məqalələri, televiziya efir vaxtı və s. cəlb olunur.

Bu metodun köməyilə dini simvollar, kütləvi mahnılar öyrənilmiş, parnoqrafik kinoşəkillərin fərqi müəyyənləşdirilmiş, seçkiqabağı nümayiş etdirilən siyasi şüarların səmərəlilik dərəcəsi aşkar edilmiş, intihar edənlərin ölümündən öncə davranışlarını əks etdirən yazılar, müxtəlif sosial qrupların şüurundakı stereotiplər müəyyənləşdirilmiş, müəyyən millətlərə məxsus insanların nümayişlərinin istiqaməti, qəzet başlıqlarındakı ideoloji motivlər aydınlaşdırılmışdır. Sənədlərin təhlili metodunun tətbiq sahələri bunlarla bitmir. Son onillər ərzində bu metodu sosiohumanitar elmlərin nümayəndələri (jurnalistlər, hüquqşünaslar, tarixçilər, dilçilər, psixoloqlar, pedaqoqlar, iqtisadçılar, kulturoloqlar, kitabxanaşünaslar və s.) mənimsəmişlər və öz tədqiqatlarında fəal istifadə etməkdədirlər.

# II BÖLÜM
# ANTROPOSOSİOGENEZƏ ANTROPOLOJİ BAXIŞ: İNSANIN VƏ CƏMİYYƏTİN YARANMASI

## I Fəsil
## Antropogenez: insanın təbii əcdadı və onun bioloji təkamülü

### 1.1. İnsanın heyvanlar aləmi sistemində yeri

İnsan təbiətin ən mürəkkəb varlığıdır. O yalnız canlılar aləmilə deyil, həmçinin cansız təbiətlə min bir tellərlə bağlıdır. Onun bədəninin cansız təbiətə məxsus qeyri-üzvi (C, H, O, F, S və s.) və mürəkkəb üzvi maddələrdən (zülallardan, nuklein turşularından, lipidlərdən və karbohidratlardan) təşkil olunduğu, yəni cansız və canlı təbiətlə yaşadığı, təkzib olunmaz həqiqətdir.

XIX əsrin 30-cu illərində yaradılmış "Hüceyrə nəzəriyyəsi" (T.Şvan – 1810-1882) bütün digər canlılar kimi insan bədəninin də hüceyrələrdən qurulduğunu təsdiq etdi.

Amma insan heyvanlar aləmində daha çox onurğalılar tipinin məməlilər sinfinə yaxındır, bu sinfin son və daha ali nümayəndəsidir. Heyvanlar aləminin başlanğıcında duran ilk canlı varlıq, başqa sözlə, ibtidai xordalılar tipi bütün digər təsnifat qruplarına daxil olan heyvanların, həmçinin insanın yaranması yönündə təkamülün çıxış nöqtəsi olmuşdur. Bunu insanın yumurta hüceyrəsinin filogenetik təkamülün bu başlanğıc pilləsinə oxşarlığı təsdiq edir.

Müqayisəli anatomiya orqanlarının quruluşu və yerləşməsinə görə insanı məməlilər sinfinə daxil etməyə tam əsas verir. İnsana və digər məməlilərə məxsus daha mühüm əlamətlər süd, piy və tər vəzləri, bədənin tük örtüyü, ixtisaslaşmış dişlər, dördkameralı ürək və sol aorta, ağciyərlərlə tənəffüs, döş və qarın boşluğunu ayıran diafraqma, yüksək inkişaf etmiş baş beyin, ana bətnində rüşeymin (mayalanmış yumurtanın) inkişafı körpələrin südlə qidalandırılmasıdır. İnsanda və heyvanlarda böyümə və fərdi inkişafın gerçəkləşməsi oxşardır, bütün canlılar aləmi üçün genetik kodun saxlanması və reallaşması eyni prinsip üzrə baş verir. İnsan insanabənzərlər fəsiləsinə (antropoidlərə) daha yaxındır. Deməк olar ki, insanın, primatların və digər onurğalıların rüşeymlərinin inkişafının ilk mər-



hələlərində onları bir-birindən fərqləndirmək mümkün deyil. İnsan embrionunda xorda, qəlsəmə qövsləri, əmələ gəlir ki, bu əlamətlər qədim akulalara aiddir. İnsan embrionunun inkişafının "balıq mərhələsində" atavizm-balıqlara xas bəzi əlamətlərin (məsələn, udlağa keçən boyun fistulunun) yaranması baş verir, amma embrionun inkişafı gedişində yox olur. Lakin rudimentlər adlanan və insanın heyvanlar aləmi ilə filogenetik bağlılığını aydın göstərən əlamətlər saxlanır. Onlara insan embrionunun inkişafının 1, 5-3 aylığında özünü göstərən quyruq çıxıntısı, xarici tük örtüyü, kor bağırsaq insanın yalnız üzündə inkişaf edən dərialtı əzələlər və s. əlamətlər aiddir. İnsanda belə rudimentlər 90-dan çoxdur.

İnsanın ibtidai məməlilərlə qohumluğunu göstərən əlamətləri də vardır. Misal olaraq, insan rüşeyminin inkişafının altıncı həftəsində süd vəzisi boyunca bir neçə cüt vəzilərin yaranmasını göstərmək olar.

İnsan bədəninin çoxsaylı rudimentlərindən biri də appendiks (kor bağırsaq) adlanır. İnsanda digər rudimentlər kimi appendiksin də forma və ölçüləri dəyişilir. Belə ki, insanda onun orta uzunluğu 8-9 sm olur, bəzən 20-25 sm çatır, bəzən 1-2 sm qədər qısalır, nadir hallarda isə heç yaranmır. İnsanabənzər meymunlarda appendiks 20-25 sm olur.

Beləliklə, müqayisəli anatomiya, müqayisəli embriologiya və s. elmlər insanın digər məməlilərlə qohumluğunu təsdiq edən külli miqdarda faktlar üzə çıxarmışdır. Bununla belə, insanın digər məməlilərlə, xüsusilə də insanabənzər meymunlarla qohumluğunun etiraf edilməsində yenə də insanlar arasında ciddi tərəddüdlər var. Məsələn, türk insan adları siyahısında maral, ceyran kimi məməli heyvan, durna, turac və b. quş adları yer alır, amma insanın insanabənzər təbii əcdadından başlanğıc alması ideyası hətta bəzən ikrahla qarşılanır. Niyə?

**Atavizmlər** (latınca "atavus"-əcdad anlamı daşıyır) insanın yaxın təbii-bioloji əcdadlarında olmayan, ancaq uzaq əcdadlarına xas olan əlamətlərdir. İnsan bədənində sıx türk örtüyünün, qadın və kişilərdə əlavə məmələrin yaranması, quyruqlu insan doğulması halları uzaq əcdada xas olan əlamətlərdir. Bütün bu faktlar öz zamanında Ç. Darvinə insanın və məməlilərin bir qədim əcdaddan yarandığı nəticəsinə gəlməyə əsas vermişdi. Antropoidlər mimiki

əzələlərin inkişafı sayəsində emosiyalarını – kədər, təbəssüm, qəzəb yaxud qıcıqlandığını və s. – ifadə edə bilirlər. Antropoidlər insana xas olan yoluxucu xəstəliklərə (vərəmə, qarın yatalağına, uşaq iflicinə, dizenteriyaya və s.) tutula bilirlər. Şimpanzedə Daun (ağıl kəmliyi) xəstəliyinə rast gəlinir. Bu xəstəlik insanda və şimpanzedə eyni səbəbdən – 21-ci xromosom cütünün üçüncü xromosomunun heyvan və insan kariotipində iştirak etməsindən irəli gəlir. Qan qrupları üzrə oxşar əlamətlər aşkar edilmişdir. Biokimyəvi və molekulyar araşdırmalarda aşkar edilmişdir ki, albumin zülallarının oxşarlığına görə insana antropoidlərə (şimpanze, qorillo, oranqutanq) daha yaxındır. Rus biokimyaçısı A.N.Belozerski insanın və bəzi meymunların xromosomlarında genetik informasiyaların oxşarlıq dərəcəsini aşkar etmək üçün DNT molekullarının hibridləşdirilməsinin nəticələrini təhlil etmişdir. Bəlli olmuşdur ki, insanın və şimpanzenin DNT molekullarında nukleotidlərin ardıcıllığı 91% oxşardır.

Meymunlarda ağaclarda yaşamaq – ağac həyat tərzi ilə bağlı bir sıra əlamətlər yaranmışdır. Bunlara enli çiyinlər, hamar döş (sinə), əl darağı və s. əlamətlər daxildir. Bu əlamətlərin hamısını insan primatlardan irsən almışdır.

Müqayisəli patologiya və parazitologiya sahəsində də insan və heyvanların bir sıra oxşarlığı aşkar edilmişdir. Meymunlarda parazitlik edən təkhüceyrəli heyvanların 25 növündən 18 növü insanda da parazitlik edir. Halbuki bu parazitlər başqa məməli heyvanlarda aşkar edilməmişdir.

İnsanın heyvan əcdadı ilə qohumluğunu təsdiq edən faktlar onların psixikalarında da aşkar edilmişdir. Hələ Ç.Darvin (1809-1882) özünün "İnsanda və heyvanlarda emosiyaların ifadə olunması" (1872) əsərində inandırıcı dəlillərlə sübut etmişdir ki, elementar psixi fəaliyyətinə və emosiyalarını ifadə etmək üsuluna görə insan genetik baxımdan meymunla bağlıdır. Başqa bir fakt budur ki, insan irqlərində psixi fərqlər yoxdur ya da aşkar edilməmişdir.

İnsanın məməlilər sinfinin qalan növlərilə filogenetik qohumluğunu sübut edən bu oxşarlıqları ilə yanaşı insanı onlardan fərqləndirən bioloji əlamətlər də müəyyənləşdirilmişdir. Fərqləndirici əlamətlər bunlardır: bədənin şaquli durumda olması və iki ətraf üzərində hərəkət etmək, əllərin müxtəlif, incə və dəqiq işlər görməsi, antropoidlərin beynindən 2, 5 dəfə, onların beyin səthindən



3, 5 dəfə çox olan beyinə, aydın nitqə və rasional təfəkkürə malik olması insanın məməlilərlə və daha çox antropoidlərlə filogenetik qohumluğu insanın birbaşa müasir insanabənzər meymunlardan törəndiyi nəticəsini çıxarmağa əsas vermir. Ç.Darvinin özü də bu nəticəyə gəlmişdi ki, müasir insanabənzər meymunlardan heç biri insanın əcdadı sayıla bilməz. İnsanın bilavasitə təbii əcdadı onun özündən öncə mövcud olmuş sələfidir. İnsanın milyon illər özündən öncə mövcud olmuş sələfinin – təbii əcdadının qalıqlarını arxeoloqlar, paleoantropoloqlar və antropoloqlar Yer kürəsinin ayrı-ayrı coğrafi məkanlarında apardıqları qazıntılar zamanı aşkar ediblər. İnsanın bilavasitə təbii əcdadının tapılmış qalıqlarının paleoantropoloji təhlili Darvinin çıxardığı nəticəni təsdiq edir.

Lakin sual doğur: insanın arxeoloji qazıntılar zamanı qalıqları tapılmış bilavasitə əcdadı kim olmuşdur?

Müasir insanın təbii əcdadı olmuş ilk insanların axtarışı yönündə alimlər əsrlərlə gərgin əmək sərf etmiş, ideyaların mübarizəsi baş vermişdir.

Həqiqətin dərkinin başqa bir yolu da obrazlı idrakdır. Hələ çox qədimlərdə insanlar dünyanın və insanın özünü özünün obrazlı və bədii dərkində odu ram edənlərlə bağlılığını və onlara borclu olduğunu anlamışdılar. Qədim yunanlarda odun və təbiətin bir çox sirlərini açan Prometey tanrılara boyun əyməyən, onlarla savaşan bahadır kimi təsəvvür edilirdi. Prometey rolunda çıxış edənin pitekantrop, yaxud sinantrop olduğuna oxucunu inandırmaq çox güman ki, çətindir. Ancaq odun iki ətraf üzərində dik yeriyən insan tərəfindən ram edildiyini elm çoxdan müəyyənləşdirmişdir. İlk insanlara həsr edilmiş əsərin "İnsanaqədərki həyat" adlanan birinci kitabında oddan hələ avstralopiteklərin istifadə etdiyi göstərilir, lakin yalnız dik yeriyən insan zamanından bəri od insanın daimi müşayiətçisi, əməkdə və yaşamaq uğrunda mübarizədə onun müttəfiqi olmuşdur. Təbiətdən oğurlanması üsulundan (daş alətlərin hazırlanması zamanı yaranan qığılcımdan, yaxud sürtünmədən) asılı olmayaraq odun kəşfi enerjinin bütün digər növlərinin aşkar edilməsinə imkan yaratdı.

Artıq 80 ildən çoxdur ki, müasir insandan öncə yaşamış ən qədim və ilk insanlar haqqında alimlər çox diqqət və səbrlə faktlar toplayırlar. İnsanın təbii əcdadının – ilk insanın izlərinin axtarışında

Kanada antropoloqu Devidson Blekin və holland antropoloqu E.Dyubanın işləri ilk öncə yada salınmalıdır. Bu alimlərin Pekin yaxınlığında Yavada aşkar etdikləri qa-lıqlar və sonrakı araşdırmalar ilk insanın kim olduğunu müəyyənləşdirməyə imkan vermişdir. "İndi bəllidir ki, ilk həqiqi insanlar bir növə – Homeo erektus (dik yeriyən insan) növünə məxsus olmuşlar və onlar bir mln. il öncə Australopithekus (avstralopitek) adlanan daha uzaq meymunaoxşar cinsdən yaranmışlar (yəni müasir insanın ulu əcdadı ilk insanlar – Homo erektus, onun əcdadı isə avstralopiteklər olmuşlar – müəl.)" (165, 34). Hazırda alimlər hamılıqla qəbul olunmuş məsələn, dişlərin yaxud kəllə qutusunun müqayisəsi metodlarından istifadə edərək, daşlaşmış kəllənin ilk insana (Homo erektus) yoxsa onun hansısa meymunabənzər əcdadına məxsus olduğunu aydınlaşdırmış və bu kəllənin hansı dövrə aid olduğunu aydınlaşdırmaq üsullarını işləyib hazırlamışlar. Mütəxəssislər aydınlaşdırmışlar ki, Pekində, Heydelberqdə tapılmış daşlaşmış insan qalıqlarının anatomik fərqləri olsa da onlar eyni bir növə – Homo erektus (dik yeriyən ilk insana) məxsusdurlar.

İlk insanların bir mln. il öncə təbiətdə göründüyünü yaxud yarandığını və yayıldığını təsdiq edən daşlaşmış qalıqları Azərbaycan arxeoloqları ölkəmizdə də aşkar etmişlər. Füzuli rayon mərkəzindən 14 km aralıda yerləşən Azıx mağarası, onun yaxınlığında olan Tağlar mağarası və Qazax rayonu ərazisindəki Avey dağı abidələrindən alt Paleolit Şel və Aşel dövrlərinə aid ürək və badam şəkilli əlkəsərlər, itiuclular, qaşovlar və b. növ alətlər tapılmış, bu alətlərin yaşının bir mln. il olduğu aşkar edilmişdir (14, 40).

Rus və Qərb alimlərinin bizim tanış olduğumuz əsərlərində bu faktla qarşılaşmasaq da Azərbaycan ərazisində tapılan alətlərin bir mln. il öncə mövcud olmuş Homo erektus (dik yeriyən insan) növünün ilk insan qrupuna məxsus olduğunu deməyə əsas verir. Halbuki mütəxəssislər Homo sapies növünün ayrı-ayrı formalarının alt Paleolitin Muste dövründə meydana gəldiyini düşünürlər. V.P.Alekseyev yazır: "Homo sapiensin müxtəlif formalarının muste mədəniyyətinin son pilləsində yaranması şübhə doğurmur, lakin bütövlükdə müasir insan növünün formalaşması və yer üzərində yayılması üst paleolit dövründə baş vermişdir" (30, 13). Azərbaycanda üst Paleolitin 30-35 min il bundan öncə başlandığını nəzərə alsaq,



deyə bilərik ki, Azərbaycan və ona yaxın ərazilərdə Homo sapiens (düşüncəli insan) növünün meydana gəlməsi bir mln. il öncə bu ərazilərdə yaşamış ilk insanların – Homo erektus növünün mln. il davam edən təkamülündən sonra baş vermişdir.

Lakin bu deyilənlərdən Yer kürəsində Homo sapiens növünün yəni müasir insan tipinin Azərbaycan ərazisində yarandığı və planetimizin başqa coğrafi bölgələrinə Azərbaycandan yayıldığı nəticəsini çıxarmaq düzgün olmazdı. Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılan ibtidai məişət alətləri və digər materiallar bu əraziyə ilk insanların – Homo erektus növünün yayıldığı və təkamül etdiyi coğrafi məkanlardan biri kimi baxmağa əsas verir. Azərbaycan ərazisi Homo erektus növünün məskunlaşıb təkamül etdiyi yeganə ərazi deyildir. Bu ilk insanların – Homo erektusun – Yer kürəsinin bir çox coğrafi bölgələrində (təxminən 1, 3-1 mln.il öncə) məskunlaşdığını və təkamül etdiyini bu yöndə dünya alimlərinin apardığı tədqiqatların tarixi sübut edir.

Amerika antropoloqları Edmund Uayt və Deyl Braun "İlk insanlar" adlı əsərində ilk insan qalıqlarının axtarışı üzrə aparılan tədqiqatlara istinad edərək Homo erektus növünə aid antropoloji formaların yayıldığı digər coğrafi bölgələr haqqında ətraflı məlumat verir. Bu müəlliflər, həmçinin ilk insanların ilk "vətəni", Asiya və Avropaya haradan miqrasiya etdikləri barədə maraqlı məlumatlar verirlər. Onlar yazırlar ki, 400 min il öncə baharın sonunda günlərin birində 25 nəfərdən ibarət qabaüzlü kişilərdən, qadın və uşaqlardan ibarət bir qrup insan Aralıq dənizi sahilində göründülər. Daşlaşmış müxtəlif sümüklərin, daş alətlərin və qum üzərində qalmış izlərin, həmçinin bu qumun sıxlığının təhlili əsasında arxeoloqlar gəlmələrin bu məkanda cəmi üç gün qaldığını, nə ilə məşğul olduqlarını ətraflı təsvir edə bilmişlər. Onların qurduğu sığınacağı, nə yediklərini, hətta (komalarının yerdəki izinə görə) harada və nəyin üzərində yatdıqlarını müəyyən edə bilmişlər. Bəlli olmuşdur ki, onlar bütün gecəni yanan tonqal ətrafında yatırmışlar. Altlarına ovladıqları heyvan dərilərini salırmışlar, tonqaldan uzaq yatanlar isə başlarına dəri bükərmişlər. O da aydınlaşdırılmışdır ki, bu insanlar həmin məkana hər il gəlirlərmiş.

Dörd yüz il öncə bu məkanda görünmüş və izlərini buraxmış insan kim olmuşdur? Tapılmış daşlaşmış qalıqlar arasında onların

pəncələrinin izlərindən başqa heç bir insan sümüyü aşkar edilməmişdir. Ancaq xoşbəxtlikdən həmin dövrə aid başqa insan məskənləri də aşkar edilmişdir və bunlarda da oxşar alətlər və heyvan sümükləri, digər ikisində isə ocaqlar və tarixəqədərki insanların daşlaşmış sümükləri tapılmışdır. Bu arxeoloji tapıntılar bütövlükdə, o insanın morfologiyası, xarici görünüşü və haradan gəldiyi haqqında düzgün təsəvvür yaranmasına imkan verir. Yəni alimlər indi o insan barəsində onun özündən daha çox bilirlər.

Təsnifat sistemində də o insan Homo sapiens – dik yeriyən insan adlanır. "O insanabənzər meymunlar və insan arasında aralıq pillə sayılan avstralopitekin birbaşa varisi olmuşdur. Dik yeriyən insanın fiziki görünüşü öz əcdadından gözə çarpan dərəcədə fərqlənmişdir. Avstralopitekin beyni müasir insanabənzər meymunların beynindən daha iri olmuş, primitiv alətlər düzəldə bilmiş, ancaq həqiqi insandan fərqli olaraq alçaqboylu olmuş, tam dik duruşa malik ola bilməmiş və yarım dikduruşla böyük məsafə qət edə bilmirmiş" (165, 11).

Dik yeriyən insanın – Homo erektus – duruşu dik olmuş və iki ətraf üzərində hərəkət etmişdir. Boyu 165 sm olmuşdur. Onun dikduruşu və yerişi çanağının və pəncəsinin quruluşunun xüsusiyyətlərilə bağlıdır. Çanağın və pəncənin quruluşunun dəyişilməsi avstralopitekdən, yarımmeymun əcdadından başlanmışdır, dik yeriyən – ilk – insanda isə bu orqanların quruluşu müasir insana yaxınlaşmışdı. Dik yeriyən insanın çanağı avstralopitekin çanağına nisbətdə kasaya oxşardır, bunun sayəsində ombanı çanaqla birləşdirən oynaq bir qədər irəli çıxmışdır. Belə yerdəyişmə Homo erektus-a əcdadından (avstralopitekdən) fərqli olaraq ayaqlar üzərində düz dayanmağa və yeriməyə imkan vermişdir. Pəncələr üzərində dik durmaq pəncənin tutma funksiyasının tam itirilməsilə nəticələnmişdir. Bu dəyişikliklər sayəsində Homo erektus çətinlik çəkmədən uzağa gedə bilən ilk primat olmuşdur.

Tutma funksiyası bütün primatların ön ətraflarına xasdır. Dik yeriyən insanın əl darağı hələ bütöv halda tapılmamışdır, ancaq onun alətqayırma vərdişi əllərinin quruluşunun bizimki kimi, müasir primatlardan (şimpanze, qorillo, oranqutan) onu fərqləndirən, bənzərsiz tutma qabiliyyətinə malik olduğu nəticəsinə gəlməyə əsas verir. Dik yeriyən insan əlləri daha mürəkkəb və "dəqiq" tutma funksiyası üzrə ixtisaslaşmışdır. O hər hansı bir əşyadan tutarkən baş



barmağı qalan dörd barmağa əks istiqamətdə bükülür.

Bədənin quruluşuna görə dik yeriyən insan öz əcdadlarından fərqlənsə də hələ bizə də tam oxşar olmamışdı. Onun sümükləri müasir insan sümüklərindən ağır və qalın olmuşdur. Amma onların skeletlərində boynundan aşağı bu fərqləri "yalnız təcrübəli anatom görə bilər". Ancaq dik yeriyən insan boynundan yuxarı müasir insana gözə çarpan dərəcədə az oxşamışdır. Onun alçaq maili alnı, qabarıq iri qaşları, aşağı çənəsi enli olmuşdur.

Amma Homo erektus-u ilk insan edən təkamül dəyişkənlikləri arasında boyun, duruşun, tutma qabiliyyətinin və insanı hərəkətlərindən çox onun beyninin və davranışının heyrətamiz dəyişilməsi rol oynamışdır. Başqa primatlardan fərqli olaraq dik yeriyən insan beyninin ölçüsü yaxud həcmi böyük, davranışları mürəkkəb olmuşdur. Onun beyninin böyüməsi davranışlarının mürəkkəbləşməsinə gətirib çıxarmışdı. Müasir insanabənzər meymunların beyninin həcmi 500 $sm^3$ çox deyil. Amma varlığı mübahisəli olan bacarıqlı insanı – Homo habilsdə nəzərə alsaq, avstralopiteklərin kəllə qutusunun həcmi 400-660 $sm^3$ olmuşdur. Dik yeriyən insanın kəllə qutusunun həcmi isə 750-1400 $sm^3$ olmuşdur. Bu ölçüyə malik kəllə qutusu isə həcmi 1000-2000 $sm^3$ olan müasir insan beynilə müqayisə oluna bilər.

Homo erektus-un beyni kəllə qutusunun böyük olması ilə yanaşı mürəkkəb daxili quruluşu ilə də öz əcdadlarından fərqlənmişdir. Təəssüf ki, onun bir dənə də olsun daşlaşmış beyni qalmamışdır və onun daxili quruluşu haqqında elmə heç nə bəlli deyil. Amma bu barədə elmdə dolayısı ilə yetərincə məlumat toplanmışdır. Belə ki, müasir insanabənzər meymunların və müasir insanın beyinlərinin müqayisəsi göstərir ki, müasir insan beyninin hüceyrələri iri və mürəkkəbdir, nitq, eşitmə və görmə funksiyalarının mərkəzləri gözə çarpan dərəcədə böyümüş, hüceyrələri arasında əlaqələr isə çoxalmışdır. Mütəxəssislər hesab edirlər ki, insan beyninin fəaliyyəti onun böyüklüyü ilə yanaşı daxili quruluşundan da asılıdır. Doğrudan da kiçik beyinlə doğulmuş insanların (mikroçefalların) davranışları tamam insani əlamətlərə malikdir, halbuki belə insanlarda beyin hüceyrələrinin sayı qorillanın beyin hüceyrələrinin sayından azdır.

Beynin quruluşunun dəyişilməsi artıq avstralopiteklərdə

görünməyə başlamışdı. Onlar da alətlər hazırlaya bilmiş, davranışlarında xalis insani əlamətlər sərgiləmişlər. Lakin onu insana çevirmiş əqli inkişafı və dik yeriyən insanın yaranması ilə təkamül prosesində böyük dəyişiklik baş vermişdir. Bu dəyişiklik onun daha inkişaf etmiş beynilə bağlı olmuşdur. Bir çox yöndən o, əcdadlarının getməyə başladığı yolla daha da irəliyə getmiş, amma bədən quruluşunda baş verən bir çox dəyişikliklərə özü nail olmuşdur. Dik yeriyən insan öz əcdadı avstralopitekdən yaxud bacarıqlı insandan (Homo habilis) daha yaxşı alətlər düzəldirmiş, birgə ovu daha yaxşı təşkil edirmiş.

## 1.2. Paleoantropologiyanın və paleogenetikanın uğurları

"Paleoantropologiya" terminınə daha çox Qərb elmi ədəbiyyatında rast gəlinir və rus antropoloqlarının işlətdiyi "antropogenez" terminilə anlamca tam-üst-üstə düşür (30, 3). Q.F.Debeç paleoantropoloji yanaşmanın bütövlükdə qazıntılar zamanı tapılan qədim insan qalıqlarının araşdırılmasına tətbiqini qanuniləşdirmişdir.

Antropogenez prosesinin öyrənilməsi tarixində əldə olunmuş paleoantropoloji qalıqların analizi alimlərə hominidlərin təkamülünü izləməyə və onları cinslər üzrə təsnifləşdirməyə imkan vermişdir. Paleoantropoloji metodların köməyilə mütəxəssislər hominidlər (hominidae) ailəsinə daxil olan cinslərin təsnifatını hazırlamışlar. Müəyyənləşdirilmişdir ki, hominidlər ailəsinin yaranması üçün təxminən 14-16 mln. il təkamül yolu keçilmişdir, nəticədə bu ailənin dörd cinsi bir-birindən fərqlənmişdir. Bu cinslər aşağıdakılardır:

1) *ramopiteklər (Ramopithekus)*;
2) *avstralopiteklər* (australopithecus);
3) *parantroplar* (Paranthropus); 4) insan (Homo).

*Ramopiteklər* müasir insandan xeyli kiçik, boyu 110 sm olmuşdur, lakin insanabənzər meymunlardan fəqli olaraq iki ayaq üzərində – şaquli durumda hərəkət edirmişlər. Hindistanda, Çində və Kenuyada tapılmış qalıqları onları insanın təkamül xəttinə daxil etməyə imkan vermişdir. Yəni ramopitek insanın bütün bəlli əcdadlarından ən qədimi sayılır; o meşə-çöl zolağında təxminən 12-14 mln. il yaşamışdır.

Təkamül silsiləsində üçüncü pilləni australopithecuslar tutur. Hominidlər ailəsinə daxil olan bi cinsin altı növü ayrılır. Bunların



hamısının qalıqları yalnız Afrikada aşkar edilmişdir. "Avstralopitek" termini avstraliyalı anlamında deyil, "cənub meymunu" anlamında başa düşülür. Avstralopitek latınca australis – cənub və yunanca pithekos-meymun sözlərindən törənmişdir.

Paranthropus cinsi avstralopiteklərlə təxminən eyni vaxtda yaşamışlar, ancaq onların boyları uzun, bədənləri böyük olmuşdur. Onlar Australopithecus habilis-in müasirləri olmuşlar. Parantroplar meşə sakinləri idilər və yalnız bitkilərlə qidalanırmışlar, bu səbəbdən iri kəsici dişlərə malik olmuşlar. Amma əmək alətləri düzəltməyi bacarmamışlar.

Austrapithecusa aşağıdakı növlər dxaildir; Austrapithecus anamensis; Australopithecus afarensis; Australopithecus africanus; Paranthopus robustus; Australopithecus boisei; Pranthopus aethiopicus.

Australopithecus terminini ingilis anatomu R.Dart 1928-ci ildə Cənubi Afrika Respublikası (CAR) ərazisində ilk dəfə bir mln. il öncə yaşamış altı yaşlı uşağın kəlləsinin daşlaşmış qalığını aşkar etdikdən sonra daxil etmişdir. 1959-cu ildə isə L. və M.Likilər insanabənzər primatın- australopithekin bütöv kəllə qutusunu tapdılar. Onun dəqiq yaşının 1, 9 və 1, 7 mln. il olduğu müəyyənləşdirildi. Bu kəllənin içərisinə müasir insan beyninin yalnız üçdən bir hissəsi yerləşə bilər. Bu kəllənin formasına görə, alimlər, onun iki ayaq üzərində yeridiyini müəyyən etdilər. Olduvada isə alimlər 50-dən çox insanabənzər meymun kəlləsi tapmışdılar. Bu tapıntıları iki qrupa ayırdılar: iri – Australopithecus robustus; kiçik Australopithecus africanus. Olduva dərəsində (Tanzaniyada) qazıntıları davam etdirərək, L.Liki bacarıqlı insan adlanan insan cinsinin məxsus qədim nümayəndəsinin qalıqlarını aşkar etdi. Onun yaşının 1, 5-2, 5 mln. olduğu müəyyənləşdirildi. Hazırda D.Coxansonun Həbəşistanda tapdığı ilk australopiteklərdən birinin qalıqları yaxşı öyrənilmiş və müəyyən edilmişdir ki, onun boyu 1, 1-1, 2 sm imiş və iki ayaq üzərində yeriyirmiş, dişləri insan dişləri kimi olmuş və 3, 5-4 mln. il öncə yaşamışdır. Onun və başqa oxşar tapıntıların əsasında afar adlanan avstralopitek paleoantropoloji təsvir edilmişdir. Axtarışlar davam edirdi. 1994-cü ilin sentyabrında Amerika alimi T.Uaytın başçılıq etdiyi qrup Həbəşistanda Avaş çayı hövzəsində 4, 4 mln. il öncə yaşamış insanabənzər varlığın qalığını tapdılar. Bu yeni növ ardipitek – "ilk mey-

mun" adlandırıldı. Düşünülür ki, bu varlıq meşə sakini olmuş və iki ayaq üzərində yerimişdir. Bundan bir neçə ay sonra, paleoantropoloq M.Liki Kenuyanın şimalında Rudolf gölü yaxınlığında yaşı 3, 9-4, 2 mln. il olan çoxsaylı hominid qalıqları aşkar etdi. 1998-ci ildə Sterkfonteyndə Yohannesburq yaxınlığında Afrika avstralopitekinin bütöv skeleti aşkar edildi. Axtarışlar nəticəsində 1999-cu ildə Həbəşistanda avstralopitekin Australopithecus qarhi adlandırılan növü tapıldı. Australopiteklərin geneoloji səcərəsini paleoantropoloqlar aşağıdakı formada təsvir edirlər.

Afrikanın müxtəlif bölgələrindən tapılmış primatların bu və başqa qalıqları alimlərə insan övladının kçmişinə daha dərindən baxmağa imkan verdi və onları Afrikanı bəşəriyyətin beşiyi kimi qəbul etməyə məcbur etdi. Bunu alimlər onunla təsdiq edirlər ki, bəşəriyyətin bioloji ailəyə aid olduğunu təsdiq edən faktlar indiyədək Afrikadan kənar heç bir bölgədə tapılmamışdır. Yer kürəsinin başqa bölgələrinə bizim bioloji əcdadlarımız sonradan yayılmışlar.




*Şəkil1. Son elmi məlumatlar əsasında ilk hominidlərin təkamülünün paleoantropoloji modeli*

Bu primatlar Afrikada tropik meşələrin şimala doğru çəkildiyi onların yerini bozqırların və seyrək ağacları və kolları olan düzənliklər (savanna) tutduğu epoxada yaşamışlar. Avstralopiteklər



meşələri tərk edib vəhşilərin dolaşdığı açıq məkana çıxmışdılar. Onlar topladıqları bitki qalıqları ilə, ovladıqları kiçik quşlarla qidalanırdılar. Yeriyərkən bədənlərini dik tutar, iki ayaq üstə bərk qaça bilirlərmiş. Halbuki, ağacda yaşayan meymun növlərindən heç biri yer səthində iki ayaq üstə dik yeriməyi və qaçmağı bacarmırlar.

Avstralopitekin onurğa sütunu insandakı kimi s-formasında olmuşdur. Amma onun fəqərələri insanınkına nisbətən kiçik olmuş və bir çox patologiyalara yoluxmuşdu. Bu fakt düşünməyə əsas verir ki, onurğasının aşağı hissəsi dik yerimək üçün inkişaf etdiyi halda yuxarı hissəsi bədənin bütün çəkisini daşıyan səmərəli və hərəkətli dayağı ilə inkişaf etməmişdi.

Döş qəfəsi hüceyrələrinin ətraflarının və çanağının quruluşu göstərir ki, avstralopiteklər dik yeriyirmişlər. Amma onlar əllərin yerimək funksiyasını niyə itirmişlər? Buna səbəb onların ağaclardan, daşlardan, antilop sümüklərindən əmək alətləri kimi istifadə etməsi olmuşdur. Onların özlərinin alət hazırlaya bildikləri isə elmi baxımdan sübut olunmamışdır. Alimlərdən bir qismi onların alət qayırmadığını, təbiət cisimlərindən alət kimi istifadə etməyə yararlı olanlarını seçdiklərini, başqa qismi isə avstralopiteklərin qalıqları ilə birlikdə primitiv sümük və daş alətlərinin də tapılması faktına əsaslanaraq israr edirlər ki, bu fakt onların öz əllərindən müxtəlif alətlər qayırmaq üçün istifadə etdiklərini göstərir. Onu da düşünmək olar ki, avstralopiteklərin bəzi populyasiyaları (onların sayının 3-9 olduğu qeyd edilir) hazır cisimlərdən istifadə edirmişlər, digər populyasiyaları isə sadə əmək alətləri qayırırmışlar.

Avstralopiteklər təxminən 4, 2 mln. il öncə pleystoçen epoxasında Güney Afrikaya yayılmış, 3 mln. il öncə isə Güney və Quzey Afrikada məskunlaşmışdılar. Bu dövrdə meşələri savannalar əvəz etmiş, iqlimin dəyişilməsi isə dik yeriməyə səbəb olmuşdu. Dik yeriyən avstralopiteklərin iki təkamül xəttini ayırırlar: qarışıq (bitkilərlə, molyuskalarla və ətlə) qidalananlar; vegetarianlar (ancaq meyvə, göyərti və südlə qidalananlar). Sonuncular bir mln. il öncə məhv olmuş, birincilərdən törəyən nəslin təkamülü isə müasir insanın yaranmasına gətirib çıxarmışdır.

Hominidlərin qalıqlarını öyrənən paleoantropoloqlar onların təxminən 1, 8 mln. il öncə Quzey Afrikada yaşadığını və vegetarianlar olduğunu (ov etməyə uyğunlaşmadığını, iri sıx dişlərinin və güclü

çənələrinin qaba bitkilərlə qidalanmağa imkan verdiklərini) təsdiq edirlər. Lakin karbonun radioaktiv izotoplarının köməyilə analizi belə bitki tərkibli qidanın heyvani mənşəli zülallarla zəngin olduğunu göstərir. Bu zülallarla onları termitlər (ağ qarışqalar) təmin edirmiş. Termitlər insan üçün heyvani zülallarla zəngindir, avstralopiteklər onları vəhşi heyvan ətindən daha asan əldə edirdilər.

Ehtimal edilir ki, artıq avstralopiteklər mərhələsində tük örtüyünün itirilməsi başlanmışdı. Rus antropoloqu Y.Y.Roqinski demişkən, bizim əcdadlarımız meşənin kölgəsindən çıxanda "isti dəri kürkdə" imişlər və yeni (savanna) iqlimdə ondan tezliklə azad olmaq lazım idi. Bəllidir ki, gərgin iş şəraitində bədəndə hərarəti tənzimləmək intensiv tər ifrazı tələb edir. Bu çox səmərəli uyğunlaşma idi, ancaq tərləmək orqanizmi natrium ionlarından məhrum edirdi. Onun çatmaması yırtıcılığa stimul yaradırdı yaxud vegetarianlığa keçmiş populyasiyaları xörək duzu qaynaqları axtarmağa məcbur edirdi.

Qalıqları Quzey Afrika paleoantropoloqu R.Dart tərəfindən Taunq şəhərində tapılmış Australopithecus africanus şimpanze yaxud cavan qorilla hündürlüyündə və dik duruşlu olmuşdur. Dişlərinin quruluğu onun hər şeylə qidalanan olduğunu, amma ətə üstünlük verdiyini deməyə əsas verir. O, düzənliklərdə məskunlaşıb quşları ovlayırmış. Onun bütün hominidlərdən insana daha yaxın olduğu ehtimal edilir. Bütün ehtimalla avstralopitek artıq sümükdən, daşdan yaxud ağacdan hazırladıqları ov alətlərindən istifadə etmişdir. Quzey və Güney Afrikada yaşamış bu varlığın boyu 1, 20-1, 25 sm çəkisi isə təxminən müasir səkkiz yaşlı uşağın çəkisi qədər 35-40 kq olmuşdur. Həmin bu məkanda yaşayan Australopithecus robustus-un boyu isə 1, 50-1, 55 sm, çəkisi 60-70 kq olmuşdur. Bu məkanda yaşayan bütün populyasiyalar dikduruşlu olmuşlar (85). Onların hamısının beyni insanabənzər meymunların beynindən o qədər də böyük olmamışdır.

Avstralopitek cinsinin robustos növü bir neçə fərddən ibarət kiçik qruplar halında yaşamışlar. Boyları 1, 5 m, qolları insanabənzər meymunların qolları kimi uzun güclü hominidlər olmuşlar. İri dişləri və güclü çənələri olan bu varlıqlar qaba bitkilərlə, giləmeyvələrlə, yarpaq və meyvələrlə qidalanmışlar. Onlar bir ərazidən başqa əraziyə keçərək qida toplayır, termitlərin yuvalarından ağ sürvələri yığıb yeyirmişlər.



Avstralopiteklərin afrikanus növünün nümayəndələrinin dişləri robustusun dişlərinə nisbətən kiçik olmuşdur, çünki onlar ətlə qidalanırmışlar. Bu növün nümayəndələri kiçik heyvanları ovlayıb, savannada yaşayan digər heyvanlardan özlərini qoruyurdular.

Avstralopiteklər pitekantropları – ən qədim insanları, neandertallar (qədim insanlar) isə avstralopitekləri əvəz etdilər.

Dünyada yaşı 5-dən 10 mln.-a qədər olanların arxeoloji qalıqları çox azdır. Bunun səbəbi o idi ki, həmin dövrdə insanın əcdadı sayca çox az olmuş və onların qalıqlarının cüzi bir hissəsi bu zamana qədər qalmışdır. Onlardan biri 2002-ci ildə tapılmışdır. Bir qrup alim Çad səhralarında kəllə qutusu aşkar etdilər. Onlar bu tapıntını avstralopiteklərin paleontoloji axtarışında ən mühüm tapıntı və elmi hadisə sayırlar. Bu yeni tapıntının yaşının 7 mln. il olduğu bildirilir. Ənənəyə görə, aşkar edilmiş tapıntıya Tumi (Toumai) adı verilmişdir (50).

Bəzi müəlliflər hesab edirlər ki, qalığı tapılmış bu canlı varlıq təkamül zəncirində insan və heyvan arasında "çatışmayan həlqədir". Bu tapıntı hələ tam öyrənilməmişdir, amma artıq aydındır ki, bu kəllə müasir və qədim əlamətləri özündə birləşdirir. Tapılmış bu yeni növün insanın əcdadı yaxud təkamüldə "oxu daşa dəymiş", küncə sıxılmış bir qol olduğu hələ bəlli deyil. Amerikanın "Nature" jurnalının redaktoru Q.Ci yazır ki, bu daşlaşmış kəllə insanın yaranması prosesinin izahındakı dolaşıqlığa aydınlıq gətirdi. Bu kəllə göstərir ki, qədim hominidlərdən müasir insanaqədərki təkamüldə birbaşa ardıcıllıq olmamışdır (178).

Tumi tapıntısına əsaslanaraq, mütəxəssislər avstralo-pitekləri pitekantroplarla neandertalları bağlayan aralıq pillə kimi izah edirlər.




*Şəkil 2. Təkamülün aralıq pilləsi*

Hominidlərin təkamülünə dair bütöv təsəvvürə malik olmaq və müasir insanın bilavasitə təbii əcdadının kim olduğu haqqında aydınlıq əldə etmək üçün hominidlərin təsnifatında sonuncu Homo cinsinin təkamülünü və bu prosesdə yaranmış növlər barəsində elmi məlumatları araşdırmaq lazımdır.

### 1.3. Homo-insan cinsinin təkamülünün tarixi pillələri Homo habilis-bacarıqlı insan

*Homo habilis* çağdaş (müasir) antropoloji təsnifata görə, Homo cinsinin ən birinci növüdür. Antropoloqlar onun 1, 6-2, 2 mln. il öncə yaşadığını müəyyən etmişlər. Onun qalıqlarını Tanzaniyanın Olduvay dərəsi arxeoloji qazıntılarında (1960-cı il) aşkar etmək şərəfi, kitabın bundan öncəki hissəsində də qeyd edildiyi kimi, ingilis alimləri L. və M.Likilərə nəsib olub. Olduvay tapıntısının qalıqlarının 2 mln. il olduğu göstərilir. Avstralopiteklərdən fərqli olaraq indiki Kenuyada və Quzey Tanzaniya ərazisində yaşamış bacarıqlı insan (Homo habilis) primitiv alətlərdən çox geniş istifadə etmişdir (onun adı da buradan götürülmüşdür). Homo habilis-in kəllə qutusu heyrətləndirici dərəcədə müasir insanın kəlləsinə oxşayır. Onun beyninin həcmi 550-800 $sm^3$ olmuşdur, bu da müasir insanın (Homo sapiens) beynindən xeyli kiçikdir. Homo sapiens-in beyninin həcmi təxminən 1400 $sm^3$. Bu avstralopiteklərin beyninin həcmindən 30% artıqdır. Boyu 1, 2-1, 25 metr olan bacarıqlı insan növünün yaxşı inkişaf etmiş beyni olmuşdur. Avstralopiteklərin (əcdadının) beynilə müqayisədə Homo habilis beyni dikəlmiş, alnı önə çıxmış kəllənin alın ənsə hissəsi az relyefli olmuşdur. Əqli cəhətdən tərəqqisi meymunun insanlaşmasının ümumdünya-tarixi prosesinin təsdiqi idi.

Homo habilis-də artıq iri gözüstü yastıqlar yox idi. Ayaqları avstralopiteklərin ayaqları ilə müqayisədə insan ayaqlarına oxşayırmış, əllərinin tutma funksiyasının ixtisaslaşma səviyyəsi ona ilk daş alətlər hazırlamağa imkan verirmiş. Bu isə bacarıqlı insanın heyvanlar aləmindən qəti ayrıldığını göstərir. Habilislərin alət hazırlaya bildikləri şübhə doğurmasa da bütün morfoloji quruluşlarına görə heyvan olmuş avstarlopitekdən az fərqlənmişlər. Halbuki heyvandan fərqləndirən özünəməxsus morfofizioloji özəllikləri olmamışdır. Bu səbəbdən bəzi tədqiqatçılar bu fikirdədilər ki, habilislərdə təfəkkür, dil və iradə, həmçinin sosial münasibətlər hələ



formalaşmağa başlamamışdı, deməli onları, hətta formalaşmaqda olmuş insanlar da saymaq olmaz. Bu yanaşma mövqeyində duranlar antropogenezi habilsilərdən pitekantroplara 1-1, 5 mln. il öncə baş vermiş keçidlə bağlayırlar.

Belə yanaşmaya əks olan baxışa görə isə habilislər formalaşmaqda olan insanlar olub iki ayaq üstə yerimiş, primitiv daş alətlər düzəldə bilirmişlər. Bunlar Habilis-in ən mühüm əlamətləri olmuşdur. Alimlər Homo habilis-in alətqayırma bacarığını onun oddan istifadə etməsindən, heyvanları əhliləşdirməsindən, bitkiləri becərməsindən və araba təkərləri ixtira etməsindən daha önəmli və birinci qələbəsi sayırlar. İndi bizim böyük ixtisarlar adlandırdığımız affektlər zəncirinin ilk başlanğıcı daş alətdir.

Daşı daş üzərinə bir neçə dəfə vurmaqla Homo habilis kəsici uclu daş alət hazırlayırmış. Bu aləti alimlər oldova mədəniyyəti adlandırmışlar. Belə primitiv alətlər çapacaqlar (çopperlər) sayılır. Onları təbii daşlardan ayırmaq çətindir, çünki cürbəcür, yöndəmsiz və qeyri-standartdırlar. Onlar, görünür ki, bitki köklərini yerdən çıxarmaq, əti parçalamaq və s. üçün yarayırmış. Daş alətlər ağır olduğu üçün onları bir yerdən başqa yerə daşımaq çətindir, odur ki, habilislər onları lazım olan yerdə düzəldirmişlər. Ovçular çapacaqlarla əldə olunan qəniməti (əti) parçalayıb duracaqlarına gətirirmişlər. Heyvan onların duracaqlarına yaxın məsafədə ovlandıqda qadınlar və uşaqlar ovun yanına gəlib qəniməti yerindəcə bölüşdürürlərmiş. Paleontoloqlar uzununa parçalanmış heyvanın daşlaşmış sümüklərilə qarşılaşırlar. Bunlar göstərir ki, ibtidai insanlar bu sümükləri toplayırlarmış ki, onların iliyindən ləzzət alsınlar. Ov duracaq yerindən uzaqda edildikdə kişilər onu öz məkanlarına gətirib icmanın bütün üzvləri arasında bölürmüşlər. Habilislərin qadınları və uşaqları duracaq məkandan uzağa getmirdilər. Onlar quşların yumurtalarını, giləmeyvələri toplayır, kiçik heyvanlar da tuturmuşlar.

Homo habilis-in primitiv də olsa alətqayırma bacarığı onları bacarıqlı insan adlandırmağa əsas vermişdir. Amma alimlər arasında bu ada dair vahid rəy yoxdur. Bəzi müəlliflərə görə, Homo habilis quruluşca və həyat tərzinə görə avstralopiteklərdən fərqlənmirlər.

Beləliklə, Homo habilis-ə münasibətdə iki baxış var: birinci baxışa görə, o hominidlərin avstralopitek cinsinə aiddir, ikinci baxışa görə isə Homo habilis Homo cinsinin ilk növüdür. Sözsüz ki, o, öz

əcdadının müəyyən əlamətlərini hələ özündə saxlamışdı. Şimpanze üzərində aparılmış təcrübələr göstərmişdir ki, hər hansı bir cismin formasını məqsədyönlü dəyişdirmək (bu isə alətlər vasitəsilə fəaliyyətin əsasında durur) bacarığı primatların heç bir növünə nəsib olmamışdır. Onlar, ancaq təbiət cisimlərindən – daşdan, ağacdan istifadə edirlər, hətta dişləri və caynaqları ilə onlara düzəliş edə bilirlər, ancaq (məsələn, şimpanze) bir daşdan istifadə edib başqa daşı sivri, kəsici uclu daş formasına sala bilmirlər. Bu bacarığa ilk dəfə yalnız Homo habilis malik olmuşdur. Nəticə çıxır ki, əmək alətlərinin hazırlanması insan (Homo) cinsi tarixində ilk qlobal inqilabdır.

Homo habilis-ə məxsus alətlər Afrikanın, Yaxın Şərqin bir çox yerlərində, həmçinin Azərbaycan ərazisində tapılmışdır. Amma qaynaqlarda göstərilir ki, Homo habilis-in sümükləri hələ yalnız Afrikada aşkar edilmişdir. Həmçinin 2, 5 mln. ilə qədərki ən qədim alətlər də burada tapılmışdır. Olduvayda bacarıqlı insanın, hətta tikanlı kollardan sığınacaq yeri yaxud dairəvi çəpər çəkdiyi də ehtimal edilir. Onlardan, yalnız "özüllər" – iri daşlarla düzəldilmiş çevrələr qalır.

Belə sığınacaqlarda balıq, tısbağa, ilbiz, siçan, quş, həmçinin antilop və fil qalıqları aşkar edilib. Bacarıqlı insanın, ancaq heyvan leşlərilə qidalandığı yaxud iri quşları ovlamağa keçdiyi məsələsi hələ ki, faktlarla təsdiq olunmayıb. Amma əgər odun əldə edilməsi o dövrə aiddirsə, onda bacarıqlı insanın ov vərdişi də istisna olunmur. R.Dart avstralopiteklərdən birinin adını Prometey – insanlara odu gətirən nəhəng adlandırmışdır, çünki onun qalıqlarının aşkar edildiyi yer qatında odun izləri tapılmışdır.

İlk insanın daş alətlərinə keçməsilə bəşər tarixinin yeni – paleolit (qədim daş) dövrü başlanmışdır. Bu dövr üç mərhələyə – alt paleolit, orta paleolit (Mustye), üst paleolit – bölünür.

Amma ilk insanın kim – Homo habilis yoxsa Homo erektus – olduğuna dair birmənalı baxış yoxdur. Bəzi tədqiqatçılar Homo habilisi ilk insan sayırlar, başqa antropoloqlar (məsələn, E.Uayt, Deyl, M.Braun, Y.Q.Rıckov, A.Alann və b.) isə ilk insanın Homo erektus olduğunu əsaslandırırlar.

*Homo erektus*

İlk həqiqi insanın – Homo erektus-un – Afrikanın tropik meşələrində avstralopiteklərin və onların əcdadının (pitekan-tropların)



təkamülü nəticəsində 1, 3 mln. il (bəzi qaynaqlara görə isə 1, 5-2 mln. il) öncə yarandığı bildirilir. Onun genezisi hələ qəti olaraq aydınlaşdırılmayıb. Bəzi antropoloqlar onu avstralopiteklərin birbaşa varisi adlandırırlar. Amma bu mübahisəlidir: belə ki, avstralopiteklərlə eyni təbii-tarixi dövrdə daha inkişaf etmiş Homo habilis də yaşamışdır. Doğrudur, avstralopiteklərin qədim və maraqlı dünyasının aşkar edilməsi insanların tarixəqədərki bioloji və sosial tarixini milyon illər dərinləşdirmişdir. Ancaq bu pitekantropları Homo erektusun birbaşa əcdadı saymağa əsas vermir. Dik yeriyən insanın (Homo erektus) bacarıqlı insandan biososial təkamülün gedişində yarandığının ehtimal edilməsi daha inandırıcıdır. "İnsanın keçmişinə dair elm (Antropologiya – A.T) qədər heç bir elm təxəyyüllərin uçuşunu dəqiq praktiki metodlarla birləşdirdiyi qədər birləşdirmir. Bir tərəfdən, qədim insanın nadir daşlaşmış qalıqlarının axtarışı romantikası, digər tərəfdən, keçmişin bu salnaməsini yerdə axtarmaq, onu əldə etmək, sonra da onu təhlil etmək və məntiqi şərhini vermək üçün zəruri bilik və bacarıq" (Allan Mann) Homo erektus-un əsl sələfinin yaxud əcdadının müəyyənləşdirilməsi məsələsində yaranmış mübahisəni həll etməyə imkan verəcək. Məsələ bundadır ki, dik yeriyən insan bir sıra əlamətlərinə görə müasir insana daha yaxındır, ancaq o insanabənzər meymunlara xas olan anatomik özəllikləri özündə saxlamışdır, halbuki bu özəlliklər (məsələn, inkişaf etmiş gözçuxuru yastıqların olması) Homo habilis-də yoxdur.

Daha çox bəlli tapıntılar Yava adasında, Çində, Almaniyada, Macarıstanda, Afrikanın güneyində, quzeyində və b. məskənlərdə aşkar edilmişdir. Avstralopitekdən və bacarıqlı insandan çox öncə pitekantrop aşkar edilmişdir.

Keçmişimizi araşdırmaq bu günümüzə yeni gözlə baxmağa imkan verir. Əcdadlarımızın keçdiyi uzun təkamül yolunu öyrənməklə, biz bioloji insanla mədəniyyəti yaradan insan arasında mürəkkəb bağlılığı anlamağa başlayırıq. Avstralopiteklərdən sonrakı təkamül pilləsinə (Homo habilis) ondan isə Homo erektusa keçidin qanunauyğunluqlarının ardıcıllıqla öyrənilməsi bu günümüzü anlamağın tək yoludur.

Homo erektus növü 1, 3-2 milyon il öncə Quzey Afrikada yaranmış sonra da Asiyaya, Avropaya və digər coğrafi bölgələrə

yayılmışdır, təxminən 400 000 il öncə isə yox olmuşdur. Antropoloqlar onu insan (Homo) cinsinin ilk nümayəndəsi adlandırırlar. Dik yeriyən bu insan öz əcdadlarından bir sıra yeni keyfiyyətlərilə fərqlənmişdir: o danışa bilən ilk insan olmuşdur, geyim hazırlamağı, sığınacaq qurmağı, soyuq iqlimli məkanlarda məskunlaşmağı, iri quşları ovlamağı və oddan istifadə etməyi bacarmışdır, bu yeni keyfiyyətlərlə yanaşı qohumluq duyğusuna da malik olmuşdur. Bu sonuncu keyfiyyətin inkişafı cəmiyyətin əsasını təşkil edən ailənin yaranması ilə nəticələnmişdir. Bütün bu keyfiyyətlər isə Dik yeriyən insanın beyninin yüksək inkişafı ilə bağlı olmuşdur.

Avstralopiteklərin və müasir insanabənzər meymunların (məsələn, qorillonun) kəllə qutusunun həcmi 500 $sm^3$ artıq olmadığı halda Homo erektus-un kəllə qutusunun həcmi 750-1400 $sm^3$ arasında dəyişilir. Deməli, məzmunca deyil, formaca Homo erektusun kəllə qutusu avstralopitekin və bacarıqlı insanın kəllə qutusundan müasir insanın kəllə qutusuna daha yaxındır (müasir insanın beyin həcmi 1000-2000 $sm^3$ arasında dəyişilir). İbtidai insanların bu növünün (Homo erektus) nümayəndələri yaşadıqları təbii şəraitdən asılı olaraq bir-birindən bir qədər fərqlənirdilər. 2 mln. il öncə Yava adasında yaşamış Homo erectus modjokertensis-in nümayəndələri iri bədənli, boyları 1, 6-1, 7 metr olmuşdur. Onlar kiçik ünsürlər halında ayaq dəyməmiş meşələri dolaşaraq yeməli meyvələr və köklər yığır, həmçinin primitiv alətlərlə vəhşi heyvanlar ovlayırdılar. Belə kobud və yöndəmsiz daş alətləri abbevil alətlər adlandırılır.

Holland alimi E.Düba 1891-ci ildə Yava adasının mərkəzinə yaxın Trinil kəndi ərazisində daşlaşmış kəllə qutusu qapağı, üç diş və bud sümüyü aşkar etdi. 1894-cü ildə o, aşkar edilmiş varlığı meymun insan (pitekantrop) adlandırdı. Bu varlıq daha dəqiq deyilərsə Pitehconthropus erektus ("dik yeriyən insan") (87). Bu termin pitecontrop və erectus sözlərinin birləşməsindən yaranmışdır. Erctus sözünün önünə Homo sözü əlavə edilərək növün bütöv adı – Homo erectus alınmışdır. Antropoloqlar qədim yunan dilindən götürülmüş və əmək, iş, ustalıq anlamları daşıyan eqaster sözünü də işlədirlər (75). Homo erectus növünün tərifinə eqaster – əmək sözünün əlavə edilməsi məzmun və sosioloji baxımdan zəruridir. Homo erectus öz



əcdadı Homo habilis nisbətən daha bacarıqlı olmuşdur. Bu faktı nəzərə alaraq, antropoloqlar onun elmi adına əmək-eqaster sözünü əlavə etmişlər.

1936-cı ildə Qustav fon Keniqsvald Yava adasının güneyində Mocoqerto kəndi yaxınlığında Homo modjokertensus adlandırdığı uşaq kəlləsi aşkar edib təsvir etdi. İndi artıq elmə bəllidir ki, E.Dübanın və Q.fon Keniksvaldın tapıntıları eyni bir növə – Homo erectus – məxsusdur. Kenisvaldın aşkar etdiyi insanın boyu 1, 65-1, 75 m, tam dik yeriyən, kəllə qutusunun həcmi 750-950 sm3 olmuşdur. Dübanın aşkar etdiyi varlıq bir qədər öncə – 1 milyondan 500 min ilə qədər mövcud olmuşdur.

1907-ci ildə Almaniyanın Heydelberq şəhəri kənarında çənə tapılmış, 1908-ci ildə Şetenzak onu təsvir edib Homo heidelbergensis adlandırmışdır. Onun təxminən 900 min il öncə yaşadığı bildirirlir. Bu insanın Avropada tapılmış ən qədim qalığıdır. Bu varlığın dişləri tam bizim dişlərimizin forması kimi olmuşdur, kəsici dişlər qalan dişlərinin ölçüsünə qədər azalmışdı, amma bütövlükdə çənəsi və dişləri bizimkindən xeyli böyük olmuşdur. Yava çin insanı kimi o da sadə əmək və ov alətlərindən istifadə etmişdir, dilləri olmuş və danışmağı bacarmışlar.

Homo erectus (Yava insanı) kiçik qruplarla qida axtarmaq məqsədilə yerlərini dəyişərək köçəri həyat tərzi keçirirdilər. Uzun illərin elmi axtarışları, alimlərə Homo erectusu bizim abstrakt təfəkkürlü ilk əcdadımız kimi müəyyən etməyə təkzib olunmaz əsas verir.

1928-ci ildə Pekindən 40 km aralıda – Cyuokou-dyan mağarasında pekin insanının (sinantrop) qalıqları tapılmışdı. 1937-ci ilə qədər 40 fərdin qalıqları aşkarlanmışdı. Onların təxminən 220 min il öncə plestoçen erasında yaşadığı aydınlaşdırılıb. Onların hannibalist olduqları və oddan istifadə etdikləri sübut olunub. Od sinantroplara vəhşi heyvanlardan qorunmaqla yanaşı bir çox nəsillər boyu əlverişsiz iqlim şəraitində yaşamağa imkan verib. Odu qoruyub saxlamaq və onu bir məkandan başqa məkana keçirmək sinantrop insanın intellektinin yüksəlməsinə kömək edib.

Homo erectus mocokertensis-dən sonra, Yavada təxminən 600 min il öncə Homo erectus görünmüşdür. Onu pitekontrop və trinizl insanı da adlandırırlar. Onların boyu 1, 60-1, 65 kəllə qutusunun

həcmi 1020 sm3 (30, 35) olmuşdur. Bu pitekantroplarda sığınacaq təsəvvürü olmamışdır, cəngəlliklərdə qədim fillərin, gərgədanların, begemotların qonşuluğunda yaşamış, onlarla birlikdə 500 min il öncə məhv olmuşlar. Bunun səbəbinin vulkanlar olduğu ehtimal edilir.

Təxminən 600 min il öncə dik yeriyən insan həm də Avropada yaşamışdır. Bunları *Homo erectus heidelbergensus* adlandırırlar, bundan sonra isə Macarıstanın ərazisində *Homi erectus palaeohunqaricus* adlanan pitekantropun qalıqları aşkar edilmişdir.

Afrikada Homo erectus təxminən 1, 3-1, 6 mln. il öncə yaşamışdır. Homo erectus savannada, şirin su hövzələrinin yaxınlığında yaşamışlar. 500 min il öncə isə insanın bu qədim növünün nümayəndələri Quzey Afrika sahillərində məskunlaşmışdılar. Bunlar Homo erectus sapensis adlandırılıb. 1990-cı ildə, alimlər primatların xəttinə qohumluq səcərəsində Homo erectusdan öncə duran *Homo erqastoru* əlavə etdilər. O 1, 9 mln. il öncə yaşamışdır və aşel daş mədəniyyətinin yaradıcısı sayılır.

Sonda – təxminən 400-500 min il öncə Homo erectus növünün nümayəndələri Çin ərazisində görünüblər. Pekin insanı Homo erectusun 500 min il öncə yaranmış böyük yarımnövünün (Homo habilis yuanmovensis) vərəsəsi və inkişafının yüksək pilləsi sayılır. Onun beyninin həcmi təxminən 1055 $sm^3$, boyu isə 1, 55-1, 60 m olmuşdur. Pekin insanları bitkilərlə yanaşı öldürülmüş maralların və vəhşi donuzların əti ilə də qidalanırdılar. Bu ibtidai insan sürüləri heyvanları uçurumların üstünə qovur və onları aşağıya itələyirdilər. Primitiv əmək və ov alətlərini silisiumdan, əhəng daşından və s. düzəldirdilər.

Homo erectus növünün bütün nümayəndələrinə od artıq bəlli idi. Onların tonqallarında külün bir neçə metr qalınlığında olması oddan istifadə etdiklərini, amma odu əldə edə bilmədiklərini və bu səbəbdən onu qoruyub saxladıqlarını düşünməyə əsas verir. Onlarda ilkin dil əlamətlərinin olduğu da ehtimal edilir.

Antropoloqlar bu rəydədilər ki, Homo erectus Homo (insan) cinsinin Afrikanı tərk etmiş və Yer kürəsinin digər ərazilərinə yayılmış ilk növüdür. Bu növ davranışlarının fizioloji özəllikləri ilə bağlı heyrətamiz adaptasiya qabiliyyətinə malik olmuşdur.

Mindel və riss buzlaşmaları arasında nisbi istiləşmə dövründə (200-350 min il öncə) Mərkəzi və Quzey Avropada (indiki Almaniya, Böyük Britaniya, Fransa və İspaniyada) qalıqları tapıldığı yerin – Şteynheym (Ştutqartda)- adı ilə adlandırılmış *Homo sapiens steinheimensis* yaşamışdır. Sələflərilə müqayisədə o daha hündür və dairəvi alınlı olmuşdur. Ancaq gözüstü yastıqları pekin insanında olduğu kimi idi. Bu insanın beyninin həcmi 1150 $sm^3$ olmuşdur. O həm yığıcılıq, həm də ovçuluqla məşğul olmuşdur. Onun hazırladığı kəsici alətlər, artıq sadə həndəsi formaları mənimsədiyini təsdiq edir. Daş dövrü üzrə mütəxəssislər bu alətləri aşel mədəniyyəti adlandırırlar. Homo sapiens steinheimensus kəsici daş aləti ilə yanaşı daş bıçaqdan, ərsindən (qaşovdan), həmçinin ağac dəyənəklərdən və nizədən istifadə etmişdir.

Qalıqları Yavada tapılmış nqondan insanının neandertal insanı isə ümumi oxşarlığı ilə yanaşı Homo erectusa məxsus ayrı-ayrı əlamətlərə də malik olmuşdur. Məsələn, gözüstü yastıqları gözəçarpan, kəllə qutusu isə primitiv görünüşlü idi. Onunla eyni dövrdə Afrikada *Homo sapiens* növünün ilk nümayəndəsi – 40 min il öncə məhv olmuş rodeziya insanı yaşamışdır.

Homo erectus 1, 2-1, 3 mln. il heç bir gözədəyən dəyişikliyə uğramadan yaşadıqdan sonra onun populyasiyaları (çox güman ki, iqlim dəyişiklikləri üzündən) azalmağa başlamışdı və bu prosesin sonunda bu növün böyük hissəsi məhv olmuş qalan hissəsi isə birdənbirə *Homo sapiesə* çevrilmiş, kəllə qutusunun həcmi 950$sm^3$-dan 1450 $sm^3$ qədər böyümüşdür.

Beləliklə, pitekantroplara (Homo erectus) aid tapıntıları xronoloji sıraya düzsək, aşağıdakı ardıcıllığı alarıq:

Modyokerto erektusu, yava erektusu yaxud pitekantropları, lantyan insanı-oldova pitekantropu, sinantroplar, verteşsyölleş və Mauer tapıntıları – Nqandon insanı.

Homo sapiensin ilk növü rodeziya insanı, neandertallar və kromanionlar haqqında məlumat kitabın sonrakı bölmələrində verilir.

*Neandertal insan növü*

Neandertallara aid tapıntıların tarixi və insanın təkamülündə onların yerinin şərhi bir-birinə əks mövqelərdən işıqlandırılırdı. Problemin ziddiyyətli şərhinə, məsələn, A.Kizsin və A.Qridliçkin işlərində rast gəlmək olar. A.Kizsə görə, neandertal və müasir insan növlərinin mənşələri eyni deyil, A.Qridliçkə görə isə bu növlərin genetik varisliyi vardır. İndiyə qədər neandertal növünə dair bir çox

tapıntılar əldə edilmiş və müqayisəli-anatomik, filetik və paleoekoloji hipotezlər irəli sürülmüşdür.

XX əsrin birinci yarısında C.Morant və M.Moşkovçki neandertal insanını ətraflı şərh etmişdilər. Ancaq Morant yalnız Avropa neandertallarını, Moşkovski isə onların Avropa forması ilə bərabər Afrika və Asiya formalarını da şərh etmişdir.

Pitekantroplardan fərqli olaraq neandertallara məxsus bir çox uşaq skeletləri aşkarlanıb təsvir edilmişdir. Ön Asiya neandertalları arasında Sxul qrupu neandertalları həm morfoloji tipinə, həm də bir mağarada aşkar edilmiş kəllələrin sayca çox olmasına görə xüsusi yer tutur. Onların arasında yaşlı kəllənin ölçülməsi üçün dörd yararlı kəllə aşkar edilib. Fransız alimi E.Patte Peş del Azedə tapılmış skeleti, Şatonefdə tapılmış uşaq çənəsini təsvir etmişdir. Digər bir tapıntı-kəllə qutusu Teşik-Taş mağarasında tapılıb. Onun haqqında ilkin məlumatı Debeç hələ ötən əsrin 40-cı illərində vermişdir. Sxulda uşaq skeleti aşkar edilmişdir. Ön Asiyada Sxul, Tabun və Şandar mağaralarında tapılmış neandertal skeletləri ətraflı və çox diqqətlə təsvir edilmişdir.

Neandertallara aid müxtəlif coğrafi bölgələrdə aşkar edilmiş tapıntıların təhlili və təsviri əsasında alimlər onların morfoloji quruluşlarının ümumi cəhətlərini göstərə bilmişlər.

Öncə qeyd edək ki, neandertallara aid tapıntıları alimlər dörd coğrafi qrupa bölürlər:

• Avropa neandertalları qrupu;
• Afrika neandertalları qrupu;
• Sxul neandertalları qrupu;
• Ön Asiya neandertalları qrupu.

Bu qrupların morfoloji quruluşlarının müqayisəli öyrənilməsi göstərir ki, qitələr arasındakı coğrafi sərhədlər neandertalların göstərilən lokal qruplarını bir-birindən ayıran sərhəd olmamışdır. Avropaya yayılmış neandertallarla yanaşı cənubda Afrika qrupu da yaşamışdır (30, 73). M.A.Qremyaçkiyə və V.P.Alekseyevə görə, "afrikantropların" dəqiq morfoloji qeydiyyatını həyata keçirmək mümkün deyil. Çünki Broken-Hill və Saldaniyada tapılan kəllələrdən başqa, Afrika neandertalları haqqında heç bir material yoxdur, həm də yalnız Broken-Hilldə tapılmış kəllədə üzün skeleti bütöv qalmışdır.

Müasir insanın yaranması haqqında monosentrik və polisentrik



hipotezlər arasında polemika mövcuddur. Bu hipotezlərin müəllifləri arasındakı mübahisə Avropa və Afrika neandertallarının morfoloji quruluşlarındakı fərqlərdən irəli gəlir. Onların arasındakı başlıca fərqlər bunlardır:

- Afrika neandertalında gözüstü çox qabarıqdır;
- kəllə qutusu nisbi yığılmağa meyillidir;
- alın sümüyü yığılmağa meyillidir və daha maili vəziyyətdədir;
- orta enlilikdə olan üz skeleti çox hündürdür;
- burun sümüyü üzün ümumi görünüşünə nisbətdə az qabarıqdır.

E.Ennuşu Cebel İrxudda aşkar edilmiş Afrika neandertal kəlləsinin bütövlükdə Avropa neandertalına oxşar olduğunu qeyd edir.

Avropa neandertallarının tərkibində iki qrupun olduğuna dair hipotezin dönməz tərəfdarı olan M.İ.Urison quruluşuna görə Cebel İrxud kəllə qutusunun Avropa neandertal qrupuna yaxınlaşdığını qeyd edir.

Bütün bunlar göstərir ki, Afrika neandertalları öz qrupunun əlamətlərini az-çox saxlamaqla Avropaya keçmişdir. Eynilə də Avropa neandertalları Quzey Afrikanı (Cebel İrxutu) zəbt etmişlər. Avropa qrupunun ayrı-ayrı əlamətlərinin Sxul qrupuna oxşarlığı onun Ön Asiyadan keçdiyinin təsdiqi ola bilər.

Ön Asiya neandertallarına həsr olunmuş ədəbiyyatda Sxul mağarasında aşkar edilən skeletlərin mütərəqqi xarakteri dəfələrlə qeyd olunub. Buna baxmayaraq bəzi müəlliflər Sxul mağarası insanlarının müasir insan növünə aid olduğunu düşünürlər. Sxul insanlarında qeyd olunan morfoloji tərəqqinin mənşəyi məsələsinə yanaşmada fikir ayrılığı (Sxul insanının morfoloji tərəqqisi müasir insan növünün təkamülü prosesinin nəticəsidir; yoxsa neandertalların hansısa formalarının müasir insanın hansısa formaları ilə qarışmasının nəticəsidir) da mühüm sayılmır. Çünki ədəbiyyatda Sxul qrupuna aid kəllələrin heç birində hansısa primitiv əlamətin olduğu göstərilmir.

Beləliklə, IV və V sxul kəllələrində gözə dəyən mütərəqqi Sxul qrupunun A.Kizs və T.Makkaun tərəfindən təsvir edilmiş morfoloji tərəq-qisi, səbəbinin necə şərh edilməsindən asılı olmayaraq onları

müasir insan növünə yaxınlaşdırır.

Neandertalların lokal (məhəlli) qruplarının genetik əlaqələri, genezisi və tarixi talelərinə dair çoxsaylı hipotezlər var. Onlardan bəziləri müasir insan növünün yaranmasında neandertal qruplarından hansının iştirak etdiyilə bağlıdır. Digər hipotezə görə, neandertalların müasir insan növünün yaranmasında heç bir iştirakı olmamışdır.

Neandertallar haqqında müasir elmi anlayış bundan ibarətdir: təxminən 250 min il öncə təkamül prosesi Homo erectus növünün yeni insan növünə çevrilməsilə nəticələnmişdi; bu yeni insanlar müasir insanın (Homo sapiens) mənsub olduğu qrupa daxildir; bu yeni insanlar dörd lokal qrupa ayrılmışdı; onlardan günümüzə qədər yalnız neandertal adlanan bir növü qalmışdır; neandertallar və kromanionlar Homo sapiens növünə məxsusdur; Amerika antropoloqlarına görə, Homo erectus-dan yaranmış neandertallar ilk sapienslər (Homo sapiens neanderthalensis) olmuşlar; kramanionlar isə sonrakı yaxud yeni sapienslər olmuşlar, onları Homo sapies adlandırırlar.

Son zamanlara qədər alimlərin çoxu düşünürdülər ki, müasir insanın əcdadı ilə böyür-böyürə yaşamış neandertallar 40 min il öncə sadəcə insan növünə aid fərdlər olmuşdur. "Neandertal" termini tapıldığı yerin (Almaniyanın Düsseldorf şəhərinə yaxın olan Neandertal) adını ifadə edir. Bəzi alimlər onları qədim insanlar – *paleoantroplar* adlandırmağı təklif edirlər.

Almaniya ərazisindən sonra neandertallara oxşar insanların qalıqları Fransa, Belçika, Krımda, Özbəkistanda, Yaxın və Uzaq Şərqdə, Afri-kada aşkar edilmişdir. Son tapıntıların təsviri göstərdi ki, neandertallar Fransada azı 34 min il öncə, İspaniyada isə 27 min il öncə yaşamışlar. Neandertallar (Homo sapiens neanderthalensis) insan növünün qədim irqi olub. Bu növün nümayəndələrinin Avropaya nə zaman gəldiyinə dair vahid rəy yoxdur. Bəzi alimlər bunun 120-130 min il, bir başqaları 35-200 min il öncə baş verdiyini ehtimal edirlər. Bu hadisənin, hətta 400 min il öncə baş verdiyini təsdiq edənlər də var (71, 326). Neandertalların planetdə 100-270 min il yaşadıqları ehtimal edilir. Onun son nümayəndələrinin 28-30 min il öncə yaşadığı bildirilir. Uzun müddət neandertallar planetin Avrasiya, İraqdan və Özbəkistandan başlamış Hamburqa qədər – ərazisində hökmranlıq etmişdir. Neandertalın kiçik bir populyasiyası Yaxın



Şərqdə tapılmışdır. Ona Fələstin insanı adı verilmişdir. Onu Avropa neandertalından fərqləndirən əlamətlər: uzun və düz bud sümüyü, daha dairəvi alın, daha hündür kəllə qutusu və daha aydın çənədir. Fələstin insanının Mərkəzi Avropanın indiki əhalisinin əcdadı olduğu güman edilir, belə ki, 35-40 min il öncə Avropa neandertallarının nəsli kəsilmiş, Avropaya müasir insanın bütün əsas əlamətlərini daşıyan ovçu qəbilələri gəlmişdilər.

*Neandertalın xarici görünüşü*

Qalıqları Afrikada, Asiyada və Avropada aşkar edilmiş neandertallar güclü və cəsur olmuşlar. Avropanın bu qədim insanları dəhşətli dərəcədə rəqib olmuşlar. Onların 500-ə qədər qalıqları bu günə qədər saxlanmışdır. Bunlar ən təcrübəli mütəxəssis sayılan Amerika paleontoloqu E.Trikkausun təsdiq etdiyinə görə neandertallar tam təhlükəli həyat yaşamışlar. Onların bacarıqlı ovçular olduğunu ətraf sümüklərindəki yaralanmalar, sınıqlar və deformasiyalar təsdiq edir.

Kəllə qutusu üzrə onun sahibinin xarici görünüşünün təsviri metodikasını işləyib hazırlamış M.Qerasimovun bu metodika əsasında təsvir etdiyi neandertal ağır qaşüstü qövslü və çəp buxaqlı, güclü əllərində dəyənək sıxmış alçaqboylu primat olmuşdur. Saxlanmış sümüklər üzrə edilmiş müasir bərpalar neandertalların xarici görünüşü haqqında əyani təsəvvür yaradır. Belə bərpalara görə onlar boyu 1, 60 m qədər, skelet sümükləri qaba və yoğun, dar alınlı və ənsəsi qabarıq, gözüstü yastıqları olan kəlləyə malik olduqca iri və əyilmiş buxaqlı və müasir insanlara oxşar varlıqlar olmuşlar (63). Onların iri gözləri ətrafı qaranlıqda da görməyə, şişman qulaqları, hətta itlərin eşidə bilmədikləri səsləri qavramağa imkan vermişdir.

Homo sapiens neanderthalensis Afrikadan bilavasitə Avropaya miqrasiya etmiş və buzlaşma dövrünün soyuq iqliminə uyğunlaşmış populyasiyalar əsasında formalaşmışdır. Qırtlağının hündür olması və geniş burun dəlikləri onlara şaxtalı havada nəfəs almağa imkan vermişdir. Bədənin bazu sümüyünün və dizlərinin nisbətən qısalması orqanizmin həddən çox istilik sərf etməsinə mane olurdu, enli pəncələri isə qalın qar üzərində hərəkət etməyə imkan verirdi.

Bədənlərinin möhkəm olmasına baxmayaraq onlar Yerdə iqlimin sərt olması üzündən 50 ildən çox yaşamırdılar. Fərdlərinin 40%-ə qədəri 20 yaşa çatmamış ölür, o qədəri isə təxminən 20-30 il yaşayırmışlar. Yaşamaq uğrunda mübarizədə onlara fəal formalaşmış

ağılları yardımçı olurdu. Beyninin həcmi 1350-1725 $sm^3$ olmuşdur ki, bu da müasir insanın beyin həcminə uyğun gəlir.

İsveç alimləri müəyyən etmişlər ki, neandertallar bizdən antropologiya dərsliklərində göstəriləndən olduqca çox fərqlənmişlər. Bu yeni yanaşmaya görə neandertallar artıq erkən uşaq yaşlarından müasir insanlara oxşamırdılar. Əvvəllər hesab edilirdi ki, guya onların qaşüstü qövsləri, çəp buxaqları və başqa əlamətləri yalnız yaşlaşdıqda üzə çıxır. Son tədqiqatlar isə təsdiqlədi ki, bu özəlliklər hətta uşaqlarda da özünü göstərir.

İndi alimlər bu fikirdədir ki, neandertallar bizə yaxın qohumlar olmayıb, müasir insanla "paralel" mövcud olmuş ibtidai insanlar olmuşlar. Onların Yer üzündən 30 min il öncə sirli yox olmasına bu gün iki hipotez aydınlıq gətirir. Bir hipotezə görə, neandertalları kromanionlar sıxışdırmış və onlar yavaş-yavaş məhv olmuşlar, başqa bir hipotezə görə isə onları kromanionlar assimilyasiya etmişlər. İsveçlərin üç skelet qalıqlarından götürdükləri DNT analizi birinci hipotezi (kromonionlar və neandertallar arasında heç bir qan qarışığının olmadığını) təsdiq edir.

Neandertalların və bizim birbaşa əcdadlarımızın bədən quruluşları az oxşardır, müasir insanların bədəni anatomik baxımdan daha zəif quruluşlu və daha incə fiqurali olmuşlar. Bizim birbaşa əcdadımız olmuş hündür boylu kromanionlarla planetdə birgə yaşamış neandertallar onlara açıqca uduzmuşlar. Odur ki, belə bir fikir dərinləşmişdir ki, neandertallar kromanionlarla mübarizədə davam gətirməmiş və məhv olmuşlar. Amma əslində onların arasında rəqabət olmamışdır: alimlər bu fikirdədirlər ki, neandertallar və kromanionlar planetin müxtəlif yerlərində yaşayırmışlar və aralarında heç bir ünsiyyət olmamışdır.

Bu fikrə qazıntı materialları da əks deyildir. Belə ki, neandertallar mağaralarda tonqal ətrafında qızınır, bir-birilə danışır, öz emosiyalarını mağara divarlarında şəkillər cızır, daş alətlərdən istifadə etmişlər. Ancaq bütün bunlara baxmayaraq, antropoloqlar kimin hansı mağarada yaşadığını dəqiq müəyyənləşdiriblər: kromanionların və neandertalların divar rəsmləri və əmək alətləri bir-birindən tamamilə fərqlənir.

*Neandertalların yaşayış mühiti*

Neandertalların mövcud olduğu bütün zaman kəsimində planetdə iqlim bir neçə dəfə dəyişilmişdir. 150 min il öncə neandertallar əlverişli isti iqlimdə yaşamışlar. Avropada bu dövr buzlaşmalararası dövr idi, Aralıq dənizində isə iqlim indiki kimi olmuş, sonra böyük buzlaşma başlamışdı Avropa buz düzənliklərini xatırladırdı. Bu 80 min il öncə baş vermişdi. Bundan sonra neandertallar buzlaq və şaxta şəraitində yaşamaq uğrunda mübarizə aparmalı idi. Klassik adlandırılan neandertal nəhəng buz səhrasının cənubunda (vyurm buzlaşması adlanan dövrdə) yaşamışdır. Donmuş tundra ancaq Avropanın cənubunda otlaqlı səhralara çevrilmişdi. Belə mühitdə yalnız ona uyğunlaşmaqla yaşamaq olardı. Bu şəraitdə neandertal güclü, cəld və hiyləgər, mağara ayılarını belə ovlaya bilən ovçu oldu. Ov etməklə o, zəngin kalorili ətə və heyvan dərilərinə nail olurdu. Şaxta -40°C aşağı olmadığı şəraitdə neandertalları yalnız ovladıqları heyvanların dərisi qızındıra bilərdi.

Neandertallar Avropanın buzlaşmadan öncəki zonasında məskunlaşmışdılar. Ovladıqları heyvanların ətini tonqalın təsirindən közərmiş daşların üstündə bişirib yeyər, yaşadıqları mağaranın girişini heyvan dərilərilə qapayırmışlar. Onlar dəridən yöndəmsiz geyim hazırlaya, sığınacaq tikə bilirdilər. Qərubədir ki, insanda quşlardan, qunduzlardan fərqli olaraq sığınacaq tikmək bütövlükdə şüurlu fəaliyyətdir (71, 329).

Beş və hətta on yaşlı uşaq onu yağışdan, qardan, soyuqdan və küləkdən qoruya bilən sığınacaq qura bilməz. Amma müasir uşağın öhdəsində əcdadlarının zəngin təcrübəsi var. Yəni hər bir on yaşlı uşaq evin necə tikildiyini bilir. İndi belə təcrübəsi olmamış adamı təsəvvürümüzə gətirək və razılaşaq ki, ilk yer qurucuları ağıllarının səviyyəsinə görə yaşlı insanların səviyyəsinə yaxınlaşmışdılar. Yəni onlar hazır resept üzrə yetərincə mürəkkəb tikili qurmaq, həm də boş yerdə binalar ucaltmağı bacaran insanlara çevrilmişlər.

Neandertallar yeni daş sənayesinin, ərsin və iti uclu alətlər mədəniyyətinin yaradıcıları sayılırlar. Onlar birlikdə ov edir, yeməli bitkilər yığır, cürbəcür daş alətlər hazırlayırdılar-muster mədəniyyətinin yaradıcıları idilər.

Alman paleontoloqlarının 2001-ci ildəki kəşfi neandertal-ların (tarixəqədərki ovçular) alət hazırlayarkən yapışqandan istifadə etdiklərini deməyə əsas verir. Almaniya kömür mədənlərinin birində 80 min il yaşı olan qatranın iki nümunəsi aşkar edilmişdir. Onları

təhlil edərək paleontoloqlar onların üzərində barmaq, silisium və ağac izləri aşkar etmişlər. Alman alimlərinin sözlərinə görə, neandertallar tozağacını od üzərində yandırmaqla qatrana oxşar yapışqan hazırlamağı bacarırlarmış. Tozağacı qat-ranı 300-400°C qızdırıldıqda ağacları və hətta iti uclu daşları bir-birinə yapışdırır. Bu iş müəyyən bacarıq və təcrübə tələb edir.

Alman alimlərinin bu tapıntısı onlara neandertalların intellektual və texnoloji yöndən primitiv olduqları təsəvvürünün ədalətli olmadığını deməyə əsas vermişdir. Alimlər bu fikrə gəlirlər ki, neandertallar intellektual və texnoloji inkişaf baxımından Homo sapiens-dən çox da geri olmamışlar.

*Neandertalların ictimai quruluşu*

Neandertalların ictimai quruluşunu tarixçilər "ibtidai insan sürüsü" adlandırırlar. Aydın anlaşılan dilə malik olan neandertalların 50-100 fərddən ibarət qrupları bir-birindən uzaq məsafələrdə yaşayırdılar. Onların arasında əlaqə və təcrübə mübadiləsi önəmli dərəcədə deyildi. O dövrdə onlarda qismən əmək bölgüsü yaranmışdı: kişilər ovla məşğul olur və bu məqsədlə iti uclu alətlərdən istifadə edirdilər; yığıcılıqla məşğul olan qadınlar isə ərsindən istifadə edirdilər. Ölülərini basdırmağa ilk dəfə neandertallar başlamışdılar. İlk kult əlamətlərini (ov magiyası) də alimlər neandertallarda aşkar ediblər.

Onların ictimai həyatında insani əlamətlər aydın görsənir. Təəccüblü olsa da onlara mərhəmətlilik hissi yad olmamışdır. Yaşlı neandertallar adətən artritlərlə (oynaq xəstəlikləri) xəstələnirmişlər. Belə insanlar 45-50 il yaşaya bilirmişlər. Deməli, onlara qayğı göstərir, yedizdirir və mağarada yer ayırırmışlar. Arxeoloji qazıntılar zamanı şikəst olmuşların skeletləri də qarşıya çıxır. Onların arasında təkgözlü, bir qollu və s. skeletlər də yer alır. Görünür bu ibtidai sürüdə qocalığa və şikəstliyə görə hansısa "sosial zəmanətlər" mövcud olmuşdur.

Neandertallar hələ tipik ovçular və yığıcılar olmuşlar. Odur ki. onlar köçəri həyat keçirməyə məcbur idilər, həyatları vəhşi heyvanlardan və bitkilərdən asılı idi. Yaşadıqları ərazidə bu canlılar çatışmadıqda buradan uzaqlaşırdılar. Vəhşi heyvanları ovlamaq təhlükəli olduğundan onlar kollektiv ov edirdilər. Alimlər neandertalların qalıqlarını tədqiq edərkən skeletdəki zədələrə diqqət



yetirərək onların müasir peşəkar rodeoçuların aldığı zədələrə tam uyğunluğunu aşkar ediblər. Belə zədə almış neandertallar, yenə də 40-45 il yaşayırmışlar. Bunlar onların ictimai həyatında hansısa sosial təşkilin, hansısa etikanın olduğunu təsdiq edir. Bir daha yada salaq ki, neandertallar odla tanış idilər, sığınacaq qururdular ölülərə münasibətdə hansısa hərəkətlər edirdilər (basdırırdılar). Amma bütün bunlara neandertalların verdiyi mənanın nə olduğu, aydın danışığa malik olub-olmadıqları hələ ki elmə bəlli deyil.

Elm dəlillərə əsaslanaraq sübut edir ki, aşkar edilmiş skeletlər daha cavan neandertallara məxsusdur. Nisbət belədir: bu skeletlərin 40% uşaqlara, 20-30% yaşlılara, 20% 30 yaşından yuxarı insanlara aiddir. Aclıq, ehtiyac, yaşamaq uğrunda daimi mübarizə, əlverişsiz iqlim, pis sığınacaq, çoxsaylı xəstəliklər və s. neandertalların ömrünü qısaldırdı. O da bəllidir ki, 30 yaşdan yuxarı yaşayanlar əsasən kişilər imiş, qadınlar bu yaşdan tez ölürmüş, çünki fiziki cəhətdən kişilərə nisbətdə zəif idilər, çox vaxt doğuş zamanı, başlıca olaraq isə antisanitariya üzündən ölürdülər.

Bəzi tədqiqatçılar neandertalları xalis cani və quldurlar kimi təsvir edirlər. Amma arxeoloji məlumatlar onların 50 min il öncə qrupun zəifləmiş üzvlərinə yardım etdiklərini təsdiq edir. Yaxın keçmişdə İraqın Kərkük bölgəsində aşkar edilmiş 45 yaşlı neandertalın qalıqlarının analizi göstərmişdir ki, bu insanın bir gözü, bir əli qalıbmış, ətrafları (ayaqları) sınmışdı. Belə şikəst omuş insanın 45 yaş yaşaması, əlbəttə, mümkün deyildi. Deməli, o yalnız mənsub olduğu qəbilə üzvlərinin yardımı sayəsində bu yaşa qədər yaşaya bilmişdir.

Yeni arxeoloji materiallara istinad edərək, alimlər aydınlaşdırıblar ki, neandertalların əcdadlarında sosial qayğı ənənəsi yaranmışdır, həm də onlarda sosial əlamətlər çox ləng inkişaf edirdi.

Amerika paleoantropoloqu E.Trinkaus yaxın keçmişdə Fransada apardığı qazıntılar əsasında sübut etdi ki, neandertalların əcdadlarında yaxınlarına qayğı hələ 175 min il öncə yaranmışdı. Tapıntının alt çənəsinin təhlili göstərmişdir ki, bu çənənin sahibində ölən zaman ya ağzında dişlər qalmamışdı ya da onlar laxlamışdılar, bu çənə ətinin geniş parodontal iltihabı ilə bağlı olmuşdur. Trinkausa görə, belə insanın qaba qidaları çeynəmək imkanı olmadığından ona qidanı xırdalayıb və qızdırıb vermək lazım gəlirmiş. Bu tapıntı onu da

sübut edir ki, neandertallar sosial planda insanın əcdadlarından daha çox inkişaf etmiş olsalar da həm davranışda, həm də texnologiyada insanın əcdadlarından geri qalmışdılar.

*Neandertallarda mənəvi həyat cücərtiləri*

Mütəxəssislər ehtimal edirlər ki, insanabənzər varlıqların təkamülü zəncirində həyat və ölüm haqqında ilk düşünənlər neandertallar olmuşlar. Onlar ölüləri basdıranda qəbirlərinə silah, əmək alətləri və ərzaq qoyurmuşlar. Bundan nəticə çıxarmaq olar ki, onlar ölümdən sonrakı həyatın varlığına inanırmışlar. Amma bu təsəvvür – abstrakt təfəkkürün varlığı faktından doğur. Əgər abstrakt təfəkkürə malik idilərsə, onda neandertallarda fikir ifadə etmək üçün sadə dil də olmalı idi. Onların dünyanın bədii təsvirinə ilk cəhd etdiklərini təsdiq edən faktlar da aşkar edilib.

Neandertallar inanırdılar ki, ovladıqları ayıların mağaradakı sümük və dərilərində magik güc vardır. Onlar ovladıqları ayının ruhu bədənindən çıxandan sonra onun başını kəsirmişlər, dərisini soyub ətini parçalayırmışlar, sümüklərini isə əvvəl öldürdükləri ayıların sümüklərini basdırdıqları çuxura qoyurmuşlar.

Alimlər qəti əmindirlər ki, Yer kürəsində öz ölülərini torpağa basdıran ilk insanlar neandertallar olub. Həm də dəfn mərasimi ölünü, yalnız torpağa basdırmaqdan ibarət olmayıb, qəbirin üstünü daşla örtürmüşlər.

Başqa qəribə bir fakt budur ki, neandertallar ölünün yanına çiçək dəstəsi qoyurdular. Bunu təsdiq edən fakt min illər ötəndən sonra aşkar edilmiş qəbirdə çiçək dəstəsinin izinin qalmasıdır. Başqa bir neandertal – oğlan qəbirində dağ keçisinin buynuzları və sümükləri aşkar edilib. Bəzi tədqiqatçılar belə davranışlarda dini inanc cücərtilərinin olduğunu düşünürlər. Amma bu mübahisəlidir. Bununla belə, Səmərqənd yaxınlığında Deşik-Daş mağarasında tapılmış qəbrin üstünün dağ keçisinin sümükləriə, Fələstində aşkar edilmiş qəbrin üstünün hətta çiçəklərlə bəzədilməsi faktları neandertallarda ruhi-mənəvi həyat rüşeymlərinin olduğuna inam yaradır.

Uzun zaman antropoloqlarda neandertalların hər hansı bədii yaradıcılıq, o cümlədən musiqi yaradıcılığı formasına bələd olduğuna dair heç bir etibarlı dəlil yox idi. Lakin bu yaxınlarda Kanada və Amerika alimlərinin Sloveniya mağaralarının birində sümükdən düzəldilən fleytanın (tütəyin) qırıntılarının aşkar edilməsi sensasiya



oldu və alimləri sözü gedən məsələyə münasibətlərini dəyişdirməyə məcbur etdi. Bu alətin yaşının 43-80 min il olduğu bildirilir. Belədirsə, onda dünyada ən qədim musiqi alətinin tapıldığına və onun neandertallara məxsus olduğuna inanmaq olar. Tapıntı alimləri 30 min il öncə Yerdə gözlənilmədən yox olmuş varlıqların mənəvi həyatı haqqında düşünməyə vadar edir.

İtaliya və Cənubi Fransa ərazisində neandertallara məxsus yüksək mədəniyyət mərkəzləri aşkar edilmişdir. Onlardan biri Arku-Sur-Küre mağarasıdır. Orada neandertal mədəniyyətinə məxsus 36 əşya aşkar edilmişdir. Bunlara fil sümükləri, üzüklər, bıçaqlar və s. əşyalar aiddir.

*Biz neandertalla qohum deyilik*

Son illərdə müasir insanın neandertalla əlaqəsi ciddi müzakirə obyektinə çevrilmişdir. Neandertal müasir insanın (bizim) əcdadımızdırmı? Biz onların birbaşa vərəsəsiyikmi? Hələ ötən əsrin 50-ci illərində antropoloqlar bu suala yox cavabı verirdilər. İndi də bu məsələyə dair bir-birinə əks fikirlər var, ancaq alimlərin əksəriyyəti müasir insanın formalaşmasında neandertalların rolunu inkar edirlər. Problemin həlli molekulyar-genetik analiz metodu sayəsində mümkün oldu. Prof.S.Paaba 50 min il öncə yaşamış və ilk dəfə 1856-cı ildə aşkar edilmiş neandertalın onurğa fəqərəsindən mitoxondri DNT-ni əldə etdi. Bu DNT molekulunun quruluşunun müasir insanın mitoxondrial DNT-nin quruluşu ilə müqayisəsi göstərdi ki, neandertallar bizim nə əcdadımız, nə də yaxın qohumumuz deyildir. Bizim və neandertalların genlərinin müqayisəli təhlili vasitəsi ilə müəyyən edilmişdir ki, onların arasındakı fərq o qədər böyükdür ki, bu iki növün təkamül qolları 600 min il öncə, yəni bu insan növləri hələ mövcud olmamışdan öncə ayrılmışdı. Homo sapiens-in (müasir insanın) DNT bütün müxtəliflik 24 nukleotidin bir-birini əvəz etməsilə, neandertalların DNT isə 32 nukleotidin iştirakı ilə bağlıdır. Bu fakt alimlərə neandertalın müasir insan növünə xas olan dəyişkənliklərdən kənar olduğunu birmənalı təsdiq etməyə imkan verir. Başqa sözlə, neandertallar ayrıca bir növdür və təkamülün başqa qoluna məxsusdur.

S.Poabonun aldığı nəticələr antropogenez haqqında təsəvvürləri o dərəcədə dəyişdirdi ki, onun nəticələrinin başqa tədqiqatçılar tərəfindən yoxlanması məsələsi irəli çıxdı. Neandertal sümüklərinin

qalıqları üzərində bu dəfə A.Uilson və paleogenetika sahəsində tanınmış alim M.Stounkinq tədqiqata başladı. O, 30 min il öncə yaşamış neandertal uşağın qalıqlarını mitoxondrial DNT analizi etdi və S.Poabonun nəticələrini eynilə təsdiq edən nəticələr aldı.

Bir neçə ildən sonra alman alimləri də bu sahədə müstəqil tədqiqat apardılar. Nəticə belədir: "Neandertalların başqa təkamül qoluna aid olması və müasir insanın əcdadı olmadığı haqqında hipotez təsdiq olunur".

Bundan sonra nə etməliyik sualına paleontoloq K.Stringer belə cavab verir: "Görünür ki, biz paleoantropoloji, arxeoloji, genetik və linqvistik sübutları Afrika monogenetik modelin xeyrinə birləşdirən vahid nəzəriyyənin yaradılmasının astanasındayıq" (71, 335).

Mütəxəssislərin fikrincə, neandertal və müasir insan növlərinin molekulyar-genetik materialında aşkar edilmiş fərqlər onların eyni bir növə deyil, ayrı-ayrı növlərə məxsus olması ilə bağlıdır, yəni hominidlərin təkamülü gedişində neandertal və müasir insan növləri başlanğıcdan ayrı-ayrı növlər kimi yaranmışlar. Müasir elmdə bu fikri təsdiq edən faktlar getdikcə artmaqdadır.

*Neandertallar yox oldu: səbəbi nə?*

Neandertalların yox olmasının səbəbinə dair elmdə müxtəlif rəylər var. Bəziləri düşünürlər ki, neandertallar ov arealı uğrunda mübarizədə başqa irq tərəfindən məhv edilmişdir, başqaları ehtimal edirlər ki, neandertalların məhv olmasının günahı müasir insanın əcdadları ilə onların əlaqəsində olmuş, çarpazlaşma nəticəsində yox olmuşlar. Alimlərin əksəriyyəti isə bu faciədə Homo sapiens növünün suçlu olduğunu düşünürlər. Hesab edirlər ki, rəqabətdə neandertalları Homo sapiens məhv etmişdir. Onların arasında qanlı savaş neandertalların məhvi ilə nəticələnmişdir. Amma Homo sapiens-in bu savaşdan qalib çıxması nə ilə bağlı olmuşdur? Axı qalib növ – tropikdən gəlmələr soyuq iqlimə neandertallar kimi uyğunlaşmamışdı və onların əzələ kütləsi gəlmələrin əzələ kütləsindən 30-40% çox idi.

Bir konsepsiyaya görə, daha inkişaf etmiş kromanionlar özlərinə nisbətdə ləng rəqibləri olan neandertalları sadəcə qırıb məhv etmişlər. Amma başqa bir konsepsiya belə genosidi mümkünsüz sayır və izah edir ki, neandertallara kromanionlardan hansısa bir epidemiyanın yoluxması nəticəsində onlar məhv olmuşlar. Kromanonların özləri isə belə epidemiyaya davamlı olublar. Bu da



şübhəli sayılır, çünki neandertallar 30 nəfərlik ovçulardan və yığıcılardan ibarət təcrid olunmuş populyasiyalar halında yaşamışlar. Belə şəraitdə yoluxma ehtimalı minimumdur. Alimlərin çoxu bu fikirdədir ki, neandertalların məhv olması kromanionların texnoloji üstünlüyü ilə bağlı olmuşdur. Kromanionların (müasir insanların) ov alətlərini önəmli dərəcədə təkmilləşdirməsi onlara təxminən 34 min il öncə başlamış növbəti buzlaşma şəraitində yaşamağa imkan vermişdir. Ov yeri uğrunda rəqabət neandertalların kütləvi aclığı və qırılması ilə nəticələnə bilərdi. Ölüm faizinin 1-2 dəfə artması isə 1000 il ərzində populyasiyanı məhv edə bilər (125).

İngilis arxeoloqları beş neandertal sümüklərinin və indiki Britaniya Çexiya və Rusiya ərazilərində 20-30 min il öncə yaşamış 5 neandertal və 8 müasir insan sümüklərinin kimyəvi tərkiblərini analiz edib rəqiblərin pəhriz qidalarının müxtəlif olduğunu müəyyən etmişlər. Bəlli olmuşdur ki, müasir insanlar (kromanonlar) məməli heyvan ətilə yanaşı balıqlarla, ilbizlərlə və çay quşları ilə qidalanırmışlar, neandertallar isə yalnız iri otyeyən heyvanların (maral, mamont) ətlərini yeyirmişlər. Lakin bu həmişə mümkün olmurdu, iqlim dəyişilirdi bu heyvanlar məhv olurdu, ov isə getdikcə uğursuz olurdu.

İngiltərə (London) təbiət tarixi muzeyinin əməkdaşı K.Stringerə görə, yaşadığı ərazilərə inkişaf səviyyəsi daha yüksək olmuş qəbilələrin gəlməsindən başqa qeyri-sabit iqlim şəraiti neandertalları yer üzündən silmişdir. Qeyri-sabit iqlim bitkilərin və heyvanların sayını azaltmışdı. Bu səbəbdən neandertalların sayı da azalmağa başlamışdı. Amma daha mükəmməl ov alətlərinə və sosial quruluşa malik olmuş Homo sapiens yaşamağa davam etmişdir. Tale onların üzünə gülmüşdür (125).

Neandertallar başqa qidalara uyğunlaşa bilmədiklərindən, sonda məhv oldular. Kromanonlar balıqla qidalandılar, neandertallar isə qidasız qaldılar, zəifləyib qırıldılar. Balıqda olan fosfor beyninin inkişafına səbəb oldu, kromanionlar daha da ağıllandılar, bunlar isə onları çətin şəraitə uyğunlaşan varlıqlara çevirdi.

Əski dünyada 100 min ilə qədər öncə meydana gəlmiş kromanonlar, Con Banoneyə görə, Güney (Şərqi) Afrikadan uzun zaman içində yerini dəyişərək yeni xəstəliklər daşıya bilərdilər, bu xəstəliklər isə yerli aborigenlərin məhvinə səbəb ola bilərdi. Bunu biz

istilaçıların Yeni Dünyanı zəbt edəndə də gördük. Bəlkə yeni gəlmiş afrikalılar neandertalların məskəninə hansısa bir gizli silah gətiribmiş? Bu suala dəqiq cavab yoxdur, hipotezlər isə müxtəlifdir.

Alimlər hesab edirlər ki, necə baş verməsindən asılı olmayaraq iki təkamül qolunun (neandertalların və kromanonların) toqquşması ümumdünya tarixində ilk qlobal müharibədir. Bu müharibə Avropanın bir yerində 5, bəzi yerlərində 10 min il davam etmişdir. Onun nəticələri bəşər sivilizasiyasının və bəlkə də planetimizin sonrakı taleyini həll etmişdir.

*Kromanonlar*

Üst paleolitə keçid neandertalların – Homo sapiens sapiens – Avstraliya və Amerika qitələrinə yayılması dövrü sayılır. Təxminən 35-40 min il öncə artıq neandertalların məskunlaşdığı Avropada qəflətən yeni məskunlar göründü. Paleontoloji məlumatlar göstərir ki, onlar Afrikadan Avropaya Ön Asiyadan keçərək gəlmişlər. Onları qalıqları aşkar edilmiş (1868) Kro-Manon kəndinin adına uyğun olaraq *kromanonlar* adlandırırlar. Onlar burada 10 min il öncə yaşamış, mürəkkəb daş texnikasından istifadə etmişlər. Kromanonları yeni paleolit epoxasında yaşamış müasir insan növünə (neantroplar) aid edirlər. Bizə onların qalıqları bəllidir və 40 min il öncə meydana gəlmişlər. Antropoloqlar onları müasir insan növünə (Homo sapiens) aid edirlər.

Arxeoloqlar və antropoloqlar bəzən deyirlər ki, Homo sapiens-neandertallar yaşadıqları bölgələrə (Afrika, Asiya, Avropa) görə fərqləniblər. Onlar ancaq Fransada tapılmış Avropa qolu kromanon adı almışdır.

Kromanonların dəqiq yaşı mübahisə predmetidir. Bu yaxınlarda Afrikada yaşı təxminən 90 mindən 130 minə qədər olduğu söylənilən ən qədim tapıntı aşkar edilmişdir. Bu tapıntıya əsasən alimlər kromanonların daha qədim və ilk vətənlərinin Afrika olduğu qənaitinə gəliblər.

Güney Afrikada 125 min il öncəyə aid insan məskəni aşkar edilmişdir. Bu gün ora sahil xəttinin ən qədim yaşayış yeri kimi qəbul olunur. R.Valter və həmkarları orada çanaqları sındırmaq üçün istifadə olunan daş alətlər aşkar etmişlər. Onun yaxınlığında fil və hippotom skeletləri də tapılmışdır. Çox güman ki, insan bu yolla yavaş-yavaş Avropaya gəlib çatmışdı. Hesablanmışdır ki, yerdəyişmə



sürəti ildə bir mil olmuşdur (7, 42 km). Kromanonların əcdadları Fransaya bu sürətlə gəlib çatıblar (118).

Afrikanı yaxşı mənimsədikdən sonra kromanonlar təxminən 100-125 min il öncə Asiyaya gəlmiş, sonra isə Avropaya doğru irəliləmişlər. Amma kromanonlar Asiyaya neandertallardan daha tez gəlmişdilər (kromanonlar 92 min il, neandertallar 60 min il öncə). Asiyada 50 min il yaşadıqdan sonra kromanonlar naməlum səbəbdən Avropaya doğru irəliləmişlər. Bu 35-40 min il öncə baş vermişdir. On min illər keçdikdən sonra Avropada "Asiya köçkünlərini" antropoloqlar aşkar etdilər.

*Kromanonların xarici görünüşü*

İlk əsl avropalılar 1, 7-1, 8 m hündürlüyündə, bizdən o qədər də fərqlənməyən, iri və gözəl əlamətlərə malik üz quruluşu, nizamlı, möhkəm bədənli insanlar olmuşlar. Onlar hətta indiki şotlandlardan və skandinavlardan da bir qədər hündür imişlər. Beyinlərinin həcmi neandertalların beyin həcmindən 10% böyük olmuşdur.

Onların uzununa dartılmış dar çənəsi və uzun aşağı hissəsinə üçbucaq forması verən sivri buxağı var idi. Burnu gözəçarpan dərəcədə irəli çıxmışdı. Buna oxşar antropoloji tipə indi Balkanlarda və Qafqazda yaşayan insanlarda da rast gəlmək olar. Bu tip insanların qalıqları sonradan Avropanın bir çox yerlərində, o cümlədən Krımda Sunqur mağaralarında aşkar edilmişdir.

Linqvistlər hesab edirlər ki, burnun, ağızın, udlağın quruluşu onların aydın və müxtəlif səslər çıxara bildiyindən xəbər verir. İnsanın qədim və ən qədim əcdadları arasında kromanonları ilk natiqlər, şifahi söz ustaları saymaq olar.

Nyu-York neyrolinqvistik proqramın rəhbəri R.Diltsa görə, 30 min il yan-yana yaşamış neandertallar və kromanonlar təkcə ictimai quruluşları və ov vərdişləri, ov alətləri baxımından deyil, xarici görünüşcə də tədricən bir-birinə oxşamağa başlamışdılar. Anatomik yöndən neandertallar kromanonlara çox oxşar olublar. Amma kromanonlardan on min illər öncə görünmüş neandertallar onlardan daha güclü (fiziki yöndən) və beyin həcmi bir qədər böyük olmuşdur. Onların başlıca fərqi zəruri müxtəlifliyə malik olmalarında idi: zəruri müxtəliflik qanunu neandertalların və kromanonların müxtəlif talelərlə qarşılaşdığını müəyyən edən həlledici faktor olmuşdur.

R.Dilts yazır: "Avropada, Asiyada və Quzey Afrikada aşkar

edilmiş bütün neandertal məskənlərində, demək olar ki, birtipli əmək alətləri tapılmışdır. Bu alətlər əsasən ucu itilənmiş daşlardan yaxud ağac nizələrdən ibarət idi və bəllidir ki, neandertallarda incəsənət olmamışdır.

Kromanon məskənləri isə tapılmış əmək alətlərinin bənzərsizliyi və müxtəlifliyi, zərgərlik əşyaları və başqa artefaktları ilə fərqlənirlər. Müxtəlif daş əmək alətləri ilə yanaşı, kromanonlar sümüklərdən və maral buynuzlarından silah və ev əşyaları, kaman və ox, torlar, ipdən üst paltarı hazırlayırdılar. Kromanonlar köhnə əşyaları kənara qoyur və həmişə yenilərini ixtira edərək yaşadıqları mühit şəraitinə uyğunlaşırdılar. Neandertallar yeni bir şey yaratmağı və uyğunlaşmağı bacarmır, ya da istəmirdilər. Nə zaman, nə də yaşadıqları məkan onları yaşamaq üsulunu rəngarəng etməyə məcbur edə bilməmişdir: neandertalların sonradan məhvi, kromanonların yayılması və müasir insanın yaranması bir başa kromanonlara xas olan zəruri müxtəliflik dərəcəsi ilə bağlı olmuşdur. Neandertallar nə mühitin dəyişkənliyinə, nə də öz qonşularına-kromanonlara uyğunlaşmağı bacarmamışlar" (70).

*Kromanonların ictimai quruluşu və həyat tərzi*

Alimlər kromanonların özlərindən sonra qoyduqları çoxsaylı alətlər, sığınacaqlar və qənimətlər əsasında onların həyat tərzi və mədəniyyətləri haqqında nəticə çıxarırlar. Müəyyən edilib ki, kromanonlar axırıncı buzlaşma dövrünün sonunda yaşamışlar. O zaman iqlim soyuq, qış isə qarlı olurdu. Belə şəraitdə yalnız hündür ot bitkiləri və kollar bitə bilirdi. Bu şərait kromanonları özlərindən asılı olmayaraq mahir ovçulara çevirmişdi.

Onlar yunlu dərisi olan mamontları, şimal maralları, atları, turları, zebrləri, donuzları ovlayırdılar. Amma ovladıqları heyvanların arasında mamontlar daha önəmli idi. Odur ki, kromanonları mamont ovçuları adlandırırlar. Onlar öz təcrübələrindən bilirdilər ki, mamontlar yazda şimala, payızda cənuba miqrasiya edirlər. Bu miqrasiya zamanı onların yolunu kəsib dəstə ilə hücum edirdilər. Ov zamanı onlar dəyənəklərdən və nizələrdən istifadə edirdilər. Dilləri yaxşı inkişaf etdiyindən, onlar öz hərəkətlərini əlaqələndirə bilirdilər.

Ov və svaş uğurları onların mütəşəkkilliyinə, qarşılıqlı əlaqə sisteminin yaranmasına, həmçinin texniki nailiyyətlər əldə etməsinə imkan yaradırdı. Bu cəsur səyahətçilər paltar tikməyi və sığınacaq



qurmağı öyrənərək hətta soyuq Arktika (Yerin şimal qütbü) bölgələrinə qədər gedib çatmışdılar. Onlar saxsı qabların ilk ixtiraçıları idilər. Onların alətqayırma texnikası onun bəzi sirləri (məsələn, od üzərində parçalanan daş soyuduqdan sonra üzərində asan işlənməsi) nəsildən nəslə ötürülürdü (sosiomədəni varislik əlaməti). Kromanonların Avropanın buzlaq sahələrində istifadə etdikləri alətlər Sibirdə, Yenisey, Anqara, Lena çayları ətrafında da aşkar edilib.

Kromanonlar icma halında yaşayırmışlar. İcmada 20-40 nəfər olurdu. Buzlaşmanın yüksək həddə çatdığı sərt iqlim şəraitində qəbilədə bu sayda insandan artığını yedizdirmək və qızındırmaq olmazdı. İbtidai insanların iri qəbilələri 10 min il öncə Yaxın Şərqin isti qurşağında görünməyə başladılar və burada ilk dəfə olaraq əkinçilik mədəniyyəti doğuldu. Həm də kromanonlar tez-tez isti bölgələrə miqrasiya edən heyvanların ardınca gedərək yerlərini dəyişirdilər. Müəyyən edilib ki, kromanonlar 30 ildən çox yaşaya bilmirdilər. Bundan əlavə, uşaqlar süddən gec ayrıldıqlarından qadınlar hər il doğmurdular. Uşaqlar arasında ölüm faizinin yüksək olduğunu da nəzərə alsaq, kromanonlarda çoxuşaqlı ailələrin olmadığını təsdiq etmək olar.

Neandertallar kimi onların da sığınacaq yerləri yalnız mağaralar olmuşdur. Ağac budaqlarından, mamont dərisi və sümüklərindən, Sibirdə isə daş pilitələrdən sığınacaq tikirdilər, üstlərini isə ovladıqları heyvanların dəriləri ilə örtürdülər. Kromanonların kaha və mağaralarının torpaq döşəmələrində dəfnlər aşkar edilmişdir. Tarixdə ilk dəfə az-çox daimi məskənlər onlara məxsusdur. Belə məskənlər həyat üçün əlverişli yerlərdə salınırdı.

Kromanonlar eyni vaxtda Afrika, Asiya və Avropada yaşamışlar. Bir sıra anatomik özəlliklərinə görə onlar bir-birindən fərqlənmişlər. Onları indiki avropoidlər, monqoloidlər və neqroidlərlə fərqlərilə müqayisə edirlər. Qədim monqoloid irqinin nümayəndələri üst paleolit epoxasında indiki Şərqi Sibir ərazisindən Alyaskaya keçib, Amerika aborigen əhalisinin başlanğıcını təşkil ediblər. Bu hadisənin baş verdiyi dəqiq zaman bəlli deyil. Dəqiq olan budur ki, m.ö. XIV-XII minilliklərdə artıq bütünlüklə Şimali Amerikada və qismən Cənubi Amerikada onlar məskunlaşmışdılar. Amerika qitəsində bu tarixdən əvvələ aid insan izləri tapılmamışdır. Alyaskaya bu

insanların ya buz üstündən, ya da hələ su basmamış quru cığırı ilə keçdikləri ehtimal olunur. Avstraliyaya isə köç bir-birinə yaxın adalardan – malay və Zond-keçməklə (paleolitin sonunda) baş vermişdir.

*Kromanonların incəsənəti*

Kromanonların yuxarıda qeyd edilən uğurları arasında onların bədii fəaliyyət bacarığı da özəl yer tutur. Onları bəşər tarixində ilk rəssamlar adlandırırlar. 30-40 mi il öncə, onlar öz mağaralarının divarlarında müxtəlif rəsmlər çəkir, paltarlarının, məişət əşyalarının, alətlərinin üstünü şəkillərlə bəzəyirdilər. Zamanlardan keçib günümüzə qədər gəlib çatmış bu izlər kromanonların yüksək bədii ustalığından xəbər verir. Müəllifləri bəlli olmayan bu şəkillər və heykəllər haqlı olaraq nə zamansa insanlar tərəfindən yaradılmış ən böyük şah əsərlərdən sayılır. Bu incəsənət əsərləri paleolit dövrü insanlarının zəngin mənəvi həyatını əks etdirir.

Bədii yaradıcılıq sahəsində ilk və yoxsul təcrübə neandertallarda da olmuşdur, ancaq kromanon insanı qayaüstü təsvirlər yaratmağın mürəkkəb texnikasına nail ola bilmişdi. Kromanonların bədii-yaradıcı ustalığını təsdiq edən faktlara misal olaraq Azərbaycanda Qobustan qayaüstü təsvirlərini göstərmək olar. Bütün bunlar üst paleolitin Orinyak epoxasına aid mədəniyyət sayılır.

Azərbaycanda üst paleolitdə m.ö. 30-35 min il öncə insanların oturaq həyat tərzinə keçdiyi bildirilir. Lakin bəzi qaranlıq məqamlar var. Məsələn, antropoloji ədəbiyyatda göstərilir ki, 90 min, hətta 130 min il öncə Afrikada yaşamış insanlara aid tapıntılar aşkar edilib. Bu tapıntılara əsasən deyilir ki, onlar kromanonlara məxsusdur. Deməli, onlar ən qədim kromanonlardır. Azərbaycanın Azıx, Tağlar və Avey yaşayış məskənlərində yaşamış insanların yaşının isə bir mln. il olduğu müəyyənləşdirilmişdir (14).

Orinyak mədəniyyətinə aid sənət nümunələrini üç əsas qrupa ayırırlar: rəsmlərlə bəzədilmiş kiçik əşyalar; divar təsvirləri və oymalar; insan (adətən qadın) və heyvan fiqurları.

Kromanonların məskənlərində (üst paleolitə aid) aparılmış qazıntılar onlarda ibtidai ov və cadugərlik inanclarının inkişaf etdiyini təsdiq edir. Onlar gildən vəhşi heyvan fiqurları düzəldir və onların ətrafında ov davranışlarına oxşar hərəkət edirdilər. Görkəmli fransız tarixçisi A.Bryul üst paleolitə aid təsvirləri indiki Avstraliya aborigenlərinin təsvirləri ilə müqayisə edib nəticəyə gəlib ki, onların



hər ikisi ovçu magik ənənəsinin təzahürləridir. Mağara təsviri dini hissin yaranmasının ilk əlamətidir. Qədim rəssamlar inanırdılar ki, heyvanların ruhu onların təsvirlərində yaşayır. Bəlkə də bu təsvirlər şamanlara-heyvanların davranışına nəzarət edə bilən insanlara məxsus olub. Əgər bu təsvirlər magik təyinatlı idilərsə, onda onların yaradılması prosesi bir ənənə olub, odur ki, belə rəsmlər mağaranın dərinliyində gizlində saxlanırmış və onlar öz rəsmlərini görmək üçün mağaranın içində uzun yol getməli olurdular. Kromanon rəssamları belə yerlərdə işləməli olurdular. Demək olar ki, bəşər incəsənəti gizlində və ya katakombda (zirzəmidə) yaradılıb.

40 min il öncə Yer kürəsinin müxtəlif bölgələrində – Fransanın Bara-Baxau, Le Kombarel, Rufinyak, Lyasko, İspaniyanın Altamir mağaralarında kromanonların çoxsaylı incəsənət əsərləri günümüzə qədər qalmışdır.

Bəzi antropoloqlara görə, Avstraliya qayaüstü təsvirləri növün böyüməsi münasibətilə hər il keçirilmiş mərasimin bir hissəsidir. Bəzi heyvanlar rəsmlərdə doğuş ərəfəsində, bəziləri cütləşmə zamanı təsvir edilib. Sual doğur: yeni paleolit insanı heyvanların rəsmlərini çəkməklə onların çoxalmasına təsir etdiklərinə inanırdılarmı? Bəlkə onlar düşünürdülər ki, heyvanlar hər il ruhlarının əsir saxlandığı yerə qayıdacaqlarına inanırmışlar? Ehtimal etmək olar ki, ətraf aləmdə baş verən hadisələr rəssamın yer seçimini möhkəmləndirirdi. Ola bilsin ovun uğurlu olmasını ovlanacaq heyvanın çəkilmiş rəsmi ilə əlaqələndirirmişlər.

Qayaüstü təsvirlər artıq çəkilmiş rəsmlər əsasında yenidən çəkilə bilərdi. Ola bilsin, yeni paleolit insanları öz rəsmlərində artıq nə zamansa baş vermiş ov hadisəsini yenidən yaşayırlarmış. Belə ki, Kalaxari səhrasında yaşayan ovçular indi də belə edirlər. K.Kottakın şərhinə görə, yeni paleolit qayaüstü təsviri heyvanların çoxalmasına insanın magik üsullarla təsir etmək cəhdidir. Ovla və yığıcılıqla məşğul olan Avstraliya aborigenləri indi də bu motivlə rəsmlər çəkirlər. Onlar bu məqsədlə hər il mərasimlər keçirirlər (190).

Qayaüstü təsvirlər yaratmaq üçün rəssamlar təbii boyalardan və metal oksidlərindən ya təmiz halda, ya da su ilə yaxud heyvan yağı ilə qarışdırıb istifadə edirmişlər. Onlar bu boyaları əllərilə yaxud fırça ilə qaya üzərinə yaxırdılar. Əski rəssamlar öncə qaya üzərində heyvanın konturlarını cızır sonra da onu boyayırmışlar.

Antropoloqlar mağara *miniatur heykəltaraşlığının* da daha öncə və yüksək səviyyədə inkişaf etdiyini müəyyənləşdiriblər. Məsələn, Qərbi Fransada aşkar edilmiş miniatur (cəmi 3, 5 sm) qadın başcığının yaşının 25 min il olduğu bildirilir. Mamont dişində nəxş edilmiş bu əsər son dərəcə ifadəlidir. Bu əsərin yaradıldığı dövrə, Avstriyanın Villendorf və Slovakiya ərazisində aşkar edilmiş heykəllər də aiddir. Bu heykəllər hündürlüyü 10-15 sm olan qadın fiqurlarıdır. Onların başları və əlləri yoxdur, çünki onları yaradan usta ilk sırada diqqətini qadınlıq atributları üzərində cəmləmişdir.

Belə fiqurların məhsuldarlıq simvolları yaxud qadın-ana pərəstişi ilə bağlı olduğu düşünülür. Bu ağlabatandır, belə ki, kromanonlar matriarxal qanuları ilə yaşamış və qəbiləyə məxsusluq yalnız ana xəttilə müəyyən olunmuşdur.

Antropoloqlar uzun zaman düşünmüşlər ki, məhsuldarlıq simvolu çılpaq, örtüksüz olmalıdır, qədim heykəltaraş isə heykəllərin başını tüklə örtmüşdü. Amma 2000-ci ildə Çexiya Respublikasının Moravi yaşayış məskənində və başqa yerlərdə aşkar edilmiş 90 gil fiqurun Amerika alimi O.Sofer tərəfindən aparılmış tədqiqatları sayəsində aydın oldu ki, heykəllər geyimlidirlər və başları tüklə yox papaqla örtülmüşdür. Sonda alimlər sübut etdilər ki, paltar ilk dəfə 5-10 min il öncə yaşamış ovçularda və yığıcılarda deyil, 30 min il öncə yaşamış kromanonlarda olmuşdur. Bunu aydınlaşdırmaq üçün alimlər qədim toxuculuq texnikasını, o cümlədən çubuqdan səbət toxuma, həmçinin vişdən və kəndirdən paltar toxumaq sənətinin sirlərini öyrənməli olmuşlar.

Reydinq Universitetinin əməkdaşı S.Mitçenə görə, 35-40 min il öncə "böyük mədəni sıçrayış" baş vermiş, muncuqlar, bəzək əşyaları, heykəllər, rəsmlər, sümük üzərində oymalar yaranmışdır. Ancaq "mədəni partlayışın" səbəbləri alimlərə tam aydın deyil. Bu müasir insanların əcdadlarında beyin quruluşunun daha da təkmilləşməsilə də bağlı ola bilərdi. K.Qambel (Sautqempton Universiteti) isə mədəni partlayışın səbəbini bizim əcdadlarımız arasında münasibətlərin dəyişilməsində görür. Onlar özlərinə oxşar çoxsaylı və başqa qəbilələrdən olan insanlarla ünsiyyətə məcbur olduqlarından, bütün bu mürəkkəb qarşılıqlı təsirlər sistemini yaddaşlarında saxlamalı idilər. Başqa qrup alimlər kromanonların beyin quruluşunda yaranan fərqlənmələri inkar etmədən göstərirlər ki, müasir insan azı 90 min il



öncə Quzey Afrikada meydana gəlmişdir, ancaq onların təsvirçilik sənətinə dair heç bir dəlil tapılmamışdır.

Kromanonlarda dəfn mərasimi də yüksək inkişaf etmişdi. İbtidai ovçular çox ağır şəraitdə yaşayırdılar, ömürləri qısa idi, ov zamanı aldıqları yaralardan, əzilmələrdən ölürdülər. Dəfn çox zaman mürəkkəb mərasimlərlə müşayiət olunurdu. Ölüləri dizlərindən boğazlarına sıxılmış halda qəbrə qoyurmuşlar. Bəzən qəbirlərdə alətlər və silahlar aşkar edilir. Ölüləri geyim, qida və silahla yanaşı bəzək şeylərilə də son mənzilə yola salırdılar. Hətta qədim türklər qəbrə ölmüş adamın atını da qoyurmuşlar.

Orinyan mədəniyyətinin nümayəndələri ölülərini yaşadıqları məkanda basdırırdılar. Bəzən ölünün ayaqlarını və qollarını bağlayaraq qəbrə qoyurdular.

Kromanonlar epoxasının qısa – 20-25 min il olduğu bildirilir. Öz primitiv əcdadlarından irsən fəal beyin və yetərli texnologiya almış bu yeni insanlar, nisbətən qısa zamanda görünməmiş dərəcədə irəli getmişlər.

Nəticələri çətin qiymətləndirilən aydın nitqin yaranması və dil vasitəsilə ünsiyyət bu yeni insan epoxasının uğurlarıdır. Müasir dillərin araşdırılan kökləri də epoxanın son mərhələsinə aiddir. Qayaüstü təsvirlər onların rəngarəng təsviri incəsənət nümunələridir. Simvolik təfəkkürə və təbiətin müşahidəsinə dair dəlillər də o epoxaya aiddir. Onların alət hazırlamasının yeni texnologiyası, xarici şəraitə fəal uyğunlaşma qabiliyyəti olmasaydı, indiki dünya və biz tamamilə başqa olardıq.Hazırda ingilis arxeoloqları Zambiyada 350-400 min il öncəyə aid rəsm boyaları və predmetləri aşkar etmişlər. İlk sırada bu tapıntının yaşı diqqəti cəlb edir. Belə ki, bu tapıntıya qədər boyanın tarixi 120 min il, mağara divarlarındakı rəsmlərin tarixi isə 35 min il öncəyə aid edilirdi. Məlumat agentlikləri bildirirlər ki, 350-400 min il öncəyə aid tapıntının (boyanın) aşkar edildiyi mağarada nə rəsm predmetləri, nə də divarlarda rəsmlər aşkar edilməmişdir. Bu tapıntının müəlliflərindən biri L.Barxam təsdiq edir ki, qədim rəssamlar sarı, çəhrayı, qırmızı və qonur boyalardan istifadə etmişlər. İndiyə qədər 307 boya qalığı aşkar edilmişdir ki, onların 40% tünd-qırmızı, 20% al qırmızı, 20% açıq-qırmızı, 4% çəhrayı, 4% sarı, 4% isə qaradır.

Amma sual yaranır: alimlər ən qədim rəssamlar deyərkən

kimləri nəzərdə tuturlar? Mənəvi mədəniyyətin (inancın, bəzək əşyalarının, dəfn etmənin) ilk əlamətlərinə malik olmuş neandertallarımı, yoxsa yer üzündə ilk sənətçilər sayılan, mağara təsvirlərini yaratmış və Avropaya 35-40 min il öncə gəlmiş kromanonları? Onda, 350-400 min il öncə boyanı əldə edən və hazırlayan kim olmuşdur? Alimlərin rəyincə, bu şərəf Homo erectus-a qismət olmuşdur. Bəlli olduğu kimi, onlar 1, 5-2 mln. il öncə yaranmış, 400 min il öncə yox olmuşlar.

Qayaüstü təsvirlərin yalnız 30-40 min il öncə yarandığına ciddi tədqiqatçıların heç biri şübhə etmir. Söhbət hazır rəsmlərdən yox, onların hazırlandığı ilk materialdan gedir. Homo erectus-un təbii boyaq maddəsini hazırlamaqda məqsədi nə olub? Dik yeriyən insanlar özlərini əsasən qırmızı boya ilə rəngləyirmişlər. Bəs qalan boyalarla nə edirlərmiş? Sual açıq qalır. Bir fakt təkzibedilməzdir ki, Avropada qayaüstü təsvirlər 30-40 min il öncəyə aiddir, ilk boya isə 350-400 min il öncə Afrikada hazırlanmışdır.

## II Fəsil
## İnsanın yaranması haqqında nəzəriyyələr

İnsanın yaranışı məsələsi min illər boyu onları narahat etməkdədir. Alimlər indi də bu məsələni dəqiq həll edə bilməmişlər. İnsanın kökü, mənşəyi problemini təbiətşünaslıq (antropologiya, biologiya, fiziologiya), humanitar elmlər (arxeologiya, psixologiya, sosiologiya), texniki elmlər (kibernetika, bionika və s.) öyrənir. Onların arasında antropologiya xüsusi yer tutur.

Antropologiyanın başlıca mövzusu antropogenez (yun. anthopos – insan və genesis – mənşə) – insan cinsinin bütün növlərinin yaranışı və təkamülü problemidir. Bu elm antropogenezə – insanın yaranışına – biogenezin davamı kimi baxır. Çağdaş insan bir-biri ilə bağlı olan iki prosesin antropogenez və antropososiogenezin nəticəsi kimi yaranmışdır.

Hazırda antropososiogenez haqqında bir sıra nəzəriyyələr var. Onlara nəzər salaq.

### 2.1. Filogenez və ontogenez nəzəriyyəsi

Elmi ədəbiyyatda insan cinsini üç böyük qrupa ayırırlar: arxantroplar – formalaşmaqda olan insanlar (pitekantroplar, sinantroplar və digər ilk növlər); paleoantroplar (neandertallar) – ibtidai insan sürüləri; neantroplar (Homo sapiens) yəni «hazır insanlar». Antropososiogenez prosesi ən azı 1 mln. il öncə başlamış, təxminən 35-40 min il öncə aşağı və yuxarı paleolitin sərhədində başa çatmışdır. Bu dövr insanın və cəmiyyətin yaranması dövrü sayılır.



Alimlər antropogenezi geniş və dar anlamlarda şərh edirlər. Antropogenez geniş anlamda hominidlərin ən ilk növlərindən (pitekantropdan) başlamış ali növünə (Homo sapiens sapiensə) qədər insanın bütün tarixi təkamül tiplərini əhatə edir.

Antropogenezin dar anlamda şərhi isə bu prosesin Homo habilisdən pitekantropa – ilk meymunabənzər insana keçilməsini və bu keçidin 1-1, 5 mln. il öncə baş verdiyini nəzərdə tutur. Bu keçid dövründə xüsusilə kəllədə və bədəndə gözəçarpan dəyişikliklər baş vermişdir.

Sosiogenez anlayışı isə bəşəriyyətin yazıyaqədərki, ilk dövlətlərin (Şumer, Akkad, Qədim Misir) yaranmasına qədərəki bütün tarixini əhatə edir. İnsanın tarixəqədərki keçmişinə (bunun 14 mln. il olduğu ehtimal edilir) münasibətdə «filogenez» termini işlədilir. Bu anlayış ilk primatların (driopitek, ramopitek və s.) 14 mln. il davam edən tarixəqədərki keçmişini ifadə edir. Buradan çıxış edərək mütəxəssislər avstralopiteklərin (o cümlədən *Homo habilisin*) yaranmasından (2, 2 mln. il öncə) *Homo sapiens sapiensin* (130 min il öncə) yaranmasına qədər olan dövrü dar anlamda antropogenez adlandırırlar. Filogenez nəzəriyyəsinə görə, ən qədim insanlar avstralopiteklərdən (Homo habilisdən) başlanğıc almışdır. Onlar güclü iki ayaqlı insanabənzər, ilk alətlər və silahlar qayırmağı bacaran varlıqlar olmuşlar, halbuki onların əcdadları ancaq daşdan, ağacdan, heyvan sümüklərindən alət kimi istifadə etmişlər.

*Filogenez* (yun. Phyle – cins, qəbilə və genesis – mənşə, kök) orqanizm qruplarının tarixi yaranışını nəzərdə tutur. Bu anlayışı 1866-cı ildə E.Hekkel elmə gətirmişdir. Bu anlayış vasitəsilə o, müxtəlif canlı növlərinin təkamülü prosesində onlarda yaranan dəyişkənliyi ifadə edirdi. Psixologiyada filogenez təkamülün məhsulu olan psixikanın dəyişilməsi kimi başa düşülür. *Ontogenez* fərdi inkişafı nəzərdə tutur.

Antropoloqlar tarixəqədərki antropogenez prosesini iki dövrə ayırırlar. Birinci dövrə pitekantropları (Homo erektusu), sonrakı

dövrə isə neandertal insanını aid edirlər.

Geniş anlamda "antropogenez" hominidlərin Homo sapiens yaranana qədər mövcud olmuş bütün tarixi-təkamül formalarının toplamını ifadə edir, başqa sözlə, filogenezi və dar mənada götürülən (yuxarıya bax) antropogenezi özünə daxil edir. Sosiogenez isə ilk antik dövlətlər yaranana qədər mövcud olmuş tarixəqədərki cəmiyyət formalarının məcmusunu göstərir. Həmçinin antropogenezlə bağlı olaraq hominizasiya termini də işlənir. *Hominizasiya* (lat. Homo-insan) ilk spesifik insanı özəlliklərdən başlamış Düşünən insan (*Homo sapiens*) növünün yaranmasına qədər olan insanilşəmə prosesini ifadə edir. Ağıl və zəkası, iki ətraf üzərində hərəkət etmək qabiliyyəti, ön ətraflarının əmək vərdişlərinə uyğunlaşması, özəlliklə ön beyninin (neokorteks) təkamülü, formalaşmış çənə aparatı, nitqi, nəzəri təfəkkürü, intellekti, özünəməxsus ontogenezi (fərdi inkişafı), maddi mədəniyyət yaratmaq və digər parametrləri ilə Homo sapiens təbiətin nadir fenomenidir. Təbiətin bu fenomeninin yaranmasında, onun təbii əcdadlarının insanilşəməsi prosesində əmək fəaliyyəti (bu əmək alətləri hazırlamaqdan başlamışdır) həlledici amil sayılır.

Homo sapiensin əcdadı Homo erektus sayılır. İki ətraf üzərində yeriyən bu əcdad (Homo erektus) 1, 2-1, 3 mln. il yaşamış və bu zaman kəsiyində heç bir gözəçarpan – makrotəkamül dəyişkənliyinə məruz qalmamışdır. Amma birdən onun populyasiyaları azalmağa başlamış və nəsli kəsilmişdir. Bu hadisəni iqlim dəyişkənliyi ilə bağlayırlar. Ancaq onun yaşamaqda davam etmiş bir hissəsi qəflətən *Homo sapiensə* çevrilmiş, beyin həcmi 300-600 $sm^3$-dən 950-1450 $sm^3$ qədər böyümüşdür.

Alimlər müəyyənləşdirmişlər ki, təxminən 500 min il öncə *Homo erektus* Avropada görünmüşdür. Bunlar indiki Almaniya ərazisində qalıqları tapılmış *Homo erektus heidelbergensis* və Macarıstanda tapılmış *Homo erektus palaeohunqarikus* olmuşlar.

Homo erektus təxminən həmin dövrdə Çin ərazisində görünmüşdür. Bunlar sinantroplar adlanır. Afrikada isə iki ayaq üzərində yeriyənlərin (*Homo erektus*) 1, 3-1, 6 mln. il öncə göründüyü bildirilir. Hesab edilir ki, Homo erektus Avropaya, Asiyaya təbii şəraitin kəskin dəyişilməsi ilə bağlı olaraq Quzey Afrikadan miqrasiya etmişdir.

Alimlər nəticə çıxarırlar ki, bizim ilk əcdadımız abstrakt



təfəkkür qabiliyyətinə malik *Homo erektus* olmuşdur. Homo erektus 350-400 min il öncə ilk süni boyalar hazırlaya bilirmiş.

Qeyd edək ki, biz öz əcdadlarımız haqqında yalnız onların arxeoloji qazıntılar zamanı tapılmış qalıqlarının təhlili, öyrənilməsinə əsasən mühakimə yürüdürük.

Təkamül baxımından Yerdə bir vaxtlar yaşamış hominid növləri arasında yalnız *Homo sapiensin* bəxti gətirmişdir. Belə ki, yalnız bu növ planetimizdə yayılaraq indiyədək yaşaya bilmişdir. Homo sapiens növü təkamülün magistral yolunu tutaraq hominidlərin spesifik yaşayış mühitinə (məsələn, dağlar, tropik meşələr və s.) uyğunlaşma prosesində zəif və sadə quruluşa malik olmuş növlərini sıxışdırıb aradan çıxarmışdır. Rus antropoloqu V.P.Alekseyevə görə, *Homo* cinsi əzəldən geniş ekspansiyaya (təsir dairəsini genişləndirməyə) can atması ilə fərqlənir və bu gün Avropada həqiqətən universal, geniş iqlim və coğrafi şəraitlərə hesablanmış texnogen sivilizasiyalar ekspansiyaya canatımın nəticəsidir.

Planetin tarixində böyük geoloji dəyişikliklər baş verdiyi zaman yaşayış şəraiti son dərəcə qeyri-sabit olmuş, canlı varlıqların daha az ixtisaslaşmış, xarici mühitdən asılı olan universal formaları yaşama üstünlüyü əldə etmişlər. Belə formalar canlı orqanizmlərin daha yüksək taksonomik vahidlərinə başlanğıc vermişdir.

## 2.2. Kreaseonizm nəzəriyyəsi

İnsanın yaranışı haqqında konsepsiyaların, nəzəriyyələrin çoxu olduqca məhdud qaynaqlara qapanırlar. Onları üç qrupa ayırmaq olar: insanı allah yaratmışdır (kreasionist nəzəriyyə); insan meymundan əmələ gəlmişdir (darvinizm); insan yadplanetlidir (insanın yerdənkənar mənşəli olması nəzəriyyəsi). Birinci və ikinci yanaşmalar köhnədir, üçüncü yanaşma isə yenidir. İnsanın ilahi mənşəli olduğunu israr edənlər *kreasionistlər*, təbii yolla yaranışının tərəfdarları *təkamülçülər*, kosmik yaranış olduğunu iddia edənlər *kosmistlər* adlanır.

*Kreasionizm* insanın yaranışı haqqında ilk və *dini mifoloji* konsepsiya sayılır. Bu konsepsiya bütpərəstlik və xristianlıq ənənələri üzrə yaradılmışdır.

İnsanın yaranışı haqqında əski miflərdə deyilir ki, müxtəlif insanabənzər varlıqlardan tanrıların, demiurqların, qəhrəmanların

iradəsilə tədricən insan yaranmışdır.

Təbiət güclərinin təcəssümü olan tanrıların çoxluğuna inam əsasında yaranan *bütpərəstlik dinlərində* insanın bu tanrılar tərəfindən yarandığına inanılır. Məsələn, şumerlərə görə, ilk insanları tanrılar gildən yaratmışlar ki, onlara xidmət etsinlər. Əski yunanlarda isə insanları tanrıların bilavasitə nəsilləri sayır, öz qəhrəmanlarını olimp tanrısı Zevsin nəsli səviyyəsinə qaldırırdılar.

Təkallahlı dinlərin müqəddəs kitablarında gətirilən dəlillərin fərqli olmasına baxmayaraq, insanın yaranışına baxışların mahiyyəti eynidir: insanı Allah yaratmışdır, ilahi yaradıcılıq prosesi isə sirrdir. Belə müddəa elmi sübutun deyil, yalnız inancın predmeti ola bilər.

Antropogenez konsepsiyası olaraq kreasionizm bir sıra məsələləri həll etməmişdir. Məsələn, insana oxşarlığı olan, ancaq insan olmayan varlıqların aşkar edilmiş qalıqlarının dünyanın dini mənzərəsinə sığmadığı bildirilir. Ondan başqa, insanın Allah tərəfindən yaradılmasından çox öncəki tarixə aid qədim Daş əmək alətləri tapılmışdır ki, bu da onları kimin yaratdığı sualını doğurur. Sonra təkamül nəzəriyyəsinin yaradılması ilə canlı təbiətin inkişafının ümumi qanunauyğunluqlarına insanın tabe olmadığı müddəasının düzgün olub-olmaması məsələsi irəli sürülmüşdür.

Bütün bu məsələlər elm adamlarını və filosofları insanın yaranışı ilə bağlı problemlərin həllinin başqa yollarını axtarmağa sövq etmişdir. Onların heç də hamısı təkamül nəzəriyyəsi ilə razılaşmırlar. Məsələn, hələ Aristotel deyirdi ki, bütün şeylərdə, o cümlədən canlı orqanizmlərdə əzəldən mövcud olan məqsəd onları hərəkətə təhrik edir. İnsan bu prosesin gedişində yaranmışdır. Nomogenez nəzəriyyəsinin müəllifi K.Berq də bu tezislə razılaşır, məqsədəuyğunluğu canlının əzəli xassəsi sayır. Nomogenezə görə, insanın yaranması bu məqsədəuyğunluqla öncədən müəyyənləşdirilmişdir.

Yeni dövrdə insanın Dünya Zəkası tərəfindən yaradıldığı ideyası irəli sürüldü. İndi bu ideyanı əsaslandırmağa çalışırlar. Belə ki, L.Mono hesablamışdır ki, sayı $10^{1000}$ rəqəmi ilə göstərilə bilən mürəkkəb insan genomunun yaranması üçün təkamül bir fərd üçün $10^{900}$ sayda genləri olan variantların təsadüfi seçilməsi tələb olunardı. Belə rəqəmlərin real olmadığına əsaslanıb, Mono həyatın və insanın bənzərsiz olduğunu və təbiətin gedişində yaranmadığını bildirir.



## 2.3. Kosmizm nəzəriyyəsi

XX yüzilin sonları və XXI yüzilin başlanğıcında insanın yerdən kənarda yaranışı hipotezi geniş yayılmağa başladı. Alimlər Yer kürəsinə insanın özgə planetlilər tərəfindən gətirildiyinə dair nizamlı bir konsepsiya yaratmağa can atırlar. Bu məqsədlə travmatoloji məlumatlara da müraciət edilir və nəticə çıxarılır ki, pişikdən, itdən və i.a. fərqli olaraq insan hətta bəzən düz yerdə yıxılır və elə əzilir ki, sanki avtomobil qəzasına düşüb. Deməli, səbəb insanın Yerin normal cazibə qüvvəsinə uyğunlaşa bilməməsidir. Bu fikrə gələr-gəlməz "Kosmoaxtarış" Assosiasiyasının rəhbəri V.Çernobrov özünə başqa bir sual verir: bəlkə biz kütləsi kiçik olan başqa bir planetdə özümüzü daha yaxşı hiss edə bilərik? Rusiya Tibb Elmləri Akademiyası (RTEA) Tibbi-Bioloji Problemlər İnstitutunun mütəxəssisləri tam izolyasiya şəraitində bitkilərin və heyvanların bioritmlərini öyrənmək məqsədilə eksperimentlər aparmış və müəyyən etmişlər ki, insanlardan başqa qalan canlılarda 24 saat müddətində doğma planetin ritmi ilə tam müvazinət saxlanır.

Kosmik nəzəriyyənin üç variantı vardır. Birinci variantda deyilir ki, nə zamansa, Yerə özgəplanetli humanoidlər gəlmiş və hansı səbəbdənsə öz dünyaları ilə əlaqələrini itirdikləri üçün vəhşiləşmişlər, bundan sonra yer sivilizasiyasının tarixi sıfırdan başlamışdır. İkinci varianta görə, sivilizasiyası yüksək inkişaf etmiş özgəplanetlilər sınaq şüşəsində yer şəraiti üçün daha yararlı olan düşünən varlıqları seleksiya yolu ilə əldə etmişlər və insanlar onların birbaşa nəsilləridir. Üçüncü variantda deyilir ki, humanoid-əcdadlar yerdəki primatlarla çarpazlaşaraq insan cinsinə başlanğıc vermişdir. Öz fikirlərini sübut etmək üçün kosmizm tərəfdarları Naska səhrasındakı sirli təsvirləri, mağaraların divarlarındakı skafandrlı kosmonavt təsvirlərini, ibtidai qəbilələrin adi gözlə müşahidə olmayan ulduzlar haqqında izahı çətin olan məlumatlarını və s. dəlil gətirirlər. Onların başlıca dəlili isə yer qabığı qatlarında yüz min, hətta milyon illər öncəyə aid edilən düşünən insana məxsus sümüklər və metal əşyalardır. Belə çıxır ki, düşünən insan avstralopiteklərin və pitekantropların törəmələri olmamış, onların yaşıdları olmuşlar. Bu isə yalnız o halda ola bilər ki, düşünən canlıların başqa planetdən gətirildiyi düşünülsün. Hətta ən əski miflərdə belə yer sivilizasiyasına yadplanetlilərin təsiri kimi şərh edilə bilən süjetlər vardır.

Tanınmış antropoloq Bolk insan qiyafəsilə meymun embrionunda qəribə oxşarlıq aşkar edərək insanın meymundan deyil, meymunun insandan yarandığı versiyasını irəli sürmüşdü. Bolkun nəzəriyyəsi qədim insanın skeletinin müasir insan skeletindən, əzələlərinin və çənələrinin zəifliyini, sıx tük örtüyünün olmaması kimi xassələrini izah edir. Klassik antropologiya bizim əcdadlarımızda buzlaşma dövründə növlərarası kəskin mübarizədə onların yaşamasına kömək etmiş amilləri əsaslandıra bilmir. Sirr embrion halında böyüklərə xas olan əlamətlərin inkişafının ləngiməsində yaxud tam yoxluğu (neotoniya) ilə bağlanır. Neotoniya sayəsində təkamül qəflətən böyüklərə aid, konservativ əlamətlərə toxunmadan başqa istiqamət ala bilər. Meymunla müqayisədə insanın bütün orqanlarının formalaşmasının zaman baxımından uzanması hələ embrional səviyyədə (xarici şəraitin dəyişilməsindən asılı olaraq) onların dəyişilməsinə imkan yaradır.

Hesab edilir ki, insan beyninin "uşaqlıq" çağının uzanması onun bütün həyatı boyu öyrənmək, yaddaş qabiliyyətini, təfəkkürünün formalaşmasını təmin edir. İnsan beyninin uyğunlaşma imkanı dəfələrlə artmışdır. Beynin kütləsinin artması isə onun inkişafının uzanmasının yeganə nəticəsi sayılır. Bu onunla sübut olunur ki, biz öz beynimizin imkanlarının az bir hissəsindən istifadə edirik. Beynimizin 90% sanki mürgüdədir. Deməli, bizə beynin böyüklüyü yox, onun bizə öyrənməyə, düşünməyə və i.a. imkan verən fizioloji özəllikləri lazımdır.

Bolkun nəzəriyyəsi bəşəriyyətin təkamülünün sadə və məntiqi sayılan izahını verir: əlamətlərin dəyişilməsi beynin adaptasiya qabiliyyətinin artması neotenik təkamülün nəticəsidir, əlamətlərin dəyişilməsi isə təbii seçmə üçün daha münasibdir. Kromanion insanının təkamülü bu cür getmişdir. Hominidlərin digər qolu (neandertal) isə məhv olmuşdur.

Polşa antropoloqu T.Belitskiy hominidlərin beyin təkamülünün heyrətamiz dərəcədə sürətli getdiyinə təəccüblənmiş, heyvanlar aləminin tarixində ən sürətlə baş vermiş beyin təkamülünün 2-3 mln. il öncə başlandığını və bu zaman kəsiyində hominidlərin beyninin üç dəfə böyüdüyünü möcüzə adlandırmışdı. Ancaq qarşıya başqa bir sirr də çıxmışdır: təxminən 100 min il öncə beyinin böyüməsi ildırım sürətilə dayanmış, 15 min il öncə isə hətta bir qədər azalmışdır (15



min il bəlli olduğu kimi, bizim sivilizasiyanın təxmini yaşı sayılır).

Kaliforniyanın Stenfort Universitetinin genetikləri təkzib-edilməz dəqiqliklə müəyyən etmişlər ki, "Adəm və Həvva" genetik cəhətdən bir-biri ilə heç vaxt görüşməmişlər; müasir qadınların genetik anası 143 min il öncə, müasir kişilərin genetik atası isə 59 min il öncə yaşamışlar. Bu kəşf nəinki insanın ilahi yaranışı haqqında İncildəki versiyanı, həm də antropogenezin digər, çağdaş insan növünün (*Homo sapiens*) Yerdə artıq milyon illərdir yaşadığını və ramapiteklərin, avstralopiteklərin, pitekantropların çağdaş insanın əcdadları olmadığını israr edən alternativ nəzəriyyələrini təkzib edir. Ancaq 143 və 58 min il Darvinin klassik nəzəriyyəsi ilə səsləşir. 143 min il önçəki epoxa son pitekantroplar və neandertallar epoxası olmuş onların arasından da Homo sapiens irəli çıxmışdır, 59 min il öncəki epoxa isə müasir insan növünün qəti formalaşdığı zamandır.

Bizim bioloji əcdadımızla bağlı problemin həlli ilə əlaqədar çətinliklər bir çox hipotezlərin yranmasına səbəb olmuşdur. Paleontoloji tapıntılar əsasında təkamül nəzəriyyəsinin sübutunu axtaranların qarşılaşdığı başlıca çətinlik paleontoloji məlumatların tam deyil, qırıq-qırıq olması ilə bağlıdır. İndiyə qədər paleontoloqlar Yerdə yaşamış növlərin ancaq kiçik bir hissəsinin qalıqlarını aşkar edə bilmişlər. Mütəxəssislər bildirirlər ki, çöküntü halında qalmış qalıqların 90-99% -i həmişəlik yox olmuşdur. Əcdadların qalıqlarının Yer qatlarında aşkar edilmiş qalıqları isə hələ tam araşdırılmamışdır.

### 2.4. Antropogenezin mono və polisentrik nəzəriyyələri

Antropogenezlə bağlı həll edilməmiş problemlərdən biri də insanın təkamülünün başlanğıcı problemidir. Qarşıya iki başlıca sual çıxır: bizim ilk əzdadımız nə zaman – 1, 3 mln. yoxsa, 6 mln. il öncə yaranmışdır?; Bəşəriyyətin ulu vətəni haradır, Afrika, Asiya, Yaxın Şərq, yoxsa Avropa?

Hazırda bir çox dünya alimləri *polisentrizm* – müasir insan növünün (*Homo sapiens*) və onun irqlərinin Yer kürəsinin ayrı-ayrı coğrafi bölgələrində qədim insanların müxtəlif formalardan təkamül etdiyinə dair – nəzəriyyəni müdafiə edirlər. Amma Rusiya antropoloqlarının çoxu bu nəzəriyyəni qəbul etmir. Onların mövqeyini amerikan antropoloqlarının 2002-ci ildəki kəşfləri təsdiq edir. 1997-ci ildə beynəlxalq alimlər qrupu 1 mln. il öncə

Həbəşistanda mövcud olmuş tarixəqədərki insanın *(Homo erektus)* kəllə qutusunu aşkar etmişdir. Bundan sonra Berkli Universitetinin (ABŞ) alimləri bu kəllənin xırda hissələrini yığıb kəlləni bərpa etmək üçün iki il daha çalışmışlar. Həbəş və Amerika alimlərinin işlərində göstərilir ki, Həbəşistanda tapılan kəllə Asiyada tapılmış kəllə qalığına olduqca çox oxşardır. Həbəşistanda tapılmış kəllə qutusu bütün insan irqlərinin tarixəqədərki insandan – Homo erektus – yəni bir kökdən törədiyini təsdiq edir. Alimlərin fikrincə, *Homo erektus* 1, 8 mln. il öncə yaranmış və çox tezliklə Afrikaya, Asiyaya və Avropaya yayılmışdır. Homo erektus bir növ olmuş, iki yerə ayrılmamışdır. Alimlərin fikrincə, Homo erektusun Afrika qolu müasir insana (Homo sapiens), Avropa qolu neandertala başlanğıc vermiş, Asiya qolu isə həmişəlik yox olmuşdur.

Polisentrizmin tərəfdarlarından biri V.M.Alekseyevə görə, insan, eləcə də Homo cinsinin ona yaxın formaları növ müəyyənliyinə malik deyil, ancaq onun populyasiya müəyyənliyi var. Təbiətdə elə bir orqanizm yoxdur ki, insan qədər ətraf mühit şəraitinin dəyişkənliklərinə güclü reaksiya versin. Qurd sürüsündə tərbiyə alan uşaq qurd xarakteri alır, ancaq qurd hər cür şəraitdə qurd olaraq qalır. Əgər bütün qurdlar yox olarsa, yalnız bir cüt qurd qalarsa, müəyyən vaxtdan sonra onlar artıb çoxalacaq və növün bütün morfoloji əlamətlərini daşıyacaqlar. İnsan növü (Homo sapiens) isə belə deyil. Əgər sonrakı nəsillər müxtəlif coğrafi və iqlim şəraitində yaşamalı olarsa, yaşadıqları şəraitə uyğunlaşıb xarakter və həyat tərzinə görə fərqli populyasiyalar olacaqlar. *Populyasion dəyər* prinsipi insanın yaranışı, *Homo* cinsinin sürətlə təkamül etdiyi haqqında polisentrizm nəzəriyyəsi ilə uzlaşır. İnsan populyasiyalarının fərqi ondadır ki, onlardan bəziləri sivilizasiya yolu tuta bilmiş, digərləri isə yox. Populyasiya prinsipi baxımından hər bir insan fərdi bənzərsizdir. Primatlara mənsub olan fərdlər isə bu keyfiyyətdən məhrumdur.

Polisentrizm, müasir insanın bir neçə coğrafi məkanda yarandığı hipotezinin banisi Amerika antropoloqu F.Veydenreyx müasir insan tipinin və onun irqlərinin formalaşdığı dörd bölgəni göstərir: Cənub-Şərqi Asiya (avstraloidlər), Cənubi Afrika (neqraoidlər), Şərqi Asiya (monqoloidlər), Ön Asiya (evropoidlər).

Polisentrizmin Qərb nümayəndələrindən A.Tom üç, F.Smit isə beş əsas regionda müasir insan tipinin formalaşdığını göstərir. Rus



antropoloqları V.P.Alekseyev, A.A.Zubov və b. "disentrizm" hipotezi ilə yəni insanın formalaşmasının ilk mərkəzi olduğu ideyası ilə çıxış edirlər: qərb (evropoid-neqroid), şərq (monqoloid yaxud avstralo-monqoloid).

İnsanın bir mərkəzdən yarandığını iddia edən hipotezlər də vardır. K.Fokt, F.Ameqino, C.Sera insanların Amerika meymunlarından yarandığını sübut etməyə çalışırlar (*simial hipotezi*). İngilis bioloqu anatomiyaçı F.V.Cons insanın birbaşa uzuntopuq primatlardan yarandığı hipotezi (*tarzial hipotezi*) ilə çıxış edir.

Amerika tədqiqatçısı A.Uilson 1992-ci ildə "*Afrika Həvvası*" hipotezini açıqladı. Onun hipotezinə görə, bütün insanlar təxminən 100-200 min il öncə Afrikada yaşamış tək qadından yəni Həvvadan törəmişlər, sonradan ondan törənən nəsillər digər qitələrə yayılaraq irqlər (populyasiyalar) əmələ gətirmişlər. Bu hipotezin ciddi hesablamalara əsaslandığı bildirilir. Belə ki, A.Uilson mitoxondri DNT tiplərinin dünyada yayılmasının təhlili əsasında işləyib hazırlamışdır. Onun kəşfi dünyanın ən iri laboratoriyalarında tədqiqatlarda böyük maraqla qarşılanmışdır. Aparılan işlər bir-birindən asılı olmayaraq Şərqi Afrikanın insanın yarandığı ilk məkan olduğunu təsdiq edir. Bu DNT-nin başqa tədqiqatçılar tərəfindən ayrı-ayrılıqda həyata keçirilən analizlərinin nəticələri çağdaş, hazırkı insanın təxminən 150 min il öncə Afrikada yarandığını, oradan Avrasiyaya yayıldığını təsdiq edir. Buna oxşar məlumatları amerikan alimi M.Hammerin başçılıq etdiyi tədqiqatçılar qrupu (Arizon Universiteti) da əldə etmiş, hipotetik «Adəmin» yaşının 160-180 min il olduğunu dəqiqləşdirdiklərini bildirmişlər.

## 2.5. F.Engelsin əmək nəzəriyyəsi

Antropogenez haqqında Engelsin əmək nəzəriyyəsinə Darvin nəzəriyyəsinin məntiqi davamı kimi baxmaq olar. Darvin (1809-1882) insanın yaranışına dair baxışını 1871-ci ildə nəşr etdirdiyi «İnsanın yaranışı və cinsi seçmə» əsərində şərh etmişdir. Darvin yazırdı ki, insan çox uzun sürən təkamül, yaşayış uğrunda mübarizə, güclü fərdlərin və növlərin yaşaya bilməsi, valideynlərdən yaxşı əlamətlərin irsən alınması, mühitin dəyişən şəraitinə uğurla uyğunlaşması, əmək, düşünmək və nitq vərdişlərinin formalaşması yolu ilə yaranmışdır. Növdaxili çoxalma prosesində ayrı-ayrı fərd-

lərdə üzə çıxan yeni keyfiyyətlər onların növün qalan fərdlərindən üstünlüyünə səbəb olur və yaşadıqları şəraitə yaxşı uyğunlaşma şansı verir. Qazanılmış yeni keyfiyyətlər adaptasiya prosesində möhkəmlənir, nəsildən-nəslə ötürülür və yeni növ yaranır. Darvin insanın yaranışı və müasir tiplərinin formalaşmasında fərdlərin fiziki gücündən çox qarşılıqlı yardım qabiliyyətinə xüsusi diqqət yetirmişdir: "İnsan gücünün azlığı ona başqalarına yardım etməyi və onlardan yardım almağı öyrədən əqli qabiliyyətləri ilə daha çox tənzimlənirdi".

Darvinin insanın təkamülü faktorlarından biri kimi xüsusi əhəmiyyət verdiyi əqli qabiliyyətlərin inkişafında, eləcə də insanın digər əlamətlərinin formalaşmasında F.Engels əməyin roluna üstünlük verir.

Engelsdə əmək anlayışı daşdan, sümük və ağaclardan alətlər hazırlanmasından başlanan məqsədyönlü fəaliyyəti bildirir. Engels şüurun əmək prosesində formalaşdığını yazır. Əməyin gedişində insanlarda bir-birinə nəsə demək tələbatı yaranmış, beləliklə, birgə əmək fəaliyyətində insanlar arasında ünsiyyət vasitəsi olan dil və nitq əmələ gəlmişdir. Nəhayət insanların məqsədyönlü fəaliyyəti cəmiyyətin və mədəniyyətin yaranmasına güclü təkan vermişdir.

Engels insanın təbii əcdadlarında iki ətraf üzərində hərəkət etmək qabiliyyətinin olmasını əmək prosesinin başlanması üçün həlledici addım sayır, əlləri əməyin məhsulu hesab edir, insanın mühitə fəal uyğunlaşmasını, *düşünən insanın* digər növlərdən ekoloji üstünlüyünü antropogenezin özünəməxsus keyfiyyəti kimi qeyd edirdi. Çağdaş elmi araşdırmalar Darvinin nəzəriyyəsinin xeyrinə və əleyhinə olan yeni faktlar aşkar edir. Engelsin antropogenez nəzəriyyəsi heç də hamılıqla qəbul edilmir. Onun nəzəriyyəsinin əsas müddəasını – insanlaşma (hominizasiya) prosesində əmək alətləri qayırılmasının həlledici rolunu dünya antropoloqlarının çoxu qəbul edir, bununla belə, Qərbdə "mədəni adaptasiya" ideyası irəli sürülür ki, bu, artıq Engelsin konsepsiyasına sığmır. Mədəni adaptasiya ideyası "autokatalitik reaksiyaya" yaxud genetik amilin aparıcı rolu sayəsində bioloji inkişaf və mədəniyyət arasında əks əlaqənin olduğuna əsaslanır. Tektonik dəyişik-liklər, radiasiyanın artması, Yerin geomaqnit sahəsinin inversiyası (parçalanması) və s. kimi təbii amillərdən çıxış edən digər yanaşmalarda sosial amil kimi əməyin



həlledici olması inkar edilir.

Əmək faktorundan imtina edənlər beyinin təkamülünə də başqa səpkidən yanaşırlar. Hazırda bir neçə model təklif edilir. Onlardan biri daimi sürətlə beyin kütləsinin tədricən artmasını nəzərdə tutur, digəri beyinin böyüməsinin autokatalitik prosesin sürətlənməsi ilə əlaqəsindən çıxış edir, başqa bir model «epizodik böyümə» yəni beynin təkamülündə sürətli dəyişkənliyin yavaş inkişafla növbələşməsi təsəvvürünə əsaslanır.

Genetiklər və biokimyaçılar insanı və insanabənzər meymunları eyni cinsdə birləşdirmək üçün getdikcə daha çox əsaslar tapırlar. İnsanın və şimpanzenin genetik kodlarının 99% uyğun olduğu bildirilir. Bunu insanda və meymunda eyni bir irsi əlamətə cavabdeh olan ixtiyari götürülmüş DNT nukleotidlərinin ardıcıllığını öyrənməklə təsdiq edirlər. Alınmış bu nəticəni isə insanda və şimpanzedə zülalların tərkiblərinin və quruluşlarının hətta 99% çox uyğun gəldiyi faktı ilə bir daha təsdiq edirlər. Eyni bir cinsə məxsus gəmiricilərin iki növü arasındakı biokimyəvi və genetik fərqlərin 20-30 dəfə çox olduğunu müəyyənləşdirmişlər. Demək, Darvin nəzəriyyəsi düzgündür. Amma yarım əsrdən sonra ona da şübhə etməyə başladılar. Çox tanınmış, din ilə elmin barışdırılmasının qatı nümayəndəsi olan amerikan paleontoloqu Q.Osborn (1857-1935) *aristogenez* hipotezi ilə çıxış etdi. Bu hipotezə görə, üzvi aləmin yaranışı məqsədyönlü təkamüllə gerçəkləşdirilir. Osborna görə, insanın əcdadları insanabənzər meymunların əcdadları ilə bağlı olmamış, başqa sözlə, insan meymunlar arasından doğmamışdır; insanlar öncə Mərkəzi Asiyada inkişaf etmiş, onların əcdadları isə quru həyat tərzi yaşamışlar. Təkamül xarici mühitin təsirindən çox orqanizmlərdə olan ixtiyari proqressiv inkişaf qabiliyyəti sayəsində baş verir.

Göründüyü kimi, Osbornun hipotezi Engelsin əmək nəzəriyyəsi ilə bir araya sığmır. Əmək nəzəriyyəsindən çıxış edərkən nəzərə alınmalıdır ki, əmək faktorunun yaranması ilə təkamülün bioloji faktorlarına insanın tabe olması bitmişdi. Dəyişkənlik, irsiyyət və təbii seçmə faktorları öz təsirini uzun zaman saxlamış və tədricən öz yerini sosial amillərə – əmək fəaliyyətinə, sosial həyat tərzinə, nitqə və təfəkkürə vermişdir. Ancaq təbii amillərin insana təsir etmədiyini düşünmək sadəlövhlük olardı.

### 2.6. Antropogenezin mutasiya nəzəriyyəsi

İnsan özünü təbiətdən əmək, şüurlu fəaliyyət qabiliyyəti sayəsində ayırmışdır. Müasir elm hesab edir ki, insana başlanğıc vermiş əcdadlarda əmək qabiliyyətinin yaranması keyfiyyət dəyişkənliyinə keçid üçün imkan yaratmış hansısa ilkin bioloji şərtə əsaslanmalı idi. Bu düşüncə insanın əcdadı olmuş təbii varlıqda sonradan biososial təkamüllə yeni nəsillərdə möhkəmləndirilmiş faydalı mutasiyanın rolu haqqında təsəvvürünü doğurmuş və antropogenezin mutasiya nəzəriyyəsi yaranmışdır. Bu nəzəriyyəyə görə, faydalı mutasiya müxtəlif səbəblərdən yarana bilərdi.

Mümkün olan səbəblərdən biri yaxın kosmosun və *günəş aktivliyinin təsiri* sayılır. Yaxın kosmosun təsirinin iki istiqamətdə baş verdiyi düşünülür: biri qədim meymunların yaşayış mühitinin, ilk öncə landşaftın (Yer kürəsinin formasının) və iqlimin dəyişilməsi, digəri həyatın mutasiyalar, təbii seçmə və yaşayış uğrunda mübarizə vasitəsilə təzahür edən dəyişiklikləri yolu ilə. Günəş aktivliyinin yerdəki proses və hadisələrə təsirini rus alimi A.L.Gijevskiy XX əsrin 30-cu illərində sübut etmişdir. Çağdaş elm bununla o cəhətdən razılaşır ki, Günəşin maqnit sahəsinin dövri olaraq dəyişilməsi sinir sisteminə və ürək fəaliyyətinə təsir edir və bu qədim meymunlarda mutasiya yarada bilərdi.

Rus antropoloqu Q.N.Matyuşkin mutasiyanın yaranmasının başqa bir səbəbini *Yerin maqnit qütblərinin dövri olaraq dəyişilməsində* görür. Yazır ki, son dörd mln. il ərzində Şimal və Cənub maqnit qütbləri dörd dəfə dəyişilmişdir. Ancaq qütblər dəyişilən dövrdə biosferi kosmik şüalardan qoruyan Yerin maqnitosferi xeyli zəifləyir. Bu da ionlaşdırıcı radiasiyanı 60%, hominidlərin rüşeym hüceyrələrində mutasiyaların tezliyini iki dəfə artırır.

*Yerin geoloji fəallığı və aşağıdan radiasiya* insanın bilavasitə əcdadlarının təkamülünün əlavə amili kimi göstərilir. Belə ki, Şərqi Afrikada insanın əcdadlarının yaşadığı ərazidə 20 mln. il öncə yer qabığında çatlar əmələ gəlmiş və uran filizi yatağı yerin səthinə çıxmışdır. Bu təbii atom reaktoru (onun indi də orada olduğu aşkar edilib) ona yaxın mağaralarda yaşamış primatlara təsir edərək müxtəlif mutasiyalar törətmişdir. Orada yüksək radiasiya ilə yanaşı intensiv vulkanik proseslər, zəlzələlər müşahidə edilmişdir. Bütün



bunlar mutasiyaların tezliyinin artması və təbii seçmənin fəal getməsi üçün şərait yaratmışdır.

XX yüzilin 60-cı illərində alimlər aydınlaşdırdılar ki, genetik mutasiyalara təkcə radiasiya deyil, streslər də səbəb olur. Stress mövcud şərait və lazım olan nəticə arasında kəskin fərq yarandığı hallarda orqanizmin sərt harmonal reaksiyasıdır. Bu zaman mənfi emosiyalar, qorxu, qəzəb, nifrət və s. baş qaldırır. Antropoloqlar və paleopsixoloqlar müəyyənləşdirmişlər ki, iqlim kəskin dəyişildikdə yaşamaq üçün zəruri ehtiyatlar tükənir və aclıq çox vaxt stress yaradır. Nəticədə orqanizmin immun sistemində və genetik aparatında pozulma baş verir.

Amma alimlər hesab edirlər ki, təbii radiasiyalar və digər mutagen amillər meymunun insana çevrilməsinin başlanmasında yalnız ötürücü həlqə ola bilərdi. Çünki bu amillər xalis heyvani mövcudluq üsulunda böhrana səbəb olur. Belə ki, radiasiya beyinin bəzi sahələrini (badamabənzər nüvəni, beyin qırışlarını) pozmuş, bu da arxa ətrafların tutmaq funksiyasının ixtisarına və yalnız hərəkət funksiyası üzrə ixtisaslaşmasına gətirə bilərdi. Bundan başqa, ali primatlarda cinsi tsikllər aradan qalxmış və bütün il boyu uşaqtörətmə qabiliyyəti yaranmışdır. İnstinktlərin hökmranlığı zəifləmiş yaşamaq üçün qaçılmaz olan informasiyaların ötürülməsi və saxlanmasının simvolik üsulları formalaşmış, yaşam qaydaları dəyişilməyə başlamışdır.

Radiasiyanın orqanizmə təsiri şübhəsizdir. Onun istənilən dozası orqanizmin genetik aparatında dəyişiklik yaradıb normadan kənara çıxan uşaqların doğulmasına səbəb ola bilər. Belə anormal uşaqlar sonradan uşaqlarına özünün əlamətlərini ötürmək qabiliyyətinə malik olurlar.

İnsanın qədim əcdadlarının da belə prosesə məruz qaldığı çox ehtimal edilir. Yəni baş vermiş mutasiya onlarda xromosomların sayını ixtisar etmişdir. Bəllidir ki, ibtidai meymunlarda xromosomların sayı 54-78 arasında dəyişilir, ali meymunlarda 48, insanda isə 46-dır. Bu fakta əsaslanaraq İtaliya genetiki B.Klarelli insanın uzaq əcdadında bir cüt xromosomun birləşməsi və nəticədə xromosomların sayının azalması hipotezini irəli sürdü. Bu hipotezə görə, beyinin və sinir sisteminin inkişafı üçün cavabdeh olan xromosomlar möhkəmlənmişdir. Bu müddəa həm də onunla təsdiq edilir ki, bəzi

müasir insanların somiatik hüceyrələrində anomal xromosomlar – qadınlarda xxy, kişilərdə xyy-yığını aşkar edilir. Belə xromosomları daşıyan fərdlər adətən əqli cəhətdən zəif və aqressiv olurlar.

Mütəxəssislər aşkar etmişlər ki, ali meymunlar və insan morfoloji və biokimyəvi cəhətdən – qanda və toxumalarda olan zülalların tərkibinə görə oxşardırlar, DNT quruluşuna görə isə fərq, yalnız 1%-dir.

Beləliklə, çağdaş təbiətşünaslıq antropogenezin bioloji, əmək və mutasiya nəzəriyyələrini davamlı və fəal inkişaf etdirir. Antropogenez abiotik, biotik və sosial amillərin vəhdəti səpkisində öyrənilir. Abiotik şərtlərə geoloji proseslər, coğrafi və fiziki-kimyəvi amillər, biotik şərtlərə mütasiyalar say dalğası, təcridlik, təbii seçmə və insanın təbii yaranışı tarixində baş vermiş mikro və makrotəkamülün digər faktorları aid edilir. Şübhə yoxdur ki, gələcəkdə antropogenez haqqında təbii-elmi təsəvvürlər tamamlanacaq və hətta önəmli dərəcədə dəyişiləcəkdir.

## 2.7. Atropogenezin Darvin nəzəriyyəsi

Ç.Darvinin insanın genezisinə dair baxışına onun təkamül nəzəriyyəsinin davamı kimi baxmaq lazımdır. Darvin insanın yaranmasına dair baxışını 1871-ci ildə nəşr etdirdiyi "İnsanın mənşəyi və cinsi seçmə" adlı əsərində şərh etmişdir. Beləliklə, XIX əsrin ikinci yarısında Darvinizm adlanan yeni nəzəriyyə meydana çıxmışdır. Bu nəzəriyyə canlı təbiətin milyon illər davam etmiş təkamülü yolu ilə insanın yarandığını təsdiq edir. Darvinə görə, canlılar aləminin təkamül faktorlarının (yaşamaq uğrunda mübarizə, güclü fərd və növlərin yaşaması, öz valideynlərindən yaxşı əlamətlərin irsən alınması, dəyişən şəraitə yaxşı uyğunlaşma), həmçinin əmək qabiliyyətinin, təfəkkür və nitq vərdişlərinin təsiri altında növü formalaşmışdır. Növdaxili cütləşmə nəticəsində yaranan ayrı-ayrı fərdlərdə yeni keyfiyyətlər əmələ gəlir ki, bunun da nəticəsində növün bəzi nümayəndələri başqa fərdlərlə müqayisədə üstünlük əldə edir və olduqları mühitdə daha çox yaşama şansı əldə edir. Odur ki, əldə edilmiş keyfiyyətlər möhkəmlənir və yeni nəslə ötürülür. Zaman keçdikcə, orqanizmlərdə baş verən dəyişikliklər o dərəcədə əhəmiyyətli olur ki, sonda yeni növ əmələ gəlir.

Darvin yazır ki, bizim qədim əcdadlarımız sürü halında



ağaclarda yaşamışlar itiuclu qulaqları olmuşdur, bədənlərində tük örtüyü və hər iki cinsin saqqalı olmuşlar. Bunlar ibtidai meymunlar olmuşlar. Bunlardan sonrakı əcdadlar insanabənzər meymunlar olmuşlar. Darvin ona bəlli olan qazıntı halında tapılmış antropoidlərin driopitekin adını çəkir. Xarici şəraitin dəyişilməsi meşələrin seyrəkləşməsinə, bu da öz növbəsində qida axtarmağa məcbur qalıb yerə enmiş və yer həyat tərzi yaşamağa başlamışlar.

Onların yaşamasına kömək edən keyfiyyət fiziki yöndən güclü olmaları deyil, qarşılıqlı yardımlaşma qabiliyyəti olmuşdur. Darvin yazır: "İnsanın gücünün azlığının yerini ona yoldaşlarına kömək etməyi və onlardan kömək almağı öyrədən əqli qabiliyyət doldurmuşdur". Qrupda mənəvi başlanğıc daşıyıcılarının xüsusi çəkisinin artması qəbilənin bu göstəricinin aşağı olduğu qəbilələrə nisbətən yaşama qabiliyyətini artırır. Darvin qeyd edir ki, vətənpərvərlik, etibarlılıq və başqalarına şəfqət hissi yüksək inkişaf etmir, ümumi fayda naminə bir-birinə yardımçı olan və özünü qurban verən üzvlərə malik təbii seçmədir.

Darvin öz baxışını müqayisəli təkamül metodu ilə əsaslandırırdı, yəni insanın və məməli heyvanların bədənlərinin ümumi quruluşa malik olduğu, digər məməlilərdə və insanda eyni daxili orqanların ürək, ağ ciyər, qara ciyər, mədə, böyrəklər və i.a. olduğu faktından çıxış edirdi. İnsanın və meymunun hətta beyinləri də bir çox yöndən oxşardır: hər ikisinin beyni sol və sağ yarımkürələrə ayrılır, beyin yarımkürələrinin şırımları, qırışları vardır və s. Darvin insanla məməlilərin qohumluğunu, həmçinin onların eyni yoluxucu xəstəliklərə tutulmasında, ümumi parazitlərin qanlarının kimyəvi tərkibinin digər toxumlarının oxşarlığında görürdü. İnsana daha yaxın olan insanabənzər meymunlarda qan qrupları insandakı kimidir.

Müasir elm müəyyənləşdirmişdir ki, insanın, şimpanzenin və qorillunun qanlarının antigen tərkibi eynidir və qrup uyğunluğuna riayət edərək şimpanzenin qanını insana köçürmək olar. Darvinin müddəalarını təsdiq edən bir fakt da əldə edilmişdir: müəyyənləşdirilmişdir ki, insan və meymun kimyəvi cəhətdən də oxşardır, yəni albumin indekslidirlər. Bu indeks qan zərdabı zülallarından biri olan albuminin göstəricisidir. İndeksin insanda 1, qorillada 1, 09, şimpanzedə 1, 14, martışkada 2, 59, insandan təkamülcə daha uzaq

olan kaputsinada 5, daha primitiv olan lemurda isə 18 olduğu aşkar edilmişdir.

İnsanın meymunlarla qohumluğunu təsdiq edən başqa bir fakt dezoksiribonuklein turşularının (DNT) molekulyar hibridləş-dirmə metodunun köməyilə əldə edilmişdir. İnsanda və insanabənzər meymunlarda oxşar genlərin sayı 91%, insanda və hibbonda 76%, insanda və makakda 66% olduğu aşkar edilmişdir. Elmin bu uğurları Darvinin "insanın və ali heyvanların özəlliklə də insanabənzər meymunların bədənlərinin ümumi quruluşu, toxumalarının mikroskopik quruluşu, kimyəvi tərkibi və bədən quruluşu olduqca yaxındır" *müddəasının əsaslı olduğunu təsdiq edir. Çağdaş elm* Darvinin insanın əcdadlarının hərəkət üsulunun dəyişilməsi haqqında müddəasını da təsdiq edir. Hesab edildiyi kimi, iki ətraf üzərində dik yeriməyə keçid əl darağının və baş beynin inkişafını, sonra da dilin-nitqin və təfəkkürün yaranmasını təmin etmişdir.

Bütün bunlarla yanaşı, böyük ingilis aliminin bəzi ideyalarını müasir elm qəbul etmir. Bəllidir ki, Darvin insan cinsinin təkamülünü vahid xətti proses kimi təsvir etməyə çalışıb. Onun təsvirində insan cinsinin təkamülü prosesi bütün budaqları eyni bir kökdən yaranan və universal səbəb-nəticə zəncirindən ibarət olan ağacı xatırladır. İndi bunu uğursuzluq sayırlar. Bu, alimin təkamül ideyasının uğursuzluğu deyil, insan cinsinin təkamülü haqqında onun nəzəri modelində obyektiv və subyektiv səbəblərdən yer almış bəzi müddəalarının uğursuzluğu yaxud yanlışlığıdır. Müasir elmdə insanın təkamül ağacı daha mürəkkəb və dolaşıq görünür: onun budaqları da dəfələrlə şaxələrə ayrılaraq paralellər yaradır, kəsir, qəflətən ayrılır, yox olurlar. İndiki tədqiqatçılar təkamülün ağac timsalı obrazı kimi deyil, torabənzər qeyri-xətti proses kimi təsvir edilməsinə meyillidirlər (152).

Darvin nəzəriyyəsinin bəzi müddəaları onun hələ sağlığında bəzi müasirləri tərəfindən etirazla qarşılanmışdı. Seçmə nəzəriyyəsini Darvindən xəbərsiz müstəqil inkişaf etdirən A.Uolles yazırdı ki, insan bioloji varlıq kimi daha böyük potensiala malikdir. Yəni insanda onun inkişafına səbəb olan başqa bir ali başlanğıc var. İnsanda elə keyfiyyətlər var ki, onlar təbii seçmə yolu ilə yarana bilməzdi və növün bioloji həyatı üçün heç də həlledici olmamışdır. Uollesin əks arqumenti belə səslənir: "Yaxınlarına abstrakt ədalətlilik



yaxud sevgi hissi heç vaxt bu cür (yəni seçmə yolu ilə) qazanıla bilməz, çünki bu hisslər güclülərin yaşaması qanunu ilə bir araya sığmır" (170, 382). Uollesə görə, insan beyninə təbii seçmənin nəticəsi kimi baxmaq olmaz, bu "düşüncə aləti" onun sahibinin tələbatları nəticəsində yaranmışdır. O beynin yaranmasını "ali zəkalı varlığın müdaxiləsi" ilə bağlayırdı.

Darvindən fərqli olaraq Uolles insan və heyvan arasında keçilməz uçurumun olduğunu təsdiq edirdi. Belə ki, qana görə onlar qardaş, psixikaya görə isə antaqonistdirlər. O sübut etmişdir ki, gözəllik və mistik hisslər kimi mənəvi hisslər də sivilizasiyanın son məhsulları olmayıb, mədəniyyətin ən aşağı pilləsindəki "vəhşilərə" məxsusdur. Uolles "vəhşilər" adlanan varlıqlarda əqli çatışmazlıq haqqında təsəvvürü rədd edənlərdən biri yaxud birincisi olmuşdur. Onun çıxardığı bu nəticəni müasir antropologiya tam təsdiq edir. Bu gün artıq elmə bəllidir ki, geri qalmış qəbilələr müasir insan və meymun arasında keçid pillədir.

Nəyə görə təbiət ibtidai insanı məsələn, riyazi və ya musiqi qabiliyyətli etmişdir sualını Uolles belə cavablandırmışdır: "Əqli və mənəvi qabiliyyətlər başqa qaynaqlardan irəli gəlməli idi və bu qaynaq üçün *görünməz ruhi aləmdə yetərincə səbəb tapa bilərik*" (170, 730). Uollesə görə, yalnız ali varlıq, yəni Allah insana lazım olan istiqamət verə bilərdi, çünki insanın özü də "bir çox heyvan və bitki formalarının" inkişafını idarə edir.

Uollesdən fərqli olaraq Ç.Darvinin qızğın tərəfdarı, alman alimi E.Hekkel özünün "Dünyanın təbii tarixi" əsərində insan cinsinin tac şəcərəsini vermiş və bunu insanabənzər meymunlar və insan arasında keçid formasının mövcud olması fikri ilə təsdiq etmişdir. Bu hipotetik keçid formasını E.Hekkel Pithecanthropus adlandırmışdır. Amma onun adı çəkilən kitabı işıq üzü görən vaxt pitekantropun varlığına dair heç bir sübut yox idi, nə bir kəllə qutusu qırığı, nə başqa bir sümüyü aşkar edilməmişdi.

E.Hekkel özünün məşhur "əsas biogenetik qanununu" formula edərək sübuta yetirdi ki, hər bir insan özünün fərdi inkişafında bəşəriyyətin yaranmasının bütün yolunu yığcam halda təkrar edir. O, insan təkamülünün 22 mərhələsinin sxemini qurdu. Amma tədricən bəlli oldu ki, onlardan heç biri gerçəkliyə uyğun deyilmiş. Gerçək olan budur ki, E.Hekkelin insanın hipotetik əcdadı saydığı

Pitekantrop (yun.pithecus-meymun və anthropos-insan yəni meymun insan) 1893-cü ildə – "Dünyanın təbii tarixi" kitabının nəşrindən yeddi il sonra holland alimi Ejen Dyuba gerçək pitekantropun qalıqlarını Yavada aşkar etdiyini elm aləminə bildirdi (165, 40).

## 2.8. Təkamülün sintetik nəzəriyyəsi

Çağdaş təkamül biologiyasının əsasında təkamülün sintetik nəzəriyyəsi (TSN) yaxud neodarvinizm durur. Bu nəzəriyyə klassik darvinizm və genetikanın uğurlarının sintezi əsasında XX əsrdə yaranmışdır. Onun yaradılmasında Qərb və rus alimlərinin (S.S.Çetverikov, F.Q.Dobjanski, A.N.Severçov, N.P.Dubinin, D.K.Belyayev, İ.İ.Şmalhauzen, D.S.Haksli, E.Mayer, S.Rayt və b.) özəl xidməti vardır. Onlar TSN başlıca və prinsipial müddəalarını işləyib hazırlamışlar. TSN yəni təkamül nəzəriyyəsinin və genetikanın sintezinin həyata keçirilməsi üçün T.Morqanın irsiyyətin xromosom nəzəriyyəsi, təkamülün analizində biometrik və riyazi yanaşmalar, ideal populyasiya üçün Xardi-Veyberq qanunu (bu qanuna görə, ideal po-pulyasiya dəyişdirici amil olmadıqda genlərin qatılığının tarazlığını saxlamağa can atır), təbii populyasiyalarda dəyişkənliyin empirik tədqiqinin nəticələri və s. əsas götürülmüşdür. TSN riyazi modellərini 1930-cu illərdə R.Fişer, C.Holdeyn və S.Rayt işləyib hazırlamışlar. Bu modellər nəzəri populyasion genetikanın ehtimallı metodlarını özünə daxil edir. TSN eksperimental metodların geniş tətbiqinə əsaslanır.

TSN populyasiyanın təkamülün elementar vahidi olmasının, DNT və təbii seçmədə təsadüfi dəyişkənliklərin, növlərin və birliklərin yaranmasında mühitin aparıcı rolunun, bioloji sistemin stabilliyinin saxlanmasında müxtəlifliyin zəruri olmasının qəbul edilməsinə əsaslanır.

TSN əsasında duran təsəvvür budur ki, elementar hüceyrə təkamülü orqanizm və növ deyil, populyasiyadır. Populyasiya – uzun zaman müəyyən məkana malik olan və çoxsaylı nəsillər törətmiş bir növün fərdlərinin məcmusudur. İrsiyyətin başlanğıc vahidi gen sayılır. Gen orqanizmin müəyyən əlamətlərinin inkişafına nəzarət edən DNT molekulunun bir sahəsidir. Populyasiyanın hər hansı bir yöndə irsi dəyişilməsi onun genetik tərkibini dəyişdirən təkamül amillərinin təsiri altında baş verir. Bu amillərə elementar təkamül



materialı verən mutasiya prosesi, populyasiya dalğası (populyasiyaya daxil olan fərdlərin orta sayından fərdlərin sayının bu və ya digər yöndə dəyişilməsi), genotip yığımında müxtəlifliyi möhkəmləndirən və ilkin populyasiyanın bir neçə müstəqil populyasiyalara ayrılmasına səbəb olan izolyasiya, müəyyən fərdlərin reproduksiya yaşına çatması ehtimalını müəyyən edən proses kimi təbii seçmə (formaları müxtəlifdir: nisbi yaşama qabiliyyəti üzrə seçmə; fenotipik əlamətlər üzrə seçmə; stabilləşdirici seçmə; dizruptiv seçmə; aparıcı seçmə və s.).

TSN-ə görə, Yerdə həyatın proqressiv inkişafı fenotipik (zahiri) əlamətlərin, onların təsadüfi və təbii seçmə tərəfindən gerçəkləşdirilən dəyişkənliklərinin irsən (genetik yolla) nəsildən-nəslə ötürülməsilə izah olunur. İrsiyyətin sintetik nəzəriyyəsi izah edir ki, təsadüfi mutasiya dəyişkənliklərini təbii seçmə süzgəcdən keçirir və qeyri-müəyyən dəyişkənliklər xaosundan tədricən ətraf mühitə ideal uyğunlaşa bilən mükəmməl formalar müəyyən şəkil alırlar. TSN-ə görə, daha çox uyğunlaşan genotiplər daha çox nəsilvermə qabiliyyətinə malik olurlar, odur ki, onların genlərinin sonrakı nəsildəki tezliyi böyükdür. TSN onu da nəzərə alır ki, təkamül irsi aparatın mühit faktorlarının və bu şərait üçün faydalı olan əlamətlərin təsadüfi seçilməsinin təsiri altında zədələnməsilə şərtlənir. Təkamül populyasiyada təsadüfi mutasiyaların, ekoloji, reproduktiv izolyasiya şəraitində divergensiyaya və yeni növün formalaşmasına aparan əlamətlərin toplanmasından ibarət aramsız prosesdir. Son vaxtlar aydın olmuşdur ki, TSN paleontoloji məlumatlara uyğun gəlmir. Qazıntılar zamanı aşkarlanan tapıntıların təhlilindən nəticə çıxarılır ki, yeni canlı orqanizmlər tədrici təkamül yolu ilə deyil, sıçrayış yolu ilə yaranır.

TSN sonrakı inkişafına İ.Priqojinin bifurkasiyaların olmasına dair yeni işləri təkan vermişdir. Onun nəzəriyyəsinə görə, tarazlıqdan uzaqlaşmış şəraitdə açıq sistemlər sıçrayışla yeni keyfiyyət halına keçə bilərlər. Sıçrayış zamanı sistemin yaranmasının trayektoriyası dəyişilir. Bifurkasiya sistemdə determinist qanunauyğunluqlarla yanaşı stoxastik qanunauyğunluqların da varlığını müəyyən edir, çünki gələcək mümkün halların çoxluğu onun nəticəsidir. Buraya dissipativ strukturların yarandığı hallar da daxildir (152; 17). TSN-in populyasion genetikanın əsasında yaradılması sayəsində canlının tədqiqində tarixi və struktur-invariant yanaşmaların bir-birinə qarşı

qoyulması aradan qaldırıldı.

### 2.9. İki sıçrayış nəzəriyyəsi

Antroposəsiogenez ideyası özünün konkret ifadəsini keçmiş sovet məkanı antropoloqlarının və qismən də arxeoloqlarının işləyib hazırladığı "iki sıçrayış nəzəriyyəsi"ndə tapmışdır. Bu nəzəriyyəyə görə, insanın təkamülündə iki dönüş anı vardır. Birincisi, insanın heyvan əcdadları mərhələsindən formalaşan insanlar mərhələsinə keçid. Formalaşan insanlara arxantroplar (pitekantroplar, sinantroplar və onlara oxşar digərləri) və paleoantroplar (neandertallar) aid edilir. İkincisi, alt və üst paleolitin sərhədində təxminən 35-40 min il öncə paleoantroplardan müasir fiziki tipli insanlara sıçrayışlı keçid. Birinci sıçrayış sosial qanunauyğunluqların yaranması ilə, ikinci sıçrayış isə sosial qanunauyğunluqların tam və sarsılmaz hökmranlığının bərqərar olması ilə əlamətdar olmuşdur. Formalaşmaqda olmuş insanlar (müasir insanların əcdadlarının əcdadları) təşkil olunmuş cəmiyyətdə (alimlər onu ibtidai insanlar sürüsü yaxud ibtidai cəmiyyət adlandırırlar) yaşamışlar. Cəmiyyətini genezisi onun mövcudluğunun birinci formasının (ibtidai icma quruluşunun) qərarlaşması prosesindən ibarət olmuşdur.

## III Fəsil
## İnsanın fərqləndirici özəllikləri, mahiyyəti və həyatı

### 3.1. İnsanın başlıca fərqləndirici özəllikləri

İnsanın heyvanlardan köklü fərqləri vardır. Bu fərqlər insan varlığının mühüm sahələrində – insanın fiziologiyasında, psixikasında, anlayaşlarla düşünmək və nitq qabiliyyətlərində, sosial həyat tərzində və özəlliklə yaradıcılıq qabiliyyətində özünü göstərir.

*İnsanın fizioloji özəllikləri. Fiziologiya* orqanizmin və onun tərkib hissələrinin – hüceyrələrinin, orqanlarının, funksional sistemlərinin həyat fəaliyyətini öyrənən bioloji elm sahəsidir. Heyvan və insan fiziologiyasının əsas vəzifələrindən biri orqanizmdə sinir sisteminin tənzimləyici və inteqrasiyaedici rolunu öyrənməkdir. Bu vəzifənin həllində görkəmli rus fizioloqları ali sinir fəaliyyəti haqqında təlimin yaradıcısı İ.P.Pavlovun (1849-1936) və İ.M.Seçenovun (1829-1905) xidməti xüsusi diqqətə layiqdir. İ.M.Seçenov özünün "Baş beynin refleksləri" əsərində (1866) şüurun və qeyri-şüurun reflektor təbiətli olduğunu əsaslandırmışdır. Pavlov şərti reflekslər metodu vasitəsilə müəyyən etmişdir ki, psixi fəaliyyətin əsasında baş beyin qabığında gedən və insanın əsas xüsusiyyətlərini müəyyən edən fizioloji proseslər durur.



Həyatın təbii-tarixi inkişafında ağılın maddi daşıyıcısı – beyin formalaşmışdır. Ağıllı davranış elementləri bir çox ali heyvanlara və bəzi quşlara xasdır. Lakin biosferdə ağılın, zəkanın tam təzahürü yalnız insana məxsusdur.

İnsana aid və onu başqa ali heyvanlardan fərqləndirən xüsusiyyətlər təfəkkürün maddi daşıyıcısı – beyində möhkəmlənmişdir. Amma insan beyni, məsələn, insana oxşayan primatların beynindən nə ilə fərqlənir? Qəribə görünsə də çox yaxın keçmişə qədər mütəxəssislər onların beyin quruluşunda prinsipial fərqlər görmürdülər. Yalnız beyinin işi və quruluşu haqqında son 30-40- il ərzində əldə olunmuş məlumatlar sübut edir ki, beyinin sadə funksional elementi sinir hüceyrələrinin (neyronların) *strukturlu ansamblıdır* və bir ansambl orqanizmin bir funksiyasını idarə edir.

Aydınlaşdırılımışdır ki, beyinin təkamülü və mürəkkəbləşməsi neyronların sayının artmasından çox həm ayrı-ayrı neyron ansambllarının, həm də ayrı-ayrı funksiyaları mürəkkəb davranış reaksiyasında birləşdirən mərkəzlərin təşkili və nizamlanması hesabına baş vermişdir.

İnsanın və primatların görmə, eşitmə, bədən reaksiyalarını müəyyən edən neyron ansambllarının bir-birindən az fərqləndiyi bildirilir. Müəyyən fərqlər insan beynini, onun nitqini, əl hərəkətlərini (xüsusilə əl darağının) və əmək fəaliyyəti qabiliyyətini idarə edən neyron ansambllarının ölçülərində və əlaqələrində aşkar edilmişdir. İnsanda beyinin alın payı əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, Yeni beyin qabığı təxminən 50 mlrd. neyrondan yaranan 600 mln. şaquli koloniyalardan ibarətdir. Yaşlı insanda beyinin ümumi sahəsinin 95-96%-ni yeni qabıq, yalnız 4%-in köhnə qabıq təşkil edir. Təkamüldə beyinin köhnə və yeni bölmələrinin xüsusi çəkilərinin nisbəti dəyişilmişdir: ibtidai meymunlarda alın payı beyin qabığının 10%, ali meymunlarda 15%, insanda isə 25% təşkil etdiyi müəyyənləşdirilmişdir. O da aşkar edilmişdir ki, insan beyninin ana bətnində (embrional) inkişafında beyin gələcək normal çəkisinin

25%-dən azına, şimpanzedə isə 65% nail olunur.

İnsan beyninin öyrənilməsi sahəsində çağdaş təbiətşünaslıq çox uğurlu nəticələr əldə etsə də yenə də beyin ən sirli obyekt kimi qalmaqdadır. Bununla belə, hazırda neyromediatorların funksiyalarını müəyyən etmək mümkün olmuşdur: bunların köməyilə biokimyəvi siqnallar bir neyrondan digərinə ötürülür. Bundan başqa, canlı orqanizmlərin uzunmüddətli və qısamüddətli fəaliyyət mexanizmləri aydınlaşdırılmışdır. Bu kəşflərinə görə tanınmış alimlər A.Karlsson, P.Qrinqardt və E.Kendel 2000-ci ildə fiziologiya və tibb üzrə Nobel mükafatına layiq görülmüşlər.

*Yaddaş* beyinin ən möcüzəli xassəsidir. Onun işi sayəsində insan xarici aləmdə öz davranışını nizamlayır, hərəkət yönünü müəyyən edir. Yaddaş indini keçmişlə, indiki nəsli keçmiş nəsillərlə əlaqələndirərək prosesləri istiqamətləndirir. İnformasiyalar yaddaş sayəsində toplanır və nəsildən nəslə ötürülür. Bunun sayəsində isə sivilizasiya yaranıb inkişaf edir.

Yaddaş yalnız ayrı-ayrı neyronlarda gedən biokimyəvi proseslərdən asılı olmayıb həm də daha çox bu proseslərin hansı neyronlarda getməsindən, yaddaş hüceyrələrinin beyinin hansı bölmələrində və qatlarında yerləşməsindən asılıdır. Yaddaşın əsasını neyronlar və onların ansamblları tərəfindən qavranılan obrazlar arasında, eləcə də beyinin payları və qatları arasında əlaqə yaratması təşkil edir.

İnsan beyninin başqa bir mühüm xüsusiyyəti ondan ibarətdir ki, ney-ron ansambllarının quruluşu və onların beyində əlaqələri genetik aparatla proqramlaşdırılır. İnsan beyninin nitq və hərəki-əmək ansamblları strukturlarının inkişaf proqramını uşaqlar ata-analarından irsən alır. Lakin nitq və əmək vərdişləri deyil, yalnız onların yenidən əldə edilməsinin potensial imkanı irsən alınır. İrsən alınmış genetik imkanı ancaq doğuşdan sonra uşağın təlim-tərbiyəsi, böyüklərlə daim ünsiyyətində gerçəkləşir. Amma uşağa qarşı laqeydlik, onda ağılın ziyanına olan rəzil başlanğıcların oyandırılması, məsələn, ziyanlı siyasi məqsədlərə yönəldilməsi çox böyük sürətlə mədəni nailiyyətlərin itirilməsinə, hətta sivil cəmiyyətdə vəhşiliyin və aqressivliyin dirçəlməsinə aparıb çıxarır.

*İnsanın psixoloji özəlliyi.* XIX yüzilin ikinci yarısında fiziologiyanın inkişafı *psixologiyanın* – ruh, insanın iç dünyası



haqqında elmin yaranmasına zəmin oldu. Psixika bioloji təkamülün gedişində yaranmış və mürəkkəb mühitdə davranışı tənzimləyici sistemdir. Heyvanlardan fərqli olaraq insanlar düşünülmüş birgə fəaliyyət, nitq vasitəsilə ünsiyyət, bəşəri təcrübədən istifadə etmək, özünü şüurlu tənzimləmə, şüurlu əmək, aşkar olmayanı dərk etmək qabiliyyətlərinə malikdir.

Psixikanın öyrənilməsi insanın özünü təkmilləşdirməsinə və peşəkar həyat yolunu müəyyənləşdirməsinə kömək edir. Amma psixoloji faktların və qanunauyğunluqların mənimsənilməsi kortəbii deyil, planlı təhsil və özünütəlim yolu ilə əldə edilir.

İnsanın özü və başaqaları haqqında biliyi psixikanın ən önəmli xüsusiyyətidir. Amma psixikada baş verənlərin hamısı heç də şüur səviyyəsinə aid deyil. Fəallığımız psixikamızın qeyri-şüur səviyyəsi ilə də tənzimlənir. Qeyri-şüuru proseslər elmi təhlil oluna bilir və onların haqqında məlumatlanmaq olduqca vacibdir.

*İnsan varlığının sosioloji tərəfi.* İnsanın sosial varlığının ən mühüm göstəricisi onun şəxsiyyət olmasıdır. İnsanın şəxsiyyəti onun ictimai münasibətlərin və şüurlu fəaliyyətin subyekti olmasındadır. Şəxsiyyət cəmiyyətin ayrılmaz tərkib hissəsidir. Məsələn, hələ antik dövrdə, Aristotel yazırdı ki, insan siyasi varlıq kimi doğulur və birgə yaşayışa instinktiv meyillidir. Orta əsrlər mütəfəkkirləri Avqustin, Bossyu bəşər tarixini ilahi xeyir və iblisani şər arasında mübarizə kimi izah edirdilər.

İnsan həyatı mürəkkəb dinamik fəaliyyətlə səciyyələnir. Bu onun şəxsiyyətinin fərdi xüsusiyyətləri ilə izah olunur. İnsan psixikası və onun sosial fəaliyyəti bir-biri ilə bağlıdır, başqa sözlə, insanın sosial fəaliyyətinin əhəmiyyəti (psixikaya münasibətdə) ondadır ki, psixika sosial fəaliyyətdə təzahür edir və formalaşır. Şəxsiyyətin yönümünü yəni ideallarını, əqidəsini, maraqlarını və gerçəkliyin müxtəlif hadisələrinə münasibətini onun fəaliyyətini təhlil etməklə bilmək olar. Şəxsiyyətin dəyəri yaxud arzuolunmaz xüsusiyyəti insanın sosial fəaliyyətinin növündən asılı olaraq yaranır. Əgər cəmiyyət özünə gərəkli şəxsiyyət formalaşdırmaq istəyirsə, onda insanın uyğun fəaliyyətinin təşkili qayğısına qalmalıdır.

*Təbiətin estetik qavrayışı və gözəllik.* İnsanın çox önəmli parametrlərindən biri də təbiətin gözəlliyini, gözəllik və eybəcərliyi, ictimai həyatdakı faciəvi və komik olanı, böyüklüyü və rəzilliyi

estetik qavrama qabiliyyətinə malik olmasıdır. Bu qabiliyyət insana təbiətdəndir. Ancaq onun inkişafı və formalaşması sosial mühitdə baş verir. Əmək fəaliyyətində, ictimai münasibətlərin inkişafı tarixində və bədii yaradıcılıq praktikasının gedişində insanda gerçəkliyi estetik əks etdirmək, qavramaq qabiliyyəti, estetik şüur yaranmış və formalaşmışdır. Yalnız bu qabiliyyəti formalaşmış insan mədəni və estetik tərbiyəli insan sayıla bilər.

Estetik şüur bir çox kateqoriyalar sistemindən ibarətdir. Onlara zövq, həzz, heyranlıq, həyəcan və s. daxildir. Estetik hissin psixoloji sirrinin nə olduğu, eləcə də təbiətin gözəlliyinin məsələn, göy qurşağının, ulduzlu səmada ayın və s. estetik qavrayışının təbiəti haqqında birmənalı cavab yoxdur. Amma gözəlliyin təbiəti haqqında maraqlı fikirlər söylənilmişdir. Aristotel "Poetika" əsərində yazır ki, bütün şeylərin, o cümlədən canlı varlığın gözəlliyi təkcə onları təşkil edən hissələrin nizamlı olmasında deyildir, "gözəllik şeyin ölçüsündə və nizamlılığındadır" ... ona görə də gözəl heyvan, yaxud insan bədəni gözoxşayan ölçüdə və nizamda olmalıdır. Ölçüdən çox kiçik yaxud çox böyük bədən gözəl ola bilməz.

Estetik qavrayış qaynağı yaxud predmeti olan təbiət ona görə gözəldir ki, onu təşkil edən varlıqlar rəngarəng olmaqla yanaşı simmetrik quruluşa malikdir. Bu özəllik insana da aiddir. Amma insan estetik qavrayışın həm obyekti, həm də subyektidir. Bu özəlliyi ilə də insan digər canlı varlıqlardan köklü fərqlənir. Belə ki, estetik tərbiyə almış insanın gözəl ifa edilmiş muğam musiqisindən aldığı estetik hissi digərlərindən daha zəngin olur.

Estetik tərbiyə uşaq doğulan andan başlanır, onda bizi əhatə edən aləmin rəngarəngliyinə anadangəlmə heyranlıq hissi vardır. Ancaq uşaq həm də təbiətin gözəl və qəribə əsəri, gözəllik nümunəsidir. Təəssüf ki, estetik hissini itirmiş, həyatı gözəllik qanunlarına uyğun yaşamaqdan çox uzaq olan insanlar da vardır ki, elələrinin həyat tərzi heyvan həyat tərzindən o qədər də fərqlənmir. Halbuki, onların da gözəlliyi duymaq və gözəllik yaratmaq imkanı vardır.

### 3.2. İnsanın mahiyyətinə yanaşmalar

Müasir elmdə yarım əsrdən çox müddətdə intensiv öyrənilən problemlərdən biri də insanda bioloji və sosialın nisbəti problemidir.



Bu problemin öyrənilməsi işində xeyli irəliləyiş olsa da probemin həlli hələ çox uzaqdadır. Hazırda problemə dair iki başlıca, ancaq birtərəfli yanaşma mövcuddur. Onlardan biri *panbiologizm* digəri *pansosiologizm* adlanır. Bioloji yanaşmada insanın bütün özəllikləri onun bioloji təbiətindən hasil edilir və insanın fərdi inkişafının bütünlüklə onun genetik proqramından asılı olduğunu iddia edir. Sosioloji yanaşma isə genetik qabiliyyətlərin bütün insanlarda eyni olduğu, insanın şəxsiyyətinin və xarakterinin isə cəmiyyətdə formalaşdığı, təlim və tərbiyənin nəticəsi olduğu israr edilir. Çağdaş təbiətşünaslıqda bu birtərəfli yanaşmalardan yan keçilir. Daha geniş yayılmış baxış budur ki, insanda nəsildən-nəslə genetik irsiyyətlə ötürülən qabiliyyətlər yox, onların genetik proqramıdır, qabiliyyətlərin inkişafı isə sosial şəraitdən və ünsiyyətdən asılıdır. Bəllidir ki, bu halda fərdin həyatının ilk illərində sosiallaşmanın birinci mərhələsi önəmli rol oynayır. Bu mərhələdə sosiallaşma genetik mexanizmləri fəallaşdıra da, əngəlləyə də bilər. *Sosiobiologiya* adlanan konsepsiya bu baxışa əsaslanır. Sosiobiologiya heyvanda və insanda sosial davranışın genetik əsaslarını öyrənən fənn kimi Qərbdə tədris olunur.

Sosiobiologiyanın əsasları amerikan alimi E.Uilsonun 1975-ci ildə nəşrdən çıxan "Sosiobiologiya: yeni sintez" kitabında öz əksini tapmışdır. Müəllif sosiobiologiyanın başlıca vəzifəsini heyvan və insan davranışlarının oxşarlığını və insan davranışının genetik determinasiyasının mexanimlərini aşkar etməkdə görür. Onun həll etmək istədiyi başlıca problemlərdən biri insanda əxlaqi davranışın genetik əsasları problemidir. Müəllif öz mühakimələrini təkcə əxlaqi şüurun deyil, ümumiyyətlə, şüurun insanın özünü yaşatması və çoxalması aləti olduğu inancı üzərində qurur.

Metodoloji planda sosiobiologiya insan davranışlarının öyrənilməsindən alınan məlumatları insana aid edir. Uilson sosial amilin rolunu inkar etmir, lakin şəxsiyyətin inkişafında aparıcı rolun bioloji amilə aid olduğunu, sosial amilin isə ikinci dərəcəli rol oynadığını iddia edir.

Beləliklə, insanın inkişafında bioloji və sosial amillərin rolu qəbul edilir, ancaq problem onların insanda nisbətinin izah edilməsindən ibarətdir.

Bioloji və sosialın nisbəti məsələsinin həllində obyektivlik insana üç parametrdən yanaşılmasını tələb edir: *bioloji, psixoloji,*

*sosial.* Bioloji yönündən insan canlılar aləminə məxsus olub onun qanunları ilə yaşayır. Bu baxış «fərd» anlayışında ifadə olunur. Fərd anlayışında insanın fərdi özəllikləri deyil, bütün insanlara aid olan ümumi xassələri nəzərə alınır, yəni, insan fərdinə insan növünün nümayəndələrindən biri kimi baxılır.

Uşaq anadan anatomik və morfoloji yöndən tam formalaşmış biçimdə doğulmur, onun inkişafı sosial mühitdə davam edir. Digər heyvanlardan fərqli olaraq insan yalnız təbiətə bağlı deyil. Hevan yaşamaq üçün zəruri olan bütün instinktiv davranış formalarına anadangəlmə malik olur. İnsan isə sosiumdan kənarda doğularsa, sosiallaşa bilməz, çünki o, insana xas olan formalaşmış davranış normalarından məhrum doğulur. Amma təkamül prosesində insanda cəmiyyətin mədəni-tarixi uğurlarını mənimsəməyə bioloji hazırlığında ifadə olunan çevik qeyri-instinktiv orientirlər sistemi yaranmışdır.

İnsana sosiomədəni baxış, yəni, onun sosiallığı «şəxsiyyət» anlayışında ifadə olunur. Şəxsiyyət anlamaq və düşünmək, özünüdərk qabiliyyəti olan varlıq demək olub, insanın sosial varlıq olduğunu bildirir. Fərd sosiallaşma prosesində, başqa insanlarla ünsiyyət və bu ünsiyyətdə bəşəriyyətin mədəni nailiyyətlərini və mənsub olduğu milli-mədəni dəyərləri mənimsəmə prosesində şəxsiyyət olur. Deməli, bu prosesin uğuru ünsiyyətin məzmunlu olmasından çox asılıdır. Bu anlamda şəxsiyyət sosial fərdilik kimi müəyyən edilir. Beləliklə, şəxsiyyət ictimai münasibətlərin, sosial fəaliyyətin və insanlarla ünsiyyətin subyektidir. İnsan fərdinin sosiallaşması və mədəniləşməsi, deməli, şəxsiyyətləşməsi onun həyat fəaliyyətində gerçəkləşir və bu proses ömrün sonuna qədər davam edir.

"Şəxsiyyət» anlayışı insanın psixoloji özəlliklərinin məcmusunu ifadə edən "xarakter" anlayışından fərqlənir. "Xarakter" anlayışı insanın psixoloji fərdiliyini bildirir. Hər bir insan *Homo sapiensə* xas olan ümumi özəlliklərə sahib olmaqla yanaşı hər zaman bənzərsiz, təkrarolunmaz olur. Onun təkrarolunmazlığı varlığının bioloji özəlliyindən irəli gəlir.

Şəxsiyyətin önəmli əlaməti sərbəst seçimdir. Sərbəst seçim insanı öz hərəkəti üçün cavabdeh olmağa sövq edir. Sərbəst seçimi isə insan onda sosial mühitin və özünün tərbiyə etdiyi mənəvi və iradi keyfiyyətləri, mənimsədiyi davranış normaları, mədəni dəyərlər



əsasında edir. Odur ki, insan davranışında azadlıq və zərurətin nisbəti, onu nizamlayan normalar haqqında məsələ ictimai şüurun bütün sferalarında diqqət mərkəzində durur.

### 3.3. İnsan davranışının təbii kökləri

İnsanda bioloji və sosialın nisbəti probleminin öyrənilməsində əxlaqi davranışda bu nisbətin araşdırılması fəlsəfədə və çağdaş elmdə olduqca ciddi elmi istiqamətlərdən biri sayılır. İnsanın və heyvanların davranışını öyrənən etologiya elmi bu məsələyə dair olduqca maraqlı məlumatlar əldə etmişdir. Etologiyanın baniləri K.Lorens, N.Tinbergen və K.Fris belə bir sual qoyurdular: insan əxlaqi hissdən məhrum doğulur və cəmiyyətdə yaşamaq üçün zəruri olan normaları yalnız tərbiyə yolu ilə mənimsəyir, yoxsa yaxşı və pis haqqında yalnız tərbiyə prosesində inkişaf etdirilən hansısa anadangəlmə hisslər və təsəvvürlər vardır? Onlar bu məqsədlə əxlaqın və mədəniyyətin artıq heyvanlarda olduğunu sübut etməyə çalışırdılar.

Etoloji baxımdan heyvanların davranışını instinktlər yəni davranışın genetik proqramı müəyyən edir. İnstinktlərin inkişafı və formalaşması üçün isə heç bir xüsusi təcrübə tələb olunmur. Belə instinktlər dörddür: qida, cinsi, özünüqoruma (qorxu) və aqressivlik. Bu instinktlər arasında növün özünüsaxlamasına yönəlmiş aqressivlik birinci yeri tutur (K.Lorens). Növiçi rəqabətdə aqressiya daha sərt olur, belə ki, daha çox uyğunlaşmış fərdlər böyük ərazi tuta, çox nəsil törədə və öz genlərini sonrakı nəslə ötürə bilər.

Ancaq aqressivlik də digər instinktlər kimi növün saxlanması üçün bütün hallarda faydalı olmur. Odur ki, təkamüldə heyvanların ünsiyyətini nizamlayan yasaq, qadağa mexanizmləri yaranmışdır. Məsələn, vəhşi heyvan ov edərkən aqressiya onu ovunu qovub öldürməyə təhrik edir, ancaq dişi cins uğrunda erkəklərin mübarizəsində tormozlama mexanizmləri üstünlük təşkil edir. Misal olaraq canavarların və itlərin rəqabətində məğlub olan fərd arxası üstə qalır və s. Bundan başqa, rəqiblər döyüşdən öncə müxtəlif ritmik hərəkətlər, rituallar edirlər, bu onlara zaman qazandırır və daha təhlükəli hücumları tormozlayır, rəqibini öldürməyə qadağa qoyur.

Etoloqlar hesab edirlər ki, insan cəmiyyətinin inkişafı da heyvanların inkişafına uyğun yolla getmişdir. Heyvanlar aləmində özünü göstərən qadağalara aşağıdakılar daxil edilir:

* öz növünün nümayəndələrini öldürmək qadağası;
* arxadan və xəbərdarlıq etmədən hücum etməmək qadağası;
* özününkülərlə davada ölümcül zərbə vuran alətlərdən istifadə etməmək;
* itaət duruşu almış rəqibi öldürmək qadağası.

Bu faktlardan çıxış edərək populyasion genetikanın, etologiyanın və ekologiyanın sintezi kimi yaranmış sosiobiologiya bildirir ki, insanın bütün sosial davranış normalarının, o cümlədən əxlaqi davranışının əsasında insana və heyvanlara məxsus olan anadangəlmə strukturlar durur. Dialektik materialist fəlsəfə belə yanaşmanın doğru olmadığını əsaslandırır və göstərir ki, əxlaqi davranışın heyvanda təbii mexanizmlərinin olduğunu düşünmək elmi yanaşma ilə bir araya sığmır, heyvanların davranışının qanunauyğunluqlarını insan davranışına da aid etmək mənasızdır.

İnsan davranışının qanunauyğunluqlarından danışarkən insanın ikili – bioloji və sosial – təbiətli olduğunu nəzər almadan düzgün nəticələr almaq olmaz. Belə ki, insanların sosial davranışı təkcə zəkalı olmasından, mədəniləşdirmə və sosiallaşdırma prosesində, tərbiyə yolu ilə mənimsənilən mədəni ənənələrdən irəli gəlməyib, həm də bütün digər canlı varlıqlara məxsus olan bioloji qanunauyğunluqlara tabedir.

Zoopsixoloji məlumatlar da göstərir ki, qrup daxilində yaşayan heyvanların davranışında eqoist və alturist təzahürlər mövcuddur. Əgər öz genlərini yeni nəslə vermək imkanı varsa, o halda eqoist davranış forması üstünlük təşkil edir. Əgər belə davranış bütün populyasiyanı təhlükə altına salırsa, onda alturist davranış forması özünü göstərir. Məsələn, şimpanze pələngə hücum edərək öz həyatını təhlükəyə atmaq bahasına öz qrupunun üzvlərinə qaçıb gizlənmək imkanı yaradır. Buna oxşar alturist davranışı çox vaxt insanlarda görünür, çünki öz populyasiyasının genotipini qoruyur. Belə davranış müvafiq əxlaq normasında və davranış qaydalarında möhkəmləndirilmişdir.

İ.Kantın qəti imperativlərindən biri belə səslənir: Elə hərəkət et ki, düşüncəli varlıq kimi sənin davranışın təbiətin qanunlarına uyğun olsun.

Deyilənlər insanın biososial mahiyyətli olduğunu təsdiq edir.



### 3.4. İnsanın sağlamlığı, uzunömürlülüyü və yaradıcılığı

BMT-nin məlumatına görə, Yer kürəsinin əhalisi 1999-cu ildə 6 mlrd. olmuşdur, 2050-ci ildə bu rəqəm 10 mlrd. çox olacaq. Əhali artımı onun qida, su, yanacaq və s. həyat üçün zəruri olan vasitələrlə təminatı problemini kəskinliklə irəli sürür. Axı ərzaq çatışmazlığı vaxtsız ölümün səbəblərindən biridir. Statistik məlumatlara görə, 1983-cü ildə 20 mln. insan (dünyada) acından ölmüş, 500 mln. insan isə yarımcan durumda olmuşdur. XX yüzilin sonunda aclıq həddində yaşayanların sayı 650 mln. çox olmuşdur. Bu faktlar göstərir ki, əhalinin ərzaq məhsulları ilə təminatı müasir bəşəriyyətin ən mühüm probleminə çevrilmişdir. Bu problemin həllində çağdaş təbii-elmi biliklərin səmərəli tətbiqi olduqca vacibdir. Təbii-elmi biliklərin tətbiqinin torpağın məhsuldarlığının artırılması, xəstəlik və ziyanvericilərə qarşı mübarizə və s. istiqamətləri vardır.

*Qidalar və qidalanma.* Qida maddələrinin əsasını zülallar, yağlar və karbohidratlar təşkil edir. Orqanizmdə enerji daşıyıcıları yağlar və karbohidratlardır. Onlar məhdud miqdarda da ola bilər, zülalların isə çatışmamasına yol vermək olmaz, çünki onlar orqanların daimi regenerasiyası və orqanizmin böyüməsi üçün lazımdır. Zülalların çatışmaması orqanizmin arıqlamasına və gücdən düşməsinə səbəb olur. Orqanizmin gündəlik normal fəaliyyəti üçün yaşlı adamda bədənin hər kq üçün 1 q, uşaqlarda isə hər kq üçün 2-3 q zülal tələb olunur. Böyüklərin gündəlik zülal tələbatı 60-100 q-dır.

Orqanizmin həyat fəaliyyəti üçün lazım olan 20 amin turşusundan 12 orqanizmin özündə sintez olunur, altısı isə heyvani qidaların tərkibində bitkilərdə olduğundan daha çoxdur. İstifadə olunan zülalların 60% çoxu bitki mənşəlidir (buğdada, paxlada, noxudda, lobyada və b.).

Bitkilərin yarpaqlarında böyük zülal ehtiyatı vardır. Onların bioloji fəallığını artırmaq üçün çatışmayan aminturşularını əlavə edirlər. Məsələn, buğda ununa 0, 4% lizin əlavə etdikdə onun bioloji aktivliyi 50% artır. Mütəxəssislər gen mühəndisliyi üsulu ilə qarğıdalıda, buğdada lizinin miqdarını 2 dəfə artırmışlar. Çağdaş texnologiya ağac tullantılarından, neftdən və qazdan süni zülallar almağa imkan verir. Süni zülallardan heyvandarlıqda geniş istifadə edilir.

Normal həyat fəaliyyəti üçün normal qidalanma zəruridir.

Ancaq normadan çox qida qəbul etməyin fəsadları da vardır. Mütəxəssislər bildirirlər ki, bir çox ölkələrdə kişilərin 20%, qadınların isə 40% orqanizmə lazım olandan artıq qida qəbul edirlər. Halbuki, böyüklər üçün bir ildə qəbul edilməli şəkərin 18 kq-dan artıq olmaması müəyyənləşdirilmişdir, amma bəzi ölkələrdə bundan üç dəfə çox qəbul edildiyi bildirilir. Bu isə həddən artıq piylənməyə və kökəlməyə səbəb olur.

*Sağlamlığın qorunması vasitələri.* Sağlamlığın qorunmasının müxtəlif yolları vardır. Onlardan biri dərmanlardan istifadə olunmasıdır. Bu üsuldan insanlar çox qədimdən istifadə edirlər. Şərq təbabəti, qədim türkəçarə müalicə üsullarından indi də istifadə edilir, ancaq son yüz ildə biokimyanın və mikrobiologiyanın inkişafı sayəsində indiki dərman vasitələrinin 95% sintez edilmişdir. Dərmanların tətbiqi ilə taun xəstəliyini, başqa bir çox yoluxucu xəstəlikləri, uşaqlar arasında ölüm hallarının artmasını aradan qaldırmaq mümkün olmuşdur. Son zamanlarda müalicəvi əhəmiyyətli fəal maddələrin sintezinin yeni metodlarının işlənib hazırlandığı, fermentlərin və reseptorların fəallığını nizamlayan yeni səmərəli preparatların alındığı bildirilir. Fermentlər orqanizmdə gedən kimyəvi çevrilmələrin çoxunda iştirak edir və onlara *hormonlar* və *mediatorlar* adlanan kimyəvi birləşmələrin vasitəsilə təsir edirlər. Onlar kimyəvi çevrilmələri nizamlayaraq həyat fəaliyyətinin mühüm proseslərində (əzələlərin yığılıb-açılmasında, adrenalin, insulin və s. ifrazında) iştirak edirlər. Fermentin fəallığını sıxışdıran maddə *inqibitor* adlanır. İnqibitor hipertoniya, ateroskleroz, asma və b. xəstəliklərin müalicəsi üçün səmərəli sayılır.

Bioloji proseslərdə iştirak edən digər makromolekullar *reseptorlar* adlanır. Müvafiq hormonlarla fəallaşdırıldıqda onlar katalitik və nizamlayıcı qarşılıqlı təsirə girən bioloji aktiv maddələri müəyyən edib əlaqələndirir. Reseptorlarla qarşılıqlı təsirdə olan agentlərin iki tipi müəyyən edilmişdir: *aqonistlər* və *antoqonistlər*. Aqonistlər bioloji reaksiyalara səbəb olur, antoqonistlər isə onları blokadaya alır. Bir sıra agentlər eyni anda müxtəlif reseptorlarla əlaqədə ola, deməli, müxtəlif bioloji proseslərdə iştirak edə bilərlər. Məsələn, histamin H1-reseptoru ilə birləşərək allergik reaksiyalar doğurur, H2-reseptoru mədə şirəsinin ifrazını fəallaşdırır. Mədə şirəsinin artıqlığı mədənin divarlarını qıcıqlandırır və mədə yarası,



yazva törəyir. Mədə şirəsinin fəallığını məhdudlaşdıran simetidin preparatı H2-reseptorunun xüsusi antoqonistidir.

*Noradrenalin* sinir sisteminin kimyəvi agentidir. Adrenalin ifrazına nəzarət edir və müxtəlif bioloji proseslər üçün cavabdeh olan bir neçə reseptorla əlaqəyə girir. Antoqonist xarakterli birləşmələr ürək-damar, xərçəng xəstəliklərinin, mərkəzi sinir və endokrin sistemlərdəki nasazlıqların müalicəsində səmərəli vasitələr sayılır.

Hələ XX əsrin 30-cu illərində bəzi üzvi maddələrin təcrübə altında olan heyvanlara konserogen təsiri müəyyənləşdirilmişdir. Hazırda bir sıra təbii və süni birləşmələrin xərçəng xəstəlikləri yaratdığı güman edilir. Müxtəlif kimyəvi kanserogenlər hüceyrənin zülalları, RNT və DNT ilə kovalent rabitəyə girir və nəticədə xərçəng xəstəliyi yaranır. Xərçəngli hüceyrələr artır. Bu hadisə DNT strukturunun dəyişilməsi ilə bağlıdır. Hazırda alimlər normal hüceyrələrin şiş hüceyrələrinə çevrilməsinə səbəb olan yüzlərlə gen (onkogenlər və şiş supressor-genlər) aşkar etmişlər. Artıq üzvi kimyaçılar normal gendə və onkogendə nukleotidlərin ardıcıllığını, eləcə də zülallarda amin turşularının ardıcıllığını müəyyən edə bilirlər. Zülallarda amin turşularının ardıcıllığının belə genlərlə kodlaşdırıldığının aşkar edilməsi terapevtik müalicə üsullarının işlənib hazırlanmasında önəmli addım sayılır.

Bir sıra iltihabi xəstəliklərin yaranmasını orqanizmin immun sistemindəki pozğunluqlarla bağlayırlar. Hesab edirlər ki, *immun sistemi* orqanizmə yad maddələrin daxil olmasının qarşısını alır və xəstəlik törədən səbəblərə əks təsir göstərir. Hazırda alimlər yad cisimləri qeydə alan və orqanizmin cavab reaksiyalarını əlaqələndirən fermentlər və digər zülalları müəyyən etmişlər. Ağ qan cisimcikləri (leykositlər) ilə plazma hüceyrələri qanda xəstəlik törədən yad cisimləri neytrallaşdıran antitel ifraz edir. Antitelin kimyəvi təbiəti bəlli olsa da qazanılmış immunodefisit sindromunun (SPİDa) effektiv müalicəsi vasitələrinin tapılmasına ehtiyacın olduğu bildirilir.

İmmun sistemi antitellərin yaxud antigenlərin biosintezində iştirak edir. Zülal zəncirində amin turşularının müəyyən ardıcıllığı fermentlərə seçicilik qabiliyyəti verir. Fermentlərin fəal mərkəzlərinin və onların strukturlarının formalaşması orqanizmə daxil edilən antitelin təsirindən çox asılıdır. Hazırda 100-dən çox

katalitik antitel fermentativ reaksiyalar üçün istifadə olunur. Mütəxəssislər bildirirlər ki, katalitik antitellər biokatalizatorların yeni nəslinə məxsusdur.

İnsan sağlamlığı üçün ciddi təhlükəli sayılan amillərdən biri də radionuklidlər və ağır metallardır. Onlar sənaye tullantılarının, avtomobillərin atmosferə buraxdığı qazların və s. tərkibində olur, havanı, suyu, torpağı çirkləndirirlər, bitki və heyvanların hüceyrələrində yığılır və qida məhsulları vasitəsilə insan orqanizminə düşürlər. Qan dövranı vasitəsilə onlar bütün orqanizmə yayılır və ona pis təsir göstərirlər. Belə ki, ağır metallar uşaqlarda böyümə prosesini və əqlin inkişafını ləngidir, sinir sisteminin, böyrəklərin və qara ciyərin xəstələnməsinə səbəb olur. Radionuklidlər irsiyyət maddəsini zədələyir, immuniteti azaldır, onkoloji xəstəliyə səbəb olur.

İnsanda müxtəlif xəstəliklər psixoloji amillə də yaradılır. Bəllidir ki, emosiyalar insanda yaxşı və pis ovqat yaradır, onda sevinc, həyəcan, ümidsizlik, həzz və s. formalaşdırır. Bununla da emosiyalar insanda həyata, ətraf aləmə maraq yaradır, yaxud onu öldürür. İnsan ruhunun bir halı olan emosiyalar onun sağlamlığına, iş qabiliyyətinə, yaradıcılıq fəaliyyətinə təsir edir. Odur ki, özündə və ətrafdakılarda müsbət emosional hal yaratmaq sağlamlığın, gümrahlığın, yaradıcılıq ilhamının və xoşbəxtliyin zəmanətidir. Deməli, insanda müsbət emosiyaların yaratdığı keyfiyyətlərin hamısı bir-biri ilə qırılmaz surətdə bağlıdır və onların vəhdəti sağlam insanın işinin və yaradıcılığının zəminidir.

*Uzunömürlülük problemi.* İnsan ömrünün uzadılması həmişə olduğu kimi indi də aktualdır. Onun elmi həlli ilə herontologiya, tibb, biokimya, psixologiya və digər elmlər məşğuldur. Qocalma insan orqanizmi üçün labüd təbii proses sayılır. İnsanın orta uzunömürlülüyü (60-80 il) bir çox amillərdən asılıdır. Faktlar təsdiq edir ki, insan 100 il və daha çox ömür sürə bilər və uzunömürlülük imkanı vardır. Amma uzunömürlülük problemi son dərəcə mürəkkəbdir. Hələ eramızın 1-ci əsrində İtaliya filosofu və yazıçısı Seneka qeyd edirdi ki, «Sakit həyat onun uzadılması barəsində həddən artıq düşünənlər üçün deyildir».

Əski zamanlardan bəri alimlər qocalmanın mexanizmini açmağa və onu aradan qaldırmaq yollarını tapmağa çalışmışlar. Lakin



bu sahədə hələ çox sirlər açılmamışdır. Bununla belə, çox yaxın keçmişdə bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Alimlər müəyyən etmişlər ki, qocalma prosesi orqanizmin hormonal sistemində müxtəlif pozğunluqlarla yaradılan fermentativ reaksiyaların pozulması ilə şərtlənir. Hazırki tibbi vasitələr hormonal sistemin işinə müdaxilə etməyə və ömrün uzadılması probleminin həllinə ümid yaradır. Amma bu o qədər də asan sayılmır. Həşəratlar (drozofil və s.) üzərində aparılan ardıcıl təcrübələrdə müəyyənləşdirilmişdir ki, müxtəlif keyfiyyətli qidaların kaloriliyinin azaldılması onların ömrünün 3-3, 5 dəfə uzanmasına səbəb olur. Qidada zülalların dozasının 14% dəqiqləşdirilməsi gəmiricilərin (siçovulun) ömrünü iki dəfə artırır. Ömrün uzanmasına aminturşuları (çistin), bəzi vitaminlər, anabolik steroidlər (bunlar orqanizmdə zülalların sintezi üçün labüddür) və s. kömək edir.

Hazırda müxtəlif biokimyəvi preparatların məqsədyönlü tətbiqi üzrə təcrübələr orqanizmin qocalması mexanizminin fiziki-kimyəvi və bioloji təbiətini aşkar etməyə, ayrı-ayrı orqanların (qara ciyərin, ürəyin, beyinin və s.) ömrünü uzadan preparatları sintez etməyə kömək edir. Amma bu yöndə aparılan təcrübələrin ən önəmli nəticəsi qocalmaya qarşı universal preparatın sintezi olacaq.

*Qocalmanın fiziki səbəbləri.* Elə insanlar var ki, onlar uzun müddət yuxusuz qala bilir, təhlükəli viruslara yoluxmaya məruz qalmır, xəstəliklərə davamlıdır və s. amma qocalma onlardan da yan keçmir. İş burasındadır ki, bütün canlılar qocalır, ölür və cismən cansızlar aləminə qovuşur; bir atalar misalında deyildiyi kimi, "torpaqdan hasil torpağa vasil" olurlar. Hətta cansız təbiətin varlıqları da köhnəlir, çürüyür və başqa formalara keçir. Məsələn, dəmir (metal) parçası tədricən paslanır və dəmir oksidlərinə çevrilir. Bu faktlar düşünməyə əsas verir ki, qocalma həm cansız həm də canlı varlıqlara xas olan labüd və dönməz prosesdir, hər yaranmışın bir sonu vardır.

Termodinamikanın ikinci qanununa uyğun olaraq istənilən gerçək proses dönməz xarakter daşıyır və entropiyanın artması ilə müşayiət olunur. Bəzi müəlliflər entropiyanı xaos – nizamsızlıq ölçüsü adlandırırlar. Deməli, bütün digər təbii proseslər kimi qocalma da xaosun artmasına aparıb çıxarır. Qocalmanın gedişi canlı sistemin elementləri arasında əlaqələrin tədricən zəifləməsi və sistemin daxili nizamlılığının pozulması ilə nəticələnir. Canlı orqanizmlərin

qocalmasının entropik xarakterindən də bu anlamda danışılır.

Dağılma prosesi öz-özünə baş verir, yaranma və inkişaf üçün isə enerji tələb olunur. Canlı orqanizmləri açıq termodinamik sistemlərə aid edirlər. Bitkilər günəş enerjisini udur və üzvi maddələr hasil edirlər, heyvanlar isə bitkilərlə qidalanır və həyat fəaliyyəti üçün enerjini yediyi qidalardan alırlar. Beləliklə, canlı orqanizm xarici mühitlə termodinamik tarazlıqda olur, bununla da enerjinin paylanmasının spesifik qaynağı kimi hərəkət edir. İnkişafın müəyyən mərhələsində açıq sistemin, o cümlədən canlı orqanizmin udduğu enerji onun mürəkkəbləşməsinə, bəzən də təkmilləşməsinə sərf olunur. Canlı sistemlər mürəkkəbləşə və informasiya toplayaraq enerjinin dönməz paylanmasını yaxud səpələnməsini aradan qaldırmağa can ata bilərlər. Bununla da nəinki yaşadıqları xarici mühitdə, həm də bütün Kainatda entropiyanın yüksəlməsinə qarşı dururlar. Belə qarşıdurmaya canlının sonrakı nəslə ötürülən genetik proqramında təbiətin kodlaşdırdığı qanun, yəni əksliklərin vəhdəti və mübarizəsi dialektika qanununun bir təzahur forması kimi baxmaq olar.

*Qocalmanın gedişi və ömrün uzunluğu.* Belə bir deyim var: "Hər bir canlı qocalmaya məhkumdur". Amma sual doğur: canlı hüceyrə yaxud bakteriya çoxalma prosesində ikiyə bölünərkən nə baş verir? Bu zaman hüceyrə qocalmır və ölmür, ancaq sonradan bölünəcək yeni "qız" hüceyrələrə başlanğıc verir, deməli, fiziki anlamda ölməzləşir. Təkhüceyrəli orqanizmlərin, cinsi və şiş hüceyrələr kimi aramsız bölünən hüceyrələrin qocalması haqqında məsələ yenə də həll edilməmiş qalır. Alman zooloqu Avqust Veysman (1834-1914) zamanında bakteriyaların ölməzliyi ideyasını təklif etmişdi. Bu ideyanı indi də qəbul edənlər də etməyənlər də vardır.

Çoxhüceyrəlilərdə hüceyrələrin çoxu daim bölünə bilmir və başqa funksiyalar: qidalanma, hərəkət və s. proseslərin idarə olunmasında iştirak edirlər. Hüceyrələrin funksional təyinatları ilə ölməzliyi arasındakı ziddiyyəti təbiət hüceyrələri iki tipə – somatik və cinsi – ayırmaqla həll etmişdir. *Somatik hüceyrələr* orqanizmin həyat fəaliyyətini, cinsi hüceyrələr isə bölünərək həyatın davam etməsini təmin edirlər. Somatik hüceyrələr qocalır və ölürlər, cinsi hüceyrələr isə müəyyən mənada əbədidirlər. Çoxsaylı somatik hüceyrələrə malik mürəkkəb çoxhüceyrəli orqanizmlərin fəaliyyəti cinsi hüceyrələri



yaşatmağa yönəlmişdir.

Somatik hüceyrələrin qocalma mexanizmi haqqında elmin aydınlaşdırdığı budur ki, onların hər birinə təbiət yalnız 50 dəfə bölünmək qabiliyyəti müəyyənləşdirmişdir. Orqanizmin tədrici qocalması belə baş verir: somatik hüceyrələr öz paylarına düşən bölünmə sayını tədricən «xərcləyib» qurtarır, beləliklə də qocalıb ölürlər. Somatik hüceyrələrin bu qaydanı pozaraq aramsız bölünüb özünə oxşar hüceyrələr yaratması da mümkün sayılır. Amma belə bölünmənin arzuolunmaz nəticəyə – orqanizmdə şişlərin yaranmasına və canlının məhvinə aparıb çıxardığı ehtimal edilir.

Hələ yüz il öncə fizioloqlar iri məməlilərin kiçik məməlilərdən çox yaşadığına diqqət yetirmişlər. Aydınlaşdırmışlar ki, məsələn, siçanlar 3, 5 il, itlər 20 il, fillər 70 il yaşayırlar. Bu ömür fərqinin maddələr mübadiləsinin intensivliyindəki fərqlərdən irəli gəldiyi aşkar edilmişdir. Müxtəlif məməlilərdə bədən kütləsinin hər vahidinə sərf olunan enerjinin orta miqdarı həyatın sonunadək eynidir (200 kkal/q). Hər bir bioloji növ yalnız müəyyən qədər enerjidən istifadə edə bilir, onu istifadə etdikdən sonra məhv olur.

Maddələr mübadiləsinin və oksigen sərfinin intensivliyi bir çox amillərdən asılıdır. Maddələr mübadiləsinin intensivliyi çoxaldıqca ömür bir o qədər qısa olur. Bədən kütləsinin kiçik, maddələr mübadiləsinin intensiv olduğu orqanizmlərin ömrü qısa olur. Lakin bu sadə başa düşülən qaydadan kənara çıxma halları da müşahidə olunur. Məsələn, insanın bədən kütləsinin hər vahidinə sərf olunan enerjinin miqdarı çox böyükdür, ömrünün uzunluğu isə dörd dəfə çoxdur. Yaxın keçmişdə alimlər müəyyən etmişlər ki, buna səbəb oksigenin ömrün uzunluğunu müəyyən edən parsial təzyiqidir. Bəllidir ki, havada oksigenin qatılığının (21%) hiss ediləcək dəyişilməsi canlı orqanizmlərin məhvinə aparır. Oksigen çatışmazlığı da onun artıqlığı kimi canlı üçün məhvedicidir. Belə ki, eksperiment altında olan heyvanları xalis oksigen bir neçə gündə, 2-5 atm. təzyiqində isə bir saat yaxud dəqiqələr ərzində məhv edir.

Kimyaçılar müəyyənləşdirmişlər ki, oksigen və onun tam bərpasından alınan məhsul (su) zəhərli deyil. Amma oksigenin bərpası hüceyrəni zədələyən məhsulların (superoksid amin-radikalının, $H_2O_2$, hidroksid radikalının) alınması ilə müşayiət olunur. Bunlar oksigenin aktiv formaları sayılır. Orqanizmin istifadə etdiyi

oksigenin 5% belə formalara çevrilir. Fermentlər onların hüceyrəyə ziyanlı təsirini azaldır. Bu zaman superoksid anion-radi-kalını ziyansız $H_2O_2$ və molekulyar oksigenə çevirən superoksiddismutaza fermenti əsas rol oynayır. Hidrogen peroksidi ($H_2O_2$) katalaza peroksidaza fermentləri parçalayır.

Oksigenin aktiv formalarının müsbət rolu da aydınlaşdırılmışdır: onlar orqanizmi mikroblardan, hətta bəzi şişlərdən qoruyur. Ancaq onların artıq miqdarda olması hüceyrələrin dağılmasına səbəb olur. Son araşdırmalar göstərir ki, oksigenin aktiv formalarının yaranması sürətini qandakı karbon iki-oksid ($CO_2$) azaldır. Deməli, hüceyrənin dağılmasının qarşısını alan belə qaz da lazımdır.

Oksigenin aktiv formalarının zərərsizləşdirilməsi mexanizminin aydınlaşdırılması radiobiologiyanın, onkologiyanın, immunalogiya və digər sahələrin bəzi problemlərini anlamağa imkan vermişdir. Qocalmanın sərbəst radikal nəzəriyyəsi yaradılmışdır. Bu nəzəriyyəyə görə, hüceyrələrdə yaş dəyişkənliyi onlarda sərbəst radikalların (yüksək kimyəvi fəallığa malik cütləşməmiş elektronlu molekulların) təsiri ilə yaranır. Sərbəst radikallar hüceyrələrdə radiasiya, bəzi kimyəvi reaksiyalar və temperatur fərqləri (aşağı-yuxarı olması) ilə yaradıla bilər. Ancaq sərbəst radikalların başlıca qaynağı oksigen molekulunun bərpası prosesidir.

Hesab edilir ki, hüceyrələrdə yaş dəyişkənliyinin artması iki prosesin: sərbəst radikalların yaranması və onların superoksiddismutaza – "qocalıq əleyhinə" olan fermentlə zərərsizləşdirilməsinin nisbətindən asılıdır. Ehtimal olunur ki, hüceyrədə sərbəst radikalların miqdarı artıq oksigen qəbul edilməsi ilə yaxud maddələr mübadiləsinin intensivləşməsi ilə çoxalır. Odur ki, heyvan və insan orqanizminin ömrünün uzanması superoksiddismutaza fermentinin fəallığı və maddələr mübadiləsinin intensivliyinin münasibətindən asılı olduğu düşünülür. "Qocalıq əleyhinə fermentin" yüksək fəallığı insanı və bəzi heyvanları intensiv maddələr mübadiləsi üzündən vaxtından öncə qocalmaqdan qoruyur.

*Qocalma əleyhinə vasitələrin axtarışı.* Canlı orqanizmlərin qocalması problemini öyrənən alimlər (herontoloqlar) qocalmanın mexanizmi haqqında yeni təsəvvürlərdən çıxış edərək bəzi faktları izah edirlər. Belə faktlardan biri budur ki, azkalorili, ancaq balanslaşdırılmış qidalarla qidalandırılmış heyvanlar doyunca yeyən



heyvanlardan çox yaşayırlar. Səbəb budur ki, məhdud qidalanma maddələr mübadiləsinin intensivliyini azaldır, bununla da hüceyrələrdə zədələnmələrin yaranmasını ləngidir. Dağlıq rayonlarda insanların uzunömürlü olmasının sirri bundadır. Hüceyrədə antioksidantlar nə qədər çox olarsa hüceyrədə oksigenin aktiv formalarının yaratdığı zədələnmələr bir o qədər az olar, hüceyrənin yaxud orqanizmin ömrü isə uzanar. Bu səbəbdən də bəzi qan hüceyrələri bir neçə saat, bəziləri isə illərlə yaşaya bilir. Herontoloqların müşahidələri göstərir ki, orqanizmdə təbii qocalma zamanı baş verən dəyişikliklər radiasiya zamanı yaranan dəyişikliklərə oxşardır. Məlum olur ki, radioaktiv şüalanma zamanı oksigenin hüceyrələrini zədələyən aktiv formaların əmələ gəlməsilə su parçalanır.

Bu tədqiqatlar qocalmaya qarşı vasitələrin axtarış strategiyasını hazırlamağa imkan vermişdir. Məsələn, laboratoriya heyvanlarının qida rasionuna güclü antioksidantlar daxil etməklə onların ömrünü bir yarım dəfə uzatmaq mümkün olmuşdur. Superoksiddismutaza tipli antioksidantın qidaya əlavə edilməsi orqanizmi oksigenin fəal formalarının zəhərləyici təsirindən qoruyur və onun ömrünün uzanmasına kömək edir. Bu, antioksidantların insanın qocalmasına qarşı səmərəli vasitə kimi istifadə edilməsinə ümid verir. Qida maddələrinin tərkibində olan antioksidantlar arasında A, C, E vitaminlərinin və selen mikroelementinin xüsusilə mühüm olduğu müəyyənləşdirilmişdir.

Qocalma prosesi insanın genetikasında proqramlaşdırılmışdır, odur ki, orqanizmin ömrünün uzadılması problemi molekulyar biologiya və gen texnologiyası vasitələri ilə həll edilə bilər. Hesab edilir ki, qocalmada günahkar maddələr mübadiləsinin məhsulları olan çoxfunksiyalı birləşmələr, məsələn, alma, kəhrəba turşuları və radikallardır. Bu maddələrin iki molekulu arasında körpü yaranır ki, bu da defektli zülalların toplanmasına, hüceyrələrin işinin funksional pozğunluğuna, deməli, orqanizmin qocalmasına aparıb çıxarır. Somiatik hüceyrələrdə DNT və təmir (reparasiya) fermentlərinin funksiyasında pozulma cinsi hüceyrələrə nisbətən çox tez-tez baş verir, odur ki, neyronlar qara ciyər hüceyrələri, ürək əzələləri və s. daha erkən qocalırlar.

Hüceyrələrin işində yaranan nasazlıqlar və onları yaradan

amillər çox olduqca qocalma prosesi də bir o qədər tez başlayır. Ona səbəb olan radikallara qarşı inqibitorların hazırlanması orqanizmin ömrünün uzadılmasının ən önəmli istiqamətlərindən biri sayılır. Amma mütəxəssislər orqanizmin genomunda qoyulmuş qocalma proqramında düzəliş edilməsini ömrün uzadılmasının ən səmərəli yolu sayırlar.

Orqanizmin yaşla bağlı qocalması onun hüceyrələrinin iş qabiliyyətinin pisləşməsindən irəli gəlir. Amma yaşla bağlı olaraq hüceyrələrin fəallığı niyə azalır? Molekulyar genetik tədqiqatlar göstərir ki, hər dəfə hüceyrə bölünəndə telomerlər – hüceyrə xromosomlarının uclarında yerləşən xüsusi çıxıntılar kiçilir. Telomerlərin bu cür kiçilməsi huceyrələrin qocalmasına aparıb çıxarır. Hüceyrələrdə telomerlərin süni yolla uzadılması üzrə aparılmış eksperiment gözlənilməz nəticə vermişdir: hüceyrələr normal xassələrini tam saxlayaraq dəfələrlə bölünmə qabiliyyəti qazanmışlar. Daha önəmli olan isə odur ki, hüceyrələr ölməzləşərək xərçəng hüceyrələrinə çevrilməmiş və şişlər əmələ gətirməmişdir. Son vaxtlar alimlər xromosom uclarının – yeni hüceyrə nəsillərinin doğuşu zamanı qısalan telomerlərin uzanmasına kömək edən hüceyrə fermentini – *telomerazanı* aşkar etmişlər. Düşünülür ki, insan orqanizmində xromosomların telomerləri telomeraza iştirak etmədən də uzana bilər.

Lakin bəzi laborator heyvanları üçün alınmış nəticəni (onların ömürlərini 30-35% uzatmaq mümkün olmuşdur) insanlar üçün də əldə etməkdən ötrü, insan ömrünə ömür calamaq üçün herontoloqlar hələ çox iş görmək lazım olduğun etiraf edirlər. Statistik məlumata görə, hazırda yaşı 100-dən çox olan 100 000 insan yaşayır. Alimlərin fikrincə, insan ömrünü hətta 200 ilə qədər də uzatmaq olar.

*Yaradıcılıq: onun biopsixososial təbiəti.* Yaradıcılıq maddi və mənəvi mədəniyyət sahələrində indiyədək olmayan keyfiyyətcə yeninin dərkinə və yaradılmasına yönəlmiş fəaliyyətdir. Müasir insan məzmunca çox müxtəlif tələbatların diktəsi altında yaşayır və hərəkət edir. Bu tələbatların bir hissəsinin və insan həyatının davamı üçün indiyədək cəmiyyətin və təbiətin yaratmadığı yeni məhsulların, maddi və mənəvi dəyərlərin yaradılması tələb olunur. İnsan fəaliyyətinin bu sahəsi yaradıcılıq adlandırılmışdır. Yaradıcılıq



sayəsində insan özünün bioloji təbiətindən yüksəyə qalxır, cəmiyyətə yararlığı səviyyəsində onun gözündə ucalır.

Amma yaradıcılıq prosesi necə baş verir, onun təbiəti nədən ibarətdir? İnsanla bağlı olan bir çox problemlər kimi yaradıcılıq probleminə də kompleks yanaşma tələb olunur. Odur ki, onun öyrənilməsi müxtəlif elmlərin nümayəndələrinin birgə səyi ilə mümükündür.

Yaradıcılıq biopsixososial xarakterli fəaliyyətdir. Ona görə də onu üç aspektin – bioloji, psixoloji, sosial – vəhdəti kimi araşdırmaq tələb olunur.

İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, bu üç amilin qarşılıqlı təsirindən və əlaqəsindən kənarda baş versin. Bu fakt hamılıqla qəbul olunur, amma bu amillərin hər birinin yaradıcılıqda nisbəti haqqında rəylər müxtəlifdir. Yaradıcılıqda bu amillərin qarşılıqlı təsir mexanizmlərinin nədən ibarət olduğu isə həll edilməmiş qalmaqdadır.

İnsan anadan bioloji varlıq kimi doğulduğundan onun yaradıcı qabiliyyətinin bioloji əsaslarının izahı tədqiqatda ön planda durur. Problemin bu yöndə tədqiqində başlıca olan insan qabiliyyətlərinin, o cümlədən yaradıcılığın təbiəti və qaynağı məsələsidir. Bu məsələ ilə bağlı bir sıra birtərəfli yanaşma və baxışlar mövcuddur. Onlardan biri xalis bioloji yanaşmadır. Onun tərəfdarlarına görə yaradıcılıq tamamilə anadangəlmə qabiliyyətdir, onun inkişafı isə irsən alınan genetik proqramın yalnız inkişafından ibarətdir. Məsələn, Q.Ayzenk özünün "İrqlər, intellkt və tərbiyə" kitabında (1971) intellekt əmsalı (İQ) və irsiyyət əmsalı göstəricilərini müqayisə edir və göstərir ki, əgər irsiyyət indeksi 0, 8% bu o deməkdir ki, insanın intellekt indeksinin 80% irsiyyətlə müəyyən edilir.

Başqa bir yanaşmada isə insan qabiliyyətlərini sırf sosial qaynaqlı və təbiətli olduğu iddia edilir, genetik amilin rolu isə inkar olunur. Deyilir ki, məqsədyönlü təlim və tərbiyə yolu ilə insanda istənilən qabiliyyəti formalaşdırmaq olar.

Amma problemə dialektik yanaşma birtərəfli bioloji və sosioloji yanaşmaları rədd edir. Çağdaş elmi baxış yaradıcılığın təbiəti məsələsində bioloji və sosial amillərin rolunu deyil, onlardan hər hansı birinin rolunun mütləqləşdirilməsini, digərinin rolunun isə inkar edilməsini elmi saymır və bu iki amilin bütün insani

qabiliyyətlərin gerçəkləşməsində müəyyən bir nisbətdə iştirakı mövqeyindən çıxış edir. Yaradıcılığın təbiəti və qaynağı probleminin öyrənilməsində bu sonuncu istiqamət daha önəmli sayılır. Amma onların (bioloji və sosialın) yaradıcılıqda hansı nisbətdə iştirakı məsələsində qaranlıq məqamlar hələ çoxdur.

Bununla belə, insan qabiliyyətlərinin inkişafında bioloiji və sosial amillərin nisbəti yönündə maraqlı elmi məlumatlar əldə edilmişdir. Elmi müzakirə və mübahisələrin gedişində, beynəlxalq elmi toplantılarda tanınmış alimlər belə bir baxış formalaşdırmışlar ki, insanın fərdi qabiliyyətləri, sosial şəraitdə formalaşır və inkişaf edir. Lakin yaradıcılığın və digər qabiliyyətlərin genetik əsasları var, genetik proqramla determinə olunur. Yeri gəlmişkən, "istedad" yaxud "meyillilik" və "qabiliyyət" anlayışları eyni anlam daşımırlar. Belə ki, strukturuna görə müxtəlif istedadlar yaxud meyillərdən oxşar qabiliyyətlər və əksinə, oxşar meyillərdən fərqli qabiliyyətlər formalaşa bilər. Beləliklə, fərdin genetik «sursatı» onun qabiliyyətlərinin ilkin təbii-bioloji əsasıdır, ancaq qabiliyyətlərin inkişafını birmənalı biçimdə öncədən müəyyən etmir.

Amma ümumi xarakter daşıyan bu konsepsiya hələ konkret elmi tədqiqatla yetərincə əsaslandırılmamışdır. Qabiliyyətlərin inkişafının ilkin şərti kimi istedad, yaxud meyillilik nədir? Onların strukturu necədir? Qabiliyyətlərdə istedadın gerçəkləşməsi mexanizmi nədən ibarətdir? Bu məsələlər bütün kəskinliyi ilə çağdaş elmin qarşısında durur. Onların həlli üçün ilk öncə psixologiya elminin və insan genetikası, davranışın genetik əsaslarına dair araşdırmaların əməkdaşlığı zəruridir. Bu əməkdaşlığın ləngiməsinin səbəbi isə insanın davranış genetikasının hələ lazımınca inkişaf etməməsidir.

Tanınmış rus genetiki N.P.Dubininə görə, insanın intellektual. emosional və digər xüsusiyyətlərinin inkişafının bioloji amilinin əsasında onun poligen irsiyyəti durur. Hər bir insanın bənzərsizliyi. unikallığı onun genetik proqramı ilə bağlıdır.

Yaradıcılığın psixoloji strukturunun öyrənilməsində motivasiya problemi getdikcə aktuallaşır və psixoloji diskussiyaların aparıcı məntiqi yönünə çevrilir.

Yaradıcılıq sosial mahiyyətli fəaliyyətdir, deməli, onun nəticələri də sosial mahiyyətlidir. Yaradıcılığın ən mühüm nəticəsi bizcə şəxsiyyətdir. İnsan şəxsiyyəti yaradıcılıqda formalaşır və inkişaf edir.

Şəxsiyyətin formalaşmasının əsasında duran yaradıcılıq fəaliyyətinin mühüm və başlıca sosial şərti ünsiyyətdir. Mənəvi (elmi və bədii) yaradıcılıq, həmçinin mənəvi həyatın digər sahələri üçün fəaliyyətin subyektləri arasında intensiv ünsiyyət başlıca xarici amildir.

Mənəvi mədəni dəyərlərin yaradılmasına yönəldilmiş yaradıcılığın iki sahəsi vardır: elmi yaradıcılıq və bədii yaradıcılıq.

Elmi yaradıcılıq probleminin bioloji, psixoloji və sosial aspektləri vardır. Ümumiyyətlə, yaradıcılıq üçün lazım olan elmi ünsiyyət hazır biliklərin ötürürülməsi ilə məhdudlaşmır, elmi ünsiyyət yaradıcılıq prosesinin zəruri tərəfidir. Rəylərin mübadiləsi (mübarizəsi), müzakirə predmetinə dair sərbəst yaradıcı diskussiyalar, müzakirələr elmin inkşafının hərəkətverici gücüdür.

Amma yaradıcılıqda sosial amilin rolu təkcə sosial ünsiyyətlə məhdudlaşmır. Sosial ünsiyyətlə bağlı digər bir mühüm amil sosial tələbatlardır.

İnsan müxtəlif yaradıcılıq istedadının "genetik təchizatı"nı ata-anadan bioloji irsiyyətlə, imkan formasında alır. Ancaq bu imkanın gerçəkləşməsi və yaradıcı qabiliyyətin inkişafı üçün yalnız zəruri xarici şərait və yaradıcı şəxsiyyətin öz içindən gələn «çağırış», ehtiras olmalıdır. Bunlar olmadıqda yaradıcı istedad, talant məhv olur.

Xarici şəraitə ilk öncə həyata keçiriləcək texniki ixtiraya yaxud elmi kəşfə cəmiyyətdə yaranmış tələbatı ifadə edən sosial sifarişi aid etmək olar. Sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, rabitənin və digər sahələrin inkişafında elə durum yaranır ki, bu yöndə tərəqqinin davam etməsi üçün bu və ya digər məsələnin həllinə kəskin tələbat yaranır. Bu, elmin özünün bu və ya digər konkret və başlıca probleminin həllindən asılı olan inkişafına da aiddir.

İstər cəmiyyətin istehsal praktikasının gedişində, istərsə elmin özünün irəliləmə hərəkətində problemlər planlaşdırılmadan, vaxtı çatmış problemlər kimi də yarana bilər.

Yaradıcılıqda şəxsiyyətin iç dünyası ilə bağlı olan tərəf isə yaradıcı şəxsin dövrün vaxtı çatmış tələbatını tutmaq, dərindən anlamaq və onu özünün yaradıcı fəaliyyəti ilə ödəmək qabiliyyətindən ibarətdir. Görkəmli alimlər elmin sıravi nümayəndələrindən onunla

fərqlənirlər ki, onlar tarixi hərəkatın vaxtı çatmış məsələlərini başqalarından daha tez dərk edir və öz müasirlərinin görə bilmədiyi sonrakı hərəkəti görə bilirlər.

Cəmiyyətin inkişafının aktual, vaxtı çatmış tələbatı ilə ayrıca şəxsiyyətin bu tələbatı dərk etməsi, xüsusilə onu yaradıcı fəaliyyəti ilə ödəmək qabiliyyətinin birləşməsində sosial və bioloji amillərin qarşılıqlı təsiri, bir-biri üçün şərt olması özünü aydın göstərir.

Yaradıcı fəaliyyət üçün şəxsiyyətin təxəyyül, intuisiya, əqli fəallıq, həmçinin özünüyeniləşdirmə və özünüqiymətləndirmə kimi xüsusiyyətləri olduqca önəmlidir. Çünki şəxsiyyət öz bacarıq və vərdişlərinin təbiətini, strukturunu bilmədən yaradıcılıq mümkün olmaz. Yaradıcılıq üçün yaradıcı şəxsin özünüqiymətləndirməsi çox vacibdir. Yaradıcılıq isə öz növbəsində şəxsiyyətin özünüqiymətləndirməsinin səviyyəsini yüksəldir və onu davamlı edir. Çevik ağıl, dərin təfəkkür, onun tənqidi xarakteri insana öz yaradıcılığını gerçəkləşdirməsi yolunda əngəlləri aradan qaldırmağa yardım edir.

Çağdaş elmdə yaradıcılıq fəaliyyətinin bir neçə modeli vardır. Bu modellərdə yaradıcılıq prosesinin dörd əsas mərhələsi göstərilir:

* informasiyaların şüurlu surətdə, məqsədəuyğun dəyişdirilməsi;

* qeyri-şüurda ideyanın yetişməsi;

* ideyanın qeyri-şüurdan şüura keçməsi (aydınlaşma "insayt");

* ideyanın həqiqiliyinin, onun sonrakı şüurlu inkişafının və formalaşmasının yoxlanması.

Yaradıcılıqda birinci və dördüncü mərhələlər məntiqi axtarışdan və informasiyanın intuitiv həllinin yetişməsi üçün zəruri dəyişikliklərdən, həmçinin onun həllinin analizindən ibarətdir. İkinci və üçüncü mərhələlər isə şüurun irrasional fəaliyyəti sayılır. Beləliklə, yaradıcılıq mürəkkəb və ziddiyyətli prosesdir.

Prosesin *birinci mərhələsində* insan özü üçün aktual problemi seçir. Bu o zaman baş verir ki, insanın gücü çatdığı məsələ həll olunmur. Bu halda yaradıcı şəxs dərin psixoloji narahatlıq keçirir, problemin mümkün rasional həlli variantlarını axtarmağa başlayır, faktlar toplayır, həmçinin ziddiyyətləri və həll olunması tələb olunan problemləri aşkar edir. Birinci mərhələnin nəticəsi adətən bir çox qeyri-adekvat həlldən və həll olunmamış problemlərin ortaya



çıxmasından ibarət olur. Şüurda informasiyanın azlığı üzündən həll edilməli problemin ayrı-ayrı tərəflərini xarakterizə edən aralıq anlayışlar və obrazlar qeyri-şüura qovulur. Bundan sonra yaradıcılıqda *ikinci mərhələ* başlanır. Bu mərhələ şüur və qeyri-şüurun, sol və sağ beyin yarımkürələrinin qarşılıqlı təsiri ilə bağlıdır. Bu ikinci mərhələdə qeyri-şüurun ilk anlar arzuolunan nəticələr verməyən güclü fəallaşması baş verir. Bu səbəbdən də mənfi emosiyalar artar, hətta şəxsiyyətin tamlığı üçün təhlükə yarana bilər.

Bu hal yarandıqda problemin həllindən imtina edib diqqəti digər məsələlərin həllinə yönəltmək daha düzgün sayılır. Çünki yaradıcı insanın şüuru problemin həlli ilə daha az məşğul olduqda və şüuru üzərində nəzarət etmədikdə (yuxu, istirahət) aydınlaşma, istedadın parlaması baş verir. Bu yaradıcılığın *üçüncü mərhələsi* sayılır. Bu mərhələ sol, «məntiqi» yarımkürənin problemin sağ yarımkürədə yaranmış həllinin düzgün obrazını bir anda görməsindən və götürməsindən ibarətdir. Bu hal yarandıqda mənfi emosiyalar, həyəcan hissi və rahatsızlıq dərhal aradan qalxır. Onları güclü müsbət emosiyalar əvəz edir.

Yaradıcılıq prosesinin *dördüncü*, sonuncu mərhələsində problemin tapılmış həlli dil formasına keçirilir, onun həqiqiliyinin eksperiment metodu ilə yoxlanması və alınmış nəticələrin izahına başlanılır. Bu, işin çox önəmli, ancaq olduqca çətin hissəsi sayılır. Odur ki, aydınlaşma (insayt) çox üzücü və davamlı tənqidi analizdən, problemin tapılmış həllinin əsaslandırılmasından ibarət olur.

Yaradıcılıq fəaliyyətinin ən mühüm şərti onun subyektinin (tədqiqatçının) daxili sərbəstliyi, proqramlışdırılmış şablon fikirlərdən, stereotiplərdən azad olması, problemə qeyri-adi yöndən yanaşmağı bacarmasıdır. Bir sözlə, yaradıcılıq orijinal, təkrarolunmaz düşüncə və başqalarının rəyini səbrlə dinləmək qabiliyyətidir.

Yaradıcılıq probleminin həllinin bir neçə texnologiyası təklif edilir. Onlardan biri "gecənin xeyrindən gündüzün şəri yaxşıdır" el misalıdır. Buradan nəticə çıxır ki, əgər gündüzün məhsuldar, xeyirli olmasını istəyirsənsə, onda ona fikrən hazırlıq görməlisən: həll edilməli problemləri müəyyənləşdirməlisən, onların mümkün həlli yollarını tapmalısan. Bunun sayəsində bizim qeyri-şüurumuz tapşırıq alıb biz yuxuda olarkən yaxud istirahət edərkən onun üzərində

işləyəcək, artıq səhərə lazımınca aydın hərəkən proqramı hazır olacaq.

Problemlərin kollektiv həlli metodları da vardır. Onlardan ən çox istifadə olunanı «beyin hücumu» metodudur. Bu metod ideya generatorlarının (obrazlı təfəkkürlü insanların) və analitiklərin (məntiqi təfəkkürlü adamların) birgə işləməsinə əsaslanır. Görüşün aparıcısı olan şəxs onlara problemi şərh edir, bundan sonra ideya generatorları çox müxtəlif variantlar təklif edirlər, analitiklər isə onları müzakirə edirlər.

*Bədii yaradıcılıq və bədii həyat.* İnsanın və cəmiyyətin mənəvi həyatının nisbi müstəqil bir sahəsi olan bədii yaradıcılıq insanların bədii-estetik tələbatlarını ödəməyə yönəlmiş insan fəaliyyətidir. Təbiətinə və funksiyasına görə bədii yaradıcılıq mənəvi fəaliyyətin digər sahələrindən fərqlənir.

Xarakterinə yaxud təbiətinə görə bədii-estetik yaradıcılıq bir-birini tamamlayan iki mərhələdə gerçəkləşir:

1) bədii dəyərlərin (musiqi, bədii əsərlər, rəsm əsərləri və i.a.) mənimsənilməsi;

2) bədii dəyərlərin yaradılması.

Bədii dəyərlərin mənimsənilməsinə olan tələbatlar onların yaradılması tələbatını doğurur, bu tələbat isə bədii yaradıcılığın xarici amili, şərti kimi çıxış edir. Cəmiyyətin bədii dəyərlərə olan tələbatı yalnız onların yaradılmasını deyil, həm də qorunub saxlanmasını, başqa sözlə, insanların mənəvi həyatında dövr etdirilməsini tələb edir.

Cəmiyyətdə bədii estetik dəyərlərə olan tələbatın, bədii-estetik şüurun səviyyəsi bədii yaradıcılıq mühitini şərtləndirir, bədii yaradıcılığın səviyyəsi, onun məhsullarının yüksək estetik qavrayış, zövq formalaşdırması isə yaradıcılıq mühitini zənginləşdirir. Bu baxımdan milli bədii-estetik dəyərlər xüsusi önəm daşıyır. Amma ümumbəşəri dəyərlərin əhəmiyyətini də unutmaq olmaz.

Beləliklə, insanların bədii həyatı ilə bağlı proseslər bədii yaradıcılıqda və ya incəsənətdə cəmləşir. Dünyanın bədii mənimsənilməsi kimi incəsənət gerçəkliyin bədii (ümumiləşdirilmiş) obrazlarla təsvir edilməsində, qiymətləndirilməsində, öyrənilməsində və i.a. mənəvi fəaliyyətin digər növlərini birləşdirir, ancaq onlardan (məsələn, elmi, ideoloji yaradıcılıqdan) fərqlənir.



Bədii yaradıcılıq cəmiyyətin bədii həyatının əsasında durur. Ancaq bədii həyat bədii dəyərlərin toplanması, qorunması və yayılmasına xidmət edən sosial təsisatların fəaliyyətində təzahür edir. Belə ki, kitabxanalar, muzeylər, kinoteatrlar və bir çox mədəni müəssisələr bu məqsədə qulluq edirlər. Bədii dəyərlərin yayılması üzrə fəaliyyət onların yaradılması fəaliyyəti ilə sıx bağlı olduğundan mədəniyyət təsisatlarının bir çoxu (teatrlar, sirklər, filarmoniyalar, kulublar) bədii dəyərlərin həm yayılması, həm də istehsalı funksiyasını yerinə yetirirlər. Oxucular, seyrçilər və dinləyicilər bəddi dəyərlərin istehlakçılarıdır. Bir daha qeyd edək ki, bədii dəyərin (məsələn, musiqi və ya rəsm əsərinin, şerin və i.a.) istehlakı dəyərin forma və məzmunundan, bədii tələbatı, zövqləri təmin etmə səviyyəsindən asılıdır. Bədii istehsal və bədii istehlak arasındakı bu asılılıqda bədii həyatın ümumi qanunauyğunluğu təzahür edir.

Bədii dəyərlərin mənimsənilməsinə tələbat bədii yaradıcılığa olan tələbatın inkişaf səviyyəsinə uyğun dəyişilir. Məhsuldar bədii yaradıcılığa olan tələbata uyğun olaraq bədii dəyərlərin mənimsənilməsinə, qavranılmasına tələbat (keyfiyyətcə yeni tələbat) formalaşır. Daha yüksək bədii (yaradıcılığa olan) tələbatlar formalaşmadan yüksək bədii yaradıcılıq nümunələri, bədii əsərlər də yaranmaz, fəal bədii qavrayış, mənimsəmə də olmaz.

Bədii dəyərləri yaradanlar və onlardan ancaq istifadə edənlər bədii-mənəvi həyatın subyektləri, onların arasında yaranan ziddiyyət isə bədii həyatın və yaradıcılığın hərəkətverici qaynağı sayılır. Amma bədii həyatın hərəkət qaynağı yalnız yaradıcı və istifadəçilər arasındakı ziddiyyətdən ibarət deyildir. Peşəkar incəsənətlə yanaşı həvəskar bədii yaradıcılığın da inkişaf etdiyi ölkələrdə yüz minlərlə insan bədii istehlakın subyekti olmaqdan bədii yaradıcılığın subyektinə yaxud onun iştirakçısına çevrilirlər. Onlar oxucu konfranslarında, poeziya gecələrində, musiqiyə həsr olunan tədbirlərdə, yaradıcılığın digər sahələrinin nümayəndələri ilə görüşlərdə incəsənət əsərini fəal müzakirə edir və öz rəylərini bildirirlər (buna misal olaraq televiziya muğam və mahnı müsabiqələrini göstərmək olar). Ona görə də bədii həyatın hərəkətverici qaynağından söz açarkən yaradıcı və istehlakçı, kütlə münasibəti ilə yanaşı bədii dəyərləri bilavasitə yaradanlarla onların iştirakçıları arasındakı münasibətləri də nəzərə almaq lazımdır.

Bədii yaradıcılıq və bədii həyatın qarşılıqlı münasibətlərində diqqət yetirilməli başqa bir cəhət bədii həyatın komponentlərinin vəhdəti məsələsidir. Bu baxımdan bədii və estetik tələbatların, bədii və estetik yaradıcılıq növlərinin qarşılıqlı əlaqəsi məsələsi irəli çıxır. Hesab edilir ki, onun həlli estetik həyatı, onun özünəməxsusluğunu və cəmiyyətdəki hüdudlarını anlamaq üçün əhəmiyyətlidir.

Estetik tələbatlar insan fəaliyyətinin hər bir sahəsinin harmonikləşməsini, insanların və onların təbiətə münasibətlərini nizamlamağa olan tələbatlar sayılır. Bu cür tələbatlar mahiyyətcə gözəllikdən, təbiət-cəmiyyət münasibətlərinin harmoniyasından həzz almağa olan tələbatlar deyildir. Estetik tələbatlar inkişaf edərək insanlarda gözəllik qanunları yaratmaq şövqünə çevrilir. Bədii tələbat bədii əsərlərin qavranılması və yaradılması tələbatı kimi özünü göstərir, estetik tələbat isə təbii və sosial gerçəkliklərin harmoniyasına, gözəllikdən nəşələnməyə və onun qanunları ilə yaratmağa olan meyl kimi incəsənət çərçivəsindən kənara çıxır. Yəni bədii və estetik tələbatlar üst-üstə düşmür. Amma onlar genetik (qaynaqları) və funksiyaları baxımından bir-biri ilə bağlıdır. Bədii tələbatlar estetik tələbatlardan inkişaf edir, estetik tələbatların dəyişilməsi və öz funksiyalarını yerinə yetirməsi isə bədii tələbatlardan qidalanır və zənginləşir. Bədii tələbatların mahiyyəti kimi yaradıcılığa canatım, cəhd estetik talabatların mahiyyəti olur. Estetik fəaliyyətin maddi nəticəsi, məhsulu (kitab, müsiqi əsəri və s. formalarda) olmur, o insan fəaliyyətinin digər (maddi və mənəvi) növləri ilə bağlı olub onların nəticələri olan məhsullarda özünü göstərir.

## IV fəsil
## Sosiogenez: cəmiyyətin yaranması

### 4.1. İnsanın və cəmiyyətin genezisi-biososial problem

Bundan öncəki bölümdə bəşəriyyətin inkişafının ən erkən epoxasına aid izlədiyimiz material (daşlaşmış qalıqlar) göstərdi ki, bir çox məsələlər haqqında alimlər müxtəlif rəylər irəli sürürlər. Hətta daş texnikası təkamülünün dövrləşdirilməsi məsələsi də tam həll olunmamışdır.

Formalaşmaqda olan insanların qalıqları kifayət qədər olsa da



insanın fiziki tipinin formalaşması tarixini bərpa etmək çətindir. Bu sahədə mübahisəli və həll olunmamış məsələlər hələ çoxdur.

İnsan cəmiyyətinin yaranması, yəni ictimai münasibətlərin formalaşması prosesinin vahid bitmiş nəzəri modelinin yaradılması da ən çətin məsələ olaraq qalır. Çünki onlar maddi və fiziki mövcud olmadığından indi o münasibətlər qalmamışdır.

Bəşər tarixinin başlanğıc epoxasına aid ictimai münasibətlərin xarakteri haqqında bilavasitə məlumatlar olmadığından alimlər yalnız dolayısı məlumatlara əsaslanırlar. Əgər birbaşa məlumatların (insan qalıqlarının, daş alətlərin) fərdi şərh edildiyini nəzərə alsaq, məsələ daha da dolaşır. Amma mütəxəssislər ictimai münasibətlərin yaranmasının az-çox konkret mənzərəsini cızmağa çalışırlar.

Cəmiyyət nədir, deməli, "sosial" məfhumu nəyi ifadə edir məsələsi ən mühüm məsələ sayılır, çünki bu məsələni həll etmədən ictimai münasibətlərin nə zaman, harada, hansı zəruri amillərin təsiri altında yarandığını obyektiv anlamaq çətindir. Sosialın təbiətinin aşkar edilməsi isə onun biolojiyə münasibətinin aydınlaşdırılmasını tələb edir. Cəmiyyət yalnız insanamı məxsusdur yoxsa heyvanların da həyatına aiddir. Sosiogenez probleminin həllinə yanaşma bu suala verilən cavablardan asılıdır.

*Sosial və biolojinin nisbəti problemi.* Bəzi müəlliflərə görə, sosial mütəşəkkillik elementləri yaxud rüşeymləri ictimai həşəratlarda – arılarda, qarışqalarda da vardır. Belə heyvan qruplarında üzvlər bir-birini tanıyırlar, başqalarından fərqləndirirlər. Amma bu davranışlar bioloji instinktlərlə idarə olunduğundan onların qruplarını zooloji birliklər adlandırmaq daha düzgün olardı. Əgər cəmiyyət sadəcə daim bir-birilə qarşılıqlı təsirdə olan fərdlər yığını kimi başa düşülərsə, onda labüdən zooloji birlikləri də cəmiyyət adlandırmalıyıq. Bir sıra alimlər (P.Şmidt, P.E.Simands, L.A.White və b.) sosiallığa belə yanaşmadan çıxış edərək "heyvan cəmiyyəti", heyvanların "ictimai həyatı", "sosial quruluşu", "sosial ənənələri" terminlərindən istifadə edirlər.

Belə yanaşmada sosiallıq keyfiyyəti heyvanlara da aid edilir, beləliklə də insan çoxsaylı ictimai heyvanlardan biri sayılmış olur. Bundan başqa, əgər sosiallıq heyvanlar aləmində də mövcuddursa, onda sosial biolojinin təzahür formalarından biri hesab edilmiş olur. Buradan nəticə çıxır ki, insan cəmiyyəti zooloji birliklərdən biridir,

insan isə mahiyyətcə bioloji varlıqdır.

Amma bu da faktdır ki, Yer kürəsində son 35-40 min ildir ki, yaşayan bütün insanlar eyni bir bioloji növə – Homo sapiens-aiddir. O da şübhəsizdir ki, müxtəlif cəmiyyətlərə məxsus insanların davranışı fərqlənir. Məsələ ondadır ki, müxtəlif cəmiyyətlərə məxsus insanlarda tələbatlar, stimullar, davranış motivləri və s. tamamilə müxtəlif ola bilər. Aydındır ki, bu fərqlərin əsasında insan orqanizmlərinin strukturu, ümumiyyətlə, insan biologiyası deyil, ondan fərqlənən hansısa başqa bir amil dayanır.

Xarici tədqiqatçıların bir çoxu bu amili mədəniyyət, daha doğrusu, mənəvi mədəniyyət adlandırırlar. Bu və ya başqa cəmiyyətdə doğulub böyüyən insan onun mədəniyyətini mənimsəyir, bunun sayəsində insan nədirsə o olur. İnsanın davranışını onun orqanizminin strukturu, biologiyası deyil, yalnız mənsub olduğu cəmiyyətin mədəniyyəti müəyyən edir. Bu mövqedə duran alimlərə görə mədəniyyət, ancaq insana məxsusdur və biolojidən fərqlənir və ondan yüksəkdə durur. Onlar (D.Kaplan, A.L.Kroeber) mədəniyyəti orqanizmüstü, superbioloji hadisə sayırlar.

Mədəniyyətin superorqanik xarakteri onun inkişafının özəlliklərində aydın təzahür edir. Burada da bioloji inkişafda olduğu kimi informasiyanın nəsildən nəslə ötürülməsində varislik qanunu işləyir. Əgər bioloji inkişafda informasiya DNT molekulunda yazılır və rüşeym hüceyrəsi vasitəsilə ötürülürsə, mədəniyyətin inkişafında informasiya şüur yaddaşında yazılır dil və digər vasitələrlə yeni nəslə ötürülür. Nəticədə mədəniyyətin təkamülü bioloji inkişafdan asılı olmadan baş verir.

Bəzi tədqiqatçılara görə, insanda informasiyanın nəsildən-nəslə ötürülməsinin qeyri-genetik forması vardır və bu da onu heyvandan fərqləndirir. Bu tədqiqatçılar informasiyanın ötürülməsi formasını ifadə etmək üçün "sosial irsiyyət" yaxud "sosial varislik" terminlərindən istifadə edirlər. Deməli, onlar "sosial proqram"dan danışır və onu "genetik proqrama" qarşı qoyurlar. Amma "mədəniyyət" terminini "sosial" termini ilə əvəz etməklə onlar insanın özünəməxsusluğunu mədəniyyətdə görənlərdən heç də fərqlənmirlər.

İnsanın mahiyyətinin bu cür başa düşülməsindən bioloji hərəkətdən sosial hərəkət formasına keçidlə bağlı problemə müəyyən



yanaşma irəli gəlir. Belə çıxır ki, problem cəmiyyətin deyil, mədəniyyətin yaranması ilə bağlıdır.

Doğrudur, mədəniyyətin yalnız insana məxsus olduğu, onin orqanizmüstü hadisə olduğu danılmazdır. Amma insanın heyvandan fərqi onun mədəniyyətindədir baxışı ilə razılaşmaq olmaz. Eləcə də insan mahiyyətini onun şüurunda axtaran baxışı qəbul etmək olmaz. Bu baxışa görə insan şüurludur və bununla da heyvandan fərqlənir.

Mədəniyyəti insan davranışının əsası yaxud proqramı elan etməklə də onu məhdudlaşdırmaq olmaz. İnsan davranışı proqramının özülündə nə durur, niyə bir cəmiyyətdə başqası deyil, ancaq bu normalar, mədəni dəyərlər mövcuddur, nə üçün cəmiyyətin mədəniyyəti insanı başqa cür deyil, ancaq özünə uyğun hərəkət etməyə yönəldir, təhrik edir sualına cavab vermək lazımdır. Başqa sözlə, insan davranışını müəyyən edən, onun proqramı kimi çıxış edən ictimai şüurun, mədəniyyətin obyektiv əsasını müəyyən etmək lazımdır.

İnsan davranışının mədəni proqramının obyektiv əsasını gözdən keçirdiyimiz yanaşmaların aparıcıları yalnız şüurun özündə görmüşlər. Bununla da sosiallıq, qaynağı özündə olan xalis ruhi prosesə müncər edilmiş olur.

Bu konsepsiyanın idealizm ruhunda olması Qərbdə son illərdə "insanın etologiyası" və "sosiobiologiya" cərəyanlarının yaranmasına səbəb oldu. Onların tərəfdarları insan davranışının maddi əsasının inkar edilməsilə barışmayaraq onu axtarmağa başladılar və insan biologiyasında, onun genotipində tapdılar. Bu "tapıntıya" görə, insanın sosial davranışı – əsas əlamətləri onun anatomiyası kimi genetik proqramlaşır.

Bu fikirdə müəyyən həqiqət vardır. Ancaq bəllidir ki, bir sıra heyvanlarda (qarışqalarda, arılarda və b.) hətta ağır predmetlərin daşınmasında özünü göstərən əməkdaşlıq davranışı da genetik proqramlaşır. Amma onların bu hərəkəti genetik proqramlaşdırılan instinktlərə tabedir və həşəratların belə hərəkətini sosioloji anlamda qarşılıqlı təsir adlandırmaq olmaz. Sosial qarşılıqlı təsirlər (interaksiya) yalnız düşünən, genetik yox stoxastik xarakterli şüurlu niyyəti, məqsədləri, tələbat və maraqları olan fərdlərə aiddir.

Bu halda başqa sual doğur: məgər insan davranışını tənzimləyən yaxud proqramlaşdıran şüurun daşıyıcısının (beyinin)

inkişafı genetik proqramla bağlı deyilmi? Əlbəttə bağlıdır, nə beyinsiz şüur, nə də şüursuz beyin ola bilməz. Deməli, şüurun inkişafında beyinin rolunu, beyinin inkişafında isə insanın genetik proqramının rolunu inkar etmək olmaz. Yalnız ontogenetik planda deyil, təbii-tarixi təkamül (filogenetik) prosesində beyinin və genetik yaddaşın inkişafı bir-birini şərtləndirmişdir. Bunu nəzərə almaqla Marksizm mövqeyindən çıxış edən bəzi tədqiqatçılar nəticəyə gəlirlər ki, "şüurun müəyyən etdiyi, şüurdan asılı olan ictimai münasibətlərdən başqa elə münasibətlər də vardır ki, bunlar insanların şüurundan nəinki asılı deyildir, əksinə, insanların şüurunu müəyyən edir. Bu obyektiv ictimai əlaqələr istehsal, sosial-iqtisadi münasibətlərdən ibarətdir ki, onların da əsasında məhsuldar qüvvələr durur". Sosial varlıq yaxud ictimai materiya bu sosial-iqtisadi münasibətlərdən ibarətdir. Deməli, sosial anlayışının məzmunu sosial-iqtisadi yaxud istehsal münasibətləri anlayışı ilə müəyyən edilə bilər. "Bu sosial materiya cismani deyildir, maddi deyildir, fiziki gerçəkliyi yoxdur. Bununla yanaşı, o ... şüura münasibətdə birincidir. Ancaq bu sosial materiya şüurun insan davranışlarını müəyyən edən hissəsinin yəni dar mənada ictimai şüurun obyektiv mənbəyidir. Bu mənbə insanların mənafelərinin, bütün ictimai hadisələrə münasibətinin, onların arzu və niyyətlərinin obyektiv gücü kimi çıxış edir. Yalnız bu güc insan fəaliyyətinin başlıca motivlərinin əsas mənbəyidir. Odur ki, bu güc insanların davranışının mahiyyətini bütövlükdə müəyyən edir" (150, 10).

Beləliklə, qəti təsdiq etmək olar ki, yalnız sosial materiyanın müəyyən edilməsi insan cəmiyyətinin heyvan birliklərindən köklü fərqini aşkar etməyə imkan verdi.

İnsan cəmiyyəti hər zaman ayrı-ayrı konkret cəmiyyətlərin toplamı kimi mövcud olmuşdur. Onların hər biri ayrılıqda ilk öncə sosial-iqtisadi münasibətlər sistemi ilə bir bütöv halında birləşdirilən insanlardan ibarətdir. Hər bir maddi sistem kimi bu sistem də insanların şüur və iradəsindən asılı olmadan öz funksiyasını daşıyır və inkişaf edir.

Məlumdur ki, heyvanlar aləmində cəmiyyət yoxdur. Orada, ancaq zooloji birliklər mövcuddur. Deməli, heyvanlar birliyi daxilindəki əlaqələri sosial adlandırmaq olmaz. Heyvanlara münasibətdə işlədilən "birlik" terminini "qreqar" (lat. qrex-sürü) sözü ilə əvəz etsək, onda heyvanlar aləmində qreqar əlaqələrindən, qreqar təşkildən, qreqar strukturdan, qreqar və tək-tək yaşayan heyvanlardan danışmaq daha düzgün olardı. Başqa sözlə, insanlara sosiallıq, heyvanlara isə qreqarlıq xasdır.

*Sosiogenezin başlanğıcı və sonu.* Yuxarıda deyilənlərdən aydın olur ki, cəmiyyətin yaranması heyvanlar aləmində mövcud olan əlaqələrdən keyfiyyətcə fərqlənən yeni sosial-iqtisadi münasibətlərin yaranmasından ibarətdir. Bu münasibətlər isə istehsalsız yarana və mövcud ola bilməz. Sosial varlıq olan insan yaradıcıdır. Heyvanlardan fərqli olaraq insan yaratmasa məhv olar.

Heyvanın insana və heyvan sürüsünün insan cəmiyyətinə çevrilməsi üçün təbiət milyon illər təkamül etməli idi. Odur ki, insanın yaranmasının (antropogenezin) və cəmiyyətin formalaşmasının (sosiogenezin) bir anda baş verdiyini düşünmək sadəlövhlük olardı.

Antropogenez və sosiogenez heç də iki müstəqil, paralel baş vermiş proses olmamışdır. İnsanın yaranması ilk öncə onun mahiyyətinin – ictimai münasibətlər sisteminin yaranmasından ibarət olmuşdur. Antropogenezin və sosiogenezin dialektik vəhdətindən çıxış edilməsi bu iki hadisəni vahid prosesin – antroposoiogenezin bir-birini şərtləndirən iki tərəfi kimi anlamağa imkan verir. Bu o deməkdir ki, antropogenezin başlanması eyni zamanda sosiogenezin başlanğıcı, antropogenezin sonu – eyni zamanda sosiogenezin sonu olmuşdur. Başqa sözlə, antropogenez sosiogenezlə eyni vaxtda başlanmış və onunla eyni vaxtda başa çatmışdır (F.Engels).

Bu dialektik müddəa özünün konkretləşdirilmiş ifadəsini keçmiş sovet antropoloqlarının və qismən arxeoloqlarının (P.İ.Borisovski, Y.Y.Roqinski, A.N.Yuzefoviç, V.P.Yakimov) işləyib hazırladığı iki sıçrayış nəzəriyyəsində tapmışdır. Bu nəzəriyyəyə görə, insanın təkamülündə iki dönüş anı olmuşdur. Birincisi və önəmlisi – alətlər yaratmağa başlanması ilə insanın heyvan əcdadları mərhələsindən formalaşmaqda olan insanlar (pitekantroplar, arxantroplar və paleantroplar – neandertallar) mərhələsinə keçid olmuşdur. İkinci sıçrayış – paleantropların müasir fiziki tipli insanlarla (neantroplar, hazır insanlarla) əvəz olunmasından ibarətdir. Bu sıçrayış alt və üst paleolitin sərhədində baş vermişdir. Birinci sıçrayış sosial qanunauyğunluqların yaranmasından, ikinci sıçrayış isə sosial

qanunauyğunluqlarının insan birliklərində tam və şəriksiz hökmranlığının qərarlaşmasından ibarət olmuşdur.

Formalaşmaqda olan insanlar – pitekantroplar və neandertal kollektivi nə xalis birlik, nə də əsl insan cəmiyyəti deyildi. Onu qərarlaşmaqda olan insan cəmiyyəti adlandırırlar. Formalaşmaqda olan insanlar – müasir insanaqədərki insanlar formalaşmaqda olan (cəmiyyətəqədərki) cəmiyyətdə yaşayırdılar. Müasir cəmiyyətəqədərki cəmiyyəti, mütəxəssislər ibtidai insan sürüsü adlandırırlar.

İnsan cəmiyyətinin formalaşması yalnız ilk paleolitdən yeni paleolitə (yeni daş dövrünə) keçilməsilə başa çatmışdır. Bu faktı təkzib edən heç bir elmi material tapılmamışdır. İlkin paleolit dövründə insanın bioloji növ kimi təkamülü davam etmişdir. Belə ki, arxantroplar, paleoantroplar və neantropların arasında gözəçarpan morfofizioloji fərqlər vardır. Bu fərqlər onların ayrı-ayrı növlər olduğu təsəvvürünə əsas verir. Arxantropların paleoantroplara, bu sonuncuların isə neantroplara transformasiyası bioloji baxımdan yeni bioloji növlərin əmələ gəlməsi kimi qiymətləndirilir.

Neandertalların meydana gəlməsilə insanın bioloji növ kimi təkamülü başa çatmış, sosial inkişafı sürətlənməyə başlamışdır. Neantropun meydana gəlməsindən ötən son 35-40 min il ərzində bəşəriyyət daş baltadan atom elektrik stansiyalar və kosmik gəmilər, ən müasir kompüterlərə qədər, ibtidai icma quruluşundan müasir kapitalizmə qədər uzun inkişaf yolu keçmişdir. Amma bütün bu texniki dəyişikliklər insanın bioloji növünə – Homo sapiens toxunmamışdır. İnsan köklü surətdə dəyişilmişdir, ancaq bioloji növ kimi yox, sosial varlıq kimi.

Sosial cismani, maddi deyildir. Odur ki, onun yaranması haqqında dolayı yolla mühakimə yürütmək olar. Sosial maddi istehsalsız mümkün deyil. Yalnız maddi istehsal onu doğura bilərdi. Maddi istehsal təbiət cisimlərinin dəyişdirilməsinə yönələn fəaliyyətdir, maddi yaradıcılıqdır. Maddi yaradıcılıq maddi tələbatlara bağlıdır. Onlar bir-birini doğurur. Fəaliyyətin nəticəsi onun başlanğıcında arzu edilən predmetin subyektiv obrazı formasında insanın beynində yaranır. Bu ideal fəaliyyətin subyektiv obrazı fəaliyyətin məqsədi kimi çıxış edir. Məqsəd fəaliyyətin gedişini müəyyən edir, onu özünün gerçəkləşməsi prosesinə çevirir. Deməli, maddi yaradıcılıq ideal mənəvi yaradıcılıq tələb edir. İstehsal



fəaliyyəti dünyanın heyvanda olmayan xüsusi inikasını tələb edir. Ona görə də dünyanın insan ruhunda yaranan inikası ümumi və zərurinin xüsusi obrazlarını – anlayışlar sistemini özünə daxil edir. Sonuncu isə sözsüz və dilsiz mümkün deyil. Başqa sözlə, istehsal fəaliyyəti anlayışlara əsaslanan təfəkkürü, yəni şüuru və dili nəzərdə tutur və tələb edir.

Fəaliyyətin məzmunu və forması arasında uyğunluq vardır. Ancaq bəzi müəlliflər bu fikirlə razı deyillər. Onlar istehsal fəaliyyətinin şüurlu, iradi olduğunu inkar etmirlər. Tənqidi belə bir zoopsixoloji müddəaya yönəldirlər ki, ali heyvanların davranışı təkcə şərti reflekslərdən ibarət ola bilməz, onlarda da intellekt, ağıl, zəka, düşüncə vardır və onların da fəaliyyəti bəlli dərəcədə şüurludur. Bu baxışı hələ İ.P.Pavlov özünün heyvanlarda ali sinir fəaliyyəti konsepsiyasında tənqid etmişdir.

Heyvanlarda təfəkkürün olub-olmaması məsələsinin həlli təfəkkür anlayışının məzmununun dəqiq və aydın izahını tələb edir. İzah isə yuxarıda verilmişdir: təfəkkür gerçəkliyin ümumi və zəruri tərəflərinin anlayışlar vasitəsilə inikasıdır. Bu inikas forması isə yalnız insana məxsus fəaliyyətdir. Heyvanlarda psixikanın inkişaf səviyyəsilə bağlı Engelsin aşağıdakı izahı da maraqlıdır: "Fəhm fəaliyyətinin bütün növləri: induksiya, deduksiya və deməli, abstraksiya etmə... naməlum şeylərin analizi (qozun sındırılmasının özü artıq analizin başlanğıcıdır), sintez (heyvanlarda hiyləgər əməllər halında) və hər ikisinin birləşməsi olaraq eksperiment... bizdə olduğu kimi heyvanlarda da vardır. Bütün bu metodlar – deməli, elmi tədqiqin ali məntiq tərəfindən qəbul olunan bütün vasitələri – öz tipi etibarilə insanda da, ali heyvanlarda da birdir... Yalnız dərəcə etibarilə onlar fərqlənir... Dialektik təfəkkür isə – anlayışların öz təbiətini tədqiq etmək onun üçün ilkin şərt olduğuna görə yalnız insana məxsusdur..." (12, 194).

Təfəkkürün, iradənin və dilin yaranmasından danışarkən bu keyfiyyətlərin kimdə və nə zaman yarandığını aydınlaşdırmaq lazımdır. XX əsrin 60-cı illərinə qədər avstralopitekləri pitekantropların bilavasitə əcdadları sayırdılar. 60-cı illərdə antropoloqlar müəyyənləşdirdilər ki, pitekantropların bilavasitə əcdadı avstralopiteklər yox, Homo habilis (bacarıqlı insan) olmuşlar. Həmin illərdə Homo habilisin insan yoxsa heyvan olduğuna dair gərgin mübahisələr

başlandı. Bəzi tədqiqatçılar onun insan, digərləri isə heyvan olduğunu iddia etdilər. Mübahisəyə yalnız faktlar əsasında son qoymaq olardı.

Hazırda alimlər yeni faktlara əsasən sübut ediblər ki, Homo habilis avstralopitekdən fərqli olaraq əmək alətləri **istehsal** edirmişlər. İstehsal fəaliyyəti alət vasitəsilə alət hazırlamağı nəzərdə tutur. O da qəti müəyyənləşdirilmişdir ki, Homo habilis özünün beyin də daxil olmaqla morfofizioloji quruluşuna görə avstralopiteklərdən o qədər də fərqlənməmişdir. Əgər bacarıqlı insana (Homo habilis) məxsus alətlər tapılmasaydı heç bir tədqiqatçı onun heyvan olduğuna şübhə etməzdi.

Pitekantropların insan olduğunu təsdiq edən dəlillər isə az deyildir. Onların təkcə morfoloji quruluşunun analizi insan olduqlarını təsdiq etməyə əsas verir. Bu faktı habilisləri insan saymayanlardan (M.İ.Urison, E.Q.Vaçuro, V.P.Lyubin və b.) başqa bütün antropoloqlar qəbul edirlər.

Yanılmadan qəbul edə bilərik ki, heyvan morfofizioloji quruluşundan insanı fərqləndirən hüdud avstralopitek və habilis arasında deyil, Homo habilis və pitekantrop arasındadır. Bütün bu faktlardan nəticə çıxarılır ki, yalnız pitekantropa keçilməsilə təfəkkür, iradə və dil kimi keyfiyyətlər formalaşmağa başlamışdır.

Başqa sözlə, elmin indiyədək topladığı faktlar sübut edir ki, istehsal fəaliyyəti, təfəkkür və dil eyni vaxtda yaranmamışdır, aralarında zaman ayrılığı olmuş və 0, 5-1 mln. öncə formalaşmağa başlamışlar. Öncə istehsal fəaliyyəti sonra da təfəkkür və dil yaranmışdır. Bu fakt əmək şüuru yaratmışdır müddəasını təkzib yox, təsdiq edir. İstehsal fəaliyyəti idealda (təfəkkürdə) yalnız şüurlu, iradi fəaliyyət kimi çıxış etsə də, reallıqda yalnız heyvani formada yəni "ilk heyvanı instinktiv əmək formasında" yarana bilərdi. O zaman ki, "əmək özünün primitiv, instinktiv formasından hələ ayrılmamışdı...". Əməyin instinktiv xarakteri deyərkən K.Marks hələ şüurla, iradə ilə yönəldilməyən fəaliyyəti nəzərdə tuturdu.

Tədqiqatçıların çoxu bu fikirdədir ki, təbii alətlərdən istifadə edilməsindən, alət vasitəsilə alət istehsalına, bacarıqlı insandan (Homo habilis) iki ətraf üzərində yeriyən pitekantropa (Homo erectus) keçilməsilə təfəkkürün, iradənin, dilin və buna uyğun olaraq insana xas morfofizioloji quruluşun formalaşması başlanmışdır. İnsana xas morfoloji quruluş olmadan insan ola bilməz. Odur ki, bu



cür düşünən antropoloqlar habilisləri insan yox, heyvan sayırlar (A.Zubov, V.Koçetkova, V.P.Yakimov və b).

Beləliklə, sosial, ilk öncə sosial-iqtisadi münasibətlər heyvandan insanın ayrıldığı sərhəddə yaranmışdır. Amma maddi sosial-iqtisadi münasibətlər normal halda iradi, şüurlu ictimai münasibətlərdən kənarda mövcud ola bilməz. İctimai varlıq isə ictimai və fərdi şüur olmadan mövcud ola bilməz. Odur ki, sosial münasibətlərin formalaşması təfəkkürün, iradənin və dilin yaranmasından öncə başlana bilməzdi.

İstehsal fəaliyyəti başlanğıcda heyvani şərtireflektiv davranış və zooloji birlik halında olmuşdur, müəyyən mərhələdə obyektiv zərurət üzündən istehsal fəaliyyəti heyvani fəaliyyət halını almışdır. O andan təfəkkürün və dilin, eyni zamanda da maddi istehsal münasibətlərinin formalaşması başlanmışdır. Bu prosesdə maddi istehsal münasibətləri və təfəkkür, dil, iradə bir-biri üçün şərt olmuşdur, çünki onlar, mahiyyətcə sosial hadisələrdir. Maddi istehsal münasibətləri – maddi sosial, təfəkkür, iradə və dil-mənəvi sosial, yalnız birgə mövcud ola bilər. Bunların vəhdətdə formalaşması ilə eyni vaxtda insan cəmiyyətinin qərarlaşması başlamışdır. Bu proses habilislərdən pitekantroplara keçidlə baş vermişdir.

Beləliklə, paleoantropologiyanın və arxeologiyanın yeni kəşfləri göstərdi ki, yalnız istehsal fəaliyyətinin yaranması insanın və cəmiyyətin yaranmasına gətirib çıxara bilərdi. Doğrudur, insanı əmək yaratmışdır, ancaq bu hadisə 0, 5-1 mln. il ərzində tədricən baş vermişdir. Bu zaman içində davam edən istehsal fəaliyyətinin inkişafı heyvanın ilk, hələ formalaşmaqda olan insanların, onların birliyi isə formalaşmaqda olan cəmiyyətin yaranması ilə nəticələnmişdir. Bu mərhələnin başa çatmasından sonra hazır insanın və hazır cəmiyyətin yaranması prosesi başlanmışdır. Bu prosesin 1, 6 mln. il öncə başlandığı, 35-40 min il öncə başa çatması ehtimal edilir.

### 4.2. Sosiogenezin mahiyyəti

1, 6 mln. il öncə başlanmış, 35-40 min il öncə qurtarmış dövr hazır cəmiyyətin yox, formalaşmaqda olan cəmiyyətin mövcudluğu dövrü olmuşdur. Formalaşmaqda olan cəmiyyəti çox vaxt ibtidai insanlar sürüsü adlandırırlar.

Cəmiyyətin qərarlaşması prosesinin birinci pilləsi ibtidai

cəmiyyətin formalaşması mərhələsi olmuşdur. Bu mərhələdə cəmiyyət bir çox ayrı-ayrı konkret cəmiyyətlər, sosial orqanizmlər halında mövcud olmuşdur. Bunları ibtidai icmalar adlandırırlar. Deməli, formalaşan sosial orqanizmlər qərarlaşmış ibtidai icmalar olmuşlar. Odur ki, onları formalaşmaqda olan icmalar da adlandırırlar. Formalaşmaqda olan cəmiyyət (müasir cəmiyyətin ulu əcdadı) hər zaman ibtidai icmalar halında olmuşdur.

İnsan cəmiyyətinin formalaşması ibtidai sosial-iqtisadi formasiyanın mənşəyi (genezisi) sayılır. Bu səbəbdən, ibtidai-icma formasiyası cəmiyyətin yaranması və inkişafının birinci pilləsi hesab olunur. Deməli, formalaşmaqda olan cəmiyyətin ibtidai icma mərhələsində yaranmış ictimai münasibətlər ibtidai-icma münasibətlərindən ibarət olmuşdur və münasibətlər ictimai münasibətlərin ilk forması sayılır.

Mütəxəssislər bəşəriyyətin tarixini iki əsas dövrə bölürlər: formalaşmaqda olan cəmiyyətin tarixi (cəmiyyətin yaranması dövrü) və cəmiyyətin tarixi (hazır, formalaşmış cəmiyyətin inkişafı dövrü).

Hazır cəmiyyətin tarixini öyrənərkən onu insanın bioloji özəlliklərindən fikrən ayırmaq, nəzərə almamaq olar, amma formalaşmaqda olan cəmiyyətin tarixini öyrənərkən təkcə sosialı yox, həmçinin biolojini də nəzərə almalıyıq.

Bəşər cəmiyyətinin formalaşması heyvan birliyinin sosial orqanizmə çevrilməsindən, maddi sosial-iqtisadi və digər sosial münasibətlərin yaranmasından ibarət olmuşdur. Bu proses isə istehsal fəaliyyətinin inkişafı əsasında baş vermişdir.

Sosial-iqtisadi münasibətlərin yaranmağa başlaması mahiyyətcə yeni, sosial davranış amillərinin doğulmasından ibarət olmuşdur. Bu proses sosial amillərin insan davranışını bütünlükdə müəyyən edən şəriksiz hökmranlığına çevrilməsilə başa çatmışdır.

Sosial-iqtisadi münasibətlərin, deməli, yeni (sosial) davranış amillərinin yaranması ilə Homo cinsində yeni bioloji təkamül dəyişkənlikləri baş vermişdir. Akademik N.P.Dubininə görə, müasir insanın ən qədim əcdadının sosial təkamülü istiqamətində yeni bioloji əlamətlər yaranmışdır. Bu təkamülün nəticəsində hər bir insan doğuşdan biososial təkamülün yekunlarını özündə daşıyır. Biososial təkamülün nəticələrini özündən öncəki nəsildən genetik varisliklə alan insanın biologiyasında sosiallıq deyilən heç nə yoxdur. Amma o



özünün bioloji əlamətləri ilə böyük sosial proqramını qavramağa və inkişaf etdirməyə hazırdır.

Başlanğıcda bioloji təkamül çox böyük sürətlə getmişdir Son mərhələdə bu sürət beyinin qeyri-adi təkamülündə özünü göstərmişdir. 3-4 mln. il öncə avstralopiteklərin beyni 500 sm3 idi. Dik yeriyən insanın -Homo erectus-un beyin həcmi 1250 sm3-ə. Müasir insanın birbaşa əcdadında (100-200 min il öncə) isə 1500 $sm^3$ yüksəlmişdi. 30-40 min il öncə bu beyin həcminə malik insan yaranmışdır.

Bu fakt bir daha təsdiq edir ki, müasir insanın yaranması yönündə başlanmış bioloji təkamülün yüksək pilləyə çatması (beyin həcminin 1500 sm3 qalxması, bununla birlikdə ön ətrafların əmək funksiyası üzrə ixtisaslaşması və maddi istehsal fəaliyyətinin başlanması) ilə beynin bioloji təkamülü dayanmış insanın inkişafı sosial qanunauyğunluqların hökmranlığına tabe olmuşdur. Amma sosial qanunauyğunluqların yaranmasına qədərki dövrdə primatlar milyon illər davam edən uzun bir təkamül yolu keçmişdir.

Milyon illər öncə yaşamış formalaşmaqda olan əcdadların sosial quruluş forması haqqında təxmini mühakimə yürüdə bilərik. Uzaq əcdadlar sürü həyat tərzi keçirmişlər. Ağaclarda yaşayan oranqutanlar, aslanlar və bərk qaçan atlar aramsız davam edən münaqişələrdən qaçmaq üçün sürüdən dominant – erkək qalan erkəklərin hamısını kənarlaşdırır. İtbaşlı meymunlar sürüsündə isə bütün erkəklər birlikdə olurlar və onlar qoruyucu strukturu təşkil edirlər.

Buna oxşar problemlərlə vaxtilə insanın əcdadları da üzləşmişlər. Şərqi Afrikada 3-4 mln. il öncə yaşamış insanın dik yeriyən əcdadları (afar avstralopitekləri) alçaqboylu olmuşlar. Onları əvəz etmiş və ilk daş alətlər hazırlamış Homo habilis (bacarıqlı insan) da hündürboylu olmamışdır. Yalnız habilisdən sonra gəlmiş (1, 5 mln. il öncə) Homo erectus bir yarım dəfə onlardan hündür olmuşdur. Amma o da iri heyvanlar ovlaya bilməmişdir. Çünki onun kəsici daş alətə malik olmasına baxmayaraq təklikdə vəhşi heyvanı öldürmək gücü yox idi. Odur ki, bizim uzaq əcdadlarımızın sürü həyat tərzi keçirdiklərini düşünmək məntiqə uyğundur. İndi savannanın sürü halında yaşayan meymunların sosial quruluşu insanın əcdadlarının sosial quruluşunun canlı modeli kimi götürülə bilər.

Qədim əcdadlarımızın skeletlərinin, tonqallarının və daş alətlərinin qalıqları onların, ancaq anatomik özəllikləri, qismən də təsərrüfat forması və sığınacaqları haqqında mühakimə yürütməyə imkan verir. Amma məsələn insanaqədərki insanabənzərlərin (avstralopiteklərin) və insanın qədim əcdadlarının (habilislərin) sosial quruluşuna dair məlumat əldə etmək üçün antropoloqlara yalnız primatların (indiki insanabənzər meymunların) davranış və həyat tərzini müşahidə etmək kömək edə bilər.

Primatların müşahidəsi sürü münasibətlərini tənzimləyən üç mühüm amildən danışmağa əsas verir: erkəyin dişiyə bağlılığı (tandem və qaremin yaranması); ana və uşaqların qarşılıqlı cazibəsi (ayrılmazlıq); eyni cinsli fərdlərin bir-birini cəzb etməsi (88). Göründüyü kimi, bu amillər arasında qarışqalarda və arılarda müşahidə edilən əmək bölgüsü, kasta (silk, təbəqə) quruluşu, balaların kollektiv tərbiyəsi amilləri yoxdur. İnsanın ən qədim əcdadlarının həyatında bu sonuncu amillər yox idi, buna gəlib çatmaq üçün onlar hələ milyon illər uzun yol keçməli idilər.

Beləliklə, insanaqədərki insanabənzərlər (bunlar müasir insanabənzər meymunlardan-primatlardan fərqlənən Hominidlər idilər) sürüsü bir neçə yüz fərdi özündə birləşdirən amorf (formasız-biçimsiz) birləşmədən ibarət olmuşdur.

Alimlər K.Lorensin bu fikrilə razılaşırlar ki, ailə formalaşmaqda olmuş insanlar birliyinin özəyi olmamışdır. Ailə dik yerimək və əmək alətləri kimi başlanğıcda zəif təkamül amili olmuşdur. Bu üç amil insanaqədərki insanaoxşarların həyatına təsadüfən daxil olmuşdur, onlardan istifadə etmək zəruri deyildi və onun anatomiyasında və sosiallığında möhkəmlənməmişdi.

Ehtimal ki, insanaqədərki insanabənzərlərin həyatında ailə prototipi monoqam olmamışdır, təkamüldə *birinci tandem və qarem* yaranmışdır. Tandemin əsasında ana və uşaq, qaremin əsasında bir erkək və bir neçə dişi dayanmışdı. Bunların hər ikisini onlar heyvan əcdaddan irsən almışlar, hər ikisini onların biologiyası müəyyən edirdi və bioloji baxımdan səmərəli idi. Bir qaremdə yalnız bir erkək dominantlıq edə bilərdi, dişilərin sayı isə erkəyin gücündən asılı olmuşdur.

Ana və uşaqlar birliyi (tandem) bioloji yöndən daha davamlı olduğundan insanaqədərki insanaoxşarların ilk mikroquruluşu idi.



Zaman keçdikcə yeni struktur vahidi – qarem (fiziki cəhətdən güclü bir erkəkdən, bir neçə dişidən və onların ümumi uşaqlarından ibarət) – yaranmışdı. Qarem tandemdən sonra yaranmış struktur vahididir.

Bizim bioloji əcdadlarımız olmuş ali primatlarda ilk öncə azı iki nəsil (ana-uşaq) arasında bağlılıq yaranmış və bu bağlılıq təkamülün sonrakı gedişində bioloji instinkt halında möhkəmlən-mişdir. Sonrakı pillədə aydın dərk edilən mürəkkəb və şaxəli qohumluq sistemi yaranmışdır. Bu qohumluq bağlılığı sonradan bəşər tarixində ilk sosial sistemə, insan cəmiyyətinin əsasına və özülünə çevrilmişdir.

Tandem və qarem bioloji yöndən birinci əlaqə tipi, erkək və dişi arasındakı əlaqə ikinci əlaqə tipi sayılır (təbiət bu əlaqə tipi üçün davamlı bioloji özül yaratmadığından zəifdir, tez pozula bilir). Kişi və qadını bir bütöv halında birləşdirən ikinci əlaqə tipi çox sonradan yalnız kompanionlarda yaranmışdır. Bu əlaqə tipini xarakterinə görə sosial, əhəmiyyətinə görə inqilabi adlandırmaq olar. Bu məntiqə görə insanlar arasında yaranmış pilləvari (iyerarxiya) əlaqələri üçüncü əlaqə tipi adlandırmaq olar. Bu əlaqə tipinin nəsil artırmaq, seksual münasibətlər və nəsil tərbiyəsilə heç bir bağlılığı yoxdur.

Beləliklə, birinci əlaqə tipi istisnasız olaraq bioloji xarakterlidir, ikinci tip əlaqələr biososial, üçüncü əlaqə tipi istisnasız olaraq sosial əlaqə tipidir.

İnsanaqədərki insanaoxşarlar sürüsünə amorf (formasız) və davamsız birləşmə kimi baxa bilərik. Bu birlik çərçivəsində davamlı struktur ya tandemdən ya da qaremdən ibarət olmuşdur.

İnsanaqədərki insanabənzərlərin və primatların amorf birliyini populyasiya da adlandırırlar. Populyasiya endoqamiya seksual münasibətlərlə səciyyələnən ilk strukturu təşkil edir. İkinci struktur genişlənmiş sosium sayılır. Bu struktur daxilində ekzoqam seksual münasibətlər üstündür. Üçüncü strukturu *dem* adlandırırlar. Demlər populyasiyanın elementar quruluş vahidləri sayılır. Onların əsasında populyasiyanın xarici və populyasiyadaxili dəyişkənliklərə adaptiv reaksiyası təmin edilir. Populyasiyadan fərqli olaraq sayı arealın böyüklüyü ilə müəyyən edilən dem ciddi quruluşa malik olmalı, fərqlərinin sayı təkcə ekoloji şəraitlə deyil, həm də özünün quruluşu ilə müəyyənləşdirilməli idi. Dem nizamı və varlığı tamamilə sosial təkamülün qanunları ilə müəyyən olunan yetərincə ciddi quruluşdur.

İnsan populyasiyasının təşkili üçüncü quruluşun – demlərin

yaranması ilə bitmir. Odur ki, insana məxsus quruluşa üçüncü struktura tam uyğun gələn antropogeosenoz anlayışının ifadə etdiyi məzmun da daxil edilir. Antropogeosenozdan daha yüksək quruluş təsərrüfat – mədəni əlaqələr tipi sayılır.

İnsan cəmiyyətinin yaranması zooloji fərdiliyin cilovlanması, insani kollektivçiliyin başlanması və başa çatması prosesindən ibarət olmuşdur. Sosial yalnız bioloji ilə kəskin mübarizədə yarana bilərdi.

İnsan cəmiyyətinin yaranması prosesinin belə şərhinə etiraz edənlər də vardır. Lakin insanın heyvan əcdadında zooloji fərdiliyin olduğunu inkar edən alimlər V.P.Alekseev, İ.L.Pavlov və b. azlıq təşkil edir, amma onlar formalaşmaqda olan insanlarda zooloji fərdiliyin mövcudluğunu etiraf edirlər. Başqaları (məsələn, S.A.Tokarev, L.A.Faynberq və b.) heyvanlar aləmində zooloji fərdiliklə yanaşı zooloji kollektivçiliyin olduğunu da təsdiq edirlər. Onlar deyirlər ki, heyvanlarda ictimai yaxud sürü instinkti vardır. Bu instinkt onları birləşməyə məcbur edir, hətta ayrı-ayrı fərdləri sürünün uğuru naminə özünü qurban verməyə təhrik edir. İnsan əcdadlarında da zooloji kollektivçilik instinkti zooloji fərdiliyi cilovlaya bilmək gücündə olmuşdur. L.A.Faynberq təsdiq edir ki, insanın əcdadlarında cinsi instinkt də daxil zooloji fərdiliyi məhdudlaşdıran, hətta ana xətti üzrə qohumlar arasında cinsi əlaqələri yasaqlayan hansısa bioloji mexanizmlər olmuşdur.

Bütün bu deyilənlərdən nəticə çıxır ki, sosialın bioloji kökləri vardır, artıq ali tip zooloji birliklərdə kollektivin və qan qohumluğunun (ana xətti üzrə), ekzoqamiyanın maraqlarını nəzərə alan bəzi davranış formalarının və təsisatların rüşeymləri və ilkin əsasları vardır. Bunlar qədim insanlarda üzə çıxmışdır. Bu izahın müəllifləri etoloji məlumatlardan çıxış etdiklərini və düzgün mövqedə olduqlarını israr edirlər. Bu yanaşma hələ XIX əsrin ikinci yarısında və XX əsrin başlanğıcında irəli sürülmüşdü. Məsələ ondadır ki, heyvanların sosiallaşdırılmasından insanın bioloji ləşdirilməsi nəticəsi çıxır. Əgər sosial kollektivçilikdə ifadə olunursa, onda bioloji bunun əksidir. Belə ki, heyvanlar aləmində düşməndən qorunmaq üçün birgə fəaliyyət, yoldaşlıq hissinin, kollektiv üzvlərinin həmrəyliyinin təzahürü kimi, insan cəmiyyətindəki müharibələr isə heyvanlar aləmindən irsən alınmış aqressivlik instinktinin təsirinin nəticəsi kimi şərh edilmiş olur.



Belə yanaşmada sosial və biolojinin arasındakı sərhəd silinmiş olur. Məsələn, birgə ovdan sonra qənimətin kaftarlar (goreşənlər) arasındakı istehlakla ibtidai ovçular – yığıcılar əldə edilmiş qənimətin istifadə olunması arasında zahiri oxşarlığa baxmayaraq fərqlidirlər. İnsan cəmiyyətində isə əksinə, fərdiyyətçilik və kollektivçilik arasında fərq nə qədər böyük olsa da onların özülündə bir ümumilik var. Onların hər ikisi son nəticədə istehsal münasibətləri sisteminə bağlıdır. Fərdiyyətçilik və kollektivçilik də sosial hadisələrdir.

Y.İ.Semenova görə, sosial instinktin mövcudluğu faktı yoxdur. İnsan cəmiyyətinin əsasında hansısa bir instinkt yox, istehsal durur. Heyvan birliklərinin yaranması və mövcudluğunun izahı üçün sürü instinktinin və sosiallığın varlığını ehtimal etməyə əsas yoxdur. Son tədqiqatlar aydın göstərdi ki, heyvan sürülərinin yaranması və mövcudluğu birləşməyə onların daxili istəyi, canatımı ilə deyil, mühitə uyğunlaşma tələbatı ilə, özünü qoruma və qida instinktlərinin ödənilməsilə bağlıdır. Meymunlarda sürünün yaranmasının başlıca səbəbi yırtıcılardan qorunmaq tələbatıdır. Onun daha uğurlu, nəsil artımının davamlı olması sürü həyat tərzindən çox asılıdır.

Bəzi müəlliflər heyvanlar (ali quruluşlu) aləmində alturizmi, qarşılıqlı yardımlaşmanı onlarda sosiallığın əlaməti kimi göstərirlər. Halbuki, ali quruluşlu heyvanlarda yalnız analar balalarına özlərini sərbəst idarə edənə qədər qayğı göstərirlər. Yaşlı heyvanlar arasında ümumiyyətlə, qarşılıqlı yardımlaşma amili yoxdur. Bunun əksini düşünənlər yanılırlar, yanlış yanaşmadan isə "sosiallıq heyvanlar aləminə də xasdır" kimi yanlış nəticə alınır.

Heyvanlarda müşahidə olunan qarşılıqlı yardımlaşmanı onlarda sosial münasibətlərin rüşeymi saymaq, sonra da onun əsasında insan cəmiyyətinin və sosial münasibətlərin yarandığını düşünmək əsassızdır. Sosialın yaranmasına kömək edən sosial hadisələrin bioloji analoqundan danışmaq isə gerçəkliyə uyğundur.

Cəmiyyətin yaranması bioloji instinktlərin məhdudlaşdırılması, zooloji fərdiliyin cilovlanması prosesindən ibarət olduğunu sosial elmlərin məlumatları təsdiq edir. Hətta ən arxaik cəmiyyətlərdə belə insanların fərdi bioloji instinktləri cəmiyyətin, sosial orqanizmin nəzarəti altındadır. Bu nəzarət ibtidai sosial orqanizmdə daha ciddi və dəqiq olmuşdur.

Lakin əgər formalaşmış cəmiyyətdə bioloji instinktlər

məhduddursa, sosial çərçivəyə salınmışdırsa, onda nəticə çıxır ki, cəmiyyətin, sosial çərçivənin yaranmasından öncəki dövr bioloji instinktlərin sosial çərçivəyə salınması, zooloji fərdiliyin yaranmış sosial amillərlə cilovlanması dövrü olmuşdur. İnsan cəmiyyətinin yaranması prosesi bioloji instinktlərin sosial nəzarət altına alınması və zooloji fərdiliyin tamam aradan qaldırılması ilə başa çatmışdır.

Cəmiyyətin formalaşması dövründə sosial və biolojinin mübarizəsi həmişə kəskin olmuşdur. Zooloji fərdiliyin irəli çıxdığı anlarda fərdi instinktlər sosial nəzarət altından çıxırdı və davranışın tək stimuluna çevrilirdi. Bu kütləvi hal aldıqda sosial münasibətlər pozulurdu, davranışın sosial stimulu yox olurdu. Belə hallarda ibtidai icma dağılır və onun üzvləri məhv olurdu.

Bioloji instinktlərin təzahürlərinin məhdudlaşdırılması ibtidai icmanın inkişafının obyektiv tələbatı idi. Bu tələbat özünü ibtidai icmanın formalaşmaqda olan iradəsində (ibtidai əxlaqda), onun vasitəsilə isə hər bir ibtidai insanın iradəsində göstərməli idi. Beləliklə, bioloji instinktləri məhdudlaşdıran davranış normalarının yaranması zərurət olmuşdu. Bu normalar isə labüdən neqativ xarakterdə olmalı, yəni qadağalar funksiyası daşımalı idi. Bu ibtidai qadağaların hansı xarakterdə olduğunu təsəvvür etmək üçün etnoqrafik məlumatlara müraciət edilir. Bu qadağalar tabu (haram etmə) formasında olmuşdur.

Bəşər cəmiyyətinin yaranması üçün ən önəmli fərdi tələbatlar olan qida və cinsi tələbatların müəyyən çərçivəyə salınması zəruri idi. İlk öncə qida instinkti məhdudlaşdırılmalı idi. Cəmiyyətin əsasını təşkil edən sosial-iqtisadi münasibətlər sistemi hər şeydən öncə mülkiyyət münasibətləridir. İbtidai icma cəmiyyətinin təkamülünün ilk mərhələlərində bütün istehsal alətləri, istehlak predmetləri kollektiv mülkiyyət idi. Sosial orqanizmin bütün qida üzərində kollektiv mülkiyyəti qidanın bütün üzvlər arasında (qidanın əldə edilməsində iştirak edib-etməməsindən asılı olmayaraq) bölüşdürülməsində özünü və göstərmişdir. Buna bərabərləşdirici bölgü deyilir. Amma bu bölgü qidanın bütün üzvlər arasında bərabər bölünməsi demək deyildi. Belə bölgü ondan ibarət olmuşdur ki, icmanın hər bir üzvü icmaya məxsus olduğuna görə ərzaqdan pay alma hüququna malik idi.

Göründüyü kimi, belə mülkiyyət münasibətlərinin formalaş-



ması qida instinktinin təzahürü üzərində sosial nəzarətin müəyyənləşməsi demək idi. Cinsi qadağalarla bağlı məsələ başqadır. İbtidai cəmiyyətdə çox müxtəlif cinsi qadağalar, normalar mövcuddur. Onlardan ən önəmlisi *ekzoqamiyadır.*

Ekzoqamiya yalnız qrup üzvünün qrupdan kənar cinsi əlaqəyə girmək tələbi ilə bitmir. Bununla yanaşı, ekzoqamiya qrup üzvləri arasında kəbinli və kəbinsiz münasibətlərin tam və mütləq qadağa olunmasıdır. Bu normanı *aqamiya* (yun. "a"-yox, "qamos" – kəbin) da adlandırırlar. Ekzoqamiyanın bu ikinci tərəfi başlıca müəyyənedicidir. Ekzoqamiya sözü aqamiya sözündən törənmişdir.

Qəbilə və fratriya (bir nəsildən törəmiş bir neçə tayfadan ibarət qəbilə) yeganə aqam qruplarıdır. Aqamiya qəbilənin mahiyyətini təşkil edir, onsuz qəbilə yoxdur və ola bilməz.

Mütəxəssislərin rəyincə, ibtidai cəmiyyət öz inkişafının ilk mərhələlərində qəbilə cəmiyyəti olmuşdur. Qəbilə quruluşu olmayan ibtidai cəmiyyətlər qəbilə quruluşunun dağılması nəticəsində yaranmışdır. Aqamiya bəşəriyyətin keçmişində universal, geniş yayılmış hadisə olmuşdur.

Aqam yasağı qəbilə cəmiyyəti insanlarının təməl prinsipi olmuşdur. Yeganə davranış norması olmuş bu prinsipin pozulmasına görə ölüm hökmü çıxarılırdı. Öldürməyə görə bağışlanırdı, aqam yasağının pozulması bağışlanmırdı.

Aqam prinsipi nə zaman və hansı zərurətdən yaranmışdı? Bəşər tarixinin qəbiləyəqədərki dövründə kollektiv üzvləri arasında cinsi münasibətlər onun üçün real təhlükə idi. Buradan da o çıxır ki, qəbiləyəqədərki epoxada başqa instinktlər olmasa da heyvani cinsi instinkt hələ sosial çərçivəyə alınmamış, tam cilovlanmamışdı. Aqamiyanın, deməli, qəbilənin yaranması ilə, cinsi instinkt tam sosial nəzarət altına salınmışdı.

Bu məntiqə görə, bəşər tarixinin qəbiləyəqədərki epoxası insan cəmiyyətinin yaranması dövrü ilə üst-üstə düşür. Hazır insan cəmiyyəti yalnız qəbilə ilə birlikdə yaranmışdır. İbtidai icma qəbilə formasında yaranmış və qəbilə icmasından ibarətdir.

Beləliklə, sosiogenezin mahiyyətinin ümumi əlamətləri aşkar edildikdən sonra heyvan sürüsünün sosial orqanizmə çevrilməsi prosesinin daha konkret modeli haqqında düşünmək olar.

## 4.3. Sosiogenezin başlanması və əsas mərhələləri

İnsan cəmiyyəti birdən-birə yaranmamışdır. Ondan öncə insanabənzər meymun sürüsünün uzun sürən çevrilməsi dövrü olmuşdur. Bu dövrü cəmiyyətdən, icmadan öncəki epoxa adlandırırlar. Bu epoxada insanabənzər meymunların təşkilinin əsas forması meymun icmalarından ibarət olmuşdur. Bu formanı çox vaxt ibtidai insan sürüsü də adlandırırlar. Onlar mövcud olduqları dövrdə bir neçə təkamül mərhələsindən keçmiş, bir neçə tarixi formaları olmuşdur. Bu formaların dəqiq konturları hələ alimlərə bəlli deyil.

İnsanaqədərki insanlar (elmdə onları hominidlər adlandırırlar) heyvanlardan az fərqlənmişlər yaxud fərqlənməyə başlamışdılar. Odur ki, onları sosial heyvanlar adlandırırlar.

Alimlər hesab edirlər ki, ilk sosial birlik forması ailə olmuşdur, ondan isə təkamülün gedişində ali məməlilərdə müşahidə olunan iki yeni birlik forması yaranmışdır. Ancaq heyvanların davranışının öyrənilməsi (etologiya) üzrə tanınmış alim K.Lorens bunu ümumtəkamül baxımından düzgün saymır, hesab edir ki, ən birinci birlik forması anonim yaxınlaşmadır (buna misal olaraq Dünya okeanında balıqların həyatını göstərmək olar) (105).

K.Lorens anonim sürünü ən geniş yayılmış və ibtidai birlik forması sayır. Anonim birləşmə forması onurğasız heyvanların çoxunda həm də ali heyvanlarda aşkar edilmişdir. Belə birlik yaxud sürü forması quşların da həyatında müşahidə olunur. Belə sürülərdə 20-100 fərd olur.

V.M.Alekseyev hesab edir ki, pitekantroplardan neantroplara qədər uzun bir dövr ərzində insandan öncəki varlıqlarda 500-ə qədər fərddən ibarət mütəşəkkil qruplar olmuşdur. Sürü halında ov etmək, əl çatan qida qaynaqlarının məhdudluğu, növlərarası qəddar mübarizə və buzlaşma epoxası şəraitində qrupda 500-dən az fərdin olması səmərəli deyildi (36).

"Sürü" anlayışını K.Lorens belə izah edir: "Müəyyən bir növün ayrı-ayrı fərdləri bir-birinə yaxınlaşmaqla hənirləşirlər, deməli, onları hansısa davranış aktı bir yerdə saxlayır, odur ki, çoxsaylı fərdlər bir-birinə yaxınlaşaraq bir istiqamətdə hərəkət edirlər. Belə davranışı birlik adlandırmaq olar (belə birliyi insanlar birliyi kimi anlamaq olmaz). Heyvanlarda belə birlik forması üçün başlıca əlamət onun heç bir fərdiliyi olmayan anonim fərdlər tərəfindən yaradılmasıdır. Belə birlikdə başçı olmur, yalnız çoxsaylı yalqız ünsürlər iştirak edir".



Bir çox heyvan növlərində məsələn, pis silahlanmış və yavaş qaçan Afrika savannasında yaşayan itbaşlı meymunlarda özlərindən güclü vəhşilərdən qorunmaq üçün təbii seçmə nəticəsində mürəkkəb qoruyucu struktur yaranmışdır. Onun əsasında erkəklərin iyerarxiyası durur. Təhlükəsiz şəraitdə yaşayan (məsələn, kəndlərdə yaşayan oranqutanlar) heyvan qruplarında birlik daxilində münaqişədən qaçmaq üçün güclü erkək qalan erkəkləri qrupdan qovur. İtbaşlı meymunlarda isə erkəklər sürüdə qoruyucu tərkib yaradırlar.

V.R.Dolnik hesab edir ki, ona oxşar vəziyyətlə vaxtilə insanın əcdadları da qarşılamışlar. Güney Afrikada 3-4 mln. il öncə yaşamış insanın dik yeriyən əcdadı (afar avstralopiteki) çox alçaqboylu olmuşdur. Təkamülün gedişində onun yerini tutmuş *Homo habilis* (daş alətlərin ilk yaradıcısı) da hündürboylu olmamışdır. Yalnız 1, 5 mln. il öncə Habilisi əvəz etmiş *Homo erectus* əcdadlarından bir yarım dəfə hündür olmuşdur. Odur ki, ilk hominidlər kəsici daşlara malik olsalar da iri heyvanları ayrı-ayrı ailələr yaxud kiçik və zəif qruplar halında ovlaya bilməzdilər.

Deməli, dik yerimək və alətlərdən ilk istifadə təcrübəsi sosial quruluşun yaranmasına və tərəqqisinə təsir edə bilməzdi. Bu amillər, yalnız təfəkkürün, iradənin və dilin yaranmasına gətirib çıxardıqdan sonra sosial quruluş dəyişiləcək və cəmiyyət inqilabi sıçrayışa başlayacaqdı. Bu isə təxminən üst paleolitdə baş verəcəkdi.

Beləliklə, *insanabənzər varlıqlar sürüsü* çoxsaylı fərdlərin amorf yaxud *balıq sürüsünə bənzər* anonim birliyindən ibarət quruluş olmuşdur. Bunu nəzərə alaraq K.Lorens iddia edir ki, ailə formalaşmaqda olan insanlar sürüsünün ilk özəyi olmamışdır. Başlanğıcda, ailədə dik yerimək və əmək alətləri kimi zəif təkamül faktorları olmuşdur. Bu amillərin hər üçünə formalaşmaqda olan insanlar təsadüfən müraciət etmişlər, bu faktorlar nə anatomik, nə də sosiogenez baxımından zəruri tələbatlar olmamışlar.

Ailənin prototipi monoqam olmamışdır. Təkamüllə birinci olan tandem və qarem olmuşdur. Birincinin əsasında ana və uşaq cütlüyü, ikincinin əsasında isə dominant erkək və bir neçə erkək durur. Bu formaları insanlar heyvan əcdadlarından bioloji varislik yolu ilə almışlar.

Tandem bioloji baxımdan daha davamlı olduğundan formalaş-

maqda olmuş insanların ilk mikrostrukturu sayılır. Zaman keçdikcə bu mikrostruktura (tandemə) onun yaxınlığında dolaşan bir və ya bir neçə yaşlı erkəklər qarışmış və yeni struktur vahidi (qarem) yaranmışdır. Qarem qrupu bir güclü erkəkdən, bir neçə dişidən və onların balalarından ibarət olmuş və bioloji təkamülün tandemdən sonrakı pilləsidir.

Təbiət tandem quruluş vahidini təşkil edən nəsillər (ana və uşaq) arasındakı bağlılığın güclü şəkildə – bioloji instinktlə möhkəmləndirilməsi qayğısına qalmışdır. Sonrakı təkamül mərhələsində nəsillərarası bağlılıq qan qohumluğu əlaqəsinə çevrilmişdir. Bundan sonrakı mərhələdə qan qohumluğu üzrə birlikdən əcdadların aydın dərk etdiyi və sayğı göstərdiyi geniş və mürəkkəb qohumluq sistemi yaranmışdır. Bu qohumluq toru sonradan bəşər tarixində ilk sosial sistem – insan cəmiyyətinin əsası və özülü olmuşdur.

Formalaşmaqda olan qədim əcdadlarımızın sosiallaşma yönündəki bioloji təkamülünün bu ardıcıl mərhələlərdən keçdiyini alimlər K.Lorens, Q.Kummer, Y.İ.Semyonov və b. elmin məntiqinə uyğun əsaslandırmışlar.

Sosiogenez probleminin çox mühüm bir məsələsi də formalaşmaqda olan insanların təkümülünün bir mərhələsindən digər mərhələsinə keçidin mexanizmlərinin izah edilməsidir.

Tandem quruluşundan qaremə keçidin mexanizmi haqqında yuxarıda danışılmışdır. Onun bir qədər genişləndirilməsinə ehtiyac var. Y.İ.Sem-yonova görə, formalaşmaqda olan insanın sürüdə normal mövcudluğu və inkişafı üçün daim ət əldə etməli idi. Lakin bu sürüdə mövcud olan dominantlıq sistemindən asılı idi. Sürüdə yalnız dominant fərdlər ət əldə edə bilərdi. Qalan fərdlərə isə ət çata da, çatmaya da bilərdi. Cinsi instinktin ödənilməsi də eynilə o cür idi. Dominant erkəyin daha çox nəsil törətmək şansı var idi.

Qrupun başqa üzvlərinə nisbətən əmək fəaliyyətinə yüksək uyğunlaşma da formalaşmaqda olan insana dominantlıq sistemində yüksək status verə bilən təkamül faktoru deyildi. Bu status adətən aqressivlik, cəsarət, fiziki gücün üstünlüyü ilə əldə edilirdi. Sürüdə əmək fəaliyyətində uğur əldə etmək keyfiyyətinin fərdin iyerarxiyada yüksək pillə tutmasını təmin edən amil olduğuna az ehtimal var. Alət hazırlaya bilmək üçün əzələlərin inkişafı yox, mərkəzi sinir



sisteminin, ilk öncə baş beyinin mürəkkəbləşməsi, dəqiq və incə hərəkətlər tələb olunurdu. "Böyük fiziki gücə malik olmaq daha mükəmməl alətlər hazırlanmasına kömək etməkdən çox, ona əngəl olurdu. Nəticədə alət hazırlamağa başqalarından daha çox bacarıqlı fərdlərin yüksək status almaq şansı artmaq yerinə azalırdı, bununla onların yaşamaq və nəsil törətmək imkanı da azalırdı.

Amma bu halda təbii fərdi seçmə daha yüksək istehsal fəaliyyəti olan fərdlərin azalmasına aparıb çıxarmalı idi. Qreqar-fərdi seçmə isə bunun əksinə işlədi..." (151, 117-118). Bu sətirlərin müəllifinin sözləriلə desək, birlik daxilində yeni münasibətlərin yaranması zərurəti istehsal fəaliyyətinin inkişafının ehtiyaclarından irəli gəlirdi və bu mənada yeni münasibətlərin yaranması istehsalın tələbatı idi. Amma istehsal fəaliyyəti ancaq birlik çərçivəsində inkişaf edə bilərdi, odur ki, bu tələbat birlik daxilində yaranmışdı və birlik üzvlərinin hamısının tələbatı idi. Beləliklə, formalaşmaqda olan ilk insanlardan sonrakı insan sürüsündə onun üzvlərinin bioloji tələbatı ilə yanaşı qalan tələbatlarından fərqlənən yeni bir tələbat da yaranmışdı. Bu tələbat həm istehsal, həm də qrup, qreqar tələbatı idi. Bununla da sonrakı insan sürüsü bütün heyvan sürülərindən o cümlədən formalaşmaqda olan ilk insan sürüsündən fərqlənmişdir. Bu fərq ona başqa tale yazmışdır.

Sürüdə dominantlığın ləğvi obyektiv istehsal tələbatına çevrildi. İstehsal fəaliyyətinin inkişafı bioloji birliyin qarşısında elə bir tələb qoydu ki, bu tələbat bioloji birlik çərçivəsində həll edilə bilməzdi. Buradan bioloji hərəkət çərçivəsində bu və ya digər qruplaşmaya daxil olan fərdlər arasında bağların möhkəmlənməsinin və eyni zamanda qrupda dominantlıq sisteminin ləğv edilməsinin mümkün olmadığı nəticəsi çıxmır. Bioloji birlik çərçivəsində fərdlər arasındakı bağların möhkəmləndirilməsi və eyni zamanda dominantlığın aradan qaldırılması mümkün oldu.

Alimlər heyvanlar aləmində (məsələn, arıların, qarışqaların və ali məməlilərin həyatında) birliyə daxil olan fərdlərin davranışlarını tənzimləyən normaların mövcudluğunu aşkar etmişlər. Bəlli olmuşdur ki, arılar ailəsində qidanı işçi arıların bir qrupu toplasa da toplanmış qida arı ailəsinə daxil olan bütün qrupların (qoruyucu-işçi arıların, erkək arıların və ana arının) ümumi fondu sayılır yəni ailəyə daxil olan hər bir arının toplanmış qidada payı vardır. Bu fond təkcə ehtiyat

üçün pətəkdə xüsusi yerdə saxlanan qidadan ibarət deyildir. Arılar arasında qidanın ağızdan ağıza ötürülməsi yolu ilə daim qida mübadiləsi baş verir. Eksperimentlərin birində altı arıya radioaktiv fosfor verilmişdir. Bir sutkadan sonra 40 min arısı olan pətəkdə arıların 40% radioaktiv olmuşdur (183, 197-195). Başqa bir eksperimentdə qara qarışqalar ailəsinin bir fərdinə radioaktivli şəkərli su verilmişdir. 24 saat içində işçi qarışqaların hamısı radioaktivliyə tutulmuş, bir həftə ərzində bütün qarışqa sürüsü radioaktiv olmuşdur (59).

Bu eksperimentlərdən nəticə çıxarılır ki, orqanizmüstü (Y.İ.Semyonov) qurum üzvlərinin topladığı vahid qida fondu "ümumi" sözü ilə ifadə olunur. Amma bu "ümumilik" xalis bioloji mənşəlidir.

Beləliklə, bir tərəfdən birlik üzvlərinə qidanın bərabər çatmasının təmin edilməsi və dominantlığın aradan qaldırılması, digər tərəfdən də birlik üzvləri arasında əlaqələrin möhkəmləndiril-məsi bioloji hərəkət forması çərçivəsində mümkündür. Amma bu bioloji baxımdan tam yararlı fərdlər birliyinin orqanizmüstü quruma çevrilməsi şərtilə mümkündür, o isə öz növbəsində qurumu təşkil edən fərdlərin bioloji ixtisaslaşmasını tələb edirdi.

Ali quruluşlu məməlilərin orqanizmüstü quruma çevrilməsini mütəxəssislər mümkünsüz sayır. Deməli, insanaqədərki sürüdə üzvlərin bərabər ət alması və dominantlıq sisteminin aradan qaldırılması sürü çərçivəsində mümkün olmamışdır. Onun gerçəkləşməsi, yalnız bioloji hərəkət forması çərçivəsindən çıxmaqla mümkün ola bilərdi.

Yeni münasibətlərin yaranması zərurəti istehsal mənşəli olmuşdur. İstehsal fəaliyyəti özünün uğurlu inkişafını təmin edən, təbiətinə uyğun olan münasibətlərin yaranmasını tələb edirdi. İstehsaldan doğan bu yeni münasibətlər istehsal münasibətləri idi və sürü üzvləri arasında özündən öncəki bioloji münasibətlərdən keyfiyyətcə fərqlənmişdir.

Bioloji birlikdən həm orqanizmüstü münasibətlərə, həm də sosial orqanizmə keçilməsi birliyə daxil olan fərdlərin dəyişilməsini tələb edirdi.

Hələ ki, elmdə insanbənzər bioloji sürünün dağılması və insan sürüsünə, yəni qəbilə-tayfa quruluşunun tarixi sələflərinə, sonra da dövlətlərin yaranmasına keçilməsinin tarixi barəsində vahid rəy



yoxdur. Məlum olan budur ki, insanabənzər meymunlar sürüsünün insan sürüsünə çevrilməsi uzun bir zaman daxilində baş vermişdir. Elmdə ibtidai insan sürüsü dedikdə formalaşan cəmiyyət başa düşülür. "İbtidai insan sürüsü" termini rusdilli elmi ədəbiyyata 1930-cu ildə daxil edilmişdir. Bu anlayış formalaşmaqda olan insanların sosial quruluşunu ifadə edir.

"İbtidai insan sürüsü" anlayışı antropososiogenezdə iki sıçrayış nəzəriyyəsilə bağlıdır. Antropososiogenezdə birinci sıçrayış ən qədim insanların, ikinci sıçrayış isə "hazır" (F.Engels) insanların yaranması ilə əlamətdardır. Onların arasında biososial inkişaf epoxası durur. Bu epoxada insanın bioloji təkamülü hələ onun sosiomədəni tərəqqisindən irəlidə olmuşdur və əmək fəaliyyəti prosesində zooloji fərdiliyin qalıqları aradan qaldırılırdı. Bəzi alimlərə görə, ibtidai insan sürüsü dövrü ilk (alt və orta) paleolitə, ən qədim və qədim insan mərhələsinə uyğun gəlir (151, 145).

Elmdə bu fikir formalaşmışdır ki, təxminən 35-40 min il öncə alt və üst paleolitin sərhədində antropososiogenez başa çatmışdır. Formalaşmaqda olan insanların yerini "hazır" insanlar – neantroplar (Homo sapiens) tutmuş, ibtidai insan sürüsü isə "hazır" cəmiyyətə çevrilmişdir. Bəzi müəlliflər ibtidai insan sürüsünü yaxud "ibtidai icmanı" ibtidai icma cəmiyyətinin inkişafının birinci pilləsi sayırlar. Başqa müəlliflər hesab edirlər ki, ibtidai icmanı "hazır" cəmiyyətin inkişafının başlanğıc mərhələsi ilə qarışdırmaq üçün əsas yoxdur. Onlar ibtidai icma cəmiyyəti dedikdə sosiogenezin başa çatmasından siniflərin və dövlətin yaranmağa başlanmasına qədərki cəmiyyəti nəzərdə tuturlar. Arxeoloji dövrləşdirməyə görə, sosiogenezin başa çatmasından siniflərin və dövlətin yaranmağa başlanmasına qədərki dövr paleolit, mezolit və qismən neolit dövrüdür.

Bu məsələ ilə bağlı irəli sürülən bir çox baxışlar arasında anaqə-bilə və icma baxışlarını əsas sayırlar. Birinci baxışa görə, promiskuitetin (ibtidai cəmiyyətin ən aşağı pilləsində nizamsız cinsi əlaqənin) hökmran olduğu ibtidai insan sürüsü alt və üst paleolitin sərhədində yaranmış cəmiyyətin ilk forması olmuş ana soyuna çevrilmişdir. Ekzoqamiya səbəbilə soy başqa soylarla əlaqədən kənarda mövcud ola bilməzdi, odur ki, ekzoqamiyanın yaranması eyni zamanda qarşılıqlı kəbinə daxil olan sistemin (dual quruluşun) yaranması demək idi. Beləliklə, qəbilə ilə birlikdə başlanğıcda qrup

və dislokal kəbin yaranmışdır.

İkinci baxışa görə, ibtidai cəmiyyətin inkişafının bütün mərhələlərində qoşa ailədən ibarət ibtidai icma onun əsas vahidi, icma və ailə isə əsas və universal özəkləri olmuşdur. Heç vaxt qəbilənin iqtisadi funksiyası olmamışdır, onun rolu əsasən kəbini tənzimləməkdən ibarət idi. Ana qəbiləsi ata qəbiləsinə münasibətdə birinci deyildi. Onların hər ikisi funksiyaları və tarixi əhəmiyyətinə görə bərabərdirlər. Bu baxışın tərəfdarları arasında ibtidai icmanın yaranması vaxtına dair vahid rəy yoxdur. Bəzi müəlliflərə görə, ibtidai icma alt və üst paleolitin sərhədində yaranmışdır. Başqaları ibtidai icmanın daha öncə yarandığını təsdiq edərək "İbtidai insan sürüsü" anlayışını inkar edirlər. 1940-cı illərdə S.P.Tolstov məhsuldar qüvvələrin inkişaf səviyyəsi və meyarından istifadə edərək ibtidai tarixi üç əsas mərhələyə ayırmışdır: ibtidai insan sürüsü (cəmiyyətin qərarlaşması əmək alətlərindən istifadə edilməsi ilə başlanmışdır): ibtidai icma (ibtidai cəmiyyətin yetkinləşməsi alətlər vasitəsilə alət hazırlanması ilə başlamışdır); hərbi demokratiya (ibtidai cəmiyyətin sinifli cəmiyyətə çevrilməsi metalın mənimsənilməsilə başlanmışdır). 1970-ci illərdə Y.İ.Semyonovun irəli sürdüyü təsnifatda da ibtidai insan sürüsü yer alır.

İbtidai insan sürüsünün inkişafında iki mərhələ ayrılır: arxantroplar mərhələsi; paleoantroplar mərhələsi. Arxantropların arealı kiçik olmuşdur və əvvəlcə isti iqlimli regionlarda məskunlaşmışdılar. Onlar 20-30 yaşlı fərddən ibarət kiçik qruplar halında yaşayır, yığıcılıqla məşğul olurdular, ancaq çox zaman sərf edib az, həm də aşağı kalorili qida toplayırdılar ($123_a$).

Mütəxəssislərin çoxu bu rəydədir ki, 35-40 min il öncəni insan cəmiyyətinin yaranmağa başladığı an kimi şərti qəbul etmək olar. Bu mərhələdə də hələ təkamülün bioloji faktorları təsir qüvvəsini saxlayırdı, ancaq zaman keçdikcə bu faktorları sosial faktorlar sıxışdırırdı. Y.İ.Semyonova görə, artıq Homo habilis – bacarıqlı insan mərhələsindən başlayaraq böyük qruplaşmalar kişi dominantlığının hökm sürdüyü kiçik qapalı pilləli sistemlərə bölünməyə başlamışdı. Bu proses Homo erectus epoxasında daha qabarıq gözə dəyir. Nəhayət, insan sürüsünün yaxud ibtidai icmanın formalaşması prosesi neandertal epoxasında özünün maksimum həddinə çatmışdı. 35-40 min il öncə neandertalların tarix səhnəsindən getməsilə sosiogenez sona çatmışdır (151, 215-225). Kromanonların gəlişi ilə ümumdünya tarixinin yeni səhifəsi başlanmışdır – lokal qruplar, tayfalar və qəbilələr, sonra da başçılıq idarəsi formalaşmışdır.



Beləliklə, pitekantropların mövcudluğu dövründə insanaqədərki sürü dağılmış və onun dərinliklərində insan sürüsü yaranmışdır. Təxminən 500 min il öncə "od ram edilmişdir". Elmdə buna "Prometey effekti" deyilir. Avropa üçün bu dövr növbəti buzlaşma dövrü sayılır. Bu dövrdə dik yeriyən insan, artıq yerüstü sığınacaqda yaşayırdı. Bu tədricən "dik yeriyən insanın" paleoantropa ("neandertal insanına") çevrilməsinin başlanğıcı idi.

İnsan sürüsünün əcdadı, ulu babası olmuş Homo erectus – dik yeriyən insan əcdadı (Homo habilis) ilə müqayisədə beyin həcmi 25-30% böyüyərək 900-1200 $sm^3$ çatmışdı. Boyu ucalmış, bədəni iriləşmişdi.

Avstralopitekdən başlayaraq insanın bioloji təkamülü sürətlənmişdir. Bununla belə, pitekantrop (Homo erectus) hələ tam dik yeriməyi öyrənməmişdi və iki ayaq üstündə uzaq yol gedə bilmirdi. Pitekantroplar – ilk həqiqi insanlar – avstralopiteklərin nəsli kimi 1, 5 mln. il öncə tropik zonada yaranmışdır. Pitekantropların iki müxtəlif növü olmuşdur ("bacarıqlı insan"- Homo habilis və "dik yeriyən insan" Homo erectus). Pitekantroplar ilk danışan, geyim və sığınacaq hazırlayan insanlar olmuş, soyuq iqlim bölgələrinə yayılaraq iri quşlar ovlamış və oddan istifadə etmişdir.

Neandertallar mərhələsi Homo habilis və Homo erectus mərhələlərindən qısa olmuşdur. Onun bioloji təkamülü sürətlənmiş, fiziki quruluşunda dəyişikliklər şoxalmışdır. Təxminən 150 min il öncə beyni təkmilləşmiş, skeleti müasir insan skeletinə oxşamağa başlamışdır. Odur ki, alimlər bu anı düşünən insanların yaranma anı kimi izah edirlər.

Beləliklə, insan sürüsünün formalaşması pitekantropla başlamış, neandertalla qurtarmışdır. Sonrakı tarixi-təkamül tipi kromanon insanıdır. Kromanonlar dövrü icmaların, tayfaların, qəbilələrin başçılıq dövrü sayılır.

### 4.4. Sosial meyarlar və normalar

*Sosial meyarlar.* "İnsan sürüsü" termini antropologiyada 20-30 yaşlı və uşaq fərdlərindən ibarət kiçik qədim insanlar qrupunu ifadə

etmək üçün işlədilir. Belə qruplar bir yerdən başqa yerə ehtiyatla köç edərək yaşayırmışlar. "Sürü" sözü ibtidai birlikdə sosial münasibətlərin özünəməxsusluğunu yaxşı təsvir etmək üçün işlədilir.

İbtidai birlik şəxsiyyətdən, təfəkkürdən, dildən məhrum, əmək fəaliyyəti vərdişi olmayan, instinktlərin hökmranlığına tabe olan fərdlər toplamından ibarət olmuşdur.

İnsan sürüsü elmi anlayış olmaqla bərabər, həm də özünəməxsus metaforik kateqoriya olub, bir tərəfdən, cəmiyyətin inkişafının ən erkən mərhələsini, digər tərəfdən, müasir cəmiyyətin yaxud onun hissəsinin amorf halını ifadə edir. Cəmiyyətin təşkilinin ən ilk formasını yəni ibtidai insan sürüsünü, "kütlə" sözü ilə də göstərirlər. Adi anlamda sürü çoxsaylı və qeyri-mütəşəkkil insanlar yığımıdır.

Müasir insanlar öz davranışına nəzarəti itirdikdə, müstəqil düşüncədən, mənəvi-əxlaqi dayaqlardan məhrum olduqda, yalnız bioloji instinktləri üzrə hərəkət etdikdə sürüyə çevrilmiş olurlar. Belə durumda insanlar başçıya yaxud rəhbərə kor-koranə tabe olurlar, müti, itaətkar, şəxsiyyətsiz kütlə olurlar. Aristotel özünün "Politika" əsərində yazır ki, itaət etməyi bacarmayan hökm etmək səlahiyyətindən məhrumdur. Göründüyü kimi, Aristotel, müstəqil düşüncəyə əsaslanan itaətdən söz açır ki, bu sürü itaətindən nəinki fərqlənir, həm də onun tam əksidir. Əgər bütün insanlar imkan və tələbatca tam eyniyyətə gətirilsə, belə insanlar cəmiyyət deyil, sürü olarlar. Dəmir əlli avtoritar lider insan sürüsünü məcburi xoşbəxtliyə sürükləyər. İnsan sürüsündə psixi yoluxma güclüdür, o ətalətlidir, inanandır, amma düşünmək qabiliyyətli deyildir, başqasının iradəsinə tabe ola bilir, ancaq müqavimət göstərə bilmir. Onu kommunizmə aparmaq olar, kapitalizmə yox (çünki kapitalizm fərdiyyətçi quruluşdur).

F.Engelsə görə, sosial təkamülün son dərəcə mühüm faktoru yuxarı ətrafların yeni funksiyaya uyğunlaşması olmuşdur. "Əgər bizim tüklü ulu babalarımız üçün dik yerimək, öncə bir qayda, sonra isə həmçinin bir zərurət olmuşdursa, bu göstərir ki, bu zaman əllərin payına getdikcə daha artıq dərəcədə başqa fəaliyyət növləri düşmüşdür. Hələ meymunlarda da əllərlə ayaqlar arasında müəyyən vəzifə bölgüsü vardır... Lakin qəti addım atılmışdı, əl azad olmuşdu və indi yeni-yeni vərdişlərə alışa bilərdi, bununla əldə edilən daha



böyük çeviklik isə irsi olaraq nəsildən-nəslə keçib artırdı... Beləliklə, əl nəinki əmək orqanıdır, o həmçinin əməyin məhsuludur" (12, 145-146).

Əmək əməliyyatlarını yerinə yetirmək zərurəti təkamülə müəyyən istiqamət vermişdi, onun gedişində bənzərsiz alət, eyni zamanda da bədənin hissəsi olan insan əli formalaşdı. Bədəndən ayrılmaz belə bir alət – əl insandan başqa heç bir canlı varlıqda yoxdur.

Əllərin və əmək fəaliyyətinin inkişafı bioloji təkamülün sosial təkamül yoluna keçməsi üçün yeni bir təkan oldu. Əvvəlcə əmək, sonra isə onunla birlikdə aydın nitq iki ən başlıca amil olmuş və bunların təsiri altında meymun beyni tədricən insan beyninə çevrilmişdir... Beyinlə birlikdə onun ən yaxşı alətləri – hiss orqanları daha da inkişaf etmişdir. Nitqin tədricən inkişafı eşitmə orqanının müvafiq surətdə təkmilləşməsi ilə yanaşı davam etdiyi kimi ... beynin də inkişafı davam etmişdir...

Beynin və ona tabe olan hissələrin, getdikcə daha çox aydınlaşan şüurun, abstraksiya və əqli nəticə çıxarmaq bacarığının inkişafı əməyə və dilə əks təsir göstərərək bunların hər ikisinə daha da inkişaf etmələri üçün getdikcə yeni-yeni təkanlar vermişdir... hazır insanın meydana gəlməsi sayəsində əlavə yeni bir ünsür – cəmiyyət əmələ gəldiyinə görə, bir tərəfdən, yeni qüvvətli bir təkan, digər tərəfdən isə daha müəyyən bir istiqamət alaraq, bütünlüklə qüvvətli addımlarla irəliləmişdir (12, 148-149).

Sosial təkamül yolu ilə irəliləmək bütün təsərrüfat sistemində keyfiyyət dəyişkənliyinə səbəb olmuşdur: insan sadə qidalanmadan yığıcılığa, yəni bitki mənşəli qidaların axtarışına, onun daimi yaşayış yerinə daşınmasına, ambarlaşdırılmasına və gələcək istifadə üçün qorunmasına keçmişdir.

Tapılmış qidanın dərhal və yerindəcə yemək əvəzinə ehtiyat üçün saxlanması yığıcılığa yeni münasibətin ifadəsi idi. Başqa bir özəllik isə ən sadə əmək alətlərindən istifadə, daha sonra balıq ovundan ibarət olmuşdur. Bu dövrü L.Q.Morqan "insan varlığının uşaqlıq dövrü" adlandırır. Bu dövrdə "bəşəriyyət aydın nitqə malik olmağa can atarkən balıqla qidalanmağa və yaşayış məkanını dəyişməyə imkan verən oddan istifadə etməyi də öyrənmişdir. Bu tamamilə ibtidai durumda insan bəşəriyyətin inkişafı tarixində nəinki

uşaq olmuş, həm də hər hansı təsisatla bağlı bir fikrin, anlayışın olmadığı beyinə malik olmuşdur, – bir sözlə, o ən aşağı pillədə dayanmışdı, ancaq sonradan nə olacaqdı onu özündə gizli saxlayırdı" (123b, 25).

Bu dövrdə kişilər və qadınlar kiçik heyvanlar və quşlar ovlayırdılar. İri heyvan ovuna sonradan keçəcəkdilər. Bu mərhələdə cinslər arasında hələ gözə çarpan əmək bölgüsü olmamışdı.

Beləliklə, insan sürüsü – birgə yaşamaq üçün birləşmiş ibtidai insanlar qrupudur. İnsanların sosial təşkilinin bu formasının bəşəriyyətin həyatında xidməti insanın özünün zooloji təbiətilə mübarizədən, onun qızarmış dəmirlə məhv edilməsindən və instinktlər üzərində zəkanın qəti qələbəsindən ibarət olmuşdur.

İbtidai mədəniyyətin tərkib ünsürləri – totemlər, qadağalar, inanclar, ehkamlar, adi hüquqa tələbat, əxlaqi normalar – birbaşa ibtidai sürü üzvlərinin zooloji instinktlərini cilovlamağa yönəlmişdi. Mədəniyyətin bu ünsürləri ehtirasların, istəklərin, həzlərin, düşmənçiliyin və i.a. tənzimlənməsinin mədəni formaları olmuşdur. Görünür ki, mədəniyyət çox sərt vasitələrlə təbiətin məhdudlaşdırılmasına yönəlmişdi. İndi də elə mədəniyyət nəzəriyyələri irəli sürülür ki, onlar müasir insanda ibtidai instinktlərin ölmədiyini və onların cilovlanması vasitəsi kimi mədəniyyətə indi həmişəkindən daha çox ehtiyacın olduğunu israr edirlər.

*Sosial normalar.* Mütəxəssislər bu fikirdədir ki, insan sürüsünün keyfiyyətcə inkişafını səciyyələndirən mühüm addım cinsi instinktin cilovlanması və ilk sosial normaların – qadağaların yaradılması olmuşdur. Artıq dik yeriyən insan mərhələsində yeni münasibətlər yaranırdı, davranış normalarını müəyyən edən mənəviyyat, ilk əxlaq doğulurdu. Alimlər hesab edirlər ki, insan sürüsü rüşeym formasında olsa da ilk sosial normaların yaranması anından başlanmışdır.

"Tabu" anlayışını Avropa dillərinə tanınmış ingilis dəniz səyahətçisi və tədqiqatçısı (XVIII əsr) C.Kuk daxil etmişdir. O Polineziyada ibtidai qəbilələrin həyat fəaliyyətini öyrənmiş sosial normalarında qadağaları aydınlaşdırmışdır. Tabu qəbilənin bütün üzvlərinin, yaxud onun bir hissəsinin müəyyən hərəkətlərinin qəti yasaqlanmasıdır. İbtidai xalqların təsəvvüründə tabunun pozulması təkcə onu pozan üçün deyil, həm də bütövlükdə kollektiv üçün ölüm



demək idi. Qadağaya əməl edilməsi özünəməxsus profilaktik tədbir kimi mənalandırılırdı, çünki o, kollektivi ayrı-ayrı şəxslərin düzgün olmayan davranışı üzündən yarana biləcək təhlükədən qorumağa yönəldilmiş tədbir idi.

Qadağanın ilk forması promiskuitet üzərində, ikinci forması – qida üzərində qoyulmuşdu.

Qeyri-məhdud cinsi əlaqələr *promiskuitet* əlaqələr adlanır. Kişi və qadın cinsləri arasında – onların hansı nəslə mənsubluğundan asılı olmayaraq – cinsi əlaqəyə girməsinə yol verilirdi. Hər bir kişi hər bir qadının cinsi qarşılığı ola bilərdi.

Sosiobioloji məlumatlara görə, primatlarda (həmçinin insanlarda) erkəklərin və dişilərin cinsi reproduktivliyi fərqlidir. Orta hesabla erkəklər daha promiskuitetdir və bir çox qadın (dişi) qarşılığı ilə cinsi əlaqəyə meyillidir. Dişilərin strategiyası ikilidir: onlar ya erkək-köməkçi (yəni yaxşı ata), ya da "yaxşı genlərin daşıyıcısını" – fiziki cəhətdən sağlam, güclü, çəkici olanı və iyerarxiyada yuxarı pillədə duranı seçirlər. İkinci halda yeni nəsil atadan irsən bəlli üstünlüklər alır, amma ana köməkçidən məhrum olur. İlk hominidlərin dişiləri üçün konkret erkəklə cinsi əlaqəyə girmək həyat və uyğunlaşma baxımından önəmli olmuşdur, belə ki, dişinin reproduktivlik qabiliyyəti aşağı idi və uşaqların uzun müddət valideyn qəyyumluğuna ehtiyacı var idi (140).

İnsan promiskuiteti heyvan əcdadından genetik olaraq almışdır və o insanaqədərki insanda da olmuşdur. Amma insan üçün onun nəticəsi başqa olmuşdur. Meymunlarda yaşlı dişilərin sayı yaşlı erkəklərdən iki-üç dəfə çoxdur. Odur ki, burada erkəklər arasında münaqişə təsadüfən olur. İnsandan öncəki insan sürüsündə isə əksinə, dişilər çatışmırdı, bu səbəbdən də erkəklər arasında münaqişələr tez-tez olurdu, bəzən də münaqişə erkəklərdən birinin məhvi ilə nəticələnirdi.

İndi qadınlar orta hesabla kişilərdən çox yaşayırlarsa, alt və üst paleolit epoxasında qadınların ömrü kişilərinkindən az idi. Dik yeriməyə keçid və bununla bağlı orqanizmdəki əhəmiyyətli dəyişiklik labüdən hamiləlik və doğuş zamanı ağırlaşmaların, deməli, ölüm hallarının sayının artmasına səbəb olurdu. Heyvanların reproduksiya sistemi milyon illər ərzində yaranmışdır, insanda isə onun dəyişilməsi sürətlə getmişdir. Sosial varlıq kimi insanın

təkamülü onun təbii varlıq kimi təkamülünü inkar edirdi.

Yeniləşmə prosesi insanlardan önceki və ilk insanların həyatında baş vermişdir. Dişilər uğrunda münaqişələr birliyin mütəşəkkilliyini və yırtıcılara qarşı direniş qabiliyyətini aradan qaldırırdı. Münaqişələr ova əngəl olur, nizamı və kooperasiyanı pozurdu.

Təkamül küncə dirənmişdi. Formalaşmaqda olan insanlar bu durumdan qəflətən heyvanlar aləmi üçün gözlənilməz olan çıxış yolu tapdılar. Onlar təbiətdə olmayan sosial normanı yaratdılar.

İlk sosial normalar – qadağalar ov, əkin, məhsul yığımı və s. dövrlərində cinsi münasibətlərin məhdudlaşdırılmasından ibarət oldu. Hazırda mövcud olan bəzi qəbilələrdə seksual tələbatın təxirə salınması indiyədək qalmaqdadır. Məsələn, piqmelərdə yaxud Yeni Qvineyanın motu xalqında ov öncəsi gecə seksual əlaqə qəti dayandırılır. Salvador hinduları – pipilər də toxum səpininə dörd gün qalmış arvadlarla cinsi əlaqəni dayandırırlar.

Zaman keçdikcə qadağa daha uzun müddətli olur, aralarındakı dövrlər isə qısalırdı. Məhdudlaşdırma yalnız xüsusi bayramlarda aradan qaldırılırdı. Fici adasında bayramlarda kişilər və qadınlar açıqcasına, heç bir dartışma olmadan cinsi əlaqəyə girirlər. Bir neçə gündən sonra isə məhdudlaşdırmalar bərpa edilir.

İnsan sürüsündə cinsi münasibətlər epizodik xarakter daşıyırdı. İnsan həyatına yad, bioloji instinktin diktə etmədiyi bir şey daxil olurdu. Bu, ehtimal ki, insan həyatının önəmli tərəflərini reqlamentləşdirən sosiallaşmanın başlanğıcı idi.

Cinsi qadağanın ardınca qida qadağası meydana gəlmişdi. Qida qadağası yol veriləndən başqa hər şeyi və istənilən vaxt yeyilməsini yasaqlayırdı. Bu qadağa da cinsi qadağa kimi insanlar arasında münasibətlərdə *inqilabi* dəyişiklik sayılır. Onların sayəsində, yalnız insan cəmiyyətinə xas olan bölgü münasibətləri və kollektiv mülkiyyət yaranmışdır. Əlbəttə, heyvanlar da öz balalarını qidasız qoymur və qidanı birinci onlarla paylaşırlar. Lakin öz balalarını yedizdirmək təbii-bioloji instinktdir, əldə olunmuş qidanın bir hissəsini başqasına, xüsusilə qohum olmayana və əzablı ovda iştirak etməyənə güzəşt etmək artıq əmək bölgüsünün və sosial münasibətlərin başlanması idi.

Buradan iki əsas müddəa irəli gəlir: formalaşmaqda olan insan özünün eqoist impulslarını dəf etməyi (özünə nəzarəti) öyrənməyə başlamışdı; insanaqədərki insan isə yalnız başqalarının impulslarını dəf etməyi bacarırdı.

Ovda və yığıcılıqda qəbilənin bütün üzvləri iştirak etməsə də qidanın bölüşdürülməsində icmanın bütün üzvləri bu və ya digər dərəcədə nəzərə alınırdı. Belə bölgünü bərabərləşdirici bölgü adlandırırlar, belə ki, o nə əmlak vəziyyətini, nə qohumluq bağlarını, nə də əmək sərfini nəzərə almırdı. İcma üzvlərinin hamısı onların cinsinə və yaşına görə fizioloji tələbatlarına uyğun pay alırdılar. Amma kəskin qida çatışmazlığı zamanı ilk sırada sürünün əmək qabiliyyətli üzvləri pay alırdı, çünki icmanı qida ilə onlar təmin edirdilər. Belə vaxtlarda himayədə olanlar ac qalmalı olurdular. Daha çətin durumlarda himayədə olanlardan imtina edilirdi, bəzən isə onları yeyirdilər (hannibalizm). Q.L.Morqan göstərir ki, hannibalizmin on min illərlə "bəşəriyyətin fəlakəti" olması təsadüfi deyil. Birinci kateqoriyadan himayədə olanların (uşaqların) öldürülməsi infandiçid, ikinci kateqoriyadan olanların (qocaların) öldürülməsi isə *herontoçit* adlandırılır.

Beləliklə, qida bölgüsü formalaşmaqda olan cəmiyyətin əsas özəlliyi, insanı məməlilərdən fərqləndirən mühüm əlamət olmuşdur. Qida bölgüsü qidalanma yasağından irəli gəlmişdi. Promiskuitet üzərində (birinci) qadağa da iki cinsə məxsus olanlar arasında ilə sonuclanmışdı. İki tip bölgü münasibətlərini doğuran iki qadağa insanın qida və nəsil artırma kimi təməl tələbatlarına aiddir. Qadağa, sonradan zəncirvari olaraq bütün başqa tələbatlara və instinktlərə, o cümlədən təhlükəsizlik, sosial ünsiyyət, nüfuz və s. tələbatlara yayılacaqdı.

İki ən böyük qadağa (cinsi əlaqə və qida üzərində) ilə insan cəmiyyəti piramidasının ucalması, cəmiyyət quruculuğu başlanmışdır. Onlardan sonra digər sosial normalar zənciri yarandı.

İnsan sürüsü təkamül etdikcə yasaqlar da çoxalaraq ibtidai insanın bütün həyatına yayılırdı. Qəbilə-tayfa quruluşu dövründə qadağa ibtidai insanın həyatının bütün sahələrini, o cümlədən tibbigigiena məsələlərini reqlamentləşdirmişdi. Yaralılara və xəstələrə yardım yaxud xidmət edən şəxslərə münasibətdə qadağa çox öncə formalaşmışdı. Qadağaların tarixdə rolu böyük oluşdur. Onların sayəsində birgə həyatın varlığını qoruyub saxlamaq mümkün olmuşdur. Qadağa zahı qadınları, seksual davranışları, mülkiyyəti,

həmçinin naməlum qida qəbulu ilə bağlı təhlükədən qoruyurdu.

Tabu insan sürüsü üzərində yüksələn və sürünün hər bir fərdini idarə edən *kollektiv iradənin* təcəssümü idi. Kollektiv iradədə təkamül sanki orqanizmüstü əvəzləyici tapmışdı. İnsan sürüsündə arılar ailəsində və qarışqa sürüsündə olduğuna bənzər tədricən nizam, harmoniya və mütəşəkkillik yaranırdı. Sosial normalar hələ qeyri-formal sosial nəzarət sisteminə çevrilirdi. Paleolit epoxasında sonralar – vətəndaş cəmiyyətinin və sənaye demokratiyasının çiçəkləndiyi epoxada – olduğu kimi qadağa qarşısında hamı bərabər idi. Qadağa nəinki hökmdarları və dindarları, eləcə də qadınları, uşaqları və şikəstləri qoruyurdu.

İlk sosial normalar və məhdudiyyətlər *mədəniyyətin* yaranmasına tarixi proloq oldu. Mədəniyyət lokal qrup halında yaşamaq naminə qarşılıqlı təsirə başladığı, özünəxas üsullarla əlində olan əmək alətlərini və texnologiyanı müvafiq şəraitə və iqlimə tətbiq edərək xüsusi sosial münasibətlər qurmağa başladığı zaman yaranmışdır. Alətlər və texnologiya mükəmməl olduqca əmək bir o qədər məhsuldar və əhali çox olur, sosial struktur mürəkkəbləşir və birliyin mədəniyyəti zərifləşir.

*İnsan fərdiliyinin identifikasiyası və totemizm.* İnsan sürüsü özünün təkamül sələfindən (formalaşmaqda olan insan sürüsündən) onunla fərqlənir ki, bu mərhələdə insanlarda fərdilik və onunla birlikdə aralarında qohumluq münasibətləri yaranmışdı. Alimlər insanın özünü öz adı ilə deyil, mənsub olduğu kollektivlə eyniləşdirməsini (identifikasiyasını) fərdiyyətçiliyin ilkin forması adlandırırlar. Bu mərhələdə, eyni zamanda kollektivçilik bu və ya digər heyvanla eyniləşdirilirdi. Kollektiv eyniləşdirmənin bu forması totemizm adlandırılır.

Totem (alkonkin sözündən götürülüb – "onun nəsli" anlamını daşıyır) – icmanın əcdadının bütün üzvləri üçün qadağa olan heyvan və ya bitkidir. Totem ibtidai qəbilənin birliyi və həmrəyliyinin görünən əlamətidir. Totem vasitəsilə təkcə heyvan yox, həm də bu qəbilə hörmətlə anılır. Totemizm soyun, qrupun identifikasiyasının ən erkən və ən güclü formasıdır. Müəyyən ciddi mərasimlər istisna olmaqla heç bir zaman totemə toxunmaq (onu öldürmək, ətini yemək, ona hər hansı ziyan vurmaq) olmaz. Totem heyvan növünün bütün fərdlərinə dəhşətli qorxu və eyni zamanda dərin sevgi ilə yanaşılır.



Onlara rəğbətlə yanaşmağa cəhd edilir və rəhm etmək istənilir. Təsadüfən ölmüş heyvana göz yaşı tökülür və onu dəfn edirdilər.

Totemizmin və magizmin yaranması ruhun halı və semantik məkanın strukturlaşmasının növbəti mərhələsi baxımından neandertal mərhələsinin ən önəmli hadisələri sayılır. Bu mərhələni totemist şüur mərhələsi sayırlar (bax: 61a)

Aydındır ki, ibtidai inanc yaranmadığı yerdə mərasim də ola bilməz. İnanc və mərasim eyni vaxtda doğulur. Mərasimə onun icraçılarını ruhlandıran və onlarda həyat enerjisi oyadan, fövqəltəbii yaxud transendental güc verən yalnız inanc ola bilər. İnancın ən əski forması totemizm, mərasimin ən ilkin formalarından biri isə totemik mərasimdir.

İlk inanc obyekti heyvan olmuşdur. Bizim əcdadımız totem (qəbilə simvolu) kimi seçdiyi heyvanı (məsələn, boz qurdu, atı) ən yaxın qohumlarla birlikdə qan qohumu kimi qəbul etmişlər. Totem əcdad vasitəsilə qəbilə icmasının yaşadığı ərazi ilə simvolik bağlılığı gerçəkləşdirildi. Totemizm qəbilənin yaşadığı əraziyə onun ənənəvi hüququnu müəyyən edirdi.

Totemik mərhələyə keçid mərasimi əhəmiyyətli dərəcədə zənginləşdirmişdi. Mərasim təkcə tonqal ətrafında rəqs etməkdən ibarət deyildi, o həm də fərdlərin sayılan qəbilə başçısına yaxud heyvana münasibətinin hekayəti, qəbilənin xarakterinin və həyat tərzinin aşkarlanması, səhnələşdirilmiş hərəkətlərdə o dünya ilə gerçək aləmin vəhdətinin sərgilənməsidir. Mərasim miniatürlərdə yaşanılan eposdur. Mərasimin yaranması ilə bəşər mədəniyyəti yeni, keyfiyyətcə daha yüksək inkişaf pilləsinə qalxmışdır.

Mərasim ənənəyə uyğun kollektiv hərəkətdən doğur. Amma hər cür hərəkətdən deyil, qəbilə üzvlərinə həmrəylik, qrupa bağlılıq, kollektiv əminlik hissi aşılayan hərəkətlərdən söz gedir.

Ənənə də, mərasim də öncə eyni hərəkətlərdən ibarət olmuşdur. Onlar forma və məzmunca fərqlənirdilər. Mərasim hərəkətləri formaca mənalı və səlis xarakterli idi, öncə kollektiv xor təsiri bağışlayırdı (məsələn, od ətrafında dövr etmək). Məzmunca isə mərasim dünyagörüşü başlanğıcına malik idi. Mərasim qrupu ruhlandırmalı və sıx birləşdirməli, onu hansısa ali güclərin və ruhların varlığına inanmağa məcbur etmək üçün yaradılmışdı. Ənənə isə yaddaşa əsaslanan hansısa davranış stereotiplərinin ötürülməsindən,

qeyri-şüuri yerinə yetirilən sxemlərdən ibarət idi. İlk yaranan mərasimlərdən biri ölüyemək (hannibalizm) və ölü basdırmaq olmuşdur.

Davranış normalarının ötürülməsini icmanın yaşlı üzvləri gənc oğlan və qızlara soyun, qəbilənin müqəddəs inanc və rəvayətlərinin aşılanmasında, ənənələrə və əxlaqi qaydalara (özəlliklə cinsi həyat və qocalara münasibətdə) itaət aşılandıqda həyata keçirilirdi. Onlara izah edilirdi ki, bu normaları pozduqda onları bu normaları müəyyənləşdirən tanrılar, ruhlar cəzalandıracaq.

Totem rəqsi insanı müəyyən heyvana – onun davranışına, xarakterinə, ov üslubuna bənzətməkdən ibarət idi. İnsanın davranışlarını heyvan davranışlarına bənzətmək uğurlu ovun zəruri şərti sayılırdı. Əvvələ insan bu üsulla qəbilə heyvanının ruhu ilə ünsiyyətdə olurdu, özünü onun sanki müdafiəsi altına salırdı və bununla da məğlubedilməz olurdu. Digər tərəfdən, insan ov zamanı heyvan ruhunun insan bədəninə köçdüyünə, bununla da ibtidai ovçu ovun uğurlu olacağına inanırdı. Belə ki, heyvan silahsız ov edən insandan həmişə uğurlu olur.

İnanc heyvanın ov zamanı göstərdiyi davranışın, onun pusquda duruşunun, ovu qovmasının, hücum üsulunun və s. yamsılanması peşə ustalığının, yüksəldilməsi üçün özünəməxsus bir təlim olmuşdur. Sonradan totem rəqsi özünün təbii əsasından qopub teatr səhnəsinə, mərasim və təntənəli tamaşalara çevrildilər, rəvayət, nağıl etmə funksiyası əldə etdilər. Bu yeni funksiya seyrçilərə, ilk öncə belə anlarda fəal sosiallaşma və icma tərbiyəsi alan gənclərə qəbilənin tarixinin əcdadların həyat tərzinin və onların qəhrəmanlıq sərgüzəştlərinin nağıl edilməsindən ibarət idi. Beləliklə, totemist ənənələr teatr tamaşasının və mifologiyanın qaynağına çevrildi.

İlk realist rəsmlər də öz başlanğıcını magik-totemik ideyalardan almışdır. Belə ki, totemist şüur totem heyvanın rəsminin çəkilməsi vasitəsilə ona təsir etmək imkanına inanırdı. Totem əlamətinin mürəkkəb simvolu olan heykəltaraşlıq da öz başlanğıcını totemizmdən alır. Nəhayət, mifologiya ilə bağlılığı kollektiv tarixi yaddaşın formalaşmasında totemizmin rolunu müəyyən etdi. Totemist əcdadlarda inancla qırılmaz əlaqədə doğuluş və ölüm haqqında totemist təsəvvürlər də vardır. Ölmüş insan totemist əcdad olurdu, bütün tsikli yenidən keçmək üçün yeni doğuşda o qayıdırdı.



## 4.5. İbtidai cəmiyyətdə ictimai əmək bölgüsü və sosial münasibətlər

*İctimai əmək bölgüsü.* İbtidai insan sürüsündə işlər təbii əmək bölgüsünə və sürünün hər bir üzvünün qabiliyyətinə uyğun bölünürdü. Qadınlar meyvə toplayır, odu qoruyub saxlayır, uşaqlara baxır və müvəqqəti məskəndə çubuqlardan sığınacaq qururdular. Onlar ölmüş heyvanların dərilərindən paltar tikirdilər. Kişilər ov edir, öz ərazilərini qoruyur və sadə alətlər hazırlayırdılar. Onlar daşları, ağacları və heyvanların sümüklərini emal edir, onlardan bıçaqlar, nizə və dəyənəklər düzəldir, şəraitin dəyişilməsinə uyğun olaraq onları təkmilləşdirirdilər. Qocalar və uşaqlar meyvə toplamağa kömək edirdilər.

İctimai əmək bölgüsünün çox primitiv olan bu növü heyvanlar aləmi ilə müqayisədə keyfiyyətcə irəliyə atılan bir addımdır. Heyvanlar aləmində əslində cinslər arasında əmək bölgüsü yoxdur. Məsələn, aslanlarda dişi cinsinin yığıcılıqla, erkəyin isə ovçuluqla məşğul olması mümkün deyil. Hər bir heyvan qida əldə edilməsində iştirak edir. Yalnız insanların həyatında hər bir insan mübadilə yolu ilə başqasının əməyinin bəhrəsindən istifadə edə bilər.

Əmək bölgüsü insana öz işini (məsələn, yığıcılığı) başqalarından daha yaxşı görməyə imkan verir. Erkək və dişi aslanlar eyni işi görür. Ana aslan həm də bala vermək və onu təlimləndirmək funksiyasını da yerinə yetirir.

Əmək bölgüsü insanları təkamüldə bir pillə də ucaltdı. İnsan dar ixtisasa yiyələndi, bununla da daha yaxşı istehsalçı oldu. Kişilərin ov etmə, qadınların isə yığıcılıq üzrə ixtisaslaşması ibtidai qrupun qidasız qalmasını əngəllədi. Kişilər ovdan uğursuz qayıtdıqda onlar öz tələbatlarını qadınların topladığı meyvələrlə ödəyirdilər. Heyvanlarda belə kooperasiya yoxdur. Uğurlu ov bütün qəbiləni kalorili qida ilə təmin edirdi, meyvələr və kökümeyvələri isə ehtiyat üçün saxlayırdılar.

Birinci ictimai əmək bölgüsü anından insanların qidalanma üzrə ixtisaslaşması başlanmışdı: qadınlar əsasən bitki yeməyə, kişilər ət yeməyə uyğunlaşmışdılar. Əmək məhsullarının mübadiləsi kişilərə orqanizm üçün zəruri olan bitki mənşəli vitaminlər, mineral maddələr almağa, qadınlara isə həm öz orqanizmlərini, həm də gələcək uşaqların orqanizmini ət mənşəli vitaminlərlə təmin etməyə imkan

verirdi. Mütəxəssislər aydınlaşdırmışlar ki, primatların əksəriyyəti həm ətlə, həm də bitki mənşəli qidalarla qidalanırlar. Yalnız ət yeməklə insan yaşaya bilməz. Müxtəlif qidaların mübadiləsi ibtidai insanlara daha sıx sosial əlaqələr yaratmağa imkan verirdi.

Qida qaynaqları və qidalar nə qədər müxtəlif olarsa, onların əldə edilməsinə zəmanət bir o qədər çox olar. Amma qidalanma nə qədər rənga-rəng olarsa, cəmiyyətin mədəni həyatı bir o qədər müxtəlif olar və insan şəxsiyyətinin inkişaf imkanı artar. Qidanın müxtəlifliyi sanki şəxsiyyətin və davranış tiplərinin müxtəlifliyinin güzgüsüdür.

Qidalanma zəmanəti olduqca bu ərazidə yaşayan insanların sayı da çox olar, oturaq həyat tərzinə keçid ehtimalı artar. Oturaq həyat tərzinə keçid isə şəhər mədəniyyətinin inkişafının birinci zəruri şərtidir. Əhalinin sayının çox olması isə cəmiyyətin böyüməsi üçün labüddür. Əhalinin sayca artması geniş submədəniyyətlər çevrəsi ilə əhatə olunan dominant mədəniyyətin müxtəlifliyi, universallığı və çevikliyi üçün vacibdir.

Əhali sayının artması onun idarə olunmasını mürəkkəbləş-dirir, dövlət aparatı böyüyür, qərarlar, qanunlar və normativlər çoxalır. Deməli, yazılmamış sosial normalardan yazılı sosial normalara keçid ehtimalı artır. Sosial qrupun ölçüsü böyüdükcə, evlənməmiş gənclərin evlənməsinin münasib qaydalarının və onların təhsili yollarının axtarışı aktuallaşır. Başqa sözlə, ailə, kəbin, təhsil təsisatlarının təkmilləşdirilməsi zərurət olur.

İbtidai insan sürüsündə əmək bölgüsünün dərinləşməsi sürüdə sosial faktorların rolunu artırdı. Heyvan sürüsündə və insandan əvvəlki insan sürüsündə cinslərin cütləşməsi fiziki güc yolu ilə həll edilirdi, daha böyük və daha güclü erkək gənc iddiaçı erkəkləri uzaqlaşdıraraq yaxud məhv edərək cinsi əlaqə hüququnu monopoliyalaşdırmışdı. İnsan sürüsündə status hüququ ön plana çəkilmişdi. Əgər əvvəllər erkək dişidən soruşmadan onu özünə tabe edirdisə, indi qadın kəbin qarşılığını, gələcək uşağa qayğıkeş atanı özü seçirdi. Kişi erkəkdən fərqli olaraq qadına uşaq doğan və genlərini yeni nəslə ötürən maşın kimi baxmır. Qadın kişinin bioloji qarşılığı deyil, sosial qarşılığı idi, kişi ilə qarşılıqlı təsirdə qadın özünün iqtisadi təhlükəsizliyini və ictimai uğurlarını görürdü.

Bir-birinə ehtirasla yönələn cinsi instinktlər bundan sonra maraqları yerinə yetirməli idi: qadın kişidə, kişi qadında öz marağını



görməyə başlamışdı. Həm də təkamülün hər sonrakı pilləsində bu qarşılıqlı maraqlar artmışdır. İnstinktlər müxtəlifləşə və sayca arta bilməzlər.

Kişilərin iki nəsli arasındakı qarşılıqlı münasibətlər də dəyişilmişdi. İndi artıq ailə başçısı kimi kişi öz oğluna kəbin qarşılığı tapır, hədiyyələr hazırlayır, sosial bacarıqlar aşılayır.

Əmək bölgüsü dərinləşdikcə eyni qrupun üzvləri arasında daha çox fərqlər müşahidə olunurdu, deməli, sosial bərabərliyin, şaxələnmənin səviyyəsi də yüksəlirdi. Sosiumda sosial şaxələnmənin səviyyəsi yüksəldikcə ictimai həyat da rəngarəng olurdu. Bu isə yeni məsələlər doğururdu ki, in-sanlar onları həll etməyi öyrənməli idilər. Heyvanlar aləmində olmayan məsələlərdən söz gedir. Ana uşaqlara ov və yaşamaq vərdişləri öyrədirdi. An-caq insan sürüsündə öyrənilməsi gənc nəsil üçün lazım olan sosial münasibətlər doğulurdu. Ana təklikdə bunun öhdəsindən gələ bilməzdi. Uşaqların tərbiyəsinə ata da cəlb edilirdi, sosiallaşma isə öncə birgə (ata-ana), sonra da kollektiv-icma tədbirinə çevrilirdi. Beləliklə, insan sürüsü mərhələsində ilk dəfə olaraq, sözün həqiqi anlamında sosiallaşma meydana gəlmişdir.

Ailə münasibətlərinin dar çərçivəsindən çıxması və münasibətlərin ictimai hadisəyə çevrilməsi təkamülün sonrakı pilləsində, qəbilə, tayfa və başçılıq yarandıqda baş verəcəkdi. Bu yeni mərhələdə də ictimai əmək bölgüsü tərəqqinin hərəkətverici qüvvəsi olacaqdı.

*Sosial münasibətlər.* İctimai əmək bölgüsü bəşəriyyətə iki önəmli şey də vermişdi. Birincisi, ovçuların dayanacaq yeri və ya ibtidai düşərgə. Meymunların çoxu daim yerlərini dəyişməyə, qida mənbəyi tapdıqları yerdə düşərgə salmağa məcburdurlar. Harada qaranlıq düşdü orada özlərinə yuva qururlar. Belə həyat tərzində ev əşyaları, avadanlıq, alətlər, ərzaq ehtiyatı yarana bilməzdi. Daimi düşərgə ibtidai insanlar üçün ovdan sonra – kişilər üçün dönüş yeri, onların tanıdığı insanlarla, ailə üzvlərilə görüş yeri, əşyalarının saxlandığı məskən oldu. Düşərgə eyni zamanda istirahət (ov haqqında söhbət, son hadisələrin müzakirəsi, əylənmək və oyun) yeri, məktəb (gənc nəslə sosial və əmək vərdişləri təlimi) yeri və mətbəx (yeməyin bölündüyü, hazırlandığı və istifadə olunduğu) yeri idi.

Daimi düşərgənin olması düşərgənin ətrafındakı yerləri tam

öyrənməyə bioehtiyatları və onlardan səmərəli istifadə etməyi bilməyə imkan verirdi. Miqrasiya həyat tərzində heyvanlar və quşlar müəyyən marşrut boyunca yerlərini dəyişir və qarşılarına çıxan qənimətlə kifayətlənirlər. İbtidai düşərgənin olması kişilərə və qadınlara düşərgə ətrafında olan bütün sahələri bir-bir araşdırıb düşərgəyə qayıtmağa, səhərisi gün araşdırmanı davam etdirməyə imkan verirdi. Düşərgəyə bitişik ərazinin bütün ehtiyatlarından istifadə etdikdən sonra düşərgəni başqa yerə keçirirdilər.

Daimi düşərgə, həmçinin nəsillərarası bağlılığı da möhkəmləndirirdi. Qadınlar toplanmış meyvələrin düşərgəyə daşınmasına yeniyetmələri cəlb edir, uşaqların hərəkətlərinə nəzarət edib yönəldərək onların davranışlarını müşahidə edir və yemək hazırlayırdılar. Yeniyetmə və qadınlardan ibarət qruplar yığıcılıqla, sığınacağı səliqəyə salmaqla, tərbiyə və həyat təcrübəsinin ötürülməsi, boş vaxtın və oyunların təşkili ilə məşğul olurdular.

Əmək bölgüsü insanları müəyyən vəzifələri yerinə yetirməyə alışdırırdı. Əmək bölgüsünün dərinləşməsi görülən işlərin keyfiyyətinin yüksəlməsinə səbəb olurdu. İlk sırada iqtisadi vəzifələrin keyfiyyətli yerinə yetirilməsi qrupun ümumi mədəni səviyyəsini yüksəldirdi. Obrazlı deyilərsə, ictimai əmək bölgüsü sosial və mədəni tarixin lokomotividir.

Peşəkarlığın artması və cəmiyyətin yuxarı təbəqəsinin ayrılması ilə istehsalın səmərəliliyi kəskin yüksəlmişdi.

Qədim daş erasının ayrı-ayrı ailələrdən ibarət onlarla insanı özündə birləşdirən qəbilə ovçu qrupları əkinçilərlə əvəz olundu. Burada artıq şaxələnmiş sosial sistem var idi. İlk vaxtlar yeknəsək olmuş cəmiyyət getdikcə qruplara və sosial təbəqələrə ayrılırdı. Daha qədim qatlarda tapılmış əşyalar əhalinin (cinsindən asılı olmayaraq) bərabərhüquqlu olduğunu təsdiq edir. Hətta uşaqlar da cəmiyyətin tamhüquqlu üzvləri idi.

Cəmiyyətin sosial strukturunun özəllikləri haqqında Mərkəzi Avropada geniş yayılmış uzun evlərə əsasən fikir yürütmək olar. Onların əhalisi artıq ayrı-ayrı birliklərdən ibarət idi. Belə evlərin birində 30-dan 60-a qədər evləri birlikdə tikən və sahədə işləyən insan yaşayırdı. Bu birliyi, bir qayda olaraq qan qohumları yaradırdılar. Onların torpaq üzərində, hələ xüsusi mülkiyyəti yox idi, amma yenicə doğulurdu. Əkinçilərin sosial münasibətlərində daha çox dəyişiklik



müharibələrin başlanması ilə bağlı olmuşdur. Zorakılıq ovçular və yığıcılar zamanında da olurdu, amma mülkiyyətin yaranması, onun əldə edilməsi, çoxaldılması və qorunması problemləri müharibə düşüncəsinin yaranması və inkişafına səbəb oldu. Tarixdə ilk dəfə olaraq sənətçilər insanın insanla mübarizəsi üçün silah və başqa texniki vasitələr hazırlamağa başlamışdılar. Dəfn mərasiminin xarakteri də dəyişilmişdi. Kişiləri (xüsusilə tanınmış döyüşçüləri) çox vaxt silahı ilə birlikdə dəfn edirdilər. E.ö.III minilliyə yaxın vaxtlarda çar hakimiyyətinin təsis edilməsi sosial həyatda dərin dəyişikliklər yaratmışdı. Misirdə hökmdar ilə cəmiyyətin qalan üzvləri arasında dəqiq sərhəd yaranmışdı. Çarı, ondan əvvəl isə yalnız varlı və nüfuzlu, cəmiyyətdə aparıcı rol oynayan insanları tanrıya bərabər tuturdular. Belə adamları başqalarından ayıran uçurumu din yaratmışdı. Nə zamansa bərabərhüquqlu olmuş cəmiyyət dinin və siyasi hakimiyyətin birləşməsi sayəsində güclü idarə aparatı olan mütləq monarxiyaya çevrildi.

Mesapotomiyada çarlıq mərkəzi kilsə olan şumer şəhərləri yanında formalaşmışdı. Burada kahinlər dini ayinlərlə yanaşı təsərrüfat həyatına, suvarmanın təşkilinə və başlıca taxıl ambarlarına da nəzarət edirdilər. Şəhərdə (dövlətdə) bütün torpağın yerli tanrılara məxsus olması, idarəçiliyin, təsərrüfatın və mədəniyyətin dini məbədə tabe olması kahinlərə çarı Tanrının yerdəki nümayəndəsi kimi təqdim etməyə imkan verirdi. İndi də bəzi müsəlman xalqlarında "göydə allah, yerdə padişah" deyimi tez-tez işlənir.

Dövlət yaranarkən əhalinin çardan asılılığı hələ elə də güclü deyildi. Böyük çayların daşması bol məhsul götürməyə imkan verməklə yanaşı, əhalinin birgə gücünün tələb olunduğu işlər də görülməli idi ki, ictimai quruluşun özəllikləri formalaşsın. Torpağın becərilməsi iri icmaların yaranmasına gətirib çıxartdı. Bu icmalardan da artan sərvətin əsasında müdafiə və ekspansiyaya dayaq məntəqələri kimi böyük şəhərlər yarandı. Ayrı-ayrı qrupların funksiyalarındakı fərqlər yeni qruplar – kahinlər, sənətçilər, tacirlər, muzdlu işçilər və əkinçilər – yaratdı. Tezliklə cəmiyyət aristokratlara, azad insanlara və kölələrə bölündü.

*İbtidai insan sürüsü* ibtidai cəmiyyətin, onun qədim paleolit epoxasına (daş dövrünə) aid olan qəbilə mərhələsinin şərti adıdır. İnsanın və cəmiyyətin yaranışı dövrüdür. "Sürü"dən qəbiləyə keçid insan

cəmiyyəti düzənini başa çatdırdı. Daş dövrünün insanları yığıcılıqla, ov etməklə, balıqçılıqla məşğul olurdular; yeni daş dövründə (neolitdə) kətmən əkinçiliyi və maldarlıq yarandı. Daş dövrü tunc dövrü ilə əvəz olundu (Avstraliya qəbilələrində və bəzi başqa qəbilələrdə bu dövr XX əsrə qədər saxlanırdı).

*İnsan sürüsü* anlayışı birincisi, cəmiyyətin inkişafının ən erkən mərhələsini, müasir cəmiyyəti xarakterizə edən böyük insan qrupunun amorf halını ifadə edir.

İnsan cinsinin təkamülünün sürü mərhələsinin tarixi xidməti ondan ibarətdir ki, o insan cəmiyyətinin formalaşması üçün bütün zəruri olan sosiobioloji şərtləri hazırladı. Bu mərhələdən sonra təkamül keyfiyyətcə başqa oldu. Bioloji xarakterli olan təkamül əsasən mədəni təkamül oldu. İnsan sürüsü elə mərhələdə idi ki, burada bioloji və mədəni başlanğıclar ayrılmaz halda idilər, yəni biri digərini üstələməmişdi. Burada hələ sırf insana xas əlamətlər görünmürdü, ümumi fonda onların yalnız cizgiləri cızılırdı. Bununla belə, inkişafın bu mərhələsi haqqında qətiyyətlə demək olar ki, yalnız bu mərhələdə sosiomədəni başlanğıc bioloji təkamül üzərində zəfər çaldı və bu proses dönməz xarakter aldı.



# III BÖLÜM
# ƏNƏNƏVİ CƏMİYYƏT TİPLƏRİ VƏ TARİXİNİN DÖVRLƏŞDİRİLMƏSİ

## I Fəsil
## Cəmiyyətin tipologiyası və sosial təkamülü

### 1.1. Cəmiyyətin zaman modelləri və çağdaş yanaşmalar

Cəmiyyət tarixinin sistemləşdirilməsi, bir-birini əvəz edən ictimai hadisələrin, siyasi rejimlərin və təsərrüfat formalarının tarixi ardıcıllığını müəyyən etmək elmi idrakın ən mürəkkəb problemlərindən biri sayılır. Sosioantropologiyada keçmişdə və indi mövcud olan fikri və gerçək cəmiyyətlər müəyyən tiplərə ayrılır. Elmi ədəbiyyatda cəmiyyətin bir neçə tipologiyası göstərilir. Burada biz cəmiyyətin sosial təkamülü tarixinə əsas yanaşmaları, nəzəri modelləri gözdən keçirəcəyik.

İctimai hadisələrin gedişini sistemləşdirməyə yəni cəmiyyətin sosial təkamülündə dövri olaraq təkrarlanan yaxud xətti inkişaf edən ictimai hadisələrin ayrılmasına filosoflar, antropoloqlar və sosioloqlar cəhd etmişlər. Hind dininə görə, təbiət Brahmanın tənəffüsü sayəsində tədricən ruhlanır. Hər dəfə öncəki cəmiyyətin yerini daha mükəmməl insan irqi tutur, ancaq o da dörd inkişaf erasını keçir: həqiqətin, xeyrin və gözəlliyin hökmran olduğu Altun eradan, şər, yalan və eybəcərliklə yüklənmiş dəmir erasına alçalan xətt üzrə hərəkət edir. Qədim yunan şairi Hesiod (m.ö.VIII-VII əsrlər) da cəmiyyətin beş tarixi dövrünü – Altun, Gümüş, Tunc, Qəhrəmanlıq və Dəmir – göstərmişdir. Heraklitə görə isə dünya və cəmiyyət zaman keçdikcə dünya odunda məhv olur, sonra yenə də əvvəlki halında yenidən yaranır. Tarixi tsikllər ideyası min illər öncəyə gedib çıxır. Hələ bizim eramıza yaxın dövrdə Roma tarixçisi Polibiy 40 cildlik "Ümumi tarix" və çin tarixçisi Sim Nyan "Tarixi qeydlər"ində cəmiyyət tarixinə dövri proses kimi baxmışlar. Böyük tarixi dövrlər ideyasını eramızın başlanğıcında ərəb tarixçisi Biruni irəli sürmüş, ondan 200 il sonra bu ideyanı Tunisli İbn Haldun inkişaf etdirmişdir.

Tarix prosesinin qeyri-tsiklliyi, xətti inkişafı ideyası ilk dəfə xristian esxotologiyası (yun.eschatos-sonuncu) çərçivəsində yaranmışdır. Onun tanınmış nümayəndəsi Avreliy Avqustinə (IV-V

əsrlər) görə, bəşəriyyət ilahinin qarğışı ilə tarixə məhkumdur və ilahi bəsirət (öncəgörmə) onu bir neçə mərhələlərdən keçirərək dəhşətli sonluğa, yer tarixinin bitməsinə aparıb çıxaracaq.

Tarixi prosesdə dövrlər haqqında ideyadan Oyanma epoxasında fransız tarixçisi C.Viko da 1725-ci ildə danışmışdır. O hesab edirdi ki, hər bir millət idarəçiliyinin qeyd edilən xarakter formasına malik olan üç epoxadan keçir. *Birincisi*, dövlətin olmadığı və cəmiyyəti kahinlərin idarə etdiyi dövr; *ikincisi*, aristokratik dövləti fərqləndirən qəhrəmanlıq dövrü; *üçüncüsü*, insani idarəçilik forması – respublika yaxud nümayəndəli monarxiya dövrü. Bu epoxa başa çatdıqda millət ölümcül böhrana düşür. Ancaq XVIII əsrin sonlarında alman filosofu və tarixçisi İ.Herder "Bəşər tarixinin fəlsəfəsinə dair ideyalar" əsərində tarixdə genetik başlanğıcların olduğunu, kosmik miqyasda epoxalar arasında dövri çevrilişlərin baş verdiyini göstərmişdir. O, təbiət qüvvələrinin fəth edilməsində və bəşəriyyətin mənəvi inkişafında tarixi tərəqqinin baş verdiyini məhsuldar qüvvələrin və istehsal münasibətlərinin bu dövrdə sürətli inkişafı ilə əsaslandırmışdı. Bu ideyanı XIX əsrdə alman filosofları Q.Hegel, K.Marks və F.Engels müdafiə etmişlər.

Müasir elmdə cəmiyyət tarixinin dövrləşdirilməsinin müxtəlif variantları mövcuddur. Tipologiyaların birində əmək alətləri, digərində istehsal üsulu, başqasında texnologiyanın tipi, həyat tərzi, təsərrüfat forması, mədəniyyətin inkişaf səviyyəsi yaxud siyasi rejim əsas meyar kimi götürülür.

Tanınmış antropoloq E.Servis cəmiyyətin sosial və siyasi təşkilinin dörd tipini yaxud səviyyəsini ayırır: *lokal qrup; qəbilə; başçı; dövlət.* Lokal qrup – qohumluq münasibətlərinə əsaslanan kiçik yığıcılar birliyidir. Qəbilələr bostançılıq və heyvandarlıqla məşğul idilər. Onların məskəni, düşərgəsi var idi, ancaq mərkəzləşmiş hakimiyyətləri yox idi (təbəqələşməmişdi). Qəbilənin başçısında siyasi qərarların qəbul edilməsində öz iradəsini başqalarını tabe etdirmək üçün legitim vasitələr hələ yox idi. İcma (qəbilə və dövlət arasında olan sosial-siyasi quruluş forması) yaşayış vasitələri üzərində təbəqələşmə və daimi siyasi quruluşa malik cəmiyyət tipidir. Dövlət mərkəzləşmiş idarəçiliyə və sosial-iqtisadi təbəqələşməyə əsaslanan sosial-siyasi quruluş formasıdır.

Əmək alətlərinin səviyyəsi meyarından çıxış edən (tarixçilərin, arxeoloqların və etnoqrafların tətbiq etdiyi) tipologiyada əmək alətlərinin dəyişilməsindən söz gedir və burada cəmiyyətin tarixi daş, tunc və dəmir dövrlərinə ayrılır. Paleoliti (qədim daş dövrünü) tarixçilər bir neçə mərhələyə bölürlər: oldova dövrünü (1, 5-3 mln. il öncə) özünə daxil edən alt paleolit mərhələsi; 100 min-1, 5 mln. il öncə mövcud olmuş Aşel mərhələsi; 40-100 min il öncəki Myste yaxud orta paleolit dövrü; e.ö.40-10 min ili əhatə edən üst paleolit dövrü. Mezolit mərhələsi e.ö.10 min ildən 7 min ilə qədər, neolit mərhələsi e.ə.8-7 min ildən 5-4 min ilə qədər, eneolit mərhələsi eramızdan öncə 4 min ildən 3 min ilə qədər davam etmişdir. Bu tipologiyanı hələ 1869-cu ildə Q.L.Morqan irəli sürmüşdü. Onun bu tipologiyası dəqiqləşdirilmələr edilmiş klassik tipologiya sayılır. Bu tipologiyaya görə cəmiyyət tarixi ən qədim mədəniyyətin abvil, aşel və muster mərhələlərini özündə birləşdirən alt paleolit (protolit) və orinyak, solyuter və madlen mədəniyyət mərhələlərindən ibarət olan üst paleolit (miolit) dövrlərinə ayrılır. Bu mərhələlərin hamısı daşın emal edilməsi üsullarına görə fərqlənirlər.

Qədim daş dövrünün insanları Yer kürəsinin müxtəlif coğrafi bölgələrinə yayılaraq yalnız sındırılmış daş alətlərdən istifadə etmişlər. Onlara cilalanmış daş alətlər və saxsı qablar bəlli deyildi. Paleolit insanları ov etməklə və qida (bitkilər, molyuskalar və s.) toplayırdılar. Balıqçılığa yenicə başlayırdılar. Onlarda əkinçilik və maldarlıq yox idi. Neolit epoxasının insanları artıq müasir iqlim şəraitində və müasir heyvanlar və bitkilər aləmi əhatəsində yaşayırdılar. Onlar çapılmış daşlarla yanaşı cilalanmış və ucuz daş alətlərdən istifadə edir, saxsı qablar da düzəldirdilər. Neolit insanları ovçuluqla, yığıcılıqla və balıq ovu ilə yanaşı ibtidai kətmən əkinçiliyi və ev heyvanlarını artırmaqla da məşğul olurdular.

Cəmiyyətin başqa bir tipologiyası kulturoloji tipologiya adlanır. Bu tipologiyanın müəllifi kimi tanınmış Kanada sosioloqu M.Maklucn bəşər tarixini dörd dövrə bölür:

1) qəbilə cəmiyyəti, burada insanlar strukturunu miflər və mərasimlər təşkil edən şifahi – səslər aləmində yaşamışlar;

2) min illər ərzində fonetik yazı dövrü. Yazı akustik qavrayışı görmə duyğusuna çevrildi və bu kommunikasiya dövrü qəbilə cəmiyyətini dağıtdı. Əlifbanın azönəmli rabitə vasitəsi olan araba və yolla birləşməsi bu epoxanın ictimai-iqtisadi hərəkətinin başlıca

hərəkətverici qüvvəsi oldu;

3) sonrakı mərhələ kitab nəşri oldu. Kitab nəşrinin kəşfi kapitalist formasiyasının məzmununu təşkil edən bütün sonrakı proseslərin qaynağı oldu. Milli dövlətlərin yaranması, sənayeləşmə, kütləvi bazarların formalaşması, savadlılığın yayılması, təhsil, elm və mədəniyyət və s. öz başlamğıcını kitab nəşrindən ("Qutenberq qalaktikası") almışdır. Nəşriyyat orta əsrlər avropa cəmiyyətinin korporativ (silk) əsaslarını qırdı və kapitalist rəqabətinə, ixtisaslaşmaya kooperasiyaya yol açdı. Bütün bunlar kapitalın artması və sənaye cəmiyyətinə keçidlə nəticələndi;

4) çağdaş elektron sivilizasiyasına keçid dövrü. Bizim dünyamızda mədəniyyətin insan və cəmiyyət həyatını tamamən yox edən növbəti katastrofik kommunikasiya partlayışı baş verir.

Cəmiyyət tarixinin dövrləşdirilməsinin bu nümunəsini də Amerika etnoqrafı L.Morqan təklif etmişdir. Onun geniş yayılmış tipologiyasında insan münasibətləri ön plana çəkilmiş və cəmiyyət tarixi üç dövrə bölünmüşdür: *vəhşilik; barbarlıq; sivilizasiya.* Vəhşilik paleolit dövrünə, barbarlıq isə neolitdən dəmir erasına keçid dövrünə təsadüf edir.

Tarixi dövrlərin təsnifatı meyarının seçilməsindən asılı olaraq, filosoflar qapalı və açıq, yazıyaqədərki və yazı, ibtidai, quldarlıq, feodalizm, kapitalizm və sosiolizm, sənayeyəqədərki, industrial və postindustrial, sabit və qeyri-sabit, keçid və davamlı, vəhşi, barbar və sivil və s. cəmiyyət tiplərini ayırırlar. Bütün bu təsnifatlar arasında L.Morqanın təsnifatına daha çox diqqət yetirilir. O, qədim mədəniyyətin tarixini "ixtira-kəşf" meyarı üzrə dövrləşdirmişdir. Morqan odun əldə edilməsini, yayın ixtirasını, dulusçuluğu, əkinçiliyi, maldarlığı, dəmirdən istifadəni yazıyaqədərki və ilk yazı cəmiyyətinin mədəni təkamülünün əsas pillələri kimi müəyyən edir. Onun 1877-ci ildə nəşr etdirdiyi "Qədim cəmiyyət" adlı əsəri ailənin, mülkiyyətin və qəbilə-tayfa quruluşunun yaranması məsələlərinə həsr olunub. Hinduların məişətini və qədim ənənələrini tədqiq edərək, Morqan nəticəyə gəlir ki, tayfa ibtidai cəmiyyətin əsas özəyidir. O vəhşilik və barbarlıq dövrlərini də üç mərhələyə ayırır: *ibtidai, orta* və *ali.* Hər sonrakı mərhələ özündən öncəki mərhələdən qısadır. Məsələn, barbarlığın ibtidai mərhələsi vəhşiliyin ali mərhələsindən qısa, orta mərhələsindən isə zamanca uzundur. Belə ki, əgər tarixi zaman şkalasını 100 min il götürsək, onda vəhşilik dövrü 60 min il (bəşər həyatının beşdə üç hissəsi qədər) barbarlığın qədim dövrü 20 min il, barbarlığın orta və son dövrləri 15 min il, sivilizasiya dövrü isə 5 min il davam etmişdir. L.Morqanın təsnifatında vəhşilik dövrü insanın yaranması ilə başlamış, dulusçuluğun yaranması ilə başa çatmışdır. Bu dövrdə insan və ilkin qəbilə quruluşu yaranmışdır. Barbarlıq dulusçuluğun ixtirası ilə başlanmış, yazının yaranması ilə bitmişdir.

Çağdaş tədqiqatçılar ibtidai xalqların vəhşi və barbar adlandırılmasına dair Morqanın fikri ilə razılaşmır, ancaq onun sivilizasiyaya dair baxışlarını qəbul edirlər. Morqana görə sivilizasiya yazının ixtirası ilə başlanmışdır. Heroqliflərlə yazıdan istifadə sivilizasiyanın başlanmasının bariz əlamətidir. Ədəbi abidələrsiz demək olar ki, nə tarix, nə də sivilizasiya ola bilməzdi. Ergenekon və Bilqamıs şumer-türk eposlarının, homer poemalarının yaradılması qədim şumer-türk və yunan sivilizasiyalarının yarandığı zamandan xəbər verir.

### 1.2. Cəmiyyət tarixinin yazı və quruluş səviyyəsi meyarları üzrə dövrləşdirilməsi

*Yazıyaqədərki və yazı cəmiyyətləri.* Hazırda sosiologiyada, antropologiyada və mədəniyyətşünaslıqda yazı cəmiyyətin tipologiyasının əsas meyarlarından biri kimi istifadə olunur. Yazı cəmiyyətin təkamülünün birinci və çıxış modeli sayılır. Yazının olmasını başlıca əlamət kimi götürərək alimlər bütün cəmiyyətləri *yazıyaqədərki*, yəni danışa bilən, ancaq yaza bilməyən və *yazı*, yəni əlifbası olan və səsləri maddi daşıyıcılarda (gil lövhələrdə, heyvan dərisində, kitablarda, qəzetlərdə yaxud kompüterdə) qeyd edən cəmiyyətlərə ayırırlar. Yazı 10 min il öncə yaransa da Amazon cəngəlliklərində, yaxud Ərəbistan səhralarında yaşayan bəzi qəbilələrin indi də yazıdan xəbərləri yoxdur. Yazının ixtira edilməsi xalqın yüksək mədəni səviyyəyə qalxmasını təsdiq edir. Yazı bilməyən xalqları vəhşi, geri qalmış və qeyri-sivil adlandırırlar.

Yazıyaqədərki cəmiyyətlər həm də elməqədrki, sənayeyəqədərki və fərdiliyəqədərki cəmiyyətlər sayılır. Belə cəmiyyətlərin tarixi yoxdur, yalnız şifahi rəvayətləri var. Onlar üçün zaman və məkan məhduddur. Belə xalqlar başqa xalqlar haqqında məlumatsızdırlar. Onların teologiyası və kosmologiyası yoxdur. Elm

yarada bilmirlər, çünki o irəliləməyi, yoxlanılmış biliklərin tədricən toplanmasını tələb edir ki, bu da öz növbəsində müşahidənin və təcrübənin nəticələrinin yazılmasını tələb edir. Bunun sayəsində sonrakı nəsillər möhkəm eksperimental özül üzərində davamlı olaraq yeni biliklər yaradır. Yazıyaqədərki cəmiyyətlərdə mədəniyyət yavaş inkişaf edir, tərəqqi olmur.

Amerika alimi A.Qrin hesab edir ki, mədəniyyət yalnız yazı dili, elm, fəlsəfə, yüksək ixtisaslı əmək bölgüsü, mürəkkəb texnologiya və siyasi sistem yarandıqda sivilizasiya olur. Yazıyaqədərki mədəniyyətlərin bu əlamətləri yoxdur. Onların başlıca çatışmazlığı yazının olmamasıdır. Bu amilin önəmliliyi mədəniyyətin öz adından doğur. Odur ki, sivilizasiya yox, "yazıyaqədərki" mədəniyyət adlanır.

*Quruluş səviyyəsi üzrə tipologiya.* Bu tipologiyada cəmiyyətlər sadə və mürəkkəb olmaqla iki yerə bölünür, idarəçilik səviyyələrinin sayı və sosial təbəqələşmə meyar kimi götürülür. Sadə cəmiyyətlərdə rəhbərlər və itaət edənlər, varlılar və kasıblar yoxdur. Haradasa indiyəqədər qalmış ibtidai qəbilələr sadə cəmiyyət nümunəsidir. Mürəkkəb cəmiyyətlərə gəlincə, orada dövlət aparatı, elm, texnika, sosial təbəqələr mövcuddur. Orada rəhbərlər və itaət edənlər sadəcə mövcud olmur onlar cəmiyyətin hökmran və qeyri-hökmran siniflərini təşkil edirlər. Nə zamansa kortəbii yaranmış sosial bərabərsizlik hazırda hüquqi, iqtisadi dini və siyasi yöndən möhkəmləndirilir. Mürəkkəb cəmiyyətlərin yaranması ən güclü siyasi təsisatın – dövlətin yaranmasına təkan vermişdir. Sadə cəmiyyətlər 40 min il öncə, mürəkkəb cəmiyyətlər isə 5-6 min il öncə yaranmışdır. Sonuncuya misal olaraq 5 min il öncə yaranmış şumer federativ dövlətini göstərmək olar.

Mürəkkəb cəmiyyətlərdə əhalinin sayı çoxdur (yüz minlər yaxud yüz milyonlarcadır). Əhalinin sayının dəyişilməsi cəmiyyətin sosial durumunu keyfiyyətcə dəyişdirir. Azsaylı-sadə cəmiyyətlərdə hamı bir-birini tanıyırdı və aralarında birbaşa qohumluq bağları var idi. Hətta ən erkən mürəkkəb cəmiyyət tipində (başçılıq cəmiyyətində) insanlar bir-birinə yaxın yaxud uzaq qohum idilər, ancaq sosial durumları fərqli idi. Sonradan mürəkkəb cəmiyyətlərdə şəxsi, qan qohumluğu üzrə münasibətləri qeyri-qohum münasibətləri (özəlliklə bir binada yaşayıb bir-birini tanımadığı şəhərlərdə) əvəz etdi. Sosial rütbələr sisteminin yerini sosial stratifikasiya sistemi



tutdu.

Mürəkkəb cəmiyyətlər təbəqələşmiş (stratlaşmış) cəmiyyətlər sayılır ona görə ki, birincisi, təbəqələr (stratlar) böyük insan qruplarından ibarətdir, ikincisi, bu qruplar idarəedən-rəhbər qrupa (sinifə) qohum olmayanlardan yaranır.

Çoxsaylı empirik materialları ümumiləşdirərək, ən müxtəlif tarixi epoxalardakı cəmiyyətləri müqayisə edərək ingilis arxeoloqu Q.Çayld mürəkkəb cəmiyyətin bir sıra əlamətlərini müəyyən etmişdir:

1) əhalinin şəhərlərdə məskunlaşması;
2) qeyri-aqrar əməyin ixtisaslaşmasının inkişafı;
3) izafi məhsulun yaranması və toplanması;
4) siniflər arasında dəqiq məsafənin yaranması;
5) adi hüquqdan yuridik qanunlara keçilməsi;
6) dəniz ticarətinin yaranması;
7) yazının, riyaziyyatın və elitar mədəniyyətin yaranması.

Mürəkkəb cəmiyyətin ümumiləşmiş formulunu belə ifadə etmək olar: dövlət, təbəqələşmə, sivilizasiya.

Mürəkkıb cəmiyyətdə fərdlərin hakimiyyətə gəlmə imkanları fərqlidir. Yüksək pillədə hakim sinif durur. Onun əldə etdikləri qohumluq bağları sayəsində olmur. İri dövlətdə hakim sinif bütövlükdə qan qohumlarından yarana bilməz. Hakim sinif, iri dövlətdə heterogendir, ancaq onun tərkibində bütün qohum qruplar yerləşə bilər. Sadə cəmiyyətdə isə əksinə, hakimiyyət başdan-başa bir qohum qrupun (klanın) əlində cəmləşir.

Qeyd olunan iki tipologiyanı əlaqələndirmək və belə nəticə çıxarmaq olar:

- sadə cəmiyyətlər yazıyaqədərki cəmiyyətlərdir. Onlarda yazı, mürəkkəb idarəçilik və sosial təbəqələşmə yoxdur;
- mürəkkəb cəmiyyətlər yazı cəmiyyətləridir, burada yazı, haçalanmış idarəçilik və sosial bərabərsizlik vardır.

## 1.3. Cəmiyyət tarixinin istehsal üsulu və formasiya meyarlarına əsaslanan tipologiyaları

*İstehsal üsulu üzrə dövrləşdirmə.* Filosoflar ən qədim dövrdən başlayaraq indiki dövrə qədər bütün cəmiyyətləri aşağıdakı tiplərə ayırırlar:

1) ovçular və yığıcılar cəmiyyəti;
2) bostançılıq cəmiyyəti;
3) maldarlıq cəmiyyəti;
4) əkinçilik cəmiyyəti;
5) sənaye cəmiyyəti.

Ovçuluq və yığıcılıq insanların ərzaqla təminatının ən qədim üsulu sayılır. Bu üsula uyğun olaraq ibtidai ovçular və yığıcılar cəmiyyəti ayrılır. Bu cəmiyyət hər biri 40-50 nəfər qan qohumlarından ibarət və bir-birindən yetərincə aralı məsafədə məskunlaşan kiçik qruplardan ibarət olmuşdur (onlar lokal qruplar adlandırılır). Onların əsasını çoxsaylı nəsilləri olan bir neçə ailə təşkil edirdi. Cəmiyyətin daim birlikdə yaşayan, başqa qruplarla görüşməyən bütün üzvləri qohum idilər. Bu hal bir neçə yüz min il davam etmişdir. Bu ictimai birlik tarixcə ən uzun sürən tip olmuşdur.

Bu tipi cəmiyyətin və istehsal üsulunun iki başqa tipi-maldarlıq (çobançılıq) və bostançılıq yaxud bağçılıq əvəz etmişdir. Vəhşi heyvanların əhliləşdirilməsinə əsaslanan maldarlıq yaşayış vasitələri əldə edilməsinin daha səmərəli üsulu sayılır. Maldarlar da ovçular və yığıcılar kimi köçəri həyatı yaşayırdılar. İnsanlar heyvanların əhliləşdirilməsinin onlara ovda nail olunmasından iqtisadi baxımdan daha səmərəli olduğuna inandıqdan sonra tədricən ovçuluqdan maldarlığa keçilmişdir. Yığıcılıq formasından isə bostançılığa, ondan da əkinçilik cəmiyyəti tipinə keçilmişdir. Bostançılıq yabanı bitkilərin hazır məhsullar kimi toplanmasından mədəni taxılların sistemli və intensiv becərilməsinə keçid forması sayılır. Kiçik bostanlar zaman keçdikcə öz yerini geniş tarlalara, ibtidai ağac toxalar taxta xışlara sonra da dəmir kotanlara vermişdir.

Tədqiqatçılar sivilizasiyanın zəruri əlamətlərinin (dövlətin, şəhərlərin, siniflərin, yazının) yaranmasını əkinçiliklə bağlayırlar. Bu əlamətlərin yaranması köçərilikdən oturaq həyat tərzinə keçilməsilə mümkün olmuşdur. Əkinçiliyi yaxud kənd təsərrüfatı cəmiyyətini 300 il öncə maşın sənayesi cəmiyyəti əvəz etmişdir.

Amerika futuroloqu O.Markley bəşər sivilizasiyasının inkişafında dörd mərhələnin – köçərilik, əkinçilik, sənaye, informasiya – olduğunu göstərir. Bu mərhələlərdən hər biri texnika və texnologiyanın daha yüksək səviyyəsi, daha mürəkkəb ictimai quruluşdur.



O.Markley əmək alətlərinin tərəqqisini cəmiyyət tarixinin hərəkətverici qüvvəsi sayır. Texnikanın və texnologiyanın dəyişilməsi köçərilik erasından əkinçiliyə keçilməsilə əlamətdar olmuşdur. Maşın sənayesinin inkişafı əkinçilikdən sənaye erasına keçilməsini göstərir. Kompüter texnologiyasının inkişafı Yer kürəsinin müxtəlif guşələrilə əlaqə yaratmağa imkan verməklə bəşər sivilizasiyasının informasiya mərhələsini müəyyən edir.

Görünür ki, mürəkkəb sosial nizamın bərqərar olması üçün daha çox zaman tələb olunur. Amma insanlarda bu qanunauyğunluq pozulur: hər sonrakı pilləyə irəliləyiş az zaman içində baş verir, tarixi proses sürətlənir XXI əsrdə zirvəyə yaxınlaşır. Belə ki, köçərilikdən əkinçiliyə keçid üçün min illər lazım gəlmişdirsə, əkinçilikdən sənaye mərhələsinə keçid bir neçə yüz ildə baş vermişdir, sənaye epoxasından informasiya epoxasına keçid on illərdə gerçəkləşmişdir. Müasir Azərbaycan cəmiyyəti də informasiya epoxasına doğru hərəkətdədir.

Tanınmış Amerika antropoloqu və sosioloqu Q.Lenski bəşəriyyətin sosiomədəni təkamülünün əsasını texnoloji meyarda görür. O, 400 cəmiyyət tipini müqayisə edib beş parametr ayırmış və onlara əsasən, müqayisə etdiyi cəmiyyətlərin oxşarlığını aşkar etmişdir. Onun ayırdığı parametrlər bunlardır: *əhali, mədəniyyət, istehsal və yaşayış vasitələri, sosial quruluş, sosial təsisatlar.*

Bu parametrlər üzrə cəmiyyət tipləri arasında oxşarlığın aşkar edilməsinin obyektiv əsası vardır. Hələ Ş.Furye göstərirdi ki, hər bir cəmiyyətdə ali və ibtidai cəmiyyətlərdən az və ya çox dərəcədə mənimsənilmiş əlamətlər vardır. Məsələn, fransızlar industrial və inzibati münasibətlərin vəhdətini başqalarından mənimsəmişlər. Özlərinin dinə dözümsüzlüklərilə XII əsri xatırladan ingilislər, bu baxımdan bizdən daha sivildirlər. Almanlar da qanunlarının nizamsızlığı, adətləri və kommersiya münasibətləri baxımından bizdən sivildirlər.

Q.Lenski ovçular və yığıcılar cəmiyyətini ən ibtidai texnologiya tipi sayır. On min il öncə planetin bütün əhalisi ovçulardan və yığıcılardan ibarət idi. İndi onlardan çox az bir hissə qalır. Belə tip cəmiyyət üçün kaman, nizə, gəzərti həyat, azsaylı qruplar xarakterik idi. Burada təbəqələşmə – stratifikasiya yox idi, hakimiyyət başçıdan yaxud şamandan ibarət idi, bərabərləşdirici bölgü var idi, bütün sosial

münasibətlər qohumluq sistemi ətrafında cəmləşmişdi.

Təxminən 10-12 min il öncə ibtidai bostançılıq sonra da maldarlıq (çobançılıq) yaranmışdı. Onlarla birlikdə torpağın şumlanmasının ən sadə texnologiyası və sürü meydana gəldi. Yaxın Şərq yeni mədəniyyətin ocağı oldu. Bəzi xalqlar, məsələn, yanomamolar köhnə ilə yenini yəni ovçuluğu və yığıcılığı bostançılıqla birləşdirdilər. Çobançılıq zamanında izafi məhsul və sosial bərabərsizlik yarandı. Neolit inqilabı 8-10 min il öncə başlasa da ilk əkinçilik cəmiyyəti 5 min il öncə formalaşmışdır. Texnologiyada keyfiyyətcə sıçrayış da o zaman baş verdi: arabanın ixtirası, suvarma qurğuları, yazı sivilizasiyanın başlanğıcını qoydu (görünür bu anlamda S.Kramer tarixin şumerdən başlandığını yazır). Onu əvəz edən sənaye cəmiyyəti insanın yardımçısı kimi maşınların ixtirasına zəmin yaratdı, qoşqu heyvanları ilə yanaşı, buxar və elektriklə işləyən nəqliyyat vasitələri yarandı. Ev əməyi fabrik əməyinə çevrildi. Nəhayət, tullantısız texnologiyada, biliklərə və informatikaya əsaslanan postindustrial cəmiyyət bəşəriyyəti altun əsrə qaytardı. İnsanlar az işləyib çox qazanmağa, çox yaşayıb az xəstələnməyə nail oldular. İnsanların mədəni həyatında rəngarənglik yarandı.

*Cəmiyyətin formasiya meyarı üzrə tipologiyası.* Cəmiyyətin formasiya meyarına əsaslanan tipologiyasını XIX yüzilin ortalarında K.Marks təklif etmişdir. Dünyada geniş yayılmış bu tipologiyanın əsasında iki kriteri – *istehsal üsulu və mülkiyyət forması* – durur. Onların ikisi birlikdə ictimai-iqtisadi formasiyanı əmələ gətirir. Cəmiyyətin bu tipi məhsuldar qüvvələrin, istehsal münasibətlərinin və onunla müəyyən olunan üstqurum formalarının durumu ilə xarakterizə olunur. Marksa görə, "maddi yaşamın istehsal üsulu sosial, siyasi və mənəvi həyat proseslərini şərtləndirir" (111, 7). İctimai-iqtisadi formasiya tarixi inkişafın müəyyən pilləsində olan cəmiyyət tipidir. Bu tip cəmiyyətin özülündə bazis və üstqurum durur. Onun bazisini iqtisadiyyat, üstqurumunu ailə, təhsil, ideologiya, siyasət, mədəniyyət, incəsənət və din təşkil edir. Bəşəriyyətin tarixi (formasiya nəzəriyyəsinə görə) bir-birinin ardınca gələn beş formasiyadan: *ibtidai-icma; quldarlıq, feodalizm, kapitalizm* və *kommunizm* formasiyalarından ibarətdir. Kommunizm formasiyasının birinci pilləsi sosializm adlanır.

Formasiyanın marksist tərifində onun aşağıdakı struktur və



dinamik ünsürləri qeyd olunur:

1. Ayrıca götürülən heç bir ölkə, mədəniyyət yaxud cəmiyyət ictimai formasiya təşkil edə bilməz, yalnız bir neçə ölkə birlikdə formasiya yarada bilər;
2. Formasiyanın tipi dinlə, incəsənətlə, ideologiya, hətta siyasi rejimlə deyil, onun özülü – iqtisadiyyatı ilə müəyyən olunur;
3. İqtisadiyyatın özündə onun yaxud da qonşu ölkənin hansı formasiya tipinə məxsus olduğunu görməyə imkan verən mərkəzi elementi ayırmaq lazımdır.
4. Belə element istehsal münasibətləri, bunda isə mülkiyyət münasibətləridir;
5. Üstqurum hər zaman ikinci, bazis birincidir, odur ki, siyasət hər vaxt yalnız ölkənin iqtisadi maraqlarının, ölkə içində isə hakim sinfin maraqlarının davamıdır;
6. Ardıcıl silsilə təşkil edən bütün ictimai formasiyalar bəşəriyyətin inkişafının aşağı pilləsindən yuxarı – ali pilləsinə proqressiv yüksəlişini ifadə edir;
7. Əgər ölkənin həyatına yad amillər qarışmırsa, onda ölkə yaxud onun təmsil etdiyi cəmiyyət öz inkişafında sıçrayış etmədən bütün formasiyalardan keçməlidir.

Dili, mədəniyyəti, ənənələri, siyasi quruluşları, insanların həyat tərzi və səviyyəsilə fərqlənən, ancaq bazislə xarakterizə edilən iki əlaməti ilə birləşən cəmiyyətlər bir ictimai-iqtisadi formasiya təşkil edirlər.

Marks bəşər cəmiyyətinin tarixi inkişafında beş formasiya ayırır, amma onların hamısı bəşəriyyətin taleyi üçün eyni dərəcədə əhəmiyyətli deyil. Onlardan üçü – quldarlıq, feodalizm və kapitalizm xüsusi mülkiyyətə əsaslanır və antoqonist xarakter daşıyır. Bu üç formasiyadan heç biri bəşəriyyətin gələcəyinin humanist modeli kimi çıxış edə bilməz. Birinci formasiya (ibtidai – icma) kollektiv mülkiyyətə və qeyri-antoqonizmə əsaslansa da humanist model ola bilməz. Kommunizm adlanan beşinci formasiya gələcəkdə olacaq. Orada kollektiv mülkiyyət, sosial münasibətlərdə bərabərlik və ədalət hökmran olacaq. Marksa görə, xüsusi mülkiyyətə əsaslanan üç formasiya bəşəriyyətin tarixi yox, tarixəqədərki mərhələləridir: "...Burjua ictimai formasiyası ilə bəşər cəmiyyətinin tarixəqədərki mərhələsi başa çatır" (111, 8).

Tarix, Marksa görə, insanların birgə çalışdığı, xüsusi mülkiyyətin, bərabərsizliyin və sosial siniflərin olmadığı ibtidai-icma formasiyasından başlanır. Ondan sonra quldarlıq ictimai formasiyası gəlir. Cəmiyyətin yaxud istehsal üsulunun bu tipi ibtidai icmaların xarabalıqları üzərində, izafi məhsulun, haqqı ödənilməyən özgə əməyinin mənimsənildiyi, xüsusi mülkiyyətin, dövlətin və siniflərin yaranması ilə meydana gəlmişdir. Qullar və quldarlar bu formasiyanın əsas sinifləri olmuşdur. Qullar davamlı müharibələrdə əldə olunur və quldarların əbədi mülkiyyətinə verilirdi. Qullar quldarların danışan alətləri idi.

Quldarlığı feodalizm formasiyası əvəz etmişdir. Bu tip cəmiyyət təhkimçilik hüququna əsaslanırdı. Feodalizm V yüzilin sonunda quldarlıq quruluşu dağıldıqdan sonra, bir sıra ölkələrdə (məsələn, şərqi slavyanlarda) isə ibtidai-icma istehsal üsulu dağıldıqdan sonra yaranmışdır. Onun başlıca əlamətləri: 1) natural təsərrüfatın üstünlüyü; 2) iri torpaq sahibkarlığı və kiçik kəndli təsərrüfatının birləşməsi; 3) kəndlinin feodaldan şəxsi asılılığı, kəndlilərin izafi əməyə qeyri-iqtisadi yolla məcbur edilməsi; 4) texnikanın aşağı səviyyəsi; 5) monarxın yaxud feodalın siyasi hakimiyyətindən ibarətdir.

Feodalizm kəndlisi quldarlıq quluna nisbətən azaddır. Kəndli istehsal üsulunun sonrakı-kapitalizm tipində yaxud formasiyasında mülkiyyətçi və başlıca fiqur olacaq.

Kapitalist formasiyası xammal əldə edilməsi və hasil edilməsi sənaye istehsal üsuluna əsaslanır. Feodalim özünün iqtisadi uğurlarını ciddi sarsıtmışdı, önəmli bir hissəsi yoxsul proletarlara çevrilmiş kənd əhalisi mülkiyyətsiz və statussuz insanlar idi. Onlar fabriklərin və zavodların tikildiyi şəhərlərə axışırdılar. Daha uzaqgörən mülkədarlar və bacarıqlı tacirlər duyurdular ki, hüquqca azad davamlı olaraq əmək haqqı alan fəhlə daha məhsuldar amildir. Fəhlələr sahibkarla yuridik qanunlarla uzlaşan müəyyən normalarla istismarı məhdudlaşdıran anlaşma (müqavilə) bağlayır. Müəssisənin sahibi pulu sandığa yığıb dövriyyəyə buraxır. Onun buradan aldığı məbləğin miqdarı bazardakı durumla, idarəçilik bacarığı və əməyin təşkilinin səmərəliliyilə müəyyən olunur.

Marksın tarix fəlsəfəsində tarix insanları ibtidai bərabərliyə ancaq daha yüksək maddi əsasda – qaytaran kommunizm formasiyası



ilə bitir. Kommunizm öz inkişafında sosializm (birinci) və bilavasitə kommunizm (yüksək) mərhələlərindən keçir. Marksa görə, kommunizm sinifsiz, məhsuldar qüvvələrin, şüurun və mədəniyyətin yüksək inkişaf etdiyi, əməyin həyati tələbata çevrildiyi və "Hər kəsdən bacarığına, hər kəsə tələbatına görə" prinsipinin işlədiyi, dövlətin özünüidarəyə çevrildiyi cəmiyyətdir.

Marks ictimai-iqtisadi formasiyalara xalqların tarixi təkamül prosesində irəlilədiyi pilləkanın ardıcıl pillələri kimi baxırdı. Bəzi iri, ilk öncə çoxmillətli ölkələr daxilən bircinsli olmayıb özünə təhrif olunmuş halda olsa da öncəki formasiyanı təkrar edən lokal qurumları daxil edir. Ondan başqa, yer kürəsində müasirləşmiş halda feodal, quldarlıq və hətta ibtidai-icma münasibətlərinin saxlandığı vilayətlər var. Öncül Amerika və geri qalmış Banqladeş, əgər kapitalist istehsal tipinə əsaslanırlarsa, onda onlar formasiyaca qonşudurlar.

Tarixi yolun hər bir "ötüşündə" "aparıcı" formasiya yaransa da, bu bütün xalqların o formasiyanı keçməli olduğunu göstərmir. Bütün tarix boyu bir mərhələni keçmədən başqa bir mərhələyə sıçrayış normal hadisə sayılır. Bunu Qərb, Şərq, Şimal və Cənub ölkələri tarixlərinin müqayisəsi təsdiq edir. Bu anlamda deyilir ki, bəşəriyyət bir bütöv kimi öz inkişafında heç bir formasiya keçməmişdir. Xalqlar yaxud ölkələr tarixdə fərqli yollarla irəliləmişlər.

Bəllidir ki, formasiya nəzəriyyəsinin əsasında tarixin xətti inkişafına dair təsəvvür durur. Bu təsəvvürdə tarix sadədən mürəkkəbə doğru vahid proqressiv inkişaf prosesi kimi izah edilir. Öz zamanında formasiya nəzəriyyəsi irəliyə doğru önəmli addım sayılırdı, çünki o ilk dəfə olaraq ümumdünya tarix prosesinin materialist anlayışına əsaslanan dəqiq universal sxemini vermişdi. Lakin bu gün formasiya nəzəriyyəsinin qüsurları da bəllidir. Tarixçilərin əksəriyyəti özəlliklə də Şərqdə beş ictimai-iqtisadi formasiyanın mövcudluğu və ardıcıllığı haqqında müddəanı qəbul etmirlər. "Formasiya" məfhumunu həm də dünya sivilizasiyasına aid olan daha geniş kateqoriya ilə əvəz etməklə genişləndirməyə can atırlar.

### 1.4. Tarixin sosial həmrəylik və industrial səviyyə meyarları üzrə dövrləşdirilməsi

*Tarixin ictimai əmək bölgüsünə görə dövrləşdirilməsi.* Fransız filosofu və antropoloqu E.Dürkheym özünün "İctimai əmək bölgüsü

haqqında" əsərində insan cəmiyyətinin inkişafını iki fazaya ayırır: 1) mexaniki həmrəylik (sənayeyəqədərki cəmiyyət); 2) üzvi həmrəylik (sənayeyəqədərki fazanın bir hissəsi və bütünlüklə industrial cəmiyyət) faza. Birinci faza üçün səciyyəvi əlamətlər bunlardır: mexaniki həmrəylik, sərt reqlamentçilik, şəxsiyyətin kollektivin tələblərinə tabe olması, əmək bölgüsünün minimum səviyyədə olması, ixtisaslaşmanın olmaması, hisslərin və inancların müxtəlifliyi, adətlərin formal hüquq üzərində hökmranlığı, despot idarəçiliyi, şəxsiyyətin inkişaf etməməsi, kollektiv mülkiyyətin üstünlüyü.

Üzvi həmrəylik mərhələsində kollektiv şüurun tiranlığı ixtisar olunur və ayrıca şəxsin suverenliyi artır, şəxsi həyat anlayışı yaranır. Klanı öncə ailə, sonra da əmək təşkilatı əvəz edir. Onun indiki forması sənaye kompaniyasıdır. Bu fazada fərdlər artıq qohumluq əlamətinə görə deyil, ictimai əmək fəaliyyətinin məzmununa görə qruplaşırlar. Onların ünsiyyət çevrəsini nəsil yox, peşə təşkil edir. İnsanın yeri və statusu eyni qan üzrə deyil, gerçəkləşdirdiyi funksiya üzrə müəyyən edilir. Klanları əvəz edən siniflər peşə təşkilinin özündən öncəki ailə formaları ilə qarışması nəticəsində formalaşır.

Bəşər cəmiyyətinin təkamülünü öyrənərkən, E.Dürkheym kollektiv şüur adlandırdığı fenomenlə qarşılaşmışdı. Dürkheimə görə, kollektiv şüur "eyni bir cəmiyyətin orta hesabla bütün üzvləri üçün ümumi və öz həyatı olan inancların və hisslərin məcmusudur". Əgər hər bir ideal və ənənə üçün əziz olan ümumi inanclar təhlükəyə məruz qalarsa, o zaman hamı birlikdə onları müdafiə edir. Ümumi inancların təhqir olunmasına görə cəza daha sərt olur.

Sosial münasibətlər kollektiv şüur, başqa sözlə, ümumi maraqlar və əqidə, inanclar və can atımlar sayəsində sıxlaşıb möhkəmlənir. Hansısa konkret ictimai funksiyanın gerçəkləşməsi üzrə əmək bölgüsü və ixtisaslaşma cəmiyyətə rəngarənglik gətirir. Amma cəmiyyətdə müxtəliflik artdıqca insanlarda vəhdətə və fəaliyyət mübadiləsinə canatım da güclənir. Mübadilə qarşılıqlı öhdəliyin götürülməsini tələb edir. Buradan da əməkdaşlıq və kooperasiya irəli gəlir.

Kooperasiya formasının inkişafı müqavilə ilə ifadə olunur. Alıcı və satıcı, sahibkarla fəhlə, etibar edən, inandıran və i.a arasında müqavilələr qarşılıqlı təsirin və kooperasiyanın bəlli formalarıdır. Onların münasibətləri cəmiyyətin sosial təsisatlarının özülündə duran hüquq yaxud qanunla reqlamentləşdirilir. Cəmiyyətin içində təşkil



olunan kiçik hissələr də bütövlükdə cəmiyyət kimi bütövlüyə və həmrəyliyə can atırlar. Onlarda da kollektivçilik, daha dəqiq deyilərsə, qrup şüuru inkişaf edir.

Sosial həmrəylik cəmiyyəti birləşdirən və möhkəmləndirən, ictimai bütövlüyü yaradan başlıca qüvvədir. Sosial həmrəylik ictimai əmək bölgüsünün, yəni insanların ixtisaslaşmasının və peşə üzrə bölgüsünün məntiqi nəticəsi kimi yaranmışdır. Əmək funksiyaları üzrə vahid ictimai münasibətlər sisteminə bağlanmış fərdlər, artıq sadəcə peşə rollarının daşıyıcısı olmayıb yetkin sosial şəxsiyyətlər olur. Həmrəylik *kollektiv şüura* yəni bir qrupun yaxud cəmiyyətin üzvlərinin ortaq olduğu ümumi inancların və hisslərin məcmusuna əsaslanır. Kollektiv şüur xalqın xarakterini, onun ideallarını və ənənələrini əks etdirir.

Mexaniki həmrəyliyə əsaslanan ibtidai cəmiyyətlərdə fərdi şüur kollektiv şüurdan doğur və ona tabe olur. Burada şəxsiyyət özünəməxsus olmayıb kollektiv tərəfindən udulur. Üzvi həmrəyliyə əsaslanan yetkin cəmiyyətlərdə isə əksinə, kollektiv və şəxsiyyət bir-birini tamamlayır. Yetkin cəmiyyətlərdə şəxsiyyətin zəmanəti sadəcə sözdə insan hüquq və azadlıqlarının etiraf edilməsi, şüurun avtonomluğu deyil, ilk öncə fərdə müstəqil hərəkət sferasının tanınmasıdır. İnsan azadlığı fəaliyyətdə təzahür edir. Ancaq şəxsiyyətin kollektivdən azadlıq dərəcəsini ölçmək olmaz, azadlıq şərtidir. Hətta özümüzün peşə məşğuliyyətimizdə bu və ya digər təşkilatın üzvü kimi çıxış edərək korporasiya üçün ümumi olan adət və ənənələrlə hesablaşırıq, amma bu halda bizi sınağa çəkən əsarət bizi bütün cəmiyyətin sıxmasından ağır deyil.

Cəmiyyət primitiv olduqca onun fərdləri bir-birinə daha çox oxşayır, əmək bölgüsü primitiv, cəmiyyətin kollektiv xarakteri daha qabarıq olur. Belə cəmiyyətdə hüququn repressiv (cəzalandırma) funksiyası başqa funksiyalardan üstündür. Mexaniki həmrəylik məcburetmə və zorakılıqla gözə çarpır. Müxtəliflik isə dözümlülüyü və demokratiyanı nəzərdə tutur.

Əmək bölgüsünün sonrakı gedişində peşələr arasındakı sərhəd silinir, fərqləri gözə az çarpır. Amma peşədaxili müxtəliflik güclənir. Peşələrin sayı çoxalır. Deməli, fərdlərin ixtisaslaşması, onların gerçəkləşdirdiyi funksiyalar müxtəlifləşir. Odur ki, oxşarlığa deyil, funksiyaların müxtəlifliyinə əsaslanan əmək təşkilatları daha da

mürəkkəbləşir və şaxələnir.

Dürkheym əmin idi ki, oxşarlığa söykənən həmrəylik müxtəlifliyə söykənən həmrəylikdən zəifdir. Əgər kollektiv fərdin hansısa bir sosial tələbatını (məsələn, təhlükəsizliyini) ödəyirsə, onda fərd kollektivlə yalnız bir nöqtədə birləşmiş olur. Bu cür birtərəfli bağlantı hər zaman çoxsahəli bağlantıdan zəif olur və onu qırmaq asan olur. Bax bu səbəbdən də ibtidai cəmiyyətdə müəyyən bir qrupun üzvləri qrupa asanlıqla daxil olub, asanlıqla ondan çıxırdılar. Dürheimin istinad etdiyi kalmıklar və monqollar çox sıxışdırıldıqda mülkədarı asanlıqla tərk edir, Rusiyanın və Sibirin cənub-qərb hissəsinin boş torpaqlarına gedirdilər (XVIII əsrin ortalarına qədər). Don kazakları icması bu cür formalaşmış və Sibirin müstəmləkə olması başlanmışdır.

Əmək bölgüsünün önəmsiz səviyyədə olduğu ibtidai cəmiyyətlərdə despotik idarəçilik üstün olsa da həmrəylik zəif idi. Hər kəs öz ailəsilə birlikdə cəmiyyətdən ayrılmaqda azad idi. Sosial bağlantılar əmək bölgüsü inkişaf etmiş müasir cəmiyyətdəki kimi güclü deyildi. Romalılar istila edilmiş qəbilələrə asanlıqla vətəndaşlıq hüququ vermişdilər. İndiki cəmiyyətlərdə vətəndaş assimilyasiyası, məsələn ABŞ-da, çox mürəkkəb və uzun zaman tələb edir.

Dürkheymə görə kollektiv şüur adi, adət və inanclar sadə olduqca şəxsiyyət inkişaf etmiş olmalıdır. Davranış normaları mürəkkəb və qeyri-müəyyən olduqca isə əksinə, ümumi normaların xüsusi hallara tətbiq edilməsi üçün fərdi refleksiya daha çox tələb olunur. Dürkheim hesab edir ki, cəmiyyətin tərəqqisilə kollektiv şüurun intensivlik və müəyyənlik dərəcəsi azalır. Əgər öncə kollektiv şüur sosial həyatın bütün sahələrini tənzimləyirdisə, sonradan kollektiv həyatın az sahələrini tənzim etməyə başlamışdır. Əgər ilk mərhələdə ailə başçısını saymaq ictimai borc sayılırdısa, artıq Qədim Romada ataya sayğı hər kəsin şəxsi işi oldu. Artıq cəmiyyəti bu məsələ maraqlandırmırdı.

Ancaq ailə həyatı kollektiv nəzarətdən çıxaraq evdən evə dəyişilirdi; ailə hissi eynicürlüyünü və müəyyənliyini itirirdi. Kollektiv həyatdan tədricən yeni sfera-şəxsi həyat ayrılmışdır. İnkişaf etmiş çağdaş cəmiyyət tipində şəxsi həyatın toxunulmazlığı cəmiyyətin bütün təsisatları tərəfindən qorunur. Az inkişaf etmiş,



özəlliklə totalitar cəmiyyətlərdə fərdlərin şəxsi həyatları kollektiv zorakılıqdan qorunmur.

Sadə cəmiyyətlərdə iqtisadi və sosial həyat bütünlüklə reqlamentləşdirilir. Bu müddəanı əsaslandırmaq üçün Dürkheim Fyustel de Kulanjın öncə dövlət bütün xırdalıqlar üzərində öz tiranlığını saxlayır fikrini örnək olaraq gətirir. Yazır ki, "Geyim adətən, hər bir icmanın qanunları ilə təsdiq olunurdu: Sparta qanunvericiliyi qadınların saçdüzümünü tənzimləyirdi, Afina qanunvericiliyi isə onlara üç dondan artıq cehiz verilməsini yasaqlayırdı. Rodosda qanun saqqalı qırxmağı qadağan etmişdi... Spartada isə, əksinə, qanun bığları qırxmağı tələb edirdi" ($74_a$, 127).

Bununla yanaşı, məişət xırdalıqlarını ifrat reqlamentləşdirərkən arxaik qanunvericilik daha önəmli məsələləri həll edə bilmirdi. Məsələn, az-az hallarda davranış və cinayət birmənalı fərqləndirilirdi. Bu insanların hamısı hakimlərin və hökmdarların şəxsi rəyinə bağlı idi. Misal üçün, Afinada dini mərasimlərin azca pozulması hərəkət deyil, ölümlə cəzalandırılmalı cinayət sayılırdı.

Dürkheim qeyd edir ki, kollektiv şüurun yetərincə primitiv olduğu yerlərdə onun diktə etdiyi davranış normaları əmək bölgüsünün tərəqqisinə az təkan verir. Slavyanlarda icma yaxud zadruqa (patriarxal ailə icması) "çox vaxt kiçik ölçüdə böyüyür, orada yoxsulluq böyükdür; lakin ailə ruhu çox güclü olduğundan dənizçi, tacirlik kimi yad bir işlə məşğul olmaq üçün birgə yaşamağa davam edirlər".

Ümumi kollektivçiliyin ilkin özəyi ordadır (qədim köçəri monqolların dövlət birliyinin bir forması). Belə sosial təşkilin mükəmməl nümunəsini Şimali Amerika hüdudlarında tapmaq olar. İrokez qəbiləsinin hər iki cinsdən olan bütün yaşlı insanları bərabərdirlər. Hətta burada qan qohumluğu bağları belə təşkil olunmamışdır, "çünki kütlənin nəsillər üzrə bölünməsinə yol vermək olmaz". Burada "təşkil" sözünü o, insanların qan qohumluğu bağlarının olması, onların arasında sosial funksiyaların bölgüsü və möhkəmləndirilməsi anlamında işlətmişdir.

Geniş təbii kollektiv-orda-xüsusi hissələrə ayrılır. Bu ibtidai ailə yəni eyni qanlı qohumların birliyidir. Sosial tamın bu cür hissəsini (seqmentini) Dürkheim klan adlandırır. İnsanları belə özəkdə birləşdirən sosial hisslərə kollektiv qisas, kollektiv cavabdehlik və

mülkiyyətin qarşılıqlı varəsəliyi aiddir. Əslində ibtidai klan çağdaş klandan və ailədən fərqlənir, çünki bir neçə min nəfərə qədər insanı birləşdirir.

Klanın daxili quruluşu (Dürkheim bunu formal siyasi quruluş adlandırır) hələ çox zəifdir. Hər bir yaşlı üzv, burada başçıya münasibətdə tamam sərbəstdir, hər kəsin şəxsi xidmətlərinə əsaslanırdı, şəxslərarası münasibətlər sosial asılılığa və bərabərsizliyə deyil, qarşılıqlı inam və dözümsüzlüyə əsaslanırdı. Hər bir klan (bəzən bu bütöv bir əhalidən ibarət olurdu) burada öz qaynağını bir əcdaddan alırdı. Heç kəs özünü müstəqil şəxsiyyət kimi başqalarından ayırmırdı, yalnız bir kollektiv şəxsiyyət və ümumi mülkiyyət var idi. Fərdin qrup tərəfindən udulduğu inkişaf etməmiş şəxslərarası və mülkiyyət münasibətlərini, Dürkheim kommunizm adlandırır. Lakin haradaki "fərdlər kollektiv tipə sadəcə məxsus idilər, onlar təbii olaraq onun (kollektivin-A.T.) təcəssümü olan mərkəzi hakimiyyətə məxsus olurlar" ($74_a$, 143). Burada idarəedici hakimiyyət bütünlüklə ictimai həyatın demiurqu kimi kollektiv şüurun bəsit məhsuludur. Bəsitlik isə hər zaman mücərrəddir, odur ki, bu bəsitliyin çarcısı kimi çıxış edən konkret orqan yaxud fərd lazımdır. İbtidai klanda ali orqan yaxud başçı kollektivi heç də hakimiyyətdən məhrum etmir, çünki başçı kollektiv iradənin təbii ifadəçisidir. Güclü kollektiv şüur mütləq güclü şəxsiyyət tələb edir. Cəmiyyətin şeylər üzərində bölünməz mülkiyyət hüququ ali orqana yaxud başçıya keçir və onda cəmlənir.

Belə mexaniki həmrəylikdən (ibtidai mərhələdən) fərqli olaraq üzvi həmrəylik mərhələsində fərdlər öz mənşələri üzrə deyil, özlərinin sosial fəaliyyətlərinin konkret mahiyyətinə görə qruplaşırlar. Onların həyatının ilk mühiti tayfa yaxud qəbiləsi deyil, peşəsidir. Fərdin ictimai pramidada yerini gerçək yaxud saxta eyniqanlılıq deyil, onun yerinə yetirdiyi funksiya müəyyən edir. Hələ yenicə yaranmış siniflər və tarix səhnəsindən getmiş silklər (kastalar) indi "peşə təşkilinin ailə təşkili ilə" qarışması sayəsində formalaşır.

İstehsal və sosial həyatda peşə başlanğıcının güclənməsi əhalinin strukturunda ərazi bölgüsünün güclənməsinə uyğundur. Klanların, tayfa və qəbilələrin yerinə ərazi dairələri (icma, kənd, qraflıq, əyalət, departament və i.a.) yaranır. Birgə yaşam prinsipi birgə (eyni) mənşə əlamətinin yerini doldurur. Əhalinin qruplaşmasının, kollektiv yaşamın təşkilinin yeni formaları yaranır. Bir tərəfdən şəhər və kənd, digər tərəfdən peşə ittifaqları, istehsal yaxud əmək təşkilatları kollektiv təşkilin yeni formalarına heterogen və açıqdırlar. Oturaq və bağlılıq əlaməti yox olmuş, onun yerini iqtisadi və sosial mobillik – əmtəələrin qarışması və işçi qüvvəsinin hərəkəti tutmuşdur.

Cəmiyyətin tərəqqisi ayrıca insan taleyində varəsəlik payının ixtisarına və fərdi uğurun payının artmasına uyğun baş verir. Varəsəlik və fərdin irsən aldığı əmək növünə bağlanması peşə tipinə və sosial durumlarına, həyat tərzinə, geyiminə və davranışına görə insanların bir-birindən fərqlənməsinə gətirib çıxarır. İbtidai cəmiyyətdə müxtəlif ictimai funksiyaların daşıyıcıları həm də anatomik yöndən fərqlənirlər: Fici adasında başçı hündür boylu, əzələlidir, "aşağı təbəqənin adamları" isə çox işləyib az yemək nəticəsində arıq, cansızdırlar. Çağdaş cəmiyyətdə isə bu fərqlər önəmli dərəcədə itmişdir.

İnsanlar arasında əlaqələr, o cümlədən peşə əlaqələri geniş, əhalinin sayı çox olduqca insanlar arasında sosial bağlantılar sıxlaşır, qarşılıqlı təsirlər intensivləşir, "ancaq bu intensivləşmə də sivilizasiyanı təşkil edir". Dürkheim elmi dövriyyəyə daxil etdiyi "sosial cazibə qanunu" anlayışı vasitəsilə sosial kütlənin dinamikasını, əhali sıxlığının artmasını bunların isə əmək bölgüsü və sivilizasiyanın sayəsində baş verdiyini ifadə edir. Xalqları bölən sosial qatlar və peşə arakəsmələri getdikcə yox olur və əhalinin sıxlığına və əmək bölgüsünün inkişaf səviyyəsinə uyğun olaraq güclü cəzb olunurlar. Sivilizasiya kollektiv şüurun tiranlığının ixtisar olunması və fərdi suverenliyin artması yönündə inkişaf edir.

*Tarixin industrial səviyyə meyarı üzrə dövrləşdirilməsi.* Bu meyar üzrə tarixin dövrləşdirilməsinin müəllifi Amerika filosofu D.Bell sayılır. Onun tarix konsepsiyasında ümumdünya tarixi *sənayeyəqədərki, industrial, postindustrial* mərhələlərə ayrılır. Bir mərhələ başqasını əvəz etdikdə texnologiya, istehsal üsulu, mülkiyyət forması, sosial təsisatlar, siyasi rejim, mədəniyyət, həyat tərzi, əhalinin sayı, cəmiyyətin sosial strukturu dəyişilir.

Postindustrial cəmiyyət ideyasını XX əsrin başlanğıcında A.Penti irəli sürmüş İkinci Dünya müharibəsindən sonra isə D.Rismen elmi dövriyyəyə daxil etmişdir. XX əsrin ortalarında A.Toffler və D.Bell "postindustrial cəmiyyət" anlayışını formula edib

elmi dövriyyəyə daxil etmişlər. Ancaq bu anlayış R.Aronun və D.Bellin tədqiqatları sayəsində 70-ci illərin əvvəllərində geniş yayılmışdır.

*Sənayeyəqədərki cəmiyyətdə* (ənənəvi də adlanır) inkişafın müəyyənedici amili kilsə və ordu kimi başlıca təsisatlarla birlikdə kənd təsərrüfatı olmuşdur. *İndustrial* cəmiyyətdə başda firmalar olmaqla korporativ sənaye aparıcı amil olmuşdur.

Sənayeyəqədərki cəmiyyət həm də *ənənəvi* sayılır ona görə ki, burada biliklərin, bir dəfə ciddi müəyyən edilmiş adət-ənənələrin qocalardan gənclərə verilməsi sosial tərəqqinin hərəkətverici qüvvəsi sayılır. Elm ictimai istehsala qarışmırdı. Bütün ictimai olayları arxaik (magiya və b.) yaxud müasir dinlər (xristianlıq, islam, buddizm və s.) idarə edir.

"Ənənəvi" sözü hələ sənayenin yəni maşın istehsalının olmadığı bütün cəmiyyəti bildirir. Bu cəmiyyəti kapitalizməqədərki cəmiyyət də adlandırırlar. Çağdaş anlamda sənayenin 200-250 il öncə yarandığı, ilkin mərhələsinin isə 300 il öncə başlandığı qeyd edilir.

Tarixin bütün öncəki dövrünü kapitalizməqədərki yaxud ənənəvi cəmiyyət əhatə etmişdir. Bu dövrə bütün yazıyaqədərki (sadə) cəmiyyətlər aid edilir. K.Marksın təsnifatına görə, yazılı (mürəkkəb) cəmiyyətlərin önəmli hissəsi quldarlıq və feodalizm epoxalarında mövcud olmuşdur. Əgər bəşər cəmiyyətinin 35-40 min il öncə başlandığından çıxış etsək, onda bütün bu zaman kəsiyini ənənəvi cəmiyyət dövrü adlandırmaq olar. Sonuncu min ilin 300 ilini sənaye cəmiyyətinə, 30 ilini isə postindustrial cəmiyyətə ayırırlar.

Ancaq postindustrial cəmiyyət də Yer kürəsindəki bütün ölkələri deyil, yalnız ən öncül cəmiyyətləri əhatə edir. Belə ölkələr sırasına ABŞ, Almaniya, Yaponiya, Fransa, Kanada, Koreya, İngiltərə daxil edilir.

İqtisadi baxımdan *industrial* o cəmiyyətə deyilir ki, əhalinin dörddə üç hissəsi sənayedə çalışmış olsun. Postindustrial cəmiyyətdə əhalinin əksəriyyəti sənayedə deyil, xidmət və informasiya sahəsində çalışır. Sənayeyəqədərki cəmiyyətdə iş qabiliyyətli insanların çoxu aqrar, yəni ailə təsərrüfatında çalışır. Belə məşğulluq orta əsrlər Avropası üçün səciyyəvi olmuşdur.

İndustrial cəmiyyətdən postindustrial cəmiyyətə keçid əmtəə istehsalı iqtisadiyyatın xidmət sferasına (xidmətin istehsal sferasından



üstün olduğu sferaya) keçilməsilə müşayiət olunur. Cəmiyyətin sosial strukturu dəyişilir: sinfi bölgünü peşə bölgüsü əvəz edir. Bu proses industrial cəmiyyətdən postindustrial cəmiyyətə keçidin başa çatdığı ABŞ və Yaponiyada müşahidə olunur.

Hazırda ənənəvi cəmiyyət tipi Afrikada, Latın Amerikasında, Cənubi Asiyada qüvvədədir. Belə cəmiyyət tipində əkinçilik, balıqçılıq, dağmədən və ağac emalı sənayesi üstünlük təşkil edir. Əhalinin əməkqabiliyyətli üçdə ikisi bu sahələrdə çalışır. Belə cəmiyyətlərdə həyat fəaliyyətinin əsas müəyyənedici başlanğıcı insanın təbiətlə yarışından ibarətdir.

İndustrial cəmiyyət tipi dövləti əhatə edir. Belə cəmiyyət tipi Quzey Amerikada, Avropada, keçmiş rus-sovet imperiyası ərazisində yayılmışdır. Bu cəmiyyətlərdə cürbəcür texnikadan geniş istifadə etməklə kütləvi tələbat malları istehsalının inkişafı başlıca yer tutur. Belə istehsalda başlıca olan insanın dəyişdirilmiş təbiətlə yarışıdır.

Postindustrial cəmiyyət üçün elmin və texnikanın uğurlarından bütün sahələrdə istifadə olunması ilə yanaşı texnikanın özünün fundamental elmlərin inkişafı əsasında tərəqqisi səciyyəvidir. D.Bell hesab edir ki, müvafiq biliklər olmadan toxucu dəzgahı, parla işləyən mühərrik və telefon ixtira edən bacarıqlı insanların zamanı arxada qaldı. İndi get-gedə texniki yeniliklərin qaynağını fundamental elmi uğurlar təşkil edir. Bu uğurlar olmadan nə avtomobil, nə nüvə reaktoru, nə lazer, nə də kompüter yaratmaq mümkün olmazdı.

XX yüzilin 60-cı illərində Amerika iqtisadçısı Q.Kan adambaşına düşən gəliri cəmiyyətlərin təsnifatı meyarı kimi götürərək dünya ölkələrini beş qrupa ayırmışdır:

1) adambaşına düşən gəlirin 50-200 dollar olduğu sənayeyəqədərki cəmiyyətlər;

2) qismən industrial cəmiyyətlər (adambaşına düşən gəlirin 200-600 dollar olduğu cəmiyyətlər);

3) adambaşına düşən gəlirin 600-1500 dollar olduğu cəmiyyətlər;

4) kütləvi istehlak yaxud adambaşına düşən gəlirin 1500-4000 dollar olduğu cəmiyyətlər;

5) adambaşına düşən gəlirin 4000 dollardan yuxarı olduğu cəmiyyətlər.

70-ci illərin əvvəlində Amerika sosioloqları Q.Kan və D.Bell

tərəfindən cəmiyyətin daha bir tipologiyası təklif edilmişdir. Onlar "postiqtisadi cəmiyyət" anlayışını irəli sürmüş, bunun vasitəsilə cəmiyyətin müasir sivilizasiyanı əvəz edən və "industrial cəmiyyət" terminini ifadə etdiyindən daha miqyaslı sosial hadisəni təsvir etməyə çalışmışlar. Rus alimi V.L.İnozemçev onların konsepsiyasını nəzəri-metodoloji yöndən əsaslandıraraq inkişaf etdirmişdir. Onun fikrincə, belə cəmiyyətin yaranmasını onun mövcud strukturunun dəyişilməsi kimi deyil, iqtisadi quruluşu əvəz edən yeni cəmiyyətin yaranması kimi dəyərləndirmək lazımdır.

Postiqtisadi cəmiyyətin yaranması iqtisadi quruluşun pozulması deməkdir. Belə cəmiyyətdə əvvəllər olduğu kimi, iqtisadi münasibətlər digər təsərrüfat və siyasi münasibətləri aradan qaldıraraq öz hökmranlığının sahəsini genişləndirdiyi kimi, indi yeni cəmiyyət də öncəki sosial quruluşun ünsürlərini inkar edərək özünə yol açır. Tətbiqi fəallıq kimi əməyin aradan qaldırılması və onun maddi amillərlə motivləşdirilməyən yaradıcı fəaliyyətlə əvəz edilməsi bu prosesin ən önəmli əlaməti sayılır.

Çağdaş tədqiqatçılar cəmiyyətin başqa tipologiyalarını da irəli sürürlər: S.Kruk və S.Leş modernizmöncəsi modern və postmoderni, A.Toffler sivilizasiyanın "birinci", "ikinci" və "üçüncü" dalğalarını, 1960-cı illərin başlanğıcında isə F.Maxlup və T.Umesao "informasiya cəmiyyəti" anlayışlarını. Bu sonuncu anlayışda cəmiyyətin tərəqqisinə biliklərin sərhədsiz genişlənməsi müstəvisindən baxılır. Texnotron (yun.teche) cəmiyyət konsepsiyasını işləyib hazırlayan, həmçinin müasir cəmiyyətdə elmin başlıca rol oynadığını qeyd edən Z.Bjezinski onun sələfi sayılır.

### 1.5. Cəmiyyət tarixinə sivilizasiya müstəvisindən yanaşma

Cəmiyyət tarixinə kulturoloji yanaşma Qərbi Avropada və ABŞ-da artıq yarım əsrdən çoxdur ki, inkişaf etməkdədir. Keçmiş sovet məkanında fəaliyyət göstərən alimlər iqtisadiyyatın və maddi istehsalın cəmiyyət tarixində rolunu şişirdən, ancaq mədəniyyətin və mənəvi başlanğıcın rolunu kiçildən marksist təlimdən çıxış edərək tarixi prosesə sivilizasiya mövqeyindən yanaşmaya diqqət yetirməmişlər. İndi MDB məkanı alimləri, ilk öncə marksizm ideoloji senzurasından azad olmuş Rusiya filosofları cəmiyyət tarixinə Qərb elmi ədəbiyyatında çoxdan formalaşmış kulturoloji yanaşma metodologiyasına üstün yer verməyə başlamışlar.

Cəmiyyət tarixinə sivilizasiya mövqeyindən yanaşan araşdırmaçılar diqqəti ictimai istehsalın təhlilinə yönəltməklə yanaşı üstqurum olaylarının, mədəniyyətin fəal rolunu da gözdən keçirirlər. Bu zaman şəxsiyyətin dəyərlər yönümünə, ayrı-ayrı xalqların və millətlərin tarixi inkişafı gedişində yaranan davranış stereotiplərinə diqqət yetirilir.

Bir çox müəlliflər sivilizasiyanı barbarlığı əvəz etmiş və ona əks olan elmi istehsal üsulunun və ictimai həyatın humanist formasının təcəssümü olan cəmiyyətin sinonimi kimi şərh edirlər. Bundan başqa, "sivilizasiya" anlayışından bu və ya başqa ölkənin, ölkələr qrupunun, xalqların inkişafının müəyyən mərhələsinin keyfiyyətcə özünəməx-susluğunu göstərmək üçün istifadə olunur. Formasiyadan fərqli olaraq sivilizasiya mədəni özünəməxsusluğu olan konkret, canlı sosial orqanizmdir.

Sivilizasiya milli çərçivə ilə məhdudlaşa bilər. Belə siviliza-siyaya çin, hind, şumer-türk, rus və b. sivilizasiyalar aid edilir. Milli sivilizasiyalardan başqa bölgə sivilizasiyaları (Qərbi Avropa, ərəb və s.) da vardır. Tarixi təkamülün hansısa mərhələsində yaranaraq, milli və bölgə (region) sivilizasiyaları tarixi pillələr üzrə hərəkət edərək dağılana qədər davam edir. Bir sivilizasiya uzun müddət davam edir ikincisindən keçərək üçüncüsünə sıçrayış edir. Güclü sivilizasiyalar bir neçə yüz yaxud min illər ərzində yaranır. Onlar bir çox nəsillərin təcrübəsini özünə hopturur.

Çağdaş dünyamız sivilizasiyalar müxtəlifliyi ilə səciyyə-lənir. Bu gün onlarla sivilizasiyalar – Şimali Amerika, Qərbi Avropa, türk, çin, hind, Latın Amerikası, ərəb, rus və b. – mövcuddur. Dünya sivilizasiyalarının sayca artması nəticəsində Marksın formasiya nəzəriyyəsində təsvir etdiyi formasiyaların sayı da artır.

Sivilizasiyalı (kulturoloji) yanaşma çərçivəsində hazırda bir sıra müstəqil konsepsiyalar, nəzəri ənənələr və paradiqmalar formalaşmışdır. Onlardan bəziləri diqqəti sivilizasiyaların dinami-kası və dəyişilməsi üzərində cəmləyir. Sivilizasiyaya həsr edilmiş nəzəriyyələrin böyük bir qrupu hər bir sivilizasiyanın inkişafındakı pillələrin təkrar olunması ideyasına əsaslanan tsikl nəzəriyyələridir. Bu nəzəriyyələrdə tarixi inkişaf hər biri ayrıca bir insanın uşaqlıq,

gənclik, yetkinlik və qocalıq yaş mərhələlərinə bənzər eyni pillələri keçən mədəniyyətlər yaxud sivilizasiyalar halında təsvir olunur. Filosofların N.Y.Danilevskinin, P.Sarokinin, O.Şpenqlerin və b. təklif etdikləri sivilizasiya – mədəni paradiqmada bəşər tarixi özünəməxsus və nisbi qapalı sivilizasiyaların (onların sayının 5-dən 21-ə qədər olduğu göstərilir) məcmusu kimi düşünülür. Bu müəlliflərə görə, belə sivilizasiyaların hər biri yaranma, böyümə, tənəzzül və dağılma mərhələlərindən keçir, təbii katastroflar, hərbi məğlubiyyətlər yaxud daxili münaqişələr üzündən məhv olurlar. Bütün təkrarolunmazlığı ilə mənəvi mədəniyyət, insanların maddi dəyərlərin mütləqləşdirilməsindən imtina etməsi və insanla təbiət arasında harmoniyanın dirçəldilməsi ilə müşayiət olunan tərəqqi hər bir sivilizasiyanın özəyi (nüvəsi) kimi çıxış edir.

Cəmiyyətin mədəni-tarixi tipi kimi sivilizasiya ideyasını alman filosofu O.Şpenqler və rus alimi N.Y.Danilevski inkişaf etdirmişlər. O.Şpenqler mədəniyyətlərin qarşılıqlı təsiri ilə bağlı "tarixi psevdomorfizm" anlayışını irəli sürmüşdür. O yazır: "Köhnə yad mədəniyyətin bir ölkə üzərinə hökmranlıqla can atması bu ölkə üçün gənc və doğma mədəniyyəti azad nəfəs almaqdan məhrum edir və nəinki özünüifadənin saf formasını yarada bilmir, hətta özü özünü anlaya bilmir. Əzəli ruhiliyin dərinliklərindən çıxan hər şey yad həyatın boş formasına axır; gənc hisslər köhnə əsərlərdə donur. özünün yaradıcı güclərini inkişaf etdirmək yerinə yalnız yad zorakılığa nifrət yüksək həddə çatır. Mən bu halı tarixi psevdomorfizm adlandırıram" (121, 315).

N.Y.Danilevskinin sivilizasiya paradiqmasında mədəni-tarixi tip üçün başlıca meyar dil yaxınlığıdır, mədəni-tarixi tiplər isə burada psixi, antropoloji, ərazi və başqa əlamətlərin birliyi kimi başa düşülür. Onun təsnifatında misir, çin, assuriya-vavilion-finikiya, xaldey, hind. İran, yunan, Roma, ərəb, Peru, german-roman yaxud Avropa sivilizasiyaları ayrılır.

O.Şpenqlerə görə, hər bir sivilizasiyanın ömrü sərt ritmə – doğuluş, uşaqlıq, gənclik, yetkinlik, qocalıq, qürub mərhələlərinə ayrılır. Birinci üç mərhələ yüksələn qocalıq və qürub isə enən mərhələlərdir. Yüksələn mərhələni ictimai fəaliyyətin siyasi, iqtisadi. elmi, dini, bədii sahələrində üzvi təkamül tipi səciyyələndirir. Şpenqlerdə cəmiyyətin və mədəniyyətin tarixi ibtidai epoxanın



barbarlığından başlanır, sonra da siyasi quruluş, incəsənət, elm və s. inkişaf edir. Mədəniyyətin klassik dövründə onların çiçəklənməsi başlanır, hər şey ticarət predmeti edildikdə, vulqarlaşdırıldıqda mədəniyyət yeni barbarlığa keçir. Mədəniyyətin qürubu yaxud sonu onun sivilizasiya fazasına keçdiyini göstərir.

Üç nəslin lokal sivilizasiyalarının dövranı, onların tsikilli hərəkəti haqqında daha tam təlimi tanınmış ingilis tarixçisi A.Toynbi özünün 12 cildlik "Tarixin tədqiqi" adlı əsərində şərh etmişdir. Tsiklik nəzəriyyənin inkişafında fransız tarixçilik məktəbinin nümayəndələri M.Blokun, L.Fevrin və F.Brodelin də önəmli rolu olmuşdur. Bu nəzəriyyənin inkişafına M.Blok özünün "Tarixin apologiyası yaxud tarixçinin sənəti" (rusca nəşri 1986-cı il), L.Fevr "Tarix uğrunda savaşlar " (rusca nəşri 1991-ci il), F.Brodel "Maddi sivilizasiya iqtisadiyyat və XV-XVIII əsrlərdə kapitalizm" (rus.nəş.1992-ci il) əsərlərində önəmli yer vermişlər.

Bəşər tarixində üç dalğa – aqrar, industrial və postindustrial – dalğa ideyasını Amerika futuroloqu A.Toffler əsaslandırmışdır. Tarixi tsikllərə dair rus tədqiqatçılarından L.N.Qumilyevin və İ.M.Dyakonovanın tədqiqatları xüsusilə qeyd edilir.

Amerika sosioloqu F.Fukyama bu problemi "tarixin sonu" kimi müəyyən edir. Onun görüşünə görə, liberal iqtisadi və siyasi demokratiya və əhalinin istehlakçı mədəniyyəti inkişaf etmiş kapitalist ("altun milyard") ölkələrində tarixi sona çatdırır. Tarix, yalnız hələ "altun milyard" həyat səviyyəsinə çatmamış ölkələrdə davam edir. Tsiklli sivilizasiyadan fərqli olaraq, burada yüksələn inkişaf – inkişaf etmiş kapitalist ölkələrinin həyat standartları əsasında dünya sivilizasiyasının bərqərar olması ideyası təsdiq olunur.

Digər bir fərqli baxış sivilizasiyaların toqquşması nəzəriyyəsində irəli sürülür. Amerika politoloqu S.Handikton bu nəzəriyyənin parlaq nümayəndəsi sayılır. Qlobal durumu təhlil edərkən o, vurğunu yalnız dövlətlərin olduqca dəyişkən siyasi yönümləri üzərinə deyil, sivilizasiya kimi anlaşılan davamlı və sabit təhsil üzərinə qoyur. O, münaqişələrin səbəbini dövlətlərin dəyişkən siyasətində deyil, onların təmsil etdiyi sivilizasiyaların fərqində görür. S.Hantikton 1996-cı ildə nəşr etdirdiyi "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" əsərində özünün başlıca tezisini irəli sürür. Bu tezisə görə, əgər XX yüzil ideologiyaların toqquşması əsri

olmuşdursa, XXI əsr sivilizasiyaların toqquşması əsri olacaq. Handikton çağdaş sivilizasiyaları altı yerə – indiust, islam, yapon, pravoslav, Çin və Qərb – ayırır və bunlara Afrika və Latın Amerikası sivilizasiyalarını da əlavə edir.

S.Hantikton təsdiq edir ki, XXI yüzilin siyasi simasını keçmişdə qalacaq siyasi ideologiyalar və siyasi rejimlər, hətta millilik deyil, dini inanc müəyyən edəcəkdir. Gələcəkdə dövlətlər deyil, sivilizasiyalar qarşılaşacaqdır. Üçüncü dünya savaşı (əgər başlanarsa), sivilizasiyalararası savaş olmalıdır, çünki dünya münaqişələri sivilizasiyalar arasında parçalanma xətti üzrə baş verəcəkdir.

Onun fikrincə, Qərb sivilizasiyası üçün xüsusi təhlükə islam dünyasından gəlir. Çünki islam aləmi demoqrafik partlayış mərhələsindədir, burada mədəni dirçəliş baş verir və ölkəni öz ətrafında birləşdirən mərkəzi dövlət – lider yoxdur. Qərb üçün ikinci təhlükə Asiyadan, özəlliklə Çindəndir. Əgər islam təhlükəsi milyonlarla fəal müsəlman gənclərinin idarəolunmaz enerjisidirsə, Asiya təhlükəsi iqtisadiyyatın qalxınmasına kömək edən nizam və qayda-qanunun hökmranlığından irəli gəlir. İqtisadiyyatda uğurlar dünyanın taleyinə təsir etmək canatımını möhkəmləndirir. Hantikton bu düşüncədən çıxış edərək Qərb ölkələrini birləşməyə, NATO-nun çərçivəsini genişləndirməyə çağırır. O Rusiyaya Çin və müsəlman sivilizasiyalarına qarşı dura bilmək üçün Qərbin potensial müttəfiqi kimi baxır. Düşünür ki, islam və Çin sivilizasiyaları ilə sərhəd olan Rusiyanın pravoslav aləmində hegemonluğunun genişləndirilməsi Qərb üçün məqsədəuyğundur.

F.Brodel və İ.Vallerstayn 1970-ci illərdə dünya sistem təhlil məktəbini yaratdılar. Bu məktəbin məqsədi tarixə formasiya və sivilizasiya mövqelərindən yanaşmaları birləşdirməkdir.

Beləliklə, bu bölümdə deyilənləri belə yekunlaşdırmaq olar: cəmiyyətin tarixi inkişafı üç başılca tipə-sənayeyəqədərki, industrial, postindustrial – uyğun gələn üç ardıcıl mərhələdən keçir.

İbtidai mərhələdən sənayeyəqədərki, yaxud ənənəvi cəmiyyətə keçid neolit inqilabı, ondan industrial mərhələyə keçid isə sənaye inqilabı adlanır.



# II Fəsil
# İlk insanlar, yaxud ovçular və yığıcılar cəmiyyəti

## 2.1. Bəşəriyyətin sübh çağı

Bəşəriyyətin yaranmasının başlanğıcı yaxud ilk günləri haqqında elmi məlumat çox azdır. Antropologiyada hətta inkişaf etmiş formada nə zaman və harada ortaya çıxdığına dair bilgi yoxdur. Antropoloqlar bu fikirdədir ki, təsərrüfat fəaliyyətinin ilk tarixi üsulu kimi ovçuluğun və yığıcılığın təkmilləşdirilməsi bir milyon ilə başa gəlmişdir. Bu təsərrüfat üsulu özünün sosial funksiyasını dəyişərək indiyədək qalmaqdadır.

Əgər bəşəriyyətin yaranmasının başlanğıcı ilk insanaqədərki insanlardan hesablanarsa, özünün uzun və çətin tarixinin 99%-ində bəşəriyyət ovçuluq və yığıcılıqla məşğul olmuşdur. Alt paleolit dövründə insan yalnız yığıcılıq, ovçuluq və balıq ovu üçün alətlər hazırlayırdı. Onların həyatı təbiətdən asılı idi və iqlimin isti, qidanın bol olduğu ərazilərə yayıla bilirdilər. Kiçik qruplar şəklində olan ailələr qida axtarmaq məqsədilə heyvanların iqlim dəyişkənliyilə bağlı miqrasiyasının ardınca yerlərini dəyişirdilər. Bu yöndən heyvanlardan az fərqlənirdilər. Özəlliklə qeyd etmək lazımdır ki, insanlar ovçuluqdan və yığıcılıqdan on min illər asılı olmuş, indi də əsasən asılıdırlar. Hazırda ovçu və yığıcı icmalar Afrikada, Asiyada və Latın Amerikasında yaşayırlar.

Amma bu insanların sübh çağı, ilk günləri barəsində çox az şey bəllidir. Onların haqqında günümüzə qədər azsaylı əmək alətlərindən, tonqal izlərindən, heyvan və insan skeletlərindən başqa heç bir yazılı sənəd, abidə qalmamışdır. O zamandan indiyədək qalmış ibtidai cəmiyyətlər son iki yüz il ərzində sivilizasiyanın təsirinə məruz qalmış və az-çox dəyişilmişlər.

Bununla belə, antropoloqlar və arxeoloqlar insan varlığının ən uzun dövrünün ümumi mənzərəsini yaratmaq üçün elmi ekspedisiyalar təşkil edir, qazıntılar aparır və daim axtarışlar edirlər. Bu axtarışlar sayəsində minlərlə adda elmi işlər, əsərlər, nəzəriyyələr yaradılmışdır.

Yer kürəsində təxminən 1, 6 mln. il öncə, pleytogen dövrünün başlandığı zaman soyuq iqlim daha da güclənmişdi. Bu dövrü böyük buzlaşma dövrü adlandırırlar. O zamandan indiyədək isti və soyuq

temperatur bir-birini əvəz edir. Şimali Avropa və Amerika uzun müddət qalın buzlaqlarla örtülü olmuş, yalnız 15 min il öncə buzlaqlar çəkilməyə başlamışdı. O zaman dünya okeanının səviyyəsi 300 fut (91 metr) olmuşdur. Soyuq hava Afrikaya da keçmişdi, Saxara isə qumlarla deyil, meşələrlə örtülmüşdü. Son 800 min ildə 9 buzlaşma dövrü qeydə alınmışdır. Ən iri buzlaşmanın 75 min il öncə olduğu bildirilir. Bu dövrdə Amerikada hələ insan məskunlaşmamışdı. Avropaya isə Şimali Afrikadan neandertallar köç etmişdilər. 40 min ildən sonra soyuqlar güclənmiş və 18 min il öncəyə qədər davam etmişdir. 15 min il öncə isə iqlim yaxşılaşmağa başlamış və m.ö. VI minillikdə indiki səviyyəyə çatmışdır.

Şimali Avropada təxminən 12-17 min il öncə buz örtüklərinin əriməsilə Avropada buzlaşma dövrü başa çatmışdır. Buzlaqların çəkilməsilə çöl və tundra bitki örtüyü şimala doğru hərəkət edən maralların və digər otyeyən heyvanların otlaqlarına çevrilmişdi. Heyvanların arxasınca insanlar da şimala köç etməyə başlamışdılar. İri ov quşlarının uçub getməsi Qərbi Avropanın sakinlərini başqa qidalarla qidalanmağa məcbur etmişdir. İri quşlardan istifadə edilməsinə əsaslanan təsərrüfatın 5 min il ərzində (buzlağın çəkildiyi zamanda) dəyişilməsi daha çevik uyğunlaşma növlərinin inkişafına səbəb olmuşdur. Buzlağın əriməsilə dünya okeanının səviyyəsi yüksəlmiş, kiçik su hövzələri yaranmışdır. Bu zonada sular dərin, soyuq və qaranlıq olduğundan orada dəniz orqanizmləri az idi (190).

Belə şəraitdə Cənub-qərbi Avropanın sakinləri ətraf mühitə necə uyğunlaşmışlar? Dənizlərin səviyyəsinin qalxması müxtəlif balıqların kəskin çoxalmasına şərait yaratmışdı. Bundan başqa, çayların okeana müntəzəm axını qızılbalığın Avropa çayları üzrə kürütökmə yerinə qalxmasına imkan verirdi. Sahilboyunca yuva quran quş sürüləri qış dövründə Avropa üzrə miqrasiya edirdilər. Hətta Avropanın sahildən uzaq bölgələrinin insanları yeni əlverişli şəraitdən, quşların miqrasiyasından, Cənub-qərbi Fransada çayları dolduran balıqların yazda kürü tökməsindən istifadə edə bilirdi.

Bəşəriyyətin müntəzəm təsərrüfat fəaliyyəti növü kimi yığıcılığa keçməsini K.Kottak və başqa antropoloqlar qlobal istiləşmə ilə bağlayırlar. İri heyvan populyasiyalarının azalması yığıcıları yeni qida ehtiyatları axtarmağa məcbur edirdi. Bu cəhətdən insanlar diqqəti mamont kimi yavaş çoxalan nəhəng heyvanlardan



kiçik heyvanlar (balıqlar, molyuskalar, dovşanlar) üzərinə yönəltdilər. Çünki bu heyvanlar tez-tez çoxalır və bala verirdilər. Bunu, məsələn, D.Labell və onun həmkarlarının Əlcəzairin şərqindəki Kef Lourda intensiv yığıcılıq üsuluna dair tədqiqatları təsdiq edir. Onlar Kef Lourda və onun ətrafında 7-10 min il öncəyə aid Kapsi mədəniyyətinin daşıyıcıları olan qədim insan məskənləri aşkar etmişlər. Kapsilər mezolit epoxası insanları sayılır. Kapsilər torpaqda yaşayan ilbizlərdən güclü asılı olduqlarından Kef Lour məskənlərində saysız-hesabsız ilbiz çanaqları aşkar edilmişdir. Kapsilər həmçinin bir çox bitki növləri, sidir qozu, palıd qozası və s. ilə də qidalanırdılar. Yığıcılardan geniş istifadə olunduğunu başqa bir dəlil Tokionun yaxınlığında (Yaponiya) aşkar edilən Nittano qədim insan məskəni də sübut edir. Comon mədəniyyətinin daşıyıcıları sayılan Nittano insanlarının 5-6 min il öncəyə aid 30 min məskəni vardır. Comonlar maral, donuz, ayı və antilop ovlayırmışlar.

Sayı bir neçə on min olan ilk insanlar fəsillərin və iqlimin dəyişməsindən asılı olaraq bütün planet miqyasında hərəkət edərək qida axtarırdılar. Od əldə etmək texnikasının ilk mənimsənilməsi (200 min il öncə) sayəsində planetin əhalisinin 500 minə yaxınlaşdığı bildirilir. Təxminən eramızdan 40 min il öncə Amerika və Avstraliya da daxil bütün qitələrdə düşüncəli insan yarım növü (Homo sapiens sapiens) məskunlaşmışdı.

Eramızdan 40-35 min il öncə planetin əhalisinin sayı beş milyona çatmışdı. Buna qida ehtiyatlarının çoxalmasına təsir edən iqlim dəyişkənlikləri, yeni ov alətləri, ərzaq ehtiyatının saxlanması üsullarının kəşfi (yəni texniki tərəqqi) səbəb olmuşdur.

Antropoloqlar müəyyən etmişlər ki, planet əhalisinin sayı 1 mln. çatmadığı 100-200 min il öncə (ibtidai cəmiyyətin ilkin mərhələsində) kiçik insan qrupları bir-birindən uzaq məsafədə yaşamışlar. Hər qrup qan qohumluğu ilə bir-birinə bağlı olan və gəzərti yaşam tərzi sürən 20-60 nəfərdən ibarət kiçik birlikdən ibarət olmuşdur. Onların daimi yerləri yox idi və müvəqqəti düşərgələrdə məskən salırdılar.

Belə insanların sosial yaşamı, bütünlüklə bu düşərgələrdə keçirdi: burada yeyirdilər, yatırdılar, əmək alətləri, yemək hazırlayırdılar, burada uşaq doğulur və tərbiyə edilir, cavanlara ov təcrübəsi haqqında məlumat verilirdi. Belə sığınacaqları lazım gəldikdə başqa

yerə köçürmək asan idi. Mağara və yeraltı sığınacaqlardan da istifadə olunurdu. Belə yerlərdə ayılar və canavarlar da yaşadığı üçün təhlükəli idi. Qrup qidadan asılı olaraq ildə 4-5 dəfə məskənlərini dəyişirdi. Köç etdikdə əmlaklarını özlərilə apara bilirdilər. Köçkün həyatı onlara əmlaklarını artırmağa imkan vermirdi. Odur ki, ovçular və yığıcılar qruplarında hələ sosial diferensiasiya və bərabərsizlik yox idi.

Gəzərti yaxud avara həyat tərzi 5-6 ildən bir uşaq doğulmasına imkan verirdi. Əkinçiliklə, oturaq maldarlıqla məşğul olan insan birliklərində doğuşla bağlı məhdudluq aradan qalxmışdı. Belə ki, oturaq yaşam tərzi keçirən cəmiyyətdə demoqrafik qabiliyyət gəzərti qruplara nisbətən 5-6 dəfə çox idi.

Ovçuluq-yığıcılıq və balıqçılıq təsərrüfatı təbiətdən asılı idi, insanların yayıldığı coğrafi məkan isə iqlimi isti və qidası bol zonalar idi. Yığıcılıq daha etibarlı və asan əldə olunan qida mənbəi idi. Ovçuluq isə əksinə, daha mürəkkəb və riskli fəaliyyət idi, cəsur ovçuların çoxu vəhşi heyvanlarla qeyri-bərabər mübarizədə məhv olurdular. Maralların, donuzların ayıların, eləcə də dərində yaşayan balıqların ovlanması yalnız icmanın kollektiv səyi, ovçuların və balıqçıların birgə əməyi sayəsində mümkün idi, yığıcılığı qadınlar və uşaqlar da bacarırdılar.

İlk insanlar tədricən nə gəldi ovlama prinsipindən heyvanları bir istiqamətdə hərəkət etməyə vadar edib, sonra da pusquya salmaq prinsipinə keçirdilər. Belə mütəşəkkillik əmək bölgüsü və ixtisaslaşma tələb edirdi.

Ov zamanı ovçulardan birinin ovu qorxutması, digərinin ovu qovması, başqa birinin ova pusqu qurması və s. müstəqil əməliyyatlar sayılırdı. Beləliklə, kollektiv əmək sayəsində ilk insanlar – ovçular, yığıcılar lazımi nəticə əldə edə bilirdilər. Ümumi məqsəd onları birləşdirirdi.

Yığıcılıq təsərrüfatının etibarlılığı ondan ibarət idi ki, qida ehtiyatlarının çox müxtəlifliyi onlardan biri azaldıqda onu başqa bir bioresursla əvəz etməyə imkan verirdi. Bu mənada ilk insanlar çağdaş insanlara nisbətən daha çox vitaminli qidalar qəbul edirdilər. Odur ki, yığıcılıq hər zaman qida əldə edilməsinin başqa üsullarını tamamlamışdır. Hazırda insanlar 500-ə qədər bitki və heyvan növlərindən qida məqsədilə istifadə edirlər.



Ovçuluq-yığıcılıqdan fərqli olaraq əkinçilik və maldarlıq təsərrüfatında əsasən əhliləşdirilmiş heyvanlardan və mədəniləşdirilmiş bitkilərdən istifadə edilirdi. Mənimsənilmiş belə təsərrüfat fəaliyyəti təbiətlə qarşılıqlı təsirin bir üsuluna əsaslandığı üçün iqtisadi yöndən onu əvəz edən istehsal üsuluna nisbətən az səmərəli idi. Bundan başqa, yığıcılığın inkişaf həddi, bir tərəfdən təbii şəraitlə və bu fəaliyyət növünün ekstensiv xarakteri ilə, digər tərəfdən, bəşəriyyətin inkişaf sürətilə, planet əhalisinin artımı ilə məhdudlaşdırılırdı.

Ovçuların-yığıcıların bəzi qrupları əkinçilər və maldarlarla yanaşı yaşadıqlarından onların təsərrüfatçılıq səriştəsilə yaxşı tanış idilər. Ancaq bu ovçuluqdan maldarlığa, yığıcılıqdan əkinçiliyə keçilməsilə nəticələnməmişdi.

Ovçuların və yığıcıların maddi mədəniyyəti minimum səviyyədə idi, qiymətli əşyalar, predmetlər üzərində isə hələ mülkiyyət münasibəti yox idi. Onlar məkanı tez dəyişməyə əngəl olurdu. Saxlanması və daşınması üçün əsas alətlər ağacdan, dəyənəkdən, kamandan və oxdan, balıqçılıq avadanlığından, tələdən və oddan ibarət idi.

Belə cəmiyyətdə mürəkkəb sosial mexanizmlərə ehtiyac yox idi, çünki cəmiyyətin özü hər biri 30-dan 100-ə qədər insandan ibarət qohum ailələrdən təşkil olunmuş qruplardan yaranmışdı. Ovçular-yığıcılar cəmiyyətində hakimiyyət və ona məxsus strukturlar, ordu yox idi, sosial münaqişələr isə minimum səviyyədə idi.

Ovçuluq, yığıcılıq və balıqçılıq təsərrüfatı insanların sabit varlığını əkinçiliyin ilkin formalarından daha çox təmin edirdi. Bunu XX əsrin səyahətçiləri E.Eyer və C.Qrey hələ sivilizasiyadan xəbərsiz olan Avstraliya aborigenlərinin həyatını müşahidə etməklə təsdiq edirlər. Son onilliklərdə aparılan müqayisəli, statistik və s. tədqiqatlar da bu fikri təsdiq edir. Aborigenlərin həyatının müşahidəsi göstərmişdir ki, ovçular və yığıcılar cəmiyyəti üçün aclıqdan ölmə istisnadır. Ənənəvi qida yüksək kalorilidir və tərkibində orqanizmə lazım olan bütün maddələr vardır. Bundan əlavə, belə iqtisadiyyat həm bütün zəruri ehtiyacların təmin olunması, həm də az zəhmətlə əldə olunması baxımından səmərəlidir. Hesablanmışdır ki, ovçuların-yığıcıların "iş günü" 3-5 saatdır, uşaqlar isə bu fəaliyyətdə iştirak etmirlər. Sonra, əkinçilər təbiətin şıltaqlığına daha çox məruz qalırlar,

ovçuluq və yığıcılıqla müqayisədə əkinçilik daha çətindir – torpağa daim qulluq etmək lazımdır. Əkinçilərin tərkibində insanlar sayca çoxdur, çobançılar qrupunda isə 25-50 nəfər olur və infeksiyalara tutulurlar.

Amerika antropoloqu R.Linin Kalaxari ovçuları və yığıcıları haqqında topladığı məlumatlar göstərmişdir ki, onların qida rasionu adi amerikalının qida rasionu qədərdir (günlük kalori 1, 965 Kkal və 60 qram zülal). Onlar həftədə orta hesabla 2-3 gün işləməklə istehsallarını bir qədər artıra bilərlər. Ancaq onlar bunu etmirlər, çünki buna ehtiyacları yoxdur.

Gəzərti həyat tərzini köçəri həyatla qarışdırmaq olmaz (gəzərti həyatın müasir qaraçılara və qədim maldarlara məxsus olduğu bildirilir). Bəşəriyyət özünün bütün tarixini gəzərti, bir yerdə qərar tutmaz tərzdə və kiçik qruplarla yaşayaraq öz varlığını yığıcılıqla saxlaya bilmişdir. Yetkin yığıcılıq mərhələsində yeni nəsil tərbiyəsində kişilər və qadınlar ortaq idilər, topladıqları məhsulu bərabər bölür, qan qohumluğu və kəbin bağları ilə birləşir, kollektiv qərar qəbul edirdilər (bu əlamətin heyvanlarda olmadığı bildirilir).

Beləliklə, başlanğıcda ilk insan cəmiyyəti ovçular və yığıcılar cəmiyyətindən ibarət olmuşdur. Əmək bölgüsünün ilk formalarının təxminən 500 min il öncə yarandığı ehtimal edilir. O mərhələdə cavan kişilər həyati risk edərək ovçuluqla məşğul olurdular, qadınlar isə yığıcılığa davam edirdilər. Uşaqlar doğularkən və əmizdirilərkən qadınlar ümumi sığınacaqdan ayrı yerdə saxlanılırdı.

İbtidai insan heyvanların adlarını, sezon marşrutlarını, ətin hasil edilməsi qaydalarını, heyvan dərisindən paltar hazırlamağı. mürəkkəb əmək alətləri hazırlamaq texnikasını yaxşı bilməli idilər.

Alimlər ucsuz-bucaqsız planetin müxtəlif bölgələrində gəzərti ovçular və yığıcıların ibtidai qəbilələrini aşkar etmişlər. Bu bəşəriyyətin həyatının ən uzun dövrü sayılır: insan cinsinin 2-3 mln. illik təkamülünün 99, 9%-ni bu ibtidai, həm də ekoloji yöndən təmiz təsərrüfat təşkil edir.

Yığıcılıq və ovçuluq bəşər sivilizasiyasının inkişafının uzun tarixi mərhələsi sayılan ən qədim mədəniyyətdir. Gəzərti qəbilələrin həyatı daim aclıq, düşmən tərəfindən öldürülmək, uşaqölümü təhdidinə məruz qalırdı. Bioloji varlıq kimi insan aramsız olaraq qidanın azalmasından irəli gələn halla qarşılaşırdı. İnsan bu problemi davranış proqramını dəyişdirməklə həll etmişdir. Bu hadisə mədəni təkamüldə əsl çevriliş sayılır. Taxıl becərməyə qədərki dövrdə uğur qazanmaq şansı olduqca qeyri-müəyyən idi.



Əksər statistik məlumatlarda yığıcıların və ovçuların ümumi sayının 5-6 mln. olduğu göstərilir. İbtidai təsərrüfat üsulunda hətta bu say da çox olmuşdur və onun sayəsində təbiətə antropogen yük olduqca çoxalmışdı. Yeyənlərin sayı ilə qidanın miqdarı arasında balanslaşdırılmamış nisbət kəskin sosial problemə çevrilmişdi. Bu da ərzaq böhranı doğurmuşdu. Antropoloqların rəyinə görə, böhran 10 min il öncə, Yer kürəsi yığıcılarla və ovçularla dolduğu zaman baş vermişdi. Bundan artıq sayda insan üçün məkan qalmamışdı. Populyasiya sıxlığının təbiətə təsirini azaltmaq daha yüksək istehsal üsuluna – əkinçiliyə keçməklə mümkün idi.

Bir sıra alimlər ovçuluq və yığıcılıq mərhələsini sıfır yaxud inkişafın durğunluq dövrü, əkinçiliyi (aqrar mədəniyyəti) isə aralıq dövrü adlandırır və onun 10 min il davam etdiyini göstərirlər. Bu dövrdə inkişaf sürəti aşağı olmuşdur. Əkinçilik cəmiyyətini əvəz edən sənaye cəmiyyəti (onu elmi-texniki mədəniyyət də adlandırırlar) ən qısa, lakin inkişaf səviyyəsinə görə ən intensiv mərhələ sayılır. aqrar mədəniyyət maddi istehsalın əsasında əkinçiliyin və maldarlığın durduğu epoxanı əhatə edir. Kənd təsərrüfatı eradan öncə təxminən 8 min il ərzində yaradılmışdır, intensiv sənaye istehsalı isə 1750-ci ildən sonra başlanmışdır. Hazırda yığıcılıq tamamən başqa anlamda işlədilir. Bir sözlə, yığıcılıq tarixi təsərrüfat tipi kimi yox, asudə fəaliyyət növü kimi ifadə edilir. Antropoloq M.Raç göstərir ki, bu fəaliyyət növü ilə yalnız pullarını marka, rəsmlər, kitablar və s. toplamağa xərcləyən varlı adamlar məşğul olurlar.

## 2.2. İnsanın təbiətə təsiri

Tarixin dərinliklərindən başlayan cəmiyyət və təbiət münasibəti birmənalı olmamışdır. Bu münasibət təbiətlə yalnız, harmonik əlaqənin yaranması ilə deyil, ona dağıdıcı təsirlə də müşayiət olunmuşdur. Başqa sözlə, insanın təbiətə təsiri (antropogen təsirlər) müsbət ya da mənfi xarakterli ola bilər.

İnsanın təbiətə dağıdıcı təsiri elmdə *antropogen yük* adlanır, bərpaolunmaz pozğunluq isə təbiətin *ekoloji deformasiyası* sayılır. Təbiətdə baş verənlərə insan fəaliyyəti dolayısı yolla da səbəb ola

bilər, yaxud ondan asılı olmayan səbəblərdən (məsələn, zəlzələdən, vulkanlardan) törənə bilər. Amma hansı səbəbdən baş verməsindən asılı olmayaraq ekoloji deformasiyalar insanların davranışına və həyat fəaliyyətinə çox güclü təsir etdiyindən *antropogen amillər* sayılmalıdır. Təbiətə insanla bağlı hər bir təsirə, səbəbə, şərtə antropogen amil kimi baxılır.

Tarixəqədərki insanların təbiətə ciddi təsir etdiyi nəzərə alınmalıdır. İnsan və təbiət arasında münasibətlər bir çox minillər boyu dinc xarakterdə olmuşdur. İbtidai cəmiyyət – 60-80 insandan ibarət kiçik lokal qruplar qida ardınca hərəkət edərək bir-birindən çox uzaqda yaşayırdılar və onlar təbiətə sağalmaz yara vura bilməzdilər. Onlar təbiətdən asılı idilər, ondan qorxur və ilahiləşdirirdilər. Ana təbiətə sayğı hissi onların miflərində, mərasimlərində özünü göstərir. Hələ XVIII əsrdə meşələri həvəslə qırıb, heyvanları zəhərləyib, çayları çirkləndirən insanlar da təbiətin hökmranlığına qəsd etmirdilər. Son zamanlara qədər düşünülürdü ki, uzun müddət keçmişdə və indi planetin gözdən uzaq guşələrində yaşamış və yaşayan ibtidai qəbilələr, təəccüblü də olsa təbiətlə tarazlıqda yaşamaqdadırlar. Başqa cür ola da bilməz. Çünki ovçu və yığıcı qəbilələr təbii ekosistemin bitkilərindən və heyvanlarından tam asılıdırlar. Ərzağın və istiliyin enerji qaynağı bitkilərin udduğu günəş işığıdır. Bu qəbilələr ərzaq artıqlığı yarada bilməzlər və yerli ekosistemin məhsuldarlıq imkanını bilərək yaşayırlar. Ovçular və yığıcılar ətraf mühitə yaxşı uyğunlaşmışlar, onların mövcudluğu indi "primitiv" görünsə də ağılları tamamən bitki və heyvanların artıb çoxaldığı bölgəni öyrənməklə məşğuldur.

Ancaq indi elmdə belə baxışı təkzib edən faktlar əldə edilmişdir. Kaliforniya Universiteti (ABŞ) ekoloji analiz və sintez mərkəzinin tədqiqatçısı C.Alroy 2001-ci ildə özünün yaratdığı kompüter modelinin köməyilə indiyədək mövcud olmuş bioloji epoxaları izləyərək aydınlaşdırmışdır ki, son 12-13 min il öncəki dövrdə Şimali Amerikada 30-dan çox məməli heyvan (mamont, begemot və s.) növü yaşamışdır. Amma tarixəqədərki insanlar 1000 il ərzində nəsilləri kəsilənədək onları ovlamışlar. Uzun sürə onlar bu heyvanlar tam tükənənədək nə etdiklərini anlamamışlar. C.Alroy qeyd edir ki. plestoçen erasının sonunda, artıq Amerikanın məməli heyvanlarının yarısı kütləvi ov sayəsində yox olmuşdu.



Mütəxəssislər hesab edirlər ki, artıq sinantroplar 400 min il öncə oddan istifadə etməyə başladıqda təbiətə gözə çarpan ziyan vurmuşlar. Gəzərti ovçular və yığıcılar daim yanğın törədirdilər. Yanmış meşə sahələrinin yerində bitən yabanı birkilərin çoxalması sayəsində məhsul bollaşırdı. Gəzərti ovçular və yığıcılar bu üsuldan tez-tez istifadə edirdilər.

Yanğın nəticəsində bitki örtüyünün önəmli hissəsi məhv olurdu. "Universal" ov aləti kimi yanğınlar (od)dan 100 min il öncə istifadə edilirdi ki, bu da ciddi mənfi ekoloji nəticələrə səbəb olurdu. Mütəxəssis rəyinə görə, "od texnologiyası" artıq neolit epoxasına-qədərki mərhələdə ətraf ekosistemin, landşaftın deqradasiyasına, bioresursların kəmiyyət və keyfiyyətinin aşağı düşməsinə (heyvanların ovlanması zamanı meşələrin, bitki örtüyünün yanmasına və s.) səbəb olmuşdu. İnsanın mamont ovu təcrübəsinin inkişafı bu heyvan növünün nəslinin kəsilməsinin önəmli səbəblərindən biri olmuşdur. Erkən pleystosen erasının faunasına aid bəzi növlər onların yaşayış mühitinin pozulması səbəbindən məhv olmuşlar. Böyük bir ərazidə erroziya, qrund sularının azalması və s. baş vermişdi. Landşaftın deqradasiyası, iqlimin dəyişilməsi qədim ovçuların təbiətə uzun dövrdə etdikləri təsirin nəticəsidir.

Qədim insanların təbiətə antropogen təsirinə başqa bir misal maya hindularının fəaliyyəti ola bilər. Şəhərdə inkişaf etmiş mədəniyyətlə sıx yaşayan, sonra isə oranı tərk edən maya hindularının qəribə davranışı uzun müddət alimlər üçün sirr olaraq qalmışdı. Eradan 2 min il öncə yaranmış maya mərkəzlərinin çoxu yalnız iyul-noyabr aylarında rütubətli olan mövsümi bataqlıqlar ətrafında yerləşmişdilər. Təxminən 1, 6 min il keçdikdən, maya sivilizasiyasının Latın Amerikasının Yukatan yarımadası ovalığında inkişafından sonra onlar yeni vilayətlərə köçüb orada mürəkkəb su anbarları tikdilər. Bu da bir neçə yüz il ərzində onların sivilizasiyasının çiçəklənməsinə imkan verdi. Amma uzun müddət alimləri bu da sual düşündürmüşdür: mayalar hansı səbəbdən bataqlıq bölgələrdə məskunlaşmış sonra da oranı tərk etmişlər? Bir neçə elmi ekspedisiyalar sayəsində alimlər müəyyənləşdirmişlər ki, yüz illər maya hinduları ilk məskunlaşdıqları bölgənin ekosistemini planlı surətdə dağıtmışlar ki, bu ekoloji fəlakətlə nəticələnmişdi. Mayaların tipoqrafiyasını, hidrologiyasını, torpağını, bitki örtüyünü və mədəni özəl-

liklərini öyrənərək, alimlər nəticəyə gəliblər ki, mayaların kənd təsərrüfat fəaliyyəti yavaş-yavaş, əhali artımına uyğun olaraq bu yerlərin meşələrini qırıb qurtarmışlar. Meşələrin qırılması torpağın eroziyasını sürətləndirmişdir. Yağışlı vaxtlarda lilli sular bataqlıqlara axmış və onları tədricən dayazlaşdırmışdır. Nəticədə bu torpaqlar bataqlıqlara çevrilmiş və artıq içmək və məhsul yetişdirmək üçün lazımi miqdarda su çatışmazlığı yaranmışdı. Daimi bataqlıqlar mövsümi olmuşlar. Bu səbəbdən eramızdan öncə 400-cü ildən 150-ci ilə qədərki dövrdə mayalar bir neçə ilk şəhər mərkəzlərini tərk etmiş, yeni su hövzələrini mənimsəməyə başlamışlar.

Şimali Amerika hinduları olduqları yerlərdə torpağın bərəkətindən və sudan bacarıqla istifadə etmişlər, ancaq uzun müddət və diqqət tələb edən yaşayış mühitini nadir hallarda yaradırdılar. Çox məhdud arealda ov etmək onları yarımac durumda yaşamağa məcbur edirdi. Aclıq onları tez-tez yaxalayır, təbii ölüm yüksəlirdi. Amerikada, məsələn, iri məməli heyvanların 70 növü e.ö.15 və 8 min il arasında məhv olmuşdu. 40 milyondan artıq heyvanın zorakılıqla məhvi sayılan bu itkilər e.ö. 11 və 9 min illər arasında (2 min il ərzində) baş vermişdir, halbuki öncəki 300 min ildə cəmi 20 heyvan növü yox olmuşdu.

Alimlər Yer planetində insanların yayılması tarixini planetin ekoloji dağılmasının tədrici qlobal prosesi və təbiətə antropogen təsirin artması kimi izah edirlər. Köçəri ovçular və yığıcılar icmasından oturaq əkinçilər icmasına keçid ilk dönüş anı olmuşdur. Bu proses ilk dəfə Yaxın Şərq ərazisində 12 min il öncə baş vermişdir; ikinci dönüş anı yeraltı istilik növlərindən istifadə olunmasının başlanmasından, bunun ardınca isə XVIII əsrdə İngiltərədə başlanmış sənaye çevrilişindən ibarət olmuşdur. Orta əsrlər Fransasında şum sahələrinin genişləndirilməsi meşələrin yarısından çoxunun qırılması hesabına olmuşdur: hesablamışlar ki, 26 mln. ha meşədən 1000 ildə cəmi 13 mln. ha qalmışdır. Hər dəyişiklik əhalinin sayını və artım sürətini müəyyən edən amillərə təsir etmişdir. Quruda, suda, hətta atmosferdə baş verən geridönməz dəyişikliklər son iki yüzillik sənayeləşdirmənin nəticəsi sayılır.

Boliviyadakı yukar hindu qəbilələri təbiətlə tam harmoniyada yaşayır və həyat üçün zəruri qidanı başlıca olaraq ovçuluq və balıqçılıqla, həmçinin banan və maniok (kökündən un hasil edilən



tropik bitki) yetişdirməklə əldə edirlər. Onlar həmişəki kimi meşə ruhları və əcdadlarının ruhları ilə ünsiyyətdə olurlar. Dərman bitkilərinin və ovsunlamanın köməyilə bütün xəstəlikləri sağaldan təbib isə şamandır. Sumatrada aborigenlər meymun yeyir, timsah ovlayır, zəhərli hörümçəklər yığırlar. Onlar heç nə becərmir, amma təbiətdən hər şey alırlar. İnsanlar nəhəng oranqutanların əhatəsində yaşayır və sanki onlarla danışmağı bacarırlar. Yerlilər heyvanlara və bitkilərə şüurlu varlıqlar kimi münasibət göstərirlər. J.Dorsta görə, bəzi ovçu qəbilələri əsas ekoloji prinsipləri xatırladan, "yırtıcı ilə qurbanı" arasında tarazlığı nizamlayan davranış qanunları hazırlamışdılar. Bu qaydalar əsas həyatı tələbatları ödəmək şərtilə təbiətin minimal dəyişdirilməsini və onun hərəkətindən az miqdarda istifadə edilməsini nəzərdə tuturdu.

Hazırda dünyada 5 min bu cür qrup vardır. Bu qruplarda (hamısında) cəmi 300 mln. qədər insan vardır. Onlar planet əhalisinin iqtisadi və siyasi yöndən az inkişaf etmiş hissəsinə mənsub olsalar da ekoloji cəhətdən qorunmayan, ancaq təbii ehtiyatları zəngin olan bölgələrdə yaşayırlar. Odur ki, tez-tez çoxsaylı münaqişələrlə qarşılaşırlar.

Energetikanın inkişafı naminə yaxud yanğınlar və ya tropik meşələri qırmaq yolu ilə yaradılan otlaqlardan xalqlar doğma yurdlarından məhsuldar olmayan yerlərə ya da iri şəhərlərə köçürülürdü. Bu onların durumunu daha da pisləşdirirdi. Bununla belə, daha iri sivilizasiya ilə əlaqə onların davranışlarını dəyişdirir, istehlak tələbatları isə təbii ehtiyatların istismarının tərəfdarları, hətta fəal iştirakçıları olduqlarına uyğun dəyişilir.

Rütubətli tropik meşələrin qırılması dəhşətli sürət almışdır: hər saatda 4 $km^2$ meşə yox olur. Bu mürəkkəb və rəngarəng ekosistemin rəhmsizcəsinə məhv edilməsinin qlobal nəticələri var, vəhşi təbiətin mövcudluğu, yüz illərlə meşədə yaşayan yerli hinduların həyat tərzi təhlükə altına salınır, meşə səltənətilə gələcək nəslin feyziyab olması və onun sirlərini duymaq imkanını təhdid edir.

Yerli hindu qəbilələri meşə ilə harmoniyada yaşayır, ziyan vurmadan ondan istifadə edir. Bu özəlliklərini nəzərə alıb Kolumbiya hökuməti hinduların meşənin ən yaxşı qoruqçusu olduğunu etiraf etmişdir. 1989-cu ildə ərazisi 10 min km2 olan Çiri-biket milli parkı yaradılmışdır. Bu parkda meşədən hər cür xarici istifadə yasaq

edilmiş, parkın idarəçiliyi hindulara verilmişdir. Amma sahəsinin böyüklüyünə baxmayaraq bu parkın rütubətli tropik meşə ərazisinin yalnız 0, 17% qədər olduğu hesablanmışdır. Hinduların ənənəvi metodu ondan ibarətdir ki, onlar meşədə kiçik bir sahəni təmizləyib orada yukka (zambaq fəsiləsindən olan bitki), bibər, manqo (isti ölkələrdə bitən ətirli və şirin meyvəli bitki) və başqa bitkilər becərirlər. Yüksək məhsul götürdükdən sonra qəbilə yeni sahəyə keçir və başqa sahəni təmizləyib becərmə işi aparır, əvvəlki meşə sahəsini isə bərpa edirlər. Meşədə təmizlənmiş bir sahə 200 il üçün nəzərdə tutulur. Hər halda, bu metod meşələri kütləvi qırırb məhv etməkdən yaxşıdır.

Meşələrin qırılması çoxsaylı heyvan növlərinin məhv olması ilə sonuclandı, başqa növlər isə indi məhv olma ərəfəsindədir. Mebel istehsalı üçün istifadə olunan brazilion rosevoodun oduncağı gözəl olduğundan ona tələbat çoxdur. Hazırda ondan başqa növ oduncaqların üstünə çəkmək üçün nazik örtük kimi istifadə edilir. Bu ağac bitkisi qırmızı kitaba daxil edilmişdir. Rio Polenque mahoqany adlanan və məhv olma təhlükəsinə məruz qalan birinci 10 bitki növü sırasına daxil edilən növlərdən biridir.

Çağdaş antropologiyanın aşkar etdiyi başqa bir fakt Vyetnam qəbiləsi ilə bağlıdır. Bu ölkədə dağ kxmerləri adlanan qəbilə var imiş. Min il onlar öz məskənlərində yaşamışlar. Amma Vyetnam müharibəsində qəbilə yox olmuşdur. Bu məsələdə amerikalılar vyetnamlıları, vyetnamlılar isə amerikalıları günahlandırırdı. Ancaq araşdırma göstərdi ki, onlara heç kim toxunmamışdır, hər şey çox sadə və dəhşətli baş vermişdir. Vəhşi qəbilənin əlinə Amerika karabinləri keşmiş və onlar yeni texnikanı tez mənimsəmişlər. Bu texnika ilə onlar bir-birini qırmış, ətraf faunanı məhv edib tənəzzülə uğramış və yox olmuşlar.

İndi aydınlaşdırılmışdır ki, ətraf mühitin qorunması problemi ilə hələ əski hökmdarlar da maraqlanmışlar. Məsələn, Böyük Çin səddinin tikilişi və bərpası zamanı əski Çin imperatorları ekoloji mülahizələrə diqqət yetirmişlər. Şansi əyalətində Yanmenquan qala qapısının yaxınlığında daş sütun aşkar edilmişdir. Onun üzərində 453-cü ilə aid ekologiyanın qorunması haqqında imperator sərəncamı oyma üsulu ilə yazılmışdır. Hündürlüyü 1, 6 m, eni 1m olan sütun üzərindəki yazı göstərir ki, o 1549-cu ildə Min sülaləsinin idarəçiliyi



dövründə (1368-1644) yaradılmışdır. 700 heroqlifdən ibarət bu yazıda Yanmenquan və Ninuquan daxil olmaqla 16 bənd (zastav) yanında meşələrin qırılmasının qəti yasaqlandığı göstərilir.

İnsanın təbiətə mənfi təsirinə dair başqa faktlar da göstərmək olar. Alimlər bu fikirdədilər ki, bundan sonrakı 10-15 il müddətində uzaq Şimal şibyə örtüyündən məhrum ola bilər, bu isə maralçılıq təsərrüfatının məhv olmasına səbəb olar. Bu bölgənin yerli əhalisinin təbiətdən əsas istifadə sahəsi dəriçilik və vəhşi maralların ovlanmasından ibarətdir. Bir neçə illərdir ki, Rusiyada alimlər sənaye üçün qiymətli balıq növlərinin (nərə, sazan və s.) daxili şirinsu hövzələrində azalmasını, azqiymətli balıqların isə artmasını müşahidə edirlər. Bunun səbəbini su hövzələrinin çoxunda tədarükçülərin fəaliyyətlərinin əlaqələndirilməməsində, balıq ovunun ekoloji tələblərə uyğun olmayan vasitələrlə həyata keçirilməsində, ovun və balıq məhsullarının realizəsinin qeydiyyatsız aparılmasında, brakonyerliyin güclü inkişafında görürlər.

Şimal aborigenlərinin ənənəvi təsərrüfatı təbiətdən səmərəli istifadə edilməsi tələblərinə cavab verirdi. Amma onların həyat şəraitinin və ərazinin ekoloji balansının dəyişilməsi, torpaqlarının sənayenin xeyrinə özgələşdirilməsi Şimal aborigenlərinin sağlamlığı üçün əlverişsiz oldu. Rusiya Şimal Dövlət Komitəsinin yaydığı məlumatda deyilir ki, bu xalqların sağlamlığının pozulması aydın gözə çarpır. Bu hal Rusiyanın Şimal, Qərbi-Sibir və Uzaq Şərq bölgələrinin bütün azsaylı əhalisində müşahidə olunur.

Hazırda planetimizdə yaşamağa davam edən ibtidai qəbilələrin sayının getdikcə azaldığı müşahidə olunur. Hesab edilir ki, onlar tezliklə tamam yox olacaqlar. Hər il çağdaş sivilizasiya təbiətlə tam harmoniyada yaşamağa uyğunlaşmış ibtidai qəbilələri sıxışdırır. Bu qəbilələr tamamən yox olandan sonra, insanlar bəşəriyyətin necə inkişaf etdiyindən məlumatsız qalacaq.

İnsanın təbiətə müsbət təsirinə dair faktlar da çoxdur. Ekoloji təsəvvürlərin kökləri insanın təbiətə münasibətinin çox əski çağlarına gedib çıxır.

Biz qədim insanların təbiətə münasibəti haqqında məlumatı günümüzədək müxtəlif yollarla gəlib çıxmış, yaşadılmış qaynaqlardan əldə edirik.

Bəşəriyyətin mənəvi mədəniyyətinin ən qədim nümunəsi kimi

qəbul edilən "Bilqamıs" (e.ö. III minillik) şumer-türk dastanında əski ulularımızın təbiətlə birliyini əks etdirən məqamlar var, burada bütün canlı təbiətin Göy tanrısının (An) Yer tanrısına (Ki) yaxınlaşaraq onunla sevişib birləşməsindən yarandığı təsvir olunur. Hələ 7-8 min il öncə yaz bayramı, "yeni il şənliyi" keçirilirdi, tufan dayandıqdan sonra bu şənliyə "Qurban" bayramı şənliyi də əlavə edildi ($9_a$).

İnsanın onu doğan və yaşadan təbiətə, ətraf mühitə sağlam, ekoloji münasibətinin tarixini izləmək baxımından yaşı çağdaş insan növünün yaşı qədər hesablanan və Şərq xalqlarının müqəddəs ənənəvi dəyərinə çevrilmiş *şumer-türk yeni il şənliyi* insanın təbiətə sevgisinin ölməz nümunəsi kimi olduqca maraqlı və ibrətamizdir.

Təbiətin, onun gözəlliyinin təsviri, qorunmasının zəruriliyi dahi Nizami Gəncəvinin də diqqət mərkəzində olmuşdur. Ulu şair insanların təbiətin tarazlığının pozulmasına yönələn hərəkətlərini "İskəndərnamə"də belə təsvir edir:

*Hər maral ovçunun zülmündən qaçar,*
*Yırtıcı vəhşidir hələ insanlar.*
*Çöldə bir şux ceyran düşməyir ələ,*
*İnsandan sığınır dağa kühülə.*

Şair qarşılaşdığı ekoloji pozğunluqları sadəcə bədiiləşdirməmiş, onların qanunauyğunluqlarını anlamaqla insanın təbiətə mənfi münasibətinin bədii obrazını yaratmışdır.

İnsanların biosferə münasibətdə kortəbii fəaliyyəti daha çox onların davranışlarının etik normaları ilə bağlıdır. Odur ki, yaxınlaşan ekoloji böhrandan çıxış yolu insanların davranışlarında ekoloji şüurun hökmranlığındadır.

### 2.3. İbtidai qəbilələr və onların təsərrüfat forması

Yer kürəsində ibtidai qəbilələrin sayı getdikcə azalmaqdadır. Hazırda min illərlə zaman ötməsinə baxmayaraq özünün ilk çağdakı yaşayış formasını, məişətini qoruyub saxlayan, yəni ovçuluq və yığıcılıq təsərrüfat formasında yaşayan qəbilələrə planetimizin bir sıra bölgələrində rast gəlinir. Belə qəbilələrdən biri Yeni Qvineya və Melaneziya adalarında yaşayan papuas əhalisidir. Papuasların ovçuluğu təhlükəli olduğu qədər də maraqlıdır, ayinləri və inancları isə müasir sivil insanlar üçün qəribə və izahedilməzdir. Papuas qadın



əri öldükdə barmağını kəsir, kişi isə yaxın qohumları öldükdə qulağının bir hissəsini kəsir. Onların əlifbası və yazısı yoxdur, ancaq ölənin ruhu ilə danışa bilirlər.

Ovçuluq və yığıcılıqla yaşayan ibtidai qəbilələrə Madaqaskarda, Quzey Asiyada, Filippində və Hind okeanının başqa adalarında rast gəlinir. Ən ibtidai qəbilələrdən biri Avstraliya aborigenləri sayılır. Onların öz qitələrində artıq 40 min ildən çox yaşadıqları müəyyənləşdirilmişdir. Onlar hələ də əkinçilik və heyvandarlıq təsərrüfatı formasına keçməmişlər. Qərb yarımkürəsində də yığıcı qəbilələr yaşamaqdadırlar. Alyaskanın və Kanadanın eskimosları qədim ovçular sayılır. Kaliforniyanın, Oreqonun, Vaşinqtonun və Kolumbiyanın yerli əhalisi Kanada hinduları kimi yığıcılıqla yaşayırlar. Yerli amerikalıların çoxu üçün balıqçılıq, ovçuluq və yığıcılıq önəmli yaşayış qaynağı hesab olunur. Argentinanın, Quzey Braziliyanın, Uruqvayın və Paraqvayın çəmənliklərində də qədim ovçu və yığıcı qəbilələr yaşamaqdadırlar.

Tədqiqatçılar hesablamışlar ki, planetdə ümumi sayı 300 mln. nəfər olan 5 min ibtidai qəbilə yaşayır. Planet əhalisinin iqtisadi və siyasi yöndən az inkişaf etmiş hissəsi olmasına baxmayaraq bu ibtidai insanlar ekoloji təhlükəli, ancaq təbii ehtiyatları zəngin olan coğrafi bölgələrdə yaşayırlar. Bu səbəbdən də onlar çoxsaylı münaqişələrin mərkəzində olurlar, onsuz da dözülməz olan durumları daha da pisləşir. Bununla yanaşı, daha iri sivilizasiyalarla qarşılaşma onların davranışlarını və istehlak tələbatlarını elə dəyişdirir ki, nəticədə onlar təbii ehtiyatların istismar edilməsinin fəal tərəfdarlarına çevrilirlər.

1989-cu il Beynəlxalq Əmək Konfransı 169-cu müqaviləni təsdiqləsə də bu saziş aborigenlərin beynəlxalq qanunvericilikdə hüquqlarını möhkəmləndirdi. Bu sənədə əsasən yerli əhali təbii ehtiyatlara malik olmaq və onlardan istifadə etmək, köçürüldükdə konpensasiya almaq, torpaq üzərində mülkiyyət hüququnu vərəsələrinə ötürmək, torpaqlarına qanunsuz girənləri cəzalan-dırmaq, kənd təsərrüfatı planlarını həyata keçirmək hüquqlarının müdafisəini tələb etmək hüquqlarına malikdir. Bu sazişi 90-cı illərin sonunda ərazilərində yerli və qəbilə yaşam tərzini saxlamış xalqların yaşadığı ölkələrin əksəriyyəti imzaladı.

Çağdaş sivilizasiyanın təsiri altında ənənəvi xalqların da ətraf mühitə münasibəti dəyişilir. Məsələn, Doğu Afrikada (Kenuyada)

yaşayan kiçik masaylar qəbiləsi üçün inəklər ən dəyərli sayılır. Onlar üçün bu heyvanlar müqəddəsdirlər. Əsrlər boyu, onlar luo, kikuyo və başqa qəbilələrdən fərqli olaraq əcdadlarının təsərrüfat həyatı formasını qoruyub saxlamışlar. Masaylar ev heyvanları ilə yaşayır və əkinçilik təsərrüfat formasından xəbərsizdirlər. Onlar inanırlar ki, Uca Tanrı Enqay dünyadakı bütün heyvanları onlara bəxş etmişdir. Odur ki, başqa qəbilələrin heyvanlarını oğurlamağı onlar adi hal sayırlar. Masaylar müvəqqəti dayanacaqda budaqlardan sığınacaq düzəldir və peyinlə onu örtürlər. Onların sığınacaqlarında tonqal yoxdur, onu kənarda qalayırlar, od isə heyvan dərilərindən düzəldilmiş yatağa yaxın olur. Masaylar süd və heyvanların qanı ilə qidalanırlar. Az-az hallarda ət yeyirlər. Ac vaxtlarında heyvanın yuxu arteriyasını deşib aldıqları qanı isti-isti içirlər. Sonra heyvanın yarasını təzə peyinlə bağlayırlar ki, ondan yenə də istifadə edə bilsinlər. Masay qəbiləsi XIX əsr və XX əsrin başlanğıcında əcdadlarından miras qalan torpağa sahiblik hüququna malik olduqlarını avropalılara sübut etmişdilər. Amma XX əsrin sonunda masaylar sivilizasiyanın təzyiqinə davam gətirə bilmədilər.

Son 30 ildə masaylar torpaqlarının böyük hissəsindən köçürüldülər. Ağdərililər onların torpaqlarını "qoruq" etdilər. Zəngin ağdərili turistlər bu yerlərdə yarımvəhşi masayları görməkdənsə heyvanları görməyi üstün saydılar. Sürgün edilmiş masaylar dədə-baba torpaqlarına özbaşına qayıtdıqda onları məhv edir, ya da həbsxanaya atırdılar. Masaylar anladılar ki, aslanlar, antiloplar və turistlər onların özlərindən önəmlidirlər. Yaşayış vasitələrindən məhrum olmuşların çoxu brakonyerliklə məşğul olmağa başladılar. Beləliklə, min illərlə təbiətlə yaşamış masaylar indi onun qənimi oldular: filləri və gərgədanları ovlayaraq onların dişlərini və buynuzlarını bazara çıxarmağa başladılar. Alimlər müəyyənləşdiriblər ki, masay torpaqlarında gərgədanlar artıq məhv edilmiş, fillərin sayı isə yüz dəfə azalmışdır.

Antropoloq N.Pikok Zairin İtur meşəsində yaşayan efe piqmey qəbiləsini öyrənərək aydınlaşdırmışdır ki, onlar min illər öncəki kimi kiçik qruplar halında yaşayaraq yığıcılıqla məşğul olurlar. Bir dəfə tanınmış Amerika antropoloqu C.Merdok çağdaş ovçu və yığıcıları "Bizim ibtidai müasirlərimiz" adlandırmışdır. Amma primitiv insanların həyatında çağdaş cəmiyyətin izlərini də nəzərə almaq gərəkir.



A.A.Kaufman özünün "Təsərrüfat formalarının tarixi inkişafı" kitabında ibtidai cəmiyyətin ictimai və təsərrüfat quruluşu məsələsinə toxunaraq onun çağdaş kapitalizmdən köklü fərqləndiyini göstərir. Onun fikrincə, fərq yalnız *heterogenlik dərəcəsindədir.* Kaufman heterogenlik dərəcəsi haqqında məsələni müqayisə müstəvisində həll etməyi təklif etmişdir. Bu metod birincisi, müxtəlif epoxalarda yaşamış insanların həyat tərzinin, ikincisi, müxtəlif tarixi epoxalara aid təsərrüfat formalarının quruluş özəlliklərinin müqayisəli öyrənilməsini nəzərdə tutur. Müəllif məsələnin birinci tərəfini Mərkəzi Afrika və Avstraliyanın, həmçinin Uzaq Şimal və Şimal-Şərqi Sibir xalqlarının təsərrüfat formalarının və həyat tərzlərinin müqayisəsi yolu ilə həll etməyi təklif edir. Yaşayış vasitələrinin qaynağı onların hamısında ovçuluqdur, o cümlədən balıq ovudur. Hər iki halda insan özünə gərək olanı təbiətdən "hazır" halda alır. Ancaq bu o demək deyildir ki, insan yaşayış vasitələrini heç bir əmək sərf etmədən təbiətdən alır. Kaufman yazır: "... son dərəcə qeyri-mükəmməl istehsal alətlərinə malik olan vəhşi ovçudan yaxud balıqçıdan böyük fiziki güc, dözümlülük, iti gözlülük və sərrast əl, heyvanın və ya balığın hərəkətlərinə bələd olmaq kimi keyfiyyətlər tələb olunurdu, qida əldə etmək üçün çoxsayda ciddi-cəhdlər və daim özünü təhlükəyə atmaq gərəkirdi" (84, 11-12).

A.Kaufman ibtidai insanların təsərrüfat fəaliyyətini təsvir etmək üçün "əldəetmə sənayesi" və "emaletmə sənayesi" anlayışlarını təklif edir. Birinci anlayışla o, ovçuluğu və balıqçılığı ifadə edir, ikinci anlayışla bağlı isə yazır ki, ibtidai vəhşilərdə emal sənayesi hələ rüşeym halında idi: vəhşilərlə müqayisədə ən yoxsul müasir kəndlinin geyimi və ev avadanlığı bəzəkli, zəngin görünə bilər. Vəhşi lazımi texnika və texnologiyanın olmadığı şəraitdə yalnız uzun vaxt sərf etməklə heyvan dərisindən geyim hazırlaya bilərdi. İbtidai avadanlıq hazırlamaq üçün isə daha çox əmək və vaxt lazım gəlirdi. Bir sözlə, "emal sənayesi" o zaman gərgin əmək fəaliyyəti idi və az səmərəli idi.

K.Byuxerin ardınca A.Kaufman qeyd edir ki, özünü nümayiş etdirmə davranışının təsərrüfat davranışından öncə formalaşması vəhşi insanın həyat tərzinin prinsipial özəlliyidir. Əsas təsərrüfat sahələrinin ağır əmək tələb etdiyi şəraitdə vəhşi bəzək əşyaları hazırlamaq üçün daha çox vaxt sərf etməyi bacarırdı. Avstraliya

vəhşisinin daş baltasının dəstəyi incə oymalarla örtülmüş əsl incəsənət əsəridir, buna isə illər sərf edilmişdir; Sibir ostyakları və ya arxangel nenləri heç paltar geymirlər, ancaq onların maral dərisindən hazırlanmış paltarları müxtəlif rəngli mahud tikmələrlə bəzədilmişdir. Hətta mülahizə edilir ki, ibtidai insan işləməyi öyrənməkdən öncə öz gücünü başlıca olaraq bəzək-düzəyə və əyləncəyə sərf etmişdir, əsl təsərrüfat əməyi isə tədricən əyləncədən inkişaf etmişdir.

Kaufmana görə, ibtidai vəhşi insan son dərəcə tənbəl olmuşdur və yalnız qarnı ac qaldıqda ova çıxırdı, sonuncu ovdən əldə edilmiş qənimət qurtaranadək boş-bekar otururdu. Əldə etdiyi qəniməti yeyir və sabahı düşünmürdü, ehtiyat saxlamırdı və saxlaya da bilməzdi, çünki qidanın saxlanması üsullarını bilmirdi. Bu da vəhşinin qarınquluidan, tam bekarçılıqdan qida əldə edilməsi üçün ən gərgin əməyə qəti keçməsinin səbəbi oldu.

Tədqiqatçılar bu məsələnin izahında Kaufmanın səhvini onda görürlər ki, alim ibtidai vəhşinin özünü nümayiş etdirmə davranışının dini mərasimdən irəli gəldiyini nəzərə almamışdır. İbtidai insanda belə bir hiss olmuşdur ki, ruhlara yemək saxlamaq, qurban kəsmək, bəzənmək lazımdır ki, onlar qəbilələrinin sağ qalmışları tərəfindən yada salındıqlarını, dəyərləndirildiklərini görsünlər. Bər-bəzək həm də incəsənətin, insanın bədii dühasının, keyfiyyətcə yeni durumun-sosial münasibətlərin yaranmasının ilk cücərtiləri, nişanələri idi Bunlara kollektiv əmək, birgə yaşayış və seksual tərəfdaşlıq əngəl olmurdu. Sosial münasibətlər Ç.Kuliyə görə, o yerdə yaranır ki, insan özünə başqasının gözü ilə baxır və öz davranışına düzəlişlər edir: başqalarının onun haqqında söylədiklərini dinləyir.

İbtidai cəmiyyətin təkamülündə bu süjet Kaufmanın diqqətindən yayınmışdır. Müasir sosial antropoloqlar düşünürlər ki, həmin dövrün sonrakı təhlili əldə olunmuş ümumi mənzərəni inkar etmir. Ümumi mənzərə belədir: vəhşilər səfil həyat tərzi keçirir, qarşılarına çıxan qida ilə qidalanırlar, bir neçə qohum ailələrdən ibarət kiçik birliklər halında yaşayırlar, sosial bərabərsizliyin və əmlakın irsən ötürülməsinin nə olduğunu bilmirlər. Mədəni xalqlarla qarşılaşdıqda vəhşilər onlardan xəstəliklər, mənəviyyatsızlıq və sərxoşluq, texniki uyğunlaşma (nəinki təbiəti, həmçinin özü özünü məhv etmək) kimi keyfiyyətlər götürürlər. Amma bu hal təkamülü



gecikmiş və yüksək inkişaf etmiş qəbilələrdə baş verir. Yığıcılıqdan və ovçuluqdan plana uyğun şəkildə maldarlığa və əkinçiliyə keçmiş xalqlar öncül millətlərlə qarşılaşdıqda "mədəniyyətin dağıdıcı təsirinə" tuş olmamışlar.

Bəşəriyyətin əkinçiliyə "planlı" keçidi iki amilin: əhalinin sayca artması və qida qaynağı olan quşların sayının azalmasının təsiri altında baş vermişdir. Bu da daha səmərəli təsərrüfat formalarının axtarışına sövq etmişdir, bəzi qəbilələr dadlı və qidalı toxumları yaxud kökləri olan bitkilərlə qarşılaşdıqda onların ətrafındakı alaq otlarını çıxarıb atırdılar, torpağı ağacla yaxud ibtidai bel ilə yumşaldırdılar və yavaş-yavaş belə faydalı bitkilərin toxumlarını əkməyi öyrənirdilər. Başqa qəbilələr heyvanları əhliləşdirir və ovçular səfil həyatdan köçəri-maldarlıq təsərrüfatına keçirdilər. Bir formasiyadan başqasına keçidin səbəblərinin izahında Kaufmanın baxışı S.N.Bulqakovun, Kosinskinin və b. sosial tərəqqiyə baxışları ilə üst-üstə düşür.

Ovçular və yığıcılar, maldarlar-köçərilər və oturaq əkinçilər Kaufmana görə, ictimai təsərrüfatın inkişafının üç tarixi mərhələsidir. Onların eyni ümumi bir əlaməti vardır: *natural təsərrüfat* üzərində hökmranlıq. Alman alimi K.Byüxerə və A.Kaufmana görə, natural təsərrüfatda iqtisadi mübadilə yoxdur. Hər bir təsərrüfat vahidi əməyini istisnasız olaraq özünün istifadəsi üçün lazım olan predmetlərin hazırlanmasına sərf edir və hər kəs öz tələbatlarını istisnasız olaraq öz əməyinin məhsulları ilə ödəyir".

Müəlliflər belə yanaşmanın qüsurunu iqtisadi kateqoriya-ların, onların üstün tərəflərinin təhrif olunmuş şərhində, insanların davranışının motivasiyaya əsaslandığının təsdiq edilməsində görürlər. Byüxer və Kaufman insanların kollektiv təsərrüfatdan irəli gələn təbiətə, hər cür mübadiləyə nifrət etdiyini təsdiq edirlər. İnsanların belə təsərrüfat formasına nifrəti ona əsaslanır ki, burada ya tamahla bağlı, ya da bilməyərəkdən adi aldatma vardır. Tamahla bağlı aldatma həm bazar, həm də qeyri-bazar cəmiyyətinə eyni dərəcədə xasdır, bilməyərəkdən aldatma isə daha çox qeyri-bazar cəmiyyətinə aiddir. O insanlara pul vasitəsilə ünsiyyət, qarşılıqlı saziş və mübadilə üçün lazımi sosial təcrübə vermir. Fərdlərdə heç bir sosial ixtisaslaşma yoxdur. Digər tərəfdən, Byüxerə görə, ibtidai insan öz əməyinin məhsuluna özünün bir hissəsi kimi baxır; öz malını

başqasına verən öz hissəsinə malik olmaqdan imtina etmiş sayılır və bununla da natəmiz güclərin öz üzərində hökmranlığına imkan yaratmış olur.

Natural təsərrüfatın bir üstünlüyü də ondadır ki, ibtidai təsərrüfatdakı "mənəvi saflıq" dar ixtisaslaşmanın olmaması ilə tamamlanır, hamı bütün işlərdə iştirak edir.

## III Fəsil
## Bəşər tarixinin qəbilə-tayfa quruluşu mərhələsi

### 3.1. Tarixin yadigarları

Bəşəriyyətin sosial həyatının tayfa mərhələsindən söz açarkən Azərbaycan tarixinin tayfa quruluşu mərhələsi məsələsinə toxunmaq zəruridir. Bunun səbəbləri də vardır. Heç şübhəsiz ki, azərbaycanşünaslıq, o cümlədən tarix, arxeologiya və etnoqrafiya sahəsində Azərbaycan alimləri uzun illər tədqiqatlar aparmış, ciddi uğurlar qazanmışlar. Qaynaqlarda Azərbaycan ərazisində aşkar edilmiş arxeoloji materiallar əsasında təxminən 10-12 mln. il öncə burada insanların "Qarcins Udabnobitek" adı verilmiş meymun əcdadının yaşadığı göstərilir (bu meymun əcdadın qalıqları Udabno kəndi ərazisindəki Qarci abidəsində aşkar edilib-1939-cu ildə). Sonra göstərilir ki, Azıx mağarasında (Füzuli rayonu) təxminən 350-400 min il öncə yaşamış "Azıx adamının" qalıqları aşkar edilmişdir. "Azıx adamı" antropoloji və xronoloji baxımdan Heydelberq insanına daha yaxın olmuş və ilk neandertallara oxşar əlamətlərə də malik olmuşdur. Urmiya gölü ətrafında Tam-tama mağarasında (Cənubi Azərbaycan) 40-50 min il öncəyə aid neandertal insanının qalıqları aşkar edilmişdir (9, 12-13). Qaynaqda o da doğru qeyd edilir ki, insanın yaranması ilə Qədim Daş (Paleolit) dövrü başlanmışdı. Azərbaycanda 30-35 min il öncə başlamış Üst Paleolitdə insanlar oturaq həyat tərzi keçirərək yığıcılıq, ovçuluq və balıq ovlamaqla məşğul olmuşlar. Bu dövrdə daş alətlər təkmilləşmiş, sümük alətlər çoxalmışdı. M.ö. X minillikdə başlayan və m.ö. VII-VI minillikdə sona çatan Neolit-Yeni Daş (Paleolitin sonuncu) dövründə Azərbaycanda ovçuluq və yığıcılıq təsərrüfat formasından əkinçilik və maldarlıq təsərrüfatına keçilmişdir. M.ö. VI-IV minillikləri əhatə edən Eneolit (Neolitdən sonrakı) dövründə Azərbaycanda yaşayan qəbilə və tayfalar mis və daha çox



daş alətlərdən istifadə etmişlər. Qəbilələr yerli inşaat materiallarına uyğun çiy kərpic, möhrə və çaydaşlarından tikdikləri evlərdə yaşamış, əkinçilik və maldarlıq təsərrüfatı ilə məşğul olmuşlar. Əkinçilik və oturaq, qismən də köçəri maldarlıq yerli əhalinin yaxud tayfaların əsas təsərrüfat forması olmuşdur.

Qaynaqlardan gətirdiyimiz bu məlumatlar faktlara əsaslandığından heç bir etiraz doğurmur. Lakin adı çəkilən və bizim tanış olduğumuz digər qaynaqlarda yığıcılar və ovçular sosial quruluş mərhələsindən yaxud təsərrüfat formasından tayfa-qəbilə quruluş formasına keçidlə və Azərbaycan ərazisində ən qədim dövrlərdən yaşayan tayfaların kimliyinə və onların hansı kökə mənsub olduğuna, hansı dildə danışdıqlarına dair məlumatın olmaması təəssüf doğurur.

Azərbaycan xalqının sosial-mədəni tarixinə baxışdakı bu boşluqlar prof. Elməddin Əlibəyzadənin, prof. Kamil Vəliyevin və b. qeyd etdiyi kimi, hər şeydən öncə siyasi-ideoloji səbəblə bağlıdır. Prof. E.Əlibəyzadə qeyd edir ki, Azərbaycan tarixinin öyrənilməsində özünü göstərən boşluqlar, yaxud qüsurlar hər şeydən öncə I Pyotrun "Vəsiyyəti"ndən qidalanan Sovet siyasi-ideoloji qadağaları ilə bağlı olmuşdur. I Pyotrun "Vəsiyyəti"ndəki "Müsəl-manları tamam gizli, özləri hiss etmədən, mümkün olduğu qədər qəhr etmək, azaltmaq lazımdır!" ruhunda rus-Sovet imperiyası şəraitində Azərbaycan-türk xalqına münasibət göstərilmiş, onun tarixi, "olduğu kimi yox, olmadığı kimi" yazılmışdır. Elmdə, tədqiqatda, təhsildə sovet ideologiyasının əsaslarını əks etdirən qaynaq kimi E.Əlibəyzadə Sov.İKP. MK Si-yasi Bürosunun SSRİ və dünya kommunist partiyalarına direktivi Moskva 2.6.1947: Tamamilə məxfidir. K.AA/SS 113 XK əmri (003) 47 adlı sənəddə deyilir: "İdarəetmə orqanlarında və müəssisələrin əksəriyyətində (yerli hakimiyyət orqanlarının razılığı olmadan) bütün vəzifələrə bizim xüsusi xidmətlərimizlə əməkdaşlıq edən adamları təyin etməli"; "İbtidai və xüsusi məktəblərdə (ancaq hər şeydən qabaq orta və ali təhsil müəssisələrində) mil-li ruhlu müəllimləri kənarlaşdırmalı, onların yerinə bizim müəyyən etdiyimiz adamları qoymalı. Tarix dərslərində diqqəti şahların qəddarlığına və xalqı onların əleyhinə mübarizəyə cəmləşdirmək lazımdır..." (9a, 11-12).

Doğrudan da indiki müstəqillik şəraiti, özünüdərk və özünədönüş mərhələsində Azərbaycan xalqının tarixinin dərin

qatlarını üzə çıxarmaq, açılmamış səhifələrini açmaq, obyektiv həqiqətlə gəncliyi tanış etmək, "elmi-vicdani vəzifədir, alim-vətəndaşlıq borcudur".

Oxucuya təqdim etdiyimiz bu dərsliyin "Tarixin yadigarları" adlanan bu bölümündə məqsədimiz əlimizdə olan qaynaqlara istinad edərək Azərbaycan tarixində qəbilə-tayfa quruluşunun daşıyıcılarının kimliyinə və bu quruluşun ümumi və xüsusi cəhətlərinə işıq salmaqdır.

Prof. E.Əlibəyzadə akademik A.P.Okladnikovun ekspedisiyasının Altayda aşkar etdiyi daş alətlərin iki yüz min il öncəyə aid olduğuna, Altayın dağ ətəklərində və Cənubi Sibirin başqa yerlərində mağaralardan tapılan muncuqların və dəvəquşu yumurtalarından hazırlanmış digər qadın bəzəklərinin 40-50 min il öncəyə aid olduğuna dair dəqiqləşdirilmiş elmi faktlara müraciət edir. Sonra bu tapıntılar və onların haqqında söylənilən fikirlərlə yenə 40-50 min il öncə yarandığı təxmin edilən "Kainatın və insanın yaranması haqqında" şumer mifik təsəvvürlərinin üst-üstə düşdüyünü heyranlıqla qeyd edir və diqqəti şumerlərin kimliyi, hansı çağdaş xalqların əcdadları olduğu probleminə yönəldir. Alim çağdaş türk xalqlarının qədim şumer mədəniyyəti ilə bağlılığı məsələsini önə çəkir və əlavə edir ki, bu məsələni həll etmədən "dünyanın tarixini, ümumtürk tarixini, habelə Azərbaycan tarixini yazmaq olmaz".

Bu düşüncə ilə Qərb alimlərinin Şumer və türk mədəniyyətlərinin əlaqəsi haqqında söylədiklərindən bəzi nümunələrə müraciət etmək vacibdir.

*İngilis alimləri S.L.Loyd və Q.Çayld* yazırlar: "Turanlılar təxminən 10-12 min il öncə səfalı Dəclə və Fərat çayları hövzəsində məskən salıb, ətraflarında yaşayan saysız-hesabsız vəhşi qəbilələrin heyrətli nəzərləri altında dünya sivilizasiyasının səhərini açdılar. Dünyada ulu bir mədəniyyətin şöləsi alışdı. Bu işığa ehtiyac daxildən gəlirdi və çox çəkmədi ki, Qoca Asiyanın münbit torpaqlı hər guşəsində "İşıq adaları" şöləlwndi".

*Rus alimi D.Reder:* "Şumerlərin dili ayrıca bir dildir. Bizə məlum olan dil ailələri ilə onu bağlamaq hələlik əsaslı və mübahisəsiz nəticələr vermişdir. Yalnız onu qəti demək olar ki, o iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dillərilə müqayisə edilə bilər".



*Alman alimi Q.Vinqler:* "Bizə gəlib çatmış mətnlərin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də, dünyada ən qədim mədəni dil olan şumer dilinin ümumi xarakteri barədə kifayət qədər bizdə təsəvvür yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi dildir".

*Fransız alimi E.Reklü:* "Qədim yazıların şəhadətinə görə, Babil sivilizasiyasını inkişaf etdirənlər Hind-Avropa dillərində danışıb, özlərini dil və mənşəcə Avropanın həqiqi və yalançı ari xalqlarının qohumu sayan qəbilələr olmamışlar. Arilərin bütün sahələrdə tam üstünlüyünün təsiri altında olan assiroloqlar özlərinin bu kəşfindən xeyli heyrətə gəldilər, onlar heyrət içində gördülər ki, ən qədim oxşəkilli yazıların dilində İran və semit dillərinə xas olan cizgilər qətiyyən yoxdur, əksinə, Turan və Ural-Altay dillərilə birbaşa qohumluq var. Bu ilkin yazılı işarələrin ifadə etdiyi dil iltisaqi dillər tipinə aiddir" (9a, 515).

Bir sıra başqa tədqiqatçılar da xəzərilərin və ümumən türklərin iskit əsilli və biri-birinin davamı olduğunu təsdiq edirlər: "Həm hunlar, onların ardınca, həm də kaspilər iskit mənşəlidirlər"; "Hunlar türkdürlər"; "Hunların türklüyünə şübhə yoxdur" və s.

Qədim yunan qaynaqlarında Azərbaycanda yaşamış bir çox qədim qəbilə və tayfaların iskit mənşəli olduqları təsdiq edilir: "Saklar iskit qəbiləsidir"; "farslar bütün iskitlərə sak deyirlər"; "Albanlarla qonşuluqda iskit mənşəli xalqlardan olan qellər və leqlər yaşayır"; "Yunan mənbələri həmçinin xalibləri, issedonları və udinləri iskit mənşəli tayfalardan" sayır və s.

Qədim Azərbaycan ərazisindəki, "Albaniya" və "albanlar" haqqında da qaynaqlarda xeyli məlumat verilir. Göstərilir ki, ayrıca "alban" tayfası olmamış, alban tayfaları olmuş və onların izləri indi də qalmaqdadır: Bərdə, Qazax, Göyçay, Ucar rayonlarında Alpoot adlı kəndlər, Quba ərazisində Alpan, Ucarda Alpı adlı yaşayış məskənləri var.

Alimlər bu qənaətdədirlər ki, son yüz ildə aparılan arxeoloji qazıntılar zamanı tapılan və təsadüfən aşkara çıxan zəngin materiallar iskitlərin qədim türk olduğu və ya türklərin iskit əsilliliyi fikrini təsdiq etməkdədir.

İskitlərin yaxud qədim türk tayfalarının həyat tərzinə gəlincə Herodot yazırdı: "İskitlərin mənzilləri alaçıqdan ibarətdir... Onlar

keçədən yapılmış yurtda yaşayırlar" uzun "şalvar geyirlər". İskitlərin miladdan öncəki VIII-VI yüzillərdəki həyat tərzini, zahiri görkəm və geyimləri və s. keyfiyyətlərini, təbii olaraq onların xələfləri, yəni miladın V-VIII əsrlər oğuz türkləri bir ənənə olaraq davam etdirirlər.

Bütün xalqlar kimi türklər yaxud iskitlər də sivilizasiyaya doğru tarixi hərəkətdə, sosial təkamüldə qəbilə quruluşu mərhələsindən keçmişlər. Amerika alimi L.Q.Morqan qəbilə quruluşu təsisatının xalqların sivilizasiyayaqədərki təkamül mərhələsi olduğunu sübut etmişdir. Morqan totem heyvanları qəbilə quruluşunun birbaşa sübutu sayır.

Qəbilə quruluşuna xas olan ümumi əlamətlərdən biri də bu quruluşun eyni kökdən, əcdaddan törəyən və əcdadının adını daşıyan qan qohumları birliyindən yaranmasıdır. İbtidai icma dövründə qəbilələr ya ana xətti, ya da ata xətti üzrə tanınırdı.

Qəbilə eyni xətt üzrə qohumluğunu dərk edən və ekzoqamiya (öz tayfasından, qohumlarından, ictimai qrupundan evlənməyi qadağan edən) adəti ilə bir-biri ilə bağlı olan insanlar birliyidir. İbtidai icmalarda tayfa hakimiyyəti prinsipi hökm sürürmüş. Qəbilə iradəsi məsələlərin həllində həlledici rol oynayırdı. Bu zaman ağıllı, təcrübəli insanların – ağsaqqalların rəyinə hörmət edilirdi. Qəbilənin gündəlik təsərrüfat, sosial və s. həyatına başçılıq edən başçılar belə sosial mühitdə irəli çəkilirdi.

Qəbilə quruluşunun hakimiyyət orqanları strukturu aşağıdakı kimi təsəvvür edilir:

1) tayfanın ümumi toplantısı;
2) ağsaqqallar şurası;
3) başçı (sərkərdə, ova başçılıq edən).

Ümumi toplantı qəbiləyə aid olan bütün işləri həll edirdi, ağsaqqallar şurasını, döyüşlərə başçılıq edən başçıları, ovu idarə edənləri seçirdi. Bu başçılar qəbilə birliyinin gündəlik həyatını idarə edirdi. Özəlliklə önəmli məsələlərin həlli ağsaqqallar şurasının toplantısında müzakirə edilir və sərəncam verilirdi. Sərəncamlar, əmrlər bütün qəbilə birliyinin maraqlarına uyğun olduğundan, demək olar ki, həmişə yerinə yetirilirdi. Onu pozanlar isə ciddi cəzalandırılırdı.

L.Morqan yazır ki, qəbilə ibtidai cəmiyyətin makrostrukturudur. Onun üzərində heç nə yüksəlməmişdir (müvəqqəti xarakter daşıyan qəbiləüstü qurumu – qəbilələr ittifaqını nəzərə almasaq).



Amma qəbilə daxilində, tayfa birliyinə daxil olmuş bir çox qəbilələr vardır. Yalnız qəbilə quruluşu bəşəriyyəti vəhşilik mərhələsindən çıxartdı və sivilizasiyaya gətirdi. Morqan Amerika hindularının əski adətlərini öyrənərək nəticəyə gəlmişdir ki, qəbilə ibtidai cəmiyyətin əsas özəyi olmuşdur. Bəşər tarixini Morqan iki dövrə bölür: ictimai quruluşun qəbiləyə, fratriyaya və tayfaya əsaslanan dövrü; cəmiyyətin ərazi, iqtisadi və siyasi birlik dövrü. Yalnız qəbilə quruluşu – qədim cəmiyyətin ən davamlı və universal təsisatı sayəsində mədəniyyətin inkişafında varislik mümkündür. O ibtidai qəbiləni önəmli və mürəkkəb sosiomədəni təsisat, mühüm mədəni ixtira saymış və onu inkişaf etməmiş xalqların inkişaf etmiş xalqlardan mənimsədiyini söyləmişdir. O bu fikirdədir ki, məsafəcə bir-birindən uzaqda yerləşən xalqlar qəbilə quruluşunu yenidən təsis edə bilməzdilər. Qəbilə yüksək inkişaf etmiş cəmiyyətin məhsuludur. Onu yetərincə intellektual insanlar bir yerdə ixtira etmiş, buradan da sonradan əkinçilik metodu kimi bütün dünyaya yayılmışdır. Qəbilə quruluşu səmərəli olduğu üçün onu ixtira etmiş xalqdan başqaları mənimsəmişlər. Qəbilə quruluşunun səmərəliliyi onun strukturundan görünür. Morqan ailəni sosial və mədəni təsisat kimi ilk tədqiq edənlərdən biri olmuş, onun təsviri üçün qohumluq terminini uyğun görmüş və kross – mədəni metoddan istifadə etmişdir.

Morqana görə, ana qəbiləyə böyük ana (nənə), onun uşaqları, qızlarının uşaqları və onun qadın nəsillərinin uşaqları daxildir; onun oğullarının uşaqları və kişi nəsillərinin uşaqları isə başqa qəbilələrə, yəni öz analarının qəbilələrinə məxsus idi. Qəbilə quruluşu qəbilə daxilində kəbinə yol vermirdi. Qəbilə üzvlərini bir-birilə bağlayan başlanğıc kimi qəbilə öz üzvlərini heç bir başqa sosial quruluşun edə bilmədiyi səviyyədə mühafizə edirdi. Avropalıların Amerikanı kəşf etdiyi epoxada Amerika hindu qəbilələri ümumi qayda ilə qadın xətti üzrə müəyyən olunan qəbilələr halında təşkil olunurdular. Amerikanın bütün yerli əhalisində qəbilə öz adını insan adı ilə yox, yalnız hansısa canlının, yaxud cansız əşyanın adı ilə adlandırırdı. Türklərin tarixində boz qurd, slavyan qəbilə icmalarında qarğa, şahin qunduz və s. bəllidir. Moki adlanan Arizonun oturaq hindu qəbiləsinin üzvləri öz mənşələrini adını daşıdığı heyvanda görür və inanırdılar ki, onlar Uca ruh sayəsində heyvandan insana çevrilmişlər.

İbtidai cəmiyyətdə qəbilə quruluşu əsasında fratriya yaran-

mışdır. Fratriya yunan sözü olub (phratria) qardaşlıq anlamı daşıyır. Fratriya bir neçə qəbiləni birləşdirən bölümdür. Bu quruluş formasını alimlər ilk dəfə qədim yunan cəmiyyətində aşkar etmişlər. L.Morqan və başqa Amerika alimləri hinduları öyrənərkən fratriya terminini onların sosial strukturu haqqında təlimə daxil etmişlər.

Qədim yunan cəmiyyətində fratriya "qardaş" qəbilələr birliyi imiş, bu birlik üçün başqa fratriyanın tayfaları xalaoğlu sayılırmış. Bir fartriyanın qəbilələri özəlliklə ekstremal durumlarda həmrəylik edir, bir-birinə dayaq olurdular. Fratriyada dini qardaşlıq, mərasimlər və s. qəbul edilmişdi.

Sonrakı pillədə *tayfa* durur. Tayfa bütün üzvləri eyni ləhcədə danışan fratriyaya daxil olan qəbilələr birliyidir. Tayfada endoqamiya (yalnız öz əqrabasından, tayfasından olanla evlənmək adəti) hökm sürürdü. Tayfa ərazinin ali mülkiyyətçisi, müəyyən mədəniyyətin – məişət ümumiliyinin daşıyıcısı idi və etnomədəni özəlliklərə malik idi (123).

Üzvləri eyni bir dilin uyğun ləhcəsində danışan tayfaların *konfederasiyası* qurulurdu. Bütün bunlar siyasi quruluşdan yəni dövlətdən öncə mövcud olmuş ibtidai cəmiyyətin tayfa quruluşunu təşkil edirdi. Başqa sözlə, tayfa quruluşu bir pilləvari sistem idi: tayfalar fratriyada, fratriyalar qəbilədə, qəbilələr konfederasiyada yaxud qəbilələr birliyində birləşirdi.

*Tayfa birliyi* qohum və ya qonşu tayfaların müvəqqəti birliyi idi və başlıca olaraq xarici təhlükəni dəf etmək məqsədilə yaradılırdı. Hərbi təhlükə aradan qaldırıldıqdan sonra dağılırdı. Tayfalar birliyinin sinifli cəmiyyətə keçid dövründə yarandığı təsdiq edilir. Bu dövrə hərbi demokratiya dövrü də deyilir. Bu dövr üçün tayfa üzvlərinin yaxud qəbilələr şurasının demokratik yolla seçdikləri hərbi sərkərdələrin sosial rolunun artması səciyyəvidir. Tayfa şurasını dövlətin, hərbi sərkərdələri isə şahlıq, krallıq, xanlıq və s. hakimiyyətlərin sələfi də adlandırırlar. Xarici antropologiyada isə bu başçı və başçılıq kimi işlədilir.

İbtidai cəmiyyətin ilk çağlarında tayfa və icmanın üst-üstə düşdüyü ehtimal edilir. İcma qohum ailələrdən yaxud ailə qruplarından yaranırdı. Böyük tayfalar tayfa qruplarına, bunlar isə daha kiçik qruplara – həmyerlilərə və s. ayrılırdı. Belə qruplara *linielər* adı verilmişdir. Məsələn, Şimali Amerikada müstəmləkə-



çiliyəqədərki dövrdə 12 fərqli mədəniyyət olmuşdur. Onlar bir-birindən təsərrüfat üsullarına görə çox fərqlənmişlər. Mədəni tiplər içində də etnik mənşəyə, sosial və siyasi quruluşa, təsərrüfat formalarına görə fərqlər olmuşdur. Kolumbaqədərki Amerikada qəbilə-tayfa quruluşunun əsasında bir neçə qəbilə konfederasiyaları (irokezlər, kriklər, mokilər və b.) dururdu.

Antik Yunanıstan da qəbilə-tayfa quruluşu mərhələsini keçmişlər. Ellinlər qəbilələrdə, qəbilələr fratriyalarda, fratriyalar tayfalarda, tayfalar isə millətdə birləşirdilər. Həm ayrı-ayrı tayfalarda, həm də millətdə idarəçilik quruluş vahidi kimi tayfaya əsaslanırdı və nəticədə tayfa cəmiyyəti yaxud xalq, siyasi cəmiyyətdən və ya dövlətdən kəskin fərqlənən quruluş yaranırdı. İdarəçi orqan başçılar şurası və xalq məclisinin (aqora) birgə fəaliyyətindən ibarət idi. Xalq azad, onun təsisatları isə demokratik idi.

Tayfa iki başlıca yolla – ayrılma və birləşmə – yaranır. Qida ehtiyatının çatışmadığı əhalisi sıx rayonlarda tayfadan bir hissə ayrılır və yeni yaşayış yerinə köçür. Bu yolla yaranan tayfa öncə ya bir dildə, ya da bu dilin bir ləhcəsində danışırdı. Belə bölünmə Amerika hindularında bir neçə min illər baş vermişdi. Bu prosesdə 70 ana qəbilədən 70 dil ailəsi yaranmışdı. Morqan hindu qəbiləsinə xas olan aşağıdakı funksiyaları və əlamətləri ayırmışdır:

- ərazisinin və adının olması;
- xüsusi ləhcəsinin olması;
- tayfanın seçdiyi saxemləri və başçıları vəzifəyə gətirmək hüququ;
- bu saxemləri və başçıları vəzifədən kənarlaşdırmaq hüququ;
- dini inanca və sitayişə malik olmaq;
- ali idarəedici orqanın-başçılar şurasının olması;
- bəzi hallarda tayfanın ali başçısının olması.

Qəbilələrin tayfada birləşməsi iki əlamət – qohumluq və ümumi əraziyə malik olmaq əlamətləri üzrə baş verirdi. Odur ki, qəbilə bir tərəfdən, qan qohumları ittifaqı idi, digər tərəfdən, ərazi ittifaqı idi, çünki qohumlar bir ərazidə yaşayıb kənd yaradırdı. Birləşmək zərurəti xarici düşməndən qorunmaqla və təsərrüfat tələbatları ilə bağlı olurdu.

Qəbilənin iki idarə orqanı – qəbilə şurası (tayfa ağsaqqalları) olurdu. Həmçinin hərbi sərkərdə seçilirdi.

Qəbilə-tayfa quruluşunun iqtisadi əsasını bostançılıq və maldarlıq təsərrüfatları təşkil edirdi. Siyasi quruluşları qeyri-formal xarakterli idi və hər hansı bir dövlət formasına uyğun gəlmirdi. Başçılıq və liderlik də kənd yaxud qrup səviyyəsində qeyri-formaldır. Bir çox qəbilə cəmiyyətlərində qəbiləni mütəşəkkilləşdirən ilkin siyasi vahid aşağıdakılardan ibarət olurdu:

1) klan – özlərinin ümumi əcdadından törəmiş insanlar birliyi;

2) yaşa görə siniflərə bölünmə (yaşdan asılı olaraq status alan insanlar birliyi);

3) maraq qrupları (bunlar zaman keçdikcə siyasi partiyalara, iqtisadi siniflərə, dini konfessiyalara ayrılırlar).

Ayrı-ayrı birliklərdən tayfaların formalaşmasına neolit dövründə başlanmışdır.

İbtidai qəbilələrin həyatı haqqında maraqlı bir faktı jurnalist O.Əliyev aşkar edib. O, beş fəsil Yeni Qvineyanın cəngəlliklərində yaşayaraq bu ibtidai insanların daxili aləminə nüfuz edə bilmiş, bu qəbilənin bir qadını ilə evlənib papuas qəbiləsinin tam hüquqlu üzvü olmuşdu. Əslində o, bizim keçmişimizlə – 20-30 min il öncə yaşamışların həyatını yaşamışdır. Bu bölgədə yaşayanların – keçmiş nəsillərin yadigarlarının tək silahı daş baltalar, nizə, yay və oxdur. Onlar öz allahlarına dua edir, qaranlıq düşdükdə isə şər ruhlardan ehtiyat edirlər. Burada hələ qan adətlərilə yaşayan və qurban verən qədim insanlar yaşayır.

Aborigenlər yazısız və odlu silahsız da yaxşı ötüşürlər, ancaq sürtünmə yolu ilə od əldə edir, bizə bəlli olmayan bitki yarpaqlarından ov üçün zəhər hazırlaya bilir, əl ilə balıq tutur, qji (ayı döşəyi) yarpaqlarından iki mərtəbəli ev tikirlər və s. Burada şamanlar qəbilədaşlarını planetimizin heç bir bölgəsində olmayan metodlarla müalicə edirlər.

Yeni Qvineya *papuasları* ağacların qabığında quşlardan daha məharətlə yığdıqları həşərat süfrələrilə qidalanır, qadınlar çaylardan əllərilə balıq tuturlar. Şaman kişiləri öz arvadlarının dişlərini daşla sürtüb itiləyirlər ($33_a$).

Papuaslarda ölüm halları yalnız müharibədə baş verir. Burada qadınlar işçi qüvvəsi, seksual obyekt, rifah ölçüsü və ərin əmlakı kimi dəyər daşıyır. Gəlin oğurluğu bir başa iqtisadiyyat sayılır: qonşu arvadının oğurlanması üçün valideynlərinə başlıq verilmir; nişanlı oğlan gəlinin kəndinə beş iri donuz, qəbilə başçısına isə donuz balası



gətirir.

Papuaslar döyüşkən qəbilədir. Onların sağlam və güclüləri sehrbazlıqla yaxud cadugərliklə məşğul olmur. Yalnız şikəst olmuşlar bu yolla qəbilədə yer alırlar. Onlarda hakimiyyət vərəsəliyi qanunu yoxdur və hər dəfə başçı yenidən seçilir. Aborigenlər güclü təsərrüfatçı, azacıq diplomat və yaxşı rəhbərlik edən başçıya dəyər verirlər.

İbtidai həyat tərzində yaşayan qəbilələrə planetin başqa bölgələrində də rast gəlinir. Məsələn, Cənubi Hindistan qəbilələrindən bəhs edən əsərlərin heç birində adı çəkilməyən və *çolanaykenlər* adlanan bir qəbilə yeni aşkar edilmişdir. Bu qəbilə heç bir göstəricisinə görə o bölgənin qəbilələrinə oxşamır. Qəbilənin oraya hardan gəldiyi və əcdadlarının kimliyi hələ elmə bəlli deyil.

Amma bu yaxınlarda iki gənc hind alimi onların məkanına getmiş və klanlardan birinin ağsaqqalının razılığı ilə bir həftə aborigenlərin arasında yaşamışlar. Müəyyənləşdirmişlər ki, qəbilədə olan 100 nəfər 5 klana ayrılmışlar. Onların dəriləri, qəribə də olsa ağdır. Kişilər ucaboylu, fiziki yöndən boylu-buxunlu, üzlərinin cizgiləri düzdür. Gənc qadın və qızlar gözəllikləri və ciddiliklərilə fərqlənirlər. Kişilər heyvanları ovlayır və balıq tutur, qadınlar isə giləmeyvələr, yeməli köklər və ağaclardan bal toplayırlar. Əsas silahları yay və oxdur. Balıq ovunda bizə bəlli olmayan ağacdan istifadə edirlər; balıq bu ağaca toxunduqda bir an iflic olur və suyun üzünə qalxır. Hər klanın öz ərazisi var (ov üçün).

Tarixin yadigarlarından biri də Çinin cənub-qərbində aşkar edilib. Burada *musuo* adlanan qəbilə matriarxat qanunları ilə yaşayır. Musuo qəbiləsinin yaşadığı məkanın uzaq və çətin tapılan olması ona bu yerlərdə yüzillərlə öncə yaşanılmış həyat tərzini saxlamağa imkan vermişdir. Mütəxəssis yazır ki, Çin ailələrinin əksəriyyətində iti qızdan üstün sayırlar və qadınlara ən yaxşı halda ikinci növ insanlar kimi baxırlar. Musuo qəbiləsində isə əksinə, hər şeyi qadınlar idarə edir. Onların həyatında ən cəzbedici cəhət budur ki, musuo qadınları seksual tərəfdaşı özləri seçir və onunla münasibətin nə qədər davam edəcəyinə qərar verirlər ($50_a$).

Bir neçə il öncə rus səyahətçiləri ekspedisiyası Amazonun Venesuela və Braziliya ilə sərhədində ayaqdəyməz cəngəlliklərdə gözdən uzaq və özlərini *yanomani* adlandıran qəbilə aşkar etmişlər.

Onlar günəşin, ayın, suyun, meşənin ruhuna səcdə edirlər. Ölənləri tonqalda yandırır, külünü isə yaxın qohumları özəl kisələrdə saxlayırlar. Anıt mərasimlərində ölmüşlərin külünü qidaya qarışdırıb yeyirlər. Onlarda başçı eyni zamanda ovsunçu və loğmandır; otların köməyi, ovsunlamaq və digər magik üsullarla insanları xilas edir. Yanomanlara onlarla zəhərli vasitələr bəllidir, bunlardan oxların uclarına sürtmək üçün istifadə edirlər. Zəhərləri bitkilərdən başqa ilanlardan, hörümçəkdən, qurbağadan da alırlar. Yanomanlar bir neçə ailədən ibarət qrup halında qamışdan hazırlanmış böyük komalarda yaşayırlar. Əsasən ovçuluq və balıqçılıqla məşğul olurlar. Qadınlar bostan becərir, kök və meyvə toplayırlar. Aborigenlər bir qayda olaraq narkomandırlar, narkotik bitkiləri xüsusi qəlyanlarda tüstüləndirib nəfəslərinə çəkirlər. Bayramlarda bitki kökləri və meyvələrindən sərxoşedici içki hazırlayırlar. Ağdərililərə qarşı çox aqressiv və düşməndirlər.

Qərb korporasiyaları onları öz məkanlarında qul kimi işlədirlər. Qərb nümunəsində modernləşdirmənin nəticəsi aborigenlər üçün bundan ibarət olur.

Antropoloqlar hesab edirlər ki, hazırda yaşayan ibtidai qəbilələr, uzaq keçmişin bu yadigarları Yer kürəsində getdikcə azalır. Tezliklə onlar yox olacaqlar. Müasir sivilizasiya ildən-ilə onları cəngəlliklərin dərinliyinə sıxışdırır. Təbiətlə tam harmoniyada, həmahəng yaşayan bu ibtidai qəbilələr yer üzündən tamam silinəndən sonra biz bəşəriyyətin necə inkişaf etdiyini unuda bilərik.

### 3.2. Aborigenlər və onların tarixi taleyi

Aborigen Yer kürəsinin ayrı-ayrı coğrafi bölgələrində (məsələn, Altayda, Cənubi Sibirdə, Avstraliyada, Yeni Zelandiyada, Tibetdə, Filippində və s.) ilk məskunlaşmış – yerli xalqların ümumi adıdır. Aborigenlər məskunlaşdığı yerlərdə ilk günlərdən indiyədək ənənəvi həyat tərzini saxlamış qəbilələrə, xalqlara deyilir. Bu sözün etimoloji anlamı (lat.Aborigines – ab origine- başlanğıc-dan) onun nə üçün antropoloji, etnoqrafik və tarixi əsər və hesabatlarda daha çox işləndiyini göstərir. Aborigenlər əzəldən öz torpaqlarında yaşadıqlarından öz xalqlarının tarixinin canlı yaddaşlarıdırlar, odur ki, qədim qəbilələrin sosial quruluşunu və mədəniyyətini öyrənən alimlər üçün əvəzedilməz informasiya qaynağı sayılırlar.



Geniş anlamda şərh edilərsə, Yerdə yaşayan xalqların əksəriyyətini – asiyalıları – türkləri, çinliləri, yaponları, afrikalıları, hinduları – aborigen adlandırmaq olar. Avropalıların isə aborigenlər sayılması üçün əsasın az olduğu qeyd edilir. Avropa qitəsində daimi miqrasiya prosesi olduğundan burada uzun müddət yaşayan və başqaları ilə qaynayıb qarışmamış etnos tapmaq mümkün deyil. Odur ki, avropalılar aborigen sayılmır. Aborigenlərə misal olaraq yerli Avstraliya əhalisini göstərmək olar. Onların sayının 400 min olduğu və Avstraliya əhalisinin 2% təşkil etdiyi bildirilir.

Avstraliya aborigenləri Yerdəki ən qədim sivilizasiyalardan biri sayılır. Bu sivilizasiya Avstraliyada ağ dərili adamların məskunlaşmasından çox öncə yaranıb. Bir vaxt Amerika və Avstraliya Böyük Britaniyanın *təhlükəli caniləri və araqarışdıranları-nın sürgün yeri* olub. XVIII əsrin sonunda Amerika özünün müstəqilliyini əldə etdi və sürgün yeri olmaqdan qurtardı. Artıq "adamları sürgün etmək üçün yeni və uzaq yer axtarmaq lazım idi". Bu Avstraliya oldu. Bu qitəni 1770-ci ildə kapitan Kuk kəşf edərək ingilis müstəmləkəsi elan etdi. Beləliklə, Avstraliya ərazisi ingilis tacının mülkiyyəti oldu. Burada aborigenlərin yaşadığı heç saya alınmadı. Yaşadıqları ərazini qəbilənin mülkiyyəti sayan Amerika hindularından fərqli olaraq Avstraliya aborigenləri başqa ərazilərə köçürdülər. Onlar torpağı qəbilənin mülkiyyəti yox, qəbilənin torpağa məxsus olduğunu düşünürdülər. Hindular kimi Avstraliya aborigenləri də ovçular və yığıcılar qəbilələri idilər, odur ki, köçəri həyatı yaşayırdılar. Torpaq isə əhalinin əkinçiliyə keçməsindən sonra qiymətləndirilməyə başlanmışdır. Hindularla torpaq *məsələsini həll etmək asan idi* – torpağı aşağı qiymətə olsa da almaq olardı. Bu yolla torpaq əldən-ələ keçirdi.

Avstraliya aborigenləri isə onlara məxsus torpaqların necə satıldığını bilmirdilər, odur ki, ağ dərili müstəmləkəçilər (bura sürgün edilənlər) haqq ödəmədən torpaqları zəbt edirdilər. Aborigenlər ilk vaxtlar ağdərililərin onlara əngəl olmayacaqlarını düşünürdülər, lakin sonra müstəmləkəçilərin qoyun sürüləri yarandı və yerli məskunları sıxışdırmağa, onların qidasını təşkil edən nə varsa hamısını məhv etməyə başladı. Aborigenlərdə mülkiyyət anlayışının olmaması üzündən onlar başqa heyvanlardan fərqləndirmədən ağdərili fermerlərin qoyunlarını da ovlamağa başladılar. Bu səbəbdən fermerlər aborigenləri qırmağa, qoruq yerlərə yerləşdirməyə

başladılar.

Əlbəttə, onlara yaxşı ərazilər ayrılmadı. XIX əsrdə baş vermiş torpaq işğalı XX əsrdə ciddi münaqişələrə səbəb oldu. Torpaqların əldə edilməsini göstərən formal da olsa müqavilənin olmaması bu və ya digər torpaqlara iddialı olan qəbilələrin çoxsaylı etirazlarına səbəb oldu. XX əsrdə, artıq aborigenlərin arasında sayca az olsa da savadlı adamlar ortaya çıxdılar. Yalnız 1967-ci ildə aborigenlərin və Avstraliyanın qalan əhalisinin hüquqlarını tarazlayan dəyişikliklər konstitusiyaya əlavə edildi. Aborigenlərin ən böyük qələbəsi Avstraliya Ali Məhkəməsinin 1992-ci ildə onların əzəli torpaq hüququnu etiraf etməsi oldu. Amma bu qərarda göstərilirdi ki, qərar hazırda azad torpaq mülkiyyətçilərinin ərazilərinə şamil edilmir. Aborigenlərin 2000-ci ildə keçirilmiş olimpiadada onu pozmaq niyyətilə çıxışları da onların öz hüquqları uğrunda mübarizəsi ilə bağlı olmuşdur. Maraqlıdır ki, aborigenlərin bir qismi Ümumdünya idman oyunları olimpiadasına etiraz etdikləri halda başqa qismi olimpiya məşəlini əlində aparmaq şərəfinə nail olmuşdu.

Avropa alimləri Avstraliya aborigenlərini planetin ən qədim və ən az öyrənilmiş sivilizasiyası sayırlar. XIX əsrdən bəri onlar yer kürəsinin daha qədim mədəniyyəti, müasir insanların əcdadlarının canlı təcəssümü hesab olunurlar. Onların incəsənət nümunələrindən biri yaşı 20 min ildən çox hesablanmış qayaüstü təsvirlərdir, dinlərini Spenser, Qillen, Radkliff-Braun, Berndt və b. alimlər ətraflı öyrənmişlər, hamısı Dürkheymin bu fikri ilə razılaşırlar ki. aborigenlərin dini totemizmdir. Avstraliya aborigenlərinin mədəniyyətilə tanış olmuş bəzi tədqiqatçılar onu yoxolmağa məhkum submədəniyyət adlandırırlar. Onlar nəticəyə gəliblər ki, çağdaş urbanizasiya və şəhər mədəniyyəti aborigenlərin bənzərsiz incəsənətini özündə əritməkdədir. Avstraliyanın əl çatmaz guşələrində, özəlliklə dağlıq yerlərdə aborigenlərin submədəniyyəti toxunulmaz halda saxlanılır. Bu rəyin müəllifləri eyni zamanda müstəmləkəçi və assimilyasiya siyasətinin aborigenlərin mədəniyyətinə ciddi ziyan vurduğunu da etiraf edirlər. Amma 1930-cu illərdən başlayaraq Avstraliya hökuməti aborigen mədəniyyətinin bərpası və saxlanması üçün davamlı tədbirlər görür. 1960-cı ildən bəri bu mədəniyyətin dirçəldilməsi fəallaşmışdır.

Ovçuluq və yığıcılıq keçmişindən ayrı salınmış aborigenlər



sivil yaşamağa məcbur edilirlər. Onların əksəriyyəti sivil həyatda yer tapmır, özlərinin sivil dünyanın əlində oyuncaq olduqlarını hiss edir, sərxoşluqla məşğul olur, əllərinə nə düşdü içirlər. Ağlar avstraliyası haqqında qanun son vaxtlarda ləğv edilib, ölkə Asiya köklü gəlmələrin hesabına beynəlmiləlləşir. Aborigenlər isə hələ də qoruqlarda yaşayır, dəbdəbəli həyatla qaynayıb-qarışa bilməyərək günlərini içməklə keçirir, sivil həyat yaşamaq istəyənləri isə işsizlik gözləyir.

Avropa alimləri Avstraliya aborigenləri haqqında belə danışırlar: onlar dünyada ən çox öyrənilmiş və ən az başa düşülən xalqdır. Təxminən XIX əsrədək Avstraliya aborigenləri dünyada Avropa elminə bəlli olan tək ibtidai mədəniyyət kimi tanınırdı. Bu ölçüdən də başqa xalqların əcdadları haqqında danışırdılar. Belə çıxırdı ki, artıq, elm onların haqqında hər şeyi bilir. Amma hər il yeni mədəniyyətlər aşkar edilir və indi alimlər ümumiyyətlə planetdə yayılmış aborigenlərin mədəniyyətlərini və həyat tərzlərini bildiklərini iddia etməkdə çətinlik çəkirlər. Aborigenlər azı 40 min il öncə Asiyanın cənubundan Avstraliyanın şimalına gəlmiş və məskunlaşmışlar. Avropalılar isə bu yerlərə 200 il öncə gəlmişlər. Avstraliya aborigenləri min illər boyunca dünyanın ticarət və mədəniyyət yolundan kənarda özünəbənzər etnomədəni birlik kimi formalaşmışdır. Təcridlik aborigen submədəniyyətini bənzərsiz etmişdir. Onların cəmiyyəti texnoloji və iqtisadi baxımdan çox ləng inkişaf etmiş və Avstraliyanın, Yeni Qvineyanın və Tasmaniyanın bir sıra yerlərində günümüzədək özünün ilkin mədəni formasını saxlamışdır.

Avstraliyada öncə 200-dən çox aborigen dilləri aşkar edilmişdir, indi onların çoxu məhv olmuş və məhv olmaq ərəfəsindədir. Qalan 40 dil haqqında internetdə 140 sayt yaradılmışdır ki, onların 30%-ni aborigenlərin özlərinin yaratdığı bildirilir. Avstraliya aborigenlərinin ən qədim mədəniyyət abidəsi 1967-ci ildə K.Şrayer tərəfindən aşkar edilən qayaüstü təsvir sayılır. Arnemlend yarımadasında və başqa yerlərdə 12 min il öncəyə aid kenquru təsviri və əl izi aşkar edilmişdir.

Aborigenlər başqa coğrafi bölgələrdə də yaşayırlar. Məsələn, Kanada aborigenləri üç əsas qrupa ayrılırlar: hindular, inuitlər (eskimoslar), metislər. Bunlar da bir-birindən ənənələrinə və

tarixlərinə görə fərqlənən tayfa və icmalara ayrılırlar. Aborigen icmalarında indiyədək 11 dil ailəsinə məxsus 53 dildə danışırlar. Avstraliya aborigenləri kimi onlar da öz hüquqlarının genişləndirilməsi üçün çıxışlar edirlər. 1951-ci ildə – Hindu aktına yenidən baxılana qədər aborigenlərə, o cümlədən musiqiçilərinə də spirtli içkilərin satışına lisenziyası olan restoranlara və barlara getmək qadağan edilirdi. Azadlıqlara başqa mühüm məhdudiyyətlər qoyulurdu. Bütün bunlar təkcə siyasi yox musiqiçilərin də etirazına səbəb olurdu. Aborigen musiqiçilər zorakılığa və irqçiliyə qarşı etiraz edirdilər. Yaradıcılığa meyilli aborigenlər üçün gitara aqressivlik aləti sayılırdı. Kanada aborigenlərinin – hindularının lideri E.Xarper onlara özünüidarə hüququ verilməsi tələbi ilə çıxış edir. Amma Kanada aborigenləri siyasi fəaliyyətlə yanaşı çox koloritli folklor ansambllar yaradaraq mədəni fəaliyyətlə də məşğul olurlar. Onların mahnı yaradıcılığı həm də yumşaq lirikliyi və sosial yönümlülüyü ilə səciyyələnir.

Aborigenlər Rusiya ərazisində də yaşayırlar. Onlar Rusiyanın Şimalında, Uralda, Qərbi və Şərqi Sibirdə məskunlaşmışlar. Bəziləri indi də min illər boyu məskunlaşdığı yerlərdə yaşamaqda davam edir, bəziləri isə yox olmuşlar.

Elmi ədəbiyyatda bu tarixi rəvayətlərə keçmişdəki olayları dürüst təsvir edən qaynaqlar kimi baxış ənənəsi formalaşmışdır. Bu rəvayətlərin müxtəlif regionlarda, hətta müxtəlif etnoslara məxsus rəvayətlərlə oxşar olduğu da qeyd edilir. Yox olmuş aborigenlər yazıyaqədərki mədəniyyətlər olduqlarından onların haqqında məlumat almağa imkan verən heç bir qaynaq yoxdur. Odur ki, biz onların necə yaşadıqları barədə yalnız narrativ qaynaqlara yəni şifahi rəvayətlərə əsasən fikir söyləyə bilərik. Bu qaynaqlardan tədqiqatçılara "xırda insanlar", "iri adamlar", "tüklü insanlar", "qırmızıdərili insanlar", "vəhşi insanlar" və s. kimi qəribə epitetlər (ləqəblər) bəlli olmuşdur. Bu cür anlayışlar aborigenlərin yalnız xarici görünüşü deyil, həmçinin onların məşğuliyyətlərini, bütpərəstliyini, qidalanma üsulunu, həyat tərzini təsvir edir.

Kütləvi mətbuatda "aborigen" termini, həmçinin indiki şimal xalqlarına münasibətdə işlədilir. Hər dəfə onlardan söz düşəndə jurnalistlər və alimlər sual qoyurlar: "maraldar" insanların nəsilləri XXI yüzildə yaşayacaqlarmı? Şimal aborigenlərində uşaq ölümü



Yakutiya Respublikası ilə müqayisədə 5 dəfə çoxdur. Rusiya imperiyasının 1897-ci ildə apardığı siyahıya almaya görə, o zaman Yakutiyada 14153 aborigen yaşayırdı. 1987-ci ildə isə onların sayı 23620 çatmışdı.

### 3.3. Traybolizm və ailə-tayfa sistemi

*Traybolizm.* Latın dilindən götürülmüş (*tribus-qəbilə*) bu söz qəbilə-tayfa quruluşuna məxsus ibtidai sosial münasibətlər formasının münasib şəraitdə yenidən canlandırılmasını səciyyələndirir. 1990-cı illərdə traybolizmin bəzi əlamətlərinin – qəbilə-tayfa quruluşunun ayrı-ayrı atributlarının dirçəlməsinə Başqırdıstanda can atılmışdır.

Antropoloji ədəbiyyatda traybolizmin mədəni-məişət, dini-sitayiş, ictimai-siyasi qəbilə kimi xüsusiləşməsi göstərilir. Belə insan birliyi, qəbilə quruluşuna Avropa siyasi təsisatlarının (ordunun, məmurluğun, bir yaxud bir neçə siyasi partiyanın, parlamentin və s.) mövcud olduğu ölkələrdə rast gəlinir.

Elmi ədəbiyyatda bu anlayışa müxtəlif mənalar verilir. Bəzən traybolizm iri miqyaslı cəmiyyətin klassik qəbilə birliklərinə ayrılması kimi, bəzən də hakim mədəniyyətin bir çox submədəniyyətə və subqruplara (etnik, peşə, irqi, dini) parçalanması kimi şərh edilir. Bəzən də onu ümumbəşəri dəyərlərə əks olan lokal, etnik dəyərlərə yönəliş meyillənmə kimi izah edirlər.

Bir zaman ABŞ-ı *əritmə qazanı* adlandırırdılar: bura XIX əsrdə və XX əsrin birinci yarısında miqrasiya etmiş xaricilər yeni, millətüstü keyfiyyət əldə edib vahid birlikdə ərimişdilər. Sonradan ABŞ-ı içində *salat olan boşqab* adlandırdılar. Bu o demək idi ki, mühacirlər yeni tarixi birlikdə – Amerika xalqı içində iz qoymadan əriməyib, qapalı diasporlar yaradaraq mədəni özgürlüklərini saxlayır və hətta inzibati-hüquqi muxtariyyat tələb edirlər. ABŞ-ın yeni nəsli bu modellərin heç birini qəbul etmir. Belə ki, birinci model insanları eyniləşdirir, ikinci model isə xalqları bir-birinə düşmən edir. Yeni nəsil amerikalılar çağdaş Amerikanın problemini belə görürlər: necə edək ki, insanlar bir-birlərinə oxşamasınlar, həm də düşmən olmasınlar, oxşarlığın saxlanılmasında fərdi fərqlər itirilməsin; cəmiyyət o dərəcədə demokratik və çevik olsun ki, müxtəlif fərdlər və qruplar harmoniya şəraitində yaşaya bilsin.

Xarici ölkə alimlərinin traybolizm terminine verdikləri başqa məna çaları, daha çox siyasi xarakter daşıyır, yəni bu anlayış mədəni özgürlüklə yanaşı, suveren olanların paradını da nəzərdə tutur və qəbilələrarası düşmənçiliyin təzahürlərindən biri kimi anlaşılır.

Bu mərhələni xüsusilə köhnə SSRİ və Yuqoslaviya keçmişdir. Burada iri etnik xalqlar siyasi müstəqillik tələb edib öz dövlətlərini qurdular. Mütəxəssislər bu dövlətlərin ümumi maraqlarına əks olan dini, etnik yaxud milli maraqların birinciliyinin iddia edilməsini də traybolizm adlandırırlar. Bu mədəni traybolizm cəmiyyətin yalnız seqmentasiyasına (parçalara ayrılmasına) deyil, dövlətin fraqmentasiyasına, muxtariyyətlərə ayrılmasına və parçalanmasına aparır. Bu cür traybolizm ABŞ-da milli təhlükəsizlik üçün potensial təhlükə sayılır.

Dövlət və hüquq nəzəriyyəsində traybolizm tropik Afrika, Okean ölkələrində və dünyanın bəzi başqa ölkələrində qəbilə ayrılıqlarını göstərmək üçün işlədilir. Traybolizm praktikası eyni qəbilədən olanların dövlət aparatında himayə olunmasını, hakimiyyət orqanlarında kadrların seçilib yerləşdirilməsi zamanı bir etnik qrupun nümayəndələrinə üstünlük verilməsini və digər etnik qrupların nümayəndələrinin hüquqlarının nəzərə alınmamasını nəzərdə tutur.

Traybolizm vətəndaşların bərabərhüquqluluğu prinsipini heçə endirir və ölkəni vətəndaş müharibəsinə sürükləyir. Nigeriyada, Zanzibarda, Kenuyada və qaradərililər qitəsinin başqa ölkələrində dini zəmində baş vermiş qanlı toqquşmaları traybolizm və qəbilələrarası ədavət dərinləşdirir.

Traybolizm Afrika ölkələrinin çoxunun daxili siyasi inkişafının kəskin problemlərindən biri sayılır. Bu qitənin əhalisinin böyük hissəsi indiyədək cəmiyyətin qəbilə quruluşunun və əhalinin qəbilə strukturunun mövcud olduğu şəraitdə yaşayır. Müəyyənləşdirilmişdir ki, Tropik Afrikasında üç mindən çox müxtəlif qəbilə yaşayır və hər qəbilə öz dilində danışır. Buranın iqtisadi, sosial və siyasi həyatında qəbilə münasibətlərini nəzərə almamaq olmaz. Burada siyasi partiyalar da qəbilə şüuru əsasında yaradılır, çünki partiyalar ilk sırada qəbilənin yuxarı təbəqələrinin mənafeyini əks etdirir. Qohumluq əsasında kiçik kompaniyalar və ailə biznesi yaradılır, emalatxanalar, nəqliyyat firmaları və hətta kiçik banklar yaranır. Amma iri sənaye kompaniyaları və maliyyə holdinqləri qohumluq



münasibətləri hüdudundan kənara çıxır. Belə şəraitdə siyasi həyat çox vaxt qəbilələrarası ədavət zəminində toqquşmalardan ibarət olur. Bu səbəbdən bir sıra ölkələrdə, məsələn, Kenuyada hökumət formalaşdırılarkən hər zaman nazirlərin tərkibində "qəbilələrin tarazlığı"nın saxlanmasının zəruriliyi nəzərə alınır.

Siyasi və iqtisadi qapalılıq və yerliçilik maraqları ilə qırılmaz bağlılıqda olan traybolizm ümumərazi partiyalarının yaranmasını əngəlləyir. Afrika siyasətçilərinin çoxu düşünür ki, qitə şəraitində çoxpartiyalı sistem qəbilə ayrılığının saxlanmasına kömək edir, odur ki, traybolizmə qarşı mübarizədə birpartiyalı idarəçilik vacibdir.

Traybolizm cəmiyyəti parçalanmağa yönəltdiyinə və bölücülüyün (separatizmin) ideoloji əsası olduğuna görə tənqid edilir. Traybolizmin başqa bir tərəfi də vardır. CAR və Rodeziyada hökumət ondan milli-azadlıq hərəkatını mühakimə etmək üçün istifadə etmişdir. İctimai şüurda traybolizmin mənfi çalar daşıdığından istifadə edərək hökumət Zimbabve Milli Qurtuluş Cəbhəsini müxalif qüvvə adlandıraraq ona qarşı mübarizə aparmaq qərarına gəlmişdir. Jurnalistlər də onu qızışdıraraq yazırdılar ki, müxalifətin sıralarına ibtidai qəbilə şüurlu, sivil dəyərlərdən uzaq yaxud onlara yad olan insanlar daxil olur.

Bütün bu xüsusiyyətlərinə görə, mütəxəssislər traybolizmi qəbilə-tayfa bölücülüyünün ideologiyası, ibtidai-qəbilə quruluşunun köhnə əlamətlərinin (adətlərinin, inanclarının, dilinin, qəbilə özünüidarəçiliyinin və s.) saxlanmasına cəhd kimi qiymətləndirirlər. Ancaq nəzərə alınmalıdır ki, ideoloji yarlıq kimi bu terminlə haqlını da haqsızı da mühakimə etmək olar.

Belə ki, müxtəlif qəbilələrdən ibarət olan xalqı bir millət halında birləşdirib çağdaşlaşma və sivilizasiya yoluna çıxarmaq istəyən bəzi Afrika ölkələrinin liderləri traybolizmi pisləyirlər. Onlar üçün traybolizm tərəqqiyə əngəl olan tarixi keçmişin qalığı olmaqla yanaşı, həm də öz qəbiləsinin rifahı üçün deyil, acgöz siyasi maraqlar naminə mərkəzi hakimiyyətlə mübarizə aparan yerli knyazların ideologiyasıdır. Müstəmləkəçilikdən sonrakı Afrikada hər bir dövlətdə milli vəhdətin və ümummilli şüurun formalaşması, tək dövlətə məxsusluq hissinin yaranması qəbilə strukturunun və qəbilə şüurunun müqavimətinə, qəbiləyə məxsusluq və bu və ya digər dövlət sınırlarının tanınmaması hissinə qarşı kəskin mübarizədə baş verir ($184_a$).

Bəşər sivilizasiyasının sübh çağında, yaxud başlanğıcında oynadığı rolun, kiçik cəmiyyətin dəyişən və riskli xarici şəraitə uyğunlaşmasında və yaşamasındakı rolunun əksinə olaraq indi traybolizm çağdaş cəmiyyətə yad olmuş psixologiyanın yaxud mentalitetin varisi olmuşdur. Traybolizmin daşıyıcılarının çoxəsrlik təcrübəsində belə bir prinsip oturuşmuşdur: "Öncə özününkünü qoru, sonra kimin haqlı olduğunu ayırd et".

Doğrudan da bir çox əlamətlərinə görə qəbilə insan birliyinin *qapalı qrup* tipidir, bura yadların girməsi məhdudlaşdırılır, ya da yasaq edilir. Bu insan birliyində yalnız eyni qəbilədən olanlar – qan qardaşları özününkü sayılır. Traybolizm prinsipinə uyğun olaraq insan, yalnız öz qəbiləsində dinclik tapa, qoruna bilər. Bu prinsip qəbilənin hər hansı bir üzvünə qarşı edilmiş cinayətə görə bütün qəbilənin qisas almasına yol verirdi. Tayfanın – qəbilənin hər hansı bir üzvünün hərəkətinə görə isə bütün qəbilə cavabdeh idi.

Qəbilə quruluşunun insan birliklərinin dinc yanaşı yaşamasına, irqlərin və mədəniyyətlərin qaynayıb qarışmasına ciddi əngəl olduğu təbii sayılır. Qəbilələr də eynilə kastalar (silklər) kimi endoqamiyaya (yalnız qrupdaxili kəbinə) əsaslanır.

Qəbilələr çox nadir hallarda görüşür və qəbilələrarası kəbinə yol verirlər. Yeni Qvineyanın dağlıq yerlərində min illər boyu bir-birilə bir dəfə də olsun görüşməmiş və bir-birinin varlığından xəbərsiz qəbilələr yaşayır. Buna oxşar hal Afrika qitəsində də var. Diqqət mərkəzində yalnız qəbilə və onun maraqları, daha doğrusu, qəbilə başçısının maraqları durur.

Mütəxəssislər traybolizmin tarixdə mənfi və müsbət rol oynadığını göstərirlər. Deyilir ki, bir sıra xalqlar öz varlığına görə traybolizmə borcludur. D.Cunusaliev və V.Ploskix internet saytında yerləşdirdikləri "Traybolizm və Qırğızıstanın inkişafı problemi" adlı yazısında köçəri xalqların həyatında traybolizmin rolu barədə yazırlar ki, bütün köçəri xalqların tarixi göstərir ki, yalnız dövlətçiliyi olmayan xalqlar traybolizm prinsipinə ardıcıl riayət edərək özlərinin etnik müstəqilliyini və bütövlüyünü saxlaya biliblər. Başqaları – hunlar, saklar, usunlar, qıpçaqlar – isə qəbilə halında formalaşaraq, demək olar ki, qırğızlarla eyni vaxtda başqa etnik törəmələr arasında ərimiş yaxud başqa etnik adlar altında tanınmışlar. Bu anlamda – xalqın özgürlüyünü və bütövlüyünü saxlanması üçün – qırğızların



təkcə keçmiş və indiki nəsilləri yox, həm də gələcək nəsilləri traybolizmə minnətdar olmalıdırlar.

Bu yanaşmanın əksinə olaraq amerikalılar traybolizmin dünya üçün təhlükə olduğunu yazırlar. Onlar hesab edirlər ki, ABŞ-ın və onun antiterror birliyi üzrə müttəfiqlərinin apardığı mübarizə yeni dünyanın tayfa-qəbilə quruluşunu təmsil edən və mərkəzində islam *fundamentalizminin durduğu köhnə dünya ilə müharibəsidir.* Nəticə etibarı ilə bu mübarizə qloballaşma ilə traybalizm arasında mübarizədir. Məsələn, V.Lazara görə, sərhəd tanımayan və bütün əngəlləri aradan qaldırıb bir-birindən minlərlə kilometr aralı yaşayan xalqları birləşdirən qloballaşmaya qarşı, gerçəkdən traybolizasiya və təcridlik meyli durur. Bu meyl xalqlara sıx birlik halında yaşamağa imkan vermir. Qloballaşma isə bəşəriyyətin mədəni təkamülünün yeni mərhələsidir. O xalqlara bir-birinə qarşı dözümlü olmağı öyrədir. Bu halda antiqlobalistlər, eləcə də islam fundamentalist hərəkatları traybolizm kateqoriyasına aid edilmiş olur. Bu hərəkatların daşıyıcıları real mövcud olan qəbilə-tayfa cəmiyyətləri, özəlliklə də talibanlardırsa, çağdaş sivilizasiyaya qoşulmuş Qərb ölkələri vətəndaşları qloballaşmanın daşıyıcılarıdır. Beləliklə, tədqiqatçılar traybolizmi siyasi, sosial və mədəni yönlərdə araşdırırlar.

Siyasi traybolizm dedikdə, qohumluq əlaməti üzrə formalaşmış ictimai qrupun dövlət hakimiyyətinə girməsi və həm dövlət siyasətinə, həm də regional siyasətə təsir etməsi başa düşülür. Traybolist münasibətləri üçün səciyyəvi olan budur ki, belə sosial qruplar dövlət qarşısında heç bir borc daşımırlar.

Tarixi-mədəni traybolizm tayfa əsasında yaradılmış əski təsisatların çağdaş mərhələdə saxlanmasıdır.

Sosial traybolizm müəyyən qrupun mövcud qarşılıqlı yardım təsisatları vasitəsilə geneoloji bağlılıq əsasında qəbilə üzvlərinə sosial dayaq olmaq üçün iştirakıdır. Sosial aspektdə traybolizm mühüm sosial aktyor, daxilində müəyyən rituallar əsasında sıx və davamlı ünsiyyətin baş verdiyi bir korporasiya olur. Onun əsasında qəbilənin və millətin balansı durur.

Traybolizm məişət müstəvisində də şərh olunur. Alimlər hesab edirlər ki, məişət traybolizmi, özəlliklə ruslara xasdır: onlar istisnasız olaraq hər şeyi "tanışlığa" görə etməyə çalışırlar. Amma onlar tanışlıq üzrə yalnız öz qohumlarına, sonra dostlarına və faydalı tanışlarına

xidmət edirlər. "Traybolizm" termini qəbilə-tayfa qalıqlarını əks etdirir, qan qohumluğu münasibətlərinin bütün digər münasibətlərdən üstün tutulduğunu ifadə edir. Əgər kadrların seçilməsində işi yaxşı bilən ixtisaslı işçilər öz qohumunun yaxud özününkünün xatirinə kənarda qoyulursa, onda bunu traybolizmin qabarıq əlaməti saymaq olar. Qohumun yaxşısı – pisi yaxud təcrübəlisi və təcrübəsizi ola bilməz. Qohumdursa işə onu götürmək lazımdır vəssalam. Halbuki, səmərəlilik, pul və siyasət üzərində qurulan bazar cəmiyyəti traybolist ənənələri ilə bir araya sığmır. Bazar cəmiyyətində qan qohumluğu, "yerliçilik", tanışlıq, klançılıq, dostbazlıq təzahür etdiyi hallarda sosioloqlar belə cəmiyyətdə traybolizasiya meylinin olduğundan söz açır, göstərirlər ki, bu meyl cəmiyyətin bazar iqtisadiyyatı yoluna hələ qəti şəkildə düşməyib özünün sosial strukturunda güclü arxaik münasibətləri və təsisatları saxlayır.

*Ailə-qohumluq sistemi.* Cəmiyyətin sosial genezisində özəl rolu olmuş ailə-qohumluq sistemini antropoloqlar və etnoqraflar *linc* adlandırırlar.

Linc latın dilindəki *linea* sözündən götürülmüşdür və xətt, sıra, nəsil, tayfa anlamı daşıyır. Çağdaş etnoqrafik ədəbiyyatda bir qohumluq xətti anlamında işlənir. Bu xətt ata yaxud ana xətləri ola bilər. Ana xətti üzrə qohumluq qrupuna *matrilinc*, ata xətti qrupuna isə *patrilinc* deyilir.

Linc sözü iki mənada işlədilir: 1) birinci nəsildən başlayaraq bu ailənin indi yaşayan fərdlərinə qədər olan xətt; 2) əcdadı ümumi olan və bu zəmində qan qohumluğu telləri ilə bir-birinə bağlı olan insanlar qrupu.

Linc dövlətəqədərki cəmiyyətdə daha geniş yayılmış qohumluq birliyi forması sayılır və tayfa, klan, böyük ailə kimi başa düşülür. Belə qohumluq özəyinə eyni soyadı daşıyanlar daxildir.

Əcdadlar silsiləsi yaxud yüksələn və ya enən nəsillər xətti üzrə qohumluq səcərəsi ibtidai cəmiyyətdə tayfa-qəbilə təşkilinin sosiomədəni və demoqrafik zəmini, əsası kimi çıxış edir. Ailələrdən fərqli olaraq tayfa qrupu daimidir, bir çox nəsillər boyu saxlanılır. Antropoloqlar tayfa qruplarını bir neçə tipə ayırırlar.

Tayfa quruluşuna əsaslanan ibtidai cəmiyyətdə hər tayfa bir çox linclərə -qohum ailələrə bölünürdü. Rus etnoqrafiyasında "linc" anlayışı yerinə "böyük ailə" anlayışı işlədilir. Böyük ailə dedikdə



başçısı olan və bir neçə nəslin nümayəndələrini özündə birləşdirən, ümumi təsərrüfatda bir-birilə əlaqədə olan qohumlar qrupu nəzərdə tutulur. Elmi ədəbiyyatda "*patronomiya*" termini də işlənir. Bu terminlə təsərrüfat, ictimai və ideoloji birliyini saxlamış və ümumi patronomik adını daşıyan bir patriarxal ailə icmasının böyüməsi və praçalanması nəticəsində yaranan böyük yaxud kiçik ailə qrupu ifadə edilir. Patronomiya da qəbilə kimi ekzoqam birlik sayılır.

Mütəxəssislər tayfa və qarışqa ailəsi arasında oxşarlıq görürlər. Qarışqa ailəsi yüz, min, bəzən milyon fərdlər birliyidir. Bu birliyin sayəsində qarışqalar yuva qurur, yeni nəsli qidalandırır, yuvanı və onun yem toplanmış sahəsini aqressiv qonşularından qoruyurlar. Yaşamağa qabil qarışqa ailəsində fərdlərin sayı 100 minə qədərdir.

Fərdlərin sayı 200 mindən çox olduqda qarışqa ailəsi hissələrə (dəstələrə) bölünməyə başlayır. Hər bir dəstə tam müstəqildir və qarışqa ailəsinə xas olan bütün funksiyaların tam həyata keçirilməsi üçün zəruri olanı yerinə yetirir. Bir yuvada bir neçə tam formalaşmış yuva birgə mövcud olur. Bu qarışqa dəstələrini – kolonlarını insan linclərinin analoqları adlandırırlar. Bir qarışqa yuvasında iki, bəzən də üç kolon, hər kolonda 60-100 min qarışqa olur. Eləcə də lincin evlənməmiş bütün üzvləri, həmçinin evlənmiş kişilər patrilincdə və ərli arvadlar matrilincdə, bir qayda olaraq bir yerdə yaşayırlar və ailə-qohum qrupunun özəyini təşkil edirlər. Bu qrupa kəbin yolu ilə gəlmiş və mənşəcə başqa linclərdən olan qadınlar və kişilər də daxil olurlar. Nəticədə qan qohumları təsərrüfat birliyi yaradırlar. Buna klassik misal kimi irokezlərin matrilinci və yuqoslaviya patrilinci göstərilir.

Ayrı-ayrı linclər, xüsusilə də Afrika qəbilələri və xalqlarında real yaxud qondarma səcərələrlə daha böyük birliklərdə birləşərək müxtəlif səviyyəli linclər əmələ gətirirlər. Nəticədə linc sistemi, bəzi hallarda qəbilənin yaxud bütöv bir xalqın bütün üzvlərini əhatə edə bilir.

Linclərin tərkibinə qohumluq xəttinin orta hesabla 3-7, bəzən 10 nəsli daxil olur. Ondan fərqli olaraq böyük ailədə, adətən üç-dörd nəsil birləşirdi. Belə qrup çərçivəsində bütün təsərrüfat həyatı, qida hasilatı, onun bölgüsü, nəslin yemək təminatı və ilkin tərbiyəsi (əmək, mədəni, sosial və məişət vərdişlərinin aşılanması) mərkəzləşirdi.

Tayfadan fərqli olaraq lincdə mənşə mifik əcdaddan yox, gerçək mövcud əcdaddan götürülür ki, bunu izləmək və müəyyənləşdirmək

olar.

Alimlər dünyanın bütün bölgələrində lincin böyük (3-4 nəsildən ibarət) ailədən fərqini onda görürlər ki, lincdə təsərrüfat funksiyaları ikinci dərəcəli yer tutur. Məsələn, böyük ailə, ilk Roma cəmiyyətinin özəyi olmuşdur. Onun müasir adı – patriarxal ailə (soyadı – familiya) buradan irəli gəlmişdir. Onun başçısı (*pater familias*) əcdad – nəsillərin səcərəsində (genealoji pilləkənində) ailə üzvlərini təmsil edir. Ailə başçısının – sahibinin hakimiyyəti və nüfuzu aqnatik qohumluğa əsaslanır. Ailə başçısının yaxud sahibinin ikinci planda yaranan iqtisadi hakimiyyəti yox, aqnatik qohumluğu soyadını (familiyanı) yaradan başlanğıcdır. Əcdadların soyadına pərəstiş (kult), onların ruhlarına qurban kəsilməsi, ailə ocağı pərəstişi böyük rol oynamışdır. Ata öldükdən sonra ev sahibliyi oğullara keçirdi. Soyadı üzərində "ata hakimiyyəti" (patria potestas) bütünlüklə oğul-sahibə keçirdi. Odur ki, "soyadı" onun tərkibinə daxil olan ailə üzvlərini deyil, ailənin əmlakını da bildirirdi. Uşaqlar, ana, kölələr yeni sahibin hakimiyyəti altında olan şəxslər sayılırdı. Ev sahibi yaxud başçısı xüsusi hüquq sahəsində ailə kollektivinin şəriksiz nümayəndəsi idi, ailə mülkiyyəti üzərində hüquqa malik idi, işləri aparmaq, alqı-satqı etmək, soyadı daşıyan üzvlərinə münasibətdə olum ya ölüm hökmü çıxarmaq ixtiyarı yalnız ona məxsus idi. Roma vətəndaşının hüquqi şəxsiyyəti (persona) haqqında təsəvvür bu əsasda formalaşmışdı: hüquqi şəxsiyyət yalnız ev sahibi ola bilərdi: ailənin qalan üzvlərinin xarici aləmlə təmas hüququ yox idi.

Lincdə aralıq qohum törəmələr də olmuşdur, bunlara patronimlər və klanlar aid edilir.

## IV Fəsil
## İbtidai cəmiyyətdə sosiosiyasi təkamülün başlanması

### 4.1. Başçılıq, yaxud protodövlət və onun sosiosiyası təkamüldə yeri

Cəmiyyətin sosiosiyasi təkamülündə *protodövlət (dövlətə-qədərki idarəçilik forması)* lokal qrupdan sonrakı addım sayılır. Lokal qrup özündə bir neçə ailəni birləşdirdiyi halda, protodövlət bir neçə lokal qrupun bir idarəçilik altında birləşməsidir. Odur ki, mütəxəssislər protodövlətə dövlətin tarixi təkamülü yolunda keçid



forması kimi baxırlar, çünki bu forma çərçivəsində artıq insanların əmlak bərabərsizliyi mövcud idi, ancaq hələ siniflər, sosial təbəqələr və kastalar (qrup mənafeyini güdən qruplar) yox idi.

Nəticə çıxarmaq olar ki, mahiyyətinə görə protodövlət cəmiyyət və dövlətin vəhdətinin ən ilkin, başlanğıc formasıdır. Antik yunan polisi bu vəhdətin yetərincə yetkin forması hesab olunur.

Antik yunan filosofları, o cümlədən Platon və Aristotel cəmiyyəti və dövləti qırılmaz vəhdətdə təsəvvür edirdilər və cəmiyyətdə dövlətə qədər hansısa bir formanın olduğu ağıla, belə gəlmirdi. Əslində isə bu forma var idi və alimlər onu yalnız XX yüzildə düzgün izah edə bilmiş, onu protodövlət yaxud dövlətə-qədərki idarəçilik adlandırmışlar.

Antik yunan filosofları cəmiyyəti və dövləti sivilizasiyanın iki başlıca əlaməti sayır və az inkişaf etmiş barbar (yunan olmayan) xalqlarda bu iki əlamətin olmadığını güman edirdilər. Belə düşüncə elmdə 2, 5 min il kök salmışdı, yalnız XX yüzilin ortalarında ibtidai cəmiyyətdə dövlətçiliyin ilk rüşeymlərini görmək mümkün olmuşdur. Bu qədər uzun bir zamanda elmdə ona diqqət yetirilməməsi real həyatda onun olmadığını təsdiq etmir. Məsələ ondadır ki, bəşər tarixində günümüzə qədər ibtidai cəmiyyət və sivil cəmiyyət yanaşı mövcud olmuşlar, ancaq ibtidai cəmiyyətdə protodövlət idarəçiliyi yaxud idarəçiliyin protodövlət forması alimlərin diqqətindən yayınmışdı. Başqa sözlə, tədqiqat obyekti kimi protodövlətin tarixi 40 min il, onun öyrənilməsi tarixi isə 60 ildir. Buradan görünür ki, elmdə ən çətin iş – cəmiyyətin gözəçarpan tiplərinin axtarılması deyil, aralıq, aydın görünməyən, durulmamış tiplərinin axtarılmasıdır. İndi aydın olmuşdur ki, ibtidai cəmiyyətlər dünyasında ictimai quruluşun keçid, aralıq növləri, tipləri və formaları, heç də sivil cəmiyyətlər dünyasında olduğundan az deyil.

Protodövlət – insanların elə pilləvari mütəşəkkil quruluşudur ki, burada yetkin dövlətə xas olan əlamət – şaxələnmiş idarə aparatı yoxdur. Protodövlət quruluşu sosial bərabərliyə əsaslanır, ancaq onun strukturunda qan qohumluğu münasibətləri üstün tutulur. Fərdin nüfuzu və vəziyyəti onun başçıya yaxınlıq dərəcəsindən asılıdır.

"Protodövlət" termini dilimizdə dah çox "başçılıq" termininin sinonimidir. "Başçılıq" və "başçı" terminləri etimoloji yöndən daha çox terminoloji baxımdan bir-biri ilə bağlıdır.

Başçılıq termini vasitəsilə mütəxəssislər mürəkkəb proto-dövlətlərdə yaxud dövlətəqədərki idarəçilik sistemlərində hakimiyyətin vərəsəliyi və ya seçkiliyi təsisatlarını, müstəmləkə və üçüncü dünya ölkələrində hakimiyyətin və idarəçilik sisteminin təmərküzləşməsini, ənənəvi cəmiyyətlərin demokratikləşməsi yollarını izah etməyə çalışırlar. Göründüyü kimi, başçılıq sosiosiyasi cəmiyyət tipi, sosial təkamüldə bir pillə, yaxud mədəni təsərrüfat forması olmayıb, siyasi təsisatdır. Mövcud elmi ədəbiyyatla tanışlıq, başçılıq termininin əkinçiliyəqədərki dövrə yox, əsasən müstəmləkə ölkələrindəki əkinçilik təsərrüfat formasına keçmiş cəmiyyətlərə münasibətdə işlədilməsinin daha düzgün olduğunu düşünməyə əsas verir. Başçılıq termininin müasir şərhinə görə bu termin müstəmləkəçiliyəqədərki və müstəmləkəçilikdən sonrakı siyasi nizamların sintezini ifadə edir. Müasir ölçüdən baxıldıqda kənd ağsaqqalının (qəbilə, tayfa başçısının) əlində olan hakimiyyət arxaik, yaxud köhnəlmiş siyasi təsisat sayılır. Filosoflar və politoloqlar üçün bu təsisat ona görə maraqlıdır ki, o, cəmiyyəti şok durumuna salmadan tədricən ənənəvi, geri qalmış aqrar cəmiyyəti yaranmış təsisatlara və arxaik dəyərlər sisteminə əsaslanaraq modernləşmə yoluna keçirmək imkanını müəyyən etməyə kömək edir. Afrika qəbilələrində başçının hakimiyyəti vərəsəlik təsisatına əsaslanmadığı üçün alimlər qəbilə başçısının seçilməsi mexanizmi ilə Qərb demokratiyasına xas olan seçki sisteminin bir tam halında birləşdirilməsinin mümkün olub-olmadığını müəyyənləşdirməyə çalışırlar.

Müstəmləkəçilik rejiminin olmadığı ABŞ-a münasibətdə başçılığa ağsaqqallıq prinsipinə əsaslanan ənənəvi təsisat kimi baxılır. Amerika antropoloqlarına görə, aborigenlərində Kolumbaqədərki zamandan saxlanmış bu təsisat qəbilə cəmiyyətində hakimiyyətin təşkili formasıdır. Alimlər hesab edirlər ki, hindularda mövcud olan ağsaqqallar yaxud başçılar şurası cəmiyyətin respublika quruluşunun gözəl nümunəsidir. Politoloqlara görə, "senat" termini böyük (senior) və ağsaqqallıq sözlərinə gedib çıxır. Başçını ağsaqqallar şurası seçirdi, ona tabe olmaq isə könüllü idi və avtoritarizmə əsaslanmırdı. Başçıya tabelik qan qohumluğunun və genealoji münasibətlərin mifləşdirilməsi ilə bağlı idi. Qəbilənin zaman-zaman bir çox nəsillərə və qohum xətlərə (linclərə) ayrılmış bütün üzvləri öz



nəslini (şəcərəsini) indi mövcud olan başçının bir başa mənsub olduğu bir əcdada aid edirdilər. Başçı yalnız yüksək şəxsi keyfiyyətlərinə görə deyil, həmçinin qəbilənin qohumluq kökünə xüsusi yaxınlığı səbəbilə seçilirdi.

Nəticəyə gəlmək olar ki, başçıya tabelik əslində oğulların öz ulu babasına tabeliyi idi, o səbəbdən də sosial planda tamamilə təbii və məntiqi sayılırdı. Amerika aborigenlərində Kolumbaqədərki başçı hakimiyyəti seçkinin və ilkin qohumluğun mürəkkəb birliyinə əsaslanır.

İlk müstəmləkəçilər və ABŞ-ın müstəqilliyini əldə etdiyi epoxada ənənəvi təsisatların çoxu iyerarxik qayda-qanun müəyyən etmiş avropalılar tərəfindən dağıdıldı. XX əsrin sonunda isə ABŞ çoxetnikli azlıqların hüquqlarına, mədəni müxtəlifliyə riayət olunan bir ölkə kimi qəbul olundu. Bütün bunlar filosofları, politoloqları və antropoloqları Amerikanın aborigen əhalisinə məxsus sosiallıq formalarını daha diqqətlə öyrənməyə məcbur edir.

Hazırda bəşəriyyətin sosiosiyasi təkamülündə ilk forma sayılan başçılıq təsisatını ifadə etmək üçün bütün dünya alimləri *çifd* (*chiefdom*) termininden istifadə edirlər. Başçılıq təsisatı konsepsiyasını sovet alimlərindən A.M.Xazanov, L.S.Vasilev və b. təxminən 1980-ci illərdə Qərb antropologiyasından mənimsəmişlər. Amma bu termin rus alimləri arasında hələ geniş yayılmadığından onlar "başçılıq" termini ilə yanaşı çifd termininden də istifadə edirlər. Hazırda başçılıq və ilk dövlət konsepsiyasını tarixi və sosioloji mövqedən L.S.Vasilev, E.Servis, L.Kreder, M. Frid və başqa alimlər inkişaf etdirirlər.

Çifd (chiefdom) terminini çağdaş anlamında ilk dəfə 1955-ci ildə K.Oberq özünün "Cənubi və Mərkəzi Amerikanın düzən qəbilələrində sosial struktur tipləri" adlı məqaləsində elmi dövriyyəyə gətirmişdir. Ondan bir neçə il sonra bu termini Amerika etnoqrafları C.Stuard və L.Faron işlətmişlər. Amma onlar da çifdi anlayış kimi yox, bir termin kimi işlətmişlər. Çünki bu termin dərin düşünülmüş müqayisəli – tarixi nəzəriyyənin nəticəsi kimi yox, Karaib bölgəsində yaşayan bəzi qrupların sosioloji təşkilinin taksonomik təhlili nəticəsində yaranmışdır. O zaman mövcud olmuş təsnifatda aralıq qruplara yer ayrılmamışdı, odur ki, yeni söz tapmaq lazım idi. Antropoloqlar əvvəlcə hətta başçılıq termininin Cənubi

Amerika mədəniyyətinin təkamülü tarixində hansısa bir inkişaf mərhələsini göstərdiyini inkar edirdilər. Bu termin, həmçinin yığıcıların, ovçuların yaxud tropik zonanın ibtidai bostançılarının (dirrikçilərin) yaranmasının gizli formasını da göstərmir.

Bu səbəbdən təsdiq etmək olar ki, "başçılıq" anlayışı təsfiri-təsnifat termini kimi yaranmış və yalnız tədricən nəzəri məzmunla dolaraq elmi mübahisə meydanına, fəlsəfənin, antropologiyanın, sosiologiyanın və politologiyanın tədqiqat predmetinə çevrilmişdir. Alimlər bu fikirdədilər ki, indi bu terminsiz cəmiyyətin tarixi təkamülündə ən birinci və ən uzun sürmüş mərhələnin dərki mümkün deyil.

Elmdə başçılıq təsəvvürünün ikinci və mühüm doğuşu E.Servisin adı ilə bağlanır, göstərilir ki, bu termin onun işləri sayəsində indi elmi anlayış statusu qazanmışdır. E.Servis başçılıq (çifd) termini ilə qəbilədən və dövlətdən ciddi fərqlənən siyasi və iqtisadi quruluşun universal formasını göstərmişdir. Odur ki, "başçılıq" anlayışını ilk dəfə elmi dövriyyəyə E.Servisin gətirdiyi düşünülür. Onun işlərini İngiltərə və ABŞ-da təkcə antropoloqlar deyil, arxeoloqlar da müdafiə edirlər. Ötən əsrin 70-ci illərində, alimlər başçılıq (protodövlət) konsepsiyası mövqeyindən Qərbi Avropanın neolitin axırları, tunc dövrü və dəmir dövrünün başlanğıcındakı mədəniyyətini təhlil etməyə başladılar.

E.Servis bu problemə sələflərindən fərqli olaraq empirik səviyyədə deyil, nəzəri səviyyədə yanaşmışdır. Onu ibtidai və sivil cəmiyyətlərin empirik müqayisəsi qane etmirdi, çünki onların arasında heç bir aralıq forma yerləşdirmək mümkün deyildi. Servis yaxşı anlamışdı və tarixi faktlar da təsdiq edirdi ki, insan cəmiyyətinin təkamülünü belə empirik tutuşdurma yolu ilə izah etmək olmaz. Gerçək qütblüklər arasında keçid formalar da vardır. Odur ki, Servis "ibtidai-sivil" modelini *qradualizm* – tədricilik adlandırdığı nəzəri modellə əvəz etdi. Bu nəzəri modelə görə, cəmiyyətin və ya insan cinsinin təkamülü çoxlu keçid formalarından keçərək baş verə bilərdi. böyük nəticəyə kiçik addımlarla, inqilabi yolla, sarsıntılarla yox. reformalar sayəsində çata bilərdi. Belə yanaşma göstərdi ki. təkamülün gedişində cəmiyyətin müxtəlif formalarının sosiosiyasi kontiniumu yaranmışdır: bu kontiniumda "sivil (vətəndaş) cəmiyyəti" və "ibtidai cəmiyyət" anlayışları iki qütbü ifadə etməklə



yanaşı sosial tarixi gerçəklikdə heç nəyə uyğun gəlməyən hansısa ideal tiplər funksiyasını yerinə yetirirlər. Bu ideal tiplər reallıq kimi yox, elmi anlayışın bütün imkanlarını öyrənməklə onu məntiqi sonluğuna çatdırmaq üçün əlverişlidir.

Beləliklə, bu yeni elmi anlayışın yaranmasına nəzəri-metodoloji zərurət onunla izah edilir ki, "ibtidai-sivil" bölgüsü çərçivəsində, aralıq fenomen olmadan bəşəriyyətin *eqalitar* (kollektiv mülkiyyət, bərabərlik, sinifsiz) cəmiyyətdən *elitar* (sinifli, bərabərsizlik, xüsusi mülkiyyət) cəmiyyətə necə keçdiyini anlamaq olmaz. Tarixçilər əmindirlər ki, ibtidai cəmiyyət eqalitar cəmiyyət tipi, qədim ink (Peru ərazisində yaşamış yüksək mədəni xalq), Şumer, Misir, yunan və Roma imperiyaları elitar tipə daxil cəmiyyətlər olmuşlar. Təsadüfi deyil ki, alimlər dövlətin yaranmasını stratifikasiyanın (təbəqələşmənin) və siniflərin yaranması ilə bağlayırlar. Eqalitar cəmiyyət (qəbilə) daxilində hələ hüquq və vəzifələr arasında heç bir fərq yoxdur; hindu üçün sual çıxmır ki, ictimai işlərdə iştirak etmək, qan intiqamı... onun üçün bir hüquqdur, yoxsa vəzifə. Eynilə də tayfa və qəbilənin təbəqələşib müxtəlif siniflərə bölünməsi mümkün deyildir. Bəzi ən qabaqcıl tayfalarda, o cümlədən turanlılarda başlıca əmək sahəsi malqaranın əhliləşdirilməsindən, sonralar isə çoxaldılmasından ibarət olmuşdur. Beləliklə, çoban tayfalar qalan barbarlar kütləsindən ayrıldılar, bu da birinci böyük ictimai əmək bölgüsü idi. Birinci böyük ictimai əmək bölgüsü, məhsuldarlığın, sərvətin artması labüd olaraq köləliyə səbəb olurdu. Birinci böyük ictimai əmək bölgüsündən ibtidai cəmiyyətin də birinci böyük bölgüsü, iki sinfə – ağalara və qullara bölgüsü yarandı.

Lakin əmək bölgüsü birdən-birə ibtidai cəmiyyətdən, sivil cəmiyyətə, sadə cəmiyyətdən mürəkkəb cəmiyyətə sıçrayışlı keçidə səbəb ola bilməzdi. Müasir elm, öncə də gördüyümüz kimi, eqalitar cəmiyyətdən elitar cəmiyyətə, dövlətsiz, sinifsiz cəmiyyət quruluşundan dövlət quruluşuna sıçrayışla keçildiyini qəbul etmir. Siniflərin yaranması təbəqələşmə ilə, bu isə əhalinin artması ilə müşayiət oluna bilərdi. Qəbilələrin birləşməsi əhalinin sayını kəskin artırırdı; onlar sosial piramidanın yoxsullar, ortabablar, dövlətlilər təbəqələrində yerləşirdilər. Təbəqələşmə və böyük sosial qruplar yalnız sosial piramidanın bir pilləsində əhali sıxlaşdıqda yarana bilərdi. Əhali sayca az olduqda sosial diferensiasiya baş verə bilərmi?

Böyük bir kənd çərçivəsində dövlətlilərin, ortababların və kasıbların olduğunu (Yeni Qvineyanın bəzi qəbilələri indiyə qədər bu cür təbəqələşmə halında yaşayırlar) necə izah etmək olar?

Belə kiçik insan qruplarında sosial şaxələnməni göstərmək üçün antropoloqlar "təbəqələşmiş cəmiyyət" terminindən istifadə etməyi daha münasib sayırlar. Belə cəmiyyətdə sosial piramida böyük deyil: onun hər pilləsində bir neçə nəfər 30-50 qədər adam olur, piramidanın ən az adamın yaşadığı yuxarı pilləsində başçı və onun *biqmenlər* adlandırılan təbəqələri yerləşir.

Başçılıq sadədən mürəkkəb cəmiyyətə keçid formasıdır. Onun tarixi sələfləri lokal qruplar və onlardan yaranan qəbilələrdir. Göründüyü kimi, başçılıq cəmiyyətin sosiosiyasi təkamülündə üçüncü və ya dördüncü mərhələ kimi çıxış edir (birinci iki mərhələyə təkamülün ən erkən – insan sürüsü mərhələsi də əlavə edilir). Başçılıq qəbilədən böyük, dövlətdən kiçik cəmiyyət tipi yaxud insanlar birliyidir. Başçılıq tipinə əhalisi bir neçə min olan çoxsaylı kəndlər daxildir; bunlar dövlət yaxud inzibati sərhədlərlə deyil, şərti anlaşma əsasında birləşirlər.

Başçılığı protodövlət törəmə də adlandırırlar. Burada artıq əmlak bərabərsizliyi (sosial diferensiasiya) var idi, ancaq hələ siniflər, silklər və kastalar yox idi. Sosial quruluşunda hələ böyük sosial qruplar üzrə təbəqələşmə getməmişdi, ayrı-ayrı pillələrində kiçik insan qrupları ya da ayrı-ayrı fərdlər yerləşirdi (*elmdə bunlara ranjirlər deyilir*). Hər bir pilləni az sayda insanlar tuturdu.

Beləliklə, başçılıq təbəqələşməmiş və təbəqələşmiş cəmiyyətlər arasında olmuş keçid formasıdır. Onu filosoflar *sosial bərabərsizlik cəmiyyəti*, politoloqlar *potestar hakimiyyət tipi*, antropoloqlar *sadə və mürəkkəb insan birliklərinin hibridi*, arxeoloqlar *ovçular və yığıcılar mədəniyyəti*, iqtisadçılar isə *mənimsənilən təsərrüfat tipi* kimi şərh edirlər.

Başçılıq termini indiyə qədər elmi ədəbiyyatda ikimənalı olaraq qalır. Onda bir tərəfdən, ibtidailiklə dövlətçiliyin, vəhşiliklə sivilliyin əlamətləri birləşir, digər tərəfdən, başçılıq nə ibtidai dövlətəqədərki cəmiyyətə, nə də sivil dövlət cəmiyyətinə məxsus deyildir. Bu ambivalentlik, məntiqi struktursuzluq üzündən başçılığın təbiəti və fərqləndirici əlamətləri haqqında alimlər arasında mübahisə səngimək bilmir. Mübahisə bir də ona görə dərinləşir ki, tədqiqat



predmeti kimi başçılığın daxilində bir neçə təkamül mərhələsi – *sadə və mürəkkəb başçılıqlar* vardır ki, onların da Yer kürəsinin ayrı-ayrı bölgələrində müxtəlif zamanlarda meydana gəldiyini, mədəni müxtəlifliyini aşkar etmişlər.

Antropoloqların işlətdiyi başqa kateqoriyalar kimi başçılıq və dövlət ideal tiplər sayılır. Başçılığın bu cür adlandırılması şeylərin real vəziyyətini qismən təhrif etməklə sosial təzadları ifadə edir. Bu anlamda alimlər deyirlər ki, başçılıq çox qədim ibtidai cəmiyyətin parçalanması dövrünə aid sosial-iqtisadi quruluş və hakimiyyət təşkili formasıdır. Bəzi cəmiyyətlər başçılıq əlamətlərinə malikdir, ancaq qəbilə əlamətlərini də saxlayır.

Başçılıqların tarixi əhəmiyyəti ondadır ki, eqalitar yaxud ibtidai forma kimi özünün ilkin mənasında artıq dünyada heç yerdə mövcud deyildir. Başçılıq uzaq keçmiş dünyanın yeganə qalpəsi kimi qalmışdır. Bu yeganə empirik faktı öyrənməklə, alimlər sosial təkamülün ilk pilləsi haqqında fikir yürüdə bilirlər. Antropoloqlar ibtidai cəmiyyəti yalnız tarixi təkamül qatlarını və çoxsaylı modifikasiyaları üzə çıxararaq tarixi yenidən bərpa etməklə əldə edə bilərlər. Başçılıq özünün bütün variantları ilə birlikdə sosial tarixi təkamülün qatlarından biridir. Antropoloqlar başçılığı sadə cəmiyyətdən mürəkkəbə, dövlət formasına keçidin özünəməxsus körpüsü hesab edirlər. Həmçinin onlar qəbilə və tayfanı sadə cəmiyyət, dövlət halında təşkil olunmuş cəmiyyət tipini isə mürəkkəb cəmiyyət sayırlar.

## 4.2. Başçılığın yaranmasının zamanı, məkanı, siyasi strukturu və təsərrüfat sistemi

*Yaranmasının zamanı və məkanı.* Antropologiyada sinonimlər kimi başa düşülən ilk dövlətlərin yaxud sivilizasiyaların Köhnə Dünyada 5, 5 min il öncə yarandığı müəyyən edilmişdir. M.ö. IV-III minilliklərdə yaranmış şumer dövlətlərini və onların federasiyasını, Peruda onun m.ö. 2700-1500-ci illərdə yaranmasını nümunə kimi göstərmək olar.

Amerika ərazisində arxeoloqlar bütün cəmiyyət tiplərinin izlərini: 1) erkən dövlətləri Mezoamerikada və mərkəzi Andada; 2) başçılıqları – cənubi Andada, Qərbi Hindistanın şimal-qərb sahillərində; 3) iri ölçüyə çatmış mürəkkəb başçılıqları Mərkəzi

Amerikada, Cənubi Amerikanın şimal-qərbində, Qvatemalanın şərqində; 4) Qəbilələri Çilinin mərkəzi bölgəsində, Amazonkada; 5) lokal qrupları Argentinada, Paraqvayda, Uruqvayda, Boliviyada aşkar ediblər.

İlk başçılıqların dövlətlərin formalaşmasından min illər öncə formalaşmış olduğu düşünülür. İndi onlardan çox az bir hissəsi qalmışdır. Arxaik dövlətin yaranması başçılıq mərhələsindən keçmişdir. Karaib arealında (Karaib adası, Panama, Kolumbiyada), Amazon çayının aşağı hissəsində, ABŞ-ın indiki cənub-şərqində və Polineziyada dövlətin formalaşması hələ başa çatmamışdır, yalnız başçılıqlar yaranmışdır. Avropada meqalitik mədəniyyəti (iri daşlardan yaradılan tikililər) başçılığın çiçəkləndiyi dövrə aid edilir. Alimlər müəyyənləşdirmişlər ki, insanlar yığıcılıqdan kənd təsərrüfatı istehsalına keçdiyi vaxtdan Roma imperiyası ekspansiyasına qədərki dövrdə Avropanın böyük bir hissəsi başçılıq mərhələsində qalmışdı. Onlarda dövlət idarəçiliyi yalnız başçılıqdan ibarət olmuşdur. Bu başçılıqlar mərkəzləşdirilmiş dövlətə çevrildikdən sonra (bunun orta əsrlərdə baş verdiyi bəllidir) başçılıq sosiosiyasi quruluşu tarixin arxivinə gömülmüşdür. Planetin yalnız gözdən uzaq guşələrində (Polineziya, Yeni Qvineya və Tropik Afrikada) bu gün köhnəliyin canlı qəlpələri – başçılıqlar yaşamaqdadır.

İnsanların sayına görə başçılıq qəbilədən böyük sosial törəmə sayılır. Əhalisinin sayına görə başçılıqlar fərqlənir: say bir mindən 100 min arasında dəyişilir. Sadə başçılıqların əhalisi bir mindən 10 minə qədər, mürəkkəb başçılıqların əhalisi isə 10 mindən 100 minə qədərdir. Mürəkkəb başçılıqlarda bir neçə siyasi iyerarxiya səviyyəsi və sosial stratifikasiya rüşeymləri vardır.

Havay adalarının əhalisi, bütövlükdə 200-300 mindir, bunlar dörd iri başçılıqlara ayrılıblar. Əhali iki təbəqəyə (adi insanlara və başçılara) bölünür. Alimlər bu sosial quruluşda korporativ strukturlar və linclər aşkar etməmişlər.

Başçılıqların, başqa sözlə, protodövlət idarəçiliyinin sosial strukturuna gəlincə, alimlər bu quruluşda əmlak bərabərsizliyinin və idarə aparatının ilk tarixi əlamətlərini aşkar etmişlər, bunlara 1) başçılar; 2) biqmenlər yəni varlılar (bunların icma daxilində sözü keçir); 3) adi insanlar (bunları biqmenlərin təsərrüfatında işə yaxud xidmətə götürürlər) daxil edilir.



*Başçılığın siyasi strukturu.* Tayfa quruluşunun hakimiyyət strukturu aşağıdakı kimi təsəvvür edilir; 1) ümumtayfa yığıncağı (xalq məclisi); 2) ağsaqqallar şurası; 3) başçı (hərbi rəis, ovçu başçısı).

Ümumi yığıncaq bütün tayfaya aid olan ümumi və mühüm işləri həll edirdi. Məclis – yığıncaq tayfa icmasının gündəlik həyatını idarə edən ağsaqqalları, hərbi başçıları, ovçular başçısını seçirdi. Xüsusilə mühüm işləri həll etmək üçün ağsaqqallar toplanırdı.

Tayfa quruluşu hakimiyyətinə aşağıdakı əlamətlər aid edilir:

1. Hakimiyyət bütövlükdə cəmiyyətə əsaslanırdı. Bu özünü onda göstərirdi ki, bütün mühüm işləri tayfanın ümumi toplantısı həll edirdi.

2. Hakimiyyət qan qohumluğu prinsipi üzrə qurulurdu, yəni harada yaşamasından asılı olmayaraq tayfanın bütün üzvlərini əhatə edirdi.

3. Xüsusi idarə və zorakılıq aparatı yox idi; hakimiyyət funksiyaları fəxri vəzifələr kimi yerinə yetirilirdi, ağsaqqallar və başçı istehsal fəaliyyətindən azad deyildilər, yəni paralel olaraq həm idarəçilik, həm də istehsal funksiyaları daşıyırdılar, deməli, hakimiyyət strukturları cəmiyyətdən ayrılmamışdı.

4. Hər hansı bir vəzifənin tutulması iddiaçının sosial və iqtisadi durumundan asılı deyildi, yalnız şəxsi keyfiyyətlərindən: nüfuzundan, müdrikliyindən, cəsurluğundan, təcrübəsindən həmqəbilələri arasında hörmətindən asılı idi.

İdarəçilik funksiyalarının yerinə yetirilməsi heç bir üstünlük vermirdi.

Qəbilə-tayfa quruluşunda, hər bir cəmiyyətdə olduğu kimi, məcburetmə mövcud idi, amma o ictimai xarakter daşıyırdı, xüsusi aparatdan yox, bütövlükdə tayfadan qaynaqlanırdı. Məcburetmə, bir qayda olaraq təqsirləndirmədən ibarət idi, onun da ifrat forması icmadan qovulma idi. Müharibə aparacaq xüsusi aparat yox idi. Silahlı qüvvələri əli silah tuta bilən bütün kişilərdən ibarət idi. Bütün bunlara əsaslanaraq, antropoloqlar başçılıq hakimiyyətini ibtidai icma demokratiyası adlandırırlar (bu demokratiya heç bir əmlak, təbəqə, kasta yaxud sinfi fərqlər, siyasi-dövlət formaları tanımırdı).

Qəbilə-tayfa quruluşunda sosial normalar qadağadan (yasaqlardan), adət-ənənələrdən, mərasimlərdən, dini normalardan,

rəvayətlərdən ibarət idi; bütün bunlar qəhrəmanların təqlidi üçün yaradılmış nümunələr idi.

Başçılıqda hakimiyyətin təşkili başçıların (əsasən hakim qəbilədən olan başçıların) vərəsəlik hakimiyyəti təsisatına əsaslanırdı. Hakimiyyətin vərəsəliliyindən söz açaraq F.Engels yazır ki, irokezlərdə və başqa hindularda ağsaqqal və başçı vəzifələrinin irsən keçməsi çox hallarda seçkili olurdu. "Azad olmuş vəzifələri tutmaq lazım gəldikdə... onun ən yaxın qohumuna, qardaşına və ya bacısı oğluna üstünlük verməyə başladılar və müəyyən bir səbəb olmadan ondan yan keçməzdilər. Odur ki, yunanlarda ata hüququ, hökmran olduğu zaman basilevis vəzifəsi adətən oğula yaxud oğullardan birinə keçirdisə, bu yalnız onu sübut edir ki, oğullar xalq tərəfindən seçilmək vasitəsilə vərəsə olmağa ümid edə bilərdilər, lakin bu heç də belə bir seçkidən kənarda vərəsəlik olduğunu sübut etmir. Bu halda biz irokezlərdə və yunanlarda qəbilə daxilində xüsusi adlı-sanlı ailələrin ilk rüşeymini görürük, yunanlarda isə bundan əlavə, həmçinin gələcək irsi başçılığın, yaxud monarxiyanın ilk rüşeymini görürük. Buna görə də güman edilməlidir ki, yunanlarda basilevs ya xalq tərəfindən seçilirdi, ya da Roma "çarı" kimi, xalqın tanınmış orqanı olan şura və ya aqora tərəfindən təsdiq edilməli idi" (22, 260).

Polineziya başçılıqlarında isə başçı ömürlük seçilir, istehsalı, bölgünü və istehlakı tənzimləyirdi. Polineziya başçıları öz nüfuzunu qaldırmaq üçün dinin dayağından istifadə edirdilər. Onlar dini qadağanın köməyilə bu və ya başqa torpağı şumlamağı və bu və ya başqa bitkini becərməyi əmr etməklə istehsala nəzarət edirmişlər.

Başçılığa başçıya pərəstiş olunan sakral (dini mahiyyətli) törəmə kimi baxılması elmi ədəbiyyatda geniş yayılmışdır ki, bu dövlət hakimiyyətinin sakral qaynağı nəzəriyyəsinə uyğundur. Əslində başçılıq sakral ola (polineziyalılarda, Tropik Afrika qəbilələrindəki kimi) bilər, bu əlaməti daşımaya da bilər (şotland dağlılarında, Şimali Amerikanın Qərb sahillərində olduğu kimi). Başçılıqların çoxunda hakimiyyət əsasən hərbi xarakter daşıyır (məsələn, Avrasiyanın arind qurşağında bir sıra bantu qəbilələrində və bütün köçəri maldarlarında); bu halında başçılıq bilavasitə hərbi demokratiyadan irəli gəlir və hərbi iyerarxiya kimi müəyyən edilə bilər.

Başçılığı qəbilədən və tayfa birliklərindən fərqləndirən əlamət



budur ki, ona məxsus çox sayda insanlar yaşayan kəndlərin yaxud məskənlərin yerləşdiyi ərazini daim idarə edir. İdarəçilik başçının və onun siyasi yardımçılarının əlində toplanır. Siyasi vəzifələr daimidir, onu daşıyan öldükdə yaxud vəzifədən getdikdə yerinə başqası, Engelsin xatırlatdığı qayda üzrə yenisi seçilir. Vəzifənin daimi olması və heç vaxt boş qalmaması sayəsində başçılığın strukturu bir çox nəsillər boyu saxlanılır və bu siyasi idarəçiliyin davamlı olmasını təmin edir.

Başçılıqlarda ikidən ona qədər və daha çox idarə səviyyələri olur. Səviyyələrin çox olmasına baxmayaraq mütəxəssislərin fikrincə, idarəçilik müasir mürəkkəb cəmiyyətlərlə müqayisədə olduqca keyfiyyətlidir. Məsələn, *nqun, venda, soto, tsvan və digər bantu* qəbilələrində vərəsəliklə seçilən başçılara subbaşçılar və ağsaqqallar tabedir. Başçının hakimiyyəti o dərəcədə böyük olurdu ki, hətta məhkəməsiz ölüm hökmü verə bilirdi.

*Başçılığın təsərrüfat sistemi.* Təsərrüfat münasibətləri sisteminə görə başçılığı alimlər yığıcılıq və mədəni əkinçilik arasında yerləşən tarixi forma kimi müəyyənləşdirirlər. Tədqiqatlar göstərir ki, indiyədək mövcudluğunu saxlamış ibtidai təsərrüfat formasından (ovçuluq və yığıcılıqdan) fərqli olaraq başçılıqda dirrikçilik yaşamaq vasitələrinin əldə edilməsinin əsas üsuludur. Başçılıq təsərrüfatı sistemində dirrikçilik (bostançılıq) artıq vardır, amma şum əkinçiliyi yoxdur, artıq məhsul var, ancaq izafi məhsul yoxdur. Dirriklər meşələrin müəyyən hissələrini təmizləyərək yaradılır və belə sahələrdə ağaclarla yuvalar qazıb yabanı tərəvəz kökü yumrularını basdırırdılar (sonralar bunlar mədəni bitkilərə çevrilmişdir). İndi artıq yabanı bitkilər məhv edilmir, vəhşi heyvanlar ovlanmırdı. Bunun səbəbi təbiətə humanist yanaşma deyildi və vəhşilik dövründə bu hələ yox idi. Bu insanlar artıq bilirdilər ki, vəhşi heyvanları tutub düşərgəyə gətirmək, onları yemləmək vaxtı gələndə isə öldürmək (ucubiz alətlə) daha sərfəlidir. Bununla da onlar tez xarab olan məhsulların isti iqlim şəraitində saxlanması problemini həll etmiş oldular.

Dirrikçilik insanların bilik dairəsini daha da genişləndirdi. Qədim insanlar bitkilərin adları və bitdiyi yerlərlə yanaşı, həm də bitkilərin nə zaman cücərdiyini, nə vaxt çiçəkləndiyini, nə zaman əkilməli olduğunu, torpağın əkinə nə zaman hazırlandığını,

suvarıldığını, alaqdan təmizləndiyini və s. bilməli idilər. İnsan məskəni böyüdükcə fəaliyyət növləri, sosial münasibət formaları da rəngarəng olurdu.

Kənd təsərrüfatı məhsullarının emal edilməsinin ən qədim forması sayılan toxuculuq (o cümlədən məhsulu daşımaq üçün bitkilərdən səbət toxuma) inkişaf etmişdi. Əmək alətləri mürəkkəbləşmiş və məhsuldarlıq artmışdı.

Bu dövrdə 40-60 nəfərdən ibarət kiçik qruplar birləşərək qəbilələr yaradırdılar. Oturaq həyat sürən qəbilə icma sayılırdı. Bir neçə qan qohumlarından ibarət qruplar yan-yana yerləşərək aralarında kəbin əlaqəsinə girir, əmək kooperasiyası yaradır, ərazilərini birgə qoruyurdular. Bu yolla yavaş-yavaş artıq müasir anlamda ailə yaranırdı.

*İcmalar* kəbinlə, əmək kooperasiyası və ümumi ərazi ilə bir-birinə bağlı bir neçə insan qrupunun birliyidir.

Bu yolla gəzərti həyat yerinə oturaq həyat tərzi yarandı. Ancaq oturaq həyat dirrikçilik epoxasında həyatın başlıca əlaməti deyildi. Çünki insanlar bir sahəni tükəndirəndən sonra oranı atıb başqa sahəyə gedirdilər. Odur ki, icma bir torpaq sahəsində bir neçə il qalırdı.

Bu səbəbdən, alimlər dirrikçiliyi təbiətin hazır məhsullarının, yabanı bitkilərin əldə edilməsindən mədəni taxılların sistematik və intensiv becərilməsinə keçid təsərrüfat forması sayırlar.

Mədəni yöndən başçılıq bir vaxt bütöv (sinkret) olmuş mədəniyyətin xalq və elitar mədəniyyətlərə uzun sürən parçalanmasının başlanğıc mərhələsi sayılır. Elitar mədəniyyətin daşıyıcısı və subyekti, qazıntılarla aşkar edilmiş zəngin maddi artefaktları başçılar və biqmenlər olmuşlar. Mədəni diferensiasiyanı antropoloqlar zəngin arxeoloji tapıntılar üzrə yox, uzaq epoxada hökmran olmuş qonaq qəbul etmə adəti üzrə öyrənirlər. Onlar müəyyən etmişlər ki, başçılar öz təbəələrinə hakimiyyətlərini və əmlakını sərgiləmək üçün dəbdəbəli süfrələr açırdılar.

Bu adəti alimlər *potlaç* – arxaik əşyalarla sakral adət adlandırırlar. Alimlər bu adəti fərqli izah edirlər. M.Moss onu qəbilənin nüfuzunu saxlamaq üsulu kimi şərh edir (bax: M.Mocc. Sovqat haqqında esse – rus dilində. 1996).



## V fəsil
## Bəşəriyyətin sosial təkamül taleyi – yeni daş dövrünün uğurları

### 5.1. Sosial-tarixi təkamüldə sıçrayış

Arxeoloqlar və etnoqraflar heyvanların əhililəşdirilməsini və mədəni bitkilərin yetişdirilməsini bəşəriyyətin son 10 ildə sosial-tarixi təkamülünün birinci və ən böyük uğuru sayırlar. Əkinçiliyin genişlənməsi od əldə etmək məharətindən sonra bəşəriyyətin tarixində ikinci böyük sıçrayış hesab olunur. Neolit inqilabı adlandırılan bu sıçrayış adətən XVIII-XIX əsrlərdə baş vermiş sənaye inqilabı ilə müqayisə edilir. Alimlər neolit inqilabının bəşəriyyətin tarixi taleyində daha böyük rol oynadığını qeyd edirlər. Əgər neolit inqilabı sinifli cəmiyyəti doğurmuşsa, sənaye inqilabı bir sinifli cəmiyyəti digəri ilə əvəz etmişdir. Nəzərə alaq ki, neolit inqilabının baş verməsinə qədər bəşəriyyət bir milyon il çətin və mürəkkəb yol keçmişdir. Bu müddətdə planetdə altı dəfə buzlaşma baş vermişdir. İqlimin soyuması bir-birindən fərqli iqlim zonalarının yaranmasına səbəb olmuşdu. Müəyyənləşdirilmişdir ki, insan cinsinin təkamülündə maksimum tərəqqi buzlaşma dövründə əldə olunmuş primatların sürətli təkamülü insanı tarix səhnəsinə çıxarmışdır. Bu dövrdə insanın mədəniyyəti və həyat fəaliyyəti o dərəcədə önəmli olmuşdur ki, alimlər dördüncü dövrü bütünlüklə antropogen dövrü adlandırırlar.

Neolit yaxud yeni daş dövrünün maddi mədəniyyət elementləri sırasına mədəni bitki və ev heyvanlarının qalıqları ilə yanaşı çaxmaq daşından düzəldilmiş silah və saxsı qablar da daxildir. Kaman düzəldən, gil qablar hazırlayan və daş baltaları cilalamağı bacaran insan məskənləri Sibirdə, Orta Asiyada, Azərbaycanda və başqa coğrafi bölgələrdə aşkar edilmişdir.

M.ö. 10-cu minillikdə başlanan və VII-VI minilliklərdə sona çatan neolit dövründə Azərbaycan ərazisində ovçuluq və yığıcılıq təsərrüfatının inkişafı əkinçilik və maldarlıq təsərrüfatının yaranmasına səbəb olmuşdur. Bu dövrdə dulusçuluq və toxuculuq sənət sahələri yaranmış, oturaq həyat keçirən tayfalar düzəltdikləri evlərdə yaşamışlar.

"Neolit inqilabı" terminini elmi dövriyyəyə ingilis arxeoloqu Q.Çayld daxil etmişdir. Çayld və davamçıları neolit inqilabında bəşər cəmiyyəti tarixində keyfiyyətcə sıçrayışı, dönüş anını görmüşlər.

Neolit dövründə yaranmış əkinçilik və maldarlıq kişilərə məxsus fəaliyyət növləri idi. Neolit inqilabına qədər, insan hələ heyvanlar aləmindən tam ayrılmamışdı: o da heyvanlar kimi təbiətdə olan bitki qidalarından istifadə edir və yırtıcı heyvanlar kimi başqa heyvanları öldürüb ətlərini yeyirmişlər. Hələ istehsal yox idi, odur ki, neolit inqilabına qədərki dövrdə əməkdən və əməyin məhsuldarlığından danışmaq olmaz. İstehsal təsərrüfatına keçilməsi sivilizasiyaya keçidin həlledici amili oldu.

İbtidai cəmiyyətin tarixi iki mln. il öncə başlandığı halda neolit inqilabı 10 min il öncə başlanmış təxminən 3-4 min il davam etmişdir. Avropada feodalizm cəmiyyəti 1200 il (eramızın V-XVII əsrləri) mövcud olmuşdur. Əkinçiliyə keçid maşın texnikasına keçiddən daha çox müddət davam etmişdir.

Mütəxəssislər müəyyən etmişlər ki, arxeoloji epoxalar özəlliklə paleolit Yerdə müxtəlif sürətlə baş vermiş və ayrı-ayrı coğrafi bölgələrdə eyni zamanda davam etməmişdir. Məsələn, Avstraliya aborigenləri bu gün də qədim daş dövründə- paleolitdə yaşayırlar. Neolit dövrü də ayrı-ayrı coğrafi bölgələrdə ayrı-ayrı zamanlarda davam etmişdir. Azərbaycanda neolit dövrünün m.ö. onuncu minillikdən VI minilliyə qədər davam etdiyi göstərilir (9, 14). Neolitin Krımda m.ö. VI-V əsrlərdə davam etdiyi, Rusiyada isə (neolitin mahiyyəti və tarixi vəzifələri baxımından yanaşdıqda) eramızın XVII yüzilində hələ başa çatmadığı qeyd edilir. Mərkəzi və Cənubi Amerikanın yetərincə yüksək inkişaf etmiş xalqları metal emal etməyi bacarmadıqlarından eramızın XVI əsrinə qədər – ispan müstəmləkəçiliyinin başlanmasına qədər neolit dövrünü yaşamışlar.

Meşə zonası neoliti üçün balıqçılıq önəmli təsərrüfat növü sayılır. Neolit dövründə Şərqi Uraldan Yeniseyə qədər, eləcə də Ob çayı vadisində balıqçılıq aparıcı sahə səviyyəsinə yüksəlmişdi.

Paleolit dövrü daş alətlərindən fərqli olaraq neolit dövrü daş alətləri cilalanmış halda tapılır. O dövr üçün daş qızıldan dəyərli sayılırmış. Çünki insan əli ilə yaradılmış bu daş alətlər yaşamaq uğrunda mübarizəni asanlaşdırırdı. Alimlər müəyyən etmişlər ki, 10 min il öncə planetdə ovçuların və yığıcıların geniş yayılması *birinci qlobal ərzaq böhranına* səbəb olmuşdu. Bu hadisə daş dövrünün sonunda baş vermişdi (m.ö. VI minillikdə). Ovçulara və yığıcılara bəlli olan ibtidai əmək alətləri, yalnız ekstensiv təsərrüfata imkan



verirdi. Belə təsərrüfatda əlavə məhsul, yalnız ərazinin genişləndirilməsi, yaxud yeni ərazilərin zəbt edilməsi hesabına əldə edilirdi.

İbtidai insanların planetdə ümumi sayı 5-6 mln olsa da yeni ərazilərin zəbt edilməsi sayəsində boş torpaq sahələri yavaş-yavaş azalırdı. Bu səbəbdən ekstensiv təsərrüfat üsulundan intensiv üsula keçilməsi zərurəti yaranmışdı. Bu yeni təsərrüfatçılıq üsulu bəşəriyyətin yığıcılıqdan öncə bostançılığa sonra da əkinçiliyə keçərək ağır böhrandan çıxması üçün real imkan yaratdı.

Torpağın becərilməsinə m.ö. VIII minillikdə Yaxın Şərqdə başlanmışdı. Bu bölgədə bostançılıqdan əkinçiliyə keçilmişdi. Yer kürəsinin bu bölgəsinin məskunları dünyada ilk əkinçilər və çobanlar olmuşlar. Orta Şərqin yüz min il yabanı bitkilər və vəhşi heyvanlarla qidalanan qədim insanları qida rasionlarına buğda, arpa, qoyun və qaz əti də əlavə etmişdilər.

Torpağın becərilməsi sayəsində neolit epoxasının insanları tarixdə ilk dəfə təbii yaşayış mühitini öz tələbatlarına uyğunlaşdıra bilmişdilər. Paleolit insanları yalnız təbiətin nemətlərindən istifadə etdikləri üçün təbiətdən asılı idilər. Neolit epoxasında isə istehsal edən təsərrüfat forması yarandı. Təsərrüfat həyatının uğurları - artıq məhsul əldə edilməsi, yeni əmək alətləri və oturaq məskənlər yaratmaq (evlər tikmək) insanın təbiətdən asılılığını azaltdı.

7 min ilə qədər davam etmiş neolit inqilabı dövründə Şumerdə, Mesopotamiyada, Misir, Çin, Yaponiya, qədim Asiya və Amerikada maddi və mənəvi mədəniyyətin təməli qoyuldu. İnsan həyatının maddi, bədii və dini tərəflərinin köklü dəyişilməsi Şumerdə sonra da Mesopotamiya və Misirdə yazının yaranmasından sonra baş vermişdir (m.ö.IV minilliyin sonu III minilliyin başlanğıcında).

Sosial təkamülün *başqa bir istiqaməti ovçuluqdan maldarlığa doğru hərəkətdən* ibarət olmuşdur. Amma bu istiqamətdə təkamül bir çox cəmiyyətlər üçün uğurlu olmamışdır, belə ki, indi də planetdə sivil həyat tərzinə keçə bilməyən geri qalmış çoban qəbilələr yaşayır. Maldar cəmiyyətlərin çoxu çağdaş inkişaf mərhələsinə keçmişlər, lakin bu, əkinçi cəmiyyətdən sonra baş vermişdir. Vəhşi heyvanların əhliləşdirilməsi çobançılıq yaxud maldarlıq cəmiyyətinin yaranması ilə nəticələndi ki, bu da əkinçiliyin inkişafına təkan verdi.

*Domestikasiya* (domesticatiya) neolit inqilabının mühüm tərkib hissəsi sayılır. Domestikasiya insanların təsərrüfat ehtiyacları naminə

vəhşi heyvanların əhliləşdirilməsindən və yabanı bitkilərin mədəniləşdirilməsindən ibarətdir. Onun nəticəsində iki cəmiyyət tipi: *bostançılıq (hortikultural)* və *çobançılıq (pastoral)* yaranmışdı.

Alimlər domestikasiya inqilabını bəşər cəmiyyəti tarixində vəhşi təbiətin dəyişdirilməsi yönündə birinci və ən böyük proses sayırlar. Bir neçə min il davam etmiş bu prosesin sonunda insan cəmiyyətinin quruluşu, təbəqələşmə tipi dəyişilmiş, yazı və sivilizasiya yaradılmış, şəhərlər salınmış və sosial münasibətlər sistemi dəyişilmişdir. Bəşəriyyətin adaptasiyasının tarixi tipinin dəyişilməsi də domestikasiya inqilabının əlaməti sayılır: bundan sonra bəşəriyyət, daha təbii şəraitin verdiklərinə, o cümlədən qida ehtiyatlarına sadəcə uyğunlaşmayıb, onlara rasional nəzarət, istehsal və təkrar istehsal etməyə başlamışdı.

Yeni daş dövrü inqilabında heyvanların domestikasiyasından sonrakı mərhələ *aqrar inqilab* (aqricultural revolution) mərhələsi sayılır. Heyvanların domestikasiyası və aqrar inqilabı neolit inqilabının tərkib hissələridir.

Bu inqilablar əməyin məhsuldarlığının yüksəldilməsinə, bu da öz növbəsində əhalinin sayının artmasına səbəb oldu. Əhali artımı isə ərzaq və sərvət qaynaqları uğrunda mübarizənin kəskinləşməsinə səbəb oldu. Azlıqda olan elita cəmiyyətin sərvətinin böyük qismini öz əlində toplayaraq əhalinin çox hissəsini repressiv təzyiq mexanizmlərinin (ordunun, polisin, məhkəmələrin) vasitəsilə sərvətdən kənarda saxladılar. Amma bu vasitələrin daimi saxlanması üçün böyük vəsait tələb olunurdu, nəticədə dövlətin ərazisi böyüyür və təbəələrinin sayı artırdı.

Aydınlaşdırılmışdır ki, qədim daş dövrünün sonunda insanlar planetin bitkilərlə örtülmüş bütün səthində məskunlaşmışdılar (qütblüklər və cənub endairəsinin bəzi adaları istisna olmaqla). Buzlaqların əriməsi dövrü yəni paleolitin sonu min illər davam etmişdir. Avropanın sərhədyanı rayonlarında buzların çəkilməsi b.e.ə XI-X minilliklərdə başlanmış, iki min ildən sonra isə buzlaq Mərkəzi Avropadan çəkilmişdi. Skandinaviya b.e.ə VI minillikdə buzlaqdan azad olmuşdu. Buzlaqdan ən uzaq bölgələr Yaxın Şərq – Şumer, Mesopotamiya, Misir, Aralıq dənizinin şərq sahilləri neolit inqilabının beşiyi olmuşdur. Bu yerlərdə torpağın becərilməsi eramızdan 8 min il öncə başlanmışdır. Bu iş təxminən eyni dövrdə Şərqi Asiyada, Meksika və Peruda da başlanmışdı.



### 5.2. Heyvanların əhliləşdirilməsi və əkinçilik mədəniyyətinin yaranması

*Heyvanların əhliləşdirilməsi.* Heyvanların əhliləşdirilməsi (domestikasiya prosesi) ibtidai iqtisadiyyatın tarixi təkamülü və bəşəriyyətin bir istehsal formasından digərinə keçməsi ilə eyni vaxtda baş vermişdir. Artıq bilirik ki, yığıcılıq və ovçuluq planetimizdə ən qədim təsərrüfat formaları olmuşdur. Bu formalar 40-100 min il öncə yaranmışdı. Bu zaman kəsiyində insanlar hələ bioloji təkmilləşmə prosesində olmuşlar və onların heyvan cinslərini dəyişdirib yaxşılaşdırdıqlarını düşünmək olmaz. Birinci təsərrüfat formaları ikinci – maldarlıq və əkinçilik təsərrüfat formaları ilə əvəz olunmuşdur. Bu prosesin də 8-10 min il öncə baş verdiyini artıq bilirik. Bu andan başlayaraq, insan vəhşi heyvanları əhliləşdirib ev cinsləri yetişdirdilər.

İlk dəfə hansı heyvanlar əhliləşdirilmişdir sualına arxeoloqlar birmənalı cavab verməmişlər. Bir məlumata görə, on min il öncə Kiçik Asiya (indiki Türkiyə) təpəliklərində keçi və qoyun sürüləri əhliləşdirilmişdir. Başqa bir məlumata görə, ilk dəfə itlər yaxud qurdlar ev şəraitinə uyğunlaşdırılmışdır. Son vaxtlarda itlərin kəllə qutusunun və dişlərinin, beyninin, qan zülallarının və başqa fizioloji özəlliklərinin öyrənilməsi təsdiq etdi ki, itlərin əcdadı qurdlar olmuşdur.

Qurdların əhliləşdirilməsi təsərrüfat ehtiyacları ilə bağlı olmuşdur: onlar sürülərə keşik çəkməyə uyğunlaşdırılmışdı: itlər həmçinin nəqliyyat vasitəsi idilər, camışların, mastodontların (qədim xortumlu heyvanların) ovlanmasına kömək edirdilər.

Yeni araşdırmalarla aydınlaşdırılmışdır ki, itlər hələ daş dövründə insanlarla birlikdə yaşamış və onlarla birlikdə Berinq boğazından keçərək Yeni dünyaya yayılmışlar. Güman edilir ki, itlər (*Canis familiaris*) paleolit dövründə, 15 min il öncə Şərqi Asiyada əhliləşdirilmişdir. Bu bölgənin insanları aqressiv olmayan qurdları çoxalda bilmişlər. Bu nəticə dünyanın müxtəlif bölgələrində yaşayan itlərin və qurdların genlərinin müqayisəli analizindən əldə olunmuşdur.

Vaşinqton Milli Təbii-Tarix Muzeyinin bioloqu C.Leonardın başçılığı altında bir qrup alim sübut etmişdir ki, 12-14 min il öncə azı

beş müxtəlif genetik ailəyə məxsus qurdlar insanlarla birlikdə Sibirdən Alyaskaya keçmiş, Amerika qitəsinin cənubuna yayılmışlar.

C.Leonardo hesab edir ki, əgər itlər 15 min il öncə əhliləşdirilibsə, deməli, onlar bir neçə min ildə üç qitəyə yayılmışlar. Bu dövrdə insanlar ovçular-yığıcılar olmuş və nisbi təcrid olunmuş qruplar halında yaşamışlar. London Zooloji Muzeyinin mütəxəssisi C.Slatton-Brok isə itlərin 15 min il deyil, 7 min il öncə əhliləşdirildiyini düşünür. Amma son fikir budur ki, itlər 40 min il öncə uyğunlaşdırılıb. Bu müddətdə insanlar və itlər bir-birinə uyğunlaşıblar.

Başqa bir yöndə maraqlı tədqiqat B.Xeyerin laboratoriyasında aparılmışdır. Bəlli olmuşdur ki, insan qidanın gizlədildiyi yer haqqında məlumat verdikdə onu it şimpanzedən və canavardan tez başa düşür. Deməli, şimpanze və canavar insanla qonşuluqda yaşasalar da onunla əməkdaşlıq edib, ona qulaq asıb qarınlarını doydurmağa uyğunlaşa bilməmişlər. Bir sözlə, vəhşi heyvanlar sosiallaşma yoluna düşə bilməmişlər. İtlər isə insanlarla birlikdə təkamül etmiş, insanı anlamağı öyrənmişlər. Buradan nəticə çıxarılır ki, antropoloji və sosioloji baxımdan *əhliləşdirmə vəhşi heyvanların tarixən uzun sürən sosiallaşması prosesidir; bu prosesin gedişində heyvanlar yalnız süni mühitə uyğunlaşmamış, həm də özlərinin morfoloji quruluşunu dəyişirlər.*

P.Takon və K.Pardo qurdların və insanların həyatını təhlil edərək nəticəyə gəlmişlər ki, qurdlar və insanlar qrupda mürəkkəb münasibətlərdə olan sosial heyvanlardır və onlar bir-birinin davranışını mənimsəyə bilərlər.

Arxeoloqlar daha erkən zamanlara aid it rəsmləri aşkar ediblər. Bu rəsmlər itlərin və insanların müştərək həyat dərəcəsini göstərir. Rəsmləri çəkilmiş itlərin azadlıqda daha güclü qohumları ilə rəqabətə davam gətirməyib insan sığınacağına sığınan daha zəif qurdlardan törədiyi ehtimal edilir. Güman edilir ki, bu zəif heyvanlar insan sığınacaqlarının ətrafında dolaşaraq onların yeməklərinin qalıqları ilə qidalanmış və ixtisaslaşmışlar.

Alimlər vəhşi pişiklərin sosiallaşmasının başqa yolla getdiyini aydınlaşdırmışlar. Onlar itlər kimi sürü halında yaşamamışlar. Antropoloqlar pişiklərin insan ocağına çağırılmadan gəldiyini düşünürlər. İnsanlar pişiklərin özəlliklə cəsarətlilərini, qorxmayanları



nəinki qovmamışlar, hətta onları yemləmişlər. Yalnız sonralar insanlar pişiklərin siçanlara və siçovullara qarşı mübarizədəki rolunu qiymətləndirmişlər. Beləliklə, öncə canavarların ən cəsarətsizləri, pişiklərin isə ən cəsarətliləri əhliləşdirilmişdir.

Arxeoloji dəlillər əsasında, bəzi antropoloqlar nəticə çıxarırlar ki, qurdların domestikasiyası ovçuluq və maldarlıq təsərrüfatlarının ehtiyacından irəli gəlmişdir; odur ki, bu proses iki epoxanın kəsişdiyi mərhələdə baş vermişdir.

Ev donuzlarının eradan 8 min il öncə əhliləşdirilməsi mümkün olmuşdur. Vəhşi donuzları o zaman Krım və Şərqi Asiya xalqları əhliləşdirmişlər. Yunanıstanda eramızdan öncə 6, 5 min il öncə artıq əhliləşmiş inək sürüləri var idi. Kiçik Asiyada (indiki Türkiyədə) isə inəklər daha əvvəl əhliləşdirilmişdi.

Təkdırnaqlı heyvanların əhliləşdirilməsi ulaq və atları vermişdir. Ulaq Nil vadisində eradan öncə IV minillikdə, əhliləşdirilmişdir. At ulaqdan daha gənc ev heyvanı sayılır. Onun Cənubi Rusiya və Orta Asiya xalqları tərəfindən eradan öncə V minillikdə əhliləşdirildiyi bildirilir.

7 min il öncə Çində və Tailandda it, donuz, camış, keçi və qoyun əhliləşdirilmişdir.

İtdən və pişikdən başqa bütün ev heyvanları insanı ətlə təmin etmişdir. İt insanı ovda müşayiət etmiş, itmiş heyvanların tapılmasında yardımçı olmuşdur. Pişik müəyyən mənada yeni təsərrüfatın yaradıcısı sayılır. Əlbəttə, əkinçiliyə keçilməsində insanlar pişiyə yox, obyektiv şəraitə borcludurlar. Ancaq əkinçiliyin oturuşmasında pişiyin köməyi danılmazdır. Çünki taxılı siçanlar, siçanları isə pişiklər yeyirdilər. Əgər pişiklər olmasaydı insanlar əkinçiliyi qoruyub saxlaya bilməzdilər, onda dövlət, siniflər, şəhərlər və sivilizasiyalar da olmazdı.

Qəbul olunmuş ümumi baxışı təkzib edən fikir də vardır. Bu fikrə görə, əgər pişiklər eramızdan öncə IV-III minilliklərdə əhliləşdirilib əkinçiliyə isə 10 min il öncə başlanılıbsa, onda belə çıxır ki, insanlar 5 min il pişiksiz taxılı gəmiricilərdən qoruyub saxlaya bilib. Məlumdur ki, şumerlər və mesopotamiyalılar pişik əhliləşdirilməzdən 4-6 min il öncə taxılı qoruya bilirmişlər.

Bu təkzibə qarşı qoyulan və daha ağlabatan dəlil budur ki, bütün başqa heyvanlardan fərqli olaraq pişiyin əhliləşdirilməsi məcburi

olmamışdır, insan pişiyi yox, pişik insanı seçmişdir. Buna isə pişik obyektiv səbəbdən – ekoloji yoxsulluq üzündən məcbur olmuşdu.

Ev pişiyinin ən qədim arxeoloji qalıqları minillik tarixi olan əkinçilər məskənində tapılmışdır. Bu məkanda gəmiricilər hər şeyi məhv etmişdilər. Siçanlar və siçovullar böyük miqdarda taxılı məhv etmişdilər. Hətta indi də İngiltərədə hər il 5 siçovul bir insanın bir ildə yediyi qədər taxıl yeyir. Gəmiricilər səpinə də ziyan vururlar; zəhərli dərmanlara uyğunlaşır, tələnin isə yanından ötürlər. Onlar pişikdən qorxan kimi heç nədən qorxmurlar.

Mütəxəssislər təsdiq edirlər ki, iribuynuzlu heyvanlar e.ö.IV minillikdə əhliləşdirilmiş, ancaq qədim imperiyalar, o cümlədən Böyük Hun imperiyası dövründə heyvandarlıq geniş yayılmışdı. İlk vaxtlarda iri mal-qara sürüləri süd və ət əldə etmək üçün bəslənir və artırılırdı. Sonralar öküzlər və camışlar yük daşımaq üçün istifadə edilirdi. Daha sonralar isə araba və kotanlara qoşqu qüvvəsi kimi istifadə olunurdu. Kənd təsərrüfatı insanla birlikdə mühüm enerji qaynağı oldu.

Atların e.ö. III-II minilliklərdə Qazaxıstan və Ukrayna səhralarında əhliləşdirildiyi qeyd edilir. Onun güclü və sürətli olması yük daşımaq üçün daha əlverişli idi. Atlardan daha çox hərbi məqsədlər üçün istifadə edilirdi, yalnız sonradan onlar öküzləri əvəz etmişdi.

Öküzün əhliləşdirilməsinin ardınca xış və araba təkəri ixtira edildi. Şumerlilər, sonra isə Mesopotomiya və misirlilər hələ e.ö. III əsrdə torpağı xışla şumlayırdılar. Bu üsul 5 min il davam etmişdir.

*Bitkilərin mədəniləşdirilməsi.* Bitkilərin mədəniləşdirilməsi yabanı bitkilərin mədəni taxıl bitkilərinə çevrilməsi deməkdir. Artıq yığıcılıq zamanında budamanın, suvarmanın və gübrələmənin gedişində yabanı bitkilərin mədəniləşdirilməsi, həmçinin başqa qəbilələrdən qorunması və onların üzərində insanların öz mülkiyyətinin möhkəmləndirilməsi başlanmışdı. Qədim insan artıq çoxdan yeməli bitkiləri başqalarından fərqləndirmişdi. Onlara bəlli idi ki, yabanı buğdanı elə belə də yemək olar.

Rus alimi N.İ.Vavilov, vaxtilə bitkilərin mədəniləşdirildiyi mərkəzləri müəyyən etməyə imkan verən metodu işləyib hazırlamış və əsaslandırmışdı. Onun metoduna görə, bizə bəlli olan mədəni bitkilərin əksəriyyəti qaynağını səkkiz dağlıq, tropik və subtropik



zonalardan – Şimali Qafqazdan, Himalaydan, Afrikanın dağlıq bölgələrindən və Aralıq dənizi ölkələrindən, Çinin dağlıq hissəsindən götürmüşlər. Alimlər nəticə çıxarırlar ki, dünya əkinçiliyi tarixində qurunun yalnız dar bir zolağı əsas rol oynamışdır.

Yabanı buğda yetişdikdə qılçıqda olarkən külək onu bir yerdən başqa yerə aparır və toxum düşdüyü yerdə bitirdi. Qədim insanlar üçün buğdanın bu cür – təbii yolla çoxalması münasib deyildi. Görünür bu səbəbdən yabanı buğdanı mədəniləşdirməyə ehtiyac yaranmışdı.

İnsanlar ilk dəfə buğdanı və arpanı süni üsulla çoxaltmağa başlamışdılar. Mədəniləşdirilmiş bitkilər o dərəcədə dəyişilmişdilər ki, alınmış sortlar artıq insan müdaxiləsi olmadan cücərə bilməzdilər.

Əkinçilik sahəsində aparılan elmi təcrübələrlə alimlər sübut edirlər ki, yabanı buğda o qədər şaxəli idi ki, qədim yığıcı ailəsinin illik azuqəsindən artıq məhsul verirdi.

İndi də yabanı buğda Yaxın Şərqin ərazisində bol-bol bitir. Yabanı buğda tez yetişir və üç həftədən bir məhsul verir. Təcrübəli yığıcı ailəsi üç həftə içində il boyu istifadə etmək üçün yetərincə məhsul yığa bilərdi. Onu qoruyub saxlamaq da tələb olunurdu. Bu məqsədlə anbar tikirdilər. Taxılın uzun müddət qorunub saxlanması oturaq həyata keçilməsi üçün əlavə stimul oldu.

Çində 8, 8 min il öncə ilk mədəniləşdirilmiş bitkilər çəltik və darı olmuşdur. Darı indi də Çinin şimalında bitir.

Çəltik Çinin ən mühüm kənd təsərrüfatı bitkisi sayılır. Bu bitki orada e.ö. III minilliyin sonlarından becərilməyə başlanıb. Amma çəltiyin Cənubi Hindistanda yaxud Cənub-Şərqi Asiyada domestikasiya olunduğu təsdiq edilir. Taylandda lobya və noxudun mədəni sortlarının e.ö. VIII minilliklərə aid qalıqları aşkar edilmişdir. Burada çəltiyin Çindən çox öncə becərildiyi göstərilir.

Alimlər Meksika və Peruda mədəniləşdirilən ilk bitkilərin qarğıdalı və kartof olduğunu bildirirlər. Müxtəlif iqlim şəraiti və torpaq növləri olan Meksikada bu bitkilər üçün yaxşı şərait var idi. Orada bir çox yeyilən yabanı bitki növləri bitirdi. Lakin bu bitkilər geniş sahələrə yayılmışdır, bu səbəbdən də burada Yaxın Şərqdən fərqli olaraq oturaq həyata gec keçilmişdir. Bu bölgədə ilk sivilizasiyaların inkişafı Şumer və Mesopotamiyadan 2 min il sonra başlanmışdı.

Mərkəzi Amerikada qarğıdalı *qidanın mühüm komponenti* sayılır. Bu bitki ilə bağlı olan ilk tapıntılar e.ö V-IV minilliklərə aid edilir. Daha öncə balqabaq və paxla yetişdirilirdi. Amerikada neolit epoxasının mövcudluğunu təsdiq edən e.ö.VII minilliyə aid dəlilləri alimlər Meksika körfəzindən cənuba doğru Rio-Qrande mağaralarında aşkar ediblər.

Perunun suyu bol, heyvanlar aləmi zəngin yüksək dağlıq rayonlarında insanların e.ö. XV minillikdə məskunlaşdığı, ancaq bitkilərin becərilməsini təsdiq edən ilkin dəlillərin e.ö. VI minilliyə aid olduğu göstərilir. Sakit okeanın xüsusi iqlim şəraiti kənd təsərrüfatının inkişafı üçün əlverişli olmamışdır. Burada yalnız balqabaq yaxşı bitir. Bu coğrafi bölgədə bitkilərin ardıcıl yetişdirilməsinə yalnız e.ö. III minilliyin ortalarından başlanmışdır.

Beləliklə, Köhnə Dünyanın hər yerində buğda, arpa, yulaf, mərcimək və noxud; Amerikada balqabaq, lobya (soya), qarğıdalı və s; Şərqi Asiyada badam, paxlalılar, xiyar, noxud, buğda və darı (bu bitki e.ö.II minilliyə qədər Çində çəltikdən üstün sayılmışdır) becərilirdi.

## 5.3. Bostançılıq və fermer təsərrüfatı

Ovçuluq və yığıcılıq yüz min illər davam etmişdir. Bəşəriyyət təsərrüfatın bu formasından bostançılığa çox sonralar keçmişdir (bu keçidin nə zaman baş verdiyi elmə hələ bəlli deyil). Amma bostançılıqdan əkinçiliyə keçildiyi tarix məlumdur. Tarixçilər bunun *təxminən 10-12 min il öncə baş verdiyini aydınlaşdırıblar. Əkinçilik* bostançılığın davamı kimi irəli gəlmişdir. Bu iki təsərrüfat forması arasında fərq azdır.

Əkinçiliyin erkən fazası sayılan bostançılıq (bunu ibtidai fermer təsərrüfatı da adlandırırlar) Yaxın Şərqdə yaranmış, oradan da sürətlə Qərbi Asiyaya, Misirə və Avropaya yayılmışdır. İnsan öncə yabanı buğdanı və arpanı, sonralar (təxminən 7 min il öncə) isə meyvə və tərəvəz bitkilərini mədəniləşdirmişlər.

Bostançılığın və ibtidai fermer təsərrüfatının əsasını əkinçilik, böyük torpaq sahələri və bol buğda məhsulu deyil, kiçik bostanlar və kökümeyvəlilərin becərilməsi təşkil etmişdir. Bunun səbəbi odur ki, kökümeyvəli-lərin məhsuldarlığı taxıl və paxlalı bitkilərin məhsuldarlığından 10 dəfə çoxdur. Deməli, bu qədər taxıl və paxlalı



bitki məhsulu götürmək üçün o qədər çox torpaq sahəsi becərmək və o qədər də artıq əmək sərf etmək lazımdır. Sonra taxıl və paxlalı bitkilərin becərilməsi kökümeyvəlilərə nisbətən torpağın məhsuldarlığını tez azaldırdı. Bundan başqa, kökümeyvəli bitkiləri qorumaq və məhsulunu yığmaq daha asan idi (az adam tələb olunurdu və s.); meyvələr torpaq altında aylarla qala bilirdi, taxıl və paxlalıların məhsulunu qısa zamanda yığmaq lazım gəlirdi.

Amma taxıl və paxlalı bitkilər insanlar üçün daha balanslaşdırılmış qida idi. Onun sayəsində insanlar ovçuluq və yığıcılıq həyat tərzindən, eləcə də kökümeyvəli bitkiləri yetişdirən qəbilələrdən tez imtina etmişdilər. Əkinçiliyə keçidin sosiomədəni şəraiti də fərqli olmuşdur. Bu amil də keçidin sürətinə və xüsusiyyətinə təsir etmişdir. Antropoloqlar hesab edirlər ki, Meksika və Cənubi Amerikanın dağlıq sahələrində məskunlaşmış ovçular və yığıcıların, Suriya və Fələstində yüksək inkişaf etmiş yarımoturaq ovçular və yığıcıların, Cənub-Şərqi Asiyada balıqçı qəbilələrin həyatında əkinçilik yer almışdı. Asiyada əkinçilik heyvanların əhliləşdirilməsi ilə bir vaxtda başlanmışdır. Yeni Dünyada isə ümumiyyətlə, ev heyvanları olmamışdır.

Taxıl bitkilərinin süni üsulla becərilməsinə birdən-birə keçilməmişdir. Ondan öncə insanlar süni becərməni tərəvəz bitkiləri üzərində sınaqdan keçirmişlər. Odur ki, bostançılıq təsərrüfatına əkinçiliyə keçid üçün sınaq yaxud aralıq mərhələ kimi baxırlar.

L.Q.Morqan əkinçilik və bostançılıq təsərrüfat formalarının əlaqəsindən söz açaraq yazır: "Bostan (hortos) zəmidən (aqer) öncə olduğu kimi, bostançılıq da əkinçilikdən öncədir; əkinçilik müəyyən ərazini nəzərdə tutursa, bostançılıq "çəpərlənmiş yeri" bildirir. Amma əkinçilik bostandan qədim olmalı idi: təbii ardıcıllıq belədir: birinci, açıq külək tutan sahənin becərilməsi, ikinci, çəpərlənmiş bostanların yaxud yerlərin becərilməsi; üçüncü, heyvan gücü ilə hərəkətə gətirilən xışla becərilən sahə" ($123_a$, 17).

Bostançılıqda ibtidai əl əmək alətlərindən istifadə olunurdu. Bu təsərrüfat formasını, bəzən fermerlik də adlandırırlar. Kökümeyvəlilərin mədəniləşdirilməsi iri buynuzlu heyvanların çoxaldılması ilə birgə aparılırdı. Kökümeyvəlilərdən tədricən arpa və buğdanın becərilməsinə keçilmişdir.

Beləliklə, bostançılıq – təbiətdən (yabanı bitkilərdən) hazır

məhsulların əldə edilməsindən mədəni taxıl bitkilərinin sistemli və intensiv becərilməsinə keçid təsərrüfat formasıdır. Kiçik bostan sahələrini geniş əkin zəmiləri, ibtidai ağac toxalarını isə sonralar dəmir kotanlar əvəz etdi.

Nəhayət, heyvanların əhliləşdirilməsi və bitkilərin mədəniləşdirilməsi insanların təsərrüfat üsulunu və həyat tərzini dəyişdirdi. Ovçuluqdan və yığıcılıqdan sonra əkinçilik dövrü başlandı, köçəriliyi oturaq həyat əvəz etdi. Heyvandarlıqla taxılçılığın birləşməsi müasir ikisahəli yaxud qarışıq kənd təsərrüfatı tipinə gətirib çıxartdı. Bostançılıq yaxud ibtidai fermer təsərrüfatı iki nəhəng epoxanı – yığıcılıq və əkinçilik – birləşdirən körpü oldu.

Bu prosesin nəticəsi olaraq insanın qidasının tərkibi, yalnız hominidlərin və primatların deyil, həm də ovçuların və yığıcıların qidasının tərkibindən fərqləndi. İnsan qidasının tərkibinə buğda ilə yanaşı süd də daxil oldu.

T.Makkena özünün "Tanrılar yeməyi" adlı kitabında yazır ki, qədim insanların, ovçular və yığıcıların qidasında bitki qaynaqlı alkaloidlər, xüsusilə qalylüsinogen birləşmələr olmuşdur, onlar psixofəal kimyəvi birləşmələrdə mutasiyalar törədərək beyinin ölçülərinə və funksiyalarına çox güman ki, təfəkkürün inkişafına müsbət təsir göstərirdilər. Az miqdarda psilosibin bəzi göbələklərlə qidaya daxil olaraq beyində informasiyaların işlənməsinin fəallığını, gözlərin itiliyini artırır ki, bu da ovun və yığıcılığın uğurlu olmasına təsir etməyə bilməzdi. Müəllif sözünə davam edərək yazır: "Psilosibin göbələkləri mərkəzi sinir sisteminin stimulyatorları olaraq çoxalmaya əlverişli təsir edir, rahatsızlıq və seksual həyəcanlanma yaratmağa meyllidirlər. Qrup daxilində cinsi fəallığı tənzimləyən və planlaşdıran ... psilosibin göbələyinin olması mərasimlərə və dinə doğru hərəkətdə ilk addım ola bilərdi. Deməli, qidaya psilosibinin daxil edilməsi insan davranışının parametrlərini dilin yaxşılaşmasına kömək edən fəaliyyətə yönəltmişdir: dilə nail olunması böyük söz ehtiyatının və yaddaşın inkişafına aparıb çıxarmışdır. Psilosibin qəbul etmiş fərdlər epigenetik qaydalar və mədəni formalar yaradırdılar ki, bunlar o fərdlərə yaşamağa və başqalarından intensiv çoxalmağa imkan verirdi. Beləliklə, populyasiya genetik və mədəni inkişaf edirdi" (108, 224).

Qallüsinogen və psixotrop vasitələr dünyanın bir çox xalqlarının ənənəvi mədəniyyətlərinin vacib elementi sayılır. Dünyanın bütün bölgələrində yerli narkotik maddələrdən istifadə olunur. Məsələn, Meksikada əzəldən qallüsinogen kaktus (peyot) və psilosibin göbələkləri qəbul edirdilər, Mərkəzi və Şimali Amerikada tütün tüstüsü ilə nəfəs alırdılar və s. Amma qallüsinogenlərin qəbul edilməsi çox vaxt mərasimlərlə bağlı olur və çox qədim tarixi ənənə sayılır. Bu çoxsaylı yazılı qaynaqlar və arxeoloji tapıntılarla sübut olunur.

Antropoloqlar və arxeoloqlar təsdiq edirlər ki, insanın əcdadı on və yüzminillər boyu qarışıq qidalarla qidalanıblar. Belə qidalanma İndoneziyanın, Filippinin, Afrikanın bir sıra ölkələrinin son vaxtlara qədər ibtidai səviyyədə qalan qəbilələri üçün səciyyəvi sayılır. Bəllidir ki, üst paleolit epoxası (12-40 min il öncə) insanının qida rasionuna yabanı meyvələr, tərəvəzlər, qoz, yağsız ət və b. daxil idi. İbtidai insan instinktiv olaraq bilirdi ki, tonqalda qızdırılmış suya müxtəlif otlar, köklər və giləmeyvələr əlavə edəndə faydalı olur.

Təkamülün gedişində insanların qidalanması bir çox səbəbdən dəyişilmişdir, əcdadlarımız tərkibində az-çox ət və balıq məhsulları olan yeni qidalara tədricən uyğunlaşırdı. Müasir insanın qida tərkibinin 250-300 il öncə formalaşdığı göstərilir. Yeni arxeoloji araşdırmalar təsdiq edir ki, ibtidai insanın (20-30 min il öncə) qida rasionuna balıq və su quşlarının əti daxil idi.

Toronto Universitetinin həkimləri hesab edirlər ki, ən yaxşı pəhrizi bizim uzaq əcdadlarımız – mağara insanları saxlayırmışlar. Eksperimentlərlə sübut edilmişdir ki, ibtidai pəhrizlə – köklərlə, toxumlarla, qozlarla, giləmeyvələrlə və təbiətin başqa nemətləri ilə iki həftə qidalanan insanın qanında xolesterolun səviyyəsi 30% azalır.

### 5.4. Maldarlıq və köçərilik

İnsanlar artıq üst paleolitdə heyvanların çoxaldılması haqqında məlumatlı idilər, ayrı-ayrı vəhşi heyvanları öldürmür damazlıq saxlayırdılar. Daha mükəmməl ov zamanı yəni bütün sürünü tora saldıqda onları öldürməyə tələsməyərək əhliləşdirməyə saxlayırmışlar. Keçi və qoyunların əhliləşdirilməsinin üstünlüyü bir də onda idi ki, bu heyvanlar sürü halında yaşayırdılar və sürü başçısının (təkənin) ardınca getməyə vərdiş etmişdilər.

Həyatı təmin etməyin bir forması kimi çobançılığın hətta ibtidai

sahə tələb olunurdusa, səmərəli əkinçilikdə 100 $m^2$ torpaq sahəsi yetərli idi. Ekstensiv təsərrüfatdan intensiv təsərrüfata keçidin bir neçə min il davam etdiyi bu müddətdə torpağın məhsuldarlığının 20 min dəfə yüksəldiyi müəyyənləşdirilmişdir.

Əkinçiliyin inkişafı məhsulun bir hissəsini sürünü yemləmək üçün ayırmağa imkan verirdi. Ancaq sürü sayca artdıqca yeni otlaq sahələri axtarmaq zərurəti yaranırdı. Yem əldə edilməsi çətin olan yerlərdə qəbilənin bir hissəsi heyvandarlıq, digər hissəsi isə əkinçilik üzrə ixtisaslaşma yolunu seçdilər. Sürünün çoxalması torpağı üzvi gübrə ilə təmin etməyə, bu da öz növbəsində bol məhsul götürməyə imkan verirdi. Əhliləşdirilmiş öküzlərin köməyilə torpağı yaxşı şumlamaq mümkün olurdu. Xışdan istifadə edilməsi nəticəsində əllə becərilmə ilə müqayisədə məhsuldarlıq bir neçə dəfə artıq olurdu.

Əgər eramızdan 10 min il öncə insanlar taxılı yığıcılıq, əti ovçuluq yolu ilə əldə edirdilərsə, eramızdan 8 min il öncə taxılı əkinçilik yolu ilə əldə etməyə başladılar; eramızdan 6 min il öncə əkinçilik+maldarlıq (qarışıq təsərrüfat) yaranmışdı; eramızdan 3 min il öncə isə müstəqil əkinçilik və heyvandarlıq təsərrüfat formaları yarandı.

Sürü yem və su axtarmaq üçün daim yerlərini dəyişdiklərindən insanlar onların ardınca gedərək köçəri həyat keçirməli olurdular. Deməli, onları ovçularla eyniləşdirmək olmaz.

Tarixçilər hesab edirlər ki, köçərilər cəmiyyəti əkinçilərlə müqayisədə sosial baxımdan daha azad, siyasi yöndən daha müstəqil idilər. Köçəri həyat tərzi Asiyanın və Şərqi Avropanın əkinçiliklə məşğul olan ölkələrini orta əsrlərə qədər istila etmiş monqol dövləti. Böyük Hun İmperiyası yaxud skif qəbilələri birliyi kimi güclü imperiyaların yaranması üçün əsas olmuşdur. Onlar 3, 5 min il ərzində Yer kürəsinin siyasi məkanını formalaşdırmışdılar. Bizim eradan öncə II minilliyin başlanğıcında bütün sivil dünya təşviş içində idi. A.Men özünün "Magizm və təkallahlılıq. Bəşəriyyətin böyük müəllimlər epoxasınaqədərki dini yolu" (1991) adlı əsərində yazır ki. çoban xalqların ordusu əski mədəniyyətin dövlət sərhədlərinə gəlib çıxmışdılar. Sanki hansısa sehrli bir güc milyonlarla insana irəliləmək və istilaçılıq üçün dəfedilməz ehtiras vermişdi. Əsrlər boyu məskunlaşdığı yerlərini tərk etməyən xalqlar və qəbilələr ayağa qalxıb böyük axınla çöllərdən və səhralardan, çaylardan və dağ



silsilələrindən keçərək irəliləyirdilər. Ərəbistan səhrasından köçəri amoritlər Dəclə və Fərata doğru axışdılar. Kiçik Asiyada xettlər göründülər; axeylər Balkan yarımadasına girdilər. Hindistanda ari köçəriləri göründülər. Eramızın IV-VI əsrlərində barbar köçəri və yarımköçəri qəbilələr (franklar, anqllar, germanlar və b.) Avropaya yayı-laraq əzəmətli Roma imperiyasını dağıtdılar, bununla da Qərb sivilizasiyasını bir neçə əsr geri atmış oldular. Eramızın VIII-IX əsrlərində bir çox qə-bilə birlikləri, o cümlədən türk qəbilə birlikləri (hunlar, avarlar, protobolqarlar) Avropada hərəkət etmiş, ancaq öz dövlətlərini qura bilməmişlər.

Çobançılıqla məşğul olan xalqların bir çoxu yarımköçəri həyat sürürdülər. Onların təsərrüfatı köçəri maldarlıq yaxud heyvandarlıq adlanırdı. Sürü yayda yaylağa, qışda qışlağa sürülürdü. Belə xalqlar çox vaxt əkinçi xalqlarla fərqli təbii şəraitlərdə yaşayırdılar. İki təsərrüfat tipi tarixən türk xalqlarında (özbəklərdə, qazaxlarda, qırğızlarda, azərbaycanlılarda və i.a.) və bəzi başqa xalqlarda birgə mövcud olmuşdur.

Yarımköçəri xalqlar qarışıq təsərrüfatla, eyni zamanda bostançılıqla və kiçik heyvanların ovlanması ilə də məşğul olurdular.

# NƏTİCƏ

İlk dəfə iqlimin əlverişli olduğu coğrafi bölgədə – Yaxın Şərqdə və Şimali Afrikada əkinçiliyə keçilməsi və bunun tədricən yayılması sayəsində gəzərti həyat tərzindən oturaq təsərrüfat formasına keçid mümkün olmuşdu. Əkinçiliyə keçilməsilə bəşər tarixində ilk dəfə *olaraq insanın insan tərəfindən istismarı* başlanmışdır.

Əkinçilər və maldar köçərilər-istehsalçılar havanın mövsümi dəyişmələrindən, günəşdən, yağışdan və çayların daşmasından güclü asılı idilər. Sərt hava şəraiti üzündən əkinçi yenilik etmək imkanından məhrum idi: kənd təsərrüfat, alətləri və metodları min illər boyu dəyişilməmiş, aqrar istehsal üsulu çağdaş elmi-texniki mədəniyyət baxımından durğunluqda idi.

Oturaq həyata keçilməsinin əsas fərqləndirici əlamətlərindən biri sığınacağa (mənzilə) münasibətin dəyişilməsi olmuşdur. Daş dövrü ovçularının məskənləri və dayanacaqları əkinçi kəndlərinə çevrilmişdi. Belə kəndlər ilk dəfə e.ö. VII minilliyin başlanğıcında Yaxın Şərqdə yaranmışdı. Bu da yüzlər və minlərlə insanın məskunlaşdığı iri şəhərlərin yaranmasına başlanğıc vermişdir.

Qədim daş dövrünün ayrı-ayrı ailələrdən ibarət olan tayfa ovçu qruplarını artıq diferensiasiya etmiş, təbəqələşmiş sosial sistemin mövcud olduğu məskənlərdə əkinçilər əvəz etmişdi; cəmiyyət qruplara və sosial təbəqələrə bölünmüşdü. Daha qədim dövrə aid tapıntılar (əşyalar) belə məskənlərdə cinsindən asılı olmayaraq hamının bərabər olduğunu təsdiq edir. Hətta uşaqlar da cəmiyyətin tam hüquqlu üzvləri sayılırdı. Bu həyat tərzinin kollektiv xarakterli olması özünü əkin sahələrindəki birgə əməkdə və suvarma təchizatının yaradılmasında göstərirdi. Amma artıq bu mərhələdə əməyin ixtisaslaşması başlanmışdı: sənətçilər daşların və metalların üzərində işləyir, saxsı qablar hazırlayır, qalanları qida əldə edirdilər.

Əsas məşğulluğun ən ilkin formaları – yığıcılıq, ovçuluq və balıqçılıq yardımçı əmək formaları kimi bir çox etnoslarda indi də qalır.

Əkin sahələrinin şumlanması iri daimi qəsəbələrin yaranmasına səbəb oldu. Torpağa qənaət insanları yeni sosial birlik tipi – *ərazi icması* yaratmağa məcbur etdi. Torpağın hər m2-nin məhsuldarlığı da artdı.



Artıq erkən əkinçilik yaşayış üçün lazım olandan artıq məhsul istehsal etməyə imkan verirdi. Şumerdə e.ö.3000-ci ildə hər kişiyə ayda 36 kq, qadına isə 18 kq taxıl verilirdi. Hesablanmışdır ki, orta hesabla 150-180 nəfər şumerli üçün 44 ton taxıl lazım idi. Bu qədər taxılı istehsal etmək üçün hər ailədən iki nəfərin ibtidai daş alətlərlə 1 ay işləməsi il ərzində təmin olunmaq üçün yetirdi. Əgər Şumer əkinçisinə özünü bir il azuqə ilə təmin etmək üçün 30 gün işləmək yetirdisə, onda o qalan vaxtlarını məbədlər və saraylar tikməyə sərf edə bilərdi.

Neolit inqilabı sadə cəmiyyətlərin inkişafının son mərhələsi, mürəkkəb cəmiyyətlərin isə başlanğıcı oldu. Aqrar cəmiyyətin yaranması neolit inqilabının sosial nəticəsi sayılır. Qəbilələrin həm əkinçilik, həm də heyvandarlıq üzrə ixtisaslaşması məhsul artımına səbəb olmuş, məhsul mübadiləsi üçün imkan yaranmışdı. Başçılıq epoxası üçün səciyyəvi olan *artıq məhsul* neolit epoxasında *izafi məhsulla* əvəz olundu. İzafi məhsulu satmaq da, muzdlu əməyi istismar etmək üçün də istifadə etmək olardı.

Nəticə çıxarmaq olar ki, *mürəkkəb cəmiyyət izafi məhsul epoxası* cəmiyyətidir və bəşəriyyətin bütün tarixində ilk dəfə meydana gəlmişdi.

Alimlər özünün müsbət və mənfi tərəfləri ilə birlikdə əkinçiliyin bəşər cəmiyyəti tarixində qeyri-adi rol oynadığını qeyd edirlər. Hətta, bu gün – planetlərarası uçuşlar və nanotexnologiyalar dövründə kənd təsərrüfatı qlobal amil olaraq qalır. Bunu faktlar təsdiq edir:

* Yalnız əkinçilik sayəsində bəşər sivilizasiyası, yazı, siniflər, şəhərlər və i.a. yaranmışdır.

* Az bir qismi istisna olmaqla planetin bütün əhalisi əkinçilikdən əldə edilən məhsullarla yaşayır.

* Əkin üçün yararlı olan bütün torpaq sahəsi əkin altındadır.

* 10 min il öncə yaranaraq, əkinçilik özündən öncəki bütün başqa təsərrüfat forma və tiplərindən keçmişdir, ancaq öz aktuallığını itirməmişdir.

Bununla belə, əkinçiliyin mənfi tərəfləri də olmuşdur. Heyvanların əhliləşdirilməsi heyvanlar aləminin genofondunu dəyişdirmiş, vəhşilər aləminin tanımadığı xəstəliklər yaranmışdır. Aqromədəniyyətə keçilməsi ictimai əməyin məhsuldarlığını artırsa da insan həyatının keyfiyyətini azaltmışdı. Əməyin məhsuldarlığı

cəmiyyəti inkişafın yeni pilləsinə qaldırdı, iqtisadi və sosial həyat sferalarında inqilaba səbəb oldu. Əkinçinin istehsal etdiyini başqaları mənimsəməyə başladı və onu daha çox işləməyə məcbur etdi.

Bu halda sual doğur: yığıcılıq və ovçuluq təsərrüfatında heç də pis yaşamayan insanları daha çətin və ağır həyata – əkinçiliyə keçməyə, daha mükəmməl əmək alətləri ixtira etməyə, heyvanları əhliləşdirməyə, yabanı bitkiləri mədəniləşdirməyə, gəzərti həyatdan imtina edib daimi qəsəbələr salmağa nə məcbur etmişdir? Tarixçilər, antropoloqlar, arxeoloqlar bu sualla bağlı bir çox hipotezlər irəli sürüblər. Yerdə əhalinin çoxalması, iqlimin sərt dəyişilməsi, idraki həvəs, çöllərin səhralara çevrilməsi üzündən təbii ehtiyatların azalması, torpaq üzərində özəl mülkiyyətə keçilməsi, təbii seçmə, genetik kodun dəyişilməsi, ətraf mühitə yeni uyğunlaşma sistemi hipotezləri irəli sürülmüşdür. Amma bu hipotezlərin heç biri faktlarla təsdiq olunmayıb. Bəzi alimlər, məsələn, A.Y.Sellarius əsas səbəbi ekologiyada görür.

Həqiqətən də neolit inqilabı sosial-iqtisadi planda cəmiyyətin inkişafını sürətləndirərək onun irəliləyişinə güclü təsir göstərmişdir. Heyvandarlığın və əkinçiliyin yaranması ətraf mühitə antropogen təsiri önəmli dərəcədə gücləndirmişdir. Belə rəy də vardır ki, bütün dünyanın böyük bir ərazisində, özəlliklə də Aralıq dənizi və Yaxın Şərq rayonlarında baş vermiş dağıntılara görə yalnız çobanlar günahkardır. Əkinçiliyə gəlincə, geniş ərazilərdə baş verən erroziya, yanğınlar vasitəsilə meşələrin məhv edilməsi (əkin sahələrini genişləndirmək məqsədilə) bilavasitə onunla bağlı olmuşdur; bu fəaliyyət ən ciddi bir mənfi ekoloji nəticəyə – əvvəllər məhsuldar olmuş 2 mlrd. ha torpaq sahəsinin viran edilməsinə gətirib çıxarmışdır.

Hazırda yer kürəsinin 6-7 mlrd. əhalisi özünü təmin etmək üçün 3 mlrd. malqara saxlayır. Yerin bütün quru hissəsinin 23% otlaqdır, 12%-dən artığı kənd təsərrüfatı bitkilərinin daimi əkin yeridir. Ancaq ən qəribəsi budur ki, torpaq nə qədər çox şumlanırsa səhralaşma bir o qədər güclü olur. İnsanların təsərrüfat fəaliyyəti səhraların sahəsini böyüdür, meşələrin sahəsini kiçildir. XX əsrin 50-ci illərində meşələr qurunun 1/4 örtürdü, indi isə 1/5 örtür.

Beləliklə, qlobal qanunauyğunluq hökm sürür: hər sonrakı tarixi dövrdə insan fəaliyyəti nəticəsində təbiət əvvəlki dövrdəkindən çox məhv edilir.



# ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abbasov Ə.F. İdarəetmənin sinergetik fəlsəfəsi. B., "MBM", 2006
2. Abdullayev Ə. Dil, siyasət, sosial tərəqqi. B., 1985
3. Axundov M.Ə. Alman faşizminin irqçilik teoriyası və onun iflası. Bakı, 1943
4. Axundov M.Ə. İnsanın əmələ gəlməsi. Bakı. Azərnəşr, 1945
5. Axundov M.Ə. İnsanın genetikasına səyahət. Azərnəşr, 1975
6. Aristotel. Politika (çevirəni Arif Tağıyev). Bakı, 1997
7. Afşarova İ., Pirquliyeva Q. Qafqaz arxeologiyası: dərslik, BDU. Bakı Universiteti. 2010
8. Aqşin Quliyev. İntibah dövrü və siyasi-hüquqi fikrin inkişafı. Bakı 2008
9. Azərbaycan etnoqrafiyası (Red. Bünyadov T.). Bakı. Şərq-Qərb. 2008

9a. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı. Gənclik. 1998; Azərbaycanşünaslığa giriş. Bakı – "Ozan" 2010

10. Əhməd Qəşəmoğlu. Sosial idarəetmənin fəlsəfi sosioloji problemləri (Ahəngyol elminə giriş). Bakı. 2008
11. Əliyeva L.A. Qıpçaqlar və Azərbaycan (Etnogenez kontekstində). Bakı. BDU. 2006
12. Engels F. Təbiətin dialektikası. Bakı. 1966
13. Hegel. Ruh fəlsəfəsi (çevirəni Arif Tağıyev). Bakı 2003
14. Hüseynov M. Azərbaycan arxeologiyası. Bakı. 1975

14a. İbn Haldun. Mukkadime I. İstanbul. 1981

15. İmanov H., Əhədov A., Əhmədli N. Etnik dinlər və dünya dinləri. Bakı, "Elm", 2003
16. İnsan hüquqları (rus dilindən tərcümə edən – Ə.İ. Əliyev). Bakı, Şirvanşahlar, 2005
17. Qurbanov F. Autopoyezis və sinergetika: sosial təşəkkül metaforaları. Bakı, Adiloğlu. 2007
18. Qurbanov F. Tarixin "postqərb" mərhələsinə keçid. I c. Risklər, proqnozlar və ssenarilər. Bakı, 2010
19. Quliyeva N. Etnoqrafiya və etnologiya: dərs vəsaiti (ADPU-

Bakı). 2009
20. Qolenkova Z.T., Akuliç M., Kuznetsov V.N. Ümumi sosiologiya (çevirəni prof. İzzət Rüstəmov). Bakı. Diplomat. 2007
21. Marks K., Engels F. Seçilmiş əsərləri. I cild. Bakı. 1953
22. Marks K., Engels F. Seçilmiş əsərləri. II cild. Bakı. 1953
23. Məmmədov Ə.B., Mustafayev A. Təbii-elmi idrak və insan dünyası. Bakı, 2011
24. Məmmədov K.N. Antropologiyanın əsasları: dərslik. Bakı, Qanun, 2006
25. Rüstəmov İ. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri. Bakı, Diplomat, 2011
26. Tağıyev A. İnsan idrakına tarixi keçid – "Elm və həyat", 1984 № 4
27. Tağıyev A. Qeyri-şüuri psixi fəaliyyətdə sosial və bioloji amillərin dialektikası. AMEA-Fəlsəfə. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı. 2010, № 1 (14)
28. Tağıyev Arif. Müasir təbiətşünaslığın konsepsiyaları: dərslik. Azərnəşr. Bakı. 2011
29. Teymur Bünyadov. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960

**Rus dilində**

30. Алексеев В.П. Палеоантропология Земного шара и формирование человеческих расс. Палеолит. М. 1978
30а. Алексеев В.П. Становление человечества. М: Политиздат. 1984
31. Алексеев В.П. Человек: эволюция и таксономия (некоторые теоритические вопросы). М., 1985
32. Алексеев В.М. Физические принципы антропосоциогенеза (2001). http:// valexeev/ narod.ru/ dem.htm.
33. Александров Е.В. Обоснования и принципы визуально-антропологического мониторинга www/koi8.socio/msu/ru
33а. Алиев О. «Неизвестная планета». – http: // www unknownplanet.ru
34. Антонов А.С. Вся Звездная Радуга –
http://www.espada.nmru/index.htm.35.
Антропологические исследования. Кн.1-2. Материалы и исследование по антропологии 80-ых годов. Вып. X.М., 1992
36. Анский С. Народ и книга (опыт характеристики народного читателя) М., 1913
37. Аристотель. Никомахов этика (Пер. Н.В.Брагинской). Соч. Т. 4 «Мысль». М., 1983
38. Аристотель. О душе. Соч. в 4-х т-х, Т.1. «Мысль». М., 1976
39. Афанасьев В.Г. Общество: системность, познание и управление. М., 1981
40. Бейтсон Г. Экология разума. Избр. Статии по антропологии, психотрии и эпистемиологии. М.; Смысл. 2000
41. Белик А.А. Культурология: антрополические теории культур. М., 1998
42. Беляев Д.К. Современная наука и проблемы исследования человека. Вопросы философии. 1981. № 3
43. Бердяев Н.А. Проблема человека. (К построению христианской антропологии) // Путь. 1936. № 50
44. Бердяев Н.А. Откровение о человеке в творчестве Достоевского. http: www/ pereplet.ru
45. Биологическое и социальное развитии человека. М., 1977
46. Бим-Бал Б.М. Педогогическая антропология. Учеб. пособие. М., 1998.
47. Богин Г.И. Модель языковой личности в ее отношении к разновидносям текстов // Вопр. языкознания. 1996, № 6. с. 110-122
48. Боринская С.А. Еще раз о происхождении человека. http: // evolution powemet. ru
49. Бочков Н.П., Захаров А.Ф., Иванов В.И. Медецинская генетика. М., 1984
50. Богомольная Л. Новый анализ ДНК: как возник современный человек?
http: // www/nature.ru/db/msg/html&mid=118509085
50а. Бондарев А. Племя красных фанарей –
http: // www/rqz.ru/arhiv/ 28.03.2001/ planeta /txt/.html.
51. Бочаров В.В. Антрополоия возраста: Научное исследование. СПб. 2001
52. Бромлей Ю.В. Этнос и этнография. М., 1973
53. Бромлей Ю.В., Токаров С.А. Этнография // Свод, этнографических понятий и терминов. Этнография и смежные дисциплины. Этнографические субдисциплины.

Школы и направления. Методы. М., 1988
54. Бромлей Ю.В. Очерки теории этноса. М., 1983
55. Бутнов Н.А. Американская экономическая антропология (формализм субстантивизм) // Актуальные проблемы этнографии и современная зарубежная наука Л.: Наука, 1979
56. Вавилов Н.И. Проблема происхождения культырных растений. М-Л., 1926.
57. Валентинов В. Неандертальцы постов не знали. – http://www.rq.ru/teoriaarticles/hist/g.htm
58. Валлон А. От действия к мысли. М., 1956
59. Вильсон Э. Загадки муравьиных «государств» // За рубежом. 1986. № 37
59а. Ващекин Н.П., Мунтян М.А., Урсул А.Д. Постиндустриальное общество и устойривое развитие. М., 2000
60. Вишняцкий Л. От пользы к выгоде // Знание-сила. 1990№ 6
61. Войтонис Н.Ю. Предисловия интеллекта. М-Л., 1949
61а. Второй великий нежний переворот. – http: // ideabank.narod.ru/11/htms.
62. Гринберг Дж. Антропологическая лингвистика. Введение в антропологию: Пер. с англ. М., 2004
63. Герасимов М.М. Основы восстановления лица по черепи. М., 1949.
64. Гегль. Энциклопедия философских наук. Том 2. Мысль. М., 1975
65. Герд А.С. Введение в этнолингвистику: учеб. пособие. СПб. 1995
66. Гордон А.В. Крестьянство востока: исторический субьект. культурная традиция, социальная общность. М., 1989
67. Геринг А.Г., Огородникова И.А. Скажите, пожалуйста: к вопросу об особенностях метода иртервьюирования// Вест. Омск. ун-та. 1999-Вып. 4
68. Гуревич П.С. Философская антропология. Учеб. пособие. СПб.1995
69. Дебец Г.Ф. О принципах классификации расс. – Сов. этнография. 1956. № 4
70. Дилатс Р. Мудрость и Закон необходимого разнообразия. http: // subscribe.ru./archive/help.nlp/200109/13103250/html.
71. Добреньков В.И., Кровченко А.И. Социальная антропология. М. Инфра-М., 2005
71а. Дрегер Л.Линдж- http://x.archaeogy.nsc.ru/encyc_p/term.html?act=list8cterm=677
72. Иванов М.А. Беседа как метод исследования // Социологические исследования. 1989. № 4
73. Дубинин Н.П. Социальное и Биологическое в эволюции человека. Ленинская теория отражения и современня наука. София 1973
74. Дубровский Д.И., Черносвитов Е.В. К анализу структуры субьективной реальности (ценностно-смысловой аспект) // Вопросы философии. 1979. № 3
74а. Дюркгейм. О разделении общественного труда. Одесса. 1900
75. Ефремов И.Л. Лезвие бритвы. М., 1978
76. Жан Пиаже и Барбель Инердель. Генезис элементарных логических структур (пер. с французского Э.М.Пчелинской). М., 1963
76а. Захаров А.А. Муровеи, семья, колония. М., 1978
77. Иванов В.В. Культурная антропология и история культуры. // Одиссей. М., 1989
78. Икэда Д. Новые волны мира к XXI веку: Пер. с Яп. Токио: Сока Гаккй Интер., 1987
78а. Иноземцев В.Л. Концепция постэкономического общества// Соц. журнал. 1997, № 4
79. Историческая антропология: место в системе социальных наук источники и методы интерпретации: Тез. докл. и сообщ. науч. конф. М., 1998
80. Кант Иммануил. Антропология. Соч. в 6-ти томах. (Под общ. ред. В.Ф.Асмуса и др.) М., «Мысль». 1966
81. Кликс Ф. Пробуждающееся мышление. У истоков человеческого интеллекта. Из-во прогресс. М., 1983
82. Клакхон К. Зеркало для человека. Введение в антропологию: пер. с англ. СПб.: Евразия. 1998
83. Канетти Э. Масса и власть. М., 1973
84. Кауфман А.А. Формы хозяйства в их историческом развитии. М., 1910
85. Кейп Р. Мозг человека и безпомощность престарелых //

Третий возраст. Импакт: наука и общество. 1990 № 1
86. Козлова М.С. Эволюционная судьба homo sapiens // Человек. 2000. № 1
87. Кууси Р. Закономерности эволюции культуры. // Этот человеческий мир. М., 1989
88. Клягин Н.В. Присхождение цивилизации (социально-философский аспект). М., 1996
89. Князева Е.Н., Курдюмов С.П. Антропный принцип в синергетике// Вопросы философии. 1997. № 3
90. Констбэл Дэн. Возникновение человека. Недостающее звено. М., 1979
92. V Конгресс этнографов и антропологов России. Омск, 9-12 июня, 2003 г.
92а. Контев А.В. Римское право в архаическую эпоху – http: // liber.rsuh.ru/ Fulltext/Rorme/public/koptev/kopt17.htm.
93. Кравченко А.И. Социальная антропология. М., 2003
94. Крюков М.В. Этнология // Свод этнографических понятий и терминов. Этнографические субдисциплины. Школы и направления. Методы. М., 1988
95. Кромм М.М. Историческая антропология. СПб.2000
96. Культурная антропология. М., 1996
96а. Куимов. Загадочные племена Земли. – htt: // kokshe-tau.online.kz/ot/zaqat.htm
97. Ламберт Д. Доисторический человек: Кембриджский путеводитель. Л.1991.
98. Ласло Э. Рождение слова-науки-эпохи//Полис, 1993, № 2
99. Ларичев В.Е. Поиски предков Адама. М., 1978
100. Леви-Стросс. Структурная антропология (Пер. с фран. В.В.Иванова) М.: ЭКСМО Пресс. 2001
101. Леви-Брюль Л.Первобытное мышление. М., 1930
102. Леви Дж. К вопросу и моикроистории //Современные методы переподования новейшей истории. М., 1996
103. Левин М.Г., Чевоксаров Н.Н. Хозяйственно-культурные типы и историко-этнографические области // Советская этнография. 1965 № 4
104. Лурия А.Р. Язык и сознание МГУ. 1979
105. Лоренц К. Анонимная стая. – http:// bookap.bu.qu/genpsu/aq-ression/q19.htm
106. Лурье С.В. Что изучает этнология? http://svlourie.narod.ru
107. Лынша В.А. Гордон Чайлд и американский неоэволюционизм // Энтографическое обозрение. 2001. №5
108. Маккена Т.Пища Богов: поиск первоначального древа знания. М., 1995
109. Марков Б.В. Философская антропология. СПб., 1997
110. Малиновский Б. Научная теория культуры. М., 1999
111. Маркс К. К критике политической экономии // Маркс К., Энгельс Ф. Соч. Том 13
112. Маркс К., Энгельс Ф. Соч. 2-е изд.Т.2
113. Маркс К., Энгельс Ф. Соч. Том 3, 2-ое изд.-е. М., 1955
114. Маркс К., Энгельс Ф.Из ранних произведений. М., 1956
115. Макаров А.Д. Историко-философское введение. М., 1967
116. Маслова В.А. Лингвокультурология: учеб. пособие для студ. Высш. Учеб. заведений. М., 2001
117. Маслова О.М. Количественная и качественная социология: методология и методы (по материалам «Круглова стола») // Социология-4 М., 1995. №5-6
118. Максимов Н. Первые художники Земли. http://old.vesti/ru2000/05/05artists/
118а Матющин Г.Н. Археологический словарь. М., 1996
119. Мердок Дж. П. Социальная структура (Пер. с англ. А.В.Коротаева). М., 2003
120. Минюшев Ф.И. Социальная антропология. М., 1997.
121. Мир философии. Часть II. Человек. Общество. Культура. М., 1991
122. Михайлов И., Диакон. Наука о душе или ясное изображение её совершенств, способностей и бессмертия. М.: Типография Решётникова. 1976
123. Морган Л.Г. Древнее общество. СПб. 1935
123а.Морган Л.Г. Древное общество или исследований линий человеческого прогресса от дикости через варварство к цивилизации. Л. Изд-во Ин-та народов севера. 1934.
123b.Моран П. Статистические процессы эволюционной теории. М., Наука, 1973
123c.Мытник Т.В. Становление человека и человеческого

общества. Возникновение медицины – http://hippocrate narod.ru/libray/v/stan.htm.
124. Народы Азии и Африки. 1980.№4;1981№№6
125. Неандертальцы.-http://srubnik.boom.ru/2htm
126. Несмелов В.И. Наука о человеке. Том 2. Метафизика жизни и Христианское Откровение. Казань. 1906
127. Низиритян А.П. Агрессия, мораль и кризисы в развитии мировой культуры. Синергетика исторического прогресса. М., 1996
128. Новичкова Г.А. Историко-философские очерки западной педагогической антропологии. М., 2001
129. Ноэль Э. Массовые опросы: Введение в методику демоскопии. М., 1993
130. Новые методы – новые подходы в современной антропологии: Материалы первой конференции Российско-го отделения Европейской антропологической ассоциации. М., Старый сад. 1997
131. Новичкова Г.А. Историко-философские очерки западной педагогической антропологии. М., 2001
132. Ньюман Л. Полевое исследование // Социологические исследования 1999. №4
133. Ойзерман Т.И. Основные этапы развития домарксисткой философии. Разд. «Антропологический материализм Фейербаха». М., 1967
134. Основы прикладной социологии. Учеб. для вузов. М., 1995
135. Огурцов А.П. Педагогическая антропология: поиски и перспективы // Человек. 2002., № 1
136. Орлова Э.А. Введение в социальную и культурную антропологию. М., 1994
137. Осорина М.В. Секретный мир детей в пространстве мира взрослых. СПб., 1999
138. Островский А.В. История цивилизаций: Учебник. СПб., 2000
138а.Пауэлл Л. Человек приручил собаку еще в каменном веке.- http://www.inopressa.ru.22.11.2002
139. Придо Т. Возникновение человека. Кроманьонский человек. М., 1979



140. Природа. 1998. №9
141. Поршнев Б.В. Социальная психология и история М., 1996
142. Происхождение человека и древнее расселение человечества. М., 1951
142а.Рац М. О собирательстве: Заметки библиофила. М., 2002
143. Радклиф-Браун А.Р. Методы этнологии и социальной антропологии // Антология исследований культуры. Том 1. Интерпретации культуры. СПб.; 1997
144. Раппапорт Р.А. Эволюция человека и будущее антропологии // Этнографическое обозрение. 1995. №6
145. Рогинский Я.Я. Проблемы антропогенеза. М., 1977
146. Репина Л.П. Социальная история и историческая антропология: новейшие тенденции в современной британской и американской медиевистике // Одиссей. Человек в истории. М., 1990
147. Рокитянский В. Визуальная антропология: частное расследование. М., 2000
148. Рулан Н. Юридическая антропология. Учеб. для вузов: Пер. сфр. М., 2000
149. Северцов А.Н. Эволюция и психика. 2-ое изд. Психологический журнал. 1982. № 3 и 4
150. Семенова В.В. Качественные методы: введение в гуманистическую социологию. М., 1998.
151. Семенов Ю.И. На заре человеческой истории. М., 1989
151а.Семёнов Ю.И. Как возникло человечество. М., 2002
152. Синергетическая парадигма. Нелинейное мышление в науке и искутве. М.: Прогресс-Традиция.2002
153. Системные исследования // Методологические проблемы. Изд-во. «Наука». М.; 1982
153а. http: / www.vokruqsveta.ru
154. Современная антропология и генетика и проблема расс у человека. М., 1995
155. Современная психологическая антропология. М., 2001
156. Страусс А., Корбин Дж. Основы качественного исследования: обоснованная теория, процедуры и техники / Пер. с англ. / М., 2001
157. Тейлер Эд. Б. Антропология. Введение к изучению человека

и цивилизации. М., -Пе., 1924
158. Тайлор Э.Б. Первобытная культура. М., 1989
159. Тайны муровинного народа. http: // elk.far.ru./pub/ants2.htm.
160. Тайны прошлого. – http://srubnik.boom.ru/1.htm
161. Тарасов К.Е., Черненко Е.К. Социальная детерминированность биологии человека. М., «Мысль». 1979
162. Толстова Ю.Н., Масленников Е.В. Качественная и количественная социология: взгляд сквозь призму понимания эмпирического исследования как измерения //Соц. исследования. 2000, №10
163. Толстова Ю.Н. О системности социологических объектов (размышления над некоторыми публикациями) // Социологические исследования. 2001. №7
164. Толстой Н.И. Этнолингивистика в кругу гуманитарных дисциплин //Русская словестность. От теории словестности к структуре текста: Антология. М., 1997
165. Уайт Э., Браун Д.М. Возникновение человека. Первые люди. М., 1978
166. Уемов А.И. Свойства, системы и сложность // Вопр. Философии. 2003. №6
167. Уилсон С.М. Детерминизм и неопределённости. Под ред. Пригожина И.Р. Москва-Ижевск: Институт компютерных исследований, 2003
167а.Умбеталиева Т.Б. Явление трайбализма в Казахстане – http://www.kisi.kz/Parts/intPol/KS-3%20Umbetalieva.html.
168. Урысон Е.В. Языковая картина мира-обиходные представления /модель восприятия//Вопр. языкознания. 1998, №2
169. Ушинский К.Д. Педагогическая антропология. М., 2002
170. Уоллес А. Дарвинизм. М., 1898
171. Февер Л. Бои за историю. М.: Наука, 1991
171а.Философские концепции исторического процесса-http://mahiec.narod.ru/download.files/filosofia/filosofia12html
172. Фрейд З. Психология бессознательного. М., 1989
173. Хакен Г. Принципы работы головного мозга: Синергетический подход к активности мозга, поведению и когнитивной деятельности. М.: ПЭРСЭ. 2001



174. Хакен Г., Хакен-Крелль. Тайны восприятия. М.: Институт Компютерных Исследований. 2002
175. Хакен Г. Синергетика. Иерархии неустойчивостей в самоорганизующихся системах и устройствах. Пер. с анг., М.: Мир. 1985
176. Хоружий С.С. К антропологической модели третьего тысячилетия // Вест. Рос. гуманит. науч.фонда. 200.№3
177. Хойер Г. Антропологическая лингвистика: Пер. с англ. // Новое в лингвистике. М.: Прогресс, 1965. Вып.4
178. Хрисанова Е.Н., Перевозчиков И.В. Антропология. М., 1991
179. Христофарова О.Б. Полевые методы в визуальной антропологии – http://ivgi.rsuh.ru.
179а.Хэнкок Г. Следы богов. М., 1997
180. Хомская Е.Д. Нейропсихология: учебник: Из.-во. МГУ. 1987
181. Шанин Т. Методология двойной рефлексивности в исследовании совр. Российской деревни – http://nail.yabloko.ru
182. Шрадер Х. Экономическая антропология. СПб.; 1999
183 Шавен Р. Жизнь и нравы насекомых. М., 1960
184. Шнирельман В.Что такое «неолотическая революция» //Знание - сила. 1988. №10
184а.Этингер Я. Трайбализм подрывает Африку. Роль племенного фактора на черном континенте. – http://www.nq.ru/world/2001-04-04/6_afrika.html
185. Этнические стереотипы поведения (Под ред. А.К. Байбурина) Л., 1985
186. Этнолигвистика. – http://x.archaeology.nsc.ru
187. Ядов В.А. Социологическое исследование: методология, программа, методы. Самара, 1995
188. Ядов В.А. Стратегия социологического исследования. Описание, объяснение, понимание социальной реальности. М., 1998189. Яковлев М.М. Преступность и социальная психология. М., 1971.

**İngilis dilində**

190. Conrad Phillip Kottak. Anthropology: The Exploration of Human Diversity. Copyriqht. 2002
191. Conrad Phillip Kottak.Cultural Anthropologi. Copyriqht. 2000

## İÇİNDƏKİLƏR

Ön söz ........................................................3

# I BÖLÜM
# ANTROPOLOGİYA ELMİNİN TARİXİ, PREDMETİ VƏ METODOLOGİYASI

**I FƏSİL. ANTROPOLOGİYA İNSAN HAQQINDA ELMDİR ........................7**

1.1. Antropoloji düşüncənin tarixinə səyahət ........................7
1.2. Antropologiya elminin predmeti ........................14
1.3. Antropologiyanın tədqiqat sahələri ........................20
1.4. Antropologiyanın sosiologiya, etnologiya və etnoqrafiya ilə qarşılıqlı əlaqəsi ........................54

**II FƏSİL. ANTROPOLOJİ TƏDQİQATIN METODOLOJİ ƏSASLARI ........................63**

2.1. Antropologiyada metodologiya problemi ........................63
2.2. Antropologiyada metodoloji plüralizm ........................70
2.3. Keyfiyyət metodologiyasına əsaslanan nəzəri biliyin mahiyyəti və strukturu ........................75

**III FƏSİL. ANTROPOLOJİ TƏDQİQATIN PRİNSİPLƏRİ. NÖVLƏRİ VƏ TƏHLİL METODLARI ........................81**

3.1. Antropologiyanın elmi prinsipləri ........................81
3.2. Antropoloji təhlil metodları ........................85
3.3. Antropoloji tədqiqatın empirik proqramı və növləri ........................91
3.4. Antropologiyada elmi eksperiment və onun növləri ........................103
3.5. Antropoloji elmi müşahidə və onun özünəməxsusluğu ........................107
3.6. Antropoloji müşahidənin növləri ........................110
3.7. Sosioloji sorğu metodu və onun növləri ........................116
3.8. Sənədlərin sosioantropoloji təhlilinin ümumi müddəaları ........................124



# II BÖLÜM
# ANTROPOSOSİOGENEZƏ ANTROPOLOJİ BAXIŞ: İNSANIN VƏ CƏMİYYƏTİN YARANMASI

**I FƏSİL. ANTROPOGENEZ: İNSANIN TƏBİİ ƏCDADI VƏ ONUN BİOLOJİ TƏKAMÜLÜ ........................130**

1.1. İnsanın heyvanlar aləmi sistemində yeri ........................130
1.2. Paleoantropologiyanın və paleogenetikanın uğurları ........................138
1.3. Homo – insan cinsinin təkamülünün təbii-tarixi pillələri ........................144

**II FƏSİL. İNSANIN YARANMASI HAQQINDA NƏZƏRİYYƏLƏR ........................172**

2.1. Filo və ontogenez nəzəriyyəsi ........................172
2.2. Kreasionizm nəzəriyyəsi ........................175
2.3. Kosmizm nəzəriyyəsi ........................177
2.4. Antropogenezin mono- və polisentrik nəzəriyyələri ........................179
2.5. F.Engelsin əmək nəzəriyyəsi ........................181
2.6. Antropogenezin mutasiya nəzəriyyəsi ........................184
2.7. Antropogenezin Darvin nəzəriyyəsi ........................186
2.8. Təkamülün sintetik nəzəriyyəsi ........................190
2.9. İki sıçrayış nəzəriyyəsi ........................192

**III FƏSİL. İNSANIN FƏRQLƏNDİRİCİ ÖZƏLLİKLƏRİ, MAHİYYƏTİ VƏ HƏYATI ........................192**

3.1. İnsanın başlıca fərqləndirici özəllikləri ........................192
3.2. İnsanın mahiyyətinə yanaşmalar ........................196
3.3. İnsan davranışının təbii kökləri ........................199
3.4. İnsanın sağlamlığı, uzunömürlülüyü və yaradıcılığı ........................201

**IV FƏSİL. SOSİOGENEZ: CƏMİYYƏTİN YARANMASI ...218**

4.1. İnsanın və cəmiyyətin genezisi – biososial problem ........................218
4.2. Sosiogenezin mahiyyəti ........................227
4.3. Sosiogenezin başlanması və əsas mərhələləri ........................236
4.4. Sosial meyarlar və normalar ........................243
4.5. İbtidai cəmiyyətdə ictimai əmək bölgüsü və sosial münasibətlər ........................253

## III BÖLÜM
## ƏNƏNƏVİ CƏMİYYƏT TİPLƏRİ VƏ TARİXİNİN DÖVRLƏŞDİRİLMƏSİ


**I FƏSİL. CƏMİYYƏTİN TİPOLOGİYASI VƏ SOSİAL TƏKAMÜLÜ ......259**
1.1. Cəmiyyətin zaman modelləri və çağdaş yanaşmalar ......259
1.2. Cəmiyyət tarixinin yazı və quruluş səviyyəsi meyarları üzrə dövrləşdirilməsi ......263
1.3. Cəmiyyət tarixinin istehsal üsulu və formasiya meyarlarına əsaslanan tipologiyaları ......265
1.4. Tarixin sosial həmrəylik və industrial səviyyə meyarları üzrə dövrləşdirilməsi ......271
1.5. Cəmiyyət tarixinə sivilizasiya müstəvisindən yanaşma ......280

**II FƏSİL. İLK İNSANLAR YAXUD OVÇULAR VƏ YIĞICILAR CƏMİYYƏTİ ......285**
2.1. Bəşəriyyətin sübh çağı ......285
2.2. İnsanın təbiətə təsiri ......291
2.3. İbtidai qəbilələr və onların təsərrüfat forması ......298

**III FƏSİL. BƏŞƏR TARİXİNİN QƏBİLƏ-TAYFA QURULUŞU MƏRHƏLƏSİ ......304**
3.1. Tarixin yadigarları ......304
3.2. Aborigenlər və onların tarixi taleyi ......314
3.3. Traybolizm və ailə-tayfa sistemi ......319

**IV FƏSİL. İBTİDAİ CƏMİYYƏTDƏ SOSİOSİYASİ TƏKAMÜLÜN BAŞLANMASI ......326**
4.1. Başçılıq yaxud protodövlət və onun sosiosiyasi təkamüldə yeri ......326
4.2. Başçılığın yaranmasının zamanı, məkanı, siyasi strukturu və təsərrüfat sistemi ......333





**V FƏSİL. BƏŞƏRİYYƏTİN SOSİAL TƏKAMÜL TALEYİ – YENİ DAŞ DÖVRÜNÜN UĞURLARI ......339**
5.1. Sosial tarixi təkamüldə sıçrayış ......339
5.2. Heyvanların əhliləşdirilməsi və əkinçilik mədəniyyətinin yaranması ......343
5.3. Bostançılıq və fermer təsərrüfatı ......348
5.4. Maldarlıq və köçərilik ......351

**Nəticə ......356**

**İstifadə olunmuş ədəbiyyat ......359**